ISSN 1682-9123

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ODLAR YURDU UNİVERSİTETİ**

# ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ

# THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

# НАУЧНЫЕ И ПЕДАГОГИЧЕСКИЕ ИЗВЕСТИЯ УНИВЕРСИТЕТА ОДЛАР ЮРДУ

№ 51

Bakı ✫ 2019 ✫ Baku

**Baş redaktor: f.r.e.d., prof.Ə.A.VƏLİYEV**

**Məsul katib**: f.-r.e.n., dosent F.K.Xudaverdiyev

**Humanitar elmlər üzrə baş redaktor müavini**: h.e.d.S.Ə.Vəliyev
**Dəqiq elmlər üzrə baş redaktor müavini**: prof.F.S.Məmmədov (Türkiyə)

**Redaksiya heyətinin üzvləri:** akad.A.M.Paşayev, akad.T.Ə.Bünyadov, AMEA müxbir üzvü R.S.Qurbanov, i.e.d.Ə.Q.Əlirzayev, f.r.e.d.Ə.X.Şamilov (Türkiyə), f.e.d.R.K.Rəsulov, tibb e.d.Z.Ö.Qarayev, tibb e.d.Ə.V.Musayev, tibb e.d.M.H.Əliyev, i.e.d.M.M.Bağırov, akad.N.Q.Cəfərov, psixologiya e.d.Ə.T.Baxşəliyev, tex.e.d.M.İ.Əliyev, tex.e.d.N.H.Cavadov, tex.e.d.T.S.Abdullayev, AMEA müxbir üzvü prof. Q.C.İmanov, prof.A.Avey (Türkiyə), prof.M.Cəmşidi (ABŞ), prof.K.V.Bonfiq (Almaniya), prof.X.D.Barkero (İspaniya), prof.H.B.Meladze (Gürcüstan), prof.A.Çxeidze (Gürcüstan), prof.K.Kordzaiya (Gürcüstan), prof. Y.M.Morozov (Rusiya), i.e.f.d.M.Ə.Vəliyev, h.e.f.d.H.D.Qənbərov, f-r.e.n.N.Q.Zeynalov, i.e.f.d.Ə.H.Ələkbərov, f-r.e.n.M.B.Vəliyev, sos.e.f.d. F.Ş.Həsənov, p.e.n.S.V.Vəliyeva, b.e.f.d. T.H.Kərimova, f.e.f.d. S.X.Abdurəhmanova, prof. E.M.Rzazadə

**Журнал рецензируется и реферируется в ВИНИТИ (№10211-5335/54-34)**

**Editor-in-chief: Prof. A.A.VALIYEV**

**Executive Secretary:** ass. prof.F.K.Hudaverdiyev

**Deputy Editors-in-chief:** prof.S.A.Valiyev (Humanities), prof.F.S.Mamedov (Exact Sciences)

**Editorial Board:** acad.A.M.Pashayev, acad.T.A.Bunyadov, acad.M.I.Aliyev, correspondent member of the National Academy of Science of Azerbaijan R.S.Gurbanov, prof.A.G.Alirzayev, prof.A.H.Shamilov (Turkey), prof.R.K.Rasulov, prof.Z.O.Garayev, prof.A.V.Musayev, prof.M.H.Aliyev, prof.M.M.Baghirov, acad.N.G.Jafarov, prof.A.T.Bakshaliyev, prof.M.I.Aliyev, prof.N.H.Javadov, prof.T.S.Abdullayev, correspondent member of the National Academy of Science of Azerbaijan prof.G.J.Imanov, prof.A.Avey (Turkey), prof.M.Jamshidi (USA), prof.K.V.Bonfig (Germany), prof.J.D.Barquero (Spain), prof.D.G.Gordeziani (Georgia), prof.H.B.Meladze (Georgia), prof.A.Chheidze (Georgia), prof.K.Kordzaia (Georgia), prof.Y.M.Morozov (Russia), M.A.Valiyev, H.D.Ganbarov, N.G.Zeynalov, A.H.Alekperov, M.B.Valiyev, F.Sh.Hasanov, S.V.Valiyeva, T.H.Karimova, S.X.Abdurahmanova, prof.E.M.Rzazadeh

**All the articles in this journal are peer-reviewed and include summaries.**

The address of editorial office:
General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan
Tel.: (office) (+994 12) 465 82 62, (+994 12) 465 82 00
(mob.) (+994 51) 572 34 36, (+994 50) 378 86 30
Fax: (+994 12) 465 67 05
http://www.journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

OYU-2019

Az.073 «Odlar Yurdu» nəşriyyatı, 2019-cu il

Redaksiyanın ünvanı: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13
Odlar Yurdu Universiteti, Ümumi şöbə

TƏSİSÇİ:

Odlar Yurdu Universiteti

Jurnal 1998-ci ilin dekabr ayından nəşr olunur

Dövriliyi ildə ən azı iki dəfədir

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: AB022011, 27.11.1998

Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən riyaziyyat, mexanika, iqtisad, texnika, tibb, əczaçılıq, biologiya, aqrar, hüquq, tarix, antropologiya, siyasi, psixologiya, pedaqogika və filologiya elmləri sahəsində tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilmişdir



*Redaksiyanın ünvanı:* Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə

Tel.: (051) 572 34 36
Faks: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



FOUNDED BY

Odlar Yurdu University

Published since December 1998

Issued at least twice a year

Registered by the Ministry of Justice of the Republic of Azerbaijan under reference number №022011 (AB series) on November 27, 1998

Included into the list of scientific periodicals recommended by the Higher Certifying Commission under the President of the Republic of Azerbaijan in the fields of Mathematics, Mechanics, Economics, Technical Science, Medicine, Pharmacology, Biology, Agrarian Science, Law, History, Anthropology, Political Science, Psychology, Pedagogy and Philology.



*Editorial Address:* General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan

Tel.: (051) 572 34 36
Fax: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



УЧРЕДИТЕЛЬ:

Университет Одлар Юрду

Издается с декабря 1998 года

Выходит не менее двух раз в год

Официально зарегистрирован Министерством Юстиции Азербайджанской Республики. Регистрационный номер: AB022011 от 27.11. 1998

Включен в перечень изданий, рекомендованных ВАК при Президенте Азербайджанской Республики для публикации основных результатов кандидатских и докторских диссертаций в области математики, механики, экономики, технических наук, медицины, фармакологии, биологии, аграрной науки, права, истории, антропологии, политологии, психологии, педагогики и филологии.



*Адрес редакции:* Баку AZ1072, ул. Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел

Тел.: (051) 572 34 36
Факс: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

# RİYAZİYYAT, İNFORMATİKA VƏ TEXNİKİ ELMLƏR BÖLMƏSİ

# SECTION OF MATHEMATICS, INFORMATICS AND TECHNICAL SCIENCES

**2019 - № 51**

UOT № 33

# İKT-DƏN İSTİFADƏNİN MÜSBƏT TƏRƏFLƏRİ VƏ MƏNFİ TƏSİRLƏRİ

**N.Ə.Umarova**
Odlar Yurdu Universtiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: niyar61@list.ru

***Açar sözlər:*** İKT, İnternet, sosial şəbəkələr, mobil telefon, İnternet xəstəlikləri, gigiyena qaydaları
***Keywords:*** ICT, Internet, social networks, mobile phone, Internet diseases, hygiene rules
***Ключевые слова:*** ИКТ, Интернет, социальные сети, мобильный телефон, болезни Интернета, правила гигиены

Müasir cəmiyyət informasiya cəmiyyətidir (İC), onun fundamentini informasiya-kommunikasiya texnologiyaları (İKT) təşkil edir. Bu cəmiyyətdə biliklər sərvətə çevrilir, ”əqli əmək” (“ağıl əməyi”) prosesləri sürətlə inkişaf edir, fiziki əməyi intellektual əmək əvəz edir. Bu proseslərdə İKT bilavasitə iştirak edir.

İKT insan beyninin məhsuludur, ona görə də bizimlə paralel inkişaf edir və bütün sahələrdə öz sürətli yüksəliş təsirini göstərir. Hazırda bütün sahələrdə**,** məsələn, idarəetmə sistemlərində, avtomatlaşdırmada, qarşılıqlı virtual əlaqələrin təşkilində, elektron mühafizə-nəzarət sistemlərində, kompyuter qrafikasında, virtual əmək bazarlarında, elmi araşdırmalarda, elektron biznesdə, hərbi sistemlərdə, tibbi diaqnostikada, distant təhsilın təşkilındə, təhsil, hərbi, tomoqrafik sistemlərdə, fərdi maraq sahələrində bu avadanlıqlar uğurla tətbiq olunur**.**

Geniş əhatəliliyi, şəbəkələrdən istifadə zamanı yer və vaxt məhdudiyyətinin olmaması sosial şəbəkələrdən, İnternetdən istifadəyə olduqca geniş maraq yaradır. İnternet – uğur əldə etmək üçün “pilləkəndir”, ondan virtual ensiklopediya kimi istifadə olunur. İnternet böyük həcmli virtual bilik bazasıdır, yəni cəmiyyətdə onun xidmətlərinin rolu əvəzedilməzdir. İnternet əlaqələri, virtual rabitə müxtəlif ölkələrin daha da yaxınlaşmasına səbəb olur, sərhədləri aşaraq qlobal iqtisadi məkan yaradır. Hazırda bu texnologiyaları hazırlanma sisteminə və tətbiq gücünə görə “ağıllı” qurğular adlandırırlar. Yeniləşən texnologiyalardan istifadə sahəsində əsas yeniliklər sırasında Bulud (*Cloud*) texnologiyalarından istifadə də mühüm yer tutur (17, səh.12-27).·

Cəmiyyətdə “informasiya iqtisadiyyatı” termininin yaranması da İKT tətbiqinin təzahürüdür. İqtisadiyyatın maddi əsaslarının formalaşmasında yüksək texnologiyalardan səmərəli və düzgün istifadə əsas rol oynayır. Bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da İKT sahəsində daima yenilənən layihələr, sistemli tədbirlər həyata keçirilir, virtual elektron aləmindən rahat istifadə üçün işgüzar mühit yaradılır və İKT sahəsinə, inkişaf istiqamətlərinə, tətbiqinə xüsusi diqqət ayrılır. Bu sahə müstəqil elm sahəsi kimi formalaşır və ölkəmiz üçün proritet hesab edilir. AR-da e-hökumətin yaranması vətəndaşlar üçün müxtəlf baza elektron xidmətlərin tətbiqinə əlverişli mühit yaradır və işgüzar mühit üçün lazımi maliyyə dəstəyi göstərir. Məsələn, İC-nin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, elektron sənəd dövriyyəsinin tə-

min olunması və s.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2013-cü il 16 yanvar tarixli 2664 nömrəli Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir.

İKT sahəsinin inkişafında investisyaların yatırılmasını həyata keçirmək üçün İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu (İTİDF) AR Prezidentinin 15.03.2012-ci il tarixli 2095 nömrəli Sərəncamı ilə yaradılmışdır.

Ölkəmiz e-kommersiya üzrə Millətlər Təşkilatının Beynəlxalq Konfensiyasına qoşulub, öz məhsullarını İnternet ticarət saytlarına inteqrasiya etdirmək və beynəlxalq portallarda yerləşdirmək yönümündə uğurlu addımlar atır. E-ticarətdə (www.azexpert.az) bir pəncərə prinsipi təklif olunur. Azexport.az portalı ölkəmizdə istehsal olunan məhsulların təbliğinə, daxili və xarici bazarlarda satışına imkan verir, eyni zamanda "made in Azerbaijan" brendini dünyaya tanıtdırır. Portal (data.gov.az*)* qeyri-neft sektoru üzrə bir çox mallar ixrac edilir. Məhsullar e-ticarət üzərindən bazara çıxarılır, makroödənişlər, akkredit ödənişlər elektron üsulla həyata keçirilir. Yerli məhsullarımızın beynəlxalq portallarda yerləşdirilməsi ixrac üçün 200 ölkə ilə e-ticarət üzərindən əlaqə yaratmışdır. Bu yönümdə görülən işlər öz effektini verir. Təkcə 2017 yanvar-fevral aylarında 20 milyonluq mallar onlayn (on-line) üzərindən (məsələn, Hollandiya quru süd, Yaponiya 16 min şüşə mineral su) sifarış verilmişdir. TIER III sertifikatlı Data Mərkəzi məlumatların təhlükəsizliyini təmin edir, istismar xərclərini 30-40 faiz azaltmağa imkan yaradır.

Ölkədə yüksək texnologiyalara investisiya qoyuluşu nəticələrini çox gözlətmədi və 2013-cü ilin fevralında “Azerspace1”, 2018-ci ilin sentyabrında “Azerspace 2” telekommunikasiya peykləri ilə Azərbaycan kosmik dövlətlərin sırasında özünə yer etdi. Fəxrlə qeyd edək ki, Azərbaycan Qafqaz regionun ilk kosmik sənaye ölkəsidir və 2012-ci il yanvarın 12-də COPUOS-un üzvlüyünə qəbul edilmişdir (3).

2016-cı ildə Azərbaycan dünyanın 193 ölkəsi arasında *EGDİ* ("Elektron hökumətin İnkişafı İndeksi") üzrə 56-cı yeri, EPİ ("Elektron İştirak İndeksi") üzrə isə 47-ci yeri tutub. Ötən il elektron imza vasitəsilə imzalama transaksiyası 4 milyondan artıq olub (13). Azərbaycanda icbari sığorta məhsulları "e-imza" ilə satılması nəzərdə tutulub.

Bu sahəyə yatırılan investisiyalar iqtisadiyyata bilavasitə müsbət təsir edir. İKT-nin təsir gücü, tətbiqi dövlət və ictimai sektorlarda özünü dolğun şəkildə biruzə verir. İKT-nin tətbiqi üzrə 10-cu Beynəlxalq konfrans – “AICT 2016” (“İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi – AICT 2016” IEEE 10-cu Beynəlxalq Konfrans) 12-14 oktyabr 2016-cı il tarixlərdə Bakı şəhərində keçirilməsi də bu sahəyə göstərilən xidmətləin bariz nümunəsidir (11).

ASAN xidmətin elektron resurslarının fəaliyyəti nəticəsində Oflayn (off-line) dövlət xidmətləri bu reyestrdə olacaq. (www.asan.gov.az*)* 2014-cü ilin fevralında Avropada keçirilən konfransda Azərbaycan “Asan imza” – “mobil imza”, “rəqəmsal imza” mövzusunda uğurla çıxış edərək, həmin sahəyə aid maraqlı məlumatlar vermişdir. Bu sahə üzrə estoniyalı mütəxəssis Yana Krimpe Asan xidməti Azərbaycan brendi adlandırmışdı (17, səh.121).

Yaxın vaxtlarda “Mobil hökumət - mobil imza” layihəsində mobil telefonlar vasitəsilə elektron imzanı mobil imza əvəz edəcək. Sistem elektron hökumətdən mobil hökumətə keçiddir.

Mobil kitabxana Bookmate (https://bookmate.com/azercell/) aktiv fəaliyyətdədir. Onun vasitəsilə Azərbaycan, ingilis, türk və s. dillərdə kitab oxumaq və yükləmək mümkündür.

Elektron hökumətin (www.e-gov.az) dövlət səviyyəsində qəbul edilməsi nəticəsində mərkəzləşmiş idarə etmə sistemi yaradılmışdır. Bu isə ilk növbədə vaxta qənaət və düzgün iş sistemi deməkdir. Bir çox sahələrdə mərkəzləşmiş elektron sistemlərdən istifadə olunur, məsələn, nəqliyyatda "İntellektual Idarəetmə Mərkəzi", GPS (Qlobal Mövqetəyinetmə Sistemi), "On-line" bilet satış, qarşılıqlı pul mübadiləsi və s. sistemlər, xəstəxanalarda Vətəndaşların Elektron Sağlamlıq Kartı, banklarda plastik kartların tətbiqi, banklar arası əlaqənin 3G texnologiya vasitəsi ilə qurulması və s. (16, səh.149).

*İKT-nin inkişafı indeksi (*dünya ölkələrində İKT-nin inkişaf dinamikasını xarakterizə edən əsas göstərici) AR-da yüksəlişlə addımlayır. Məsələn**,** ölkə genişzolaqlı İnternetin yayılmasında 2017-cı ildə qabaqcıl yerlərdən birini tutur:

1. Cənubi Koreya 91 %;
2. Yaponiya 91 %;
3. Sinqapur 84 %;
4. Tayvan 83 %;
5. Azərbaycan 79 %;
5. Honkonq 79 % (Milli.AzTrend).

Növbəti 2019-cu ildə genişzolaqlı İnternet istifadəçi sayı 85 %-ə çatmalıdır.

Azərbaycanın İKT sahəsində son 10 il üzrə orta illik artım tempi 15-20% təşkil edib (8).

Qeyri-neft sektorunun hesabına Azərbaycan milli iqtisadi potensialının iki dəfə genişləndirilməsi istiqamətində Prezidentin 29.12.2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxiş" Inkişaf Konsepsiyasında (1) İKT sektorunun 4 dəfə, qeyri-neft sektorunun hesabına Azərbaycanın milli iqtisadi potensialının iki dəfə genişləndirilməsini nəzərdə tutur.

AR Prezidentinin 02.04.2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2014-2020-ci illər üçün nəzərdə turtulan "Milli Strategiya" ölkəmizdə İC-nin inkişafına xidmət etmək məqsədi ilə qəbul edilmişdir .

16.03.2016-cı il tarixli 1897 nömrəli sərəncamla "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" haqqında AR Prezidenti fərman imzalayıb. Burada 2016-2020-ci illər üçün iqtisadi inkişaf istiqamətləri, tədbirlər planı, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün inkişaf planı və bu yönümdə uzunmüddətli baxışı əhatə edir (1).

Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsində transmilli fiber-optik İnternet tranzit xəttinin Azərbaycan ərazisindən keçməsi nəzərdə tutulur (Frankfurt - Honq Konq istiqamətində → Qərbi Avropa - Şərqi Asiya - Avrasiya ölkələri).

www.azerbaijan-news.az saytına istinadən Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında (2018) ölkəmiz elektriklə təminatda 100% bal alıb, 140 ölkə arasında biznesin dinamikliyinə görə 31-ci yerdədir.

AR-nın inkişaf istiqamətləri çoxsahəlidir. Hazırda ölkəmiz öz iqtisadi yüksəlişi ilə dünyada özünə maraq yaradır. Məsələn, turizm sahəsindəki sürətli artım tempi, beynəlxalq yarışların və müsabiqələrin keçirilməsi, dünya səviyyəli sərgilərin uğurlu təşkili, xaricə ixrac olunan "made in Azerbaijan" brendli mallar və s. "Baku Expo Center" Sərgi və Konfrans Mərkəzində (bakuexpocenter.az – "Bakı Ekspo Mərkəzi") beynəlxalq əhəmiyyətli sərgilərin, konfransların, işgüzar tədbirlərin keçirilməsi üçün dünya standartlarına müvafiq hər cür şərait var. Ona görə də bürada vaxtaşırı Beynəlxalq Telekommunikasiya, İnnovasi-

ya və Yüksək Texnologiyalar, Təhsil, Karyera, İnşaat və s. bir çox beynəlxalq sərgilər uğurla keçirilir.

Hazırda Azərbaycan şirkətləri dünya bazarlarına öz məhsullarını çıxarır. Qətərin paytaxtı Doha şəhərində 2018-ci ilin oktyabrında keçirilən "Birinci Beynəlxalq Məhsullar" sərgisində18 şirkət öz məhsulları ilə iştirak edib. Sevindirici haldır ki, gənc respublikamız üçün bu çür misalları çox göstərmək olar.

İnkişaf etmiş ölkə kimi AR-da da İnternetdən istifadə ilə aşağıdakılar mümkündür:

- Web axtarış (sorğulara müvafiq)
- Öyrənmək istəyənlər üçün resurslar (müəllim və tələbə)
- Onlayn (on line) layihələr (və təqdimetmə)
- Elektron müsabiqələr (istiqamətləri və iştirak etmə)
- Elektron ticarət (biznes) və s.

İC-də İKT-nin məqsədi müxtəlif yönümlüdür, ümumi şəkildə isə ondan istifadə bizə müəyyən imkanları və virtual aləmdən səmərəli istifadə şəraitini yaradır. Məsələn:

- ✓ Istənilən sahədə keyfiyyətin artırılmasının mümkünlüyü
- ✓ Informasiya mədəniyyətinin formalaşdırılması
- ✓ Təhsil alma imkanlarının bərabərləşdirməsi, asanlaşdırılması ( və distant təhsil)
- ✓ Vahid təhsil-informasiya sisteminin yaradılması
- ✓ İKT-nin tədris prosesinə inteqrasiyasının təmin edilməsi
- ✓ Elektron dərsliklərin əl çatan olması
- ✓ Təhsilin idarəsi üçün İKT avadanlığı ilə monitorinq sisteminin yaradılması və idarə olunmasının mümkünlüyü
- ✓ İKT sahəsi üzrə terminologiyanın hazırlanması və vahid standart kimi tətbiqi
- ✓ informasiya təhlükəsizliyin təmin olunması və etribarlılığın artması
- ✓ İnternetdən lisenziyalı proqramların yüklənməsinin mümkünlüyü və s.

Həyatın inkişaf tempinin tələb etdiyi İKT avadanlıqlarından istifadə yeni nəslin formalaşmasında mühüm rol oynayır. Keçən əsrdə lazım olan informasiyalar daha çox kitablardan alınırdı. 21-ci əsrdə isə əsasən KİV-ndən, İnternet, sosial şəbəkələrdən bu yönümdə istifadə olunur. Lakin İKT sisteminin tətbiqi kitablardan istifadəyə mane olmamalıdır. Oksford Universiteti alimlərinin araşdırmalarının nəticəsinə görə, oxu zamanı işə düşən mexanizmlər orqanizmə müəyyən təsir edir. Susseks Universiteti əməkdaşlarının araşdırmalarına görə, 6 dəqiqəlik mütaliə insan streslərinin səviyyəsini 2\3 dəfə azaldır (17, səh 35).

Bildiyimiz kimi, müasir cəmiyyətin nümayəndələri elektron-texnoloji sistemlərlə daim təmasdadır. Gündəlik tələbatlar arasında İKT sistemindən istifadə mühüm yer tutur**.** Daima yeniləşən texnologiyaların həyatımızın bir parçasına çevrilməsi qarşımızda müxtəlif istiqamətli yollar açır:

1. Qloballaşan dünyanın inkişaf tempinə uyğun cəmiyyətdə virtual əlaqələrin təmini ilə ayaqlaşmaq və informasiya xaosundan düzgün yol tapmaq üçün İKT-ni mənimsəmək (burada onun tətiqinə olan artan tələblər xüsusu rol oynayır).

2. Gələcək inkişaf prosesində İKT-nin rolunun önəmliliyi və müsbət tərəflərinin rolu;

3. İKT sistemlərindən, mobil telefondan, televizordan, sosial şəbəkələrdən istifadənin mənfi tərəfləri, sağlamlıq və psixoloji baxımdan yeni nəslin inkişafındakı gücü və mənfi təsiri.

Əks istiqamətli olan bu yönümlər istifadəçiləri, valideynləri bəzən çıxılmaz vəziyyətə salır və burada avtomatik olaraq "nə etməli?" sualı yaranır. Bu suala cavab vermək üçün ilk növbədə aşağıdakılara cavab verməyə çalışmalıyıq:

- İnternetdən, sosial şəbəkələrdən istifadə saytlarının nə dərəcədə əhəmiyyətli və zərərli olmasını necə müəyyən etmək olar?
- Kompyuterdən, İnternetdən istifadə hansı yönümdə və nə dərəcədə öyrədici rol oynayır (müsbət və mənfi istiqamətləri)?
- Kompyuterdən, İnternetdən istifadə edilən oyunlar hansı məna daşıyır, məğzi nədir, onların real və gələcək təsir gücü nəzərə alınırmı? İnternetdən yüklənən oyunlara ciddi nəzarət mümkündürmü?
- İnternetdən, sosial şəbəkələrdən alınan informasiyalarda filtirləmə neçə faiz təşkil edir? Və ya virtual rabitəyə nəzarət nə dərəcədə özünü doğrulda bilir?
- Dünyada bu sistemlərdən istifadənin həkimlər, psixoloqlar, ixtisaslı kadrlar tərəfindən təyin edilmiş yaş həddi və vaxt müddətinə görə standart etalonu varmı və necədir?
- Bu qurğulardan istifadənin məhdudiyyətlərinə aid KİV-də təbliğat necə və hansı səviyyədə aparılır? və s.

Müasir cəmiyyətə xas olan İKT sistemlərinin, İnternetin, mobil telefonların həyatımıza daxil olması insanların bu qurğularla paralel yaşamasına səbəb olur. Təəssüf hissi ilə qeyd edək ki, İKT avadanlıqlarından istifadə zamanı bəzən sağlamlıq- gigiyena qaydalarına düzgün riayət olunmur, bu isə insan orqanizminin sağlamlığı üçün müəyyən problemlərin yaranmasına səbəb ola bilir. Bu baxımdan yarana biləcək problemlərin qarşısının alınması üçün elektromaqnit dalğalarının insan orqanizminə təsiri haqqında KİV-də maarifləndirici məlumatlar verilməlidir.

İnternetdən müəyyən vaxt məhdudiyyəti ilə məqsədyönlü şəkildə, fikir aydınlığına zərər gətirmədən istifadə etməli, lazım olmadıqda WI-FI söndürülməli və kompüterlə işləyərkən müəyyən gigiyenik qaydalara əməl etmək lazımdır. İKT qurğularının yataq otağında olması məsləhət deyil.

Harvard Universitetinin Araşdırmalar Mərkəzində aparılan eksperiment zamanı məlum olub ki, elektron maqnit dalğaları sahəsində fəaliyyət göstərən insanlarda bir müddət sonra nevroz, psixinarahatlıq və digər əsəb xəstəlikləri əmələ gələ bilir.

Kompyuterlə işləyərkən gigiyenik qaydalardan istifadə mühüm amildir, çünki, bu qurğulardan düzgün istifadə edə bilməmək bədən əzələlərinə, biləklərə, yuxu sisteminə, gözlərə, bel sütununa (onurğa sümüyü) zərər verə bilər ki, bu da öz növbəsində insan sağlamlığına mənfi təsir göstərir. Kompyuterdə işləyərkən tez-tez otağın havasını dəyişdirmək, istifadəyə vaxtaşırı fasilə vermək lazımdır (bu qurğulardan istifadə zamanı vaxt məhdudiyyəti ilə əlaqədar standartlar qəbul edilməyib, lakin bəzi həkimlərin yaş və vaxtla əlaqədar oxşar fikirləri çoxdur.

İnternetin imkanlarından, İKT-dən fasiləsiz istifadə adətən istifadəçini ondan asılı vəziyyətə salaraq, aludəçilik yaradır və tədrcən insanları real həyatdan uzaqlaşdırır. Bu isə insan səhhətində, psixologiyasında müəyyən izlər buraxır və insanlarda fiziki əməyə marağı azaldır, onları günün bütün saatlarında sosial şəbəkələrin təsiri altında saxlayır Oturaq, hərəkətsiz həyat tərzi isə nevrasteniya (beynin işləməsində bərpası mümkün olmayan fəsad) yaranmasına səbəb olur. Uzun müddət virtual ünsiyyətə aludə olan şəxs canlı söhbətdə aqressiv və kobud olur. İstifadə zamanı kompyuter masasından, stulundan istifadə etmək və düzgün oturmaq vərdişinə yiyələnmək lazımdır. Beli bükməməli, çiyinləri gərməməli, qolları $90^0$ bucaq qədər qatlamalı (bu qan dövranı və onurğa sümüyünə mənfi təsirin qarışısını qismən alır) (17, səh 38):

SƏHV -



DÜZ -



Pəncərədən düşən işıq bilavasitə monitor ekranına və gözə düşməməlidir, monitorla məsafənin 70-50 sm-dən az olmaması məsləhətlidir, çünki monitora düzgün məsafədən baxmamaq gözün nəmliliyinə mənfi təsir edir və gözdə durğunluq yaradır. Vaxtaşırı gözləri monitordan çəkib uzaqlara, yaşıllığa, kənara, ətrafa baxmaq, gözün künclərinə baxaraq “göz (göz əzələsi) idmanı” etmək, musiqiyə uyğun gözləri hərəkət etdirmək məsləhətdir. Kompüter istifadəsi üçün nəzərdə tutulan xüsusi eynəklərdən istifadə etmək olar.

Noutbuklar bəzən uzanmış vəziyyətdə, bəzən qucağa qoyularaq istifadə edilir. Belə istifadə məsləhət deyil. Noutbukların altına qoyulmaq üçün xüsusi lövhələr satılır və ya adi taxta parçasından istifadə etmək olar.

Mobil telefonlardan istifadə zamanı qulaqcıqdan istifadə etmək və vaxt məhdudiyyətini gözləmək lazımdır. Mobil telefon bədənin harasında olmasına baxmayaraq elektromaqnit sahə insan orqanizminə mənfi təsir göstərə bilər, yəni “hər bir kiloqram çəkiyə 4 vatın düşməsi telefonu zərərsiz edir” inandırıcı deyil (Ekspertlərin fikrincə, 4' telefonla fasiləsiz danışmaq, beyni 1° isidir). Telefon xüsusilə zəng çalan zaman zərərlidir, çünki stansiyaya hələ qoşulmayan telefon güclü elektromaqnit dalğalarının vasitəsilə ətrafı şüalandırır. Belə təsirə çox məruz qalan insanda immun sistemindən asılı olaraq müəyyən dəyişiklik əmələ gələ bilir, bu proses uzunmüddətli və fasiləsiz olarsa, bəzi həkimlərin fikrinə görə, hətta epilepsiyaya, yaddaşda zəifliyə gətirib çıxarır. Ona görə də bu qurğulardan istifadə vaxtı müəyyən yaş həddi və vaxt məhdudiyyəti nəzərə alınmalıdır (16, 57).

Harvard Universitetinin Araşdırmalar Mərkəzində aparılan eksperiment zamanı məlum olub ki, elektromaqnit dalğaları sahəsində fəaliyyət göstərən insanlarda immun sistemindən asılı olaraq (fərdi olaraq insanın immun sistemi fərqlənir, bu rəqəm hər bir insan üçün təqribən 400 ÷ 800 om arası götürülür) müəyyən dəyişikliklər, məsələn, bir müddət sonra nevroz, psixi narahatlıq və digər əsəb xəstəlikləri əmələ gələ bilər. Bu proses beyin qabığı sayılan – kopteksə mənfi təsir göstərir (bu isə şüuraltı davranış, düşünmə qabiliyyətinə təsir edir).

ABŞ mütəxəssislərinin araşdırmalarına görə, 3D filmləri insan psixikasına, sağlamlığına pis təsir edir və immun sistemindən asılı olaraq, ürəkbulanmasına, baş gicəllənməsinə səbəb ola bilər. Səhiyyə işçilərinin məlumatına görə, 3D təsvirlər görmə orqanlarına, göz almacığına mənfi təsir göstərir.

Mausdan uzun müddətli istifadə əl və biləkdə sinir sıxışmasına səbəb ola bilər (hət-



ta bu əməliyyata da səbəb ola bilər). Hazırda maus işlədilməsi ilə əlaqədar əl və biləklərdə yarana biləcək problemlərin qarşısının alınması üçün biləyə taxılan xüsusi kəmərlərdən istifadə olunur.

Kompyuterdə oynanılan oyunlar zamanı istifadə olunan vaxt müddətinə nəzarət olunmalıdır, çünki, oyunun addım mərhələlərini sona çatdırmaq üçün bəzən uşaqlar saatlarla kompyuterin qarşısında oturur, bu isə virtual dünyaya qapılmağa səbəb olur. Eyni zamanda oyunun növlərinə, müraciət olunan İnternet saytlarına nəzarət etmək lazımdır.

İC-də İnternet aparıcı rol oynayır. Lakin İnternetdən plansız şəkildə istifadə qeyd etdiyimiz kimi, fərdlərin sağlamlığında müəyyən problemlər yarada bilər. Bu isə, tədricən cəmiyyətə təsir edir. Məsələn, İnternet xəstəliyinin yaranması və artması buna əyani misaldır (2013-ci ildə təqribən 130 milyona yaxın insanın bu xəstəliyə tutulması haqqında qeyri-rəsmi məlumatlar var (16, səh. 44)).

İnkişaf etmiş ölkələrdə bu xəstəliyə qarşı mübarizə aparılır, ixtisaslı həkimlər hazırlanır, müalicə üçün xüsusi xəstəxanalar yaradılır.

Bəzi mütəxəssislər üstü tikanlı dibçək bitkilərindən (məsələn, kaktus) istifadə etməyi, bəziləri təbii mineral daşlardan istifadəni (məsələn, oniks, kvars, ametist), digər qrup isə bir stəkan suyu yaxud sulu meyvələri (məsələn, limon) iki bölüb işlək kompyuterin qarşısına qoymağı, iş prosesi başa çatdıqdan sonra atmağı məsləhət görür. Qeyd edək ki, Azərbaycanın təbii nemətlərindən olan nar, alma, limon, yerkökü, çuğundur şirələrini lazımi normada qəbul etmək ən məsləhətli vasitələrdəndir.

Sosial şəbəkələrdən, İnternetdən istifadə zamanı zərərli vərdişlərdən, insan psixikasına mənfi təsir edən saytlara daxil olmağın zərərindən ətraflı söhbət açılmalıdır, (qeyd edək ki, İnternetə sızan lazımsız məlumatların qarşısını alan proqramlar hələ ki, özünü tam şəkildə doğrultmur).

Virtual əlaqələrin real əlaqələrdən asan və rahat olması şəbəkələrdən istifadənin artmasının səbəblərindən biridir. Hazırda bu sahənin mütəxəssisləri, psixoloqları, bəzi dünya həkimləri sosial şəbəkələrdən düzgün istifadə edilmədikdə İnternet xəstəliklərinə aid edilən “İnternet asılılıq” və ya “İnternet addiksiya”, “Siberkondria”, son araşdırmalara əsasən *“Haşimoto”* xəstəliyinin də (əlamətləri - saç tökülməsi, dırnaqların qırılması, halsızlıq, yorğunluq, əllər, ayaqlar, üzdə şişkinliyin olması, yaddaşın zəifləməsi, qəbizlik, ishal və s. texnologiyanın yüksək inkişaf etmiş ölkələrində daha çox rast gəlinir) adlanan xəstəliklərin şəbəkədən asılı mövcud olduğunu qəbul edirlər.

İngiltərənin tibb jurnalı The New Scientistin məlumatına əsasən, İnternet istifa-adəçilərini bəzi xəstəliklər hədəf alır. Məsələn:

- ***Ego sörfü:*** Vaxtaşırı İnternetdə öz adlarına görə bilgiləri yoxlayan insanların tutulduğu xəstəlikdir;
- ***Enfornografi****:* İnformasiya “aclığını” İnternetdən “doyurmağa” çalışanların xəstəliyidir;
- ***Blog ifşaçılığı*****:** İstifadəçidə hər kəs üçün faydalı olan məlumatın on-line yayınlama marağının olması;

- ***Youtube-Narsizmi:*** İnternet saytlarında özünü tanıtmaq üçün daim videolarını yayınlamaq xəstəliyi;
- ***Myspace təqlidçilik:*** İnternetdə özünü tamamilə fərqli adam kimi təqdim etmək;
- ***Siberhondrik:*** Bütün hallarda İnternetdən qəbul etdiyi informasiyalara əsasən hərəkət etmək (məsələn, cüzi xəstəlik olduqda müalicə üçün həkimə getmək yerinə, İnternet məlumatına əsaslanmaq);
- ***Cheesepodding:*** Vaxtlarını İnternetdən musiqi endirməklə keçirənlər şəxslər. İnternet xəstəlikləri hazırda aşağıdakı xəstəliklərlə də müqayisə edilir (bəzi mütəxəssislərə görə həmin xəstəliklərin yaranmasında hətta onun müəyyən rolu ola bilər):
- Depressiya;
- Alkogolizm;
- Narkomaniya;
- Obezlik (artıq çəki)

  və ailədaxili münaqişələr, boşanmalar, uşaqlarda hiperaktivlik, subliminal mesajverici cizgi filmlər, təhlükəli oyun aplikassiyaları, diqqət dağınıqlığı və s.

İnternet asılılığı problemi XX əsrin 94-95-ci illərində meydana çıxmışdır və ilk dəfə bu sahə ilə İvan Qoldberq, Kimberli Yanq, Maressa Orzak, Cerald Blok və digər amerikalı psixoloqlar məşğul olmuşlar.

İ.Qoldberq fikrincə şəbəkədən uzun müddət istifadə insanı real həyatdan uzaqlaşdırır, bu isə nəticədə hətta alkoqolizmlə, narkomanlıqla müqayisə oluna bilər.

K.Yanq öz saytında (www.netaddiction.com) İnternet asılılığından əziyyət çəkənlərə İnternet vasitəsilə psixoloji yardım mərkəzi (Center for On-Line Addiction) təşkil etmiş və saytdakı testdən keçməklə İnternet asılılığının olub olmadığını müəyyənləşdirməyə çalışmışdır.

Həkim Maressa Orzak (www.computeraddiction.com) qeyd etmişdir ki, İnternet addiksiya insan səhhətində psixoloji əlamətlər yaradır və onlar İnternetdən uzaqlaşanda depressiyalı və əsəbi olurlar. M.Orzak İnternetdən uzun müddətli fasiləsiz istifadə zamanı gözlərdə quruluq, onurğa sümüyündə əyriliyə meyililik, ətraf aləmə etinasızlıq, yuxu rejiminin pozulması və s. bu kimi əlamətlərin olduğunu qeyd edir.

Amerikalı psixoloq Cerald Bloka görə İnternet asılılığı olan insanlar həmin mühitdən uzaqlaşdıqda onlarda İnternetə qoşulmaq üçün *güclü istək* yaranır, istifadə zamanı isə *zaman anlayışını* itirirlər (17, səh. 36).

Azərbaycanda müxtəlif saytlarda bu yönümlü məlumatlar geniş şəkildə müzakirə olunur və dəyərli məsləhətlər verilir. AMEA Informasiya Texnologiyalari Institutunda 24.05.2016-cı il tarixdə "Elektron Tibbin Multidissiplinar Problemləri" üzrə 1-ci Respublika Elmi-Praktiki Konfransi keçirilmiş və bu yönümlü bir çox məsələlərə toxunularaq müzakirələr aparılmışdır. Konfransda K.Ş.Qurbanova "İKT-nin təsiri ilə yaranan xəstəliklər haqqında" məqaləsində kompyuterdən istifadə vaxtı insan biosahəsinin 2916 piksel azaldığı, gözdə hərarətin artması, beynin qidalanmasının zəifləməsi, mədə-bağırsaq probleminin yaranması, şiş xəstəliklərinin artması və s. haqqında məlumat vermişdi (15).

Müasir İC-də İKT-nin kütləvi istifadəsi bu qurğularda saxlanılan informasiyaların kiberhücumlara məruz qalmasına səbəb olur. Hazırda virusların, kibercinayətkarlığın yaratdığı fəsadlarda əsəb sisteminə pis təsir edir və stress yaradır.

İKT-nin həyatımıza daxil olması müasir cəmiyyətin tələbidir, lakin çox təəssüflər olsun ki, hazırda bu qurğulardan istifadə çox erkən yaşlardan başlayır.

Bir qrup İçveç mütəxəssisinin 2015-ci ildə apardığı müşahidələr nəticəsində gəldiyi rəy belə olmuşdur:

- kitabdan istifadə edənlərin sayı 2014-cü ildə 30% olduğu halda, 2015-ci ildə 13,5% olmuşdur;
- İnternetdən istifadə edənlərin sayı 2-4 yaş arası olmuş, belə ki, planşetlərlə kinoya baxanların kiçik yaş həddinin 2 yaş olduğu məlum olmuşdur;
- mobil telefonlardan istifadəyə görə isə kiçik yaş həddi 11 yaş müəyyən edilmişdir (17, səh.39).

Lakin hesab edirik ki, hazırda bu göstəricidə yaş həddi daha aşağıdır.

İnternetdən fasiləsiz və nəzarətsiz istifadə daha çox bəzi yeniyetmələrin normal və düzgün inkişafına mane olur, onların əxlaqına təsir edir. Bəzi mütəxəssislərin fikrincə, hətta impotensiyaya və homoseksuallığa da gətirib çıxara bilir. Virtual oyunlarından istifadə edərkən fərd bu aləmə daha çox qapanır, onlarda özlərini döyüş filmlərinin baş qəhrəmanlarına bənzətmək istəyi yaranır. Bu istəklərin vərdişə çevrilməsi isə tədricən problemlər yaradır və. onlar öz qəhrəmanlıqlarını kompyuter oyunlarında tətbiq etməyə çalışır, bu isə yeniyetmələrin virtual və psixoloji aləminə, tərbiyəsinə, ümumilikdə isə sağlıqlı böyüməsinə mənfi təsir edir. Tədricən fərd özü hiss etmədən şəbəkənin təsiri altına düşərək İnternetin əsirinə çevrilir və canlı ünsiyyətdə aqressiv, kobud olur. Bu cür aqressivliyi respublikamızda bəzi yeniyetmələr arasında müşahidə etmək olar. Məsələn, Bakının Xətai rayonu ərazisində İnternet-klubda iki yeniyetmənin çatda etdiyi mübahisə üstündə bıçaqlanması ilə həyatını dəyişməsi, müxtəlif vaxtlarda eyni səbəbdən bir neçə analoji hadisənin baş verməsi İnternet asılılığın cəmiyyətimiz üçün nə qədər təhlükəli olduğunu göstərir, yaxud:

- 2016-cı ilin sentyabr ayında Rusiyanın Tula şəhərində 15 yaşlı yeniyetmənin törətdiyi faciə (kompyuterdəki döyüş oyunları ilə həddindən artıq çox oynadığına görə, anası onu bu oyunlardan məhrum etmək istəyir, buna görə uşaq faciə törədərək, anasını öldürür, atasını ağır yaralayır),
- Yeni Zelandiyada 2016-cı ildə olan (sentyabr ayı) zəlzələ zamanı kompyuterlə oyun oynayan gənc bu oyuna o qədər aludə olub ki, zəlzələnin təkanından yerə düşsə də oyuna olan marağından məkanı tərk etməyib və yenidən oyunun davamını oynayıb,
- İngiltərədə tır şoferi maşını sürərkən telefonla mesaj yazaraq (30.10.2016), faciəyə səbəb olmuşdur (maşını ilə iki avtomobili əzərək, 4 nəfərin ölümünə səbəb olmuşdur),
- Turkiyədə mobil telefona diqqətini yönəldən gənc (07.01.2017) metroda qatara minərkən, vaqona deyil, reyslərin üzərinə yıxılmışdır və s. bu kimi misallara hazırda KİV-lərdə çox rast gəlirik.

Hazırda şəbəkələrdə hətta ölüm saça bilən bəzi təhlükəli saytlar da fəaliyyət göstərir (məsələn, A blue whale, A quiet house, A sea/a bunch of whales, Wake me up 4.20 am və s.). Təəsüflər olsun ki, bəzi yeniyetmələr bu cür oyunların təsirinə düşür, bəzən hətta faciə ilə nəticələnir (17, səh. 40).

Selfi çəkilişləri zamanı faciələrin baş verməsi barəsindəki məlumatlara KİV-də tez-tez rast gəlirik. Son alti ildə selfi şəkilişlərində 259 nəfər həyatını itirib.

Bütün dünyada bu məsələ probem kimi qaldırılmalıdır. Finlandiyada yarıdan çox gənc, Çində isə hər 10 nəfərdən biri sosial şəbəkələrdən, İnternetdən asılıdır. Bonn Universiteti və Ruhi Sağlamlıq Mərkəzi İnstitutunun (Almaniya) araşdırmalarına görə bu xəstələrin gündəlik həyatları İnternet tərəfindən yönləndirilir. Hao Leinin rəhbərliyi ilə (Çin Elmlər Akademiyası) İnternetdən asılı şəxslərin daxili beyin bağlarında pozuntuların oldu-

ğu məlum olub. Günter Şumana görə (London Kral Kolleci yanında Psixiatriya İnstitutu) beynin orbitofrontal qabığında və digər zonalarında qüsurlar narkomanlarda və İnternetdən asılılı xəstələrdə oxşardır.

Ümumiyyətlə, İnternetdən asılı xəstələrdə 33 %-də duyğu pozğunluğu, 25%-də isə depressiya müəyyən edilir (*news.milli.az*).

*Müalicə üçün aşağıdakılar məsləhət görülür:*

**1.** bu qurğulardan istifadə zamanı düzgün oturmaq və vaxt məhdudiyyətini gözləmək;
**2.** normal yuxu rejiminin tətbiqi;
**3.** istifadə olunan qurğular daim təmizlənməli;
**4.** vaxtaşırı lazımi vitaminli qida, təbii meyvə və bitki şirələrinin qəbulu;
**5.** təmiz havada və təbiətlə, ətraf mühitlə, insanlarla birbaşa təmasda olmaq, piyada gəzinti, kənarda səmərəli vaxtın təşkili;
**6.** vaxtaşırı göz və bədən idmanı etməli;
**7.** istifadəçilərin İnternetdən "necə", "hansı saytlarla", "kiminlə" ünsiyyətinə nəzarət olunmalı;
**8.** İnternetdən istifadəyə ehtiyac olmadıqda Wi-Fi söndürülməli;
**9.** kompyuterdən istifadə üçün nəzərdə tutulan xüsusi eynəklərdən istifadə olunmalı;
**10.** kollektiv ünsiyyətə vaxt ayrılmalı, vaxtaşırı "*kollektiv gülüş*"ü tətbiq etməli;
**11.** Otaqda ən azı bir neçə təbii dibçək gülü olmalı;
**12.** Mobil telefonların müəyyən məsafədə olmasına və yataq otağından aralıda olmasına çalışmalı və istifadə zamanı qulaqcıqdan isitadə etməli;
**13.** Bu "xəstəliyə" aludə olmuş şəxsləri həmin mühitdən uzaqlaşdırmaq və istirahətini maraqlı təşkil etməyə çalışmalı;
**14.** Problemin həlli üçün ictimaiyyət, cəmiyyətin birlikdə mübarizə aparmalı və s.

Başqa xəstəliklərlə qarışdırmamaq və düzgün diaqnoz üçün *mütləq həkimə müraciət* etmək lazımdır.

Azərbaycan hökuməti bu sahədə də diqqətəlayiq işlər görür. Məsələn, Azərbaycanda 2012-ci ilin noyabrın axırıncı həftəsindən etibarən müəyyən vaxtlarda İnternet klublara baxış keçirilir. Burada məqsəd İnternetdən istifadə zamanı istifadəçiləri lazımi qaydalarla maarifləndirmək və uşaqların sağlamlığına xidmət etməkdir.

İnternetin mənfi təsirindən qorunmaq üçün Azərbaycanda "Hüquqi əsas" hazırlanması planlaşdırılıb, bunun üçün isə xüsusi paket olmalıdır. Yaş həddinin, fərdi istifadənin məhdudluğu üçün yəqin ki, yaxın gələcəkdə bu sistemdə elektron imza tələb olunacaq.

Hazırda müalicə məqsədilə müxtəlif fikirlər irəli sürülür.Məsələn, Dr. Yavuzun (Milli.Az Med.az-a istinadən, 2013) tövsiyyəsinə əsasən, kompyuter oyunları səbəbi ilə beyin tarazlığı pozulan adam, ən azı 2-3 ay müddətində bu oyunlardan uzaq durmalıdır Həkimin fikrincə, bu cür şəxslərə hər hansı bir antidepressant dərmanlar nəinki güclü təsir göstərmir, hətta bunlar vəziyyəti daha da gərginləşdirə bilər.

Telefon bağlılığına qarşı çində çox maraqlı bir kompaniyaya start verilib (Çin terapiyası). Validеynlər uşaqlarını telefon bağlılığından azad etmək üçün xüsusi təşkil edilmiş hərbi düşərgələrə göndərirlər. Burada onlar telefonları ağızlarında saxlayaraq, qaçmağa, jim etməyə məcbur edilirlər. Lakin onu qeyd edək ki, bu münasibətlər bəzi mütəxəssislər tərəfindən bir mənalı qarşılanmır, əsasəndə telefonların ağıza alınması gigiyenik qaydalara görə düzgün hesab edilmir.

ABŞ-da, Kanadada, Rusiyada, Çində, Cənubi Koreyada İnternet asılılığı xəstəlik kimi tanınır və dünyanın bir sıra tibbi təhsil ocaqlarında bu sahə üzrə mütəxəssislər yetişdirilir. Dünyanın inkişaf etmiş ölkələrində *"İnternet asılılığını müalicə"* mərkəzləri fəaliyyət göstərir Məsələn, Çinin paytaxtı Pekindəki İnternet Asılılığından Müalicə Mərkəzi, Amsterdamda qurulan "Smith Jones" klinikası, ABŞ-ın Vaşinqton əyalətində qurulan "Restart" adlı mərkəz və s.

***"Sağlam düşüncəli nəsil"*** yetişdirmək üçün əlbir olaraq mübarizə aparmaq lazımdır. Onu da nəzərə alaq ki, hazırda ekoloji və digər problemlərin düzgün həyat ritminə təsiri çox böyükdür, məsələn:




- ✓ həyat ritminin rəngarəngliyi;
- ✓ plansız həyat tərzi;
- ✓ qəbul edilən neqativ informasiyalar;
- ✓ kimyəvi tərkibli qidalar;
- ✓ düzgun yuxu rejiminin olmaması;
- ✓ əhatəsində olduğumuz mikroelektron *sistemlərin yaydığı elektromaqnit dalğaların təsiri və* mobil cihazlardan fasiləsiz istifadə;
- ✓ sosial şəbəkələrdən asılılıq və s.

*Düzgün olmayan yaşayış-həyat rejiminin yaranması nəticədə fərddə həvəssizlik, biganəlik, passivlik, real ünssiyyətdən uzaqlaşmaq, tənbəllik, fərdiyyətə qapılmaq, düzgün iş prinsipinin olmaması və s. kimi problemləri yaradır. <u>Bu isə bütövlükdə cəmiyyətə mənfi təsir edir</u>*

Bildilyimiz kimi, BMT Baş Assambleyasının 27 mart 2006-cı il tarixli qərarı ilə hər il 17 may – ***Ümumdünya Telekommunikasya və İnformasiya Cəmiyyəti Günü*** kimi qeyd edilir. Həyatımıza gündəlik tələbat kimi daxil olan İKTavadanlıqlarından uğurlara çatmaq üçün pilləkən kimi istifadə etməli və onu mənfi təsirini azaltmağa çalışmalıyıq. Təklif edirəm ki, dünyada hər il bir gün ***"Ümumdünya elektromaqnit dalğalardan müdafiə"*** günü kimi qeyd olunsun. Bu o demək deyildir ki, həmin gün bu qurğulardan istifadə olunmasın, çünki, bu milyardlarla ziyan verə bilər. Burada məqsəd həmin gün İKT-dən məqsədsiz, vaxtsız, plansız istifadənin orqanizmə mənfi təsirinə dair ictimai söhbətlər aparılsın, maarifləndirmə məqsədilə geniş auditoriyalarda, KİV-lərdə reklamlar göstərilsin və burada:

1. KİV-ndən, İnternetdən, sosial şəbəkələrdən, mobil telefonlardan və s. texnoloji sistemlərdən, virtual aləmdən vaxtsız və məqsədsiz istifadənin ziyanlı tərəfləri açıqlansın.
2. Beynəlxalq ekspertlər tərəfindən İKT-dən istifadənin yaş həddinə görə standart etalon qəbul edilsin və bu barədə ictimaiyyətə xəbər verilsin.
3. Həmin gün ictimaiyyətdə bu qurğulardan vaxtsız və məqsədsiz istifadənin mənfiliklərinə, ziyanları tərəflərinə aid kütləvi mesajlar, videolar yayılsın; Bütün müəssisələrdə və təhsil ocaqlarında onun zərərlərindən qısa müddətli danışılsın və bu kütləvi hal alsın.
4. Oyunlar elə yaradılsın ki,mərhələlər arası mütləq fasilələr olsun və sağlam istifadənin təbliğinə yönəldilsin.
5. Müalicə məqsədilə ixtisaslı kadlar hazırlansın, *müalicə* mərkəzləri üçün vəsait ayrılsın

*<u>Məqsəd</u> - sağlam düşüncəyə malik yüksək səviyyəli nəsilin yetişdirilməsidir.*

İKT-dən istifadə intellektual səviyyəni daha da inkişaf etdirir. Bütövlükdə elm və cəmiyyəti birləşdirməyə, İKT-nin bizə dost olmasına çalışmaq və bunu səmərəli istifadəyə yönəltmək üçün hamımız əlbir olmalıyıq. Əksər mütəxəssislərə görə İKT-dən, müasir texnoloji sistemdən istifadə etmək zehni inkişafı stimullaşdırır, diqqəti artırır, məntiqi təfəkkürünün inkişafına kömək edir.

**Ədəbiyyat**


1. azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_iqtisadi_inkisaf_strategiyasinin_esas_istiqam.
2. Вред от компьютера - Медицинский Центр «XXI век https://mc21.ru
3. http://azertag.az/xeber/Azerbaycan_kosmos
4. http://az.trend.az/
5. http://Deyerler.Org8)
6. http:// xeberler.az
7. http://ict.az/az/announce/
8. http://ictnews.az. İKT sahəsində son 10 il üzrə orta illik artım tempi 15- 20% təşkil.
9. http://news.milli.az/politics/
10. http://yap.org.az/az/view/interview
11. http:///science.gov.az/news/open/
12. http://sdu.edu.az/userfiles/file/conferences/
13. http:// stat.gov.az/source/information_society/
14. http://fitret.az/oturmaq-gunumuzun-yeni-siqaretidir/
15. K.S.Qurbanova. "İKT-nin təsiri ilə yaranan xəstəliklər haqqında" "Elektron tibbin multidissiplinar problemləri" I Respublika elmi-praktiki konfransı.
16. N.Ə.Umarova. "İnformatika". Dərslik. AİTİ nəşriyyatı. Bakı, 2015
17. N.Ə.Umarova. İnformasiya Kommunikasiya Texnologiyası. Dərs vəsaiti. AİTİ nəşriyyatı. Bakı, 2016
18. N.Ə.Umarova. "Mikroelektron texnologiyanın öyrənilməsi və ondan istifadə zamanı gigiyenik qaydalar". "Azərbaycan müəllimi" qəzeti 25 oktyabr Səh.7. 2013. Muallim.edu.az//www.old/arxiv/2013/
19. N.Ə.Umarova. "Elektron qurğular və sağlamlıq". Metodiki vəsait (TN əmr №16 08.05.2008). DBİU nəşriyyatı. Bakı, 2008
20. N.Ə.Umarova. "Mikroelektron texnologiyasının öyrənilməsi. İstifadəsi zamanı gigiyenik qaydalar".Metodiki vəsait (TN əmr №18, 16. 02. 2012). DBİU nəşriyyatı Bakı, 2012


## POSITIVE ASPECTS AND NEGATIVE EFFECTS OF USING ICT

**N.E.Umarova**

**SUMMARY**

This work presents recommendations on the correct use of ICT in today's information society. The role of ICT in shaping future generations and their influence on human organism are also discussed.

# ПОЗИТИВНЫЕ АСПЕКТЫ И ОТРИЦАТЕЛЬНЫЕ ЭФФЕКТЫ ИСПОЛЬЗОВАНИЯ ИКТ

**Н.А.Умарова**

**РЕЗЮМЕ**

В статье представлены рекомендации по правильному использованию ИКТ в современном информационном обществе. Затронута тема роли ИКТ в формировании будущих поколений, а также влияния ИКТ на человеческий организм.

*Məqalə redaksiyaya 19 fevral 2019 tarixində daxil olmuş, 7 mart 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2019 - № 51**

UOT № 681.51.04

# QEYRİ-MÜƏYYƏNLİKLİ DİNAMİK OBYEKTLƏRİN NT ƏSASINDA MODELLƏŞDİRİLMƏSİ VƏ İNTELLEKTUAL İDARƏ EDİLMƏSİ

**A.S.Əliyeva**
AMEA İdarəetmə Sistemləri İnstitutu
Bakı, B.Vahabzadə küçəsi 9
**S.M.Cəfərov, S.E.İsmayılzadə**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, Azadlıq prospekti 20
e-mail: jafarovsm@gmail.com

***Açar sözlər:*** qeyri-müəyyənliyə malik dinamik obyekt, mexatron qurğu, qara qutu modeli, neyron texnologiyalar (NT)

***Keywords***: dynamic object with uncertainty, mechatronic device, "black box" type model, neural technologies (NT)

***Ключевые слова:*** динамический объект с неопределенностью, мехатронное устройство, модель типа «черного ящика», нейронные технологии (НТ)

## 1. Giriş

Bir sıra texnoloji proseslərdə, mexatron və robototexniki qurğularda idarəetmə obyektləri müxtəlif qeyri-müəyyənliyə malik olub, intensiv iş rejimlərində fəaliyyət göstərirlər. Belə obyektlərin idarəetmə sistemlərində keyfiyyətə (məsələn, dinamik dəqiqliyə, dayanaqlığa) olan tələblər sərtləşdirilir. Ona görə bu tip obyektlərin idarəetmə sistemlərini layihələndirərkən obyekt haqqındakı "aprior" və "aposterior" informasiyanın olması aktual məsələdir.

Qeyri-müəyyənliyə malik dinamik obyektlərin hər hansı bir formada modelinin, məsələn, riyazi yazılışının strukturu və parametrlərinin qiymətlərinin məlum olması, həmin obyektin optimal keyfiyyət göstəricili avtomatik idarəetmə sisteminin (AİS) sintezi məsələsinin formallaşdırılması və analitik həlli üçün vacibdir [1-2, 9].

Bir sıra texniki obyektlərin, məsələn, robotların, dronların, mexatron qurğuların riyazi modellərini, differensial tənliklərini elektrotexnikanın, mexanikanın, məsələn, Eyler-Nyuton, Laqranj-Eyler yanaşması əsasında təyin etmək olar. Lakin mövcud yanaşmalar əsasında tərtib olunmuş riyazi modellər kifayət qədər qeyri-xəttiliklərə və qeyri-müəyyənliyə, yaxud qeyri-stasionarlığa malik olurlar [3, 4, 7]. Obyektin parametrlərinin dəyişməsini nəzərə ala bilən idarəetmə sistemləri intellektuallıq - adaptasiya xassəsinə malik olmalıdır. Adaptiv idarəetmə sistemlərinin tənzimləyici qurğuları ya "online", ya da "offline" iş rejimlərində obyekt haqqında informasiya əsasında tənzimləyicinin parametrləri korreksiya edilərək, adaptasiya olunmalıdır. Belə sistemlərdə idarəetmənin optimallığına və dayanıqlığına əmin olmaq üçün bütövlükdə intellektual AİS-in komputer modelləşdirilməsinin mövcud vasitələrdən istifadə edilməklə aparılması vacib məsələ kimi qarşıya çıxır və onun effektiv həlli aktualdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, təqdim olunan məqalədə riyazi modelin strukturunun və parametrlərinin naməlumluğu şəraitində qeyri-stasionar dinamik obyektin "qara qutu" modelinin neyron şəbəkələri texnologiyası (*Neural Network*) əsasında təyini və onun intellektual AİS-in layihələndirilməsi məsələsinə baxılır.

## 2. Qeyri-müəyyənliyə malik dinamik obyektlərin neyron texnologiyalar əsasinda modelləşdirilməsi

Qeyri-müəyyənliyə malik dinaik obyektlərin vəziyyət dəyişənlərinin yalnız giriş və çıxışları müşahidə olunan halda riyazi modelləşdirilməsi (seçilmiş strukturlu diferensial tənliyin parametrlərinin təyini) [1,5,8] işlərində baxılmışdır. Burada giriş və çıxış siqnallarının (dəyişənlərinin) $m$ tərtibli çevirmələrindən istifadə etməklə parametrik identifikasiyasının mümklünlüyü isbat edilmiş, lakin girişin və çıxışın vektor halında məsələnin həlli araşdırılmamışdır. Bundan başqa, [1,5,8] işlərində identifikasiyanın dəqiqliyinin artıtılması üçün kompüter modelləşdirilməsinin ”offline” rejimdə aparılmasına baxılmamışdır.

Tutaq ki, qeyri-müəyyənlikli dinamik obyektin hərəkətini qeyri-xətti və qeyri-stasionar $n$ tərtibli diferensial tənliklə yazmaq olar, yəni:

$$\dot{\boldsymbol{x}}(t) = \boldsymbol{f}\big(\boldsymbol{a}(t), \boldsymbol{x}(t), \boldsymbol{u}(t)\big), \ \boldsymbol{x} \subset \boldsymbol{R}^n, \boldsymbol{u} \subset \boldsymbol{R}^m \qquad (2.1a)$$

Burada, $\boldsymbol{x}(t)$, $\boldsymbol{u}(t)$, müvafiq olaraq, $n$ ölçülü vəziyyət dəyişənləri və $m$ ($m \leq n$) ölçülü giriş idarəedici təsirlər vektorları, *a(t)* – qeyri-müəyyənlikli obyektin qeyri-stasionar naməlum parametrlər vektoru , $\boldsymbol{f}$ isə strukturu naməlum funksiyadır.

Dinamik obyektlərin identifikasiyasının əksər üsullarında (2.1) riyazi modelinin $\boldsymbol{f}(\cdot)$ – strukturu məlum funksiyalar (məsələn, xətti və qeyri-xətti funksiyaların) məcmusundan ibarət olduğu qəbul edilir [1-8]. Əgər obyekt haqqında ilkin məlumat və tətqiqatlar kafi dərəcədə olmazsa və identifikasiya olunan riyazi modelin strukturu düzgün sçilməzsə, onda idarəetmənin sintezi məsələsinin həlli mürəkkəbləşməklə yanaşı, həm də qeyri-effektiv olur [3].

İnfiormasiyanın çatışmazlığı şəraitində qeyri-müəyyənlikli dinamik obyektlər üçün yüksək keyfiyyətli intellektual idarəetmə sistemlərinin sintezi məsələsinin həlli üçün obyektin riyazi modelinin təyini informasiyanın yeni emalı texnologoyasının - neyron şəbəkələrin (Neural Network Toolbox) tətbiqi əsasında daha effektivdir [3]. Lakin, neyron şəbəkələr əsasında (NŞ) identifikasiyanı [3]-dəki kimi çıxışın və girişin uyğun olaraq n-1 və m takt anlarındakı fərqləri əsasında $a(t)$ parametrləri deyil, bilavasitə obyektin çıxış vəziyyət dəyişənləri $\boldsymbol{x}(t)$ təyin edilir. Başqa sözlə, NŞ-də obyektin “qara qutu” kimi modelinin çıxışı müəyyənləşdirilir.

Real dinamik obyektin (2.1a) şəklindəki modelini formal reduksiya olunmuş formada, yəni

$$\boldsymbol{x}(t) = \boldsymbol{F}\big(\boldsymbol{a}(t), \dot{\boldsymbol{x}}(t), \boldsymbol{u}(t)\big), \ \boldsymbol{x} \subset \boldsymbol{R}^n, \boldsymbol{u} \subset \boldsymbol{R}^m \qquad (2.1b)$$

kimi təsvir etmək olar.

Fərz edək ki, neyron şəbəkələri əsasında obyektin “qara qutu” kimi riyazi modelini hər bir i-ci giriş-çıxış kanalı üzrə *l* sayda aralıq laya malik NŞ ilə təyin etmək olar:

$$x_{Ni} = \phi_i\Big(w_{ij}, \dot{\boldsymbol{x}}(t), \boldsymbol{u}(t)\Big), w_{ij} \in W_{ij}, i = \overline{1, n-1} \quad, j = \overline{1, l}\,, \qquad (2.2a)$$

və ya

$$\boldsymbol{x}_N = \boldsymbol{\phi}\big(\boldsymbol{w}, \dot{\boldsymbol{x}}(t), \boldsymbol{u}(t)\big), \boldsymbol{w} \in \boldsymbol{W} \qquad (2.2b)$$

Burada $w_{ij} \in W_{ij}$, $i \in [1, n-1]$, $j \in [1, l]$, $i$ – ci çıxış kanalı üzrə $l$ – ci aralıq (gizli) laydakı neyronların çəki əmsalları olub, sonlu $W_{ij}$ oblastında qiymətlər ala bilərlər.

Qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyektin “qara qutu” şəklində (neyron şəbəkəli) modelinin təyini məsələsini aşağıdakı kimi formalaşdırmaq olar.

Real dinamik obyektin bütün vəziyyət dəyişənləri

$$\boldsymbol{x}(t) = [x_1(t), x_2(t), \dots, x_n(t)]^{\mathrm{T}}$$

və giriş təsirləri $\boldsymbol{u}(t) = [u_1(t), u_2(t), \dots, u_m(t)]^{\mathrm{T}}$ müşahidə olunan (ölçülən) obyektin elə bir NŞ-li “qara qutu”, yəni (2.2) şəklindəki modelini təyin etmək lazımdır ki, NŞ-in çıxışları ilə real obyektin çıxışları (vəziyyət dəyişənləri) arasındakı fərqin (xətanın) kvadratı bütün zaman anları $t_k = T_0\,k$ $(T_0 = const, k = 1,2,3,\dots,K)$ üçün minimal olsun□

$$\mathbb{E} = \frac{1}{2}\sum_{k=1}^{K}(E^k)^2 = \frac{1}{2}\sum_{k=1}^{K}[\boldsymbol{x}(t_k) - \boldsymbol{x}_N(t_k)]^2 =$$

$$= \frac{1}{2}\sum_{k=1}^{K}\sum_{i=1}^{n-1}[x_i^k - \phi_i(w_{ij}, \dot{x}_i^k, u^k)]^2 =\rightarrow \min \qquad (2.3)$$

Əgər yalnız bir modellə, yəni $i = 1$, kifayətlənmək mümkün ola bilərsə və xətanın buraxıla bilinən qiyməti-dəqiqliyi $\varepsilon$ verilibsə, onda (2.3) optimizasiya məsələsində $\lim_{k\to\infty}\frac{1}{2}\sum_{k=1}^{K}(E^k)^2 = \varepsilon$ -dan kiçik olması ilə kifayətlənmək olar.

Real qeyri-müəyyənlikli və qeyri xətti (QMQX) dinamik obyektin NŞ əsasında “qara qutu” şəklindəki modelləşdirilməsi sistemini Şəkil 2.1-dəki kimi təsvir etmək olar:




Şəkil 2.1. Vəziyyət dəyişənləri müşahidə olunan QMQX dinamik obyektin NŞ əsasında “qara qutu” şəklində modelləşdirilməsi sisteminin strukturu

Yuxarıda formallaşdırılmış identifikasiya məsələsinin həlli $\boldsymbol{x}_N = \boldsymbol{\phi}(\boldsymbol{w}, \dot{\boldsymbol{x}}, \boldsymbol{u})$ funksiyasıdır. Bu hallər giriş-çıxış cütləri $(x^1, x_N^1), (x^2, x_N^2), \dots, (x^K, x_N^K)$ şəklində məlumdurlar (ölçmələrdən formalaşdırılmışdır). İdentifikasiya prosesi, yəni NŞ-in öyrədilməsi bilavasitə elə $\boldsymbol{\phi}(\cdot)$ funksiyası sintez edilir ki, obyektin realizə etdiyi $\boldsymbol{F}(\cdot)$ funksiyasına yaxın olsun. Beləliklə NŞ-in öyrədilməsi çoxölçülü optimizasiya məsələsinə çevrilir.

## 3. Qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyektin NŞ əsasında identifikasiya məsələsinin həlli

(2.3) funksiyası ixtiyari şəkildə ola bildiyindən ümumi halda NŞ-in öyrədilməsi çoxekstremumlu qabarıq olmayan optimallaşdırma məsələsidir. Yuxarıda formalaşdırılmış (2.3) optimizasiya məsələsinin həlli üçün bir sıra iterativ alqoritmlərdən istifadə etmək olar [3].

Hal-hazırda NŞ-in öyrədilməsi üsullarından ən çox istifadə olunanı (orta kvadratik xətanın - (2.3) funksiyasının minimallaşdırılmasının) iterativ qradient alqoritmidir.

Əksər elmi ədəbiyyatda qeyd etdiyimiz bu öyrətmə alqoritmi xətanın əks (geriyə) paylanması ("*error back propagation*") adı ilə məlumdur [3]. Ona görə də NŞ-in öyrədilməsinin bu üsulunu (xətanın əks paylanması alqoritmini) şərh olunmasına ehtiyac olmadığını hesab edirik. Lakin, qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyektin yuxarıda formallaşdırdığımız "qara qutu" kimi identifikasiya olunmasını real mexatron qurğu üçün Neural Networks Toolbox paketi əsasında realizasiyasını, Şəkil 2.1-ə əsaslanaraq, MATLAB-ın "M" dilindəki proqramı və öyrədilməsinin prosedurlarını şərhlə birlikdə aşağıdakı kimi verilməsini məqsədəuyğun hesab edirik.

$\mathbf{P = [X] = [sX_2; sX_1; U]}$; - *dinamik obyektin bütün vəziyyət dəyişənlərinin, yəni NŞ-in giriş dəyişənlərinin müşahidə qiymətləri matrisləri.*

$\mathbf{T = [Y] = [X_1]}$; - *real obyektin-mexatron qurğunun çıxış dəyişəninin* $x_1^k$, $(k = \overline{1,K}$: *məsələn* $K = 4000$, *tədqiqatçı seçir) müşahidə qiymətləri matrisi*

$\mathbf{net = newff(min\,max(P), [300, 300, 1], \{'tansiq', 'logsiq', purlin', 'traingd'\})}$ ;-*üç laylı - ikisində 300, çıxış layda isə 1 neyronu olan* ***d*** *adlı NŞ-in (uyğun ötürmə funksiyaları* $'tansiq', 'logsiq', purlin'$ *olan neyron şəbəkənin) yaradılması və öyrədilməsi-*$'traingd'$*(qeyd: neyronların sayı və s. parametirlər tədqiqatçı tərəfindən iterativ olaraq verilir).*

$\mathbf{net.train\,Param.show = 50}$; - *əlli nümunədən bir Param, yəni* $x_N^k$ *göstərilsin (tədqiqatçı tərəfindən evristik müəyyənləşdirilir).*

$\mathbf{net.train\,Param.goal = 0.001}$; - *NŞ-in öyrədilməsinin xətasının buraxıla bilinən dəqiqliyinin qiyməti (tədqiqatçı seçir).*

$\mathbf{net.train\,Param.epoch = 2000}$; - *NŞ-in öyrədilməsinin dövriyyəsi - 'epocha'sı (tsikllərin sayı, tədqiqatçı seçir).*

$\mathbf{net = train(net, P, T)}$;- *NŞ-in öyrədilməsi proseinin işə buraxılması.*

**view(net);**-*obyektin "qara qutu" şəklində olan NŞ-in "Simulink"də avtomatik olaraq qurulması və blok sxeminin təsviri (bax Şəkil 3.1).*

**gensim (net);**yaxud **display(net)** - *MATLAB mühitində NŞ haqqındakı informasiyaların təsvir olunması: öyrətmənin üsulu (məsələn,"Gradient* Decent"), *meyarı ("mse"), iterasiyaların sayı ("epoch") və sair məlumatlar (bax Şəkil 3.1).*




Şəkil 3.1. MATLAB mühitində “NNToolbox” da NŞ-in öyrədilməsinin (obyektin identifikasiyasının) parametirlərinin, informasiyaların təsviri

Öyrətmənin xətasının iterasiyaların sayından (“epoch”) asıllığı qarşıya qoyulan hədəfin - xətanın “min” qiyməti (a) və NŞ-in “qara qutu”-“black box” modelinin altsistem kimi “Simulink”-də təsviri (b) Şəkil 3.2-də verilmişdir.

Neyron şəbəkəsi öyrədildikdən sonra onun çıxışının $x_N(t) = x_N(kT_0) = x_N^k,\ k = \overline{1,4000},\ T_0 = 0.01s$ və real obyektin ($x(t) = x^k, k = \overline{1,4000}, T_0 = 0.01s$) keçid proseslərinin qrafikləri (a,b), həmçinin onların törəmələrinin - $\dot{x}, \dot{x}_N$ (c,d), girişin – idarəedici təsirinin $u(t) = 1[t] = 1[kT_0]$ qiyməti Şəkil 3.3-də verilmişdir.

Şəkil 3.3.-də verilmiş keçid proseslərinin müqayisəli təhlilinə əsasən demək olar ki, NŞ-in çıxışı $-x_N(t)$ və törəməsi- $\dot{x}_N(t)$ praktiki olaraq real qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyektin çıxışı $x(t)$ və törəməsi $\dot{x}(t)$ ilə tələb olunan dəqiqliklə eynidir, yəni $x(t) \hat{=} x_N(t), \dot{x}(t) \hat{=} \dot{x}_N(t)$. Beləliklə, öyrədilmiş NŞ-ni (real dinamik obyektin “qara qutu” kimi modelini) “offline” rejimdə qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyekt üçün idarəedici təsirin, yəni tənzimləyicinin sintezi məsələsində istifadə etmək mümkünlüyü təsdiqləndi.

Qeyd 1. Yuxarıda MATLAB-ın “M” dilində tərtib olunmuş proqramı müəyyən bir adla, məsələn, $\boldsymbol{d}$ (bax 3-cü operatora) yaddaşda saxlanılır. Bunun üçün “**File**” menyusunda “**Save**” əmrini icra etmək lazımdır.




a) b)

Şəkil 3.2. Real obyektin “qara qutu” kimi NŞ-in öyrədilməsinin xətasının – “mse”in tsikllərin sayından –“epochs”dan asıllğı qrafiki (a) və Simulinkdə NŞ-in altsistem kimi təsviri (b)




a) b)




c) obyektin çıxışının törəməsi d) NŞ-in çıxışının törəməsi

Şəkil 3.3. Dinamik obyektin (a,c) və onun NŞ “qara qutu” modelinin (b,d) çıxışlarının keçid prosesləri və onların törəmələri

## 4. Qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyekt üçün intellektual tənzimləyicinin sintazi və onun texniki realizasiyası

Yuxarıda konkret, məsələn, mexatron qurğunun “offline” rejimdə $t \in [0, T]$ zaman intervalında və kvazistasionarlıq şərtinin ödəndiyi halda bütün vəziyyət dəyişənləri $-x(t)$,

həmçinin onların törəmələri $-\dot{x}\ (t)$ (sürətləri) ölçülən olduğundan NŞ-in əsasında qeyri-müəyyənlikli qeyri-xətti (QMQX) dinamik obyektin "qara qutu" modelinin yüksək dəqiqliklə identifikasiya olunan olması təsdiq edildi. Ona görə də QMQX dinamik obyektin kvazistasionarlıq şərti daxilində "qara qutu" modelini istifadə etməklə intellektual (məsələn , adaptasiya olunan qeyri səlis , yaxud neyron ) tənzimləyicini "of line" rejimdə sintez etmək olar[3,4,7-9]. "Of line" rejimdə sintez edilmiş, yəni strukturu və parametrləri müəyyənləşdirilmiş intellektual tənzimləyicini rel obyektin idarəetmə sisteminə qoşub işə buraxılır, yəni istismar edilir. Məhz istismar rejimində real obyektin giriş $\boldsymbol{u}(t)$ və çıxışı-vəziyyət dəyişənləri $\boldsymbol{x}(t) = [x_1(t), x_2(t), \dots, x_n(t)]^T$, $\dot{\boldsymbol{x}}(t) = [\dot{x}_1(t), \dot{x}_2(t), \dots, \dot{x}_n(t)]^T$ ölçülərək verilənlər massivləri – matrisləri formalaşdırılaraq, "offline" rejimdə identifikasiya aparılır. AİS-in kompüter modelləşdirilməsi əsasında idarəetmənin keyfiyyəti (məsələn, xətanın $\boldsymbol{e}(t) = \boldsymbol{x}(t) - \boldsymbol{x}_N(t)$ və onun törəməsinin - $\dot{e} = \dot{x}(t) - \dot{x}_N(t)$ qiymətləri) təhlil edilir.

**Əgər** hər hansı bir zaman intervalında $t_{rif} = [t_{rib}, t_{ris}]$ AİS-in fəaliyyətinin keyfiyyət göstəriciləri, məsələn,

$$|e(t)| \geq \mathcal{E}_{bb} \text{ və } |\dot{e}(t)| \geq \dot{\mathcal{E}}_{bb} \qquad (4.1)$$

olarsa, **onda** intellektual tənzimləticinin əvvəlki $i-1$-ci intervaldakı "məlum" parametirləri (məsələn, qeyri-səlis term çoxluqların modaları və s.) adaptasiya olunur. Burada $t_{ris}, t_{rib}$, müvafiq olaraq, AİS-in real fəaliyyətində $i-ci$ intervalının başlanğıc və son zaman anlarıdır.

(4.1) münasibətində $\mathcal{E}_{bb}$ və $\dot{\mathcal{E}}_{bb}$, müvafiq olaraq, sistemin dəqiqliyinin (xətanın ) və onun törəməsinin mütləq qiymətcə buraxıla bilən qiymətləri olub, konstruktor tərəfindən verilir.

Təklif olunmuş intellektual AİS-in, başqa sözlə, qeyri-səlis tənzimləyicinin sazlama parametrlərinin (term çoxluqlarının modalarının) $e_N$ və $\dot{e}_N = \dot{x}_N$ əsasında "offline'' rejimdə adaptasiyasının strukturu Şəkil 4.1.-də verilmişdir.




Şəkil 4.1. İntellektual qeyri-səlis tənzimləyicinin sazlama parametrlərinin (term çoxluqlarının modalarının) $e_ş$ və $x_ş$ əsasında "offline'' rejimdə adaptasiyasının strukturu

Qeyri-səlis tənzimləyicinin biliklər bazası linqvistik qaydalar cədvəli (LQC) aşağıda verilmişdir. Tənzimləyicinin LQC-in konstruksiya olunması qeyri-səlis term çoxluqların təyini ətraflı şəkildə izahı [10] məqaləsində verildiyindən, bu məqalədə şərh etməyə lüzum yoxdur. İntellektual qeyri-səlis tənzimləyicinin LQC-dəki $E^L$, $\dot{E}^L$, müvafiq olaraq, idarəetmənin xətasının və onun törəməsinin qeyri-səlis term çoxluqlarıdır.

**Qeyri-səlis tənzimləyicinin linqvistik qaydalar cədvəli (TLQC)**

| $E^L$ / $\dot{E}^L$ | NB | NM | NS | NZ | Z | PZ | PS | PM | PB |
|---|---|---|---|---|---|---|---|---|---|
| NB | PB | PM | | NB | NB | NM | | | Z |
| NM | | | NB | NB | NM | NS | | Z | PZ |
| NS | | NB | NB | NM | NS | NZ | Z | PZ | PS |
| NZ | NB | NB | NM | NS | NZ | Z | PZ | PS | PM |
| Z | NB | NM | NS | NZ | Z | PZ | PS | PM | PB |
| PZ | NM | NS | NZ | Z | PZ | PS | PM | PB | PB |
| PS | NS | NZ | Z | PZ | PS | PM | PB | PB | |
| PM | NZ | Z | | PS | PM | PB | PB | | |
| PB | Z | | | PM | PB | PB | | PB | PB |

$u_{rL} = \tilde{U}_r$ - İdarəetmənin qeyri-səlis term çoxluqları

TLQC-də linqvistik term çoxluqlardakı hərflər: N - neqativ (mənfi), P - pozitiv (müsbət), Z - zero (sıfır), B – biq (böyük), M - medium (orta), S – smol (kiçik) olmanı bildirir. Cədvəldən göründüyü kimi, xəta və xətanın törəməsi üçün 9 qeyri-səlis term çoxluq seçilmişdir:

$$e_{jL} = E^L = \tilde{E}_j = \{e, \mu_j(e) | \; e \in E\}; \mu_j(e) \in [0,1], \tilde{E}_j \subseteq E \;, j = \overline{1,9}$$
$$\dot{e}_{jL} = \dot{E}^L = \tilde{\dot{E}}_j = \{\dot{e}, \mu_j(\dot{e}) | \dot{e} \in \dot{E}\}, \mu_j(\dot{e}) \in [0,1], \tilde{\dot{E}}_j \subseteq \dot{E}, \quad j = \overline{1,9}$$

$E^L$, $\dot{E}^L$, $\tilde{U}_r$ - linqvistik qeyri-səlis term çoxluqların mənsubiyyət funksiyaları $\mu_j(.)$ Qaus şəkilli funksiyalar kimi seçilərək, Fuzzy Logic Toolbox əsasında realizasiya olunur.

Real mexatron qurğu kimi elastik birləşməli robotun mühərriki qəbul edilmişdir [9]. Texniki xarakteritikasına görə bu qurğu idarəetmə obyekti kimi kifayət qədər qeyri-xəttiliyə və qeyri-stasionarlığa malikdir [9] (bax Əlavə 1).

Yuxarıda Şəkil 4.1- də təklif edilmiş intellektual AİS-in qeyri-səlis tənzimləyicini neyron texnologiyası əsasında adaptasiyasının texniki realizasiyası MATLAB mühitində (Fuzzy Logic Toolbox, Neural Network Toolbox və Simulink paketləri əsasında) işlənmişdir. Kompüter modelləşdirmənin nəticələrinə görə, yəni NŞ-li qara qutu modeli ilə qurulmuş intellektual AİS-in və real obyektin intellektual tənzimləyicili ilə qurulmuş sistemin keçid prosesləri praktiki olaraq eynidir (Şəkil 4.2).

**Nəticə.** *Girişi* $-u(t)$ *və vəziyyət dəyişənləri* $-x(t), \dot{x}(t)$ *müşahidə-ölçülə bilən halda qeyri-müəyyənlikli qeyri-xətti dinamik obyektlərin yüksək dəqiqliklə"qara qutu" modelinin neyron texnologiyası əsasinda identifikasiyasının səmərəli olduğu bilavasitə real konkret mexatron qurğu – elastik birləşməli robot üçün isbat edilmişdir. Obyektin"qara qutu" modeli NŞ-in xətanın əks yayılması ("error back propagation") al-*

*qoritmi əsasında öyrədilmiş və NŞ-in çıxış - vəziyyət dəyişənləri* $x_N(t)$ *və törəməsi -* $\dot{x}_N(t)$ *real mexatron qurğunun vəziyyət dəyişənləri* $-x(t), \dot{x}(t)$ *ilə üst-üstə düşməsi üçün NŞ-in strukturu (layları - 3), laylardakı neyronların sayı (300,300,1),ötürmə funksiyaları (bax proqramın 2-ci sətrinə) və sair parametrləri müəyyənləşdirilmişdir.*

*Obyektin NŞ-li modeli əsasında intellektual AİS-in qeyri-səlis tənzimləyicinin parametrləri: qeyri-səlis term çoxluqların sayı,onların modaları, mənsubiyyət funksiyaları təyin edilmiədir. MATLAB mühitində aparılmış kompüter simulyasiyası əsasında təklif olunmuş intellektual AİS-in dayanıqlı və tələb olunan dinamik dəqiqliyə malik olduğu (Şəkil 4.2) və onun adaptasiyasının effektivliyi göstərilmişdir.*




a) b)

Şəkil 4.2. Real obyektin – mexatron qurğunun intellektual AİS-in (a) və NŞ tipli model əsasında intellektual AİS-in (b) keçid prosesləri

Əlavə 1. Real obyektin - elastik birləşməli manipulyatorun hərəkətini vəziyyətlər fəzasında dörd birtərtibli qeyri-xətti diferensial tənliklər şəklində yazmaq olar [9]:

$$\begin{bmatrix} \dot{x}_1(t) \\ \dot{x}_2(t) \\ \dot{x}_3(t) \\ \dot{x}_4(t) \end{bmatrix} = \begin{bmatrix} x_2(t) \\ -(a_{21}\sin x_1(t) + a_{23}x_1(t)) + a_{23}x_3(t) \\ x_4(t) \\ a_{41}x_1(t) - a_{43}x_3(t) \end{bmatrix} + \begin{bmatrix} 0 \\ 0 \\ 0 \\ b_{41} \end{bmatrix} u(t)$$

Burada $x_1(t) = \theta_1(t), x_2(t) = \dot{\theta}_1(t), x_3(t) = \theta_2(t), x_4(t) = \dot{\theta}_2(t)$- vəziyyət dəyişənləri, qeyri-xətti obyektin parametrləri ([9]-a əsasən) təqribən aşağıdakı kimi qiymətləndirmək olar:

$$a_{21} = \frac{mgl}{I} = 0{,}0981\ , a_{23} = \frac{k}{I} = 0{,}05\ , \qquad a_{41} = a_{43} = \frac{k}{J} = 0{,}05\ , b_{41} = \frac{l}{J} = 1$$

## Ədəbiyyat


1. Jafarov S.M., Mustafayeva A.M. Identification of Dynamic Objects Under Uncertainty And Non-Stationarity Using Etalon Transformers. Procedia Computer Science. Vol.120, 2017, p.561-567
2. Jafarov S.M., Zeynalov E.R., Mustafayeva A.M., Zeynalova L.M., Jafarov P.S. Identification of fuzzy models on nonlinear dynamic objects with observability of input and output. Fifth International Conference on Soft Computing, Computing with Words and Perceptions in System Analysis, Decision and Control, pp. 302-306, Famagusta, North Cyprus 2-4 September, 2009
3. Əliyev R.Ə., Cəfərov S.M., Babayev M.C., Hüseynov B.Q. İntellektual sistemlərin qurulma prinsipləri və layihələndirilməsi. Bakı, Nərgiz, 2005, 368 s.
4. Aliyev R.A., Jafarov S.M., Babayev M.J, Zeynalov E.R. Control Robotic Systems. Baku, Zaman-3, 2004, 328 p.

5. Jafarov S.M., Zeynalov E.R., Mustafayeva A.M. Synthesis of robust controller-regulators for omnidirectional mobile robot with irregular movement. Procedia Computer Science. Vol.102, 2016, p.469-476
6. Jafarov S.M., Aliyeva A.S. Synthesis of Intelligent Control System With Coordinate And Parametric Feedback. Procedia Computer Science. Vol.120, 2017, p.554-560
7. Петров Б.Н., Рутковский В.Ю., Земляков С.Д. Адаптивное координатно-параметрическое управление нестационарными объектами. Москва, Наука, 1981, с.244
8. Джафаров С.М. Построение адаптивной системы управления с идентификатором для одного класса динамических объектов с запаздыванием. Изв.АН СССР, Техническая кибернетика, 1979, №2, с.181-190
9. Нусратов О.К., Джафаров П.С., Джафаров С.М., Зейналов Э.Р., Мустафаева А.М. Аналитический метод синтеза регулятора с нечеткой T-S моделью для управления нелинейным динамическим объектом – манипулятором робота с гибким соединением. Жур.Мехатроника, Автоматизация и Управление. Москва, 2011, №8, с.10-14
10. Cəfərov S.M., Əliyeva A.S., Babayev F.İ., İsmayılzadə S.E. Qeyri-səlis dinamik obyektlər üçün qeyri-səlis linqvistik tənzimləyicilərin biliklər bazasının sintezi. "İnformasiya sistemləri və texnologiyaları: nailiyyətlər və perspektivlər". Beynəlxalq elmi konfransın materialları. Sumqayıt, 2018, 15-16 noyabr, s.395-398

## MODELLING AND INTELLIGENT CONTROL OF A DYNAMIC OBJECT WITH UNCERTAINTY BASED ON NEURAL TECHNOLOGIES

**S.M.Jafarov, A.S.Aliyeva, S.E.Ismayilzadeh**

### SUMMARY

The problem of identification of a "black box" type model of a non-linear dynamic object with uncertainty under measurability (observability) conditions of input and output phase variables and their derivatives has been stated and solved in this article. The "black box" type model of identification system on the basis of a neural network has been proposed. The structure of the neural network, the number of neurons and their activation functions, as well as the learning algorithm for neural network have been determined. The experimental studies conducted in MATLAB have shown that the developed black box-type neural network can be used in the synthesis of an intelligent automatic control system by a mechatronic device. The technical realization of the proposed intelligent ACS with a fuzzy regulator can be adapted in "offline" mode using the "black box" type neural network model.

## МОДЕЛИРОВАНИЕ И ИНТЕЛЛЕКТУАЛЬНОЕ УПРАВЛЕНИЕ ДИНАМИЧЕСКИМ ОБЪЕКТОМ С НЕОПРЕДЕЛЕННОСТЬЮ НА ОСНОВЕ НЕЙРОННЫХ ТЕХНОЛОГИЙ

**С.М.Джафаров, А.С.Алиева, С.Э.Исмаилзаде**

### РЕЗЮМЕ

В статье поставлена и решена задача идентификации модели типа «черного ящика» нелинейного динамического объекта с неопределенностью при условиях из-

меряемости (наблюдаемости) входных и выходных фазовых переменных и их производных. Предложена система идентификации модели типа «черного ящика» на базе нейронной сети (НС). Определены структура НС, количество нейронов и функции активации их, алгоритм обучения НС. Проведенные экспериментальные исследования в среде MATLAB показали, что разработанную НС типа «черного ящика» можно использовать при синтезе интеллектуальной САУ мехатронным устройством. Техническую реализацию предложенной интеллектуальной САУ с нечетким регулятором можно адаптировать в «offline» режиме с использованием НС -модели типа «черного ящика».

*Məqalə redaksiyaya 13 fevral 2019 tarixində daxil olmuş, 25 fevral 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 539.3

# QEYRİ-BİRCİNS NANOÇUBUQLARIN DAYANIQLIĞININ "DİNAMİK" PASTERNAK MODELİ VASİTƏSİLƏ ÖYRƏNİLMƏSİ

**V.Q.Rəcəbov**
Bakı Mühəndislik Universiteti
Xırdalan, Həsən Əliyev küçəsi 120
e-mail:vuqarrecebov1@gmail.com

***Açar sözlər:*** elastiki mühit, Pasternak modeli, nanoçubuq, qeyri-lokal nəzəriyyə, dayanıqlıq
***Keywords:*** elastic medium, Pasternak model, nanorod, non-local theory, stability
***Ключевые слова:*** упругая среда, модель Пастернака, наностержень, нелокальная теория, устойчивость

Müxtəlif izotrop bircins elastik materiallardan hazırlanmış laylı, çubuq konstruksiya elementlərinin möhkəmlik və dayanıqlıq məsələləri elmi ədəbiyyatda ətraflı tədqiq edilmişdir. Son zamanlar süni və kompozit materiallar texnologiyaları sürətlə inkişaf etdiyinə görə bir çox hallarda konstruksiyalar bu cür materiallardan hazırlanır. Bu zaman materiallarda müxtəlif qeyri-bircinslik xassələri əmələ gəlir və bunların konkret məsələlər həll edildiyi zaman nəzərə alınması zərurəti yaranır. Bu cür faktorlar xüsusilə dayanıqlıq məsələlərində böyük əhəmiyyət kəsb edir. Son zamanlar bir çox məsələləri həll edərkən daha dəqiq hipotez və nəzəriyyələrdən istifadə etmək lazım gəlir. Belə nəzəriyyələrdən biri də K.A.Eringenin təklif etdiyi qeyri-lokal elastiklik nəzəriyyəsidir.

Qeyri-lokal elastiklik nəzəriyyəsinə əsasən, qeyri-bircins nano və mikroelementlərin əyilmə, dayanıqlıq, məcburi və məxsusi rəqs məsələlərini tədqiq etmək, məxsusi rəqs tezliklərinin və dayanıqlığının itirilməsinə uyğun böhran qüvvəsinin tapılması aktual məsələlərdəndir. [1,2,3,4,6,7] işlərində qeyri-bircins çubuqlar üçün Eringen tərəfindən təklif olunmuş qeyri-lokal elastiklik nəzəriyyəsinin fiziki hal tənliklərindən istifadə edilməklə Eyler-Bernulli çubuqlar nəzəriyyəsinə görə dayanıqlıq, əyilmə və rəqs tənlikləri alınmışdır. Bu tənliklər əsasında qeyri-bircins nanoçubuqların dayanıqlığının itirilməsinə uyğun böhran qüvvəsini və məxsusi rəqs tezliklərini, zamana görə harmonik dəyişən qüvvənin təsirindən yaranan məcburi rəqslərə uyğun əyintisini hesablamaq üçün analitik ifadə alınmışdır. [9]-da qeyri-lokal elastiklik nəzəriyyəsinə əsasən özlü-elastiki mühitlə kontaktda olan qeyri-bircins nanoçubuqların dayanıqlıq və rəqs məsələlərinə baxılmışdır. Çubuqlar nəzəriyyəsi olaraq, Eyler-Bernulli nəzəriyyəsndən istifadə olunmuşdur. Məsələnin qoyuluşunda fərz edilir ki, materialın elastiklik modulu qalınlıq koordinatının kəsilməz funksiyasıdır. Mühitin özlülük xassəsini nəzərə almaq üçün "dinamik Pasternak" modeli tətbiq olunmuşdur. Məsələnin həllində Eringen tərəfindən təklif olunmuş qeyri-lokal elastiklik nəzəriyyəsinin fiziki hal tənliklərindən istifadə edilməklə alınmış dayanıqlıq və rəqs tənliklərindən istifadə olunmuşdur. Nanoçubuqların müxtəlif sərhəd şərtlərinə görə rəqs və dayanıqlıq tənlikləri həll edilərək, məxsusi rəqs tezlikləri və böhran qüvvəsi üçün analitik düsturlar alınmışdır.

Eringenin qeyri-lokal elastiklik nəzəriyyəsinə əsasən mühitlə təmasda olan qeyri-bircins nanoelementlərin dayanıqlıq məsələlərini tədqiq etmək üçün aşağıdakı tənlikdən is-

tifadə edəcəyik [2,8]:

$$\frac{\partial^2}{\partial x^2}\left(-KI\frac{\partial^2 w}{\partial x^2}\right)+\mu\frac{\partial^2}{\partial x^2}\left[\frac{\partial}{\partial x}\left(P\frac{\partial w}{\partial x}\right)-q+m_0\frac{\partial^2 w}{\partial t^2}-\ m_2\frac{\partial^4 w}{\partial t^2\partial x^2}\right]+q--\frac{\partial}{\partial x}\left(P\frac{\partial w}{\partial x}\right)=$$
$$m_0\frac{\partial^2 w}{\partial t^2}--m_2\frac{\partial^4 w}{\partial t^2\partial x^2}$$
(1)

Burada $m_0=\int_s\rho ds=\rho s$; $m_2=\int_s z^2 ds=\rho s\frac{h^2}{12}$, $q-$mühit tərəfindən çubuğun səthinə təsir edən səpələnmiş qüvvədir, $\mu=(l_0 a)^2$. Hesab edəcəyik ki, material qeyri-bircinsdir, yəni elastiklik modulu qalınlıq koordinatının kəsilməz funksiyasıdır: $E=E(z)$. $KI$ çubuğun ümumiləşmiş sərtlik xarakteristikasıdır. Əgər $E=E_0\left(1+\gamma\frac{z^4}{h^4}\right)$ şəklində dəyişərsə, bu halda $KI=E_0I\left(1+\gamma\frac{3}{112}\right)$ olur. Burada $E_0I$ uyğun bircins çubuğun sərtliyidir. Fərz edəcəyik ki, çubuğa yalnız ox boyu sabit sıxıcı qüvvə təsir edir, yəni (1) tənliyində P=const qəbul edilir. Mühitin təsirini nəzərə almaq üçün "dinamik Pasternak" modellərindən istifadə olunmuşdur [8]:

$$q=\left(\tilde{q}\left(1-\lambda\omega^2\right)+\tilde{q}_0\frac{d^2}{dx^2}\right)w,\quad \lambda,\tilde{q},\tilde{q}_0-\text{sabitlərdir.} \qquad (2)$$

(1) tənliyinin periodik həllərini

$$w(x,t)\ =w_1(x)e^{i\omega t} \qquad (3)$$

şəklində qəbul etmək olar. (3) ifadəsini (1) tənliyində yazsaq, alarıq:

$$d_1\frac{d^4w_1}{dx^4}+\ d_2\frac{d^2w_1}{dx^2}-rw_1=0 \qquad (4)$$

Burada aşağıdakı əvəzləmələr edilmişdir:

$$d_1=KI-\ \mu P-\mu m_2\omega^2+\mu\tilde{q}_0,$$
$$d_2=\ m_2\omega^2+P+\mu\tilde{q}(1-\lambda\omega^2)-\tilde{q}_0+\mu m_0\omega^2,$$
$$r=m_0\omega^2+\tilde{q}(1-\lambda\omega^2) \qquad (5)$$

$\omega$ - məxsusi rəqs tezliyidir.
(4) tənliyinin ümumi həlli aşağıdakı kimidir:

$$w_1=c_1\sin\alpha x+c_2\cos\alpha x+c_3\,\mathrm{sh}\,\beta x+c_4\,\mathrm{ch}\,\beta x \qquad (6)$$

Burada

$$\alpha^2=\frac{1}{2d_1}\left(d_2+\sqrt{d_2^2+4d_1r}\right),\quad \beta^2=\frac{1}{2d_1}\left(-d_2+\sqrt{d_2^2+4d_1r}\right)$$

$c_1$, $c_2$, $c_3$, $c_4$ - sərhəd şərtlərindən təyin edilən inteqral sabitləridir. Xüsusi halda a=0, P=0, $m_2$=0, $\mu$=0 olarsa, klassik lokal elastiklik nəzəriyyəsinə görə baxılan məsələnin həlli alınar.

(6) ifadəsinin köməyilə bəzi çevirmələrdən sonra alarıq:

$$\frac{dw_1}{dx} = \alpha(c_1 \cos\alpha x - c_2 \sin\alpha x) + \beta(c_3 \operatorname{ch}\beta x + c_4 \operatorname{sh}\beta x) \quad (7)$$

$$M = -d_1\frac{d^2w}{dx^2} - \mu r w_1 = (d_1\alpha^2 - \mu r)(c_1 \sin\alpha x + c_2 \cos\alpha x) - (d_1\beta^2 + \mu r)(c_3 \operatorname{sh}\beta x + c_4 \operatorname{ch}\beta x) \quad (8)$$

$$N = -d_1\frac{d^3w_1}{dx^3} - d_2\frac{dw_1}{dx} = \alpha(d_1\alpha^2 - d_2)(c_1 \cos\alpha x - c_2 \sin\alpha x) - \beta(d_1\beta^2 + d_2)(c_3 \operatorname{ch}\beta x + c_4 \operatorname{sh}\beta x)$$

(5) tənliyindən alarıq:

$$(2d_1\alpha - d_2)^2 = d_2^2 + 4d_1 r \text{ və ya } d_1\alpha^4 - d_2\alpha^2 - r = 0 \quad (9)$$

Burada (5) ifadələrini yazaraq alarıq:

$$(KI - \mu P - \mu m_2\omega^2 + \mu\tilde{q}_0)\alpha^4 - (m_2\omega^2 + P + \mu\tilde{q}(1-\lambda\omega^2) - \tilde{q}_0 + \mu m_0\omega^2)\alpha^2 - m_0\omega^2 + \tilde{q}(1-\lambda\omega^2) = 0 \quad (10)$$

Buradan ümumi halda rəqs tezliyini tapmaq üçün aşağıdakı tənliyi alarıq:

$$[-\mu m_2\alpha^4 - (m_2 + \mu m_0)\alpha^2 - m_0 + \lambda\tilde{q}(\mu - 1)]\omega^4 + +[(KI - \mu P)\alpha^4 - \mu m_2\tilde{\beta}^2\alpha^4 + \lambda\tilde{\beta}^2\tilde{q}(\mu - 1) - -(m_2 + \mu m_0)\tilde{\beta}^2\alpha^2 - P\alpha^2 - \mu\alpha^2\tilde{q} - m_0\tilde{\beta}^2 + \tilde{q} + \mu\tilde{q}_0\alpha^4]\omega^2 + +(KI - \mu P)\alpha^4\tilde{\beta}^2 - P\alpha^2\tilde{\beta}^2 - \mu\alpha^2\tilde{q}\tilde{\beta}^2 + \tilde{q}\tilde{\beta}^2 + \mu\tilde{q}_0\alpha^4\tilde{\beta}^2 - \tilde{q}_0\alpha^2 = 0 \quad (11)$$

(11) tənliyindən $P$ qüvvəsini tapa bilərik:

$$P = \frac{(KI - \mu m_2\omega^2 + \mu\tilde{q}_0)\alpha^4 - (m_2\omega^2 + \mu\tilde{q}(1-\lambda\omega^2) + \mu - \tilde{q}_0 + m_0\omega^2)\alpha^2 -}{\alpha^2(\mu\alpha^2 - 1)} \rightarrow$$

$$\rightarrow \frac{-m_0\omega^2 + \tilde{q}(1-\lambda\omega^2)}{\alpha^2(\mu\alpha^2 - 1)} \quad (12)$$

Aşağıdakı işarələmələri qəbul edək:

$s_1 = KI - \mu m_2\omega^2 + \mu\tilde{q}_0$;
$s_2 = m_2\omega^2 + \mu\tilde{q}(1-\lambda\omega^2) - \tilde{q}_0 + \mu m_0\omega^2$;
$s_3 = -m_0\omega^2 + \tilde{q}(1-\lambda\omega^2)$

Bu işarələmələrdə $P$ qüvvəsinin ifadəsini aşağıdakı şəkildə yaza bilərik:

$$P=\frac{s_1\alpha^4-s_2\alpha^2+s_3}{\alpha^2(\mu\alpha^2-1)} \tag{13}$$

Çubuğun hər iki ucunun oynaqlı bərkidildiyi hala baxaq. Bu halda x=0 və x=a olduqda aşağıdakı sərhəd şərtləri ödənməlidir:

$$w_1=0 \text{ və } M=-d_1\frac{d^2w_1}{dx^2}-\mu m_0\omega^2 w_1=0 \tag{14}$$

və ya bunlara ekvivalent olan

$$w_1=0 \text{ və } \frac{d^2w_1}{dx^2}=0. \tag{15}$$

P≠0 və $\alpha^2 \neq \beta^2$ olduğuna görə sərhəd şərtlərindən $c_2=0$ və $c_4=0$ münasibətlərini və

$$\begin{aligned} &c_1\sin\alpha a + c_3\,\mathrm{sh}\,\beta a=0,\\ &c_1\sin\alpha a\,(d_1\alpha^2-r\mu)-c_3\,\mathrm{sh}\,\beta a(d_1\beta^2+r\mu)=0 \end{aligned} \tag{16}$$

tənliklərini alırıq. Buradan əyintinin sıfırdan fərqli olması üçün (16) sisteminin determinantını sıfıra bərabər edərək alırıq:

$$\sin\alpha a=0 \text{ və ya } \alpha_n=\frac{n\pi}{a}. \tag{17}$$

$\alpha_n$ üçün tapılmış (17) ifadəsini (13)-də yerinə yazsaq, oynaqlı birləşmə halında elastiki mühitlə təmasda olan qeyri-bircins nanoçubuqların böhran qüvvəsini hesablaya bilərik. $\alpha_n=\frac{n\pi}{a}$ olduğunu (13) ifadəsində nəzərə alsaq, sıxıcı qüvvə üçün alarıq:

$$P=\frac{s_1\left(\frac{n\pi}{a}\right)^4-s_2\left(\frac{n\pi}{a}\right)^2+s_3}{\left(\frac{n\pi}{a}\right)^2\left(\mu\left(\frac{n\pi}{a}\right)^2-1\right)} \tag{18}$$

Bu ifadədən istifadə etməklə böhran qüvvəsini təyin edə bilərik. Bunun üçün P-yə minimum verən $n$ –i təyin etmək lazımdır. Bu isə $\frac{dp}{dn}=0$ tənliyindən təyin olunur. Törəməni hesablayıb sıfıra bərabər etsək, $n$ –ə nəzərən aşağıdakı bikvadrat tənliyi alarıq:

$$2(\mu s_2-s_1)\left(\frac{\pi}{a}\right)^4 n^4-4\mu s_3\left(\frac{\pi}{a}\right)^2 n^2+2s_3=0$$

Alınmış bikvadrat tənliyin köklərini asanlıqla tapa bilərik:

$$n_{1,2}=\pm\frac{a}{2\pi}\sqrt{\frac{4\mu s_3+\sqrt{D}}{\mu s_2-s_1}};\quad n_{3,4}=\pm\frac{a}{2\pi}\sqrt{\frac{4\mu s_3-\sqrt{D}}{\mu s_2-s_1}}$$
$$D=16\mu^2 s_3^2-16s_3(\mu s_2-s_1)$$

Tapılmış $n_{1,2}$ , $n_{3,4}$ köklərindən $P$ −yə minimum verənini seçərək və $P$ −nin ifadəsində yerinə yazaraq, böhran qüvvəsinin ifadəsini alırıq:

$$P = \frac{s_1\left(\frac{n_{min}\pi}{a}\right)^4 - s_2\left(\frac{n_{min}\pi}{a}\right)^2 + s_3}{\left(\frac{n_{min}\pi}{a}\right)^2\left(\mu\left(\frac{n_{min}\pi}{a}\right)^2 - 1\right)} \qquad (19)$$

(19) ifadəsi ədədi üsulla hesablanmışdır. Hesablamanın nəticələri Şəkil 1-də $P/P_0$ nisbətinin qeyri-bircinslik parametrindən asılılığı şəklində verilmişdir. Xarakterik parametrlər üçün aşağıdakı ədədi qiymətlər qəbul edilmişdir:

$\rho$=2300 kq/m$^3$; $E_0$=1000GPA; ν=0.19; G=420GPA; d=1.0$\cdot 10^{-9}$m; I=4.91$\cdot 10^{-38}$ m$^4$; a=7.85$10^{-19}$m$^2$; $l_0$=1.5$\cdot 10^{-9}$m




Şəkil 1. Böhran qüvvəsinin qeyri-bircinslik parametrindən asılılığı

Şəkil 1-dən göründüyü kimi, qeyri-bircinslik parametrinin qiyməti artdiqca böhran qüvvəsinin qiyməti artır. Bu onunla izah olunur ki, baxdığımız misalda qeyri-bircinslik parametrinin qiymətinin artması çubuğun sərtliyinin artmasına bu isə öz növbəsində böhran qüvvəsinin qiymətinin artmasına səbəb olur.

## Ədəbiyyat

1. Eringen A.C. Theory of micropolar fluid. J.Math. Mech., V. 16, № 1, 1966, pp. 1-16.
2. İsayev F.Q., Rəcəbov V.Q. Qeyri-bircins nano-mikroelementlərin Eringen nəzəriyyəsinə görə möhkəmliyi və dayanıqlığı // Journal of Qafqaz University, Mechanical and industrial engineering, Bakı, 2015, Volume 3, Number 1, səh. 80-85.
3. Исаев Ф.К., Раджабов В.Г. Устойчивость неоднородных нано-микроэлементов на основе нелокальной теории упругости // Вісник Національного Течнічного Університету "ХПІ", № 52(1161) 2015, Харків НТУ, "ХПІ", 2015, стр. 5-8.
4. İsayev F.Q., Rəcəbov V.Q. Qeyri-bircins Eyler-Bernulli nano-mikroelementlərinin qeyri-lokal nəzəriyyəyə görə rəqsləri // Pedaqoji Universitet xəbərləri, №2, 2015, səh. 9-13.

5. Pirmammadov I.T., Latifov F.S., Radjabov V.G. The Vibration of Non-Homogenous Nano-Microelements of The Euler-Bernulli Beam Theory According to The Nonlocal Theory / Proceedinges of the second International symposium of mechanism and machine science ( ISMMS-2017 ). 11-14 September 2017, AzTU, Baku, Azerbaijan, pp. 182-186
6. Rəcəbov V.Q. Qeyri-bircins Eyler-Bernulli nanoelementlərin qeyri-lokal nəzəriyyə görə məxsusi rəqsləri // Nəzəri və Tətbiqi Mexanika, № 3-4, Bakı, 2017, səh. 66-71.
7. Rəcəbov V.Q. Mühitlə təmasda olan qeyri-bircins Eyler-Bernulli nanoelementlərinin qeyri-lokal nəzəriyyəyə görə məxsusi rəqsləri // Ekologiya və su təsərrüfatı, 2017, №5, səh. 83-87.
8. Rəcəbov V.Q. Ətalət təsiri nəzərə alınan mühitlə təmasda olan qeyri-bircins Eyler-Bernulli nanoelementlərin qeyri-lokal nəzəriyyəyə görə məxsusi rəqsləri // Journal of Baku Engineering University, Bakı, Volume 1, Number 1, 2017, səh. 55-59.
9. Rəcəbov V.Q. Qeyri-lokal elastiklik nəzəriyyəsinə əsasən özlü-elastiki mühitlə təmasda olan qeyri-bircins nano-mikroelementlərin məxsusi rəqsləri və dayanıqlığı // Nəzəri və Tətbiqi Mexanika, № 1-2, Bakı, 2018, səh. 17-22.

## STUDY OF STABILITY OF INHOMOGENEOUS NANORODS BY USING “DYNAMIC” PASTERNAK MODEL

**V.G.Rajabov**

### SUMMARY

The problem of stability of inhomogeneous nanorods in contact with an elastic medium is solved in this article. Euler-Bernoulli rod theory and “dynamic” Pasternak model are applied to solve the problem. Physical relations of non-local theory of elasticity proposed by Eringen are used, equations of motion of nanorods are obtained. Analytical expressions for the critical strength of stability of nanorods are found.

## ИЗУЧЕНИЕ УСТОЙЧИВОСТИ НЕОДНОРОДНЫХ НАНОСТЕРЖНЕЙ С ПРИМЕНЕНИЕМ «ДИНАМИЧЕСКОЙ» МОДЕЛИ ПАСТЕРНАКА

**В.Г.Раджабов**

### РЕЗЮМЕ

В статье решена задача об устойчивости неоднородных наностержней, контактирующих с упругой средой. Для решения задачи применяется теория стержней Эйлера-Бернулли и «динамическая» модель Пастернака. Используются физические соотношения нелокальной теории упругости, предложенной Эрингеном, получены уравнения движения наностержней. Найдены аналитические выражения для критической силы устойчивости наностержней.

*Məqalə redaksiyaya 4 mart 2019 tarixində daxil olmuş, 27 mart 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

UOT № 531

# ЦИКЛИЧЕСКОЕ ЗАКРУЧИВАНИЕ С ВНУТРЕННИМ ДАВЛЕНИЕМ ПРЕДВАРИТЕЛЬНО РАСТЯНУТЫХ С КРУЧЕНИЕМ ТОНКОСТЕННЫХ ЦИЛИНДРОВ

**А.С.Гулгазли, А.М.Бабаев**
Азербайджанский Государственный Университет Нефти и Промышленности
Баку, пр-т Азадлыг, 20
e-mail: babaam@rambler.ru

***Açar sözlər:*** etibarlılıq, nazikdivarlı silindr, gərginlik tenzoru, qalıq gərginlik, plastic deformasiya, axıcılıq səthi

***Keywords:*** reliability, thin-walled cylinder, stress tensor, residual stress, plastic deformation, yield surface

***Ключевые слова:*** надежность, тонкостенный цилиндр, тензор напряжений, остаточное напряжение, пластическая деформация, поверхность текучести

К повышению прочности материала тонкостенных цилиндрических труб на практике приходят реализуя растяжение [1]. Считая технические усложнения при осуществлении способа оправданными достигаемым эффектом, необходимо отметить в качестве главного недостатка существенное искажение формы детали вблизи ее концевых зон вследствие значительных остаточных деформаций в поперечном направлении.

Одноосное растяжение материала в различных направлениях обеспечивается за счет одновременного приложения к цилиндрическому трубчатому образцу осевой силы, внутреннего давления и скручивающего момента в различных комбинациях (Рис. 1б).



а б

Рис.1. Комбинированное нагружение тонкостенного цилиндра

Достоинство способа состоит в том, что на практике он обеспечивает возможность выявления воздействий в условиях плавной многократной переориентации растягивающего действия на стенку трубы. Недостатки способа проявляются в

технической сложности осуществления изменения осевой силы и внутреннего давления.

На Рис.1а приведена иллюстрация, поясняющая идею упрочнения пластичного материала методом динамической вытяжки: увеличение предела пропорциональности $\sigma_П$ (кривая 2) в сравнении с исходным значением $\sigma_П$ достигается при весьма незначительной величине остаточной деформации $\varepsilon_{ост}^{(2)}$ в то время, как при статической вытяжке (кривая 1) соответствующая деформация $\varepsilon_{ост}^{(1)}$ оказывается во много раз больше.

**Постановка задачи.** При повторном нагружении цилиндр одновременно и закручивается и внутри действует равномерное давление, т. е. отличны от нуля $\sigma_{r\varphi}=\tau$; $\sigma_{\varphi\varphi}=\sigma_\varphi$. Кроме этих напряжений имеют место начальные напряжения:

$$\sigma'_{zz}=\frac{1-k_0}{2}\sigma_0;\qquad \sigma'_{r\varphi}=\frac{1-k_0}{2}\tau_0; \tag{1}$$

Тогда при повторном нагружении конечные напряжения будут (рис.2):

$$\sigma_{zz}=\frac{1-k_0}{2}\sigma_0;\ \sigma_{\varphi\varphi}=\sigma_\varphi;\ \sigma_{r\varphi}=\frac{1-k_0}{2}\tau_0+\tau \tag{2}$$

Другие компоненты напряжения равны нулю.

Таким образом, отличны от нуля два начальных напряжения, определяемые равенством (1), и три напряжения при повторном циклическом нагружении, определяемые равенством (2).

В работе [2] получено уравнение поверхности для повторного нагружения в следующем виде:

$$\bar{J}_1^2+2(1+\nu)\bar{J}_2=\left(\frac{k_0+1}{2}\right)^2\left[J_1^{0^2}+2(1+\nu)J_2^0\right] \tag{3}$$

где $\overset{\circ}{\sigma}_{ij}$ - компоненты напряжения в конце предыдущего активного нагружения, $\bar{\sigma}_{ij}$ - текущей точки на поверхности текучести при повторном нагружении. Определим $\bar{\mathcal{J}}_1$, $\bar{\mathcal{J}}_2$, $\mathcal{J}_1^0$, $\mathcal{J}_2^0$.

$$\bar{\mathcal{J}}_1=\bar{\sigma}_{ij}\delta_{ij}=\sigma_{zz}+\sigma_{\varphi\varphi}=\frac{1-k_0}{2}\sigma_0+\sigma_\varphi$$

$$\bar{\mathcal{J}}_2=-\frac{1}{2}\left(\bar{\mathcal{J}}_1^2-\bar{\sigma}_{ij}\cdot\bar{\sigma}_{ij}\right)=-\frac{1}{2}\Big[\Big(\frac{1-k_0}{2}\sigma_0+\sigma_\varphi\Big)^2-\Big(\frac{1-k_0}{2}\sigma_0\Big)^2-$$

$$-\sigma_\varphi^2-\Big(\frac{1-k_0}{2}\tau_0+\tau\Big)^2\Big]$$

$$\mathcal{J}_1^0=\sigma_{ij}\delta_{ij}=\sigma_0;\mathcal{J}_2^0=-\frac{1}{2}\left(\mathcal{J}_1^{0^2}-\sigma_{ij}{}^0\cdot\sigma_{ij}{}^0\right)=-\frac{1}{2}\tau_0{}^2$$

где по повторяющимся индексам идет суммирование от 1 до 3, $\delta_{ij}$ - символы Кронекера, $k_0$ имеет вид

$$k_0=\sqrt{\frac{2\sigma_0{}^2}{\mathcal{J}_1^{0^2}+2(1+\nu)\mathcal{J}_2^0}-1}$$

В данном случае,

$$k_0 = \sqrt{\frac{2k^2}{\sigma_0^2-(1+\nu)\tau_0^2}} - 1 \qquad (4)$$

Подставляя эти выражения в (3), после некоторых преобразований имеем:

$$(\frac{1-k_0}{2}\sigma_0)^2 + \sigma_\varphi^2 + (1+\nu)(\frac{1-k_0}{2}\tau_0 + \tau)^2 - \nu(1-k_0)\sigma_0\sigma_{\varphi}=$$

$$= \frac{(1+k_0)^2}{4}[\sigma_0^2 - (1+\nu){\tau_0}^2] \qquad (5)$$

(5) является уравнением поверхности текучести при повторном нагружении. Начальная поверхность текучести и поверхность разрушения имеют вид [2]:

$$\mathcal{J}_1^2 + 2(1+\nu)\mathcal{J}_2 = {\sigma_T}^2 \qquad (6)$$

$$\mathcal{J}_1^2 + 2(1+\nu)\mathcal{J}_2 = 2{\sigma_T}^2 \qquad (7)$$

Для рассматриваемого случая (6) и (7) будут:

$$\sigma_0^2 - (1+\nu)\tau_0^2 = {\sigma_T}^2 \qquad (8а)$$

$$\sigma_0^2 - (1+\nu)\tau_0^2 = 2{\sigma_T}^2 \qquad (8б)$$

Следовательно, чтобы произошло упрочнение материала, должно выполняться следующее условие:

$${\sigma_T}^2 < \sigma_0^2 - (1+\nu)\tau_0^2 < 2{\sigma_T}^2 \qquad (9)$$

Чтобы получить начальную поверхность выносливости в (5) предел текучести следует заменить на предел выносливости. Тогда уравнение начальной поверхности выносливости будет:

$$\sigma_0^2 - (1+\nu)\tau_0^2 = {\sigma_в}^2 \qquad (10)$$

Чтобы получить уравнение поверхности выносливости при повторном циклическом нагружении в (3) предел текучести следует заменить на предел выносливости. Тогда $k_0$, которое входит в (4) перейдет на $k_B$, причем

$$k_в = \sqrt{\frac{2{\sigma_в}^2}{\sigma_0^2-(1+\nu)\tau_0^2}} - 1 \qquad (11)$$

Уравнение поверхности выносливости при повторном циклическом нагружении будет:

$$\left(\frac{1-k_в}{2}\sigma_0\right)^2 + \sigma_\varphi^2 + (1+\nu)\left(\frac{1-k_в}{2}\tau_0 + \tau\right)^2 - \nu(1-k_в)\sigma_0\sigma_\varphi =$$

$$= \frac{1-k_в^2}{4}[\sigma_0^2 - (1+\nu){\tau_0}^2] \qquad (12)$$

Поверхность (12) содержит в себе поверхность (10). Чтобы получалось усталостное разрушение при циклическом нагружении без начальных напряжений конец пути нагружения должен выходить за пределы поверхности выносливости (10), а когда имеют место начальные напряжения чтобы получалось усталостное разрушение при циклическом нагружении конец пути должен выходить за пределы поверхности выносливости (12). Определим выражение для циклов, необходимых для усталостного разрушения. В работе [3] получено в общем виде следующее выражение для числа циклов, необходимых для усталостного разрушения при асимметричном цикле нагружения.

$$N = \frac{2\sigma_{\text{т}}^2}{\left[\left(\mathcal{J}_1^2+2(1+\nu)\mathcal{J}_2-(1+\nu)\sigma_{ij}\sigma'_{ij}+\nu\mathcal{J}'_1\mathcal{J}_1\right)\right](1-k_{\text{в}})} \qquad (13)$$

где

$$\mathcal{J}_1 = \sigma_{ij}\delta_{ij}; \; \mathcal{J}'_1 = \sigma'_{ij}\delta_{ij} \qquad (14)$$

$\sigma'_{ij}$ и $\sigma_{ij}$ - соответственно значения напряжений в начале и конце цикла. В (13) и (14) по повторяющимся индексам i,j идет суммирование от 1 до 3. В работе [4] получено, что

$$\sigma'_{ij} = \frac{1-k_0}{2}\sigma_{ij}^0 \qquad \text{i, j=1,2,3.} \qquad (15)$$

Выражения (15) определяют остаточные напряжения после нагружения напряжениями $\sigma_{ij}^0$. Теперь определим величины, входящие в равенства (13), (14) для данной задачи. Исходя из (15) имеем:

$$\begin{cases} \sigma'_{zz} = \dfrac{1-k_0}{2}\sigma_0 \\ \sigma'_{r\varphi} = \dfrac{1-k_0}{2}\tau_0 \end{cases} \qquad (16)$$

При повторном циклическом нагружении цилиндр растягивается и изнутри действует давление. Отличными от нуля являются компоненты напряжения, определяемые равенством (2). Подставляя эти выражения в (13), для знаменателя получаем:

$$\left[\left(\mathcal{J}_1^2 + 2(1+\nu)\mathcal{J}_2 - (1+\nu)\sigma_{ij}\sigma'_{ij} + \nu\mathcal{J}'_1\mathcal{J}_1\right)\right](1-k_{\text{в}}) =$$

$$\{\left(\frac{1-k_0}{2}\sigma_0\right)^2 + \sigma_\varphi^2 + (1+\nu)\left(\frac{1-k_0}{2}\tau_0 + \tau\right)^2 - \nu(1-k_0)\sigma_0\sigma_\varphi - (1+\nu)[$$

$$\left(\frac{1-k_0}{2}\sigma_0\right)^2 + \frac{1-k_0}{2}{\tau_0}^2] + \nu\left(\frac{1-k_0}{2}\sigma_0 + \sigma_\varphi\right)\frac{1-k_0}{2}\sigma_0\}.$$

$$\cdot\left(1-\sqrt{\frac{2\sigma_{\text{в}}{}^{2}}{\sigma_0^2-(1+\nu)\tau_0^2}-1}\right) \qquad (17)$$

Как видно из (17), в знаменатель входит два составляющие с отрицательным знаком, которые помогут уменьшению знаменателя, следовательно увеличению числа циклов, необходимых для усталостного разрушения. Если не было бы начальное пластическое деформирования, равенство (17) имел бы вид:

$$\left[\left(\mathcal{J}_1^2+2(1+\nu)\mathcal{J}_2-(1+\nu)\sigma_{ij}\sigma'_{ij}+\nu\mathcal{J}'_1\mathcal{J}_1\right)\right](1-k_{\text{в}})=$$
$$(\sigma_\varphi^2+(1+\nu)\tau^2)(1-k_{\text{в}}) \qquad (18)$$

А (13) принимает вид

$$N=\frac{2\sigma_{\text{T}}^2}{(\sigma_\varphi^2+(1+\nu)\tau^2)(1-k_{\text{в}})} \qquad (19)$$

(19) позволяет сравнивать числа циклов, необходимых для усталостного разрушения, когда не имеется начальное пластическое деформирования.

Теперь рассмотрим случай, когда остаточные напряжения незначительные в сравнении с повторными напряжениями. Тогда:

$$\mathcal{J}_1^2{+}2(1{+}\nu)\mathcal{J}_2=+\sigma_\varphi^2+(1+\nu)\tau^2-\nu(1-k_0)\sigma_0\sigma_\varphi$$

$$\sigma_{ij}\sigma'_{ij}=\frac{1-k_0}{2}\tau_0\tau$$

$$\mathcal{J}'_1\mathcal{J}_1=\frac{1-k_0}{2}\sigma_0\sigma_\varphi$$

Подставляя эти величины в (17) имеем:

$$\left[\left(\mathcal{J}_1^2+2(1+\nu)\mathcal{J}_2-(1+\nu)\sigma_{ij}\sigma'_{ij}+\nu\mathcal{J}'_1\mathcal{J}_1\right)\right](1-k_{\text{в}})=$$
$$\{[\sigma_\varphi^2+(1+\nu)\tau^2-\nu(1-k_0)\sigma_0\sigma_\varphi]+\nu\frac{1-k_0}{2}\sigma_0\sigma_\varphi\}(1-$$
$$\sqrt{\frac{2\sigma_{\text{в}}{}^{2}}{\sigma_0^2-(1+\nu)\tau_0^2}-1}) \qquad (20)$$

Равенство (20) намного проще, чем (17).

Определим вид кривой текучести определяемое уравнением (12), когда остаточные напряжения незначительные. Повторное нагружение имеет вид p + M т.е.:

$$\sigma_{\varphi\varphi}=\sigma_\varphi; \quad \sigma_{r\varphi}=\tau.$$

Тогда

$$\begin{cases} J_1 = \sigma_\varphi; \quad J_2 = \tau^2 - \dfrac{\sigma_\varphi}{2} \\ \overline{J_2} = -\frac{1}{2}\left(\overline{J_1}^2 - \overline{\sigma_{ij}} \cdot \overline{\sigma_{ij}}\right) = \frac{1}{2}\tau^2 \end{cases} \tag{21}$$

В работе [2] получено уравнение поверхности нагружения в следующем виде:

$$J_1^2 + aJ_2 + bJ_1J_1^0 + c\sigma_{ij}^0\sigma_{ij} + d = 0 \tag{22}$$

где $\sigma_{ij}^0$ - компоненты напряжения в конце предыдущего активного нагружения, $\sigma_{ij}$ - текущей точки на поверхности текучести. Подставляя (21) в (22) получаем:

$$\sigma_\varphi^2 + \left(1 + \overline{\nu}\right)\tau^2 + c\tau_0\tau = \frac{4k_0}{\left(k_0 + 1\right)^2}\sigma_T^2 \tag{23}$$

где $c = \left(k_0 - 1\right)\left(1 + \nu\right)$.

Заменим переменную $\tau = \overline{\tau} + \tau'$. Тогда из (23) получаем:

$$\sigma_\varphi^2 + \left(1+\nu\right)\overline{\tau}^2 + \left[2\left(1+\nu\right)\tau' + c\tau_0\right]\overline{\tau} = -c\tau_0\tau' +$$
$$+ \frac{4k_0}{\left(k_0+1\right)^2}\sigma_T^2 - \left(1+\nu\right)\tau'^2 \tag{24}$$

Потребуем, чтобы коэффициент при $\overline{\tau}$ равнялся нулю, т.е.

$$2\left(1+\nu\right)\tau' + c\tau_0 = 0$$

Откуда

$$\tau' = -\frac{c\tau_0}{2\left(1+\nu\right)} = \frac{1-k_0}{2}\tau_0$$

Подставляя это выражение в (24), получаем:

$$\sigma_\varphi^2 + \left(1+\nu\right)\overline{\tau}^2 = \frac{4k_0}{\left(k_0+1\right)^2}\sigma_T^2 + \frac{1}{4}\left(1+\nu\right)\left(1-k_0\right)^2\tau_0^2$$

Разделив обе части этого равенства на правую сторону, получим:

$$\frac{\sigma_{\varphi}^2}{k_1^2} + \frac{\bar{\tau}^2}{k_2^2} = 1 \tag{25}$$

где

$$k_1^2 = \frac{4k_0}{(k_0+1)^2}\sigma_T^2 + \frac{1}{4}(1+\nu)(1-k_0)^2\tau_0^2$$

$$k_2^2 = \frac{\frac{4k_0}{(k_0+1)^2}\sigma_T^2 + \frac{1}{4}(1+\nu)(1-k_0)^2\tau_0^2}{(1+\nu)}$$

(25) является уравнением эллипса.

В заключение приведем **основные результаты**.

- Получено выражение для области изменения начальных напряжений, чтобы материал упрочнялся пластически деформируясь и увеличилось число циклов, необходимых для усталостного разрушения при повторном циклическом нагружении (неравенство (9));
- Определено уравнение новой кривой текучести после начального пластического деформирования;
- Получено выражение для новых пределов выносливостей после начального пластического деформирования;

Определен вид уравнение новой кривой текучести и выносливости при повторном асимметричном цикле нагружения;

- Получено также выражение для числа циклов, необходимых для усталостного разрушения, когда начальные напряжения незначительные.

### Литература

1. В.Г.Зубчанинов, Н.Л.Охлопков, В.В.Гараников. Экспериментальная пластичность. Книга 1. Процессы сложного деформирования. Изд. ТГТУ, Тверь, 2003
2. Гулгазли А.С. Пластичность и ползучесть при повторном нагружении. LAP LAMBERT Academic Publishing, Saarbrucken, Germany, 2012, 176 с.
3. Gulgazli A.S., Abbasov S.H., Babayev A.M. New energy theory for endurance when loading is asymmetric. The USA Journal of Applied Sciences. USA www. cibunet.com №3, 2016, p.31-35
4. Бабаев А.М. Зависимость остаточных напряжений от предыдущего напряженного состояния. Научные и Педагогические Известия Университета Одлар Юрду, 2018, № 50, p.12-16

## PLASTİK DEFORMASİYAYA (DARTILMAYA VƏ BURULMAYA) UĞRADILMIŞ NAZİK DİVARLI SİLİNDRLƏRİN TSİKLİK BURULMASI

**Ə.S.Gülgəzli, A.M.Babayev**

### XÜLASƏ

Məlumdur ki, əvvəlki yüklənmədəki gərginlik vəziyyətindən yaranan qalıq gərginlikləri hesabına materialın dözümlülük və axıcılıq həddləri artır. Məqalədə eyni tsiklik dartılmaya işləyən nazik divarlı silindirlərin, öncədən dartmaqla və burulmaqla plastik deformasiyaya uğratmaqla dözümlülük və axıcılıq həddlərinin artırılması araşdırılır.

## STUDY OF PRE-STRETCHED THIN-WALLED CYLINDERS EXPOSED TO CYCLIC TORSION

**A.S.Gulgazli, A.M.Babayev**

### SUMMARY

It is known that the increase of the yield and endurance limits of the material can be obtained with the help of initial plastic deformation. In this paper, the dependence of the number of cycles required for the fatigue failure under cyclic torsion of thin-walled cylinders with resudial stresses was investigated.

*Məqalə redaksiyaya 19 fevral 2019 tarixində daxil olmuş, 10 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

# İ Q T İ S A D İ Y Y A T
# E L M L Ə R İ B Ö L M Ə S İ

# S E C T I O N O F
# E C O N O M I C S C I E N C E S

2019 - № 51

UOT № 338.2

# AZƏRBAYCANDA DAYANIQLI İQTİSADİ İNKİŞAFIN İNSTİTUSİONAL PROBLEMLƏRİ

**R.T.Həsənov, N.B.Əkbərov**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: abbas.seyidov@gmail.com

***Açar sözlər:*** dayanıqlı inkişaf, institusional struktur, iqtisadi siyasət, iqtisadi artım, aktivlər
***Keywords:*** sustainable development, institutional structure, economic policy, economic growth, assets
***Ключевые слова:*** устойчивое развитие, институциональная структура, экономическая политика, экономический рост, активы

## Giriş

İqtisadi artım məsələsinə bütün zamanlarda və bütün ölkələrdə milli iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi baxılmışdır. Belə yanaşma iqtisadi fəaliyyətin mahiyyətindən və artımın bütün digər iqtisadi hədəflərə nail olunmasının maddi bazası rolundan qaynaqlanır. Lakin iqtisadi artımın təmin olunması və nəticəliliyi düz xətli olmadığından, onun həllinə müxtəlif prizmalardan yanaşılması dünya təcrübəsində tez-tez rast gəlinəndir. Xüsusilə XX əsrin 70-80-ci illərindən dünyada “neft böhranı” və yeni iqtisadi nizamın yaradılması məsələsinin aktuallaşmasından sonra qlobal müstəvidə iqtisadi inkişafın dayanıqlığı və davamlılığının təmin olunması mühüm əməli-metodoloji problem kimi iqtisadi siyasət qurucularının diqqət mərkəzində yer almışdır. Müstəqillik dövründə Azərbaycanda iqtisadi artımın təmin edilməsinə xüsusi diqqət verilmişdir. Düçar olduğumuz müharibə və ağır iqtisadi tarnsformasiya problemlərinə baxmayaraq, iqtisadi artımın təmin olunması milli iqtisadi siyasətin və islahatların əsas hədəflərindən birinə çevrilmişdir. Müasir, yeni inkişaf mərhələsində isə iqtisadi artımın təmin olunmasının keyfiyyət xüsusiyyətlərinə təbii olaraq daha çox əhəmiyyət verilir.

Dayanıqlı və ya davamlı iqtisadi artım və onun təmin olunması ilə bağlı iqtisadi elmi ədəbiyyatda və təcrübədə geniş diapozonlu əsaslı tədqiqatlar mövcuddur. Buraya ilk növbədə Roma klubunun məruzələri, o cümlədən “İqtisadi artımın hədləri”, “Dörd faktor”, BMT sifarişi əsasında hazırlanmış tədqiqatlar, o cümlədən V.Leontyevin rəhbərliyi ilə hazırlanmış “Dünya iqtisadiyyatının gələcəyi”, 1987-ci ildə Q.Brundlandın rəhbərliyi ilə hazırlanmış BMT komissiyasının “Bizim ümumi gələcəyimiz” adlı məruzəsi aid edilə bilər. 1992-ci ildə BMT-nin dayanıqlı inkişaf haqqında Rio-de-Janeyro Konfransından sonra dünyada dayanıqlı iqtisadi inkişaf problematikası həm iqtisadi siyasətin, həm də iqtisadi nəzəriyyənin aktual problemlərindən birinə çevirilmişdir. Dayanıqlı inkişaf konsepsiyasını müxtəlif prizmalardan və fərqli yanaşmalarla şərh etmək olar. Fikrimizcə, dayanıqlı inkişaf elə vəziyyətdir ki, burada iqtisadi artıma hədəf kimi nail olunması yox, şərtləndirici dominantların xarakteri və nəticələrin bölüşdürülməsinin “ədalətliliyi” daha vacib sayılmalıdır. Başqa sözlə, dayanıqlı inkişaf şəraitində iqtisadi artım ətraf mühütin dəyən zərərdən daha çox həcmdə bərpasını və əhalinin kasıblaşması yox, imkanlarının yüksəldilməsini təmin edir.

Dayanıqlı inkişafın təmin edilməsi və uzunmüddətli qorunmasının mühüm bir şərti təkrar istehsal strukturunun effektivliyini ehtiva edən müvafiq institusional mühütin olmasıdır. Belə mühütin əsas elementləri kimi isə dünya təcrübəsinə əsasən aşağıdakıları hesab etmək olar: mülkiyyət münasibətlərinin effektiv müdafiəsi və hüquqi dayanıqlığı; müxtəlif bazarlarda fəaliyyətinin tənizimləyici institutları; maliyyə institutları; sosial konfliktlərin həlli institutları; rəqabət institutları; iqtisadi aktivlərin effektivliyini yüksəldən institutlar, dövlətin rolunu gücləndirən institutlar və s.

**Tranzitiv iqtisadiyyatda inkişafın dayanıqlığının xüsusiyyətləri**

Transformasiya iqtisadiyyatlarında "dayanıqlı inkişaf"ın təmin olunması digər ölkələrə nisbətən bir sıra özəllliklərə malikdir. Məsələ ondadır ki, transformasiya yaşayan ölkələrdə milli iqtisadi sistemin stasionar vəziyyəti özü dayanıqlı olmur və bu səbəbdən əksər hallarda bütövlükdə iqtisadiyyatda zəruri nisbətləri və inkişafın harmonikliyini təmin etmək çətinləşir. Ona görədə belə milli iqtisadiyyatlarda dayanıqlığına potensial təhdidlər daşıyan istiqamətlərdə, qabaqlayıcı, sistemli tədbirlərin görülməsi olduqca vacibdir. Nisbətən universal xarakter daşıyan belə istiqamətlərə - milli iqtisadiyyatın adekvat institusional strukturunun formalaşması, rerurs dominantlığı şəraitində rəqabət üstünlüyündən istifadə etməklə diversifikasiyası və milli təsərrüfatçılığın keyfiyyətcə yenilənməsi, innovasiya yönümlülüyünün gücləndirilməsi, dövlət aktivlərindən istifadənin səmərəliliyinin artırılması və s. aid edilə bilər. Vacib mühüm istiqamətlərə aydındır ki, həmçinin insan kapitalının keyfiyyətinin yüksəldilməsi və həyat keyfiyyətinin postindustrial inkişaf mərhələsinin çağırışlarına müvafiq istiqamətlərdə yaxşılaşdırılması məsələləri də aid edilməlidir.

Ümumiyyətlə, iqtisadi nəzəriyyədən məlumdur ki, əslində inkişaf məsələsinə baxışlarda həmişə ciddi mövqe fərqləri olmuşdur. Məsələn, inkişafı yüksək sürətli artımla sinonim hesab edən Y.Rostou və onu iqtisadiyyatın əsas sahələrinin dərin struktur dəyişikləri kimi təsvir edən Harrod-Domar nəzəriyyəsi (5, s.24-28); inkişafın mənbəələrini, sahibkar təşəbbüskarlığı ilə əlaqələndirərərək innovasiyada axtaran C. Şumpter; iqtisadi dövrlərin xüsusiyyətlərində görən N.Kondratyev (7); gəlirlərdə bərabərsizliklə artımın müsbət korrelyasiyasında axtaran S.Kuznes; cəmiyyətin bütün üzvlərinin tələbatının ödənilməsində H.Mürdal (5, s.68-77) və s. fərqli və eyni zamanda əsaslı dəlillər irəli sürmüşlər. Başqa sözlə iqtisadi inkişaf yetərincə mürəkkəb xarakterə malik olan dinamik xarakterli iqtisadi kateqoriya olmaqla saysız variyasiyalarda şərh oluna bilər və bu əslində anlayışın ehtiva etdiyi mahiyyətin məğzindən doğur. Deməli hər bir konkret iqtisadi sistemdə inkişafın və onun dayanıqlığının təmin olunmasına fərdi modellə yanaşılması vacibdir.

Aparılan araşdırmalar göstərir ki, müasir Azərbaycan iqtisadiyyatında dayanıqlı inkişafın təmin olunmasında "rasional çeviklik səviyyəsində dayanıqlı institusional mühütin" formalaşması fikrimizcə çox önəmlidir. Belə mühütin formalaşması baxımından isə həlli vacib hesab edilən məsələlər sırasına aşağıdakılar aid edilə bilər: milli iqtisadiyyatın struktur mahiyyətindən çıxış edərək "dayanılqı inkişaf" anlayışına adekvat məna və ondan doğan iqtisadi siyasət çərçivəsinin formalaşdırılması; belə dayanıqlı inkişafın təmin olunmasının iqtisadi siyasət üçün metodoloji əsasa çevirilməsi; müvafiq institusional mühütin mahiyyətinin, zərurətinin və strukturunun müəyyənləşdirilməsi; dayanıqlı inkişafa potensial və real mane yaradan institusional faktorların müəyyənləşdirilməsi; milli iqtisadi inkişafda sosial, regional, sektorial və sahə faktorlarının institusional

mühitə tələblərinin formalaşdırılması və s.

Qeyd olunan seçim:

- Sürətli inkişaf dövrünü yaşayan Azərbaycan iqtisadiyyatının "neft əsaslı" xarakterinin müsbət təsirləri ilə yanaşı, dünya təsərrüfat konyukturuna yüksək həssaslığının yaratdığı "dayanıqsızlıq" təhdidlərinin sistemli kompensasiyası və önlənməsi zərurəti;
- Milli iqtisadiyyatda sosial inkişafın xarakterindəki disproporsiayların aradan qaldırılması və həyat keyfiyyətinin dayanıqlığının yüksəldilməsi, regional inkişafın istehsal və məşğulluğun təmin edilməsi baxımından, dayanıqlığın mühüm dominantına çevirilməsi;
- Milli təkrar istehsal strukturunun innovasiya yönlülüyünün gücləndirilməsi, elm tutumlu və resurs qənaətli istehsalın formalaşdırılması;
- Bazar infrastrukturunun formalaşmasının başa çatdırılması və daha vacibi onların fəaliyyətinin normal gedişinin təmin olunması baxımından mülkiyyət hüquqlarının (o cümlədən korporativ və dövlət) mahiyyət prizmasından spesifikasiyasının tamamlanması, iqtisadiyyatın dövlətsizləşdirilməsi və o cümlədən özəlləşdirilmənin başa çatdırılması, milli iqtisadiyyatın rəqabətliliyininın keyfiyyət amilləri üzərinə keçirilməsi; "İnstitutsional tələlər" hesab edilən ödəməmələr, barter, qeyri-leqal iqtisadiyyat, vergidən yayınma, qanunvericiliyin "elastikliyi" və s. kimi məqamlarla əsaslandırıla bilər.

Qeyd olunan vəzifələrin həlli fikrimizcə, dövlətin iqtisadiyyatdan çəkilməklə, tənzimləyici rolunun və biznesin sosial məsuliyyətliliyinin güclənməsi ilə xarakterizə olunan cəmiyyətin sosial stabilliyini və iqtisadiyyatın dayanıqlı inkişafı baxımından əlverişli institusional mühütin formalaşdırılmasını təmin edə biləcəkdir (2).

Aydındır ki, müasir inkişaf mərhələsində bütövlükdə "Dayanıqlı inkişafa" ictimai inkişafın mühüm qanunauyğunluğu kimi baxılması təbii hesab edilməlidir. Lakin nəzərə almaq vacibdir ki, ümumən kəmiyyət xarakterinə malik olan, iqtisadi artım, resursların məhdudluğu səbəbindən daima dayanıqlı ola bilməz. Bununla belə bir sıra ekspertlər hesab edirki, istehlak olunan resursları artırmadan həyat şəraitinin yaxşılaşmasını təmin edə bilən iqtisadi inkişaf da dayanıqlı ola bilər. Belə prizmadan yanaşdıqda, mövcud təhdidlər fonunda həyat şəraitinin yaxşılaşması məsələsi, sosial-ekoloji hədəflərin rasional inteqrasiyasını ehtiva edən artım vasitəsi ilə, daha effektiv inkişaf prosesində həll oluna bilər (4). Rio-92 bəyannaməsində təsbit olunan dayanıqlı inkişaf xarakteristikasının mahiyyətinə əsasən dayanıqlı iqtisadi inkişaf modelinin formalaşdırılmasının əsas metodoloji prinsiplərini aşağıdakılar kimi ifadə etmək olar:

- həyat səviyyəsinin davamlı yaxşılaşdırılmasını ehtiva edən real istehlak səviyyəsinin yüksəlməsi və ya azalmaması;
- ətraf mühütin məqbul normativlər (özünübərpa potensialına əsasən müəyyənləşdirilir) çərçivəsində tarazlığının dəstəklənməsi;
- cəmiyyətdə sosial gərginliyin azaldılması;
- ölkədə iqtisadi-ekoloji təhlükəsizliyə təhdidlərin vaxtında qarşısının alınması.

Bütövlükldə iqtisadiyyatın tranzitivliyini şərtləndirən əlamətlər, iqtisadiyyatın xammal ətalətli inkişaf xüsusiyyətlərinin mövcudluğu; qeyri-neft sektorunun effekiv inkişaf potensialının tam bərpa olunmaması səbəbindən iqtisadiyyatın yeni keyfiyyət səviyyəsində şaxələndirilməsinin başa çatdırılmaması; daxili bazarın idxal asılığının yüksəkliyi; ÜDM-in strukturunda "regional payın" kiçikliyi; təsərrüfatçılıq modelinin rasionallaşdırılması üzrə permanent dəyişiklərin yaratdığı biznes mühütinin stabilləşmə-

məsi; iqtisadiyyatın “dövlətsizləşdirilməsinin“ başa çatdırılmaması səbəbindən qarışıq ukladlılığın yaratdığı, aktivlərdən, ilk növbədə isə Dövlət aktivlərindən istifadənin səmərəliliyini inkişaf etmiş ölkələrlə müqayisədə az olması və s. aid edilə bilər.

Tranzitiv iqtisadiyyatlı ölkələrdə o cümlədən Azərbaycan iqtisadiyyatında qeyd olunan institusional mühüt elementlərinin qiymətləndirilməsinə, mövcud problemlərin xarakteri prizmasından yanaşma məqsədəuyğundur. Məsələn, fikrimizcə, ölkəmizdə institusional mühütdə mövcud olan “naqisliklərin” səbəbləri özəlləşdirmənin xüsusiyyətlərindən doğan mülkiyyət münasibətlərinin qeyri-səmərəliliyi; milli iqtisadiyyatın xammal yönlülüyü, strukturu və istehsal potensialının vəziyyəti ilə şərtlənən rəqabətliliyinin yüksək olmaması; həyat səviyyəsinin aşağı olması; sahibkarlıq və idarəçilikdə müşahidə ounan “milli” özəlliklər və s. kimi əlamətlərlə ifadə oluna bilər.

Dayanıqlı inkişafın təmin olunmasının adekvat institusional mühütinin müasir konfiqurasiyası haqqında danaşarkən isə, iqtisadi artımın katalizatoru kimi çıxış edə innovasiya institutlarının mövcudluğu və effektivliyini mütləq nəzərə almaq vacibdir. Doğrudur, Azərbaycanda bu istiqamətdə son illərdə kifayət qədər geniş işlər görülməkdədir. Aparılan işlərin ən mühüm özəlliyi, Dövlətin risklərin əsas hissəsinin öz üzərinə götürməsi, yeni biznes layihələrə dövlət vəsaitləri, o cümlədən İnvestisiya şirkəti vasitəsi ilə böyük həcmdə vəsaitin ötürülməsi aid edilə bilər.

Müvafiq institusional mühütin formalaşmasında, neft gəlirlərindən istifadənin ölkəmizdə tətbiq olunan modelinin təsirlərinin qiymətləndirilməsinə gəldikdə isə demək lazımdır ki, dünya təcrübəsində “rifah” fondlarının yaradılması və istifadəsi strategiyalarında adətən iki əsas hədəf nəzərdə tutulur: təbii ehtiyatların qiymətlərindəki dünya bazar konyunkturunun hamarlanmaı və təbii rentanın mənimsənilməsi; gələcək nəsillərin və müvəqqəti tənzimləmənin təminatı fondlarının formalaşdırılması. Başqa sösla ikinci hədəf, əlverişli neft konyunkturundan istifadə edərək, sosial göstəricilərin və yüksək istehlak səviyyəsinin gələcəkdə də saxlanılmasını nəzərdə tutur. Iqtisadi mahiyyət baxımından aydındır ki, hətta ən yüksək inkişaf etmiş ölkələrdə belə “sərvət, rantye-millətin” formalaşdırılması nümunələrinin pis örnəklərinin çoxalması, təbii rentanın iqtisadi diversifikasiyanı genişləndirmək üçün ölkə daxilində investisiyaya yönəlldilməsinin daha doğru olduğunu göstərir. Eyni zamanda həmin renta vəsaitləri hesabına “dayanıqlı inkişaf”ın dəstəklənməsini təmin edəcək xüsusi insstitutların yaradılması daha məqsədə müvafiq ola bilər.

## Azərbaycanda dayanıqlı iqtisadi inkişafın institusional vəzifələri

Bazar iqtisadiyyatı quruculuğu sahəsində əslində ilkin mərhələləri yaşayan Azərbaycanda dayanıqlı inkişaf potensialına malik iqtisadiyyat quruculuğunda yuxarıda ifadə edilmiş ümumi yanaşmanın, əlbəttə ki, müəyyən dəyişiklərlə tətbiqini məqsədəuyğun hesab etmək olar. Ölkəmizdə iqtisadi islahatların seçilmiş modelinin bütövlükdə yaratdığı böyük imkanlar və fikrimicə aparılmış məqsədyönlü istisadi siyasət sayəsində direktiv idarəetmə dövründən qalmış və xarici hərbi müdaxilə səbəbindən dahada kəskinləşmiş sosial-iqtisadi və ekoloji problemlərin həlli üzrə mühüm naliyyətlər əldə olunmuşdur. Eyni zamanda qeyd olunan istiqamətlərin hər biri üzrə həllini tələb edən bəzi məsələlər hələdə qalmaqdadır.

Milli iqtisadi sistemin uğurlu inkişafı, Azərbaycan Hökumətini 2012-ci ildə iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə keçməsini hədəfləyən ambisiyalı inkişaf strategiyasını - “Azərbaycan- 2020: Gələcəyə baxış” konsepsiyasını yaratmağa sövqləndir-

mişdir (1, 2). Bütövlükdə geniş əhatə dairəsinə malik olan Konsepsiyanın başlıca strateji məqsədi, mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olunması kimi təyin olunmuşdur. Son iki on illikdə milli dövlət quruculuğu və iqtisadi inkişaf sayəsində əldə olunmuş uğurlar fonunda bu məqsəd təbii və real görünürdü.

Konsepsiyada elan olunur ki, göstərilən məqsədə çatmaq üçün bazar iqtisadiyyatı şəraitində sağlam rəqabəti təmin edən səmərəli dövlət tənzimləməsi, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya və sosial iqtisadi sahələrin inkişafına kompleks yanaşma prinsipləri əsas tutulacaqdır. Nəzərdə tutulur ki, seçilmiş strategiya çərçivəsində istehsal amillərinin ümumi məhsuldarlığının artımı nəticəsində ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi və innovasiyaların üstünlüyü ilə səciyyələndirilən mərhələyə keçid təmin olunacaqdır. İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətləri özündə cəmləşdirir. Bu dövrdə inflyasiyanın məqbul səviyyədə saxlanılması, daha çevik məzənnə rejiminə tədrici keçid nəzərdə tutulur. Eyni zamanda, məqsədyönlü şəkildə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi tədbirləri həyata keçiriləcəkdir. Neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi prioritet istiqamətlər olacaqdır.

İnkişaf strategiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır. Nəzərdə tutulur ki, iqtisadi artım, ölkədə sosial rifahın yüksəlməsi və insan kapitalının prioritetli inkişafını, o cümlədən, təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsini təmin edəcəkdir. Beləliklə Konsepsiyada, iqtisadi inkişaf sahəsində ən mühüm və qlobal hədəf kimi, Azərbaycanda yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının başa çatdırılması və milli iqtisadiyyatın yeni keyfiyyət mərhələsinə keçidini şərtləndirəcək əsas fəaliyyət istiqamətləri: səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması; iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri -neft sektorunun inkişafı; elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi kimi, mahiyyətcə institusional xarakterli fəaliyyət vəzifələri təsbit olunmuşdur.

Milli iqtisadi inkişafın, qeyd edildiyi kimi, ambisiyalı hədəflərinin reallıq potensialının qiymətləndirilməsindəki əsaslı fikir ayrılıqlarına baxmayaraq, ümumən Konsepsiya, qəbul edildiyi ilk illərdə uğurla icra olunmuşdur. Lakin, iqtisadi sistemin inkişafının kifayət qədər şaxələndirilməsinin təmin olunmaması səbəbindən, milli iqtisadiyyatımız son dövrlərdə, neft qiymətlərinin güclü tərəddüdlərinin yaratdığı problemlərlə üzləşdi. Belə ki,

faktiki olaraq, milli iqtisadi siyasətin qurucuları, şaxələndirməni daha çox formal-institusional və hətta daha çox qeyri-iqtisadi amillərlə təmin etməyə üstünlük verərək, yüksək neft konyunkturu dövründə, neft-qaz resurslarının nəqli marşrutlarının artırılması, milli valyutanın yüksək "stabil" kursunun qorunması, regional inkişafda infrastruktur layihələrinə önəm verilməsi və inkişafın nəticəliliyinin beynəlxalq reytinq sistemlərinin metodikaları ilə müəyyənləşdirilməsi yolunu seçmişlər. İqtisadi fikir tarixi və dünya təcrübəsinin dərsləri göstərir ki, belə yanaşma, iqtisadi sistemin inkişafında daha məhsuldar və dayanıqlı hesab edilən, sistemin daxili inkişaf potensialının səfərbər olunması, "özünü inkişaf" qabiliyyətinin bərpası və inkişafın, ümumən inklyuzivliyinin təmin olunması kimi xüsusiyyətlərə önəm verilməməsi ilə səciyyələnir. Belə yanaşmanın böyük ehtimallı, lakin ən arzu olunmaz mümkün nəticəsi milli sistemin konyunktur dəyişiklərinə görə volotilliyinin yüksəlməsi və onun inkişaf potensialının dayanıqlığının azalması ehtimalıdır. Təəssüf ki, Azərbaycan iqtisadiyyatı da belə nəticədən qaça bilmədi. Belə ki, 2014-cü ildən başlayaraq dünya neft bazarında baş verən konyunktur dəyişikləri, milli iqtisadi siyasətin özəllikləri fonunda, 2005-ci ildən etibarən mökəmlənən və artıq stabil valyutaya çevirilmiş manatın, 2015-ci ildə iki mərhələdə kəskin devalvasiyasını qaçılmaz etdi. Bazar prinsiplərinin hakim olduğu iqtisadi münasibətlər sistemində milli valyutanın belə "gözlənilməz" kəskin ucuzlaşması təbii ki, digər sahələrin fəaliyyəti üçün böyük resurs və bazar problemləri (qiymətlərin formalaşmış harmoniyasının və mənfəətlilik səviyyəsinin dəyişməsi, iqtisadi fəallığın aşağı düşməsi və s.) yaratdı. Fikrimizcə, ölkə iqtisadiyyatında yaranmış belə şəraitin əsas səbəbləri, neftin qiymətinin düşməsi fonunda azalan valyuta gəlirləri, əlverişli konyunktura zamanında qeyri-neft sektorunun zəruri inkişafının tam təmin edilməməsi, və s. kimi iqtisadi siyasətin "boşluqları" sayəsində, iqtisadiyyatda yaradılmış dayanıqlıq potensialının nisbi zəifliyi hesab edilə bilər.

Bütövlükdə, Azərbaycan iqtisadiyyatında yaranmış çağdaş durumu dəyərləndirərkən, hazırda müşahidə olunan şəraitin əslində, dövlət aktivlərinin idarəçiliyi xüsusiyyətlərindən qaynaqlanan, struktur və institusional xarakterə malik olması qənətindəyik. Hesab edirik ki, ötən 25 ildə iqtisadi inkişaf strategiyasında məhz bu iki istiqamətə yetərincə diqqət verilməmiş, bu problemlərin təsiredici potensialı nəzərə alınmamışdır. Beləliklə, milli iqtisadi inkişafda gözlənilən və proqnozlaşdırılan "gözlənilməz" şəraitinin əsas səbəblərini, yalnız kənar təsirlərdə yox, həm də, iqtisadi siyasətdə yer almış müəyyən boşluqlarda axtarmaq lazımdır. Belə boşluqlara isə, fikrimizcə ilk növbədə, iqtisadi idarəetmə sistemində təsərrüfatçılıq mexanizminin transformasiyasının və mülkiyyətinin dövlətsizləşdirilməsinin başa çatdırılmaması aid edilməlidir. Çağdaş Azərbaycan iqtisadiyyatının davam edən və özündə "problem potensialı" daşıyan tranzitivliyinin ifadəsi kimi, bu iki mühüm arzu olunmaz xüsusiyyətin aradan qaldırılması məqsədi ilə institusional strukturun təkmilləşməsi və dövlət aktivlərinin idarəçiliyinə yeni yanaşmanın tətbiqi son dərəcə zəruridir.

Azərbaycan iqtisadiyyatında müstəqillik dövrünün iqtisadi təkamül yolunun, inkişafın dayanıqlığı, institusional strukturun təkmilliyi və idarəçiliyin səmərəliliyi baxımından təhlilindən alınan nəticələri əsas götürərək, müvafiq siyasət tədbirləri tövsiyyə oluna bilər: Davam edən özəlləşdirilmənin əsas missiyası, iqtisadiyyatın "dövlətsizləşdirilməsi" kimi qəbul edilməlidir. Yeni yanaşma əsasında, özəlləşdirmənin realizasiyası, Dövlətin bilavasitə iqtisadi fəaliyyətdən rasional və sürətli uzaqlaşması üzrə tapşırıqların formalaşdırılması, rasional və dayanıqlı institusional sistemin, o cümlədən,

fond bazarının normal fəaliyyətinin, korporativ idarəçilk standartlarının realizasiyaı imkanlarının yaradılması,səhmlərin dövriyyəsinin liberal bazarının təmin edilməsi və s. kimi məsələləri ehtiva etməlidir.

Dövlət aktivlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə iqtisadi idarəetmə modelində bir sıra dəyişiklər aparılmalıdır. Dəyişiklərin əsas xəttini təkmil rəqabətliliyin və dövlət aktivlərinin vahid idarəçilik prinsiplərinin formalaşdırılması təşkil etməlidir. Belə yanaşma ilk növbədə, Büdcə və Rəqabət məcəllələrinin qəbul edilməsini, fiskal və monetar siyasətlərin koordinasiyasının gücləndirilməsi, dövlət gəlir və xərclərinin büdcədə tam akkumliyasiyasının təmin edilməsi, təkrarlanan funksiyaları icra edən idarəetmə orqanları və təşkilatların birləşdirilməsi vasitəsi ilə, dövlət xərclərinin azadılması, idarəetmə sistemində inzibatçılıq və maliyyələdirmə modellərinin adekvatlığını təmin edilməsi və s. məsələləri həll edilməlidir.

Vacib bir məqamı yaddan çıxarmaq olmaz ki, Dövlətin həll edici rolu, yalnız onun daha böyük resurslara malik olması ilə şərtlənmir (bütün beynəlxalq renkinq sistemlərinin metodologiyaları bünü təsdiq edir). Dövlətin təsir edici gücü daha çox, onun formalaşdırdığı milli təsərrüfatçılıq mühüti və apardığı iqtisadi siyasətin, o cümlədən, ilk növbədə dövlət aktivlərindən iqtisadi inkişafı stimullaşdırmaq və zəruri məqamlarda dəstəkləmək xarakteri ilə şərtlənir. Əslində sonuncu həm də milli iqtisadiyyatın investisiya cəlbediciliyini təmin etməklə, onun inkişaf potensialını formalaşdırır.

## Nəticə və tövsiyyələr

XX əsrin sonunda insan təbiət münasibətlərinin tənzimləndiyi davamlı cəmiyyətə keçid haqqında bir çox təlim və konsepsiyalar yaradılmışdır. Hazırda dünya birliyi tərəfindən ən çox dəstəklənən və beynəlxalq aləmdə mühüm əhəmiyyət kəsb edən inkişaf nəzəriyyələrindən biri "Dayanıqlı inkişaf" ("*Sustainable development"*) konsepsiyasıdır. BMT nəzdində "Ətraf mühit və inkişaf" üzrə Beynəlxalq Komissiyada Q.X.Brutlandın rəhbərliyi ilə 1987-ci ildə hazırlanmış "Bizim ümumi gələcəyimiz" adlı məruzənin əsas mahiyyətini "Sustainable development" konsepsiyası təşkil edirdi. Onun əsas məğzini “Gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsi” ideyası təşkil edir.

İqtisadi artım kateqoriyasının nəzəri çərçivələrinin araşdırılması və məsələyə müxtəlif iqtisadi məktəblər prizmasından retrospektiv baxışların təhlili nəticəsində, belə qənaətə gəlimək olar ki, qlobal iqtisadi sistemin yeni inkişaf tezisi kimi qəbul edilən dayanıqlı iqtisadi artımın mühüm nəzəri-metodoloji əsaslarından biri, məhz iqtisadiyyatda adekvat instiusionallğın təmin olunmasıdır.

Azərbaycanda müasir dövrdə iqtisadi artımın daşıyıcılarının struktur təhlili, milli iqtisadiyyatın keçid xüsusiyyətlərinin iqtisadi artım üzərində təsirləri və artım daşıyıcılarının dayanıqlığı problemlərinin identifikasiyasını, həmçinin iqtisadiyyatın mövcud institusional tənzimləmə mexanizminin əsas xüsusiyyətlərini və təkmilləşməsi istiqamətlərini müəyyənləşdirməyə imkan verir.

Azərbaycanda yeni şəraitdə davam edən islahatlar prosesində dayanıqlı iqtisadi artımın institusional aspektlərinə diqqəti yüksəltməklə, dövlətin iqtisadi funksionallığının artırılması, milli iqtisadiyyatın institusional idarəetmə çevikliyinin təmini məsələləri və dayanıqlı makroiqtisadi siyasət çərçivələrinin formalaşdırılması çağırışlarının müəyyənləşdirilməsi və s. kimi iqtisadi siyasət vəzifələri özünün daha effektiv həllini tapa bilər.

Aparılan araşdırmalar göstərir ki, müasir Azərbaycan iqtisadiyyatında dayanıqlı inkişafın təmin olunmasında "rasional çeviklik səviyyəsində dayanıqlı institusional mühütin" formalaşması fikrimizcə çox önəmlidir. Belə mühütin formalaşması baxımından isə həlli vacib hesab edilən məsələlər sırasına aşağıdakılar aid edilə bilər: milli iqtisadiyyatın struktur mahiyyətindən çıxış edərək "dayanılqı inkişaf" anlayışına adekvat məna və ondan doğan iqtisadi siyasət çərçivəsinin formalaşdırılması; dayanıqlı inkişafın təmin olunmasının iqtisadi siyasət üçün metodoloji əsasa çevirilməsi; müvafiq institusional mühütin mahiyyətinin, zərurətinin və strukturunun müəyyənləşdirilməsi; dayanıqlı inkişafa potensial və real mane yaradan instiusional faktorların müəyyənləşdirilməsi; milli iqtisadi inkişafda sosial, regional, sektorial və sahə faktorlarının institusional mühütə tələblərinin formalaşdırılması və s.

### Ədəbiyyat


1. "Azərbaycan 2020: gələcəyə baxış" Strateji İnkişaf Konsepsiyası, Bakı, 2012
2. Həsənov R.T. Milli iqtisadiyyatın rəqabətliliyi: struktur islahatları və yeni inkişaf paradiqması, Strateji Təhlil, SAM nəşriyyatı, 1-2, 2017, s.229-258
3. Институциональная экономика: новая институциональная экономическая теория. Учебник / под общ. ред. А.А.Аузана. М: ИНФРА – М., 2005, 416 с.
4. Илякова И.Е. Недискретная институциональная среда как основа устойчивого экономического развития. Diss., 2008, М. 209 с.
5. Нуреев Р.М. Экономика развития: модели становления рыночной экономики М., Инфра-М, 2001, 240 с.
6. Нуреев Р.М. Основные институциональные модели становления и развития капитализма // Институциональная экономика / под общ. ред. А.Олейника. М., Инфра М., 2005, с.350
7. Кондратьев Н.Д. Большие циклы конъюнктуры и теория предвидения / М., Экономика, 2002, с.19


## INSTITUTIONAL PROBLEMS OF SUSTAINABLE ECONOMIC DEVELOPMENT IN AZERBAIJAN

**R.T.Hasanov, N.B.Akbarov**

### SUMMARY

This article considers the role of institutional factors in providing the sustainability of development in modern world. Institutional threats faced by Azeri economy are revealed and the importance of preventing them is stressed. Recommendations and suggestions on major institutional reforms aimed at improving the sustainability of national economy are also included.

# ИНСТИТУЦИОНАЛЬНЫЕ ПРОБЛЕМЫ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

**Р.Т.Гасанов, Н.Б.Акбаров**

## РЕЗЮМЕ

В статье рассматривается значение институциональных факторов в обеспечении устойчивости развития на современном этапе. Выявлены институциональные угрозы, с которыми сталкивается экономика Азербайджана и подчеркнута необходимость их предотвращения. Также изложены рекомендации и предложения по основным направлениям важнейших институциональных реформ, необходимых для повышения устойчивости национальной экономики.

*Məqalə redaksiyaya 18 dekabr 2018 tarixində daxil olmuş, 25 yanvar 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 339.5

# ƏTRAF MÜHİTİN VƏ İQLİM DƏYİŞİKLİKLƏRİNİN İNKLÜZİV İNKİŞAF İNDEKSİNƏ TƏSİRİ

**S.M.Hüseynova**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: sarahuseynova@gmail.com

***Açar sözlər:*** inklüziv inkişaf, ətraf mühit, iqlim dəyişikliyi, insan kapitalı
***Keywords:*** inclusive development, environment, climate change, human capital
***Ключевые слова:*** инклюзивное развитие, окружающая среда, изменение климата, человеческий капитал

Qloballaşan inkişaf edən beynəlxalq iqtisadi sistemdə əhalinin və sənayenin tələbatının ödənilməsində, təbii ehtiyatlardan səmərəli istifadə olunması və ətraf mühitin mühafizəsi qlobal məsələdir. Dayanıqlı iqtisadi inkişaf edən ölkələrdə inklüziv inkişaf indeksinə ətraf mühitin qorunması, təbii ehtiyatlar potensialının keyfiyyətinin saxlanılması və tükənməməsi, təbii ehtiyatlardan düzgün istifadə, ekoloji problemlər, iqlim dəyişiklikləri təsir göstərir. Ona görə də təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsi və bu əlaqələrin qarşılıqlı təsirinin optimallaşdırılması yollarının axtarılması vacib şərtlərdəndir.

Ətraf mühitdən və təbii ehtiyatlardan səmərəli istifadə olunmasında və mühafizəsində iqtisadi aspektlərin araşdırılması, ümumi qanunauyğunluqların öyrənilməsi qlobal mahiyyət daşıyır. Dünya iqtisadiyyatı inkişaf etdikcə ətraf mühitin inkişafı aktual məsələyə çevrilir. Müasir iqtisadiyyatda sənayenin və kənd təsərrüfatının sürətli inkişafı ətraf mühitə külli miqdarda tullantıların atılmasına şərait yaratmışdır. Həmin tullantıları aradan qaldırmaq üçün ətraf mühitin mühafizəsi əsas məsələdir.

İnklüziv inkişaf indeksinə təsir edən göstəricilər sırasında iqtisadi qərarların qəbul edilməsində uzunmüddətli ekoloji problemlərin nəzərə alınması vacibdir. Ətraf mühiti çirkləndirən mənbələr və onların aradan qaldırılması üçün yolların axtarılması ölkə üçün əsas sosial iqtisadi məsələdir. Energetika, neft və neft emalı sənayesi, qaz sənayesi, kömür sənayesi, qara mettalurgiya və iqtisadiyyatın digər gəlir gətirən sənaye sahələri məhsul istehsal edən zaman ətraf mühitin çirklənməsinə səbəb olur.

Xarici iqtisadi ədəbiyyata nəzər saldıqda ətraf mühitin iqtisadiyyata təsiri və təbii resurların ölkə iqtisadiyyatında rolu və ölkənin ÜDM-nə təsirinin makro iqtisadi səviyyədə araşdırılmasını görürük [3].

Ekologiyalaşdırılmış iqtisadiyyatda istehsalın məqsədi ekologiya prinsipləri və məhsuldar qüvvələrin ən vacib tərkib hissəsi sayılan işçi qüvvəsinin sağlamlığı üçün təhlükəsiz olan əmək şəraiti ilə müəyyən olunmalıdır [4].

Yaşıl iqtisadiyyatda müasir ekoloji-iqtisadi sistem hazırki texnogen inkişaf növünün dayanıqlı ekoloji balanslaşdırılmış inkişaf növü ilə əvəzlənməsini tələb edir. Ölkənin yaşıl iqtisadiyyatı ekoloji-iqtisadi modeldə girişdə təbii sərvətlər, çıxışda isə son məhsul və müxtəlif növlü çirkləndiricilər və ətraf mühitin deformasiyasını özündə cəmləşdirir.

Ekoloji problemlərlə iqtisadiyyatda mübarizənin təmin edilməsi, inklüziv iqtisadi inkişafa şərait yaradılması üçün bu prosesə nəzər salmaq, iqtisadi quruluşların fəaliyyətini

ekoloji cəhətdən qiymətləndirmək əsas məsələlərdir.

Ekologiyalaşdırılmış ölkədə istehsalın məqsədi ekologiyanın prinsipləri və insanların sağlamlığı üçün təhlükəsiz olan əmək şəraiti ilə müəyyən olunmalıdır. Yaşıl iqtisadiyyat ölkə iqtisadiyyatında inkişaf etdikcə ölkədəiqtisadiyyat təkcə gəlir üçün deyil, ümumi fayda üzərində qurulmalıdır. Müxtəlif təbii ehtiyatlardan istifadə, o cümlədən mühitin müəyyən dərəcədə çirklənməsi istənilən iqtisadi fəaliyyət zamanı zəruridir. Bu bilavasitə istehsal prosesləri və istehlak ilə bağlıdır. Yaşıl iqtisadiyyat və ölkənin iqtisadi ekologiyalaşdırılması həm ictimai istehalın əsas istiqamətlərində, həm də əhali tərəfindən istehlakın xarakter və mədəni səviyyəsində dəyişikliklərin edilməsini tələb edir.

Ekoloji problemlər müasir dünyada həll edilməsi ən vacib olan qlobal problemlərdir və siyasi əhəmiyyət daşımaqdadır, elmi-texniki inqilabın təsiri biosferin iri miqyaslı dəyişdirilməsinə gətirib çıxararaq, ekoloji təzahürlərin yaranmasına səbəb olur və dərin izlər buraxmaqdadır. İrimiqyaslı hadisələrlə dolu olan müasir dövr, qarşılıqlı, inkişaf edən sosial və təbii-tarixi amillərlə xarakterizə edilir.

Müasir dövrdə ekoloji təhlükə sivilizasiyanın inkişafı və beynəlxalq əlaqələrdə həlledici faktorlardan biridir. Görkəmli rus alimi V.Vernadskinin fikrincə, indi insan bu baxımdan təbiət hadisələri ilə eyni təzad daşıyır. Bu baxımdan V.Vernadskinin fikrinə görə, «Ətraf mühitin durumu və təbiət faktorları ilə bağlı olan «mülayim təhlükələr» bu gün güc tətbiq etməkdən daha aktualdır. O, dünyada qüvvələr nisbətinə getdikcə daha böyük təsir göstərərək ayrı-ayrı regionlarda münaqişə və müharibələrin başlanmasını reallaşdıra bilər» [3].

Təhlillər onu göstərir ki ekoloji problemlər müasir dünyada həll edilməsi ən vacib olan qlobal problemlərdir və siyasi əhəmiyyət daşımaqdadır, elmi-texniki inqilabın təsiri biosferin iri miqyaslı dəyişdirilməsinə gətirib çıxararaq, ekoloji təzahürlərin yaranmasına səbəb olur və dərin izlər buraxmaqdadır.

Ölkənin makro iqtisadi göstəricilərini təhlil etdikdə ,ətraf mühitdən istifadə parametrləri, o cümlədən, təbii ehtiyatların növləri və aşkar edilməsi, uçotu, istehsal-hasilat əməliyyatları üzrə qeydiyyatı təhlil olunur.

Ölkənin mikro iqtisadi göstəricilərini təhlil etdikdə, ətraf mühit və təbiətdən istifadə sferasına müəssisə, təşkilat, ferma və birliklərdə yaradılmış və ya yaradılmalı ekoloji bölmələri təhlil edilir. Ətraf mühitdən səmərəli istifadə əsasən xətti iqtisadiyyatı dairəvi iqtisadiyyata çevirməklə ekosistemlərə ekoloji yükü kifayət qədər azaldır və inklüziv iqtisadi indeksi ölkədə inkişaf etdirir .

İnsanın ətraf mühitə təsiri intensivləşib qlobal miqyas aldıqca ekoloji böhranlar da dünyəvi olur, ekoloji partlayış qorxusu çoxalır və təhlükəli ekoloji vəziyyət yaranır. Bu cür vəziyyətin yaranmaması və artıq yarandığı zaman qarşısını almaq üçün isə ekoloji təhlükəsizlik haqqında olan qayda və qanunlara əməl etməli, ekoloji təhlükəsizliyin təmin edilməsi məsələlərinə ciddi yanaşılmalıdır.

Təbii resurslar neft və qaz hasilatı dünya iqtisadiyyatında diqqət mərkəzində olan iqtisadi məsələdir. Neft və təbii qaz kimi önəmli ənənəvi enerji resursları beynəlxalq iqtisadi sistemdə ölkələr arasında bərabər səviyyədə paylanmayıb. Enerji resursları bir neçə regionda toplanıb. Bu isə, dövlətlər arasında iqtisadi əməkdaşlığın güclənməsinə öz töhfəsini verir. Bu səbəbdən də, inklüziv inkişaf indeksi inkişaf edən ölkələr üçün əsas məqsəd olaraq neft və təbii qaz kimi resurslardan asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirmək və insan kapitalının ölkə iqtisadiyyatının əsas mərkəzi iqtisadi göstəricisi olmasını əsas məsələlərkimi prioritet hesab edirlər.

Xarici iqtisadi ədəbiyyatlara və araşdırmalara nəzər saldıqda görürük ki təbii resurslar ölkənin iqtisadi inkişafı üçün əsas amildir və bu amil ekoloji iqtisadi inkişaf ilə əlaqədardı.Əslində dünyanın gələcəyi ənənəvi yoldan fərqli yeni bir iqtisadi modelə möhtacdır. Elə bir model ki, iqtisadi inkişaf təbii tarazlığı pozmasın və onunla ahəng təşkil etsin. 2013-cü ildə müəllifinə Nobel mükafatı qazandıran Hiqs sahəsi (*Higgs field*) ideyası yeni ekoloji iqtisadi siyasəti (environmentally adjusted economic development) müəyyənləşdirmək üçün imkan yaradır. Ehtimala görə Hiqs sahəsi bu sahədən keçən hissəciklərə kütlə verir və beləliklə, enerji kütləyə çevrilir. Bu zaman təbii ahəng qorunur. Ekoloji iqtisadi inkişaf da elə bir ahəngi təmin etməlidir ki, resurslardan mal və xidmətlər istehsal ediləndə təbii ahəng pozulmasın [9].

Enerji resurslarından səmərəli istifadə edilməsi və son tələbatçıların enerji effektivliyinin təmin edilməsi eyni zamanda ölkə iqtisadiyyatının dayanıqlı inkişafına nail olunmasına, ixrac potensialının artmasına, istehlakçıların enerji resursları ilə təminatının yüksəldilməsinə, ətraf mühitin və enerji ehtiyatlarının qorunmasına şərait yaradır.

Enerji səmərəliliyinin təmin edilməsi dayanıqlı iqtisadi inkişaf edən ölkələrdə enerji təhlükəsizliyi ölkə iqtisadiyyatının əsas tərkib hissələrindən biridir. Ölkədə enerji təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi, ümumi daxili məhsulun enerji tutumunun azaldılması, ölkə iqtisadiyyatının rəqabətədavamlılığının gücləndirilməsi, ətraf mühitin qorunması, kommunal xidmətlərdə israfçılığın və artıq xərclərin azaldılması üçün enerji resurslarından səmərəli və effektiv istifadə edilməlidir.

Hazırda dünyanın demək olar ki, bütün ölkələri öz enerji ehtiyaclarını neft, təbii qaz və kömür kimi ənənəvi enerji mənbələri hesabına ödəyir. Ənənəvi enerji resursları tükənəndir, ətraf mühit üçün zərərlidir və bundan başqa, artan enerji qiymətləri iqtisadiyyata da mənfi təsir göstərir.

Qlobal iqlim dəyişikliklərinə və bu proseslərlə əlaqədar olan ekoloji və iqtisadi problemlər yer kürəsində həyatın qorunması, uzunmüddətli inkişafının təmin edilməsi insanın iqtisadi fəaliyyətində və həyat tərzində yeni prioritetlərin formalaşmasını özündə cəmləşdirir. Onlardan ən əsasları ətraf mühit ilə qarşılıqlı əlaqədə olan, inklüziv inkişaf indeksinə təsir edən "yaşıl" iqtisadiyyat, "yaşıl" həyat tərzi və "yaşıl" təfəkkür, "yaşıl" düşüncə, "yaşıl" intellektdir.

Ona görə də ,dünya iqtisadiyyatı ilə inteqrasiyaya meyl edən postsovet ölkələrinin iqtisadiyyatı və cəmiyyəti paralel olaraq həm postsənaye iqtisadiyyatının "yaşıllaşdırılması" texnologiyalarından ən səmərəli formada istifadə etməklə qeyri-neft sektorunun inkişafına nail olmaq, həm də ən müasir yeni texnologiyaları izləmək və tətbiq etməklə informasiya cəmiyyəti iqtisadiyyatının özünün də yaşıllaşdırılmasına nail olmaqdır.

İnklüziv inkişaf indeksinə təsir göstərən amillərdən biridə iqlim dəyişmələridir. İqlim dəyişmələrinin milli və dünya iqtisadiyyatına təsiri makroiqtisadi təhlillərdə rolu haqda kifayət qədər elmi-tədqiqat işləri aparılmaqdadır. Təsadüfi deyil ki, 2018-ci ilin yekunlarına görə iqtisadiyyat sahəsində Nobel mükafatına D.Nordhaus "iqlim dəyişikliklərinin uzun müddətli uzun müddətli makroiqtisadi təhlilə inteqrasiyası" işinə görə layiq görülmüşdür.

İqlim dəyişmələri ilə mübarizə aparma yollarından biri də alternativ və bərpa olunan enerji növlərinin inkişafıdır. Alternativ enerji növlərinin inkişafı ilə iqlim dəyişiklikləri arasındakı əlaqə iqtisadiyyata təsir göstərir.

İnklüziv inkişaf indeksi inkişaf edən ölkələrdə iqlim dəyişmələri ölkənin nəzarətində olan aktual məsələdir. İnsan kapitalının sağlamlığının qorunması quraqlıq, daşqın, tropik qasırğa təhlükələri ilə üz-üzə qalan əhalini dövlət tərəfindən müəyyən olunmuş strategiyalarla iqlim dəyişmələrinə uyğunlaşmağa çalışırlar. İqlim dəyişmələrinə uyğunlaşma insan inkişafındakı bərabərsizliyin aparıcı qüvvələrindən birinə çevrilməkdədir.

Yaşıl iqtisadiyyat, əslində yeni iqtisadiyyat anlayışı olaraq da ifadə edilə bilər və ya klassik iqtisadiyyatın təməllərinə insan və təbiət faktorlarının əsaslı bir şəkildə əlavə olunması kimi də təyin oluna bilər. İnsanın və təbiətin dəyərinin bilinməsi, insanların rifahını yüksəldib yoxsulluğun azaldılması, məhdud təbii ehtiyatların effektiv və optimal şəkildə istifadə edilməsi bu yeni iqtisadi anlayışın təməlini meydana gətirir.

Yaşıl iqtisadiyyatın inkişafında fiskal siyasətin rolu önəmlidir. Beləki, hər bir ölkənin özünəməxsus fiskal alətləri vardır. Bu alətlərə yanacaqdan istifadəyə görə vergi güzəştləri, ekoloji cəhətdən zərərli şəkildə fəaliyyət göstərən sahələri daha təmiz fəaliyyətə təşviq edən subsidiyalar, təmiz texnologiya və davamlı istehsal fəaliyyəti ilə məşğul olan sektorlara maliyyə güzəştlərinin köməyi və digər alətlər daxildir [5].

Müasir dövrdə beynəlxalq iqtisadi münasibətlər sistemində dayanıqlı inkişaf edən ölkələr beynəlxalq miqyasda prioritet sayılan iqlim dəyişikliklərinin qarşısının alınmasında daha az enerjidən istifadə edilməsi və onun daha təmiz mənbələrdən əldə olunması qlobal məqsəd kimi müəyyənləşdiriliblər. Elə "yaşıl iqtisadiyyat" anlayışı da insan rifahını və sosial ədaləti təmin edən, eyni zamanda ətraf mühit risklərini kəskin şəkildə azaldan iqtisadiyyat kimi qəbul edilir. "Yaşıl iqtisadiyyat"ın inkişafında təbii resurslardan səmərəli istifadə ilə yanaşı, ətraf mühitin mühafizəsi, eyni zamanda ekologiyanın zənginləşdirilməsi də mühüm istiqamətlərdən biri kimi qəbul edilir.

Bu gün iqtisadiyyat təkcə makroiqtisadi göstəricilərin səviyyəsi ilə ölçülmür. Müasir iqtisadi inkişaf insanın şüuru, intellekti, mədəniyyəti, məntiqi, ətraf mühitə münasibəti üzərində qurulur. Davamlı inkişafın təməlində dayanan "yaşıl iqtisadiyyat" isə insanların bütün növ mal və xidmətlərə olan ehtiyaclarının davamlı ödənilməsinin sağlam ekosistemlər sayəsində mümkünlüyünü göstərir.

Yaşıl iqtisadiyyat inklüziv inkişafa təkan verir, ölkədə ekoloji risk və resurs qıtlığını nəzərə almaqla insanların daha yüksək həyat səviyyəsini və cəmiyyətdə sosial bərabərliyi təmin edir. Yaşıl iqtisadiyyatın əvvəlki iqtisadiyyat modellərindən əsas fərqi əvvəllər qiymət qoyulmadan istifadə edilən resursların əsl dəyərinin nəzərə alınmasıdır.

Beləliklə, yuxarıda qeyd olunan araşdırmalaradan göstərilən təhlillər onu göstərir ki, ətraf mühitlə inklüziv inkişaf indeksinin əlaqəsini təhlil edərkən aydın olur ki, ətraf mühitin çirklənməsi və pozulması bir sıra ekoloji, iqtisadi və sosial problemlərin yaranmasının əsasını təşkil edir insan kapitalının inkişafına mənfi təsir göstərir.

Beynəlxalq iqtisadi münasibətlər sistemində ətraf təbii mühitin pozulması və çirklənməsi dünya iqtisadiyyatı üçün bir sıra iqtisadi və sosial problemlər yaratmaqla yanaşı, eyni zamanda gələcəkdə yeni irimiqyaslı ekoloji fəsadların əmələ gəlməsinə də təkan verir. Ətraf mühitin pozulması və çirklənməsindən irəli gələn yeni törəmə ekoloji problemlər arasında iqlim dəyişmələri iqtisadi inkişaf indeksinə təsir göstərir.

Dünyanın müxtəlif reqionlarında baş verən qasırğa və sellər, çayların daşması, quraqlıq və bunun tam əksi olan leysan yağışlar və çayların daşması şəhər və kəndlərin infrastrukturuna, sənaye və kənd təsərrüfatına olduqca böyük zərər vurur. Nəticədə ölkənin insan kapitalı, onların ərzaq və ekoloji təhlükəsizliyi böyük risklərlə üzləşır. İqlim dəyişmə-

ləri qlobal xarakter daşıdığından bütün dünya tərəfindən ona böyük diqqət ayrılır. Bu problemlərin qarşısının alınmasına yönəldilmiş konvensiyalar, o cümlədən, dünya sammitlərinin keçirilməsi problemin və onun həllinə yönəldilmiş tədbirlərin xüsusi ciddiliyindən xəbər verir.

Dayanıqlı inkişaf edən ölkələrdə ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.

Bunu gerçəkləşdirmək məqsədilə təbii ehtiyatlardan istifadə yolları və iqtisadiyyatın inkişafı davamlılıq prinsipləri əsasında həyata keçirilir. Ümumiyyətlə, inkişafın ekoloji baxımdan davamlı olmasını təmin etmək üçün iqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemləri aradan qaldırmaq, onların ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi tələb olunur.

Başlıca məqsəd isə insan yaşayışı üçün ətraf mühitin yararlı olmasını müəyyən edən və bioloji müxtəlifliyin qorunub saxlanmasının, ekoloji sistemlərin sabit istifadəsini təmin edən ətraf mühitin keyfiyyət göstəricilərinin müəyyən edilməsi, yəni ətraf mühitin ekoloji tarazlığının normallaşdırılmasıdır.

Dayanıqlı inkişaf edən ölkələrdə  inklüziv inkişaf indeksinə təsir göstərən amillər, o cümlədən iqtisadi ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insankapitalının rolu , indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların yaradılması və istifadəsi, eyni və müxtəlif nəsillərin nümayəndələri arasında təminatın ədalətlilik prinsipləri əsasında həyata keçirilməsi məsələləri  insanın həyat fəaliyyətini təmin edə biləcək sistemlərin, ekosistemlərin və biomüxtəlifliyin qorunması məsələləri ölkə üçün aktual istiqamətlərdir.

İnklüziv inkişaf indeksini hesablayarkən, əlavə parametrlər kimi ətraf mühitin qorunması, iqlim dəyişikliyi, yaşıl iqtisadiyyat, ölkədaxili və ölkələrarası bərabərsizlik, əhalinin rifah halı və insan kapitalına təsir göstərən indikatorlar nəzərə alınmalıdır. Yaşayış minimumunu qiymətləndirmək üçün Cini əmsalı və minimum istehlak səbətinin hesablanması və ekonometrik modellərlə təhlil olunması da vacib şərtlərdən biridir.

Yuxarıda göstərilənləri nəzərə  alaraq belə bir nəticəyə gəlmək olar ki, ölkədə iqlim dəyişikliyinin ətraf mühitin qorunması və inklüziv inkişaf indeksinə  təsir edən parametrləri  müqayisəli təhlili olunmalıdır. Müasir qloballaşan iqtisadi sistemdə inklüziv inkişaf indeksinin yaxşılaşdırılması üçün ölkədə enerji təhlükəsizliyi, neft və təbii qaz kimi ənənəvi enerji resurslarının qiymət yüksəlişi, enerji diversifikasiyası, fərqli enerji resursları mənbələrinin inkişaf etdirilməsi, ölkənin hansısa bir xüsusi texnologiyadan və ya yanacaq növündən asılılığını aradan qaldırılma yolları, ətraf mühitin qorunması məsələləri ölkə iqtisadiyyatının əsas istiqaməti olmalıdır.

## Ədəbiyyat

1. Арбузов В.В., Грузин Д.П., Симакин В.И. Экономика природопользования и природаохраны. Учебное пособие – Пенза: Пензенский государственный университет. 2004. с.251
2. Голуб А.А., Струкова Е.Б. Экономика природапользования: Учеб. пособие для вузов. М.: Аспект-Пресс, 1995. с.188
3. Нестеров П.М., Нестеров А.П. Экономика природопользования и рынок. Учебник для вузов. М.: Закон и право, ЮНИТИ, 1997. с.413

4. Мировой Энергетический Совет и Институт транспортной политики г. Виктории, 2006
5. Vagliasindi Maria. Implementing Energy Subsidy Reforms, Evidence From Developing Countries, World Bank, 2013, p.189
6. Energy Subsidy Reform: Lessons And ImplicationsExecutive Summary 13 IEA, OECD: World Bank, 2013, 2010
7. The Scope Of The Fossil Fuel Subsidies In 2009 And The Roadmap For Phasing Out Fosil Fuel Subsidies, p.40
8. Michael P. Todaro & Stephen C. Smith. Economic Development. 8th edition. Addison-Wesley, 2002
9. The Future We Want, UN Document A/CONF.216/L.1, Agriculture: par. 108-118; Water par. 119-124 and 158-177; Energy par. 125-129; Transportation and cities par. 132-137; Social protection par. 147-157
10. Olivia Bina. The green economy and sustainable development: an uneasy balance? 1023-1047

## INFLUENCE OF ENVIRONMENTAL AND CLIMATE CHANGES ON INCLUSIVE DEVELOPMENT INDEX

**S.M.Huseynova**

### SUMMARY

Analysis of the impact of environmental and climate changes on the inclusive growth index is presented taking into account the relationship between environment and human capital. The conditions which are necessary for sustainable economic development are considered.

## ВЛИЯНИЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ И ИЗМЕНЕНИЯ КЛИМАТА НА ИНДЕКС ИНКЛЮЗИВНОГО РАЗВИТИЯ

**С.М.Гусейнова**

### РЕЗЮМЕ

В статье анализируется воздействие окружающей среды и изменения климата на индекс инклюзивного роста с учетом взаимосвязи между окружающей средой и человеческим капиталом. Рассмотрены условия, необходимые для устойчивого экономического развития.

*Məqalə redaksiyaya 15 yanvar 2019 tarixində daxil olmuş, 25 yanvar 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 338.23

# ОСОБЕННОСТИ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ПО ВВЕДЕНИЮ СОПЛАТЕЖЕЙ В ЗДРАВООХРАНЕНИИ

**С.К.Мамедова**
Азербайджанский Государственный Экономический Университет
Баку, улица Истиглалият 6
e- mail:dr.smks@mail.ru

***Açar sözlər:*** səhiyyədə birgə ödənişlər, səhiyyədə xərclərin bölgüsü, sıgortada xərclərin bölünməsi
***Keywords:*** co-payments in health care, cost sharing in health care, co-insurance
***Ключевые слова*:** соплатежи в здравоохранении, разделение затрат в здравоохранении, со-страхование

## Введение

Соплатежи в здравоохранении (соучастие в оплате медицинских услуг со стороны самих пациентов) представляют собой один из наиболее солидарных и справедливых методов привлечения частных средств после частного страхования и были введены с целью снижения количества необоснованных обращений в медицинские учреждения.

Соплатежи осуществляются в следующих формах:

- соплатежи страхового взноса, подразумевающие взнос, уплачиваемый работником как дополнение к взносу работодателя (сострахование);
- соплатежи граждан, которые оплачиваются при получении медицинской помощи (в виде твердого гонорара или платы за каждую услугу);
- франшизы – вычет определенной суммы из всех страховых выплат;
- балансовое выписывание счетов – дополнительный сбор, взимаемый поставщиком сверх того, что он получает от стороннего плательщика.

В развивающихся странах практикуются неформальные платежи, а также высок уровень прямых оплат в момент обращения за медицинскими услугами. Но если мы говорим о развитых странах, то имеется национальная система, охватывающая практически все население, неформальные платежи в принципе не распространены, а прямые частные услуги заведомо считаются одной из самых несправедливых и неэффективных источников финансирования, и соплатежи вместе с добровольным медицинским страхованием являются основными формами частных платежей в этой группе стран.

## 1. Особенности соплатежей как финансового источника и сдерживающего механизма

Изначально подразумевалось, что введение сборов с пользователей снизит спрос на ненужные услуги и станет дополнительным доходом, который может быть использован на расширение поставок медицинских услуг.

Степень успешного решения этих двух задач определяется степенью эластичности спроса. С логической точки зрения снижение спроса делает невозможным по-

вышение дохода.

То есть, если повышение сбора с пользователей снижает интенсивность использования медицинских услуг, оно не может увеличить общий доход. Аргумент о повышении дохода основан на допущении, что спрос на медицинские услуги не является эластичным: если цены для пользователей будут поддерживаться на должном уровне, интенсивность использования услуг не снизится настолько, чтобы нейтрализовать увеличение дохода, возникшее благодаря повышению сборов с пользователей.

Однако является ли политика по введение соплатежей эффективной с экономической точки зрения? Так, экономический анализ CEPOS в Дании оценил, что введение сооплаты в размере 127 DKK (17 евро) за посещение врача общей практики для каждого гражданина старше 16 лет с годовым лимитом в 1 712 DKK (230 евро) позволило бы сэкономить 2,3 миллиарда DKK (€ 310 млн), при условии снижения спроса на 10% [1].

Однако, рассматривая долевое участие в расходах как дополнительный источник финансирования и как механизм по снижению спроса на медицинские услуги, необходимо также определить его влияние на общие расходы на здравоохранение. Так, установлено, что уменьшение в пользовании медицинскими услугами приводит к развитию заболеваний, лечить которые обходится еще дороже, или если увеличение оплаты подталкивает людей к неправильной структуре пользования медицинской помощью, что может даже усугубить ситуацию. Это находит свое отражение в обзоре Lexchin и Grootendorst [2].

Действие соплатежей по сдерживанию расходов может сдерживаться со стороны поставщиков медицинских услуг, заинтересованных стимулами, которые имеются у их пациентов. Так, в ответ на долевое участие в расходах на лекарственные препараты врачи в некоторых странах увеличили количество лекарств, прописываемых в рецептах. Также возможна искусственная стимуляция врачами потребления медицинских услуг той категории пациентов, которая не затронута соплатежами [3, с. 41].

Но когда дело касается здоровья , критерием проводимой политики не может явиться только сэкономленные средства. Поэтому в этом направлении проводились многочисленные исследования.

Первым исследованием в области оценки эффективности разделения затрат можно назвать исследование, проведенное корпорацией RAND на материале, который проводился с 1974 по 1977 г. Результаты эксперимента RAND показали, что интенсивность использования медицинских услуг (измеренная по таким параметрам, как вероятность обращения за медицинской помощью, стационарное лечение, прием пациентов, амбулаторные визиты) падает по мере роста доплаты населения. Вместе с тем картина сниженного использования услуг по ряду показателей (таких, как прием в больницы, назначение антибиотиков, первичная помощь) свидетельствует о том, что разделение затрат сокращает интенсивность использования как эффективных, так и неэффективных — или неподходящих — процедур. Более того, разделение затрат связано также с худшими результатами с точки зрения общей ситуации со здоровьем населения по ряду показателей. Итоги эксперимента порождают серьезные сомнения относительно влияния разделения затрат на макроэффективность (в противоположность микроэкономическому сдержи-

В зависимости от цели развития организации, путей ее достижения, информационных потребностей руководства система управленческого учета в различных организациях имеет свои особенности. Среди основных факторов, влияющих на особенности построения системы управленческого учета, можно назвать следующие:
• особенности нормативно-правового регулирования деятельности организации;
• характер деятельности;
• масштаб деятельности;
• организационная структура;
• внутренние стандарты деятельности.

На наш взгляд, система управленческого учета должна включать в себя следующие основные элементы: центры ответственности; контролируемые показатели; первичные документы управленческого учета; учетные регистры для группировки данных; формы управленческой отчетности; учетные процедуры сбора, обработки и представления информации пользователям.

Организация учета по центрам ответственности позволяет измерять результаты деятельности, оперативно отслеживать отклонения фактических значений показателей от нормативных и выявлять их причины. Для того чтобы данные управленческого учета формировались целенаправленно, необходимо четко определить состав контролируемых показателей по центрам ответственности.

Бухгалтеры различных уровней, ведущие управленческий учет, участвуют в принятии стратегических, тактических и оперативных решений. Для выполнения поставленных задач они устанавливают и поддерживают методы и технологии предоставления управленческой информации в соответствии с определенными требованиями. Кроме того, к их обязанностям относятся:

• планирование — предоставление текущей и прогнозной информации, постановка целей, контроль их достижения;

• оценка — предоставление сведений о влиянии на финансово-хозяйственную деятельность определенных событий и явлений, участие в выборе оптимальных решений;

• контроль — обеспечение целостности информации относительно деятельности организации в целом и ее структурных подразделений;

• обеспечение достоверности отчетности — участие в разработке принципов и методов учета, на основе которых формируется достоверная внутренняя отчетность.

Таким образом, система управленческого учета осуществляет конкретную адресную помощь управлению и дает ответы на важнейшие вопросы:

1. На какой стадии устойчивого развития находится организация?
2. Каковы важнейшие цели для дальнейшего развития?
3. Какой набор действий будет способствовать скорейшей реализации намеченных целей?

Кроме того, в функции управленческого учета входит предупреждение руководства об имеющихся на предприятии проблемных ситуациях, которые могут проявляться в случае не достижения поставленных целей (например, в области организации производства), а также на различных уровнях – как на средних, так и на низших, в различных отделах и функциональных службах.

Регламентирования является важнейшим требованием для эффективного функционирования системы управленческого учета в организации. В процессе постановки управленческого учета параллельно с утверждением учетной политики организации следует разработать положение по управленческому учету и отчетности. В нем должны быть отражены:

- цели и задачи системы управленческого учета, основные принципы ее построения, основные понятия;
- описание структуры центров ответственности;
- состав контролируемых показателей по центрам ответственности и алгоритм их определения;
- формы первичных документов и отчетных документов;

- процедуры подготовки и обработки первичных документов;
- график документооборота управленческого учета.

Думается, что основным критерием действенности системы является эффективное управление финансовыми и людскими ресурсами, управленческий учет обеспечивает для этого необходимый механизм.

По нашему мнению, специалисты в области управленческого учета должны заниматься, в первую очередь, процессами гармонизации двух основных проблем – обеспечение стабильности в работе предприятия при эффективном выполнении поставленных целей. Обеспечение стабильности следует согласовывать с постоянной проверкой деятельности в рамках принятых границ или имеющихся ограничителей. Причем установленные лимиты связаны с бюджетной политикой предприятия, системой лояльности и мотивации сотрудников, и прочими ограничителями, принятыми на предприятии. В этом смысле значимость управленческого учета существенно возрастает. Таким образом, соответствия поставленным целям в направлении дальнейшего устойчивого развития предприятия требует постоянного присутствия управленческого учета, чтобы была возможность наблюдать и отслеживать все прогрессивные моменты.

Полученные результаты работы предприятия необходимо контролировать и сопоставлять с определенными на этапе планирования стандартами. Стандартизация также является одной из составных частей модели управленческой деятельности в системе взаимосвязи с управленческим учётом. Она дает возможность сравнить результаты с индикаторами и показателями, заложенными целью развития. Стандарты позволяют оценивать представления о том, что возможно получать от конкретного бизнес-процесса.

**Заключение.** В целом, на основе проведенного исследования можно сделать вывод, что целью применения управленческого учёта является обеспечение гармонизации функционирования предприятия. Таким образом, роль системы управленческого учёта в любой компании очень велика и внедрение данной системы необходимо руководителю, менеджерам и всему персоналу, так как важность правильности постановки управленческого учёта даёт информацию, которая необходима для усиления внимания и определения приоритетности выполнения задач организации, направленных на планирование и прогнозирование её дальнейшей деятельности. На основе управленческого учета разработка и применение эффективных решений руководителя будет служить основополагающей предпосылкой конкурентоспособности компании на рынке, проведению чётко сформированной кадровой политики. Следовательно, результаты от внедрения системы управленческого учёта превзойдут все ожидания, т.к. сформируют аналитическую информацию для оценки перспективы при открывающихся возможностях, обеспечат необходимыми механизмами контроля над исполнением принятых решений.

## Литература

1. Барышев С.Б. Диагностика управленческого учета. Монография. - М.: «Дашков и К», 2007
2. Величковский А.В. Неопределенность и риск при оценке активов в бухгалтерской отчетности в соответствии с МСФО // Международный бухгалтерский учет. 2014, № 9, с.19-31
3. Гаррисон Р. Управленческий учет.М.: НИЦ ИНФРА – М, 2014, 1024 с.
4. Гущина И.Э. Управленческий учет: основы теории и практики. Учебное пособие. М.: КНОРУС. 2004, 192 с.
5. Друри К. Управленческий и производственный учет. Учебный комплекс для студентов вузов / Колин Друри; пер. с англ., 6-е издание.. М.: ЮНИТИ – ДАНА, 2012, 1423 с.
6. Каверина О.Д. Управленческий учет: системы, методы, процедуры / М.: Финансы и статистика, 2004, 352 с.
7. Хоргрен Ч.Т., Фостер Дж. Бухгалтерский учет: управленческий аспект. Перевод с англ. М.: Финансы и статика, 2003, 416 с.

## TƏŞKİLATIN FƏALİYYƏTİNDƏ İDARƏETMƏ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

**L.V.Məmmədova**

### XÜLASƏ

Məqalədə müəssisələrdə idarəetmə uçotunun mahiyyəti, həmçinin idarəetmə uçotunun məqsəd və vəzifələri araşdırılmışdır. Müasir şəraitdə təşkilatın taktikası və strategiyasının inkişafında idarəetmə uçotunun əhəmiyyəti xüsusi olaraq qeyd edilmişdir.

## FEATURES OF MANAGEMENT ACCOUNTING IN THE ACTIVITIES OF AN ORGANIZATION

**L.V.Mamedova**

### SUMMARY

This article describes the essence of management accounting in enterprises, as well as the goals and objectives of it. Special attention is paid to the importance of management accounting in the development of tactics and strategy of an organization in modern conditions.

*Məqalə redaksiyaya 1 fevral 2019 tarixində daxil olmuş, 11 fevral 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 621.338.45

# MÜSTƏQİLLİK ƏLDƏ ETDİKDƏN SONRA AZƏRBAYCANIN RUSİYA İLƏ SOSİAL-İQTİSADİ ƏLAQƏLƏR YARATMASININ ZƏRURİLİYİ

**V.Z.Əhmədov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, Azadlıq prospekti 20
e-mail: ehmedovvusal.96@gmail.com

***Açar sözlər:*** xarici siyasət, Cənubi Qafqaz, sosial sfera, qeyri-neft sektoru
***Keywords:*** foreign policy, South Caucasus, social sphere, non-oil sector
***Ключевые слова:*** внешняя политика, Южный Кавказ, социальная сфера, ненефтяной сектор

Məqalədə Azərbaycanın müstəqillik əldə etməsindən sonra Rusiya ilə sosial-iqtisadi əlaqələr qurmasından bəhs edilir. Əlaqələrin yaradılması zamanı mövcud olan problemlər və onların həlli yolları araşdırılır. Həmçinin Azərbaycan və Rusiya arasında sosial-iqtisadi əlaqələrin qurulmasını zəruri edən amillər göstərilir.

Müstəqil dövlət kimi Azərbaycan Respublikası mövcudluğunu davam etdirmək və davamlı inkişafa nail olmaqla onun artan templərini qoruyub saxlamaq üçün daxili və xarici müstəvidə intensiv şəkildə siyasət həyata keçirir. Bu siyasət çoxaspektli xarakter daşıyır və elmi cəhətdən əsaslandırılmış xüsusiyyətlərə malikdir. Müstəqilliyin ilk illərindən başlayaraq istər regional, istərsə də beynəlxalq səviyyədə reallaşdırılan bütün tədbirlər ölkənin mürəkkəb iqtisadi-siyasi vəziyyətdən çıxarılması və inkişaf yoluna qədəm qoyması məqsədi daşıyırdı. Qarşıya qoyulmuş məqsədlərə nail olunması prosesində əsas vəzifələrdən biri xarici siyasətin düzgün təşkili və həyata keçirilməsi idi.

Beynəlxalq əlaqələrə aid ədəbiyyata nəzər yetirdikdə xarici siyasət anlayışının əsasən ölkənin milli maraqlarını təmin etmək məqsədilə müxtəlif dövlətlər və xalqlar ilə münasibətlərini nizama salan, eləcə də həmin ölkədəki hadisələrin spesifik cəhətlərini ifadə edən fəaliyyətlərin məcmusu kimi təqdim edilir. Ümumiyyətlə, siyasət münasibətləri və əlaqələri tənzim edən fəaliyyətdir və münasibətlərlə, eləcə də əlaqələrlə meydana gələn anlayışdır. Siyasət tərəflər arasında əlaqələrdə və münasibətlərdə təzahür edir və tərəflərin öz maraq və mənafeləri uğrunda hərəkətlərini istiqamətləndirir [2, s. 70].

Qeyd edək ki, xarici siyasət bütün dövlətlərin, həmçinin dayanıqlı inkişaf istiqamətində mühüm addımlar atan Azərbaycan Respublikasının siyasi fəaliyyətinin ifadəsi kimi çıxış etməklə, onun xarici dövlətlərlə münasibətlər qurması zamanı maraqlarının müəyyənləşdirilməsini və etibarlı müdafiəsini, iqtisadi, siyasi, eləcə də sosial sferalarda müsbət nəticələrə nail olunmasını ehtiva edir. Bu zaman çoxtərəfli faydalı əlaqələrin yaradılması, inkişaf etdirilməsi, dövlət təhlükəsizliyi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi, qarşılıqlı maraqların toqquşduğu məsələlərin səmərəli şəkildə həll edilməsi diqqət mərkəzində saxlanılır.

Azərbaycanın milli inkişafının birbaşa onun daxili ictimai və siyasi, sosial və iqtisadi, eləcə də beynəlxalq şəraitilə əlaqədar olmasına görə, müstəqilliyinin bərpa edildiyi andan Azərbaycanın qarşısında duran əsas məqsədlərdən biri də özünün Milli İnkişaf Konsepsiyasını, həmçinin həmin konsepsiyaya əsaslanaraq, ölkənin praktiki fəaliy-

yət strategiyasını formalaşdırmaq, daxili və xarici sosial-iqtisadi siyasətini müəyyən etmək, milli dövlət quruculuğu prosesinin reallaşdırılması mexanizmlərini hazırlamaq və bu mexanizmlərin işləməsinə şərait yaratmaqdan ibarət idi.

Azərbaycan üçün xarici fəaliyyət istiqamətlərinin dəqiq müəyyən edilməsi ilə yanaşı onun düzgün şəkildə həyata keçirilməsi bütün güc mərkəzlərinin maraq dairəsində yerləşən, coğrafi və strateji cəhətdən açar bölgədə, yəni Qərb və Şərqin kəsişməsində, mədəniyyət kontekstində sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Buna görə də Azərbaycan xüsusi əhəmiyyət daşıyan dövlət maraqlarının qorunması, Cənubi Qafqaz regionunda mövqeyini saxlamaqla bərabər, Qərb dövlətləri, islam, türk dünyası və Müstəqil Dövlətlər Birliyi ölkələri ilə qarşılıqlı faydalı əlaqələr, beynəlxalq əməkdaşlığı və eynihüquqlu əməkdaşlıq əlaqələrini genişləndirir. Bu həm də zərurətdən irəli gələn məsələdir. Belə ki, ixtisaslaşmanın intensivləşdiyi bir dövrdə ölkələr qarşılıqlı əməkdaşlıq münasibətləri qurmadan məqsədlərə nail ola bilməzlər.

Azərbaycanın region dövlətləri ilə, xüsusən də Rusiya Federasiyası ilə qarşılıqlı faydalı, o cümlədən bütün sahələri əhatə edən əlaqələrinin yaranması tarixi aspektlər daşımaqla yanaşı, həm də siyasi və sosial-iqtisadi cəhətdən labüd idi. Uzun müddət istər Çar Rusiyası, istərsə də SSRİ tərkibində qurulan, inkişaf edən və dərinləşən hərtərəfli əlaqələr ölkələrin həyatının bütün sahələrinə nüfuz etmişdir. Buna görə də Rusiyanın dünyada və Cənubi Qafqaz regionunda gücünü, həmçinin təsir qabiliyyətini diqqətə alaraq, Azərbaycanın xarici siyasətində, xüusilə sosial-iqtisadi münasibətlər sistemində Rusiya ilə əlaqələrin qurulmasına böyük önəm verir. Azərbaycan Respublikası və Rusiya federasiyası arasında diplomatik münasibətlər 1992-ci ilin aprel ayının 4-də Bakıda imzalanmış müvafiq protokol əsasında yaranmışdır [1, s. 160]. Bu mürəkkəb zamanda Azərbaycanın dövlət müstəqilliyinin ən vacib faktorlarından biri kimi onun çoxsaylı ölkələrlə diplomatik münasibətlərinin qurulması və bununla da sosial-iqtisadi əlaqələrin həyata keçirilməsi çox vacib idi. Rusiyan ilə diplomatik münasibətlər yaranarkən artıq 31 dövlət Azərbaycanın müstəqilliyini tanımış və  əlaqələr yaradılmışdır. Belə ki, Rusiya Azərbaycan ilə diplomatik əlaqələri Türkiyə, Ukrayna, İspaniya, Fransa, Böyük Britaniya, ABŞ, Almaniya, hətta coğrafi cəhətdən Azərbaycandan çox uzaqda yerləşən Meksika, Banqladeş, Qvineya kimi dövlətlərdən sonra yaratmışdı, baxmayaraq ki, bu dövrdə Azərbaycanın iqtisadi-ticarət əlaqələrinə malik olduğu dövlətlər arasında Rusiya birinci yerdə idi, Rusya Silahlı Qüvvələrinin HHM bölməsinin 4-cü ordusu, Rusiya sərhəd qoşunlarının hissələri Azərbaycan ərazisində yerləşirdi, Qəbələ RLS Rusiyanın nəzarətində idi, Azərbaycanda çoxsaylı rus icması yaşayırdı [6, s. 85].

Müstəqillik əldə edildikdən sonra Rusiya Federasiyası ilə ticari-iqtisadi əlaqələrin inkişafında dörd mərhələni qeyd edə bilərik [7]:

- 1991-1994 - Birliyin dağılması, ənənəvi əlaqələrin parçalanması, böhran hadisələrinin dərinləşməsi və münasibətlərdə qeyri-müəyyənlik;
- 1994-1997 - siyasi və iqtisadi sabitliyin qurulması, iki ölkə arasında əlaqələrin hüquqi bazasının genişləndirilməsi mərhələsi;
- 1997-2000 - Azərbaycan-Rusiya əlaqələrinin normallaşması və inkişaf mərhələsi;
- 2001-ci ildən indiyədək - dövlətlərarası münasibətlərin keyfiyyətinin yaxşılaşdırılması və qarşılıqlı iqtisadi əməkdaşlığın intensivləşdirilməsi mərhələsi.

1991-ci ildə SSRİ-nin dağılmasından sonra Rusiya müxtəlif keçmiş ittifaq ölkələri ilə olduğu kimi Azərbaycan ilə gec də olsa müstəqil dövlət statusunda ikitərəfli və çoxtərəfli siyasi, həmçinin sosial-iqtisadi əlaqələr qurdu. Bu bir həqiqətdir ki, Azərbaycan Respublikasının Qərb dövlətləri və Türkiyə Cümhuriyyəti ilə dərin münasibətlərinin olması, xüsusilə də Qərbə inteqrasiya istəyi ilə Rusiyanın müxtəlif dairələri gec barışa bildilər. Ona görə də Azərbaycanın eynihüquqlu olaraq, ikitərəfli faydalı tərəfdaşlıq mühitində, beynəlxalq səviyyədə qəbul edilmiş hüquqi normalara əsaslanan və mehriban qonşuluq əlaqələrini özündə əks etdirən sosial-iqtisadi münasibətlər yaratmaq cəhdlərin müəyyən məqamlarda maneələr yaradılırdı.

Əslində, müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının siyasi rəhbərləri də Rusiya ilə bərabərhüquqlu qarşılıqlı-faydalı münasibətlər yaratmağa ciddi cəhd göstərməmiş və yaxud buna nail ola bilməmişdir. Odur ki, mütəxəssislər 1991-1997-ci illərdə iki ölkə arasındakı münasibətləri qeyri normal qiymətləndirmişlər. Bəhs olunan dövrdə Azərbaycanı öz təsirində saxlamaq üçün Rusiya hökuməti, bir tərəfdən bütün vasitələrlə bu ölkənin daxilində milli birlik və sabitliyin pozulmasına nail olmuş, etnik separatizmi, siyasi və vətəndaş qarşıdurmasını qızışdırmış, iqtisadi böhran yaratmış və onu günü-gündən dərinləşdirməyə çalışmışdır [6, s. 245].

Azərbaycanın Rusiya ilə hərtərəfli normal əlaqələr qurmasının zəruriliyini göstərən amillərdən biri də onun Azərbaycan ətrafında açıq və ya dolayı yollarla geosiyasi və geoiqtisadi blokada yaratmaq, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini dəstəkləməsi, Rusiyada yaşayan azərbaycanlıları sıxışdırması, beynəlxalq aləmdə Azərbaycanın milli maraqlarına zərbə vurması, Qərb ölkələrinin Azərbaycanla əlaqələrini pozması və s. kimi geosiyasi vasitələrlə ona xaricdən zərbə vurmağa çalışmasının qarşısını almaqdır.

Azərbaycan müstəqilliyin ilk illərində müharibənin yaratdığı ağır iqtisadi və sosial şəraitlə yanaşı Rusiyanın qısamüddətli də olsa Azərbaycana gedən bütün kommunikasiyaları bağlaması nəticəsində ortaya çıxan çətinliklərlə üzləşmişdir. 1994-cü ilin Şimali Qafqazda başlayan müharibə ilə əlaqədar idxal-ixrac əməliyyatları dayandırılmışdı [3, s. 321]. Təbii ki, bu da Azərbaycanda həmin dövr üçün vəziyyətin ağırlaşmasına səbəb olurdu. Elə bu halın özü də hər iki dövlətin həm siyasi, həm də sosial – iqtisadi cəhətdən əlaqələrinin yaradılmasının və artan templərlə inkişaf etdirilməsinin zəruriliyini bir daha sübut edir. Çünki Azərbaycan Şimali Qafqazda sabitliyin təmin edilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu milli, dini, mədəni və digər məsələlərlə əlaqədardır. Bununla yanaşı, Rusiya ilə ticarət və digər kommunikasiyaların mövcud olması Azərbaycan üçün çox vacibdir. Ona görə ki, həm Rusiyada milyonlarla Azərbaycan vətəndaşı və ümumilikdə azərbaycanlılar yaşayır və iqtisadi, eləcə də sosial sferada dövlət orqanlarında fəaliyyət göstərirlər, həm də Azərbaycanın iqtisadi siyasətinin prioritet istiqaməti olan qeyri-neft sektoru məhsullarının ən böyük istehlakçı ölkəsi Rusiyadır.

Rusiya ilə sosial-iqtisadi əlaqələrinin qurulmasının və inkişaf etdirilməsinin göstəricilərindən biri də "Əsrin müqaviləsi" kimi beynəlxalq əhəmiyyətli enerji layihəsinin reallaşmasında Rusiyanın iştirakçı dövlətlərdən biri kimi çıxış etməsidir. Qeyd edək ki, 12 sentyabr 1994-cü ildə Rusiya Azərbaycana Xəzərdə birtərəfli fəaliyyətin həyata keçirilməsi ilə bağlı narahatlığını ifadə edən və kəskin xarakter daşıyan not vermişdir. Lakin çətin iqtisadi və siyasi vəziyyətə baxmayaraq, 1994-cü ilin sentyabrın 20-də Bakı şəhərində ABŞ, Böyük Britaniya, Rusiya, Norveç və Türkiyə arasında Azərbaycan

tərəfindən beynəlxalq konsorsium imzalanmışdır [8, s. 59]. Bu müqavilə üzrə həyata keçirilən fəaliyyət Azərbaycanın "neft strategiyası"nın möhkəm təməlidir.

Bundan sonra regionda münbit əməkdaşlıq şəraitinin formalaşdırılması və mehriban qonşuluq münasibətlərinin olması məqsədilə fəaliyyət həyata keçirən Azərbaycan Rusiya ilə bütün sahələrdə, o cümlədən iqtisadi, siyasi, ictimai və mədəni sferalarda əlaqələrin dərinləşdirilməsinin dəstəkçisidir. Azərbaycanın konstruktiv mövqeyi nəticəsində müəyyən dövrlərdə müşahidə edilən çatışmazlıqlar müsbət meyllərə çevrilmiş, birinci növbədə isə ikitərəfli münasibətlərin "istiləşməsi" baş vermişdir.

Ümumiyyətlə, Azərbaycan və Rusiya arasında sosial-iqtisadi münasibətlərin yaradılması, bu münasibətlərin mütərəqqi xarakter daşıması və inkişaf edən tempdə olması hər iki dövlətin xeyrinədir və müasir iqtisadi şəraitdə zəruri xarakter daşıyır. Əlaqələrin yaradılması və inkişaf etdirilməsinin zəruriliyini aşağıdakı qaydada təqdim etmək olar:

- tarixi yaxınlıq, idarəetmə və təsərrüfat əlaqələrinin, o cümlədən sosial münasibətlərin inteqrasiya etməsi;
- birgə maraq kəsb edən regional və beynəlxalq layihələrin reallaşdırılması (Bakı Novorossiysk neft kəməri [9], Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi [10];
- Dağlıq Qarabağla bağlı münaqişənin nizamlanmasında iştirakçı kimi ATƏT-in Minsk qrupunun üzvü olması;
- BMT-nin Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olması;
- Xəzər hövzəsi ölkəsi kimi qarşılıqlı olaraq yaranan məsələlərin operativ və səmərəli şəkildə həlli, o cümlədən Xəzərdən neft və qazın hasil edilməsi ilə əlaqədar olaraq ümumi razılığın və əməkdaşlığın əldə edilməsi;
- Azərbaycanın Rusiya ilə olan ticarət əlqələri;
- Rusiyadan Azərbaycana valyuta daxilolmalarının əhəmiyyətli dərəcədə yüksək olması;
- Birgə kapitala malik müxtəlif həcmli müəssisələrin yaradılması və fəaliyyəti;
- Terrorçuluqla mübarizədə ümumi maraqların olması;
- Rusiyanın regional baxımdan təzyiq imkanlarının olması və s.

Yuxarıda sadalanan aspektlərə əsasən qeyd etmək lazımdır ki, sistemli yanaşma şəraitində Azərbaycan və Rusiya arasında iqtisadi əlaqələrin inkişafında mövcud olan incəliklərin hərtərəfli öyrənilməsi üçün prioritetlər, ikitərəfli və çoxtərəfli əsaslarda iqtisadi əlaqələrin inkişaf perspektivlərinin müəyyən edilməsi həyata keçirilməlidir. Əsas səbəblərdən biri də qarşılıqlı ticarət axınlarının, investisiyaların, istehsal və əməkdaşlıq əlaqələrinin intensivliyinin artırılmasıdır. Buna görə də sosial-iqtisadi tələbatların ümumiləşdirilmiş göstəriciləri təhlil edilərək qiymətləndirilməli və ölkənin rəqabət qabiliyyətinin nəzərə alınması ilə Rusiya geniş çərçivədə səmərəliliyə təsir edən amillər müəyyən edilməlidir.

Qloballaşma şəraitində beynəlxalq əməkdaşlıqda iştirak edən subyektlərin müxtəlifliyi artır. Dövlətlərlə yanaşı beynəlxalq əməkdaşlıqda müxtəlif legitimliyə, müxtəlif insanlara, maraqlara malik olan transmilli firmalar, banklar, maliyyə qrupları, müxtəlif peşəkar birləşmələr və s iştirak edir. Bir qayda olaraq belə şəraitdə əməkdaşlığın ümumi qaydaları olmur [4, s. 186]. Rusiya ilə Azərbaycanın əməkdaşlığını zəruri edən faktorlardan biri də qloballaşmadır. İqtisadi elmlər sahəsində qloballaşma hər şeydən əvvəl azad dünya bazarı, qlobal kütləvi mədəniyyət və dünyəvi informasiya ittifaqı dünyası ilə bağlıdır. Transmilli müəssisələr yüksək informasiya texnologiyaları əsasında qlobal mal və maliyyə bazarında fəaliyyət göstərirlər, əmək isə qlobal əmək bazarında rə-

qabətə girir. Qeyri klassik qapalı bazar iqtisadiyyatı modeli burada tansmillilәşir. Buna uyğun olaraq onlar ittifaq təşkilatlarına qoşulmanın xeyrinə öz suverenitetlərini zəiflədirlər [5, s. 102].

Hal-hazırda Rusiya Federasiyası həm Xəzəryanı regionun və Cənubi Qafqazın transmillilәşməsi, həmçinin iyirmi birinci əsrdə dünyanın geosiyasi baxımdan əsas mərkəzlərindən biri kimi çıxış etməsi ilə razılaşmağa məcbur olmuş, həm də Azərbaycan Respublikasının suveren maraqları və beynəlxalq çərçivədə tanınan hüquqlarının mövcudluğunu qəbul edərək, onu regionun nüfuzlu, perspektiv imkanları olan dövləti kimi tanıyır. Ən vacib məqamlardan biri isə odur ki, Rusiyanın indiki hakimiyyəti Azərbaycan ilə bütün sahələrdə, xüsusilə sosial-iqtisadi məsələlərin həllində məqsədyönlü şəkildə əlaqələr qurur və xoş niyyət ifadə edir.

Rusiya ilə sosial və iqtisadi baxımdan əlaqələrin səmərəli olması, dərinləşməsi Azərbaycan üçün nə qədər zəruri xarakter daşıyırsa, bir o qədər də Rusiya üçün əhəmiyyətlidir. Azərbaycan ümumilikdə Xəzər hövzəsində və Cənubi Qafqaz regionunda Rusiya üçün müsəlman Şərqinə və Türkiyəyə çıxış üçün, eləcə də Yaxın və Orta Şərqdə baş verən hadisələrə və proseslərə təsir etmək imkanlarına görə xüsusi önəm kəsb edir.

Azərbaycan Şərq və Qərbin kəsişməsində mühüm nəqliyyat kommunikasiyalarının kəsişməsində və nəqliyyat dəhlizlərinin mərkəzində dayanır və bu aspektdən Rusiya kimi geniş imkanlara malik bir ölkənin rəqibi kimi qəbul edilir. Azərbaycanın çox böyük ehtiyatlara malik təbii resurs yataqları aşkar edilmişdir ki, bu yataqların işlənməsi, hasilatı, həmçinin xarici ölkələrə satışını Rusiya birmənalı şəkildə qəbul edə bilmir. Çünki Rusiya Cənubi Qafqaz regionunu öz nüfuz dairəsi hesab edir bununla da regionda Azərbaycan kimi lider dövlətin olması onun müəyyən maraqlarına uyğun gəlmir. Bundan əlavə Azərbaycan qaz nəqli məsələsində Rusiyanın Avropa bazarında rəqibi kimi çıxış edir. Lakin sosial-iqtisadi münasibətlərin, bütün çatışmazlıq və problemlərə baxmayaraq, yaradılması və inkişaf etdirilməsini zəruri edən amillər, qeyd etdiyimiz kimi, mövcuddur və bu amillər xüsusilə Azərbaycan üçün əhəmiyyət daşıyır. Rusiya məhsulları üçün mühüm satış bazarlarından biri Azərbaycandır. Azərbaycana məxsus kənd təsərrüfatı və aqrar sənaye məhsulları ilə isə rusiyalı istehlakçılar təmin olunur. Azərbaycanda çoxminli rusdilli vətəndaşlar, Rusiyada da azərbaycanlılar yaşayır və müxtəlif fəaliyyətlə məşğul olur ki, bu amil də iki ölkə arasında sosial-iqtisadi əlaqələrin qurulmasını şərtləndirir. Sadalananlardan əlavə Azərbaycanın strateji-coğrafi mövqeyi Rusiyanın iqtisadi, sosial, siyasi və hərbi təhlükəsizliyinin təmin edilməsi aspektindən çox böyük əhəmiyyətə malikdir.

Son dövrlərdə dövlətlərarası münasibətlərin təhlili onu deməyə əsas verir ki, Azərbaycan və Rusiya Federasiyası arasında olan sosial-iqtisadi münasibətlər artan dinamikaya malikdir və bu əlaqələrdən təkcə hər iki dövlət deyil, ümumilikdə region dövlətləri fayda əldə edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / Məqalələr toplusu. Bakı: "Poliart" MMC, 2017, 904 s.
2. E.M.Nəsibov. Beynəlxalq münasibətlər və dövlətlərin güclərinə görə təsnif olunmalarının əsasları (qlobal və regional miqyasda sülhün təmin edilməsində dövlət gücünün rolu təsiredici amil kimi). Bakı, "Elm v Təhsil", 2013, 320 s.

3. M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı: Mütərcim, 2015. - 664 səh.
4. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi (dərslik), Bakı, Mütərcim, 2007, 208 səh.
5. Abbasbəyli A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma. Dərslik, Bakı, 2007, 165 səh.
6. Məmmədov E.Ə. "Müasir dövrdə Azərbaycan və Rusiya əlaqələri". Bakı, "Yazıçı" nəşriyyatı, 2014, 184 s.
7. Гулиев М.Э. Экономические связи Азербайджана с Российской Федерацией и проблемы их развития. Диссертация, Баку, 2002
8. Мамедзаде Н.С. Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и Восточной Европы. Баку, 2006, 145 с.
9. http://www.socar.az/socar/az/activities/transportation/baku-novorossiysk-oil-pipeline
10. http://www.mincom.gov.az/az/view/pages/104

## IMPORTANCE OF SOCIO-ECONOMIC RELATIONSHIP BETWEEN AZERBAIJAN AND RUSSIA AFTER AZERBAIJAN GAINED INDEPENDENCE

**V.Z.Ahmadov**

**SUMMARY**

This article deals with the establishment of socio-economic relationship between Azerbaijan and Russia after Azerbaijan gained independence. Problems existing in the creation of this relationship and the ways to solve them are considered. The factors that determine the importance of socio-economic relationship between Azerbaijan and Russia are discussed.

## НЕОБХОДИМОСТЬ СОЗДАНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И РОССИЕЙ ПОСЛЕ ОБРЕТЕНИЯ АЗЕРБАЙДЖАНОМ НЕЗАВИСИМОСТИ

**В.З.Ахмедов**

**РЕЗЮМЕ**

В статье речь идет об установлении социально-экономических отношений между Азербайджаном и Россией после обретения независимости Азербайджаном. Исследуются проблемы, существовавшие при создании этих отношений, и пути их решения. Приведены факторы, обуславливавшие важность социально-экономических отношений между Азербайджаном и Россией.

*Məqalə redaksiyaya 5 fevral 2019 tarixində daxil olmuş, 27 fevral 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 631.432

# QUBA RAYONU TORPAQLARININ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**T.İ.Cəfərov**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Bakı AZ1073, Ayna Sultanova küçəsi 11
e-mail: tariyelo@gmail.com

***Açar sözlər:*** bitki örtüyü, eroziya, relyef, suvarma
***Key words:*** vegetation cover, erosion, topography, irrigation
***Ключевые слова:*** растительный покров, эрозия, рельеф, орошение

**Giriş.** Azərbaycan Respublikası torpaqları çox məhdud saydadır. Burada əhalinin çox sıx olması onun daha çox təsirlərə və o cümlədən, məhsuldarlığının azalmasına səbəb olur. Ölkəmizdə Quba rayonu istər məskunlaşmasına, istərsə də torpaqlardan istifadəsinə görə fərqlənən ərazilərdəndir. Burada bir çox proseslər torpaqdan istifadəyə, o cümlədən onun münbitliyinə təsir edir. Quba rayonunun torpaqlarında baş verən şorlaşma, minerallaşmış qrunt sularının səthə yaxınlığı və proseslərin fonunda defliyasiya torpaqların mübitliyini aşağı salmaqla onun istifadəsini çətinləşdirir.

**Tədqiqatın obyekti.** Tədqiqat apardığımız ərazi Quba rayonu ərazisidir. Quba rayonu Böyük Qafqazın şimal-şərqində yerləşir. Şimal-qərbdən Dağıstan respublikası, cənub-qərbdən və cənub-şərqdən Baş Qafqaz dağ silsiləsi, şimal-şərqdən Xaçmaz, cənubdan isə Dəvəçi rayonu ilə həmsərhəddir. Rayonun geomorfologiyası cənub və qərb hissədə dağlıq (Baş Qafqaz silsiləsinin şimal-şərq yamacı, yan silsiləsinin cənub-şərq hissəsi və s.), şərqdə isə düzənliklərdən ibarətdir. Ən yüksək hündürlük 4468 metrə çatır (Bazardüzü dağı).

**Tədqiqatın məqsədi və məsələnin qoyuluşu.** Aparılan tədqiqatda əsas məqsəd rayon ərazisi torpaqlarında yaranmış problemləri aşkara çıxarmaq və bu torpaqlardan səmərəli istifadənin yollarını tapmaqdan ibarıtdir. Bunun üçün torpaqəmələgəlmə və eroziya prosesinin inkişafında relyefin, torpaqların fiziki və kimyəvi xüsusiyyətlərinin, kimyəvi və bioloji proseslərin, hidroqrafiyanın, bitki örtüyünün və s. rolunu göstərmək vacib şərtlərdəndir. Şəkil 1-də Quba rayonu torpaqlarının növləri və onların problemli hissələri göstərilmişdir.




**Şək. 1. Quba rayonu torpaqlarının xəritəsi**

**Məsələnin həll üsulları və aprobasiyası.** Əldə olan məlumatlara əsasən, rayon ərazisində 187,4 min hektar eroziyaya məruz qalmamış, 68,1 min hektarı zəif, 24,8 min hektarı orta, 36,6 min hektarı şiddətli dərəcədə eroziyaya uğramışlar. Bütün bunlar ərazidə eroziyaya qarşı mübarizə tədbirlər sisteminin tətbiqini zəruri edir [1, 2].

Quba rayonunun ümumi ərazisi 290303 hektar olub, bunun 29002 hektarı suvarılan torpaqlardır. Əkin altında olan 19578 hektar torpağın 11469 hektarı suvarılır. Çoxillik əkmələr bağlar altında olan torpaqların sahəsi 14742 hektar olub. Bunun da 13213 hektarı suvarılır.

Rayonda 15289 hektar, biçənək sahəsi vardır, onun ancaq 842 hektarı suvarılır. Mövcud örüşlərin sahəsi 113861 hektar olub, onun 943 hektarı suvarılandır. Kənd təsərrüfatına yararlı sahələrin cəmi 163470 ha olub, onun 26467 hektarı suvarılır. Həyətyanı sahələrin cəmi 5923 hektar olub, 2535 hektarı suvarılandır, o cümlədən kənd təsərrüfatına yararlı sahələr 5432 hektar təşkil edir ki, bunun da 2535 hektarı suvarılır. Rayonda 52707 hektar meşə sahələri vardır.

Quba rayonu torpaqlarında relyef əsas amil kimi torpağın əmələgəlməsində iştirak edib, hidrotermik rejimin və mikroiqlimin dəyişməsində rol oynayır. Ərazi geomorfoloji

şəraitinə görə bir-birindən kəskin fərqlənən bir neçə yüksəklik qurşağa ayrılır: yüksək dağlıq, orta dağlıq, alçaq dağlıq, dağətəyi. Burada səthi meyllik çox müxtəlif olub, 1°-dən 45°-yə və ondan da artıq dərəcədə tərəddüd edir. Ən çox meylli olan sahələr ərazinin yüksək dağlıq və orta dağlıq hissəsində təsadüf olunur. Qalan yerlərdə yamacın meylliyi nisbətən azdır. Ərazidə 10°-15°-ə qədər meylli sahələr əkin altında, çox meylli yamaclar isə meşə və kolluqlar altındadır və ya örüş kimi istifadə edilir [2].

Torpaqəmələgətirən süxurların tərkibindən torpaqların fiziki və kimyəvi xüsusiyyətləri çox asılıdır. Rayonun yüksək dağlıq zonasında torpaqlar yura sistemli şistlər, qumdaşları, əhəngdaşları, diabazlar, andezitlər, kvarsporfiritlər süxurları üzərində inkişaf etmişdir. Belə torpaqlar orta, ağır və yüngül mexaniki tərkiblidirlər. Orta dağlıq hissədə torpaqəmələgətirən süxurlar neogen sistemli gillər, qum daşları, andezitlərdən ibarətdir. Ərazinin az meylli və düzən hissəsində torpaqlar dördüncü dövrə aid gillər, qumlar, andezit və bazaltlardan ibarətdir.

Rayonun hidroqrafiyasına gəldikdə göstərmək lazımdır ki, burada torpaqların əmələ gəlməsində mühüm rol oynayan amillərdən biri də hidrogeoloji şəraitin xüsusiyyətləridir. Ərazinin dağlıq hissəsində yağıntıların miqdarı çoxdur. Buna görə də düşən yağıntıların yerin səthində paylanması relyefin xüsusiyyəti ilə əlaqədardır. Ümumiyyətlə bölgədə onun cənub və cənub-qərb hissəsində çoxlu su mənbələri mövcuddur.

Bölgə ərazisində əsas çaylar Samur, Qusar, Qüduyal, Vəlvələ çay, Gilgil çay və s. Xəzər dənizi hövzəsinə aiddir. Çaylar suvarma və qismən hidroenerji əhəmiyyətlidir. Ərazi böyük yeraltı su ehtiyatına malikdir.

Məlum olduğu kimi torpaqəmələgəlmə prosesində və torpaqların mühafizəsində bitki örtüyünün rolu böyükdür. Sıx bitki örtüyü torpaq düşən yağmurların zərbəsini öz üzərinə götürərək onların dağıdıcı qüvvəsini xeyli azaldır.

Rayonun yüksək dağlıq hissəsində çəmən bitkiləri geniş inkişaf etmişdir. Alp və subalp çəmənlikləri qalın bitki örtüyünə malikdir. Burada bitkilər uca boylu olur. Əsasən taxıl fəsiləsinə mənsub olan bitkilər yayılır. Ərazidə alp və subalp çəmənlikləri geniş sahə tutur. Bunlardan yay otlaqları kimi istifadə edilir. Ərazinin orta dağlıq hissəsində meşə bitkiləri geniş yayılmışdır. Burada əsasən fısdıq, vələs, palıd, qoz və sairə inkişaf etmişdir. Aşağı zonada ot bitkilərindən üç yarpaq yonca, bağayarpağı, yarpız, hürən, cil quşotu və şairəni göstərmək olar [2, 3].

Rayon ərazisində əsasən dağ-çəmən, çəmən-meşə, dağ-meşə, bozqırlaşmış dağ-meşə, dağ boz qəhvəyi torpaqlar və onların yarım tipləri yayılmışdır. Mürəkkəb fiziki-coğrafi şəraitin və antropogen gərginliyin təsiri nəticəsində rayon ərazisində, xüsusilə dağ əkinçilik zonasında eroziya prosesi geniş yayılmışdır. Burada eroziyanın bütün növləri otlaq, səthi, qobu, irriqasiya, sürüşmələr, uçqunlara çox təsadüf edilir.

Rayonun yay otlaqları əsasən dağ-çəmən torpaqlarında yerləşir və heyvandarlığın inkişafında böyük rol oynayır. Burada otlaqlar intensiv istifadə edilir, mal-qaranın otarılması normadan artıqdır. Torpaqqoruyucu tədbirlərin tətbiq edilmədiyi şəraitdə otlaqlar dağılır və eroziya prosesi vüsət alır. Burada çim qatının dağılması səthi axımın əmələ gəlməsinə gətirib çıxarır. Burada xırda və iri sürüşmələr də mövcuddur.

Dağətəyi düzən hissələrdə isə suvarma mütərəqqi üsullarla aparılmadıqda irriqasiya eroziyası inkişaf etmişdir. Ərazidə qobu eroziyasına həm dağ-çəmən zonasında və həm də bozqır zonada təsadüf olunur. Göründüyü kimi, Azərbaycanın bu təbii zəngin

bölgəsində eroziya inkişaf edir, və ona qarşı mübarizə çox böyük əhəmiyyət kəsb edir. Aşağıdakı tədbirlərin tətbiqini məqsədəuyğun hesab edirik.

Yamaclarda 6° meyilliyi olan sahələrdə dənli və cərgə arası becərilən bitkiləri yerləşdirmək məqsədə uyğun hesab edilə bilər. Meyilliyi 6-12° olan yamaclarda əsasən çox illik otlar və dənli bitkilərə üstünlük verilməli, 12°-dən yuxarı ərazilərdə, eroziyaya məruz qalmış sahələrdə heç bir əkin işləri aparılmamalı və ərazi 3-5 il müddətinə dincə buraxılmalıdır.

Dağətəyi zonada eroziyaya uğramış və münbitliyini itirmiş ərazilərdə terraslar düzəldilməlidir.

Məhsuldarlığın artmasına təsir edən əsas amillər: torpaq islahatlarının başa çatması, torpağının sahibinin müəyyən edilməsi, torpağa maksimal qulluq, məhsulun özünün olduğuna görə yüksək reproduksiyalı toxumlardan, mineral və üzvi gübrələrdən maksimum istifadə edilməsi, yetişdirdiyi bitkinin vegetasiya ərzində suvarma suyu ilə təmin etməsindən ibarətdir.

Hesablamalar göstərir ki, 29002 hektar suvarılan sahədəki kənd təsərrüfatı bitkilərinin çox sulu illərdə 152,8 mln.$m^3$ su tələbatını tamamilə ödəyir, lakin az sulu illərdə tələbat ödənilmir, 140 mln.$m^3$ su çatışmır.

Aparılan tədqiqatlar göstərir ki, yeni iqtisadi şəraitdə su qıtlığını aradan qaldırmaq üçün kiçik ölçülü, suya qənaət edən çiləyici, damcıladıcı və s. suvarma sistemlərindən istifadə edilməlidir.

Suvarma suyunun keyfiyyətli olması mühüm əhəmiyyətə malikdir. Suvarma suyunda minerallıq 0,08-1,0 q/l ola bilər. Suvarma suyu yüksək keyfiyyətlidirsə, onda torpaq yaxşılaşa bilər.

Rayon ərazisində qrunt sularının minerallığı 3,0 q/l-dən çox olan 10500 hektar sahə vardır. Suvarma nəticəsində qrunt sularının qalxması və nəticədə şorlaşma prosesinin qarşısının alınması üçün 3000 hektarda kollektor-drenaj sisteminin tikilməsinə və həmin sahələrdə mütərəqqi suvarma texnikasının tətbiq edilməsinə, yeni suvarma şəbəkəsinin yenidən qurulmasına ehtiyac vardır. Bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinə milyonlarla manat vəsait tələb olunur.

**Nəticə**. Aparılmış tədqiqatlar göstərir ki, Quba rayonu torpaqları müxtəlif səbəblərdən eroziya prosesinə məruz qalmışdır. Burada relyefin, torpaqların fiziki və kimyəvi xüsusiyyətlərinin torpaq əmələgəlməyə təsiri qeyd edilmişdir. Həmçinin hidrologiyanın, bitki örtüyünün, heyvandarlığın və suvarmanın təsirləri də göstərilmişdir. Suvarılan sahədəki kənd təsərrüfatı bitkilərinin çox sulu illərdə su tələbatı tamamilə ödənildiyi, lakin az sulu illərdə bu tələbatın ödənilmədiyi, bu isə yeni iqtisadi şəraitdə su qıtlığını aradan qaldırmaq üçün kiçik ölçülü, suya qənaət edən sistemlərdən istifadə edilməsi məsləhət bilinir. Bütün bu işləri görmək üçün torpaq-qoruyucu aqrotexniki mübarizə tədbirləri görülməlidir.

## Ədəbiyyat

1. Q.Ş.Məmmədov, S.Z.Məmmədova, C.Ə.Şabanov. Torpaqların ekoloji monitorinqi. Bakı Universiteti nəşriyyatı. Bakı, 2017
2. B.H.Əliyev, İ.N.Əliyev. Azərbaycanda kənd təsərrüfatının bəzi problemləri və onların həlli yolları. Ziya-Nurlan nəşriyyatı, Bakı, 2004, 527 s.
3. Əliyev H.Ə. Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları. Az SSR EA nəşriyyatı, Bakı, 1964, 234 s.

## SOIL PROBLEMS IN GUBA RAYON AND THE WAYS TO SOLVE THEM

**T.I.Jafarov**

**SUMMARY**

This article is dedicated to the soil problems in the Guba region. The reasons why those lands are getting damaged are considered, the ways to improve the situation are suggested, and the methods of using them effectively are proposed.

## ПРОБЛЕМЫ ЗЕМЕЛЬ ГУБИНСКОГО РАЙОНА И ПУТИ ИХ РЕШЕНИЯ

**Т.И.Джафаров**

**РЕЗЮМЕ**

Статья посвящена земельным проблемам Губинского района. Рассмотрены причины, по которым земли портятся, предлагаются пути их исправления и эффективного использования.

*Məqalə redaksiyaya 5 fevral 2019 tarixində daxil olmuş, 25 fevral 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2019 - № 51**

UOT № 330

# HAVA NƏQLİYYAT XİDMƏTLƏRİNDƏN ƏLDƏ OLUNAN GƏLİRİN HƏCMİNƏ TƏSİR EDƏN AMİLLƏRİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

**B.Y.Mustafazadə**
Azərbaycan Milli Aviasiya Akademiyası
Bakı, Mərdəkan prospekti 30
e-mail: mustafazade.bahar@bk.ru

***Açar sözlər:*** yük dovriyyəsi, sərnişin dövriyyəsi, inflyasiya
***Keywords:*** freight traffic, passenger turnover, inflation
***Ключевые слова:*** грузоперевозки, пассажирооборот, инфляция

Dünya iqtisadiyyatının qloballaşması şəraitində dinamik inkişaf edən sahələrdən biri də nəqliyyat sahəsidir. İqtisadiyyatın bütün sahələrinə təsir etmə gücünə malik olan nəqliyyat sektorunda hava nəqliyatının rolu daha böyükdür. Hava nəqliyyatı dünya ölkələri arasında qarşılıqlı iqtisadi-siyasi əlaqələrin, beynəlxalq əməkdaşlığın, həmçinin əmtəə mübadiləsinin inkişafında mühüm rol oynayır. Vahid nəqliyyat sistemində qısa müddət ərzində sərnişin və yük daşımada fərqlənən hava nəqliyyatı beynəlxalq miqyas alaraq, beynəlxalq əmək bölgüsündə maddi xarakter daşımaqla beynəlxalq əlaqələrin genişlənməsinə şərait yaratmış və dünya təsərrüfat sistemində iqtisadi artıma səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, hava nəqliyyatının inkişafı avtomobil, dəmir yolu və dəniz nəqliyyatı kimi dünyanın istənilən regionunda yaranan iqtisadi-siyasi dəyişikliklərə daha tez cavab verir. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və dünya iqtisadi əlaqələri iqtisadi əlaqələrin müxtəlif ölkələr arasında genişlənməsinə şərait yaradaraq, vahid nəqliyyat sisteminin inkişafını tənzimləyir.

Vahid nəqliyyat sistemində hava nəqliyyatı digər nəqliyyat növləri ilə müqayisədə sərnişin və yükdaşımaların tezliyinə görə liderlik edir [4]. Azərbaycan Respublikasının unikal coğrafi mövqeyinin, həmçinin qədim İpək Yolunun bərpa edilməsi nəqliyyatın bütün növləri ilə bərabər hava nəqliyyatının inkişafına da daha böyük şərait yaradaraq sərnişin dövriyyəsini artırmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar:

Qrafik 1




Mənbə: (5) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, hava nəqliyyatında sərnişin dövriyyəsi 2010-2016-cı illər üzrə dinamik artım nümayiş etdirmişdir. Belə ki, 2017-c ildə sərnişin dövriyyəsinin həcmi 2010-cu illə müqayisədə 3,5 dəfə, 2011-ci illə müqayisədə 3,7 dəfə, 2012-ci illə müqayisədə 2,3 dəfə, 2013-ci illə müqayisədə 2,2 dəfə, 2014-cü illə müqayisədə 1,9 dəfə, 2015-ci illə müqayisədə 1,7 dəfə, 2016-ci illə müqayisədə isə 1,6 dəfə artaraq 5601 mln. sərnişin-km olmuşdur. Trend modelinə əsasən zaman amili ilə hava nəqliyyatında sərnişin dövriyyəsi **y=1424,3ln(x)+1134,4** əlaqə tənliyilə ifadə ediləcəkdir. Qrafikə əsasən zaman amili ilə trend modelinə əsasən hava nəqliyyatında sərnişin dövriyyəsi arasındakı korrelyasiya əmsalının $R^2$=0,6783 olması sərnişin dövriyyəsinin zaman amilindən asılılığının Çeddok şkalasına əsasən yüksək (0,5-0,7) olması deməkdir [3].

Hava nəqliyyatının təsərüfat fəlaiyyətinin nəticəsinə təsr edən ən mühüm amillər yük və sərnişin dövriyyəsi xərcləridir. Bu xərclərin azalması nəqliyyat müəssisənin məfəətini artıraraq, yükdaşımaların ümumi rentabelliyin artmasına şərait yaradır. Aşağıdakı diaqrammada Azərbaycan Respublikasında 2010-2017-ci illər üzrə hava nəqliyyatında yük dövriyyəsinin həcmi, sərnişin dövriyəsinin həcmi, yük və sərnişin dövriyyəsinə düşən xərclərin dinamikası verilmişdir [5].

Qrafik 2

Hava nəqliyyatında yük dövriyyəsinin həcmi, sərnişin dövriyəsinin həcmi, yük və sərnişin dövriyyəsinə düşən xərclərin dinamikası




Mənbə: (5) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, 1 ton-km sərnişin daşımaya düşən xərc 2011-2012-ci illərdə 2010-cu ilə müqayisədə azalsa da, 2013-cü ildə 2011-ci ilə nusbətən 27,1% və yaxud 31,3 manat, 2012-ci ilə nusbətən 36,3% və yaxud 39,35 manat artmışdır. Sərnişin dövriyəsinin 2013-cü ildə 2011-ci illə müqayisədə artım tempi 22,4%, 2012-ci illə müqayisədə isə 17.8% olmuşdur. Bu isə o deməkdir ki, 1 ton-km sərnişin daşımaya düşən xərcin 2013-cü ildə artım tempi sərnişin dövriyyəsinin həmin dövr üzrə artım tempini 4,7%, 2012-ci ildə isə 18,5% üstələmişdir. 1 ton-km sərnişin daşımaya düşən xərcin artım tempi sərnişin dövriyyəsinin həmin dövr üzrə artım tempini üstələməsi isə müəssisənin təsərrüfat fəaliyyətinin zərərlə nəticələnməsi deməkdir. Sonrakı dövrlərdə 1 ton-km sərni-

şin daşımaya düşən xərc 2010 və 2013-cü illərlə müqayisədə azalaraq, 2017-ci ildə 113,3 manat təşkil etmişdir. 2017-ci ildə 1 ton-km daşımaya düşən xərc 2016-cı illə müqayisədə 7,95 manat artmışdır. Qrafikdən göründüyü kimi, tədqiq edilən dövr üzrə yük dövriyyəsinə düşən xərc də artmaqda davam etmişdir. 1 ton-km yük dövriyyəsinə düşən xərc, 1 sərnişin-km sərnişin dövriyəsinə düşən xərcdən dəfələrlə yüksəkdir. 2017-ci ildə 1 ton-km yük dövriyyəsinə düşən xərc, 1 sərnişin-km sərnişin dövriyəsinə düşən xərcdən 11,9 dəfə yüksək olmuşdur. Qeyd etmək lazımdır ki, vahid nəqliyyat sistemində 1 ton-km yük dövriyyəsinə düşən xərc digər nəqliyyat növləri ilə müqayisədə hava nəqliyyatında daha yüksəkdir. Bu səbəbdən də yük daşımaların xüsusi çəkisi hava nəqliyyatında daha aşağıdır. Hava nəqliyyatında yükdaşımalardan əldə edilən gəlirin yüksəldilməsi iqtisadi artıma təsir edərək ÜDM-in artmasına şərait yaradır. Bu baxımdan hava nəqliyyatından əldə edilən gəlirə təsir edən amillərin qiymətləndirilməsi mühüm mühüm əhəmiyyət kəsb edir. Əsasən hava nəqliyyatında İstifadəyə verilmiş əsas fondlar, investisiyaların həcmi, ölkə üzrə İnfilyasiya səviyyəsi, ixracın və idxalın həcminin dəyişməsi hava nəqliyyatından əldə edilən gəlirə təsir edən amillər içərisində xüsusi yer tutur. Bu məqsədlə həmin amillərin hava nəqliyyatından əldə edilən gəlirə təsirini qiymətləndirmək üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən ekonometrik qiymətləndirmə aparsaq bu amillərin təsir dərəcəsini müəyyən etmək olar. Aşağıdakı cədvəldə 2010-2017-ci illər üzrə həmin göstəricilərin dinamikası verilmişdir [5].

Cədvəl 1

Azərbaycan Respublikasında hava nəqliyyatından əldə olunan gəlir və ona təsir edən göstəricilərin dinamikası

| İllər | Hava nəqliyyatında istifadəyə verilmiş əsas fondlar, mlrd.man (X1) | Hava nəqliyyatında investisiyaların həcmi, mln. man (X2) | Ölkə üzrə İnfilyasiya səviyyəsi, %-lə(X3) | İxracın həcmi, mlrd.dol. (X4) | İdxalının həcmi, mlrd.dol. (X5) | Hava nəqliyyat xidmətindən ümumi gəlir, mlrd. manat (Y) |
|---|---|---|---|---|---|---|
| 2000 | 0,0078 | 0,009 | 1,8 | 1,745 | 1,172 | 0,064 |
| 2001 | 0,0013 | 0,003 | 1,5 | 2,314 | 1,431 | 0,066 |
| 2002 | 0,0003 | 0,001 | 2,8 | 2,167 | 1,665 | 0,074 |
| 2003 | 0,013 | 0,032 | 2,2 | 2,590 | 2,626 | 0,133 |
| 2004 | 0,04 | 0,011 | 6,7 | 3,615 | 3,516 | 0,161 |
| 2005 | 0,0941 | 0,118 | 9,7 | 4,347 | 4,211 | 0,179 |
| 2006 | 0,108 | 0,108 | 8,4 | 6,372 | 5,267 | 0,223 |
| 2007 | 0,054 | 0,083 | 16,6 | 6,058 | 5,713 | 0,326 |
| 2008 | 0,068 | 0,0998 | 20,8 | 47,756 | 7,170 | 0,372 |
| 2009 | 0,1 | 0,032 | 1,6 | 14,701 | 6,123 | 0,331 |
| 2010 | 0,229 | 0,214 | 5,7 | 21,360 | 6,601 | 0,389 |
| 2011 | 0,031 | 0,18 | 7,9 | 26,571 | 9,756 | 0,558 |
| 2012 | 0,153 | 0,28 | 1 | 23,908 | 9,653 | 0,619 |
| 2013 | 0,01 | 0,282 | 2,4 | 16,592 | 9,217 | 0,78 |
| 2014 | 0,619 | 0,082 | 1,4 | 32,842 | 10,712 | 0,838 |
| 2015 | 0,399 | 0,397 | 4 | 30,220 | 9,188 | 0,828 |
| 2016 | 0,0101 | 0,01 | 12,4 | 8,532 | 13,118 | 1,54 |

Mənbə: (5) məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 1-ə əsasən, 2000-2016-cı illər ərzində Azərbaycan Respublikasında hava nəqliyyatı xidmətindən əldə olunan gəlirlərin səviyyəsinə təsir edən amillər arasındakı asılılığı reqressiya analizinin aparılması üçün hazır riyazi proqram paketlərindən EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar. Bu məqsədlə EViews proqram paketindən istifadə edərək, Cədvəl 1-ə əsasən aşağıdakı nəticəni alarıq:

Dependent Variable: Y
Method: Least Squares
Date: 03/21/19 Time: 19:51
Sample: 2000 2016
Included observations: 17

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| X5 | 0.121795 | 0.013946 | 8.733339 | 0.0000 |
| X4 | -0.007036 | 0.004297 | -1.637462 | 0.1298 |
| X3 | -0.001732 | 0.007719 | -0.224425 | 0.8265 |
| X2 | -0.311786 | 0.403531 | -0.772646 | 0.4560 |
| X1 | 0.027160 | 0.300316 | 0.090440 | 0.9296 |
| C | -0.179947 | 0.080741 | -2.228682 | 0.0476 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.901918 | Mean dependent var | 0.440059 |
| Adjusted R-squared | 0.857335 | S.D. dependent var | 0.388517 |
| S.E. of regression | 0.146747 | Akaike info criterion | -0.729654 |
| Sum squared resid | 0.236880 | Schwarz criterion | -0.435579 |
| Log likelihood | 12.20206 | Hannan-Quinn criter. | -0.700422 |
| F-statistic | 20.23019 | Durbin-Watson stat | 1.036309 |
| Prob(F-statistic) | 0.000033 | | |

Mənbə: Eviews proqram paketinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Estimation Command:
=========================
LS Y X5 X4 X3 X2 X1 C

Estimation Equation:
=========================
Y = C(1)*X5 + C(2)*X4 + C(3)*X3 + C(4)*X2 + C(5)*X1 + C(6)

Substituted Coefficients:
=========================
**Y = 0.121795182738*X5 - 0.00703617729951*X4 - 0.0017323175383*X3 - 0.311786317811*X2 + 0.0271604333999*X1 - 0.179946662226**

Alınmış bu əlaqə tənliyinə əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında hava nəqliyyatında istifadəyə verilmiş əsas fondların həcmini ifadə edən (X1) amilinin bir vahid artması hava nəqliyyat xidmətindən ümumi gəlirin həcminin 0,027 vahid dəyişməsinə,hava nəqliyyatında İnvestisiyaların həcmi həcminin (X2) bir vahid artması hava nəqliyyat xidmətindən əldə edilən ümumi gəlirin həcminin 0,312 vahid dəyişməsinə, ölkə üzrə İnfilyasiya səviyyəsini ifadə edən (X3) amilinin bir vahid artması hava nəqliyyat xidmətindən ümumi gəlirin həcminin 0,0017 vahid dəyişməsinə, ixracının (X4) bir vahid dəyişməsi hava nəqliyyat xidmətindən ümumi gəlirin həcminin 0,007 vahid dəyişməsinə, idxalın (X5) bir vahid dəyişməsi isə hava nəqliyyat xidmətindən ümumi gəlirin həcminin 0,122 vahid dəyişməsinə səbəb olacaqdır..

Çoxluq korrelyasiya əmsalının R=0.857olması hava nəqliyyat xidmətindən əldə edilən gəlirin səviyyəsini ifadə edən Y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər (X1, X2, X3, X4 və X5) arasında əlaqənin olduqca yüksək olmasını göstərir. Determinasiya əmsalının $R^2$=0.902olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 90,2% dispersiya nəticə göstəriciləri ilə, 9,8%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (90,2%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Qurulmuş (2) modelinin reqresiya tənliyilə Eviews tətbiqi proqram paketinə əsasən alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir [4].

Qrafik 3

Eviews tətbiqi proqram paketinə əsasən alınan və faktiki qiymətlərin və onların arasındakı qalıqların dinamikası




Mənbə: Eviews proqram paketinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-ə əsasən, Azərbaycan Respublikasında 2000-2016-cı illər üzrə hava nəqliyatından əldə edilən gəlirin səviyyəsinə təsir edən, hava nəqliyyatında əsas kapitala yönəldilən investisiyalar, istehsal fondları nın istifadəyə verilməsi, ixracın, idxalın və ölkə üzrə inflyasiya səviyyəsinin EViews proqramına əsasən qrafiki aşağıdakı kimi olacaqdır:

Qrafik 4




**Mənbə: Eviews proqram paketinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.**

Azərbaycan Respublikasında 2000-2016-cı illər üzrəhava nəqliyatından əldə edilən gəlirin səviyyəsinə təsir edən, hava nəqliyyatında əsas kapitala yönəldilən investisiyalar, istehsal fondları nın istifadəyə verilməsi, ixrac, idxal və ölkə üzrə inflyasiya səviyyəsi amilləri arasındakı əlaqə tənliyini ifadə edən modelin adekvatlığnı yoxlamaq üçün Fişer kriteriyasından istifadə edək. Qeyd etmək lazımdır ki, EViews proqramına əsasən F-Fişer kriteriyasının köməyilə bütünlükdə çoxluq reqressiya tənliyinin statistik əhəmiyyətini yoxlamaq olar. Bu məqsədlə F-Fişer kriteriyası $F_{c\ dv\ l}(a;m;n-m-1)$ qiymətilə müqayisə edilməlidir [4]. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvələ əsasən,

**F- statistic (Fişer kriteriyası) =20.23.**

EXCEL-də F cədvəl qiymətini $F_{c\ dv\ l}(a;m;n-m-1) = Fppacno\text{б}$ düsturunun köməyilə təyin etsək,

$$F_{c\ dv\ l}(a;m;n-m-1) = Fppacno\text{б}(0{,}05;5;11) = 3{,}2$$

F-Fişer kriteriyası, $F_{c\ dv\ l}(a;m;n-m-1)$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası $F_{c\ dv\ l}$ (**20.23** 3,2). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu da qurulmuş (2) modelinin adekvatlığı deməkdir.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyilə tapılmış hava nəqliyyatından əldə olunan gəlirin illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir:

Qrafik 5

Azərbaycan Respublikasında hava nəqliyyatından əldə olunan gəlirin
illər üzrə qiymətləri və standart səhvləri




| | |
|---|---|
| Forecast: YF | |
| Actual: Y | |
| Forecast sample: 2000 2016 | |
| Included observations: 17 | |
| Root Mean Squared Error | 0.118043 |
| Mean Absolute Error | 0.101278 |
| Mean Abs. Percent Error | 45.51029 |
| Theil Inequality Coefficient | 0.102944 |
| Bias Proportion | 0.000000 |
| Variance Proportion | 0.025802 |
| Covariance Proportion | 0.974198 |

Mənbə: Eviews proqram paketinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən istifadə edərək Azərbaycan Respublikasında hava nəqliyyatından əldə edilən gəlirin proqnoz qiymətlərini də müəyyən etmək olar.

Tədqiq olunan dövr üzrə tədqiqat nəticəsində müəyyən edilmişdir ki, yük və sərnişin dövriyyəsinə düşən xərcin artım tempinin, müvafiq qaydada yük və sərnişin dövriyyyəsinin artım tempini üslədiyindən müəssisənin təsərrüfat fəaliyyəti həmin dövrlərdə ziyanla nəticələnmişdir. Bunların qarşısını almaq üçün hava nəqliyyatında istismar xərcləri optimallaşdırılmalıdır. Eviews proqram paketinə əsasənmüəyyən edilmişdir ki, Azərbaycan Respublikasında hava nəqliyyatı xidmətindən əldə olunan gəlirlərin səviyyəsinə təsir edən amillər arasında **Y = 0.121795182738*X5 - 0.00703617729951*X4 - 0.0017323175383*X3 - 0.311786317811*X2 + 0.0271604333999*X1 - 0.179946662226** tənliyilə ifadə olunan asılılıq vardır və müvafiq reqressiya tənliyi 90,2% dispersiya nəticə göstəriciləri ilə, 9,8%-i isə digər amillərin təsiri ilə izah edilir.

Tədqiq olunan dövr üzrə trend modelinə əsasən müəyyən edilmişdir ki, zaman amilindən asılı olaraq hava nəqliyyatında sərnişin dövriyyəsi **y=1424,3ln(x)+1134,4** əlaqə tənliyilə ifadə ediləcəkdir. Zaman amili ilə trend modelinə əsasən hava nəqliyyatında sərnişin dövriyyəsi arasındakı korrelyasiya əmsalının yüksək ($R^2$ = 0,6783) olması sərnişin dövriyyəsi ilə zaman amili arasında yüksək korrelyasiya asılılığını ifadə edir. Həmçinin müəyyən edilmişdir ki, Eviews proqram paketinə əsasənqurulmuş qrafikdən istifadə edərək Azərbaycan Respublikasında hava nəqliyyatından əldə edilən gəlirin proqnoz qiymətlərini müəyyən etmək olar.

**Ədəbiyyat**

1. Hacızalov Y.İ., Kərimova Y.R., Hüseynova L.N. "Ekonometrika". Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2012, s. 439
2. Əliyev Ə.B. Ekonometrika. Bakı: "Təhsil" NPM, 2012, s. 380
3. Musayev A.F., Qəhrəmanov A.T. İqtisadiyyatda riyazi modelləşdirmə və proqramlaşdırma. Bakı: Sabah, 1999, s. 452
4. Yadigarov T.A. Azərbaycanın iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Bakı: "Avropa" nəşriyyatı, 2018, 340 s.
5. http://www.stat.gov.az/ 14.02.2019

## ECONOMETRIC EVALUATION OF FACTORS AFFECTING THE VOLUME OF INCOME FROM AIR TRANSPORT SERVICES

**B.Y.Mustafazadeh**

**SUMMARY**

This article presents an analysis of changes in expenses per passenger-kilometer and ton-kilometer, on the volume of passenger- and freight traffic with the participation of air transport based on data from the State Statistics Committee of the Republic of Azerbaijan. Using the trend model, dependence of passenger and freight turnover on time factor is shown. The article also provides a graphical presentation of the analysis of statistical data affecting the profit, proposes an equation and forecast of the expected profit in air transport based on the Eviews software package.

## ЭКОНОМЕТРИЧЕСКАЯ ОЦЕНКА ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ОБЪЕМ ДОХОДОВ ОТ УСЛУГ ВОЗДУШНОГО ТРАНСПОРТА

**Б.Я.Мустафазаде**

**РЕЗЮМЕ**

В статье представлен анализ изменения расходов на один пассажиро-километр и тонно-километр, на объем пассажиро- и грузоперевозок с участием воздушного транспорта по данным Государственного Комитета Статистики Азербайджанской Республики. На основе трендовой модели определена зависимость пассажирского и грузового оборота от фактора времени. Также дано графическое представление анализа статистических данных, воздействующих на получение прибыли, предложены уравнение и прогноз предполагаемой прибыли на воздушном транспорте на основе применения пакета программ Eviews.

*Məqalə redaksiyaya 31 mart 2019 tarixində daxil olmuş, 3 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 339.9

# ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZVLÜYƏ HAZIRLIQ TƏDBİRLƏRİNİN XARAKTERİSTİKASI

**M.M.Orucov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov 13
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** Ümumdünya Ticarət Təşkilatı, kənd təsərrüfatı, yaşıl zənbil, mavi zənbil, sarı zənbil, investisiya

***Keywords:*** World Trade Organization, agriculture, green box, blue box, yellow box, investment

***Ключевые слова:*** Всемирная Торговая Организация, сельское хозяйство, зеленая корзина, синяя корзина, желтая корзина, инвестиции

ÜTT – beynəlxalq iqtisadi münasibətlər sistemində xüsusi rola malik olub, dünya dövlətləri arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən və dünya ticarətini tənzimləyən beynəlxalq universal mexanizmdir.

ÜTT haqqında müqaviləyə uyğun olaraq, ÜTT-nin başlıca məqsədi beynəlxalq ticarətin yuksək dərəcədə liberallaşdırılması və onun dayanıqlı əsasını yaratmaqla ticarətin tarazlı, maneəsiz, azad aparılmasını təmin etmək, eləcə də insanların həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdır [1, səh. 442-445].

ÜTT-nin əsas vəzifəsi Uruqvay Raundu nəticəsində müəyyənləşdirilmiş Sazişlər Paketi əsasında ÜTT-ə üzv dövlətlər arasında ticari-iqtisadi münasibətlərin tənzimlənməsindən ibarətdir.

Ölkəmizin ÜTT-yə üzv olmaqda əsas məqsədləri Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirməkdən, ÜTT-yə üzv dövlətlərin verdikləri güzəştlərdən istifadə etməkdən, dünya ölkələri ilə ÜTT tərəfindən müəyyən edilmiş ümumi qaydalar əsasında ticarət dövriyyəsini həyata keçirməkdən, dövlətimizdə həyata keçirilən iqtisadi islahatlara beynəlxalq təşkilatlar, o cümlədən üzv dövlətlər tərəfindən yardımın artırılmasına nail olmaqdan, ÜTT-nin tələblərini tətbiq etdikdən sonra daha çox miqdarda xarici investisiyaları cəlb etməkdən və ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək hüququnun əldə edilməsindən ibarətdir.

ÜTT-ə qəbul bir çox prosedur tədbirlərini birləşdirən hər bir dövlət üçün xarakterik xüsusiyyətlər əxz edən bir məsələdir və bu müddət 3 ildən 15-ilədək bir zaman kəsiyini əhatə edə bilər.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü perspektivləri böyük, ictimai maraq doğuran, mətbuatda tez-tez işıqlandırılan məsələlərdən biridir.

Azərbaycan ÜTT-ə daxil olmaqla nə qazanacaq, hansı öhdəlikləri götürəcək, hansı hüquqlarını təşkilatla bölüşəcək, təşkilata üzvlük ölkəmizin inkişafına, xalqımızın rifahına necə təsir edəcək – bunlar ölkəmiz və vətəndaşlarımız üçün taleyüklü məsələlərdir [1, səh. 453].

Bununla əlaqədar, AMEA-nın Akademiki Z.Səmədzadə haqlı olaraq demişdir: "Azərbaycanın ÜTT-ə daxil olmasına tələsmək lazım deyil. Bu prosesdə tələsmək Azər-

baycana baha başa gələ bilər. Ümumdünya Ticarət Təşkilatına üzv qəbul olmaqla Azərbaycanın bütün problemləri həll olunmayacaq. Bu prosesdə ciddi hesablama və araşdırmalar aparmalıyıq ki, hansı mərhələdə hansı şərtlərlə Azərbaycan Dünya Ticarət Təşkilatına daxil olmalıdır. Əgər təşkilata tələsik daxil olsa, Azərbaycanın dirçəlməkdə olan iqtisadiyyatına böyük zərbə vura bilərik. Biz çalışmalıyıq ki, bu prosesin bütün mərhələlərində rəqabətə davamlılığı artıraq. Prezident İ.Əliyev də bütün çıxışlarında deyir ki, rəqabətə davamlılığı artırmaq üçün bütün imkanlardan istifadə etməliyik. Bu məsələni həll etsək, Ümumdünya Ticarət Təşkilatına daxil olmaqla bizim itkilərimiz az ola bilər. " [2, səh. 5].

Ümumdünya Ticarət Təşkilatı bu gün dünya ticarətinin 97%-ni əhatə edir və 26.04.2015 tarixinə onun 162 üzvü vardır, müşahidəçi ölkələrin sayı isə 24-dür [2, səh. 1]. Dünyanın inkişaf etmiş ölkələrinin hamısı ÜTT-nin üzvüdür və ölkəmizin bu təşkilatın üzvü olması ən azından Azərbaycanın dünyanın aparıcı ölkələri ilə bir klubda birgə olması deməkdir.

Ümumdünya Ticarət Təşkilatı üzvlərinin demək olar ki, 2/3-ni inkişaf etməkdə olan ölkələr təşkil edir. Belə bir məqama malik olmaq bu ölkələr üçün xüsusi hüquqların verilməsini nəzərdə tutur. Belə ki, Ümumdünya Ticatər Təşkilatının bir çox Sazişlərində inkişaf etməkdə olan ölkələrə aid yumşaq yanaşmanı əsaslandıran maddələr vardır. Buna misal olaraq Differensial və daha əlverişli rejim haqqında 1979-cu il Ümumdünya Ticarət Təşkilatı Sazışı, GATT 1994-ün 37-ci maddəsi və 4-cü hissəsi (İEÖ) inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələr üçün diferensial və daha əlverişli rejimin təqdim olunmasını nəzərdə tutur.

ÜTT-ə üzv ölkələrin təcrübəsi göstərir ki, Ümumdünya Ticarət Təşkilatına üzv olmaq ixrac və idxalın artırmağa, ixrac və idxal istiqamətlərində səmərəli seçim etməyə, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərlə iqtisadi münasibətləri genişləndirməyə, ölkənin milli maraqlarını müdafiə etmək məqsədilə ÜTT-nin imkanlarından istifadə etməyə, beynəlxalq ticarət qaydalarının hazırlanmasında iştirak etməyə və investisiyaların miqdarını artırmağa imkan verir.

Azərbaycan Respublikası ÜTT-ə üzv olmaq üçün 23 uyin 1997-ci il tarixində ÜTT Katibliyinə müraciət təqdim etmişdir. Ölkəmizin ÜTT-ə üzv olma prosedurunun ən mühüm məsələlərindən biri olan çoxtərəfli danışıqlar davam etdirilir.

Ümumdünya Ticarət Təşkilatına üzvlük sahəsində aparılan çoxtərəfli danışıqlar zamanı Azərbaycan Respublikasının xarici ticarət rejiminin bütün istiqamətləri müzakirə edilir. Aparılan çoxtərəfli danışıqlarda üzv ölkələr tərəfindən təqdim edilmiş suallara verilmiş cavablar, Qanunvericiliyin Təkmilləşdirilməsi Planı, Kənd təsərrüfatında Daxili Yardım Cədvəli (ACC/4), Əqli mülkiyyət ilə ticarət istiqamətlərini göstərən cədvəl (ACC/8), Ticarətdə texniki maneələr və sanitar-fitosanitar məsələləri üzrə izahedici cədvəl (ACC/9) üzrə müzakirələr aparılır.

Ümumdünya Ticarət Təşkilatına üzvlüyə qəbul edilmə prosesinin təhlilindən gürünür ki, sonda qəbul edilən ölkələr əvvəl qəbul edilmiş ölkələrlə müqayisədə öz üzərlərinə daha çox öhdəliklər götürmüşlər ki, bu da üzv ölkələrin müşahidəçi statusunda olan ölkələrə qarşı tələblərinin artması ilə bağlıdır. ÜTT-yə qəbul zamanı aktual olan əsas məsələ qanunveriçiliyin təkmilləşdirilməsi planıdır. Bu aspektdə Azərbaycan Respublikası üçün mühüm məsələ Azərbaycan Respublikası Prezidentinin 2 avqust 2006-cı il sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq milli qanunvericiliyin planda qəbul edilmiş öhdəliklər üzrə ÜTT qaydalarına uyğunlaşdırılmasıdır.

Dövlətimizin Ümumdünya Ticarət Təşkilatına güzəştli şərtlərlə qəbul olunmasında ölkəmizə hansı statusun verilməsi xüsusi əhəmiyyət kəsb edir. ÜTT-də üzv olan ölkələr inkişaf etmiş, inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr statusu əsasında bölünürlər. Ölkəmizi ən az inkişaf etmiş dövlətlər sırasına aid etmək olmaz. ÜTT-nin sazişlərində inkişaf etməkdə olan ölkələr üçün kifayət qədər güzəştlər mövcuddur və bu səbəbə görə də ÜTT-yə üzv ölkələr müşahidəçi statusunda olan ölkələrin ÜTT-yə qəbulu zamanı bu dövlətlərə inkişaf etməkdə olan ölkə statusunun verilməsini istəmirlər. Belə ki, Qırğızıstan, Gürcüstan, Moldovanın ÜTT-yə daxil olması zamanı üzv ölkələr onları “kecid iqtisadiyyatlı” dövlət kimi qiymətləndirərək sənədlərə bu termini daxil etmişdilər və bu dövlətlərin götürdükləri öhdəliklər isə inkişaf etmiş ölkələrin öhdəliklərinə bərabər idi. Bununla yanaşı qeyd etmək lazımdır ki, Cənubi Koreya və Sinqapur kimi dövlətlər inkişaf etməkdə olan ölkələr statusu ilə qəbul edilərək mövcud güzəştlərdən yararlanmaq hüququ əldə etmişdilər.

Ölkəmizdə 2014-cü ildə Ümumi Daxili Məhsulun (ÜDM) ümumi həcmində neft sektorunun payının 39,3% olması, ixracın 90,8%-nın neft sektorunun payına düşməsi, dövlətimizin ÜTT-yə İEOÖ statusu ilə üzv qəbul edilməsini əsaslandıran amillər kimi istifadə edilə bilər.

ÜTT-yə üzv qəbul edilmə danışıqları zamanı kənd təsərrüfatının iqtisadiyyatımızın aparıcı sahəsi olması, aqrar sahənin yaxşı ənənələrinin olması, kənd təsərrüfatının inkişafı üçün əlverişli iqlim amilinin mövcudluğu, respublikamızın əhalisinin 52,9%-nin kənd rayonlarında yaşaması faktları xüsusilə qabardılmalıdır.

1997-ci il 16 iyul tarixində Ümumdünya Ticarət Təşkilatının Katibliyində ölkəmiz üzrə işçi Qrupu yaradılmışdır və bu işçi qrupuna 42 ölkə daxildir.

Ümumdünya Ticarət Təşkilatının Katibliyində 16 iyul 1997-ci ildə yaradılmış Azərbaycan üzrə İşçi Qrupun ilk iclası 2002-ci ildə Cenevrədə təşkil edilmişdir və 2004-cü ildən başlayaraq İşçi Qrupun iclasları mütəmadi olaraq keçirilir. 2008-ci ilin 6 may tarixində İşçi Qrupunun 5-ci iclasının sonunda Azərbaycan üzrə ilk ümumiləşdirici sənədin – Faktlar İcmalının – hazırlanması barəsində qərar qəbul edilmişdir. Ölkəmizin ÜTT-ə üzvlüyü ilə əlaqədar sonuncu 12-ci iclası 2015-ci 6 mart tarixində Cenevrə şəhərində keçirilmişdir.

Azərbaycan dövləti Ümumdünya Ticarət Təşkilatına üzv olma prosesində 19 dövlət ilə (ABŞ, Avropa İttifaqı, Kanada, Yaponiya, Norveç, Britaniya, Cənubi Koreya, Ekvador, Tayvan, Şri-Lanka, Hindistan, İsveçrə, Honduras, Malayziya, Dominikan Respublikası, Səudiyyə Ərəbistanı, Çin, Paraqvay, Vyetnam) ikitərəfli danışıqlar aparır. Bu iki tərəfli danışıqlar zamanı ölkəmizin mal və xidmətlər bazarına çıxışına dair məsələlər müzakirə edilir, dövlətimiz üçün xüsusi əhəmiyyət daşıyan iqtisadi sahələrin qorunması ilə əlaqədar vacib tədbirlər görülür.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzvlüyü qanunvericiliyin təkmilləşdirilməsi ilə birbaşa bağlıdır.

Hal-hazırda ölkəmizdə tənzimləmə, intellektual mülkiyyət və investisiyalar sahəsində elə qanunlar var ki, onlar beynəlxalq standartlara, o cümlədən Ümumdünya Ticarət Təşkilatının tələblərinə cavab vermir. Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 avqust 2003-cü il tarixli 175 saylı sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-ə üzv olmasına hazırlıq işləri üzrə Komissiyası və bu komissiyanın işinin koordinasiyasının yaxşılaşdırılması ilə əlaqədar olaraq İqtisadi İnkişaf Nazirliyi tərəfindən Komissiyanın Katibliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2 avqust 2006-ci il tarixli 1583 №-li Sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər planı"nda 39 normativ-hüquqi sənəd nəzərdə tutulmuşdur. Hazırda 10 sənədin layihəsi hazırlanıb və aidiyyəti orqanlarla razılaşdırılıb, o cümlədən "Texniki tənzimləmə haqqında" Qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 22 avqust 2006-cı il 1583 №-li sərəncamında qeyd edilir ki, Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi və dünya iqtisadiyyatına inteqrasiyası baxımından Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması mühüm əhəmiyyət kəsb edir [3, s. 1].

4 iyul 2008-ci ildə Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə komissiyanın 10-cu iclasında "Azərbaycan Respublikasının ÜTT-yə üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin ÜTT tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı"nın 1.4-cü bəndini əsas tutaraq Respublikamızda istehsal olunan və idxal edilən aksizli mallara tətbiq edilən aksiz dərəcələri arasında mövcud fərqlərin aradan qaldırılması qəbul edilmişdir.

Nəzərə almaq lazımdır ki, ÜTT-yə və yaxud digər hər hansı bir beynəlxalq təşkilata üzv olmaq, dövlətin səlahiyyətinin bir hissəsinin könüllü şəkildə həmin beynəlxalq təşkilata verilməsi deməkdir. Belə ki, ÜTT-yə üzv olmaqla Azərbaycan Respublikası gömrük rüsümlarının həddinin müəyyənləşdirilməsi, beynəlxalq ticarətdə qiymətlərin sərbəst təyin edilməsi, ümumiyyətlə xarici iqtisadi siyasəti sərbəst həyata keçirmək sahəsində imkanlarının müəyyən mənada məhdudlaşdırılması ilə barışmalı olacaqdır. Üzvlüyə qəbul edildiyi zaman ölkəmiz ÜTT üzvlərinin milli bazarımıza sərbəst daxil olmasına imkan yaratmalı, gömrük və vergi rüsumlarına yenidən baxmalı və onları ÜTT-nın standartlarına uyğunlaşdırmalı olacaqdır. Bununla da milli bazarımıza keyfiyyətli və bahalı xarici malların axını başlayacaq. Hazırda bizim mallar onlarla rəqabət aparmaq qabiliyyətində olmadığı üçün bu büdcə gəlirlərinin azalmasına və daxili bazarda qiymətlərin bahalaşaraq dünya qiymətlərinə yaxınlaşmasına səbəb olacaqdır. Deməli, bazarımızı qorumaq üçün əvvəlcədən qabaqlayıcı tədbirlər görülməli, ölkəmizdə istehsal edilən malların keyfiyyətini rəqabətə davamlı səviyyəyə qaldırmaq lazımdır. Bu uzun sürən bir prosesdir və onu mərhələ-mərhələ həyata keçirmək lazımdır. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni iqtisadi siyasət strateqiyasının əsas prioritetlərindən biri də bundan ibarətdir.

ÜTT-yə üzv olmanın verdiyi üstünlüklər əsasən 3 istiqamətdə özünü biruzə verir. Birincisi Ümumdünya Ticarət Təşkilatına üzv olan dövlətlərdə məhsulların qiymət mexanizminin ÜTT şərtlərinə və həm də eyni zamanda beynəlxalq standartlata uyğunlaşdırılmasıdır.

ÜTT-ə üzv olmanın yaratdığl ikinçi üstünlük üzv ölkələrin bazarlarına daxil olmaq imkanları ilə əlaqədardır. Belə ki, ÜTT üzvü olan dövlətlər, digər ÜTT üzvü olan dövlətlərdən idxal etdikləri əmtəələrə ÜTT tələblərinə uyğun olaraq aşağı gömrük tarifi tətbiq etməlidir. Belə bir tarif səviyyəsi ÜTT daxilində aparılan çoxtərəfli danışıqların yekununda müəyyən edilir və xarici ticarətdə əvvəllər tətbiq etdikləri qeyri-tarif maneələrə müəyyən vaxtdan sonra son verirlər. ÜTT üzvü olan dövlətlər bu təşkilatın üzvü olmayan dövlətlərdən mal idxal etdikdə bu şərtlər tətbiq edilmir.

ÜTT-yə üzv olmanın verdiyi üçünçü və çox mühüm olan üstünlüyü isə ticarət mübahisələrinə aid ÜTT üzvlüyünün təklif etdiyi həll mexanizmlərindən istifadə edə bilmək

imkanıdır. Belə ki, ÜTT üzvü olmayan dövlətlərə bu təşkilatın həll mexanizmlərindən istifadə etmək hüququ verilmir.

ÜTT-yə üzvlük ölkənin iqtisadiyyatı üçün aşağıdakı üstünlükləri verir:
1. Biznes mühitinin yaxşılaşması və investisiya cəlbi imkanlarının yüksəlməsi.
2. Gömrük və xarici ticarət prosedurlarının daha şəffaf və asan təşkili.
3. Biznes xərclərinin azalması imkanları.
4. Qanunvericilik bazasının təkmilləşməsi.
5. Rəqabət mühitinin formalaşması və inhisarçılığın azalması.
6. İnflasiyanın səviyyəsinin aşağı düşməsi.
7. Xidmət bazarının inkişafı və investisiyaların artması.
8. İxracın genişlənməsi.
9. Standartların tələblərinə uyğunluğun daha səmərəli təşkili.

Ümumdünya Ticarət Təşkilatı ona üzv ölkələrdə xarici ticarətdə diskriminasiyanı aradan qaldırır və bu təşkilata üzv olan ölkələrin bazarlarına girişi təmin edir. Xarici ticarətdə diskriminasiyanın aradan qaldırılması daha uyğun milli şərtlərin tətbiq edilməsi və ÜTT-yə daxil olan dövlətlər üçün ticarət qaydalarını eyniləşdirməyə və milli bazarlarda idxal mallarının ayrı-seçkiliyinə yol verilməməsinə səbəb olur. Sərfəli milli rejimlərin tətbiqi əsasında bazarlara sərbəst çıxış, həmçinin idxala tətbiq edilən kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması, ÜTT-yə üzv ölkələrin ticarət dövriyyəsinin səmərəli təşkilinə, eyni zamanda bu ölkələrin xarici ticarət rejimində aşkarlığın və şəffaflığın təmin olunmasına gətirib çıxardır.

Ümumdünya Ticarət Təşkilatına üzv qəbulu zamanı dövlətlərin statusunu fərqləndirirlər və üzvlüyə qəbul zamanı irəli sürülən şərtlər bu statusla əlaqələndirilir. Bu şərtlərə əsasən tarif güzəştlərinə keçid dövrü və aqrar sahədə ixraca subsidiyaların həcmi daxildir. Kənd təsərrüfatında ixraca subsidiyaların həcminə qoyulan nisbi kvota inkişaf etməkdə olan ölkələr üçün kənd təsərrüfatı məhsulunun ümumi həcmində 10%-i, inkişaf etmiş ölkələr üzrə isə 5%-i miqdarında verilir. Günki üzv ölkələrin kənd təsərrüfatına subsidiyaları müxtəlif olduqda, bu ümumi ticərətə mənfi təsir edir. ÜTT-nin şərtlərinə görə kənd təsərrüfatına ayrılan subsidiyalar yaşıl, sarı və qırmızı zənbilə ayrılırlar. Yaşıl zənbil tətbiqinə heç bir qadağa tətbiq edilməyən subsidiyalar qrupudur. Yaşıl zənbil qrupuna aid edilən subsidiyalar infrastrukturunun yaxşılaşdırılmasına, elmi-tədqiqat işlərinə yönəldilən daxili yardımlardır. Belə subsidiyalar kənd təsərrüfatı məhsullarının qiymətinə birbaşa təsir göstərmədiyindən ÜTT üzvlərinin bir qayda olaraq bu "zənbillə" əlaqəli problemi olmur.

"Qırmızı zənbil" ixraca istiqamətləndirilən subsidiyalar olduğundan ÜTT bu qəbuldən olan subsidiyaları qadağan edir.

ÜTT-də də əsas müzakirə edilən məsələ "sarı zənbil"lə bağlıdır. Çünki "sarı zənbil" aid edilən subsidiyalar malın qiymətinə birbaşa təsir edir. "Sarı zənbil" şəklində tətbiq edilən subsidiyalar kənd təsərrüfatı ilə bağlı ÜTT razılaşmasının 6-cı maddəsi ilə tənzimlənir. ÜTT-də aparılan müzakirələr nəticəsində "sarı zənbil"ilə razılaşan ölkələr kənd təsərrüfatı sahəsində qiymətləri müəyyən səviyyədə tənzimləmək və istehsalın həcmini artırmaq üçün subsidiyalar tətbiq etmək hüququna malıkdırlər və həmçinin diqqətə almaq lazımdır ki, bu subsidiyalar limitləşdirilir. "De minimis" adlandırılan bu subsidiyalar inkişaf etməkdə olan ölkələr üçün illik kənd təsərrüfatı məhsul istehsalının 10 faizi həcmindədir və bu rəqəm inkişaf etmiş ölkələr üçün 5 faizədək aşağı düşür. Ümumdünya Ticarət Təşkilatının "Yardımla bağlı Ümumi Aqreqat Tədbirlər" sazişində göstəri-

lən subsidiyaların ayrıca seçilən bir məhsula deyil, ümumilikdə kənd təsərrüfatı sahəsinə verilməsi göstərilir. Bu da artıq ÜTT-yə üzv olan dövlətlər üçün strateji məhsul anlayışını aradan çıxardır. Belə ki, ölkə ixrac qabiliyyətli hesab etdiyi məhsul istehsalına xüsusi olaraq köməklik edə bilmir.

Azərbaycan Respublikası ilə Ümumdünya Ticarət Təşkilatı arasında kənd təsərrüfatı sazişi çərçivəsində müzakirə edilən əsas məsələlər bu sahəyə subsidiyaların yuxarı həddinin və tariflərin müəyyənləşdirilməsini əhatə edir.

Hər il Avropa Birliyinə daxil olan dövlətlər kənd təsərrüfatı məhsullarının ixracı üçün 370 mlrd ABŞ dolları həcmində birbaşa subsidiya verir və eyni zamanda həm də kənd təsərrüfatı məhsullarının emal müəssisələri də dolayı subsidiyalardan qidalanırlar. Belə ki, orta statistik İsveç fermeri 35 min ABŞ dolları, ABŞ və Yapon fermerləri isə təqribən 24 min ABŞ dolları həcmində birbaşa subsidiya alır. Buna görə də aşağı gömrük rüsumları və subsidiyalarla kənd təsərrüfatı bazarını qorumaqda böyük çətinliklər vardır.

## Ədəbiyyat

1. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev. “Beynəlxalq iqtisadi münasibətlər”, 2010
2. Z.Ə.Səmədzadə. “İqtisadi islahatlar sosial sarsıntılara yol verilməmişdir”. “İqtisadiyyat”, 2000
3.“Azərbaycan” qəzeti. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 5 avqust 2006-cı il, № 173
4. D.Ə.Vəliyev. Azərbaycanın Qlobal İqtisadiyyata İnteqrasiyası. Bakı, Adiloğlu nəşriyyatı, 2008
5. ÜTT-Vikipediya
6. World Trade Report 2007. Six decades of multilateral trade cooperation: What have we learnt? WTO DocumentWT/REG/E/37, March 2007
7. Hoekman, B. ‘’Aid for Trade: Why, What, and Where Are We?‘’ In Unfinished Business? The WTO’s Doha Agenda, edited by W. Martin and A. Mattoo, 233-254, 2011
8. www.economy.gov.az

## CHARACTERISTICS OF PREPARATORY EVENTS FOR THE MEMBERSHIP IN THE WORLD TRADE ORGANIZATION

**M.M.Orujov**

**SUMMARY**

This work discusses the preparation of Azerbaijan for the membership in the World Trade Organization. Suggestions are made to optimize this process.

## ХАРАКТЕРИСТИКА ПОДГОТОВИТЕЛЬНЫХ МЕРОПРИЯТИЙ ПО ВХОЖДЕНИЮ ВО ВСЕМИРНУЮ ТОРГОВУЮ ОРГАНИЗАЦИЮ

**М.М.Оруджов**

**РЕЗЮМЕ**

В статье обсуждается подготовка Азербайджана к членству во Всемирной Торговой Организации. Представлены предложения по оптимизации этого процесса.

*Məqalə redaksiyaya 5 aprel 2019 tarixində daxil olmuş, 8 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 631.416.5

# SALYAN DÜZÜNDƏ DUZLARIN MİQDARI VƏ TƏRKİBININ TƏDQİQİ

**S.A.Qəniyeva, P.Ç.Qaziyeva**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Bakı, A.Sultanova küçəsi 11
e-mail: s.ganiyeva@hotmail.com

***Açar sözlər:*** duzların miqdarı, şorlaşma, drenaj, sulfatlar, məhsuldarlıq
***Keywords:*** amount of salt, salinity, drainage, sulfates, fertility
***Ключевые слова:*** количество солей, соленость, дренаж, сульфаты, плодородие

## Giriş

Ölkədə aparılan torpaq islahatı aqrar sənaye istehsalının səmərəliliyini qaldırmaq və əhalinin ərzaq təminatını yaxşılaşdırmaq məqsədi daşıyır. Bu problemin həlli üçün ölkənin torpaq ehtiyatlarının uçotunun aparılması, tədqiq edilməsi, elmi surətdə əsaslandırılmış aqrotexnikanın, meliorativ tədbirlərin və növbəli əkinin tətbiqi kimi kompleks tədbirlərin aparılması, məhsuldarlıq qabiliyyətinin qiymətləndirilməsi əsas tələblərdir. Buna görə kənd təsərrüfatında istifadə olunan bitkilərin torpağa olan tələbatını ödəmək, xüsusən şoran torpaqların yuyulması, qida maddələrinin çatışmazlığının aradan qaldırılması üçün aqrotexniki tədbirlərin görülməsi, torpağın fiziki-kimyəvi xassələrinin yaxşılaşdırılması və münbitliyinin bərpası vacib məsələlərdən sayılır.

Salyan düzü torpaqları müxtəlif dərəcədə şorlaşmaları ilə səciyyələnir və əsasən boz torpaq tipinə aiddir. Boz torpaqlar üçün profilin zəif diferensasiyası və monoton quruluşu, humusun və udma tutumunun aşağı olması, mineral hissəciklərin dərindən parçalanması, yüksək karbonatlıq və s. səciyyəvidir. Relyefin nisbətən yüksək elementlərində torpağın üst qatında asan həll olunan duzların cüzi miqdarı müşahidə olunur, aşağı qatlara doğru isə duzların miqdarında artma kəskinləşir. Buna görə də dərindən şorlaşmaya daha çox rast gəlinir.

Torpaqların şorlaşması intensiv suvarma əkinçiliyi aparılan yerlərdə daha sürətlə baş verir. Son dövrlərdə aparılan torpaq tədqiqatlarından məlum olmuşdur ki, suvarma əkinçiliyinin intensiv inkişaf etdirilməsi, kollektor-drenaj və suvarma şəbəkələrinin tikilməsi nəticəsində bu ərazidə yayılmış torpaqların morfogenetik xüsusiyyətləri dəyişmişdir [1,2]. Q.Ş.Məmmədovun tədqiqatlarına əsasən müəyyən edilmişdir ki, hər il planetimizdə şorlaşma nəticəsində 300 min hektar suvarılan torpaq sahəsi yararsız hala düşərək istifadədən çıxır və indi dünyada şorlaşmış torpaqların sahəsi 25 mln hektara çatır.

Ümumiyyətlə, Azərbaycan ərazisində orta və şiddətli dərəcədə şorlaşmış torpaqların ümumi sahəsi 1,3 mln hektardan çoxdur [3]. Qeyd etmək lazımdır ki, şorlaşma və şorakətləşmə torpaqda gedən təbii proseslər olsa da, vaxtında lazımi tədbirlər görülmədikdə onların həm arealı, həm də kənd təsərrüfatı məhsullarına təsiri özünü büruzə verir. Belə torpaqlar həm meliorativ, həm də ekoloji cəhətdən əlverişsiz hesab olunur.

Şorlaşmış torpaqların formalaşması duzların qrunt sularında və süxurda toplanması, onların torpaqda akkumulyasiyasına təsir göstərən şərait ilə əlaqədardır. Süxurların aşın-

ması zamanı xeyli miqdarda suda həll olan duzlar yaranır. Son tədqiqatlara əsasən qurudan axınlar vasitəsilə okeana aparılan duzların illik miqdarı 27,35 mln. ton təşkil edir. Duzlu dəniz çöküntülərinin səthə çıxması nəticəsində həmin ərazilərdə külli miqdarda asan həll olan duzlar toplanır ki, bu da həmin sahələrin korlanmasında əsas rol oynayır [3].

Asan həll olan duzlar vulkan püskürmələri nəticəsində də yarana bilir. Suda asan həll olan duzların torpaqda akkumulyasiyasında həmçinin bitkilərin də böyük rolu vardır. Tədqiqatlar göstərir ki, quru iqlim şəraitində bitki qalıqlarının aerob şəraitdə parçalanması nəticəsində torpaqda böyük miqdarda asan həll olan duzlar toplanır. Lakin torpaqda duzların əsas mənbələrindən biri səthə yaxın yerləşmiş qrunt sularıdır [4].

Duzlu göllərin və şoranların yayıldığı rayonlarda duzların yayılmasında və çökdürülməsində eol prosesləri əsas rol oynayır. Duzların paylanma intensivliyi və onların torpaqda toplanması iqlim amillərindən – yağıntıların miqdarından və buxarlanmadan, həmçinin torpağın su hopdurma qabiliyyətindən, torpaq əmələgətirən süxurdan və duzların həll olma dərəcəsindən asılıdır.

Torpaqda duzların konsentrasiyası artıqca bitkinin həm torpaqaltı, həm də torpaqüstü orqanlarının inkişafı zəifləyir, assimilyasiya səthi və fotosintez prosesi zəif gedir və nəticədə, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı aşağı düşür.

Əksər kənd təsərrüfatı bitkiləri torpaqda həll olan duzların miqdarı artanda inkişaf edə bilmir və ya məhsuldarlığı çox aşağı olur. Ona görə şoranların və şorlaşmış torpaqların mənimsənilməsi yalnız kompleks aqromeliorativ tədbirlərdən sonra mümkündür. Torpaqdan duzların kənarlaşdırılmasının və torpaqların duzsuzlaşdırılmasını ən səmərəli və radikal yolu – torpağın drenaj fonunda yuyulmasıdır [4,5]. Şorlaşmış torpaqların yuyulmasından ötrü sərf olunan su norması şorlaşmanın dərəcəsindən, torpağın nəmliyindən, qranulometrik tərkibindən və qrunt sularının dərinliyindən asılıdır.

Şoran torpaqlar mənimsənilərkən əsas diqqət təkrar şorlaşmanın qarşısının alınmasına yönəldilməlidir. Bu proses suvarma normasını, sayını və müddətini gözləmək, işlənmiş suyun vaxtında sahədən kənarlaşdırılması vasitəsilə əldə edilir. Suyun kapilyarlarla qalxmasının qarşısını almaqdan ötrü torpağın üst horizontları yumşaq vəziyyətdə saxlanmalıdır. Qrunt sularının qalxmasının qarşısını alan tədbir kimi suvarma kanalları boyunca ağac bitkilərinin əkilməsinin əhəmiyyəti böyükdür. Ağac bitkiləri transpirasiyaya böyük miqdarda su sərf edərək qrunt suyunun səviyyəsini aşağı salır və suyun torpaq vasitəsilə buxarlanmasını azaldır və bununla da torpaqların şorlaşmasının qarşısını alır.

V.R.Volobuyev [9,10,11] və b. tərəfindən müxtəlif illərdə düzün ərazisində torpaqda asan həll olunan duzlar öyrənilmişdir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, xlor ionlarının ən az miqdarı dağətəyi maili düzənliklərdə müşahidə edilir (0,035 %-dən az). Ovalığın mərkəzinə doğru isə xloridlərin miqdarı artır (0,07-0,15 %). Salyan düzünün dənizkənarı zonasının torpaqları xlor ionunun miqdarına görə orta vəziyyətdədir (0,7-1,2 %).

Sulfat ionlarının miqdarı (az) əsasən dağətəyi zonanın torpaqlarında müşahidə olunur (0,05-1,0 %). Salyan düzünün dənizkənarı zonasında da sulfatlarla zəngin torpaqlar yayılmışdır (0,7 %-dən az).

Məlumdur ki, şorlaşmış ərazilərin torpaqlarında yayılmış müxtəlıf duzların miqdarı artdıqca orada becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı da aşağı düşür. Məhsuldarlığın aşağı düşməsində duz tipinin təsiri də əhəmiyyətlidir [6,8].

Tədqiqat ərazisinin torpaqlarında duzların miqdarı və duz tərkibini təyin etmək üşün bu ərazidə 2006-2009-cu illərdə kompleks tədqiqatlar aparılmışdır.

Təcrübə sahəsində xarakter yerlərdə dərinliyi 2,0 m olan 13 torpaq kəsimi qoyulmuş və onlardan nümunələr götürülərək, tam və müxtəsər su çəkimi (üst 1,0 m-lik qatda hər 25 sm-dən bir) analizləri yerinə yetirilmişdir. Alınan nəticələr Cədvəl 1-də verilmişdir (orta qiymətlər).

Cədvəl 1-dən görünür ki, tədqiqat sahəsinin torpaqlarında duzların maksimum miqdarı 0-25 sm-lik qatdan aşağıda müşahidə edilir. Bütün kəsimlərdə $CO_3$ ionu müşahidə edilməmişdir. $SO_4$ ionu isə digər anionlara nisbətən üstünlük təşkil etmişdir. Duzların miqdarı 0-50 sm-lik qatda 0,024-0,922 %, 0-100 sm-lik qatda isə 0,023-0,868 % təşkil etmişdir.

Anion tərkibində ikinci yerdə Cl-ionu durur. Onun miqdarı 0-50 sm-lik qatda 0,011-0,348 %, 0-100 sm-lik qatda isə 0,011-0,769 % arasında olmuşdur (Cədvəl 1).

$HCO_3$-ionun miqdarı isə 0-50 sm-lik qatda 0,011-0,081 %, 0-100 sm qatda isə 0,013-0,087 % təşkil etmişdir.

Kation tərkibində isə birinci yerdə Na+K (fərqə görə) durur. Onun miqdarı 0-50 sm qatda 0,020-0,232 %, 0-100 sm qatda 0,017-0,257 % arasında dəyişmişdir.

Kation tərkibində ikinci yerdə Ca ionu durur. 0-50 sm qatda onun miqdarı 0,008-0,160 %, 0-100 sm-lik qatda isə 0,008-0,127 % təşkil etmişdir.

Kation tərkibində üçüncü yerdə isə Mg ionu durur. Onun miqdarı 0-50 sm-lik qatda 0,004-0,058 %,0-100 sm-lik qatda isə 0,003-0,056 % arasında olmuşdur.

Cədvəldən 1-dən göründüyü kimi, duzluluğu aşağı, orta, və yüksək olan kəsimlərdə düzların miqdarı torpağın 0-100 sm-lik qatında uyğun olaraq 0,119 %, 0,525 % və 3,357 % təşkil etmişdir [7].

Şorlaşma tipləri təyin edilərkən klassik təsnifatlardan istifadə olunaraq tədqiqat sahəsi torpaqlarında duzların miqdarı və duz tipi müəyyən edilmiş, alınan göstəricilər Cədvəl 2-də verilmişdir. Cədvəldən 2-dən göründüyü kimi, tədqiqat sahəsi torpaqlarında duz tipi əsasən ($CL:SO_4$ görə) xlorlu-sulfatlı və sulfatlıdır.

**Cədvəl 2**

**Təcrübə sahəsinin suvarılan çəmən-boz torpaqlarında duzların miqdarı və duz tipi**

| Kəsim | Dərinlik,sm | $CO_3$ | $HCO_3$ | Cl | $SO_4$ | Quru qalıq, % | $Cl:SO_4$ görə | Duz tipi |
|---|---|---|---|---|---|---|---|---|
| | | %-lə | | | | | | |
| 1 | 0-50 | Yox | 0,030 | 0,115 | 0,100 | 0,322 | 1,15 | Xlorlu-sulfatlı |
| | 0-100 | «–» | 0,033 | 0,107 | 0,095 | 0,126 | 0,225 | |
| 4 | 0-50 | «__» | 0,031 | 0,479 | 0,430 | 1,400 | 1,113 | Xlorlu-sulfatlı |
| | 0-100 | «__» | 0,031 | 0,231 | 0,948 | 1,757 | 0,244 | |
| 6 | 0-50 | «__» | 0,093 | 0,016 | 0,058 | 0,228 | 0,275 | Sulfatlı |
| | 0-100 | «__» | 0,100 | 0,020 | 0,083 | 0,296 | 0,240 | |

Torpaqların duzluluq dərəcəsi və tipinə görə təsnifatı bir çox alimlər tərəfindən verilmişdir. Praktiki məqsədlər üçün istifadə olunanlar Cədvəl 3 və Cədvəl 4-də göstərilmişdir.

**Cədvəl 1**

**Salyan düzü suvarılan çəmən-boz torpaqlarında duzların orta qiyməti (tam su çəkimi analizində, 0-100 sm-lik qatda)**

| Kəsim | Dərinlik, sm | $CO_3$ | $HCO_3$ | Cl | $SO_4$ | Ca | Mg | Na+K (fərqə görə) | Duzların cəmi, % | Quru qalıq, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | % | | | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 1 | 0-50<br>0-100 | Yox | 0,038<br>0,037 | 0,017<br>0,015 | 0,024<br>0,023 | 0,008<br>0,008 | 0,004<br>0,003 | 0,020<br>0,017 | 0,112<br>0,105 | 0,125<br>0,119 |
| 3 | 0-50<br>0-100 | - | 0,047<br>0,043 | 0,017<br>0,035 | 0,119<br>0,142 | 0,014<br>0,019 | 0,005<br>0,006 | 0,061<br>0,073 | 0,267<br>0,322 | 0,276<br>0,335 |
| 4 | 0-50<br>0-100 | - | 0,031<br>0,031 | 0,348<br>0,267 | 0,395<br>0,616 | 0,111<br>0,091 | 0,058<br>0,056 | 0,232<br>0,257 | 1,133<br>1,327 | 1,159<br>1,355 |
| 5 | 0-50<br>0-100 | - | 0,011<br>0,013 | 0,108<br>0,107 | 0,855<br>0,738 | 0,160<br>0,127 | 0,041<br>0,035 | 0,222<br>0,215 | 1,396<br>1,236 | 1,379<br>1,211 |
| 6 | 0-50<br>0-100 | - | 0,031<br>0,028 | 0,016<br>0,016 | 0,083<br>0,112 | 0,013<br>0,017 | 0,004<br>0,006 | 0,021<br>0,144 | 0,186<br>0,223 | 0,206<br>0,235 |
| 10 | 0-50<br>0-100 | - | 0,026<br>0,031 | 0,036<br>0,039 | 0,143<br>0,106 | 0,034<br>0,025 | 0,012<br>0,005 | 0,053<br>0,048 | 0,298<br>0,257 | 0,312<br>0,269 |
| **Müxtəsər su çəkimi analizində, 0-100 sm-lik qatda** | | | | | | | | | | |
| 2 | 0-50<br>0-100 | - | 0,043<br>0,037 | 0,029<br>0,028 | 0,155<br>0,124 | - | - | - | - | 0,350<br>0,297 |
| 7 | 0-50<br>0-100 | - | 0,035<br>0,034 | 0.029<br>0,070 | 0,078<br>0,091 | - | - | - | - | 0,238<br>0,249 |
| 9 | 0-50<br>0-100 | - | 0,025<br>0,023 | 0,011<br>0,011 | 0,175<br>0,270 | - | - | - | - | 0,367<br>0,525 |
| 11 | 0-50<br>0-100 | - | 0,081<br>0,087 | 0,017<br>0,018 | 0,055<br>0,065 | - | - | - | - | 0,215<br>0,254 |
| 12 | 0-50<br>0-100 | - | 0,029<br>0,025 | 0,044<br>0,052 | 0,056<br>0,079 | - | - | - | - | 0,199<br>0,227 |
| 19 | 0-50<br>0-100 | - | 0,021<br>0,021 | 0,020<br>0,769 | 0,383<br>0,311 | - | - | - | - | 3,323<br>3,327 |
| 21 | 0-50<br>0-100 | - | 0,030<br>0,028 | 0,148<br>2,30 | 0,922<br>0,868 | - | - | - | - | 3,311<br>3,357 |

**Cədvəl 3**

**$Cl:SO_4$ və $HCO_3/Cl + SO_4$ –n nisbətlərinə görə şorlaşmanınn tipləri**

| Şorlaşmanın tipləri | $Cl:SO_4$ | $HCO_3/Cl + SO_4$ |
|---|---|---|
| Xlorlu | >2,0 | - |
| Sulfatlı-xlorlu | 2-1 | - |
| Xlorlu-sulfatlı | 1-0,2 | - |
| Sulfatlı | <0,2 | 1 |
| Karbonatlı-sulfatlı | <0,2 | 1 |
| Sulfatlı-sodalı | - | 2 |

**Cədvəl 4**

**Bitkilərin kök sistemi yayılan qatda duzların buraxıla bilən həddi, %**
**(Орошение. Справочник, 138)**

| Şorlaşmanın tipləri | Zəhərli duzların cəmi, % | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Cl, % | Na, % | $HCO_3$, % |
| Xlorlu | 0,05 | 0,02 | 0,026 | - |
| Sulfatlı-xlorlu | 0,05 | 0,02 | 0,026 | - |
| Xlorlu-sulfatlı | 0,10 | 0,02 | 0,026 | - |
| Sulfatlı (gipsi az) | 0,15 | 0,02 | 0,026 | - |
| Sulfatlı (gipsi yüksək) | 0,15 | 0,02 | 0,026 | - |
| Sodalı | 0,05 | 0,01 | 0,026 | 0,08 |
| Xlorlu-sodalı, sodalı-xlorlu | 0,10 | 0,01 | 0,026 | 0,08 |
| Sulfatlı-sodalı, sodalı sulfatlı | 0,15 | 0,01 | 0,026 | 0,08 |
| Sulfatlı-xlorlu, hidrokarbonatlı | 0,15 | 0,01 | 0,026 | 0,08 |

Məqalədən göründüyü kimi, tədqiqat sahəsi torpaqlarında duz tipi əsasən ($CL:SO_4$ görə) xlorlu-sulfatlı və sulfatlıdır. Torpaqların tərkibindəki duzların miqdarını azaltmaq və torpaqları yaxşılaşdırmaq üçün aqromeliorativ tədbirlərə ehtiyac vardır.

## Ədəbiyyat

1. Həşimov A.C. Kür-Araz ovalığı torpaqlarının meliorativ vəziyyətinin yaxşılaşdırılması yollarına dair təkliflər // Meliorasiya XXI əsrdə: Baxışlar, elmi tədqiqatlar, problemlər. Elmi-praktiki konf.mat. Bakı, "Araz" nəş., 2002, s. 84-90
2. Həşimov A.C. Ağır mexaniki tərkibli şorlaşmış torpaqların meliorasiyasında müxtəlif gücləndirici vasitələrin tətbiqinin nəzəri əsasları // Azərbaycan aqrar elmi jurnalı, № 4-6, Bakı, 2003, s. 69-76
3. Азизов К.З. Допустимая глубина залегания уровня грунтовых вод на мелиорируемых почвах Кура-Араксинской низменности / Тез. докл. VII делегатского съезда ВОП СССР. Ташкент, 2001, кн 5, с. 46
4. Азизов К.З. Определение значений промывных норм и гидрохимических параметров солевого режима почвогрунтов / Исслед. по почв. и агрохимии. Сб. науч. Трудов, т. XV, Изд. «Элм», Баку, 1999, с. 103-115
5. Азизов К.З., Гусейнов Г.Г. Определение значений промывных норм для глубоких слоев / Доклады АН Азерб.ССР (сер.биол.), 1978, № 6, с. 41-45

6. Азизов К.З. Определение значений промывных норм и гидрохимических параметров солевого режима почвогрунтов / Исслед. по почв.и агрохимии. Сб. науч. Трудов, т. XV, Изд. «Элм», Баку, 1999, с. 103-115
7. Азизов К.З., Гусейнов Г.Г. Определение значений промывных норм для глубоких слоев / Доклады АН Азерб.ССР (сер.биол.), 1978, № 6, с. 41-45
8. Джалилова Л.З., Талиби С.М. Современное мелиоративное состояние почв опытного участка Сальянской степи Азербайджана. Мин. Образ. и Наука Российской Федерации, Томский Государственный Университет. Сб. мат. IV Всерос. науч. конф. с международ.участием. г. Томск, 2010. Т. 2, с. 61-63
9. Волобуев В.Р. Промывка засоленных почв. «Азернешр», Баку, 1948, 146 с.
10. Волобуев В.Р. Генетические формы засоления почв Кура-Араксинской низменности. Изд. АН Азерб. ССР., Баку, 1965, 247 с.
11. Волобуев В.Р., Азизов К.З. Засоленные почвы Кура-Араксинской низменности. Докл. Симпоз. V делегат. съезда ВОП СССР. Т.6, Тбилиси, 1981, с. 104-124

## RESEARCH OF THE COMPOSITION AND QUANTITY OF SALTS ON THE SALYAN PLAIN

**S.A.Ganiyeva, P.Ch.Gaziyeva**

### SUMMARY

Various degrees of salinization of the Salyan Plain are considered in this work. After establishing the types of salinization of the ground, the authors determine their degrees. Based on the data obtained, it is shown that the composition of the soil consists mostly of chlorosulphate and sulphate.

## ИССЛЕДОВАНИЕ СОСТАВА И КОЛИЧЕСТВА СОЛЕЙ НА САЛЬЯНСКОЙ РАВНИНЕ

**С.А.Ганиева, П.Ч.Газиева**

### РЕЗЮМЕ

В статье рассмотрены различные степени засоления почв Сальянской равнины. После установления типов засоления почв на местности, авторами определяется их степень. На основе полученных данных показано, что почвы в основном состоят из хлоро-сульфата и сульфата.

*Məqalə redaksiyaya 14 mart 2019 tarixində daxil olmuş, 11 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT № 33; 330

# DÜNYA İQTİSADİYYATINDA BAŞ VERƏN GÖZLƏNİLMƏZ HADİSƏLƏR ARASINDAKI ASILILIQ

**N.R.Rüstəmova**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: rauf.rust@gmail.com

***Açar sözlər:*** gözlənilməz hadisə, neftin qitməti, ipoteka böhranı, maliyyə şoku
***Key words:*** unexpected event, oil price, mortgage crisis, financial shock
***Ключевые слова:*** неожиданное событие, цена на нефть, ипотечный кризис, финансовый шок

## Giriş

XII-XIII əsrlərdə bazar münasibətlərinin inkişafı ilə yanaşı, beynəlxalq ticarətin artması da müşahidə olunur ki, bununla da dünya iqtisadiyyatının inteqrasiyası başlayır. Dünya iqtisadiyyatının inteqrasiyası dünya məkanının dəyişməsi, onun vahid əraziyə çevrilməsi deməkdir. İnteqrasiya nəticəsində malların, xidmətlərin, məlumatların, kapitalın ölkələr arasında maneəsiz hərəkəti mümkün olmuş ki, ölkələr arasındakı asılılıq və bağlantı mühüm dərəcədə artmışdır. Bu proseslər, öz növbəsində, bir ölkədə baş verənlərin digərinin iqtisadiyyatına təsir etməsinə səbəb olur. Belə ki, bir ölkədə baş verən bir çox hadisə, mənşəyindən asılı olmayaraq, digər ölkələrin iqtisadiyyatına bir başa təsir göstərə bilər.

Məsələn, 2017-ci ildə Kataloniyanın müstəqilliyi barədə referenduma nəzər salsaq, həmin hadisənin iqtisadi nəticələrinin bütün Avropa Birliyinə üzv olan ölkələr üçün geniş müzakirələrə səbəb olması diqqət çəkir. Hadisə nəticəsində İspaniyanın iqtisadiyyatında qeyri-müəyyənliyin artması, o cümlədən 1500-3000 müəssisənin qərargahlarının Kataloniyadan digər ölkələrə köçürülməsi başlayır. Habelə İspaniyanın turizm sektoruna böyük ziyan dəyir və ölkənin ÜDM-nun azalması müşahidə olunur. Lakin, həmin referendumun təsiri tək İspaniyada deyil, bütün Avropa Birliyinin iqtisadiyyatında müşahidə olunur. Xüsusilə maliyyə sektoruna mənfi təsiri hiss olunur və bütün Avropada siyasi və iqtisadi qeyri-müəyyənliyin yaranmasına səbəb olur [10].

Yuxarıda müzakirə olunan hadisənin gözəçarpan xüsusiyyətlərinin biri gözlənilməz olmasıdır. İqtisadi nəzəriyyədə bu tip hadisələri "şok" adlandırırlar. Şok termininin iqtisadiyyat elmində yaranma tarixi 1973-1975-ci illərdə M. Fridman tərəfindən qurulan "şok terapiyası" ilə başlanır [12]. Daha sonra iqtisadçılar onun təkliflərini "şok doktrinası" adlandırıb, bir çox ölkələrdə, o cümlədən 1985-ci ildə Boliviyada, 1989-cu ildə Polşada və s., tətbiq edirlər [13,14]. Müasir ədəbiyyatda şok dedikdə iqtisadiyyata müsbət və ya mənfi təsiri edən, hər hansı gözlənilməyən və ya proqnozlaşdırılması çətin olan hadisə nəzərdə tutulur. Həmin hadisələrin yaranma səbəbləri fərqli olduğu üçün onlar endogen və ya ekzogen, tələb və ya təklif, monetar və ya fiskal, texnologiya, siyasi və s. şoklara bölünürlər. 1989-cu ildə O. Blanşar və D. Quah tələb və təklifin kəskin dəyişmələrindən (tələb və təklif şokları) yazıb, onların iqtisadi göstəricilərə təsirlərinin ölçülməsi üçün model qurublar [2]. Daha sonra şok anlayışı tək iqtisadi hadisələrə deyil, iqtisadiyyata təsir edə biləcək bütün hadisələrə aid edildi.

## Ədəbiyyatın qısa icmalı

Hazırda müxtəlif məişətli şokların iqtisadi amillərə təsiri ədəbiyyatda geniş müzakirə olunur. Onların arasında siyasi, istehsal və sair növlü şoklar sadalanır. Şok dedikdə yalnız mənfi deyil, həm də müsbət hadisələr nəzərdə tutulur. Məsələn, istehsalda innovasiyalar iqtisadiyyata pozitiv təsiri ilə nəticələnir. Bundan başqa, iqtisadiyyatda şoklar bir-başa dövlət tərəfindən yaradıla bilər ki, bu da müəyyən fiskal və ya monetar siyasətin həyata keçirilməsi məqsədini güdür. Məsələn, Mərkəzi Bank öncədən xəbərdarlıq etmədən, faiz dərəcəsini və ya pul kütləsini kəskin şəkildə dəyişdikdə, monetar şok siyasətini tətbiq etmiş olur.

Bir çox alimlər şokların arasındakı münasibətin analizin həyata keçirirlər. Məsələn, Y. Carriere-Swallow və L.F. Cespedesın, keçirdikləri təhlil nəticəsində, qərara gəliblər ki qeyri-müəyyənliyin artması nəticəsində real makroiqtisadi göstəricilər kəskin şəkildə azalır və artırlar [4]. Onların təhlilinə görə, inkişaf edən ölkələrdə, Amerikaya və digər inkişaf etmiş ölkələrlə müqayisədə, ekzogen gözlənilməz hadisələr nəticəsində investisiya və istehlak kəskin şəkildə azalır, və bərpa olmaları üçün daha uzun müddət tələb olunur. Digər məqalədə Avrozonada və onun yeni üzvlərin ərazisində, məsələn, Rumıniyada baş verən tələb və təklif şokları arasındakı korrelyasiyanın qiymətləndirilməsi aparılıb. Təhlil nəticəsində müəyyən olub ki, həmin ərazilər boyu təklif və tələb şokları arasında oxşarlıqlar var. Belə ki, Avrozonanı əhatə edən ölkələr arasında tələb şokları mənfi korrelyasiyaya malikdirlər. Bununla belə, zaman keçdikcə şoklar arasındakı korrelyasiya artır [5].

Mövcud ədəbiyyatın təhlili göstərir ki, hazırda yazılan işlərin bir çoxu şokların məhz ölkələr və ya ərazilər üzrə bağlılıqlarını təhlil edir. Bunların arasında T. Broz, A. Berg və s. kimi iqtisadçılar tərəfindən yazılan məqalələri sadalamaq olar [3, 1]. Lakin şokların arasında mövcud olan korrelyasiyanın təhlili sahəsində boşluğun olması hiss olunur. Digər sözlərlə, baş verən bir gözlənilməz hadisənin müəyyən zamandan sonra fərqli şokun yaranması üçün səbəb ola biləcəyinə dair ədəbiyyat geniş yayılmamışdır. Məsələn, innovasiya və daha sonradan yer ala biləcək təklif şokları arasındakı münasibətlərin təhlili ədəbiyyatda gözə çarpmır. Halbuki belə bir bağlılığın mövcud olma ehtimalı vardır.

## Təhlil

Məqalədə, yuxarıda qeyd olunan bağlılığı araşdırmaq məqsədi ilə, 2008-ci ildə baş verən hadisələri təhlil olunur. Belə ki, dünya bankının göstəriciləri əsasında tərtib edilən qrafikda (bax Qrafik 1) göstərildiyi kimi 2008-ci ildə Avropa Birliyinin bir çox ölkələrində ÜDM-da böyük azalma müşahidə olunub. Həmin hadisənin səbəblərindən biri 2008-ci ildə başlayan və bir çox ölkələri əhatə edən maliyyə-iqtisadi böhran idi. Lakin həmin böhran öz növbəsində bir sıra sil-silə hadisələrin nəticəsində baş vermişdir.

Qrafik 1. Avropa Birliyi ölkələrində ÜDM artımı




Mənbə: World Bank data

2000-ci illərdə neftin istehsalı staqnasiya dövründə olarkən, Çinin iqtisadiyyatının artması nəticəsində, neftə olan tələbi mühüm dərəcədə çoxalmağa başlayır. Rəqəmlər göstərir ki, həmin ölkənin neft istehlakı 1990-ci ildən etibarən ildə yeddi faiz olmaqla, 2005-ci ilə nisbətən 2007-ci ildə 870,000 barel daha çox olmuşdur [7, səh. 228-229]. Neftin istehsalı genişlənmədiyi şəraitdə, Çin tərəfindən neftə olan tələbin bu qədər artması, təbii olaraq, 2008-ci ildə əmtəənin qiyməti yüksələrək barelə görə 142 dollar olur və neft tələbatı (və ya neftin qiyməti) şoku yaşanır (bax Qrafik 2).

Qrafik 2. Neftin qiyməti 1 barrellə/ABŞ dolları




Mənbə: https://data.oecd.org/energy/crude-oil-import-prices.htm

İqtisadi nəzəriyyədə sözügedən hadisə məcmu tələbin artması səbəbindən yaşanan tələbat şoku adlanır ki, nəticəsində əmtəənin qiyməti mühüm dərəcədə artır (bax Qrafik 3). Belə ki, əmtəə olan tələbat artdıqca ($MT_1$-dən $MT_2$-yə) onun qiyməti ($P_1$-dən $P_2$-yə) və kəmiyyəti ($Q_1$-dən $Q_2$-yə) artır. Lakin məcmu təklif dəyişmədiyində (MTK) sözügedən proses tələbat şokunun (neft qiymətinin şokunun) yaranmasına səbəb olur.

Qrafik 3. Tələbat şoku




Digər tərəfdən, 2005-ci ildə Amerika Birləşmiş Ştatlarında NINJA adlanan, yüksək riskli ipoteka kreditlərinin verilməsinə başlanır və bir çox az gəlirli ailələr həmin kreditlərdən faydalanaraq kənar yerlərdə tikilən yeni evlər alır. Lakin, yeni tikilən evlərin ərazisində ictimai nəqliyyatın olmaması və ev sahiblərinin gündəlik işlərinin görülməsi və işə getmələri üçün şəxsi avtomobillərin istifadəsi tələb olunur. Bu, öz növbəsində, onların benzindən və bilavasitə neftdən asılı olmalarına gətirib çıxarır. Beləliklə, onların neftə tələbatları formalaşır. Məhz buna görə də, yuxarıda izah olunan neft qiymətinin şoku, ipoteka alıcılarına bir başa təsir edir. Onlar gəlirlərinin bir çox hissəsini benzinin istehlakına sərf etdiklərindən, digər əmtəələrin alınmasına, habelə kredit borclarının ödənilməsi üçün maddi vəsaitlər ayıra bilmirlər. 2008-ci ildə ipoteka alıcıları iflasa uğrayırlar və ipoteka predmetinə tutmanın yönəldilməsi ilə qarşılaşırlar. Eyni zamanda həmin ərazilərdə ictimai nəqliyyat olmadığından, benzinin bahalaşması nəticəsində evlərin dəyəri azalmağa başlayır (bax Qrafik 4). Bu da bankların milyardlarla ölçülən aktivlərin itkisinə məruz qalmalarına səbəb olur, bir çox maliyyə institutları iflasa uğrayır və ipoteka böhranı baş verir [8, səh. 5-6].

Qrafik 4. ABŞ-da evlərin qiymətlərinin indeksi




Mənbə: Federal Reserve Economic Data

Həmin böhranın nəticəsi olaraq - ən iri investisiya banklarından biri olan Lehman Brothers iflasa uğrayır. Bunun səbəblərindən biri həmin investisiya bankının ipotekaların kreditləşməsinə həddindən artıq cəlb olunması nəticəsində, faktiki olaraq hedcinq fondu kimi fəaliyyət göstərməsi idi. Bu da, öz növbəsində, bankı daşınmaz əmlakın qiymətlərdəki hər hansı bir azalmaya son dərəcə həssas etmişdir ki, baş verən ipoteka böhranı Lehman Brothers-ın müflis olmasına səbəb olmuş və Dow Jones indeksinin 4.5 faiz azalması ilə böyük maliyyə şoku yaranmışdır (bax Qrafik 5). Həmin maliyyə şoku daha sonra Avropa ölkələrini əhatə etməklə, onların ÜDM-nun kəskin azalmasına səbəb olmuşdur.

Qrafik 5: Dow Jones İndeksı




Mənbə: http://www.europarl.europa.eu/workingpapers/econ/104/chap1_en.htm

Əldə olunan nəticə mövcud ədəbiyyatın təhlili vasitəsi ilə ərsəyə gəlib. Lakin qeyd etmək lazımdır ki, rəsmi rəqəmlərin korrelyasiya analizi onu göstərir ki müzakirə olunan iki şok arasında bağlılıq var. Belə ki, hər iki şokun ölçülməsi üçün müvafiq olaraq neftin qiyməti və Dow Jones indeksı istifadə olunaraq, onların arasındakı korrelyasiya əmsalı ölçülmüşdü. Həmin göstərici -0.71 olduğundan, iki hadisə bir-birilə əks istiqamətdə bağlı olduqları bəlli olur. Başqa sözlə, neftin qiymətinin artması Dow Jones indeksinin azalmasına səbəb olur (bax Cədvəl 1).

Cədvəl 1. Göstəricilər arasında korrelyasiya koefisienti

| **Göstəricilər** | ÜDM | Evlərin qiyməti | Dow Jones Indeksi |
|---|---|---|---|
| Neftin qiyməti | -0.86718 | -0.61759 | -0.71464 |

## Nəticə

Yuxarıda yazınanlara əsasən, bir ölkədə baş verən hadisələrin digər ölkəyə təsir edə biləcəyinə dair nəticə çıxartmaq olar. Belə ki, 2000-ci ildə neftin istehsalı staqnasiya dövrdə olarkən, Çinin yüksək surətlə inkişaf etməsi nəticəsində, neftə olan tələbat artır. Bunun nəticəsində, neftin bahalaşması və neft qiymətinin şoku yaranır. Eyni zamanda, 2005-ci ildən ABŞ-da yüksək riskli ipoteka kreditlərinin verilməsi başlanır. Lakin ipoteka alıcılarının benzinə və beləliklə neftə olan tələbatı, neftin qiymətinin bahalaşması fonunda, öhdəliklərini yerinə yetirə bilməmələrinə səbəb olur. Nəticədə, 2008-ci ildən başlayaraq, ABŞ-ın bir çox maliyyə qurumları, o cümlədən ən iri maliyyə institutlarından biri olan Lehman Brothers iflasa uğrayır. Bu da ABŞ-da maliyyə şokunun yaranmasına səbəb olmuşdur ki, həmin şok daha sonra Avropanın bir çox ölkəsinə yayılaraq, maliyyə böhranına səbəb olmuşdur (bax Qrafik 6). Bununla yanaşı, neft qiyməti şokunun və maliyyə şokun ölçülməsi üçün müvafiq olaraq istifadə olunan neftin qiyməti və Dow Jones indeksı arasında yüksək mənfi korrelyasiya, həmin şokların arasında asılılığın mövcudluğunu bir daha isbat edir.

Aparılan təhlil göstərir ki, şokların arasındakı asılılıq və silsiləvi bağlılıq mövcuddur. Həmin bağlılıq və onun istiqamətləri öyrənildikdə, ölkələr şoklardan səmərəli istifadə etmə praktikasından faydalana bilər. Məsələn, baş verən gözlənilməz hadisələrə düzgün reaksiya seçməklə, effektiv iqtisadi siyasət olaraq şok terapiyası alətlərini qurub tətbiq edə bilərlər.

Qrafik 6. Şoklar arasında bağlılıq




## Ədəbiyyat


1. Berg A., Papageorgiou C., Pattillo C.A., Schindler M., Spatafora N., Weisfeld H. Global shocks and their impact on low-income countries: lessons from the global financial crisis. IMF Working Paper, 2011: WP/11/27
2. Blanchard O. J., Quah D. The dynamic effects of aggregate demand and supply disturbances: Reply. The American Economic Review. 1993; 83(3): pp. 653-658
3. Broz T. The Impact of Demand and Supply Shocks from EMU on Business Cycles of Central and Eastern European Countries. The Institute of Economics, Zagreb, 2008
4. Carrière-Swallow Y., Céspedes L.F. The impact of uncertainty shocks in emerging economies. Journal of International Economics. 2013; 90(2): pp. 316-25
5. Dumitru I, Dumitru I. Similarity of Supply and Demand Shocks between the New Member States and the Euro Zone. The Case of Romania. Journal for Economic Forecasting. 2011(1):5-19
6. Friedman M. Capitalism and Freedom. 1962. Reprint, Chicago: University of Chicago Press, 1982
7. Hamilton J. D. Causes and Consequences of the Oil Shock of 2007-08. Brookings Papers on Economic Activity, Economic Studies Program, The Brookings Institution, 2009, vol. 40(1 (Spring)), pp. 25-28
8. Hanni A. How the Oil Shock Brought the World Economy Down. Oil and the “Great Recession” 2008/2009. Association for the study of peak oil Switzerland, 2014

9. Klein N. The shock doctrine: The rise of disaster capitalism. Macmillan; 2007, pp. 7-8
10. Randall C. Catalonian referendum to have lasting implications for Spanish economy. The National Business, 2017
11. https://www.fxcm.com/insights/catalan-independence-referendums-impact-euro/
12. Mask II W.R. The Great Chilean Recovery: Assigning responsibility for the Chilean miracle(s) (Thesis). California State University, Fresno, 2013
13. Murrell P. What is shock therapy? What did it do in Poland and Russia? Post-Soviet Affairs. 9(2), 1993: pp. 111-40
14. Gamarra E. Crafting political support for stabilization: Political pacts and the new economic policy in Bolivia. Democracy, markets, and structural reform in Latin America. 1994: pp. 105-27

## INTERDEPENDENCE AMONG UNEXPECTED EVENTS IN GLOBAL ECONOMY

**N.R.Rustamova**

### SUMMARY

This article focuses on the interdependence among different types of economic shocks. The analysis of existing literature is conducted. Dependence between global oil price shock caused by the growing demand for oil by China, and financial shock caused by the 2008 mortgage bubble in the USA, is revealed.

## ВЗАИМОЗАВИСИМОСТЬ МЕЖДУ НЕОЖИДАННЫМИ СОБЫТИЯМИ В МИРОВОЙ ЭКОНОМИКЕ

**Н.Р.Рустамова**

### РЕЗЮМЕ

В работе основное внимание уделено взаимосвязи между различными типами экономического шока. Проведен анализ существующей литературы. Установлена зависимость между глобальным шоком цен на нефть, вызванным растущим спросом на нефть со стороны Китая, и финансовым шоком, вызванным ипотечным пузырем в США в 2005-2008 гг.

*Məqalə redaksiyaya 4 aprel 2019 tarixində daxil olmuş, 12 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2019 - № 51**

UOT 338.43

# AZƏRBAYCANDA SON İLLƏRDƏ KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜZRƏ XARİCİ TİCARƏTİN VƏZİYYƏTİ

**S.R.İbrahimova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** məhsuldarlıq, rəqabətqabiliyyətlilik, innovasiyalı inkişaf, subsidiya
***Keywords:*** productivity, competitiveness, innovation development, subsidy
***Ключевые слова:*** производительность, конкурентоспособность, инновационное развитие, субсидии

Azərbaycan Respublikasının dünya iqtisadiyyatında tutduğu yeri və oynadığı rolu qiymətləndirmək üçün xarici ticarət dövriyyəsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizin kənd təsərrüfatı həm ixrac, həm də iqtisadi şaxələndirmə üçün böyük imkanları olan sahədir. Kənd təsərrüfatı sahəsi istər birbaşa istehlaka gedən ərzaq məhsulları (meyvə, tərəvəz, yumurta, taxıl, ət, süd məhsulları və s.), istərsə də emal sənayesi üçün əsas xammal bazasıdır. Müasir dövrdə qlobal inkişafın əsas istiqamətini istehsalın intensivləşdirilməsi təşkil edir ki, bu da kənd təsərrüfatında innovasiyalı inkişafın sürətləndirilməsini tələb edir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının dünya dövlətləri, həm də yaxın qonşu dövlətlərlə iqtisadi, ticarət əlaqələrinin artması üçün əlverişli şərait yarandı və Azərbaycan dünyada müstəqil iqtisadi və hüquqi subyekt kimi tanınmağa başladı.

Müstəqilliyin ilk illərində iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, kənd təsərrüfatı məhsullarının xarici ticarət sahəsində də böhran prosesləri başladı. Keçid dövrü ölkə iqtisadiyyatında bir sıra çətinliklər yaratdı və Azərbaycanla yanaşı bütün keçmiş Sovet Respublikaları da bu cətinliklərlə üzləşməli oldular. Çətinliklərin yaranmasının əsas səbəbləri ondan ibarət idi ki, ölkə iqtisadiyyatının bir iqtisadi sistemdən digərinə keçməsi heç də asan proses deyildi. Buna nail olmaq üçün ölkənin iqtisadiyyatında bir sıra islahatlar aparılmalı, onun quruluşu təkmilləşdirilməli və ölkə dünya bazarına inteqrasiya olunmalı idi. Digər tərəfdən isə planlı təsərrüfat sisteminə xidmət edən iqtisadi subyektlər və qanunlar yeni yaradılan iqtisadi sistemə uygun deyildi.

Azərbaycan iqtisadiyyatının beynəlxalq əmək bölğüsündə özünəməxsus yer tutması vacib məsələlərdən biridir. Bu gün dünyanın aparıcı ölkələri - ABŞ, Almaniya, Yaponiya, İngiltərə, Fransa və s., belə iqtisadi inkişafa hər şeydən əvvəl beynəlxalq ticarətdə və əmək bölgüsündə ayrı-ayrı sahələr üzrə ixtisaslaşmaqla nail olublar. 2017-ci ilin məlumatlarına əsasən, ölkəmiz dünyanın 155-dən çox ölkəsi ilə 22,6 mlrd ABŞ dolları həcmində beynəlxalq ticarət əlaqəsində olmuşdur və bu Azərbaycan iqtisadiyyatının hazırda dünyaya açıldığını göstərən mühüm amillərdən biridir. 2017-ci ilin statistik məlumatlarına görə Azərbaycandan 13.8 mlrd ABŞ dolları həcmində mal ixrac olunmuş-

dur ki, bunun da 89,8%-ini neft sektoru, 10,2%-ini isə qeyri-neft sektoru məhsulları təşkil etmişdir. Belə bir vəziyyət Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatında hələdə öz yerini tuta bilməməsi ilə bağlıdır. Bu gələcəkdə təkcə ölkənin xarici ticarəti üçün deyil, həm də bütövlükdə ölkənin iqtisadiyyatı üçün təhlükə yarada bilər. Bu problemlərin həllində Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması xüsusilədə ÜTT-yə daxil olması mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın dünya iqtisadiyyatında tutduğu yeri və oynadığı rolu qiymətləndirmək üçün xarici ticarət dövriyyəsi xüsusi əhəmiyyət kəsb edir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2006-ci il ilə müqayisədə Azərbaycanın xarici ticarət dövriyyəsi 2014-cü ildə 2,6 dəfə artmışdir. Belə ki, 2005-ci ildə xarici ticarət dövriyyəsi 8558,4 mln ABŞ dolları olduğu halda, 2017-ci ildə bu rəqəm 22593.6 mln ABŞ dolları olmuşdur.

Statistik məlumatlar əsasında deyə bilərik ki, xarici ticarət dövriyyəsi 1992-ci ildən başlayaraq azalmağa başlamış: 1993-cü ildə 1353,5 mln ABŞ dolları, 1994-cü ildə 1430,6 mln ABŞ dolları, 1995-ci ildə 1304,9 mln ABŞ dolları, 1999-cu ildə 1955,1 mln ABŞ dolları, 2000-ci ildə 2917,3 mln ABŞ dolları, 2002-ci ildə 3832,9 mln ABŞ dolları təşkil etmiş və yalnız 2003-cü ildə 5216,6 mln ABŞ dolları olaraq, 1991-ci il səviyyəsindən 1214,4 mln ABŞ dolları çox olmuşdur (4, səh.648).

Artıq yuxarıda qeyd etdiyimiz kimi bunun da əsas səbəbləri planlı təsərrüfat sisteminin dağılması nəticəsində əvvəlki iqtisadi əlaqələrin itirilməsi olmuşdur.

Qeyd etmək lazımdır ki, 1993-1995-ci illər ərzində Respublikamızda Ümumi Daxili məhsul orta hesabla 19% azalmışdır. Həmin illərdə kənd təsərrüfatının ümumi məhsulunda da azalmalar qeyd edilmişdir ki, bunlar da sözsüz ki, xarici ticarətə, o çümlədən, kənd təsərrüfatı məhsullarının xarici ticarətinə öz mənfi təsirini göstərmişdir. Statistik məlumatlarından görünür ki, yalnız 2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının ticarət dövriyyəsində artım özünü göstərməyə başlamışdır. Belə ki, 2003-cü ildə Respublikamızın xarici ticarət dövriyyəsi 5216,6 mln ABŞ dolları, 2004-cü ildə 7131,4 mln ABŞ dolları, 2005-ci ildə 8558,4 mln ABŞ dolları, 2014-cü ildə 31016,3 mln ABŞ dolları, 2016-cı ildə 21946.7 mln ABŞ dolları, 2017-ci ildə isə 22593.6 mln ABŞ dolları, olmuşdur. 2003-cü ildən başlayaraq, Azərbaycanın xarici ticarət dövriyyəsi artan dinamika ilə xarakterizə olunur. Cədvəl 1-ə nəzər salsaq görərik ki, həmin illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsində də əhəmiyyətli artımların olduğu müşahidə olunur. Belə ki, 2005-ci ildə kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi 516,5 mln ABŞ dolları, 2012-ci ildə 1251,6 mln ABŞ dolları, 2013-cü ildə 1284,3 mln ABŞ dolları, 2014-cü ildə 1189,4 mln ABŞ dolları, 2015-ci ildə 931.6 mln ABŞ dolları, 2016-cı ildə 1158.9 mln ABŞ dolları, 2017-ci ildə isə 1345.9 mln ABŞ dolları olmuşdur (3, səh.619).

**Cədvəl 1**

**2005 - 2017-ci illər ərzində malların idxalı və ixracına dair göstəricilər** (min ABŞ dolları)

| № | Mal qrupları | 2005 | | | 2012 | | | 2014 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ticarət dövriyyəsi | İdxal | İxrac | Ticarət dövriyyəsi | İdxal | İxrac | Ticarət dövriyyəsi | İdxal | İxrac |
| | | | | | | | | | | |
| 1 | Cəmi | 8558,4 | 4211,2 | 4347,2 | 34687,9 | 10712,5 | 23975,4 | 31016,3 | 9187,7 | 21828,6 |
| 2 | Kənd təs. məhsulları | 516,5 | 253,0 | 263,5 | 1284,3 | 752,9 | 531,4 | 1189,4 | 664,7 | 524,7 |
| | Digərləri | 8041,9 | 3958,2 | 4083,7 | 33403,6 | 9959,6 | 23444,0 | 29826,9 | 8523,0 | 21303,9 |
| | | 2015 | | | 2016 | | | 2017 | | |
| 1 | Cəmi | 21945.8 | 9216.7 | 12729.1 | 21946.7 | 8489.1 | 13457.6 | 22593.6 | 8782.0 | 13811.6 |
| 2 | Kənd təs. məhsulları | 931.6 | 593.4 | 338.2 | 1158.9 | 768.1 | 390.8 | 1345.9 | 814.9 | 531.0 |
| 3 | Digərləri | 21014.2 | 12390.9 | 12390.9 | 20787.8 | 7721.0 | 13066.8 | 21247.7 | 7967.1 | 13280.6 |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri 2018

2017-cü ildə kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsi 2005-ci il ilə müqayisədə 829,4 mln ABŞ dolları, yaxud 2,6 dəfə artaraq 1345,9 mln ABŞ dolları olmuşdur. Kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin artım tempi 2013-cü ildə 2,6%, 2014-ci ildə 0,93%, 2015-ci ildə 0,78%, 2016-cı ildə 24,4%, 2017-ci isə 16,1% olmuşdur.

Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin quruluşunda diri heyvan və heyvan mənşəli məhsullar, bitki mənşəli məhsullar, heyvan və ya bitki mənşəli piylər və yağlar qrupundan olan məhsullar üstünlük təşkil edir.

Statistik məlumatlara görə 2005-2017-ci illər ərzində Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsində bitki mənşəli məhsulların dövriyyəsi üstünlük təşkil edir. Bitki mənşəli məhsulların ticarət dövriyyəsi 2008-ci ildə 771,7 mln ABŞ dolları, yaxud 75,6%, 2009-cu ildə 541,5 mln ABŞ dolları, yaxud 66,9%, 2010-cu ildə 627,7 mln ABŞ dolları, yaxud 63,0%, 2011-ci ildə 788,4 mln ABŞ dolları, yaxud 67,0%, 2012-ci ildə 808,2 mln ABŞ dolları, yaxud 64,6%, 2013-cü ildə 850,2 mln ABŞ dolları, yaxud 66,2%, 2014-ildə isə 758,1 mln ABŞ dolları, 2016-cı ildə 978.6 mln ABŞ dolları, yaxud 84.4%, 2017-ci ildə isə 1077.9 mln ABŞ dolları, yaxud 80.0% təşkil etmişdir. Statistik məlumatlardan görünür ki, diri heyvanlar və heyvan mənşəli məhsulların ticarət dövriyyəsi 2017-cü ildə 2016-ci ilə nisbətən 87.7 mln ABŞ dolları artaraq, 268,0 mln ABŞ dolları təşkil etmişdir. Kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin əmtəə strukturunda diri heyvanlar və heyvan mənşəli məhsullar 2008-ci ildə 24,6% dən azalaq 2017-cü ildə 20,0% təşkil etmişdir. Bu illər ərzində bitki mənşəli məhsulların xüsusi cəkisi 2008-ci ildə 75,6% dən artaraq, 2017-ci ildə 80,0% təşkil etmişdir. Statistik məlumatları təhlil edərək bu nəticəyə gəlmək olur ki, kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin əmtəə strukturunda mal qruplarının xüsusi çəkilərində tədricən optimal ölçülərin yaranması əlamətləri görünür.

Cədvəl 2-də 2008-2017-ci illər ərzində Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin idxal və ixrac üzrə əmtəə strukturu verilmişdir. Kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsi 2008-2017-ci illər ərzində artan dinamika üzrə getmişdir. Belə ki, 2010-cü ildə artım tempi 23,1%, 2011-ci ildə 18,0%, 2012-ci ildə 6,3%, 2013-cü ildə 2,6%.2017-ci ildə isə 16.1% təşkil etmişdir. Cədvəl 1 məlumatlarından göründüyü kimi 2017-ci ildə Azərbaycan Respublikasının mal qrupları üzrə ümumi ticarət dövriyyəsinin həcmi 2016-ci il ilə müqayisədə 646,9 mln ABŞ dolları, yaxud 2,9% artmişdir, kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsində 2017-ci ildə kənd təsərrüfatı məhsulları üzrə ticarət dövriyyəsi 2016-cı il ilə müqayisədə 187,0 mln ABŞ dolları, yaxud 13,9% artmışdır.

Statistik məlumatlara görə, kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin əmtəə strukturunda hələ də ölkəmizə idxal edilən kənd təsərrüfatı məhsullarının payı yüksəkdir. Belə ki, 2008-ci ildə bu rəqəm 63,1%, 2009-cu ildə 55,9%, 2010-cu ildə 61,9%, 2012-ci ildə 57,6%, 2013-cü ildə 58,6%, 2014-cü ildə 55,9%, 2017-ci ildə isə 60.5% təşkil etmişdir. Həmin illər ərzində kənd təsərrüfatı məhsullarının ixracı müvafiq olaraq 2008-ci ildə 36,9%, 2009-cu ildə 44,1%, 2010-cu ildə 38,1%, 2011-ci ildə 37,7%, 2012-ci ildə 42,4%, 2013-cü ildə 41,4%, 2014-cü ildə 44.1%, 2017-ci ildə isə 39.5% təşkil etmişdir. Statistik məlumatlar göstərir ki, son illərdə kənd təsərrüfatı məhsullarının ixracında artım müşahidə olunmuş və 2017-cü ildə onun xüsusi çəkisi artaraq 39,5%-ə çatmışdır.

**Cədvəl 2**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının xarici-ticarət dövriyyəsinin idxal və ixracının strukturu** (mln ABŞ dolları, %)

| № | Adı | 2008 | | 2013 | | 2014 | | 2015 | | 2016 | | 2017 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % |
| 1 | Cəmi: | 1021,3 | 100,0 | 1284,3 | 100,0 | 1189,4 | 100.0 | 931.6 | 100.0 | 1158.9 | 100.0 | 1345.9 | 100.0 |
| 2 | İdxal | 644,6 | 63,1 | 752,9 | 58,6 | 664,7 | 55.9 | 593.4 | 63.7 | 768.1 | 66.3 | 814.9 | 60.5 |
| 3 | İxrac | 376,7 | 36,9 | 531,4 | 41,4 | 524,7 | 44.1 | 338.2 | 36.3 | 390.8 | 33.7 | 531.0 | 39.5 |
| 4 | Saldo | -267,9 | - | -221,4 | - | -140,0 | - | -255.2 | - | -377.3 | - | -283.9 | - |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri 2018

Statistik məlumatlara görə, Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin quruluşunda kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin payı son illərdə artmağa başlamışdır. Belə ki, 2008-ci ildə kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi ümumi ticarət dövriyyəsinin 1,8%-ni təşkil etdiyi halda, artıq 2017-ci ildə 5,9%-ni təşkil etmişdir. Müqayisə üçün deyək ki, dünyanın aparıcı ölkələrində bu rəqəm bir neçə dəfə çoxdur.

Bütün bu dediklərimiz aqrar sahənin dayanıqlı inkişaf etdirilməsi istiqamətlərində hələ də çoxsaylı problemlərin mövcud olduğunu göstərir. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları xarici ticarət dövriyyəsində ixracın artımını ləngidən makroiqtisadi problemlərə birinci növbədə həmin sahənin (xüsusən də ərzaq bazarının) çevik tənzimlənmə və idarəetmə mexanizminə malik olmaması, eləcə də daxili ərzaq bazarının hələ ki, lazımi səviyyədə qorunmaması aiddir.

**Azərbaycan Respublikasının ölkələr üzrə ticarət dövriyyəsi:** Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, onun iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya etməsi Azərbaycanın həm qonşu ölkələrlə, həm də dünya ölkələri iqtisadi, o cümlədən, xarici ticarət əlaqələrinin artmasına təkan vermişdir. Azərbaycanın müstəqillik əldə etdiyi illərdə onun xarici ticarətinin strukturu dəyişikliyə məruz qaldığı kimi, ölkəmizin ticarət tərəfdaşlarının da tərkibi dəyişmişdir. Belə ki, ölkəmizin ticarət tərəfdaşlarının sayı 1997-ci ildə 84, 1999-cu ildə 121 ölkə olmuşdursa, 2017-ci ildə onların sayı 155 çatmış və ticarət dövriyyəsinin həcmi isə 22,6 mlrd ABŞ dolları miqdarında olmuşdur. Əvvəllər ölkəmizin əsas ticarət tərəfdaşları MDB ölkələri idi sə, indi bu nisbət Avropa ölkələrinin xeyrinə dəyişib və 2017-ci ildə 22,6 mlrd ABŞ dolları həcmində xarici ticarət dövriyyəsinin 19,1 mlrd ABŞ dollarını, yaxud 84,5%-ni digər ölkələr təşkil etmişdir (Cədvəl 3). Son dövrlərdə Azərbaycanın xarici ticarət dövriyyəsinin artımının əsas hissəsini neft və neft məhsulları təşkil edir ki, gələcəkdə də onun azalması və yaxud qiymətinin aşagi düşməsi nəticəsində ölkəmizin iqtisadiyyatı üçün təhlükə yarana bilər. Onun üçün də Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya etməsi, onun xarici ticarət dövriyyəsinin həcminin artması ilə yanaşı, istehsal edilən məhsulların rəqabət davamlılığının yüksəlməsi ilə xarici ticarət dövriyyəsinin quruluşunun diversifikasiyası edilməsi mühüm bir məsələdir.

Qeyri-neft sektorunun tərkibində kənd təsərrüfatının xüsusi çəkisinin artırılması vacibdir. Bunu həyata keçirmək üçün isə kənd təsərrüfatı sahəsində yeni texnoloğiyaların tətbiqi vasitəsi ilə əmək məhsuldarlığının artırılması vacibdir.

**Cədvəl 3**

**Azərbaycan Respublikasının 2009-2017-ci illər ərzində ölkələr üzrə ticarət dövriyyəsi**
(mln ABŞ dolları, %)

| № | Ölkələr | 2009 | | 2013 | | 2014 | | 2015 | | 2016 | | 2017 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % | Ticarət dövriyyəsi | % |
| 1 | CƏMİ: | 20824,5 | 100,0 | 34687,9 | 100,0 | 31016,3 | 100,0 | 21945.8 | 100,0 | 21946.7 | 100,0 | 22593.6 | 100,0 |
| 2 | MDB | 2964,6 | 14,2 | 4062,9 | 11,7 | 2921,2 | 9,4 | 2486.4 | 11.3 | 2825.3 | 12.9 | 3446.3 | 15.2 |
| 3 | Digər ölkələr | 17859,9 | 85,8 | 30625,0 | 88,3 | 28095,1 | 90,6 | 19459.4 | 88.7 | 19121.4 | 87.1 | 19147.3 | 84.8 |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri 2018

## Nəticə

1. Kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsinin əmtəə strukturunda mal qruplarının xüsusi çəkilərində tədricən optimal ölçülərin yaranması əlamətləri görünür.
2. Yerinə yetirilən dövlət proqramları nəticəsində müsbət hal kimi qeyd etmək lazımdır ki, son illərdə kənd təsərrüfatı məhsullarının ixracında 2008-ci ildəki 36,9%-lə müqayisədə artım müşahidə olunmuş və 2017-cü ildə onun xüsusi çəkisi artaraq 39,5%-ə çatmışdır.
3. Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin quruluşunda kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin payı son illərdə atrmağa başlamışdır. Belə ki, 2008-ci ildə kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi ümumi ticarət dövriyyəsinin 1,8%-ni təşkil etdiyi halda, artıq 2017-cü ildə 5,9%-ni təşkil etmişdir.
4. Məlum olmuşdur ki, Respublikasında kənd təsərrüfatı məhsullarının xarici ticarət dövriyyəsində ixracın hələ də idxaldan geri qalmasının əsas səbəbləri birinci növbədə həmin sahənin (xüsusən də ərzaq bazarının) çevik tənzimlənmə və idarəetmə mexanizminə malik olmaması, eləcə də daxili ərzaq bazarının hələ ki, lazımi səviyyədə qorunmamasıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2018-ci il üçün Dövlət Büdcəsi
2. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası, 2012
3. Azərbaycan statistik göstəriciləri 2018
4. Azərbaycanın kənd təsərrüfatı statistik məcmuəsi 2018
5. Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı
6. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət proqramı, 2008, 25/08, № 3004

## STATE OF FOREIGN TRADE OF AGRICULTURAL PRODUCTS IN AZERBAIJAN OVER THE LAST YEARS

**S.R.Ibrahimova**

### SUMMARY

This article presents an analysis of foreign trade of agrarian products in Azerbaijan in recent years. Macroeconomic problems which discourage agricultural export are considered. A number of negative aspects of Azerbaijan's foreign trade relations are described, and it is shown that such a situation will threaten not only the country's foreign trade, but also its entire economy in the future.

## СОСТОЯНИЕ ВНЕШНЕЙ ТОРГОВЛИ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИЕЙ В АЗЕРБАЙДЖАНЕ ЗА ПОСЛЕДНИЕ ГОДЫ

**С.Р.Ибрагимова**

### РЕЗЮМЕ

В статье представлен анализ состояния внешней торговли продукцией аграрного сектора в Азербайджане за последние годы и рассмотрены макроэкономические проблемы, сдерживающие экспорт сельскохозяйственной продукции. Изложен ряд негативных аспектов внешнеторговых отношений Азербайджана и показано, что такая ситуация будет угрожать не только внешней торговле, но и в целом экономике страны в будущем.

*Məqalə redaksiyaya 8 aprel 2019 tarixində daxil olmuş, 13 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT № 336.33

# AZƏRBAYCAN RESPUBLİKASININ İNVESTİSİYA SİYASƏTİ VƏ ONUN REALLAŞDIRILMASI MEXANİZMİ

**T.R.Ağayeva**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** investisiya, kapital ixracı, iqtisadi dinamika
***Keywords:*** investment, capital export, economic dynamics
***Ключевые слова:*** инвестиции, экспорт капитала, экономическая динамика

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət mülkiyyətinin mövcud olduğu planlı təsərrüfatdan müxtəlif mülkiyyət növlərinə əsaslanan bazar iqtisadiyyatı istiqamətində müvəffəqiyyətli yol keçmişdir.

Kecid dövrü ərzində milli iqtisadiyyatda uğurlu nəticələr əldə edilməklə ölkənin milli təhlükəsizliyi təmin edilmişdir. Ölkə miqyasında həyata keçirilən islahatlar nəticəsində əlverişli biznes və investisiya mühiti, həmçinin sahibkarlıq təbəqəsi yaradılmışdır. Müstəqillik əldə etdikdən sonra ölkə iqtisadiyyatının bütün sahələrinə daxili və xarici investisiyalar cəlb edilmiş, iqtisadiyyatın yüksək artım templəri ilə inkişafı və diversifikasiyası təmin edilmişdir. Bu makroiqtisadi sabitliyin yaradılmasında neft sektoru istiqamətverici və hərəkətverici rol oynamışdır.

**Cədvəl 1**

| | 2003 | 2008 | 2013 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Cəmi investisiyalar | 4249,3 | 13328,0 | 21448,2 | 20057,4 | 22706,4 | 23839,3 |
| ÜDM | 7146.5 | 40137,2 | 58182,0 | 54380,0 | 60425,2 | 70135,1 |
| Əhalinin hər nəfərinə düşən ÜDM (min nəfər) | 872,7 | 4603,7 | 6258,3 | 5706,6 | 6269,6 | 7205,0 |
| İqtisadiyyatda məşğul olanların sayı (min nəfər) | 4373.5 | 4477.7 | 4521.2 | 4671.6 | 4759.9 | 5073.8 |
| Orta aylıq nominal əmək haqqı | 77.4 | 274.4 | 425.1 | 466.9 | 499.8 | 528.2 |
| Əhalinin gəlirləri | 5738.1 | 20735.4 | 37562.0 | 41744.8 | 45395.1 | 49162.9 |
| Əhalinin hər nəfərinə düşən gəlir (manat) | 700.7 | 2378.3 | 4040.3 | 4380.7 | 4709.8 | 5050.5 |
| Yoxsulluq səviyyəsi | 44.7 | 13.2 | 5.3 | 4.9 | 5.9 | 5.4 |

**2003-2017-ci illərdə ölkənin əsas sosial-iqtisadi göstəriciləri** (mln.man.)

Həyata keçirilmiş iqtisadi və sosial islahatlar nəticəsində yaranmış əlverişli biznes mühiti şəraitində ölkəmizə cəlb edilən investisiyaların həcmi 2003-cü ildəki 4249,3 mln manatdan 2017-ci ildə 23839,3 mln manata çatdı. Cədvəl 1-dən göründüyü kimi, ölkə əhalisinin maddi rifahı xeyli yaxşılaşmış, 700 mindən artıq yeni iş yeri açılmış, orta aylıq

nominal əmək haqqı 2003-cü ildəki 77,4 manatdan 2017-ci ildə 528,2 manata çatmış, əhalinin nominal pul gəlirləri 2003-cü ildəki 5738,1 mln manatdan 2017-ci ildə 49162,9 mln manata çataraq 8,5 dəfə artmış, yoxsulluğun və işsizliyin səviyyəsi isə müvafiq olaraq 44,7%-dən 5,4%-ə enmişdir.

Son illər ölkəmizdə aparılan düşünülmüş və məqsədyönlü iqtisadi siyasət nəticəsində iqtisadiyyatın bütün sahələrində yüksək artım templəri təmin edilmişdir. Belə ki, 2003-2017-cü illərdə ümumi daxili məhsul (ÜDM) 9,8 dəfə artmışdır. Adambaşına düşən ÜDM-in həcmi isə bu müddət ərzində real ifadədə 8,2 dəfə artaraq, dünya miqyasında ən yüksək artım templəri səviyyəsində olmuşdur.

Bu dövr ərzində neft sektoru üzrə göstəricilər də yüksək inkişaf tendensiyalarını əks etdirir. Belə ki, neft sektoru üzrə ÜDM 2017-ci ildə 26073.2 mln manat olaraq 2003-cü ildə ki, 2149.1 mln manatla müqayisədə 12.1 dəfə artmışdır. Diaqram 1-dən göründüyü kimi bu dövrdə neft sektoruna xarici investisiyalar 2017-cı ildə 4900.8 mln man. 2016-cı ildə 5617,4 mln manat, 2015-ci ildə 6622,7 mln manat, 2014-cü ildə 6730,7 mln manat təşkil edərək azalmağa meylli olmuşdur və 2003-cü ilə nisbətən isə (2972.4 mln man.) 1.9 dəfə artmışdır.




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Digər investisiyalar | 0 | 0 | 0 | 114,9 | 90,2 | 164,4 | 278,6 | 655,3 | 644,7 | 993,2 | 1227,0 | 687,6 | 1796,2 | 1908,9 | 1767,9 | 1025,8 | 639,7 |
| Birgə və xarici investisiyalı müəssisələr | 118,0 | 79,3 | 45,6 | 45,4 | 104,2 | 230,5 | 368,4 | 439,1 | 494,1 | 624,4 | 659,6 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 | 1706,2 |
| Neft sənayesinə | 546,1 | 820,5 | 1966,3 | 2972,4 | 4088,1 | 3799,9 | 3422,3 | 4003,3 | 3350,7 | 2412,7 | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 | 5617,4 |
| Maliyyə kreditləri | 262,9 | 192,0 | 223,0 | 238,3 | 293,0 | 698,4 | 983,5 | 1576,6 | 2357,9 | 1438,3 | 3405,9 | 3692,5 | 3135,5 | 2655,8 | 1880,6 | 2210,2 | 2197,8 |

**Diaqram 1. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların strukturu, mln. ABŞ dolları ilə (*Mənbə: DSK*)**

Ölkə iqtisadiyyatının sürətli inkişafı Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası üçün geniş imkanlar açmışdır. Azərbaycan xarici investorlar üçün regionun ən cəlbedici məkanına çevrilmişdir. 1995-ci ildən bəri ölkə iqtisadiyyatına bütün mənbələrdən təxminən 219,3 milyard ABŞ dollarına yaxın məbləğdə investisiya yatırılmışdır. Bu məbləğin 25,5 mlrd ABŞ dollarını xarici investisiyalar təşkil etmiş, onlardan 64.7 mlrd ABŞ dolları, başqa sözlə 51.5%-i iqtisadiyyatın neft sektoruna yatırılmışdır. Bunun fonunda Azərbaycanın ixrac potensialı əhəmiyyətli dərəcədə güclənmiş, ölkənin xarici ticarət əlaqələri xeyli genişlənmişdir. 2017-ci ildə ölkənin ticarət dövriyyəsi 22593,6 mln. manat təşkil edərək 2003-cü ilə nisbətən( 5216,6 mln. manat) 4,3 dəfə artmışdır. Bu illər ərzində ixrac isə 13811,6 mln. manat təşkil edərək 5,3 dəfə artmışdır. Xüsusilə neft sektoruna 1995-2017-ci illər ərzində 64,7 mlrd ABŞ dolları həcmində xarici investisiyaların cəlb edilməsi ilə bu sahənin inkişafı və rəqabətqabiliyyətli məhsul istehsalının artması nəticə-

sində ölkənin neft ixracının potensialı güclənmiş, sözügedən müddət ərzində neft ixracı 5,3 dəfə artaraq ticarət dövriyyəsinin artım tempini 23,2% üstələmişdir.

Son dövrlərdə beynəlxalq investisiya meylləri kiçilən dinamika və 2008-ci ildə başlayan və hələdə davam edən iqtisadi böhranla xarakterizə edilir. Dünya miqyasında birbaşa xarici investisiyaların (BXİ) həcmi 2008-ci ildən başlayaraq böyuk miqdarda azalmış və yalnız 2013-cü ildə 1,4 trilyon ABŞ dollarına çataraq böhrandan əvvəlki (2004-2007) miqdara çatmışdır. 2017-ci ildə birbaşa xarici investisiyaların ümumi həcmi 23% azalaraq 1,43 trilyon ABŞ dolları təşkil etmişdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) məlumatlarına görə, yaxın dövrdə iqtisadi şərtlərin müsbət istiqamətdə dəyişməsi nətəcəsində investorların maraqlarının ödəniləcəyi halında, transmilli şirkətlər sərbəst pul vəsaitlərini yeni investisiyalara yönəldə bilərlər. Ancaq, dəyişimin qarşısını ala biləcək təhlükəli risklər hələ də dünya iqtisadiyyatında qalmaqdadır. Beynəlxalq maliyyə sisteminin quruluşunun təkmilləşdirilməməsi, xarici investorlar üçün əsas əhəmiyyət daşıyan iqtisadi şəraitin əlvrişsiz olması, siyasi qeyri-müəyyənlik və bu kimi digər mənfi hallar beynəlxalq xarici investisiya axınlarının azalmasına gətirib çıxara bilər.

Son dövrlərdə Dünya iqtisadiyyatında xarici investisiyaların milli iqtisadiyyatlardakı rolu əhəmiyyətli dərəcədə yüksəlmışdır. Beynəlxalq xarici investisiyalar milli iqtisadiyyatıyyatları lazımi miqdarda maliyyə vasitələri ilə təmin etməklə yanaşı, bilik və bacarıqların əldə olunması, müasir texnologiyaların gətirilməsi, müasir texnologoyalarla işləmək bacarığına yiyələnən yerli mütəxəssislərin hazırlanması, milli iqtisadiyyatın gücünün artımı və ölkənin dünya iqtisadiyyatına qovuşması kimi vəzifələri də yerinə yetirir. Davamlı və ügürlu iqtisadi yüksəlişi təmin etmək üçün birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi bütün dövlətlər üçün onun xarici iqtisadi siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkə iqtisadiyyatının inkişafının Xarici investisiyaların cəlb olunması ilə ödənilməsi ümumilikdə dövlətin iqtisadi gücünü artıran mühüm amillərdən biridir. Ölkə iqtisadiyyatının inkişafına yönəlmiş xarici investisiyaların cəlb olunması ölkənin investisiya siyasətinin yaranmasının əsasını təşkil edır. Hər bir dövlət yeni iş yerlərinin açılmasına, əmək məhsuldarlığının və istehsalın səmərəliliyin yüksəldilməsinə, yeniliklərlə iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, istehsalın dönərliyini artıran yüksək texnologiyalara və ekoloji problemlərinin həllinə istiqamətlənmiş investisiyalara üstünlük verir. Belə investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin əsasinda davamlı və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi durur. Dünyada 2008-ci ildən bəri davam edən maliyyə böhranı şəraitində dövlətlər birbaça xarici investisiyaların milli iqtisadiyyata cəlb edilməsi üçün özlərinin iqtisadi diplomatiyalarında investisiyaları sövq etmək siyasətini aparırlar. Ölkədə İqtisadi inkişaf nazirliyi, həmçinin sövqetmə mexanizmləri qarşısında qoyulan müasir tələblər birbaşa xarici investisiyaların sövq edilməsi anlayışının dəyişməsini tələb edir. Birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin müasir sistemi təkcə informasiya köməkliyi deyil, eyni zamanda maliyyə köməkliyi və iş yerlərində yaranan çətinliklərlə əlaqədar davamlı maddi köməyin göstərilməsi formalarını da nəzərdə tutur. Müasir dövrdə bir sıra dövlətlər ənənəvi köməklik formaları ilə birgə, investisiyaların sövq edilməsi və stimullaşdırılması üzrə yeni üsulların tətbiq edilməsinə başlamış, güzəştlərin nəzərdə tutulduğu yeni proqramları qəbul etmiş, layihələrin həyata keçirilməsi üzrə birbaşa maddi köməklik mexanizmləri yaratmış, birbaşa xarici investisiyaların qiymətli kağızlar bazarının köməyilə cəlb olunmasını gücləndirmiş, vergidən azad sərbəst iqtisadi sahələr yaratmış, “bir pəncə-

rə" sistemininin tətbiqinə başlamış və vergi yükünü azaltmışdırlar. Sahibkarlıq fəaliyyətini asanlaşdırmaq məqsədi ilə prosedurların sadələşdirilməsi, biznes fəaliyyətinin qarşısını alan problemləri aradan qaldırmaq məqsədilə qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması, bütövlükdə əlverişli biznes və maliyə mühitinin yaxşılaşdırılması üzrə reformaların aparılması dövlətin iqtiasdi siyasətinin mühüm istiqamətlərinə çevrilmişdir.

Birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində investisiyaların sövq edilməsi üzrə məsuliyyət daşıyan orqanlaın əhəmiyyəti olduqca böyükdür. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, investisiyaların cəlb edilməsi üçün xərclənən hər 1 ABŞ dolları ölkəmizə 189 ABŞ dolları məbləğində birbaşa xarici investisiya cəlb edir, xarici investor tərəfindən xərclənən hər bir 78 ABŞ dolları isə bir əlavə iş yeri yaradır. Ölkə iqtisadiyyatına daxil olmaq istəyən xarici investorların 83 % investisiya sorğularını birinci olaraq təşviq qurumlarına istiqamətləndirilər. Buna görə dünyanın bir çox ölkələri birbaşa xarici investisiyaların cəlb edilməsi sahəsində "bir pəncərə" prinsipi əsasında xidmət göstərən investisiya sövq etmə qurumları yaratmışdır.

Son illərdə ixrac və idxalın sürətli artım templəri və ticarət ənənələrının dəyişməsi ticarətin sövq edilməsi üzrə dövlət qurumların fəaliyyətini hiss edilən şəkildə artırmışdır. Dünyanın bir sıra dövlətlərində beynəlxalq ticarətin təşviqi üzrə qurumlar yaradılmışdır. Bu qurumların fəaliyyəti əsasən aşağıdakı dörd kateqoriya üzrə izah edilir:

- ixrac üçün nəzərdə tutulmuş məhsulların satılacağı potensial xarici bazarlarının təyin edilməsi;
- informasiya xidmətlərinin göstərilməsi;
- ixracön artırılması üçün köməklik xidmətlərinin göstərilməsi
- xarici bazarlarda yrli malların satilması üçün təbliğat xarakterli reklam işlərinin aparılması.

Dünyanın qabaqcıl ölkələrinin ixracın təşviqi qurumlarının təcrübəsi onu deməyə əsas verir ki, bu qurumların işinin səmərəliliyinin təmin edilməsi üçün işgüzar dairələr tərəfindən bu qurumlara kömək, uyğun institusional quruluş və maliyyələşdirmə, yüksək əmək haqqı ilə təmin edilmiş yüksək ixtisaslı mütəxəssislər və dövlət-özəl bölməri arasında qarşılıqlı əməkdaşlıq prinsipinə əsaslanan idarəetmə amillərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

Xarici investisiyaların milli iqtiadiyyata cəlb edilməsi və ixracın artırılması Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrdə üstünlük verdiyi istiqamətlər olmaqla dövlətin iqtisadi gücünün artırılması üçün mühüm amilləri təşkil edir.

Cədvəl 2-dən göründüyü kimi, 2003-2017-ci illər ərzində Azərbaycan iqtisadiyyatına yatırılmış xarici investisiyaların həcmi 116,4 milyard ABŞ dolları təşkil etmişdir.

Cədvəl 2

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar **(mln. ABŞ dolları)**

| | **1995-2002** | **2003-2017** | **1995-2017** (ümumi) |
|---|---|---|---|
| **Cəmi investisiyalar** | 12473,6 | 206820,3 | **219293,9** |
| **Daxili investisiyalar** | 3353,9 | 90462.4 | **93816,3** |

| | | | |
|---|---|---|---|
| **Xarici investisiyalar** | 9119,8 | 116357.8 | **125477.6** |
| *Neft sektoru* | 6105,4 | 58606.3 | **64711.7** |
| *Qeyri-neft sektoru* | 3014,4 | 57751.5 | **60765.9** |

Sözügedən dövrdə birbaşa xarici investisiyalar 45,6 milyard ABŞ dolları təşkil etmişdir. Bu müddət ərzində neft sektoruna xarici investisiyaların cəlbi 58,6 milyard, 1995-2017-ci illərdə isə 64,7 milyard ABŞ dollarına çatmışdır. 2003-2017-cü illərdə xarici investorlar tərəfindən kapital əsasən neft-qaz sektoruna yatırılmışdır.

Azərbaycan Respublikasına investisiya qoyan xarici dövlətlərin siyahısında Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Fransa, Çexiya, Almaniya, Səudiyyə Ərəbistanı və Rusiya kimi dövlətlər mühüm yer tutur.

2017-ci ildə Azərbaycan Respublikasının ticarət dövriyyəsinin artan dinamikası özünü göstərmişdir Bu dövrdə. Azərbaycan dünyanın 147 ölkəsi ilə ticarət əlaqələri qurmuşdur. Dövlətimizin ticarət münasibətləri qurduğu ölkələrin içərisində İtaliya, Almaniya, Türkiyə, Böyük Britaniya, Fransa, ABŞ. İsrail və s. xüsusi yer tutur. Ümumi ticarətdə Avropa İttifaqı, Qara Dəniz İqtisadi Əməkdaşlıq təşkilatı ölkələrinin payı 54,0% təşkil etmişdir. 2017-ci ildə ixrac əməliyyatların həcmi 13,8 milyard ABŞ dollarına çatmışdır. Sözügedən dövr ərzində neft ixracının həcmi 12,4 mlrd ABŞ dolları olmuş və 2016-cı ilə nisbətən 0,8%, yaxud 102,4 mln ABŞ dolları artmışdır.

Xarici fəaliyyətin cögrafi genislənməsi istigamətində Azərbaycanda daha miqyaslı fəaliyyət Dövlət Neft Sirkəti tərəfindən həyata keçirilir. ARDNS xarici investisiyaları və investisiyalasdırılan obyektləri yaxın qonsu ölkləri və üzaq region ölkələrini əhatə edir.
Bü göstəricilər ARDNS beynəlxalq əhəmiyyətli transmilli sirkətə cevrilmə prosesini xarakterizə edir.

Xarici investisiyaların cəlb edilməsi və ixracın təşviqi üçün mühüm zəmin əlverişli biznes və investisiya mühitinin, müvafiq normativ-hüquqi bazanın və institusional çərçivənin mövcudluğudur.

Azərbaycan Respublikası milli iqtisadiyyatın artım templərinə görə dünyada ilk sıraları tutmuşdır. Azərbaycanda makroiqtisadi göstəricilərin sürətli və davamlı artımı nəticəsində əldə edilən iqtisadi sabitlik potensial xarici investorların və digər yatırımcıların ölkəyə investisiya qoyulması üçün əlverişli şərait yaratmışdır. Belə ki, 2003-cü illə müqayisədə 2017-cü ildə ÜDM 9,8 dəfə, dövlət büdcəsinin gəlirləri isə təxminən 13,5 dəfə artmış və 16516.7 mln manata çatmışdır.

## Ədəbiyyat

**1.** Azərbaycanın statistik göstəriciləri 2017
**2.** Azərbaycan rəqəmlərdə 2018
**3.** Azərbaycan Respublikasının «İnvestisiya haqqında» Qanunu. 13 yanvar 1995-ci il № 952, 23 mart 2001-ci il tarixli, 103-IIQD nömrəli; 5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 23 aprel 2002-ci il tarixli, 311-IIQD nömrəli; 30 aprel 2002-ci il tarixli, 317-IIQD nömrəli; 6 dekabr 2002-ci il tarixli, 399-IIQD nömrəli; 9 mart 2004-cü il tarixli, 603-IIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə

**4.** John Bates Clark. The Distribution of Wealth: A Theory of Wages, Interest and Profits. New York: Macmillan, 1908, 254 p.
**5.** J.Hirshleifer. Investment Decision under Uncertainty: Choice-Theoretic Approaches. «Quarterly Journal of Economics», 1965. Vol. 79, N 4. Nov. p. 509-536
**6.** Fisher I. The nature of capital and income. New York, The Macmillan Company, 1906, 427 p.
**7.** Харрод Р. К теории экономической динамики. Новые выводы экономической теории и их применение в экономической политике // Классики Кейнсианства. М.: Экономика, 1997, т.1, с.39-194

## INVESTMENT POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AND A MECHANISM FOR ITS IMPLEMENTATION

**T.R.Aghayeva**

**SUMMARY**

This article focuses on the dynamics, structure and size of foreign investment in the oil sector of Azeri economy. The impact of foreign investment on the growth of country's gross domestic product is shown.

## ИНВЕСТИЦИОННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И МЕХАНИЗМ ЕЕ РЕАЛИЗАЦИИ

**Т.Р.Агаева**

**РЕЗЮМЕ**

В статье исследуется динамика, структура и размеры иностранных инвестиций, привлеченных в нефтяной сектор экономики Азербайджана. Показано влияние иностранных инвестиций на рост валового внутреннего продукта.

*Məqalə redaksiyaya 5 aprel 2019 tarixində daxil olmuş, 13 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 347.44

# ПРОБЛЕМЫ ЗАЩИТЫ ИМУЩЕСТВЕННЫХ ПРАВ СУБЪЕКТА ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**А.И.Аббаслы**
Бакинский Государственный Университет
Баку, ул. Академика Захида Халилова 23
e-mail: ayselabbasli@yahoo.com

***Açar sözlər:*** sahibkarlıq, mülkiyyət hüququ, ipoteka, daşınar əmlak, daşınmaz əmlak
***Key words:*** entrepreneurship, property right, mortgage, movable property, immovable property
***Ключевые слова:*** предпринимательство, право собственности, ипотека, движимое имущество, недвижимое имущество

Особенностью гражданско-правовой защиты, отличающей ее от защиты прав в целом, является то, что ее способы и механизмы закреплены в гражданском законодательстве и направлены на защиту гражданских прав участников гражданского оборота, в том числе и субъектов предпринимательской деятельности.

Гражданско-правовая защита отличается и от гражданско-правовой судебной защиты гражданских прав, поскольку последняя представляет собой один из видов юрисдикционной формы защиты, осуществляемой компетентными судебными органами [3, с. 63].

Гражданско-правовая защита прав и законных интересов субъектов предпринимательской деятельности представляет собой правовой аспект охраны гражданских прав, состоящий из комплекса правовых мер, предусмотренных гражданским законодательством, и направленных на защиту имущественных и неимущественных прав субъектов предпринимательской деятельности, носящий как материальный, так и процессуальный характер [10, с. 13].

Непосредственным предметом гражданско-правовой защиты прав и законных интересов субъектов предпринимательской деятельности являются конкретные субъективные права и законные интересы.

Согласно ст. 43.1 ГК АР, юридические лица (субъекты предпринимательской деятельности) могут от своего имени приобретать и осуществлять имущественные и личные неимущественные права. Данное положение можно применить и к индивидуальным предпринимателям. Для каждого вида субъектов предпринимательской деятельности существуют определенные особенности в осуществлении тех или иных прав.

Под субъективным правом в юридической литературе понимается принадлежащая управомоченному лицу мера возможного поведения, обеспеченная государством [11, с. 32]. Все права, присущие субъектам предпринимательской деятельности, можно разделить по их содержанию, воспользовавшись общепринятой для гражданских прав классификацией и разграничением, указанным в законодательстве, на две большие группы - имущественные и неимущественные права. Без какой-либо из этих двух категорий прав осуществление предпринимательской деятельности будет

не только неполным, но вполне вероятно, что и невозможным, от того важна их эффективная гражданско-правовая защита, особенно в период становления нормальных рыночных отношений. Естественно, каждую из этих двух категорий, в свою очередь, можно разделить на более мелкие. Данная классификация представляется открытой для возможных изменений в составе прав предпринимателей и, соответственно, наиболее приемлемой [10, с. 19].

Имущественные права, в силу их неоднородности и большого объема, невозможно отнести только к абсолютным или только к относительным правам. Например, право собственности является абсолютным, поскольку наличествует неопределенный круг обязанных лиц, которые должны воздерживаться от нарушения права собственности управомоченного лица.

Также следует отметить, что имущественные и неимущественные права субъектов предпринимательской деятельности несут некоторую степень индивидуализации своих обладателей, потому что определенная совокупность имущественных и неимущественных прав может принадлежать только определенному субъекту предпринимательства.

Существуют различные критерии классификации имущественных прав [10].

Согласно ст. 158 ГК АР имущественными правами являются:

- право собственности;
- залоговое право;
- право пользования имуществом;
- сервитуты.

С точки зрения предпринимательской деятельности основное значение имеют первые два вида.

Право собственности является одной из предпосылок формирования и развития рыночных отношений. Правоотношения собственности играли и всегда будут играть важную роль в эпоху рыночного хозяйства.

Объекты права собственности могут быть самыми разнообразными. Ни в какой иной области права не обнаруживается столь большого количества различий между отдельными правовыми системами, как в вопросе об «объектах права собственности». В указанном контексте основные различия наблюдаются в типологии, т.е. классификации, необходимой для умозрительного манипулирования сложными явлениями действительности (к каковым принадлежит и право собственности) [9, с. 113]. Это не случайно, поскольку различная природа имуществ обусловливает потребность в различном их регулировании. Иначе говоря, особенности правового режима объектов права собственности зиждутся на их различной природе.

Некоторые правовые системы в качестве объекта права собственности признают исключительно материальные предметы, то есть вещи, что имеет, прежде всего, исторические причины. Очевидно, что на протяжении веков имущественные блага ассоциировались исключительно с материальными предметами. Поэтому все правовые системы изначально признавали объектами права собственности только вещи. Более того, право собственности было частью вещного права. Этот подход в континентальной правовой системе особенно усилился после Великой французской революции, объявившей вне закона феодальные порядки, в том числе множественность прав собственности [8, с. 17].

Отказ от признания в качестве объекта права собственности только вещей не просто свершившийся факт и текущая реальность либо господствующий доктринальный принцип. Это концепция, признанная на международном уровне, более того, подтвержденная надгосударственными судебными решениями.

Так, ст. 1 Протокола № 1 к Европейской Конвенции о защите прав человека и основных свобод от 1950 года (сам Протокол № 1 от 1952 года), к которой присоединилась и АР (Закон от 25 декабря 2001 года) [2], гарантирует каждому право на уважение имущественных прав. Европейский Суд по правам человека впоследствии уточнил понятие «имущество», подчеркнув, что «по существу статья 1 Протокола гарантирует право собственности» [12, с. 3].

В соответствии с толкованием Европейского Суда по правам человека право собственности распространяется на материальные вещи (недвижимые и движимые вещи), на нематериальные активы (акции, облигации) и на требования, определенные и исполнимые (судебное решение, вытекающее из права на заработную плату, пенсию и т.д.) [6, с. 51; 7, с. 266-287].

ГК АР в принципе наряду с терминами «недвижимая вещь» и «движимая вещь» часто использует также термины «недвижимое имущество» и «движимое имущество». Как мы уже указывали, согласно ст. 135.2 понятие имущество охватывает как вещи, так и нематериальные имущественные блага. Поэтому вполне можно допустить, что законодатель использует приведенные термины как стопроцентные синонимы. С точки зрения законодательной техники, это, конечно же, неправильно. Однако, такое дублирование трудно принять за то, что якобы ГК АР все же соответствует Конституции АР, в которой также используются понятия недвижимого и движимого имущества. Во-первых, если бы законодатель имел такое намерение, он бы все же не использовал параллельно термины «недвижимая вещь» и «движимая вещь». Во-вторых, еще раз повторяем, что ГК АР рассматривает нематериальные имущественные блага как объекты права собственности, не относящиеся ни к движимому, ни к недвижимому имуществу. Поэтому следует все же признать, что авторы ГК АР под недвижимым и движимым имуществом подразумевают все же вещи, полагая, что ст. 135.4 ГК однозначно свидетельствует о вещном характере недвижимого и движимого имущества.

Вопрос защиты права собственности представляет собой важный аспект правового режима объектов права собственности. Конечно, не все способы защиты права собственности могут однозначно применяться к нематериальным объектам права собственности. Хотя бы потому, что касательно таких объектов не всегда существует элемент владения, тем более, может иметь место его физическое лишение владения. Тем не менее, по аналогии и в случае применимости право собственности на нематериальные имущественные блага может защищаться так же, как охраняется право собственности на вещи.

Имущественные права на имущество могут принадлежать лицам, не являющимся собственниками такого имущества. Переход права собственности на имущество к другому лицу не влечет прекращения иных имущественных прав на это имущество, при условии, что приобретающее лицо является добросовестным в отношении обременения имущества. Имущественные права лица, не являющегося собственником, защищаются от нарушения любым лицом, в том числе собственником.

Согласно ст. 194.1 ГК АР владелец требования (кредитор) вправе без согласия должника уступить требование третьему лицу при условии, что такая уступка не противоречит существу обязательства, соглашению с должником или законодательству. Следовательно, объектом права собственности является только такое обязательственное право, отчуждение которого со стороны кредитора (собственника права) не противоречит: 1) существу обязательства; 2) соглашению с должником; 3) законодательству.

Согласно ст. 135.4 ГК АР вещи могут быть недвижимыми и движимыми. Следовательно, ГК АР сузил установленный Конституцией АР круг объектов права собственности. Поскольку в ГК АР речь идет только о движимых и недвижимых *вещах*, то получается, что нематериальные имущественные блага не являются ни недвижимыми, ни движимыми, то есть остаются за пределами объектов права собственности.

Обобщая вышеуказанное, можно отметить, что объектами права собственности в АР являются: 1) недвижимые вещи; 2) движимые вещи; 3) нематериальные имущественные блага. При этом движимые вещи и нематериальные имущественные блага в целях соответствия текущему законодательству АР будут рассматриваться нами как движимое имущество.

В текущей же ситуации в целях соответствия требованиям гражданского оборота мы предлагаем считать, что Конституция АР под недвижимым и движимым имуществом имела в виду не только вещи, но и нематериальные имущественные блага. Отсюда классификация ГК АР, согласно которой нематериальные имущественные блага не относятся ни к недвижимому, ни движимому имуществу, неконституционна и должна быть пересмотрена.

Еще одним важным правом для субъектов предпринимательской деятельности является залоговое право. Основными правовыми актами, регулирующими залоговые отношения, являются Гражданский Кодекс АР и Закон «Об ипотеке».

Сущность залога состоит в том, что кредитор по обеспеченному залогом обязательству (залогодержатель) имеет право в случае неисполнения должником этого обязательства получить удовлетворение из стоимости заложенного имущества преимущественно перед другими кредиторами лица, которому принадлежит это имущество (залогодателя), за изъятиями, установленными законом.

Классификацию видов залога по объекту залога можно провести по нижеследующим основаниям: 1) ипотека; 2) заклад; 3) залог вещей в ломбарде; 4) залог прав; 5) залог денежных средств; 6) стабильный залог; 7) залог товаров в обороте и т.д.

Предметом залога могут быть всякие вещи и требования, за исключением вещей, которые являются предметом ипотеки, вещей, изъятых из оборота, требований, неразрывно связанных с личностью кредитора, в частности требований об алиментах, о возмещении вреда, причиненного жизни или здоровью, и иных прав, уступка которых другому лицу запрещена законом (ст. 276.1. ГК).

Ипотекой является ограничение вещных прав на недвижимые вещи, а также на движимые вещи, подлежащие регистрации в официальном реестре (ст. 269.4. ГК). Ипотека по римскому праву обладала акцессорным характером: она была связана с определенным обязательством, в обеспечение которого устанавливалась. Рост по-

требности в ипотечном кредите заставил придать ипотеке большую прочность, допустить установление ипотеки, существующей независимо от обязательства, которое она обеспечивает, и не теряющей силу от недействительности последнего [5, с. 45-47].

Участниками залоговых отношений являются залогодержатель и залогодатель. Залогодержателем является лицо, которому в залог передается имущество. Это кредитор по основному обязательству.

Залогодателем выступает лицо, предоставившее имущество в залог. Как правило, в качестве залогодателя имущества выступает должник по обеспеченному залогом обязательству. Гражданский Кодекс не исключает возможности установления залога для обеспечения обязательства и третьим лицом. Значит, залогодателем имущества может быть как сам должник, так и третье лицо. Однако независимо от того, кто является залогодателем (сам должник или третье лицо) вещь передаваемая в залог, должна принадлежать ему на праве собственности [4, с. 201-205].

В качестве залогодателя может выступать как должник по основному обязательству, так и третье лицо. Поскольку залог имущества предполагает принципиальную возможность его продажи, то устанавливать залог может лицо, у которого есть право распоряжения соответствующим имуществом

Общим требованием для залогодателя является наличие у него дееспособности, необходимой для отчуждения вещи.

Залогодержателем может являться только кредитор по обеспеченному залогом (основному) обязательству. На это прямо указывает ст. 272 в части первой ГК АР. Совпадение в одном лице кредитора по основному обязательству, обеспеченному залогом, и залогодержателя вытекает из самой конструкции залога как способа обеспечения исполнения обязательства.

Но несмотря на действующий механизм, в правовом регулировании этой сферы существуют некоторые недостатки. Это касается в первую очередь залога земельных участков. Так, согласно ст. 7.2 Закона «Об ипотеке» здания, строения и установки или другие предметы недвижимости закладываются в ипотеку только с земельным участком, на котором они расположены или который обеспечивает их деятельность. Данная норма выглядит императивной и на первый взгляд не допускает заложения здания, строения и установки или других предметов недвижимости без земельного участка, на котором они расположены или который обеспечивает их деятельность.

Но второе предложение этой статьи ставит под сомнение эту императивность: в случае, если на предмет недвижимости обращается взыскание, лицо, приобретшее его, приобретает право на земельный участок, на котором расположен предмет, принадлежавший прежнему владельцу указанного предмета недвижимости.

Если, как уже говорилось, согласно первому предложению заложение земельного участка при таких случаях обязательно, то логично подумать что лицо, приобретшее предмет недвижимости, на которую обращается взыскание, может приобрести только право на собственность на земельный участок, на котором расположен этот предмет. А второе предложение допускает приобретение и иных прав. Отсюда явное противоречие между этими нормами.

На практике это положение законодательства вызывает некоторые проблемы. Дело в том что, несмотря на императивность вышеуказанного положения Закона, практически во многих случаях недвижимость закладывается в ипотеку без земельного участка. Этому способствует еще одна особенность гражданского законодательства АР. Так, право собственности на земельный участок автоматически не распространяется на предметы недвижимости, находящиеся над ним. На практике много зданий, строений и установок, которые, будучи объектом собственности одного лица, находятся на являющемся собственностью другого лица (как правило государства и муниципалитетов) земельном участке, на котором они расположены или который обеспечивает их деятельность. Как правило, собственник недвижимости в таких случаях имеет только право на пользование этим земельным участком.

В таком случае заложение такой недвижимости требует участия в оформлении ипотеки и собственника земельного участка, что практически выглядит невозможным.

Думается, что исходя из вышеуказанных обстоятельств отдельные предложения ст. 7.2 Закона «Об ипотеке» нужно толковать следующим образом:

- если недвижимость и земельных участок, на котором она расположена или который обеспечивает их деятельность, находятся в собственности одного и того же лица, то они закладываются в ипотеку вместе;

- если собственники – разные лица, то в ипотеку закладываются право собственности на здания, строения и установки и право на использование (или другие вещные права, которые имеет собственник недвижимости над земельным участком). Последнее право после взыскания переходит к лицу, которое приобрело заложенный предмет.

Именно такой позиции придерживается законодательство многих стран. Так, согласно ст. 69 Федерального Закона РФ "Об ипотеке (залоге недвижимости), если залогодатель владеет земельным участком на праве аренды, при ипотеке находящихся на данном земельном участке зданий или сооружений заложенным считается право аренды земельного участка.

Что касается залога движимых вещей, такая практика пока не слишком распространена ввиду их нестабильности и отсутствия механизма взыскания (исключение составляют некоторые виды движимых вещей: транспортные средства, денежные средства, блокированные в банковских счетах, драгоценные камни и.д.

Защита права собственности в АР строится вокруг традиционных для континентальной правовой системы двух отличных друг от друга исков: виндикационного, позволяющего собственнику восстановить свое владение в противность всякому несобственнику, владеющему его вещью, и негаторного, в котором собственник противостоит всякому, кто препятствует осуществлению им своего права.

Под способом защиты принято понимать предусмотренные законом материально-правовые меры принудительного характера, посредством которых производится восстановление (признание) нарушенных (оспариваемых) прав и воздействие на правонарушителя [1, с. 134].

Основной особенностью вещно-правовых способов является то, что они направлены на защиту непосредственно самого права собственности и других вещных

прав, отражают их абсолютный характер. Данные способы защиты закреплены в ст. 157 ГК и включают в себя иск об истребовании имущества из чужого незаконного владения (виндикационный иск) и иск об устранении нарушений, не соединенных с лишением владения (негаторный иск).

Виндикационный иск (*rei vindicatio*) своими корнями уходит в римское право. Собственник вправе требовать признания его права собственности (ст. 157.1 ГК АР). Собственник вправе истребовать свое имущество из чужого незаконного владения (ст. 157.2 ГК АР). При истребовании имущества из чужого незаконного владения собственник вправе также потребовать от лица, которое знало или должно было знать, что его владение незаконно (недобросовестный владелец), возврата или возмещения всех доходов, которые это лицо извлекло или должно было извлечь за все время владения; а от добросовестного владельца – возврата или возмещения всех доходов, которые он извлек или должен был извлечь со времени, когда узнал или должен был узнать о незаконности владения или получил судебное извещение по иску собственника о возврате имущества. Помимо этого, недобросовестный владелец должен возместить собственнику имущества весь ущерб, связанный с нахождением у него имущества. Добросовестный же владелец при возмещении не обязан возмещать пропавшее или поврежденное имущество, в том числе ущерб в связи с приобретенным от имущества доходом (ст. 157.5 ГК АР). Владелец, как добросовестный, так и недобросовестный, в свою очередь вправе требовать от собственника возмещения произведенных им необходимых затрат на имущество с того времени, с которого собственнику причитаются доходы от имущества (ст. 157.6 ГК АР). Добросовестный владелец вправе оставить за собой произведенные им улучшения, если они могут быть отделены без повреждения имущества. Если такое отделение улучшений невозможно, добросовестный владелец имеет право требовать возмещения произведенных на улучшение затрат, но не свыше размера увеличения стоимости имущества (ст. 157.7 ГК АР).

Негаторный иск (*actio negatoria*) также ведет свое начало из римского права. В соответствии со ст. 157.4 ГК АР в случае совершения посягательства на собственность или создания иных препятствий без получения или лишения вещи, собственник вправе потребовать от посягающего положить конец таким действиям. При продолжении таких действий собственник вправе потребовать их прекращения через суд.

Вещно-правовые способы защиты следует отличать от противопоставляемых им обязательственно-правовым способам, которые защищают вещные права не непосредственно, а косвенно, в конечном счете, и носят относительный характер, поскольку между управомоченным лицом и обязанным лицом должны быть договорные либо иные обязательственные отношения. К ним можно отнести иск о возврате вещей, предоставленных в пользование по договору, иски о возмещении убытков, причинённых неисполнением или ненадлежащим исполнением договоров и т. п.

Итак, особенностью гражданско-правовой защиты, отличающей ее от защиты прав в целом, является то, что ее способы и механизмы закреплены в гражданском законодательстве и направлены на защиту гражданских прав участников гражданского оборота, в том числе и субъектов предпринимательской деятельности.

Последнее предложение ст. 164 ГК АР выражено настолько неудачно, что его смысл непонятен: «Если лишение владения в отношении фактического владельца или его правопредшественника является ошибочным и владение приобретено в год, предшествующий лишению, иск исключается». В любом случае, остается непонятным, почему владелец лишается права на иск только потому, что его лишили владения на следующий год после начала владения на основе того, что его не признают законным владельцем. По сути, это сводит на нет сам институт защиты владения.

Согласно ст. 157.8 ГК АР, права собственности принадлежат также лицу, хотя и не являющемуся собственником, но владеющему имуществом, по основаниям, предусмотренным настоящим Кодексом или договором». Конечно, приведенное положение выражено очень неудачно: права собственности могут принадлежать только собственнику, и никому другому. Авторы этого положения явно хотели выразить другую мысль: владелец вещи может пользоваться виндикационным и негаторным исками точно так же, как и собственник. Иначе говоря, законодательство АР еще раз подтвердило, что защищает не только право собственности, но и владение.

В настоящее время залог, особенно как самый устойчивый его вид ипотека играет, очень важную роль в гражданском обороте, особенно кредитных организаций. Кредитные организации при выдаче кредитов широко применяют именно ипотеку недвижимого имущества ввиду ее устойчивости и механизма реализации. Причем это касается не только сугубо ипотечных, но и предпринимательских и потребительских кредитов. Для этого в нашей республике существует и сильная законодательная база.

**Литература**


1. Əliyev V.M. Sahibkarlıq fəaliyyəti subyektlərinin mülkiyyət və digər əşya hüquqlarının müdafiəsi // Qanun, 2009, № 01 (177), s. 129-136
2. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Qanunu. http://e-qanun.az/framework/1405
3. Брагинский М.И. Судебная защита гражданских прав / Комментарий части первой Гражданского кодекса РФ / Под ред. М.И.Брагинского. М.: Фирма Спарк, 1996, 597 с.
4. Гёюшов Р.А. Участники залогового правоотношения / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 10-cu buraxılış. Bakı: Adiloqlu, 2004, s. 201-205
5. Геюшов Р.А. Право залога в современном гражданском законодательстве Азербайджанской Республики / Бюллетень нотариальной практики, 2005, №1, с. 45-47
6. Голубок С. Уважение частной собственности: страсбургский подход // Корпоративный юрист, 2006, № 11, с. 51-53
7. Комментарий к Конвенции о защите прав человека и основных свобод и практике ее применения / Под общ. ред. В.А.Туманова и Л.М.Энтина. М.: НОРМА, 2002, 336 с.

8. Мамедов Ф.Ф. Теоретические и практические аспекты правового режима объектов права собственности: Автореферат дис. ... д-ра философии по праву. Баку, 2014, 28 с.
9. Маттеи У., Суханов Е.А. Основные положения права собственности. М.: Юристъ, 1999, 384 с.
10. Миникаев С.Р. Гражданско-правовая защита прав и законных интересов субъектов предпринимательской деятельности: Автореф. дисс. … канд. юрид. наук. М., 2005, 26 с.
11. Общая теория права и государств. Учебник / Под ред. В.В.Лазарева. М.: Юрист, 1994, 457 с.
12. Прецеденты Европейского Суда по правам человека. СПб., 2004, 450 с.

## SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTİNİN ƏMLAK HÜQUQLARININ MÜDAFİƏSİ PROBLEMLƏRİ

**A.İ.Abbaslı**

### XÜLASƏ

Məqalədə sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak hüquqlarının müdafiəsi problemləri nəzərdən keçirilmişdir. Müəllif göstərir ki, sahibkarlıq fəaliyyəti subyektlərinin mülki-hüquqi müdafiəsinin bilavasitə predmetini konkret subyektiv hüquqlar və qanuni maraqlar təşkil edir. Həmçinin məqalədə "İpoteka haqqında" Azərbaycan Respublikası qanununun 7.2-ci maddəsinin müddəalarının yeni formada ifadə olunmasının zəruriliyi əsaslandırılır.

## PROBLEMS OF PROTECTION OF PROPERTY RIGHTS OF ENTREPRENEUR

**A.I.Abbasli**

### SUMMARY

Problems of protection of property rights of enterpreneurs are considered in this article. The author shows that concrete subjective rights and legal interests are the objects of protection of property rights of entrepreneurs. It is also shown that the Article 7.2 of Mortgage Law of Azerbaijan should be revised and reformulated.

*Məqalə redaksiyaya 12 aprel 2019 tarixində daxil olmuş, 14 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2019 - № 51**

UOT № 338.45.69

# TİKİNTİDƏ RƏQABƏT PROSESLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**N.Ə.Ramazanlı**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: revan622@mail.ru

***Açar sözlər:*** tikinti sənayesi, rəqabət, innovasiya tərəfdaşlığı, çoxsaylı meyarlar, iqtisadi təhlil
***Keywords:*** construction industry, competition, innovative partnership, multiple criteria, economic analysis
***Ключевые слова:*** строительная индустрия, конкуренция, инновационное партнерство, множественные критерии, экономический анализ

## Giriş

Müasir dövrdə dünya ölkələrinin iqtisadi, siyasi və sosial vəziyyətinin sürətlə dəyişdiyi bir şəraitdə tikinti biznesinin yeni texnologiyalarla aparılması, tikinti sferasının səmərəliliyi, rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, biznes proseslərinin optimallaşdırılması, həmçinin tikinti obyektləri ilə bağlı ticarət tenderlərində iştirak edən və qazanan kadrların hazırlanmasının olduqca mühüm əhəmiyyəti vardır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, tikinti şirkətlərinin rəqabətqabiliyyətinin yüksəldilməsi, həmin şirkətlərin tender ticarətində iştirakının idarə edilməsinin təkmilləşdirilməsi və optimallaşdırılması ilə bağlı mövzuların araşdırılması da xüsusi aktuallıq kəsb edir. Tikinti obyektlərinin ticarət müsabiqələrində elə bir tərəfin iştirakı məqsədəuyğun hesab edilir ki, həmin tərəfin sənədlərinin inteqrasiya edilmiş qiymətləndirilməsi müsabiqənin sənədləşdirmə meyarlarına uyğun olsun. Belə bir qiymətləndirmə riyazi üsullarla aparılır və ən yaxşı üsul hesab edilir.

## Rəqabət proseslərinin tənzimlənməsinə çoxmeyarlı yanaşma

Tenderi təşkil edən tərəf üçün tədarükçünün iqtisadi cəhətdən daha sərfəli olması əsas vəzifə hesab olunur. Bu vəzifə çox meyarlıdır və bu səbəbdən də o qədər də sadə olmayan iqtisadi-riyazi modellərin hazırlanmasını, problemlərin həllinə adekvat olan riyazi üsullardan istifadə edilməsini tələb edir. Çox meyarlı üsuldan istifadə etməklə həmin vəzifənin həlli üçün sinergetik effektlərin əldə edilməsi tələb olunur [1].

Çox meyarlı yanaşmada təkliflərin bəyan edilməsi və müsabiqələr formatında tikinti məhsullarının reallaşdırılması həyata keçirilir. Auksionlar üçün hər şey daha sadədir - qiymətləndirmənin yeganə kriteriyası müqavilənin dəyəridir.

Tenderlərdə qalib gəlməyi qarşısına məqsəd qoyan tikinti müəssisəsi ancaq öz məhsulunun yüksək rəqabətqabiliyyətli olmasına güvənməli, "meyarlar dəhlizindən" keçməlidir. "Meyarlar dəhlizi" bərabər səviyyəli optimallaşdırma, kompromislər, kriteriyaların ideal dönüş məqamından məcmu yayınmalara qədər olan məsafənin müəyyənləşdirilməsi tədbirlərinin həyata keçirilməsini əhatə edir.

Tikinti müəssisəsinin resursların tədarükçüsü kimi bazar konyunkturasında qiymətləndirilməsi adətən çox amilli proses kimi xarakterizə edilir və müvafiq olaraq qiymətləndrmədə müxtəlif göstəricilərdən istifadə edilir.

Deyilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətlilik-ümumiyyətlə nisbi göstəricidir, fəaliyyəti qiymətləndirilən müəssisənin göstəricilərinin digər müəssisələrin göstəriciləri ilə müqayisə edilmədən müəyyən edilə bilməz. İlkin məlumatlar qismində səndləşdirmədə tenderlərin nəticələrinin qiymətləndirilməsi göstəricilərindən istifadə edilir. Hesablamalar nəticəsində hansı tədarükçünün daha rəqabətqabiliyyətli olması məlum olur. Müvafiq olaraq həmin göstərici əsasında sifarişç müqavilə bağlayır. Əgər birinci və ikinci yerləri tutan tədarükçülərin göstəriciləri bir-birindən az fərqlənirsə, o zaman müsabiqə planlaşdırmasında daha bir məsələnin həll edilməsi tələb olunur. Məsələnin mahiyyəti təqdim edilmiş sifariş ərizələrindən daha yaxşısının, rəqabətqabiliyyətlisinin seçilməsidir.

Çoxmeyyarlı üsul araşdırılan müəssisələrin digər, alternativ müəssisələrə nisbətən rəqabət qabiliyyətinin hansı vəziyyətdə olmasını izləməyə imkan yaradır.

Bazar situasiyasının təhlili və rəqiblərin fəaliyyətinin qiymətləndirilməsi vasitəsi ilə rəqabətqabiliyyətini idarə etmək və gücləndirmək mümkündür. Rəqabət üstünlüklərinin gücləndirilməsi tikinti müəssisəsinin ümumi rəqabət strategiyasının hazırlanması ilə nail olunur. Həmin strategiya gələcəkdə rəqiblərlə müqayisədə daha səmərəli fəaliyyət göstərməyə imkan yaradır. Bütünlükdə bazar şəraitini öyrənərək, tikinti müəssisələri öz fəaliyyətlərinin strateji istiqamətlərini də təsbit edirlər. Həmin strateji istiqamətlər daha yüksək rəqabət üstünlüklərinə nail olunmasına xidmət edir.

Burada müəyyən ehtimallar da vardır ki, bazarda tələbi öz xeyrinə formalaşdırması ona kömək edə bilər. Belə bir kontekstdə xüsusi olaraq qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətinin və səmərəliliyin yüksəlməsi heç də eyni anlayışlar deyildir. Səmərəlilik daha çox araşdırılmış göstərici anlayışıdır. Səmərəlilik müəssisələrin maliyyə vəziyyəti ilə bağlıdır, rəqabətqabiliyyətlilik isə çox meyarlı anlayışdır.

Burada müxtəlif və bir-birindən fərqli müqayisə edilən bazalardan istifadə edilir: səmərəlilik halında ötən mərhələlərin göstəriciləri, rəqabətqabiliyyətlilik də isə rəqiblərin analoji göstəricilərindən istifadə edilir [2,3]. Tikinti müəssisəsinin rəqabətqabiliyyəti həmin müəssisənin məhsulunun nə qədər rəqabətqabiliyyətli olmasından asılıdır. Sonuncunun uğurlu reallaşdırılması üçün isə onun birbaşa və proporsional bazar mövqeyinə uyğun reallaşdırılması tələb olunur. Məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsi onun sifarişçi üçün nə qədər dəyərli olmasının təsbit edilməsində öz əksini tapır. Tikinti bazarında bir-biri ilə rəqabət aparan müəssisələrin iqtisadi maraqları tam və yaxud qismən bir-birilə üst-üstə düşür. Beton zavodu tikinti təhlükəsizliyinin ekspertizasını aparan injinirinq müəssisəsinə rəqib deyil. Ancaq şəhərin kənarında elitalar üçün nəzərdə tutulmuş göydələnləri inşa edən tikinti şirkəti şəhərdən 20 dəqiqəlik məsafədə yerləşən kortejlər inşa edən şirkətin rəqibidir.

İdarəetmə qərarları müəssisə və təşkilatların istənilən fəaliyyət sferası ilə bağlı qəbul edilə bilər: rəqabətqabiliyyətinin səviyyəsinin idarəedilməsi; resursların potensial tədarükçülərinin idarə edilməsi; kadr potensialının idarə edilməsi; maliyyənin idarəedilməsi; kommersiya fəaliyyətinin idarə edilməsi; marketinq xidmətinin idarəedilməsi və s. Bu və ya digər idarəetmə qərarı qəbul edilərkən, müəssisə və təşkilatların rəhbəri onun optimal olmasında maraqlıdır, yəni ehtimal edilən bütün əlçatan alternativlərdən daha yaxşısının seçilməsi xüsusi əhəmiyyət kəsb edir.

Tikinti müəssisəsinin rəqabətqabiliyyətliliyinin, müəssisələrin fəaliyyətinin tender sövdələşmələrində qiymətləndirilməsi ümumi araşdırma müstəvisində nəzərdən keçirilə bilər. Bu isə, öz növbəsində, müəssisənin rəqabət potensialı kimi çıxış edir. Ekspert qruplarının tender sövdələşmələri praktikasında qiymətləndirmələrdə iştirak edənlər müəssisənin tender rəqabətqabiliyyətliyi göstəricilərinə xüsusi əhəmiyyət verirlər. Rəqabətqabiliyyətlilik qiymətləndirilərkən həmin komponent şifahi xarakter daşıyır. Rəqabətqabiliyyətinin yüksəldilməsi, tikinti müəssisələrin tenderi qazanması onun rəqabət potensialının idarə edilməsinə əsasən əldə edilir.

Beləliklə, tikinti müəssisəsi üçün biznesin strukturuna daha çevik adaptasiya ola bilən strukturun mövcudluğu xüsusi əhəmiyyət kəsb edir. Sözügedən strukturun dəyişkən xarici mühitlə permanent əlaqəsi olmalıdır. Burada müəssisələrə təsir göstərən amillərə təsir göstərilməsi imkanının mövcudluğu xüsusi önəm daşıyır. Həmin amillər isə rəqabətqabiliyyətliyə, kommersiya uğuruna, nəzərdən keçirilən müəssisənin tender sövdələşmələrindəki iştirakı və xarici bazarlardakı sifrişçilərin axtarılmasına təsir göstərir. Tikinti müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətlərindən biri də innovasiya tərəfdaşlığının inkişaf etdirilməsidir, çünki son tikinti məhsulunun yaradılması tikinti sferasının bir çox subyektlərinin müştərək səyləri ilə mümkündür.

İnnovasiya tərəfdaşlığını dövlətin, biznesin elmi tədqiqat müəssisələrin maraqlarını təmsil edən müəssisələrin, investisiya fondlarının və bazar infrastrukturunun digər təşkilatlarının, həmçinin iqtisadiyyatın iki və daha çox subyektləri arasında əməkdaşlıq kimi nəzərdən keçirmək olar [4,5]. Qeyd etmək lazımdır ki, həmin müəssisə və təşkilatlar məsuliyyətin, risklərin və resursların bölüşdürülməsinə razılaşmışlar. Bu resurslar məqsədlər sisteminə, qarşılıqlı sərfəli istiqamətlər üzrə layihələrin işlənilməsi, məhsuldar texnoloji, idarəetmə, təşkilati innovasiyaların buraxılan məhsulların, müvafiq olaraq müəssisələrin (tərəfdaşların) rəqabətqabiliyyətinin yüksəldilməsi üçün tələb olunur.

## Tikinti və tikinti materialları sənayesində innovasiya tərəfdaşlığının istiqamətləri

İnnovasiya tərəfdaşlığının köməyi ilə tikinti sektorunda rəqabətqabiliyyətinin yüksəldilməsi üçün aşağıdakı vəzifələri həll etmək mümkündür: rəqabət qüvvələri arasında tarazlığın yaranması, rəqabətin stimullaşdırıcı rolunun itirilməməsi; problemsiz ünsiyyət mübadiləsinin həyata keçirilməsi üçün şəraitin yaradılması.

İnnovasiya tərəfdaşlığının yaradılması istehsalın böyüməsinin obyektiv nəticəsidir, istehsal əlaqələrinin miqyasın genişləndirilməsi və tikinti sektorunda kapitalın təmərküzləşməsi baş verir.

Tərəfdaşlıq münasibətlərinin hər bir iştirakçısının rəqabət üstünlüyünün təmin edilməsi; müəssisələrin öz istehsal-bazar məqsədlərini reallaşdırmaları üçün daxili potensiallarının səfərbər edilməsi; tərəfdaş münasibətlərinin iştirakçıları arasında risklərin bölünməsi; əlavə innovasiya mənbələrinin araşdırılması.

İnvestisiyalı tikinti kompleksində innovasiya tərəfdaşlığının reallaşdırılması, həmçinin təşkilati iqtisadi tədbirlərin həyata keçirilməsi üçün əlavə investisiyalar tələb olunur ki, təfərdaşlıq münasibətləri formalaşdırılsın. Eyni zamanda bu tədbirlər investisiya-tikinti kompleksləri subyektlərinin innovasiya fəallığını da artırır, tərəfdaşlıqda iştirak edənlər arasında informasiya mübadiləsini təşkil edir.

Beləliklə, tikinti sferasında innovasiya tərəfdaşlığı bütün birliyin, eyni zamanda onun ayrı-ayrı iştirakçılarının maraqlarının daha etibarlı qorunmasına xidmət edir. Həmin

tərəflər aşağıdakılardır: investorlar - dövlət, bütün mülkiyyət formalarından ibarət sifarişçilər; vətəndaşlar; tikinti işlərinin icraçıları; podratçılar - tikinti qurğuları və konstruksiyalarını hazırlayanlar; təhsil, layihə, elmi-tədqiqat institutları; maliyyə, kredit-bank idarələri; vasitəçi, informasiya, reklam, konsaltinq, sığorta şirkətləri (Şəkil 1).

Yuxarıda deyilənlər əsasında belə bir qənaətə gəlmək olar ki, tikinti kompleksində innovasiya tərəfdaşlığı – investisiya-tikinti sferasının subyektləri, istehsal və bazar infrastrukturlarının bir-biri ilə qarşılıqlı əməkdaşlıqlarıdır.




Şəkil 1. Tikinti şirkətinin innovasiya tərəfdaşlığı tikinti məhsulunun rəqabətqabiliyyətinin yüksəldilməsinin əsas amili kimi (müəllif tərəfindən hazırlanmışdır)

Həmin əməkdaşlıq yeni texnologiyaların hazırlanması və tətbiqi, yeni materialların mənimsənilməsi və tətbiqi (əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş), istehsalın və idarəetmənin yeni üsul və metodlarının tətbiqi, son tikinti məhsulunun istehsal edilməsinə, o cümlədən elmi araşdırmaların nəticələrinin tətbiqinə xidmət edir. Bu zaman istehsal edilən məhsulun rəqabətqabiliyyətliliyi yüksəlir.

## Müasir tikinti sektorunda iqtisadi təhlilin aktual məsələləri

Qarşılıqlı əlaqə formaları onların yaradılması məqsədləri və fəaliyyət növündən asılıdır. Əsaslı tikinti sferasında seçim aşağıdakı amillərdən asılıdır: hər bir iştirakçı üçün müstəqil fəaliyyətin müəyyən həcminin zəruriliyi; sahə və ərazi maraqlarının tarazlaşdırılması, bunlar ümumi tikinti birliyi və onunla müştərək fəaliyyət göstərən tikinti fəaliyyətinin iştirakçıları üçün tələb olunur.

Nəzərə almaq lazımdır ki, belə bir asılılıq sahibkarlıq müəssisələrinin yerinə yetirdiyi işlərin həcmindən asılıdır. Konkret qarşılıqlı əlaqə formaları seçilərkən onun gələcək iştirakçıları öz maraqlarına uyğun daha optimal olanı, onlara idarəetmə və tənzimləyici təsirin göstərilməsi xüsusiyyətini də nəzərə alırlar. İnkişaf sistemi elə bir qərarlar kompleksidir ki, investisiya prosesinə məcmu halda təsir göstərir, onun səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəlməsinə, həmçinin tikinti müəssisələrinin rəqabətqabiliyyətinin yüksəlməsinə səbəb olur.

İqtisadi araşdırmalar sahəsində tərəqqinin davam etməsi riyazi üsul və modellərdən istifadə edilməsindən asılıdır. Ancaq indiki dövrdə keyfiyyət təhlilinin aparılması üstünlük təşkil edir. Bu isə onunla bağlıdır ki, keyfiyyət qanunauyğunluqlar hələ də yaxşı təsbit olunmayıb, iqtisadi modellərinin qurulması isə iqtisadi təzahür və proseslərin müəyyən hissələrini əhatə edir. Bu səbəbdən də bu və ya digər vəzifə ilə bağlı araşdırmalara kompleks yanaşma, seçilmiş sahədə bütün iqtisadi problemin tam olaraq əhatə edilməsini tələb edir.

Bazar iqtisadiyyatı maliyyə, əmək, əmtəə, texniki və digər resursların iqtisadi münasibətlərin bütün iştirakçıları arasında daha sərfəli bölgüsünün axtarılması üzərində qurulmuşdur. İndiki dövrdə qarşılıqlı əlaqələrin müəssisələrin daxilində və kənarda mürəkkəbləşməsi, çox saylı göstəricilərin, amillərin və məhdudiyyətlərin mövcudluğu, həmçinin rəqabətin sürətlə artması bu və ya digər şəraitlərdə xüsusi üsullardan istifadə etmədən fəaliyyət planının qurulmasını qeyri mümkün edir.

Yuxarıda da qeyd edildiyi kimi, bazar prosesi əmtəə və xidmətlərin alınması və satılmasına istiqamətlənmiş əməliyyatlar məcmusundan ibarətdir, məqsədi istehlak tələbinin təmin edilməsi və mənfəətin əldə edilməsidir. Ayrıca olaraq qeyd etmək lazımdır ki, ticarətlə yanaşı bir sıra digər fəaliyyət istiqamətləri də diqqəti cəlb edir: tədarük, istehsal, tikinti, investisiya və digər əlavə fəaliyyətlər. Bütün bu fəaliyyət kompleksi əsas və son məqsədə nail olunmasına xidmət edir-bun da ki, mənfəətin əldə olunmasıdır.

Burada eyni zamanda kommersiya risklərinin, ehtimal edilən nəticələrin və qəbul edilən qərarların necə nəticələnəcəyinin öncədən nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, investisiya-tikinti layihələrində risklər çox aspektli olması ilə seçilir. Ümumiyyətlə risk anlayışının məzmunu təhlükə və uğursuzluqların mövcud olması ehtimalıdır. Risk anlayışı ilk dəfə 1830-cu ildə sığorta əməliyyatları ilə bağlı işlədildi. Həmin vaxtdan sonra təxmini olaraq 100 il ərzində bu anlayışın müasir məzmunu formalaşdı. Ümumiyyətlə, risklərdən yayınmaq üçün, onların potensial təhlükədən real təhlükəyə çevrilməsinə yol verilməməsi üçün bir sıra qərarlar qəbul edilir, müvafiq olaraq tədbirlər həyata keçirilir.




Şəkil 2. Tikinti müəssisələrində iqtisadi təhlilin vəzifələri
(müəllif tərəfindən hazırlanmışdır)

Kommersiya qərarları qəbul edilərkən marketinq prinsiplərinin tətbiq edilməsi ilə yanaşı, riyazi modelləşdirmə də tətbiq edərək riskləri minimallaşdıraraq uğur qazanmaq olar. Müəssisələrin bazar fəaliyyətinin mühüm elementləri əmtəələrə tələbin, satış bazarının, mədaxil mənbələrinin, əmtəə tədarükçülərinin öyrənilməsi, tədarükçülərlə rasional təsərrüfat əlaqələrinin qurulması, bütün əmtəə çeşidləri üzrə sirafiş ərizələrinin hazırlanması, əmtəələrin tədarükü ilə müqavilənin bağlanması, müqavilə öhdəliklərinin yerinə yetirilməsi və müvafiq uçot və nəzarətin aparılması və s. qeyd edilə bilər [6].

İqtisadiyyatın müxtəlif sahələrində çalışanlar bazar prosesləri şəraitində aşağıdakı peşə vəzifələrinin həll edilməsinə hazır olmalıdırlar (Şəkil 2).

Vəzifələrin əksəriyyəti rəqabətli qarşılıqlı əlaqəyə aiddir. Bu vəzifələrin uğurla həll edilməsi tətbiq edilən riyazi üsul və modellərin səmərəliliyindən asılıdır.

## Nəticə

İqtisadi proseslərin riyazi modelləşdirilməsi və məntiqi əlaqələrin ardıcıl olaraq təsbit edilməsi, nəzarət imkanlarının təsbit edilməsi və onların idarə edilməsi müxtəlif problemlərin həll edilməsinin səmərəli vasitələri kimi çıxış edir. Mövcud riyazi üsul və modellər çox saylı və çox ölçülü məsələləri həll etməyə, bir çox amillər və göstəricilərin təsirini nəzərə almağa imkan yaradır.

Bir çox vəzifələr kompüter texnologiyalarının tətbiqi ilə xeyli asanlaşır. Lakin məsələ heç də hər zaman şərh edildiyi və göründüyü kimi asan həll edilən məsələ deyildir. Hər şeydən öncə bu sahədə müəyyən problemlərin mövcudluğu səbəbindən məsələlərin

optimal həlli mümkün olmur. Burada söhbət ancaq bu qərara yaxınlaşmaqdan gedə bilər. Tez-tez qurulan riyazi modellərin qurulmasına tətbiq edilən vasitələr iqtisadiyyatda ayrı-ayrı proseslərdə də istifadə edilə bilər. Məsələn, düz xətli, dinamik və tam sayı proqramlaşdırma üsullarından, kütləvi xidmət, cərgələr nəzəriyyələri, şəbəkə planlaşdırılması və s.

Həmin metodlardan yüklərin daşınması vəzifələrinin modelləşdirilməsi, əmtəələrin alınması və satılması vəzifələrinin optimallaşdırılması, resursların təyinatı və bölgüsündə, müəssisələrin kommersiya fəaliyyətinin davamlığının təhlili və s. məqsədlər üçün istifadə edilir.

## Ədəbiyyat

1. Tikinti materiallarının istehsalı sahəsi haqqında // Azərbaycanın sənaye portalı, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi, Bakı, oktyabr 2014
2. Асаул А.Н. Корпоративные структуры в региональном инвестиционно-строительном комплексе. — М.; СПб.: Изд-во АСВ, 2001
3. Воронин А.В. Совершенствование системы управления региональным инвестиционно-строительным комплексом. — СПб.: НПК «РОСТ», 2007
4. Егоров А.Н. Организация и управление экстренным строительством / СПбГАСУ. — СПб., 2008. — 101 с.
5. Иваненко Л.В., Петров С.М. Проблемы внедрения инноваций в деятельность малых и средних строительных предприятий // Основы экономики, управления и права, 2012 №2, с. 41-47
6. Котлярова С.Н. Инновационные барьеры и перспективы развития отраслевых рынков на примере строительной отрасли // Экономика региона, № 3/2010, с.250-254

## IMPROVING THE EVALUATION OF COMPETITIVE PROCESSES IN CONSTRUCTION

**N.A.Ramazanli**

## SUMMARY

The problems of improving the evaluation of competitive processes in construction are considered in this work. The author analyzes many competition-related issues in a new aspect and offers new approaches to solve them. Concrete problems such as the multi-criterion approach to competitive process, formation of a structure that provides construction companies with a more flexible adaptation to the business environment and innovation partnership in construction sector, etc.

# УСОВЕРШЕНСТВОВАНИЕ ОЦЕНКИ КОНКУРЕНТНЫХ ПРОЦЕССОВ В СТРОИТЕЛЬСТВЕ

**Н.А.Рамазанлы**

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы совершенствования оценки процессов конкуренции в строительстве. Автор проводит анализ многих вопросов конкуренции в новом аспекте и выдвигает новые подходы к их решению. Рассмотрены такие конкретные вопросы, как многокритериальный подход к анализу процесса конкуренции, формирование структур быстрой адаптации строительных предприятий к бизнес-среде и инновационному партнерству в строительном секторе и т.д.

*Məqalə redaksiyaya 2 aprel 2019 tarixində daxil olmuş, 16 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 336.33

# AZƏRBAYCAN RESPUBLİKASINA XARİCİ İNVESTİSİYALARIN CƏLB OLUNMASI ÜZRƏ DÖVLƏT SİYASƏTİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**R.İ.Xəlilov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: rovshankhalilov@yahoo.com

***Açar sözlər:*** investisiya, kapital ixracı, iqtisadi dinamika, beynəlxalq ticarət konsepsiyası
***Keywords:*** investment, capital exports, economic dynamics, international trade concept
***Ключевые слова:*** инвестиции, экспорт капитала, экономическая динамика, концепция международной торговли

Dövlətin sosial-iqtisadi inkişafını, istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyini və onun dünya iqtisadiyyatına inteqrasiyasını xarakterizə edən mühüm göstəricilərdən biri də ölkə iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiyaların həcmidir. Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, yeni iş yerlərinin yaradılmasına, müasir istehsal texnologiyalarının tətbiq edilməsinə şərait yaradır. Buna görə xarici və yerli investisiyaların cəlb olunmasında əsas məsələ investisiyaların təşviq edilməsi və effektiv idarə olunmasıdıı.

Dövlət investisiya siyasətinin başlıca vəzifəsi səmərəli investisiya layihələrinə dövlət dəstəyi və normativ qanunvericilik bazasının təkmilləşdirilməsi əsasında kapital qoyuluşlarının maliyələşdirilmə mənbələrinin genişləndirilməsi, xarici və yerli investisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılmasından ibarətdir. Dünya investisiya bazarında dövlətlər arasında birbaşa xarici investisiyaların sövq olunması ilə əlaqədar yaranmış güclü rəqabət həm iqtisadi baxımdan inkişaf etmiş ölkələri, həm də inkişaf etməkdə olan ölkələri investisiya ilə əlaqədar olan qanunvericilik bazasını müasir tələblərə uyğun formalaşdırmağı və təkmilləşdirməyi tələb edir. İnvestisiya siyasətinin həyata keçirilməsi dövlətin xarici-iqtisadi strategiyası çərçivəsində baş veridiyi üçün, onun xüsusiyyətləri xarici ticarət siyasətinin (idxal, ixrac) prioritet istiqamətlərindən, habelə xarici ticarət siyasətinin əsas tendensiyaları arasındakı nisbətdən asılıdır. Ölkənin investisiya siyasətinin mühüm istiqamətləri və ölkə iqtisadiyyatına cəlb edilən investisiyaların həcminin artması normativ-hüquqi bazanın təkmilləşdirilməsi nəticəsində qanunvericilik təminatı və ümumiyyətlə bütün investorların hüquqlarının dövlət tərəfindən qorunması, əlverişli iqtisadi mühitin yaradılması, informasiya təminatının təkmilləşdirilməsi və sairə ilə əlaqədardır.

İnvestisiya siyasəti özlüyündə dövlətin iqtisadi siyasətinin ayrılmaz elementi olmaqla yanaşı bütövlükdə ölkənin iqtisadiyyatı və təsərrüfatçılıq subyektlərinə təsir etmənin mühüm amilidir.

Dövlətin müasir investisiya siyasəti investisiya proseslərinin canlanması, istehsalın səmərəliliyinin artırılması, iqtisadi yüksəlişin və sosial problemlərin həll oluması məqsədi-

lə sahibkarlıq fəaliyyətinin aparılması üçün əlverişli səraitin formalaşdırılması üzrə kompleks tədbirləri əks etdirir. İnvestisiyaların aktivləşdirilməsi üçün optimal mühitin yaradılması bu siyasətin məqsədlərinə xidmət edir.

Xarici və yerli investorlar üçün əlverişli mühitin yaradılması, sosial-iqtisadi inkişafın stabilləşməsi və əhalinin həyat səviyyəsinin artırılması məqsədi ilə riskləri minimallaşdırılması və mənfəətliyin artması üzrə tədbirlər investisiya siyasətinin aparıcı istiqamətlərini təşkil edir.

İnvestisiya siyasətinin reallaşdırılmasının nəticinin qiymətləndirilməsi iqtisadiyyatın inkişafına cəlb edilmiş investisiya resurslarının həcmindən asılıdır.

Dövlət hakimiyət orqanı kimi iqtisadi artımın stimullaşdırılması, habelə ölkənin iqtisadi suverenliyinin təmin edilməsi məqsədi ilə xarici kapital qoyuluşlarının cəlb edilməsi sferasında investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsində aktiv iştirak etməlidir.

Xarici investisiyalara münasibətdə dövlətlərin siyasəti ozündə iki müstəqil istiqaməti birləşdirə bilər:

- Kapital qoyuluşlarına düşən mənfəətin maksimallaşdırılması üçün investisiyanın tənzimlənməsi siyasəti. İnvestisiya siyasətinin bu istiqamətin həyata keçirilməsinin əsas problemi xarici kapital qoyuluşlarının səmərəliliyinin təmin edilməsidir.

- Mümkün dərəcədə maksimum həcmdə kapital cəlb etmək məqsədi ilə stimulaşdırma siyasəti. Bu halda daha cox xarici investisiya axınının təmin edilməsi cox vacıbdir.

Dövlətin investisiya siyasətinin göstərilən bu iki istiqamətini (stimullaşdırma və tənzimləmə) paralel olaraq dəstəkləməsi lazımdır. Ancaq ölkənin sosial-iqtisadi inkişafının səviyyəsindən, cəmiyyətin bu və ya digər hissəsinin maraqlarına dövlət tərəfindən üstünlük verilməsindən asılı olaraq göstərilən istiqamətlərdən birinə daha cox diqqət verilir.

Xarici investisiyanın köməkliyi ilə ölkə iqtisadiyyatının planlı inkişafı əldə edilir, istehsalın effektivliyi və dayanıqlığı təmin edilir, istehsal məsrəflərinin hər manatına görə daha çox mal və əlavə dəyər artımına şərait yaradılır. İnvestisiya iqtisadiyyatın müxtəlif sahələrində əsas istehsal fondlarının yaradılmasına və təkrar istehsalına, istehsal sahələrinin inkişafına kapital qoyuluşları formasında həyata keçirilir.

Ölkəmizdə investisiya fəaliyyətinin nizamlanması bir sıra fərqli iqtisadi mexanizmlərin köməkliyi ilə həyata keçeirilir. İnvestisiya fəaliyyətinin nizamlanmasında elə vergi sisteminin tətbiq edilməsi nəzərdə tutulur ki, burada vergitutma subyektləri və obyektləri, o cümlədən vergi dərəcələri və güzəştləri fərqləndirilir. Belə bir şəraitdə xarici birbaşa investisiyaların stimullaşdırılmasında vergi mexanizminin xarakterik cəhətlərinin öyrənilməsi və kapital qoyuluşlarının üstünlük verildiyi istiqamətlərinin analizi xüsusi rol oynayır.

Mövcud təcrübədə xarici investisiyaların sövq edilməsi ilə bağlı siyasət investisiyaların cəlb edilməsi ilə əlaqədar reallaşdırılan tədbirləri əks etdirir.

Azərbaycan Respublikasının uzunmüddətli dövr üçün dayanıqlı və uğurlu inkişafının təmin edilməsində ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi mühüm əhəmiyyət kəcb edir. Ölkə iqtisadiyyatının tələb olunan həcm və keyfiyyətidə investisiyalarla təmin edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılması dövlətin həyata keçirəcəyi mühüm vəzifələrdən biridir. Bu vəzifələri həyata keçirmək üçün şəxsi mülkiyyətin toxunulmazlığı və müəssisə daxili idarəetmənin təkmilləşdirilməsi,

mülkiyyətin növünə baxmayaraq istənilən investor üçün əlverişli investisiya mühitinin formalaşdırılması, Avropa standartlarına uyğun normativ-hüquqi bazanın yaradılması məqsədi ilə ölkənin tənzimləyıcı funksiyasının artırılması, investisiya fəaliyyəti ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi, kapital qoyuluşları üçün iqtisadiyyatın prioritet sahələrinin müəssisələrinin seçilməsi və təhlili üzrə potensial investorların informasiya təminatı sisteminin formalaşdırılması və müasirləşdirilməsi, ölkəmizdə mövcud olan mühasibat uçotu və statistikanın dünya standartlarına uyğunlaşdırılması kimi tədbirləri həyata keçirmək lazımdır.

Ölkəmizdə xarici investisiyaların cəlb edilməsi məqsədi ilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (SKMF), Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin Idarə Edilməsi üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Informasiya Texnologiyalarının Inkişafı Dövlət Fondu kimi müvafiq dövlət investisiya təşviqi təsisatları yaradılmışdır.

"Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (AİŞ) Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Sərəncamı ilə yaradılmışdır. Bu dövlət qurumunun yaradılmasında əsas məqsəd ölkə iqtisadiyyatının müxtəlif sahələrinə aid prioritet verilən və mülkiyət formasından asılı olmayaraq bütün müəssisələrinə yerli və xarici investorları cəlb edərək kapital qoyuluşları vasitəsilə iqtisadiyyatın qeyri-neft bölməsinin məhsullarının rəqabətqabiliyyətliyini artırmaqla inkişaf etdirməkidir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən 2003-cü ildə yaradılmışdır. AZPROMO-nun fəaliyyətinin mühüm istiqamətləri xarici investorlar, yerli iş adamları və dövlət arasında əlaqələndirmə fəaliyyətini reallaşdırmaqdan ibarətdir.

Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyd edilir ki, düzgün stimullar sisteminin yaradılması ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinə köməklik edə bilər. Bununla yanaşə Strateji Yol Xəritəsində göstərilir ki:" iqtisadi inkişafı təmin etmək üçün lazım olan bu alətlər artıq Azərbaycanda tətbiq edilir. Gələcək illərdə stimullar davamlı olaraq yenidən nəzərdən keçiriləcək və yenilənəcəkdir" (5, səh. 67).

Ölkəmizdə əlverişli investisiya mühitinin formalaşdırılması ilə əlaqədar atılan daha bir addım sənaye və texnologiya parklarının, sənayr məhəllələrinin, həmçinin əlverişli yerlərdə azad iqtisadi zonaların yaradılmasıdır. Artıq ölkəmizdə Sumqayıt Texnologiya Parkı işə salınmış, Balaxanı Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Yüksək Texnologiyalar Parkı, Pirallahı Sənaye Parkı və o cümlədən Masallı və Nefçalada sənaye məhəllələri yaradılmaq üzrədir. Onu da göstərmək lazımdır ki, qanunvericiliyə müvafiq olaraq, aidiyyatı icra hakimiyyətinin qərarı ilə yaradılmış sənaye parklarının üzvlərinə qeydiyyata düşdükləri vaxtdan başlayaraq 7 il müddətinə vergi və gömrük güzətləri və gigər güzəştlər tətbiq olunur.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2013-cü ildə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də sənaye parkları ilə əlaqədar bir sira vergi və gömrüklə əlaqədar stimullaşdırıcı işlər (Azərbaycan Respublikası Vergi Məcəlləsinə görə, sənaye parklarının üzvlərinə bir cox güzəştlər verilir. Belə ki, vergi qa-

nunvericiliyinə görə, sənaye parklarının üzvləri 7 il müddətinə əmlak, torpaq, mənfəət vergisindən, həmçinin istehsal məqsədləri üçün idxal etdikləri avadanlıqlar üzrə ƏDV-dən azad edilirlər), sənaye parkının lazim olan kommunal və digər infrastrukturla təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı ölçüdə təyyin olunması, güzəştli şərtlərlə kreditlərin verilməsi, inzibati prosedurların asanlaşdırılması, sahibkarların öz fəaliyyətlərini effektiv formada yerinə yetirməsi üçün xidmətlərin təşkili, elektrik enerjisinin, suyun, qazın satışı və kommunal xərclər üzrə güzəştli tariflərin tətbiqi kimi stimullaşdırıcı tədbirlərin müəyyən edilə biləcəyi göstəriiir.

Son illərin investisiya aktivliyinin təhlili bu sahədə yaranmış meylləri və problemləri ortaya cixartdı.

Bazar mexanizmlərinin fəaliyyət gostərdiyi azad bazar münasibətlərində investisiya prosesləri bu mexanizmlər - "görünməz əl" tərəfindən azad formada tənzimlənir. Dövlət tərəfindən xüsusi stimullaşdırıcı siyasətin aparılmasına o vaxt məcburiyyət yaranir ki, formalaşmiş bazar belə tənzimləməni təmin etmək gücündə (rəqabətin aşağı səviyyədə olması, bazar stimullarının azlığı – məsrəflərin çox, mənfəətin az olması, məlumat çatışmazlığı və s. üzündən) olmur.

Son illər Azərbaycanda ugurlu investiya siyasəti nəticəsində ölkəmizə 1995-2017-ci illər ərzində 125.5 mlrd ABŞ dolları həcmində investisiya cəlb edilmişdir. Ölkədə formalaşdırılmış əlverişli investisiya mühiti investisiya fəallığının artmasına, bu isə öz növbəsində iqtisadiyyatın davamlı inkişafına gətirib çıxarır.

Cədvəl 1

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar **(mln. ABŞ dolları)**

| | **1995-2002** | **2003-2017** | **1995-2017** (ümumi) |
|---|---|---|---|
| **Cəmi investisiyalar** | 12473,6 | 206820,3 | **219293,9** |
| **Daxili investisiyalar** | 3353,9 | 90462.4 | **93816,3** |
| **Xarici investisiyalar** | 9119,8 | 116357.8 | **125477.6** |
| *Neft sektoru* | 6105,4 | 58606.3 | **64711.7** |
| *Qeyri-neft sektoru* | 3014,4 | 57751.5 | **60765.9** |

Cədvəl 1-dən görünür ki, aparılan uğurlu investisiya siyasəti nəticəsində 2003-2017-ci illərdə ölkə iqtisadiyatına 206.8 mlrd ABŞ dolları həcmində investisiya qoyulmuşdur ki, bu da 1995-2002-ci illərdə qoyulmuş investisiyalardan 194,3 mlrd ABŞ dolları coxdur. Həmin dovr ərzində müvafiq olaraq xarici investisiyalar 107.3 mlrd ABŞ dolları, daxili investisiyalar isə 87.2 mlrd ABŞ dolları həcmində artıq olmuşdur.1995-2002-ci illər ərzində xarici investisiyaların böyuk əksəriyyəti neft sektoruna qoyulduğu halda aparilan uğurlu investisiya siyasəti nəticəsində 2003-2017-ci illər ərzində müsbət dəyişikliklər baş vermiş və qeyri-neft sektoruna cəlb edilmiş investisiyalaın ümümi həcmi 1995-2002-ci ildə ki, 3.1 8 mlrd ABŞ dolları həcmindən 2003-2017-ci ildə ki, 57.7 8 mlrd ABŞ dolları həcminə çatmışdır.

Qeyd etmək lazımdır ki. 2019-2022-ci illərdə Dövlət İnvestisiya Proqramında qarşıdakı illər üzrə 6825,3 mln. manat miqdarında investisiya layihələri nəzərdə tutlumuşdur. Bu investisiyaların 4960,7 mln. manatı. Yaxud 72,7%-i infrastruktur xüsusiyyətli layihələrə istiqamətləndiriləcək. İnfrastruktur xarakterli bu layihələrd nəticəsində ölkəmizdə əlavə dəyər yaratmaq iqtidarlnda olan müəssisələrin sayının coxaldılması, habelə yeni iş yerlərinin açılması nəzərdə tutulur.

2018-ci ildə ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 17430.3 mln. manat olmuşdur. 2019-cu il üçün bu rəqəm 17349.7 mln. manat həcmində proqnozlaşdırılır və gəlecek 3 ildə real artim tempinin 2,2% ölçüsündə olmaqla 17914,4 mln. manat həcmində olması nəzərdə tutulur.

Apırılan analizlər göstərir ki, ölkəmizdə investisiya qoyuluşları və Ümumi Daxili Məhsulun göstəriciləri arasında sıx əlaqələr vardır. Bu da hər iki sahənin göstəriciləri arasında qarşılıqlı təsir gücünün olduğunu göstərir.

Bütövlükdə ölkədə makroiqtisadi və siyasi stabilliyin olması, iqtisadiyyatın açıqlığı, lazımi infrastrukturun və normativ-hüquqi mühitin olması, ölkənin investisiya cəlbediciliyinin təmin edilməsinin əsas elementləridir. Investisiya siyasəti Azərbaycan dövlətinin ümumi iqtisadi siyasətinin bir hissəsi olmaqla iqtisadi inkişaf üçün lazim olunan vəsaitlərin mühüm hissəsini təşkil edir.

## Ədəbiyyat

**1.** Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, AZDİU, 2006, 834 s.
**2.** Кейнс Дж.М. Избранные произведения. М.: Экономика, 1993
**3.** Azərbaycan Respublikasının «İnvestisiya haqqında» Qanunu 13 yanvar 1995-ci il № 952, 23 mart 2001-ci il tarixli, 103-IIQD nömrəli; 5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 23 aprel 2002-ci il tarixli, 311-IIQD nömrəli; 30 aprel 2002-ci il tarixli, 317-IIQD nömrəli; 6 dekabr 2002-ci il tarixli, 399-IIQD nömrəli; 9 mart 2004-cü il tarixli, 603-IIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə
**4.** John Bates Clark. The Distribution of Wealth: A Theory of Wages, Interest and Profits. New York: Macmillan, 1908, 254 p.
**5.** J.Hirshleifer. Investment Decision under Uncertainty: Choice-Theoretic Approaches. «Quarterly Journal of Economics», 1965. Vol. 79, N 4. Nov. P. 509-536
**6.** Fisher I. The nature of capital and income. New York, The Macmillan Company, 1906, 427 p.
**7.** Харрод Р. К теории экономической динамики. Новые выводы экономической теории и их применение в экономической политике // Классики Кейнсианства. М.: Экономика, 1997, Т.1, с.39-194
**8.** Мэнькю Н.Г. Макроэкономика. М.: Изд-во МГУ, 1994, 736 с.

## SHAPING STATE POLICY OF THE REPUBLIC OF AZERBAIJAN ON ATTRACTING FOREIGN INVESTMENT

**R.I.Halilov**

**SUMMARY**

This work focuses on the problems of formation of state investment policy in the Republic of Azerbaijan. The analysis of foreign investment attracted to the economy of the country is made. The impact of foreign investment on national economy and growth of gross domestic product is shown.

## ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ПО ПРИВЛЕЧЕНИЮ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В АЗЕРБАЙДЖАНСКУЮ РЕСПУБЛИКУ

**Р.И.Халилов**

**РЕЗЮМЕ**

В статье основное внимание уделено вопросам формирования государственной инвестиционной политики в Азербайджанской Республике. Проведен анализ иностранных инвестиций, привлеченных в экономику страны. Показано влияние этих инвестиций на экономику страны и рост валового внутреннего продукта.

*Məqalə redaksiyaya 8 aprel 2019 tarixində daxil olmuş, 17 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT 338.43

# "İQTİSADİ TƏHLÜKƏSİZLİK" VƏ "ƏRZAQ TƏHLÜKƏSİZLİYİ" KATEQORİYALARININ SOSİAL-İQTİSADİ MAHİYYƏTİ VƏ QARŞILIQLI ƏLAQƏSİ

**Ə.İ.Əmirov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: alizamin_amirov@mail.ru

***Açar sözlər:*** ərzaq təhlükəsizliyi, aqro-ərzaq bazarı, alıcılıq qabiliyyəti, ərzaq ehtiyatları
***Keywords:*** food security, agrofood market, purchasing power, food resources
***Ключевые слова:*** продовольственная безопасность, агропродовольственный рынок, покупательная способность, продовольственные ресурсы

İnsan cəmiyyətinin təkamülünün bütün dövrlərində insanları düşündürən və narahat edən amillərdən ən başlıcası "təhlükəsizlik" anlayışıdır.

4-cü sənaye inqilabının müasir mərhələsində ölkələr arasında iqtisadi münasibətlərin yeni və qabaqcıl formaları yaranmışdır ki, bu da istehsalın qloballaşmasını, inteqrasiyasını və beynəlmilləşməsini yeni bir yüksək səviyyəyə qaldırmışdır. Bir tərəfdən dünya miqyasında əhali artımının geniş vüsət alması nəticəsində insanların istehlak tələbatının yüksəlməsi və daha çox maddi nemətlər istehsalına tələbin artması, digər tərəfdən təbii və iqtisadi ehtiyatların getdikcə azalması iqtisadi təhlükəsizlik anlayışını meydana çıxarır. Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək məsələsi də elə bu vaxtdan yaranır və bu təhlükələrin qarşısının alınması məqsədilə vacib təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini gündəmə gəirir.

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi sosial-iqtisadi inkişafın regional və ölkə səviyyəsində mühüm problemlərindən biridir. Bu məsələnin həlli ölkə iqtisadiyyatının xaricdən asılılığına, əhalinin həyat səviyyəsi və keyfiyyətinə bilavasitə təsir edir. Ölkənin iqtisadi təhlükəsizliyi dövlətin milli təhlükəsizliyinin ən mühüm elementidir. Son illərdə iqtisadi təhlükəsizliyin təmin edilməsi sisteminin təyinatını müəyyən edərək qəbul edilmiş strateji və konseptual sənədlərə baxmayaraq, bu sistemin tərkibi, quruluşu, onun fəaliyyətinin əsas prinsipləri və mexanizm elementləri kifayət qədər aydın deyil. İqtisadçı alimlərin, filosofların, qeosiyasətçilərin iqtisadi təhlükəsizlik anlayışına baxışları eyni deyil.

Bir sıra iqtisadçılar belə fikirləşir ki, iqtisadi təhlükəsizlik anlayışı dövlət və hakimiyyət orqanları tərəfindən milli maraqların təminatlı müdafiəsi, həmçinin daxili və xarici proseslərin əlverişsiz vəziyyətinin mövcudluğu zamanı müdafiə potensialının lazımi dərəcədə təmin edilməsidir.

SSRİ-nin 90-cı illərdə iqtisadi böhrana girməsi ilə əlaqədar olaraq iqtisadi təhlükəsizliyin mahiyyəti problemi rus alimlərini də maraqlandırmağa başlamışdır.

V.R.Sençakov yazır ki, iqtisadi təhlükəsizlik iqtisadiyyatın, onun sahələrinin və seqmentlərinin, həmçinin hakimiyyət institutlarının elə vəziyyətidir ki, o, dövlət maraqlarının müdafiəsinə zəmanət verir, ölkənin inkişafını onun bütün vətəndaşlarının maraqları

baxımından, hətta daxili və xarici proseslər qeyri-əlverişli istiqamətdə inkişaf etdikdə belə kifayət qədər müdafiə potensialı ilə təmin edir [1, səh.48].

B.A.Rayzberq, L.Ş.Lorovskiy iqtisadi təhlükəsizlik anlayışına təsərrüfata daxili və xarici iqtisadi təhlükələrin vura biləcəyi itkilərin qarşısını alacaq, dövlət tərəfindən aparılan tədbirlər və yaradılan şərait kimi baxır [2, səh.24].

A.R.İllarionov da bu anlayışa tənzimləyici mövqedən baxır və qeyd edir ki, iqtisadi təhlükəsizlik uzunmüddətli perspektivdə ən səmərəli üsulla əhalinin hər nəfərinə maksimal miqdarda iqtisadi resursların dayanıqlı istehsalını təmin edəcək iqtisadi, siyasi və hüquqi şərtlərin uyğunluğudur [3, səh.49].

İqtisadi təhlükəsizlik ölkə iqtisadiyyatının dayanıqlı, effektiv dinamik artımı, eyni zamanda cəmiyyətin, dövlətin, ölkə vətəndaşlarının tələbatlarını ödəyə bilməsi uyğun olan daxili və xarici şəraitin cəmidir. İqtisadi təhlükəsizlik məfhumu iqtisadi nəzəriyyə və politologiya ilə sıx əlaqədə olan bir kateqoriya kimi ümumi və geniş anlayışdır. Bununla əlaqədar olaraq beynəlxalq, regional iqtisadi təhlükəsizliyi, həmçinin milli iqtisadiyyatın daxilində müəssisə və fərdlərin iqtisadi təhlükəsizliyini bir-birindən ayırmaq lazımdır.

Fikrimizcə, iqtisadi təhlükəsizlik Dövlətin iqtisadi müstəqilliyini qorumaq, iqtisadiyyatın inkişafına aid qərarların verilməsi bacarığını saxlamaq, ölkə vətəndaşlarının nail olduğu həyat səviyyəsini və keyfiyyətini qorumaq və daha sonralar onu artırmaq qabiliyyəti şərtləri ilə xarakterizə edilməklə, hər şeydən öncə ölkənin milli maraqlarını müdafiə etməkdir. İqtisadi təhlükəsizlik ölkədə iqtisadi sabitliyin qorunmasının və təmin edilməsinin mühüm şərtidir.

Ə.H.Həsənovun fikrincə, iqtisadi təhlükəsizlik anlayışı geosiyasi ədəbiyyatda ölkənin milli iqtisadiyyatının inkişafı və təhlükəsizliyinin təmin olunması, iqtisadi həyatının arzuolunmaz xarici təsirlərdən gorunması və geoiqtisadi asılılığın aradan qaldırılmasıdır [4, səh.97].

Bir sıra tədqiqatçılar iqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyətlərini istehsal sferası, əhalinin həyat səviyyəsi və keyfiyyəti, maliyyə vəziyyəti üzrə qruplaşdırırlar.

Akademik Z.Ə.Səmədzadə öz tədqiqatlarında iqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyətlərini əhalinin hər nəfərinə düşən ÜDM, onun dinamikası və dövlətlər üzrə qarşılaşdırılması; emaledici sənayenin ÜDM-ə payı; investisiyaların ÜDM-ə nisbəti; elmi tədqiqatlar və təcrübə-konstruktor işləri üzrə xərclərin ÜDM-ə nisbəti; beynəlxalq standartlara görə müəyyən edilmiş yoxsulluğun səviyyəsi; həyatın orda yaşayış müddəti; on faiz ən yüksək gəlirləri olan əhali ilə on faiz gəlirləri az olan əhali arasında nisbət, dəfə; beynəlxalq standartlara görə işsizlik səviyyəsi, faizlə; illik inflyasiya; dövlət borcunun ÜDM-ə nisbəti, faizlə; xarici borcların ÜDM-ə nisbəti, faizlə; idxalın ÜDM-ə nisbəti, faizlə; ərzaq məhsulları idxalının ərzaq istehsalına nisbəti, faizlə kimi müəyyən edir [6, səh.209-210].

Eyni zamanda qeyd etmək vacibdir ki, indiki dövrdə ölkənin iqtisadi təhlükəsizliyinin təminatı olan Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin Dövlət strateqiyası üzrə normativ-hüquqi sənədlərdə iqtisadi təhlükəsizlik anlayışının dəqiq formalaşdırılmış tərifi yoxdur.

Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununda 17.1 maddəsində deyilir ki, Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır [5, səh.12].

Lakin tədqiqatlar göstərir ki, bu sənəddə iqtisadi təhlükəsizlik anlayışının əsas tərkib hissələri olan milli iqtisadi maraqları xarakterizə edən meyar və parametrlər, kəmiyyət göstəriciləri və keyfiyyət indikatorları, milli iqtisadiyyatın dayanıqlığını zəiflədən amillərin təsirini aradan qaldıran və yumşaldan üsullar öz əksini tapıb.

İqtisadi təhlükəsizliyin problematikası tarixən və məntiqi olaraq dövlətçiliyin möhkəmləndirilməsi ilə əlaqədardır.

Bununla əlaqədar olaraq iqtisadi təhlükəsizliyə beynəlxalq, milli, regional, habelə ayrıca təsərrüfatçılıq subyektinin səviyyəsi kimi müxtəlif səviyyələrdən ibarət olan qarşılıqlıəlaqələr sistemi kimi baxmaq məqsədəuyğundur.

Beynəlxalq iqtisadi təhlükəsizlik dedikdə dünya iqtisadiyyatının elə bir vəziyyəti başa düşülür ki, burada müxtəlif ölkələrin həm öz, həm də qlobal iqtisadi problemlərin həllində, onlar tərəfindən seçilən sosial-iqtisadi inkişaf strateqiyasının sərbəst seçilməsi və realizasiyasında qarşılıqlı xeyirli əməkdaşlığı üçün şərait yaradılmış olsun. Beynəlxalq iqtisadi təhlükəsizlik hər şeydən əvvəl Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı və sairə kimi qlobal təşkilatlar sisteminin yaradılması vasitəsi ilə realizə edilir. Burada kapitalın hərəkətinin, iqtisadi bərabər hüquqluğun və maraqların qarşılıqlı nəzərə alınması haqqında transmilli müqavilələrin bağlanmasına xüsusi rol ayrılır.

Milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsi bacarığına toxunan, xarici ticarət fəaliyyətinin rasional quruluşunu, yüksək tədqiqat potensialını və ET və LKİ-nin səviyyəsini saxlayan, proseslərin kriminallaşmasının profilaktikasının hüquqi mexanizminin inkişafını, vətəndaşların kifayət gədər həyat səviyyəsini və lazımi dövlət tənzimlənməsini təmin edən göstəricilər sistemini əks etdirir.

Müəssisə səviyyəsində iqtisadi təhlükəsizlik müəssisənin elə bir vəziyyəti ilə xarakterizə edilir ki, bu zaman kapitaldan səmərəli istifadə edilməsi, istehsal və informasiya texnologiyalarının vaxtında yenilənməsini, müxtəlif səviyyələrdə menecmentin və risklərin idarə edilməsinin yüksək keyfiyyətini təmin etmiş olsun.

Vətəndaşın iqtisadi təhlükəsizliyi insanın həyat fəaliyyətinin elə vəziyyətini əks etdirir ki, bu zaman onun hüquqi və iqtisadi müdafiəsi, vətəndaşın konstitusiya hüquqları və vəzifələrinin yerinə yetirilməsi qarantı altına alınmış olsun.

Müasir iqtisadi elmində iqtisadi təhlükəsizliyin tərkibinin müəyyən edilməsinə bir neçə yanaşma yaranmışdır. Bir sıra müəlliflər onları daxili və xarici təhlükəsizliyə ayırırlar. Ancaq tədqiqatların böyük bir hissəsi iqtisadi təhlükəsizliyin quruluşunu tərkib hissələri hərbi-sənaye təhlükəsizliyi, maliyyə təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi kimi olan fəaliyyət növlərinə əsaslanan anlayış kimi başa düşülməsinə gətirir.

Ərzaq təhlükəsizliyi nisbətən yeni termindir. Hesab edilir ki, ərzaq təhlükəsizliyi terminin yarandığı il 1974-cü ildir. Ərzaq təhlükəsizliyi termini ilk dəfə BMT-nin 1974-cü ildə qəbul etdiyi "aclıq və doyunca yeməməyin aradan qaldırılmasına dair ümumi deklarasiya"sında öz əksini tapmışdır. Bu termin bütün dünyaya, ayrı-ayrı dövlətlərə, regionlara, əhali qruplarına, ailə və insanlara tətbiq edilir.

Ərzaq təhlükəsizliyi anlayışının məzmunu 1994-cü ildə BMT-nın Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ƏKTT-nın (FAO) eyni məzmunlu konfransında öz əksini "bütün insanların öz sağlam həyatlarını təmin etmək üçün lazımi həcmdə təhlükəsiz və qidalı ərzaq məhsullarına fiziki və iqtisadi əlçatanlığının mümkünlüyünü" şəklində tapmışdır. XX əsrin sonlarından başlayaraq "ərzaq təhlükəsizliyi" anlayışı həm sənədlərdə, həm də elmi

ədəbiyyatda müntəzəm olaraq istifadə edilməyə başlamışdır.

P.T.Burdukov, R.Z.Sayetqaliyev qeyd edirlər ki, ərzaq təhlükəsizliyi dedikdə ölkə iqtisadiyyatının elə bir vəziyyəti başa düşülür ki, bu zaman bütün əhaliyə fəal sağlam həyat tərzi keçirilməsi üçün istənilən vaxtda və miqdarda ərzaqa olan tələbatın təmin edilməsinə zəmanət verilir.

İl ərzində ərzaq məhsullarının istehlakı onları almaq baxımından (pul vəsaitlərinin catışmamazlığı), yaxud lazım olan həcmdə ərzaq istehsal edilmədiyindən kifayət qədər olmadığı hallarda ərzaqla təmin olunmama xroniki xarakter daşıya bilər [7, səh.12].

Ərzaq təhlükəsizliyi əsasən inkişaf etməkdə olan ölkələrdə xroniki xüsusiyyət daşıyır. Ərzaq təhlükəsuzliyinin inkişaf etməkdə olan ölkələrdə xroniki xarakter daşıması bu ölkələrdə iqtisadi inkişafın aşağı səviyyədə olması, büdcə vəsaitlərinin məhdudluğu, aqrar sektorda və kənd təsərrüfatı ilə bağlı digər sahələrdə innovativ texnologiyaların tətbiqinin zəif olması, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, yerli ərzaq məmulatları istehsalının rəqabətədavamlılığının aşağı olması və sair amillərlə bağlıdır. Bu gün dünyada aclıqdan xroniki əziyyət çəkən insanların miqdarı 852 min nəfərdir.

Ərzaq təhlükəsizliyi hər şeydən əvvəl hər bir dövlətin ərzaq müstəqilliyindən asılıdır.

Ölkədə ərzaq və yeyinti məhsullarının istehsal səviyyəai, ərzaq məhsullarının istehsalının iqtisadi baxımdan səfərbərliliyi və qiymətliliyinin səviyyəsi, istehlakçıların alıçılıq qabiliyyəti, ölkə əhalisinin gəlirləri və əmək haqqının orta aylıq həcmi, dövlətin aztəminatlı əhali təbəqəsinə verdiyi güzəştlər və müavinətlər ölkənin ərzaq ehtiyatları ölkənin ərzaq təhlükəsizliyinin və milli ərzaq müstəqilliyinin təmin edilməsini şərtləndirən mühüm amillərdir.

İ.L.Maqenoviç ərzaq təhlükəsizliyini xarici və daxili şərtlərdən asılı olmayaraq bütövlükdə ölkə əhalisini ayrılıqda hər bir vətəndaşı şəxsiyyətin tam fiziki və sosial inkişafı, sağlamlığın təmin edilməsi və əhalinin geniş təkrar istehsalı üçün lazımi həcmdə ərzaq məhsulları, içməli su ilə, uygun resurs potensialı ilə dövlətin təmin etməsi bacarığı kimi xarakterizə edir [7, səh.10].

BMT-nin 1974 ildə Romada taxılın qiymətinin kəskin yüksəlməsi ilə bağlı Ümumdünya konfransında qəbul etdiyi müəyyənləşdirmədən fərqli olaraq ərzaq təhlükəsizliyinin yuxarıda qeyd edilən mahiyyətində ərzaq məhsullarının idxalı hesabına deyil, öz resurs potensialı hesabına ərzaq təhlükəsizliyini dövlətin təmin etməsi baçarığı ilə ifadə edilən ərzaq baxımsızlığının əhəmiyyəti qeyd edilir.

V.Q.Ağayev ərzaq təhlükəsizliyi məsələlərinə ticarət mövqeyindən baxaraq göstərir ki, ticarət dünya ərzaq təhlükəsizliyinin əldə edilməsinin mühüm elementidir.

Ticarət ərzaq təhlükəsizliyinin səviyyəsinin asılı olduğu iqtisadi inkişafı stimullaşdırır və resurslardan səmərəli istifadə edilməsini yaradır. Ticarət ərzaq məhsullarının istehlakının onun istehsalını üstələməyə imkan verir və istehsal ilə istehlakın dalğalanmasını azaltmağa kömək edir. Ticarət iqtisadi artıma, əhalinin məşğulluğuna və gəlirlərinə müsbət təsir göstərdiyinə görə ərzaq girişə böyük təsir edir.

2001-ci il mart ayının 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi haqqında sərəncan imzalanmışdır.

Bu sərəncama əsasən ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca amili və əsas insan hüquqlarından biri olmaqla hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir [9, səh.1].

İctimai-siyasi quruluşdan, idarəetmə səviyyəsindən asılı olmayaraq hər bir ölkənin qarşısında duran mühüm vəzifələrtdən biri ölkə vətəndaşlarının ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu problem müasir dövrdə də öz vacibliyini itirməmiş, hətta daha da aktual xarakter almışdır. Əminliklə qeyd etmək olar ki, istənilən ölkənin qarşısında duran müxtəlif problemlər arasında dövlətin vətəndaşlarının ərzaq məmulatları ilə dsayanıqlı təminatı məsələsi mühüm yer tutur.

Fikrimizcə, torpaq və təbii iqtisadi şərtlərin mövcudluğundan asılı olaraq ərzaq təhlükəsizliyi milli xarakter daşıyır. Bir sıra tədqiqatçılar belə hesab edirlər ki, kənd təsərrüfatında müqayisəli üstünlüyə malik olmayan və kənd təsərrüfatı istehsalının maya dəyərinin yüksək olduğu ölkələrin əmək vəsaitlərini müqayisəli üstünlüklərin olduğu yerlərə qoyulması məqsədə uyğundur.

Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi istənilən dövlətin təbii tələbatıdır. Bu zaman daxili istehsalın, əkin sahələrinin mühafizəsi, kəndli-fermer cəmiyyətlərinin qorunması və habelə istehsalın demərkəzləşdirilməsi üçün xüsusi siyasi tədbirlərə ehtiyac yaranır.

Ərzaq məhsullarının idxalından asılılığın yüksək səviyyəsi bir sıra aşağıdakı problemlə üzləşə bilər:

- dünya bazarının ərzaq məhsulları ilə təminatı qısa müddət üzrə qeyri-stabil, hətta orta müddətdə azala bilər;
- bütövlükdə kənd təsərrüfatı məhsullarının ticarəti qeyri-stabildir, belə ki hal-hazırda ölkələr öz kənd təsərrüfatı məhsullarının nisbətən böyük olmayan hissəsini ixrac edirlər və kənd təsərrüfatı məhsullarının əsas növlərini isə yalnız bir neçə dövlət ixrac edir;
- ərzağın catışmadığı dövrdə iqtisadi baxımdan güclü olan dövlət ərzaq almağa başlayacaq və bu bütün dünya bazarı üçün neqativ nəticələr gətirəcəkdir.

Ehtiyatların yaradılması ərzağa olan təcili tələbatın ödənilməsinin vacib şərtidir. Burada ərzaq məhsullarının saxlanması və onun bahalaşması zamanı keyfiyyətinin itirilməsi üzündən ehtiyatların yaradılması tədbirlərinin qısa müddətli xarakter daşıması ilə əlaqədar problemlər yarana bilər. Buna görə dəöz kənd təsərrüfatı istehsalının həcminin artırılmasını stimullaşdırmaq mütləq vacibdir ki, o, ərzaq məhsullarının daxil olmasının əsas mənbəyinə çevrilsin.

Kənd təsərrüfatının, bütövlükdə bazar mexanizminə, yaxud ÜTT-nin qanunlarına tabe edilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsini mümkünsüz edə bilər. Buna görə də ərzaq təhlükəsizliyini kənd təsərrüfatının çoxfunksiallığının aspektlərindən biri kimi hesab etmək olar. Belə ki, daxili kənd təsərrüfatı istehsalının dəstəklənməsi məsuliyyəti istənilən dövlətin hökümətinə həvalə edilir.

Fikrimizcə, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik sistemində ərzaq təhlükəsizliyi anlayışına, aqro-ərzaq bazarı və ərzaq ehtiyyatlarının elə vəziyyəti kimi baxmaq lazımdır ki, burada bütün vətəndaşların kifayət qədər sağlam fiziki və sosial inkişafı üçün lazımi miqdarda və keyfiyyətdə ərzaq məhsullarına il ərzində əlcatanlığı zəmanəti verilsin.

Ərzaq təhlükəsizliyi regional problemdən çox, böyük dərəcədə makroiqtisadi xarakter daşıyır və bu hər şeydən əvvəl ölkənin kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi yolu ilə həll olunmalıdır.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsulları bölgü, mübadilə, emal, satış və daha sonra istehlak mərhələlərindən keçməklə ərzaq məhsuluna çevrilir. Bu onu göstərir ki,

istehlak eyni zamanda həm məqsəd, hən də istehsal prosesi üçün motivdir.

Kənd təsərrüfatı məhsullarının keçdiyi bütün mərhələlər bir-birindən ayrı özü-özünə fəaliyyət göstərə bilmir. Bu mərhələlər birbaşa və geriyə əlaqələri ilə birləşərək vahid bütov bir sistemi yaradır. Bu sistemin inkişafı, fasiləsiz təkmilləşdirilməsi və mürəkkəbləşməsi incan cəmiyyətinin inkişafının tarixi gedişini təyin etmişdir. Perspektivdə regional iqtisadiyyatların vahid makro sistemə artan inteqrasiyasında Dövlətin mövqeyi və funksiyaları, milli aqro-ərzaq bazarının inkişafı yollarını müəyyənləşdirəcək, habelə onun dünya bazarında rəqabətqabiliyyətliyinin saxlanmasını və artırılmasını təmin edəcəkdir.

Çoxsaylı tədqiqatlar göstərir ki, kənd təsərrüfatı məhsulları bazarının ümumi formaları sistemin bazisini yaradır. Aqro-ərzaq bazarının çoxcəhətliyini tam miqyasda əks etdirmək və öz müəyyənləşdirməmizi vermək üçün iqtisadi kateqoriya kimi bazar anlayışının ilkin izahlarına müraciət etmək lazımdır.

İlk dəfə təsərrüfatı obyektiv, insanların iradəsindən asılı olmayan, ancaq başa düşüləcək qanunların fəaliyyət göstərdiyi sistem kimi öyrənən A.Smit və D.Rikardo olmuşdur. A.Smit və onun ardıcılları bazar tarazlığı prinsiplərini göstərərək dövlətin iqtisadi münasibətləri tənzimləməsinə müdaxiləsini qəbul etməmişlər (10, səh.154). Ancaq XX əsrin 30-cu illərində kapitalist ölkələrindəki misli görünməmiş iqtisadi böhranın, XX əsrin sonlarında SSRİ-də iqtisadiyyatın qeyri-sabitliyi və 2008-ci ildə başlamış olan maliyyə böhranının iqtisadiyyata vurduğu itkilərin həcminin İkinci Dünya müharibəsinin vurduğu ziyanların səviyyəsini keçməsi, azad bazar sisteminin dövlətin təhlükəsisliyini təmin edən mühüm sahələrinin dövlət dəstəyi və iqtisadiyyatın dayanıqlığının təmin edilməsi mexanizminin olmaması şərtlərində özünü doğrultmayacağını göstərir.

İqtisad elminin inkişafı və müxtəlif cəmiyyətlərin mədəni səviyyəsinin təsiri altında bazr və bazar mexanizmləri anlayışlarının məzmunu daima dəyişmişdir.

M.A.İbrahimovun fikrincə, bazar məhsulların iatehsalçıları və alıcıları arasında, həmçinin məhsulların dəyəri və istehlak dəyəri arasında münasibətlər yaradan mühitdir. Geniş anlamda qeyd etmək olar ki, bazar təkrar istehsal proseslərinin formalaşmasının və hərəkətinin maksimumudur, istehsal və istehlakın, həmçinin ayrı-ayrı komersiya fəaliyyəti növləri məhsullarının alqı-satqı yolu ilə əlaqələndirilməsi formasıdır ki.burada bazarın istehlakçıları yüksək keyfiyyətli, rəqabətqabiliyyətli mallar istehsal edilməsinə və həmin malların maya dəyərinin azaldılmasına çalışırlar (11, səh.5).

Bazar münasibətlərinin xüsusiyyətini, iqtisadiyyatın tipini göstərən ümumiləşdirici, çoxçəhətli anlayış olmaqla malları hansı məqsədlə almalarından asılı olmayaraq bazarda istehsalçı və istehlakçıların, tələb və təklifin olmasını nəzərdə tutur və bunların elə zidiyyətli, dinamik məcmusudur ki, onlar arasında olan nisbət məhsulların qiymətini formalaşdırmaqla istehsal və istehlakı tənzimləyir.

## Ədəbiyyat

1. Экономическая безопасность России. Под ред. В.К. Сенчакова. М., Бином, 2009
2. Б.А.Райзберг, А.Ш.Лазовский. Учебный экономический словарь. Н Рольф Айрис пресс, 1999
3. А.Б.Илларионов. Критерии экономической безопасности. Вопросы экономики, 1998, №10, с.49
4. Ə.Həsənov. Azərbaycan Respublikasının mili inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011

5. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu
6. Z.Ə.Səmədzadə. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüsəsi. Bakı, 2001
7. П.Т.Бурдуков, Р.З.Состгалиев. Россия в системе глобальной продовольственной безопасности. М., 1999
8. Н.Л.Маценович, А.М.Ходачек. Продовольственная безопастность и продовольственная политика. Знание, 2004
9. "Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyi Proqramı". Bakı, 2 may 2001, №640
10. А.Смит. Исследование о природе и причинах богатсва народов. Москва, Наука, 1999
11. М.А.Ибрагимов. Инфраструктура товарного рынка. М., ПРИРОР, 2001

## SOCIO-ECONOMIC ESSENCE OF THE CATEGORIES "ECONOMIC SECURITY" AND "FOOD SECURITY" AND THE RELATIONSHIP BETWEEN THEM

**A.I.Amirov**

### SUMMARY

This article discusses the current state of agricultural sector and analyzes the role of state programs in this field in Azerbaijan. Based on the assessment of the situation with the agrofood market, the factors affecting the level of food security in the country are presented.

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ СУЩНОСТЬ И ВЗАИМОСВЯЗЬ КАТЕГОРИЙ «ЭКОНОМИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ» И «ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ»

**А.И.Амиров**

### РЕЗЮМЕ

В статье рассматривается текущее состояние аграрной отрасли и анализируется роль государственных программ в этой области в Азербайджане. На основе оценки состояния агропродовольственного рынка представлены факторы, влияющие на уровень продовольственной безопасности в стране.

*Məqalə redaksiyaya 5 aprel 2019 tarixində daxil olmuş, 18 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT № 338

# ƏHALİNİN HƏYAT KEYFİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**N.X.Cahangirov, T.Ə.Şahmuradova**
Bakı Dövlət Sosial-İqtisadi Kolleci
Bakı AZ1035, Ramiz Qənbərov küçəsi 61
e-mail: taranashah@mail.ru

***Açar sözlər:*** həyat keyfiyyəti, həyat səviyyəsi, həyat keyfiyyəti göstəriciləri
***Key words:*** quality of life, standard of living, indicators of quality of life
***Ключевые слова:*** качество жизни, уровень жизни, показатели качества жизни

## Giriş

Həyat keyfiyyəti və həyat səviyyəsi problemlərinin həlli bütün ölkələrdə mühüm əhəmiyyət kəsb edir. Həyat keyfiyyəti termini XX-ci əsrin 20-ci illərində Qərb nəzəriyyələrində meydana gəlmişdir. Həyat keyfiyyəti nəzəriyyəsinin əsasını qoyanlar E.Meyo, A.Maslou, D.MakQreqor və başqaları hesab edilir. Hazırda həyat keyfiyyəti terminindən iqtisadiyyatda, sosiologiyada, tibbdə, ekologiyada və digər elm sahələrində istifadə olunur. Məlumdur ki, "rifah", "həyat tərzi", "həyat səviyyəsi" anlayışlarından da istifadə edilir. Eyni zamanda həyat səviyyəsi anlayışı ilə bərabər həyat keyfiyyəti və əmək həyatının keyfiyyəti anlayışları qismən sinonim kimi, bəzən isə daha geniş mənada işlədilir.

Qeyd edək ki, həyat keyfiyyəti anlayışı əmək həyatının keyfiyyəti anlayışından daha genişdir. Həyat keyfiyyəti anlayışı altında insanın istehsal və istehsaldan kənarda kompleks məmnunluğu, daha doğrusu, həyat səraiti, əmək şəraiti, sağlamlığı və s. başa düşülür. İnsanın əmək həyatı özü bütövlükdə həyat keyfiyyətinin elementlərindən biridir.

Demək olar ki, Azərbaycanda əhalinin həyat keyfiyyətinin təhlili ilə bağlı ayrıca elmi tədqiqat işləri aparılmamışdır. Ona görə də bu məqaləni yazmaqda məqsədimiz həmin boşluğu müəyyən qədər doldurmaqdan ibarətdir.

## 1. Həyat keyfiyyətinin göstəriciləri

Həyat keyfiyyəti - bioloji və canlı varlıq kimi insanın özünün həyat fəaliyyətinin və həyat şəraitinin ayrı-ayrı komponentləri ilə müəyyən edilən sistem anlayışıdır. Buradan belə nəticə çıxır ki, həyat keyfiyyətinin göstəricilər nomenklaturası əslində insanın həyat fəaliyyətinin və həyat şəraitinin subyektiv qiymətləndirmə xüsusiyyətləri ilə obyektiv xüsusiyyətlərini birləşdirməlidir [1].

Həyat keyfiyyəti çoxamilli anlayışdır. Əhalinin həyat keyfiyyətinə iqtisadi, sosial, demoqrafik, siyasi və digər amillər təsir edir. Bu halda qəbul etmək lazımdır ki, hər bir insan öz həyat keyfiyyətini yaradıcılıq və özünü inkişaf etdirmə, ailə vəziyyəti, maliyyə durumu, mənzil şəraiti və s. baxımından qiymətləndirə bilər.

1961-ci ildə BMT-nin Avropa Komissiyası tərəfindən həyat keyfiyyətinin göstəricilər sistemi işlənib hazırlanmışdır. Ölkələrin əksəriyyəti öz milli xüsusiyyətlərindən və imkanlarından çıxış edərək, bu göstəricilərdən müxtəlif şəkildə istifadə edir. Həyat keyfiy-

yətinin qiymətləndirməsində istifadə olunan əsas komponentlərinə aşağıdakılar aiddir: sağlamlıq, ərzaq məhsullarının istehlakı, təhsil, məşğulluq və əmək şəraiti, insan hüquqları, mənzil şəraiti, geyim, sosial təminat, istirahət və asudə vaxt [2].

Həyat keyfiyyətinin göstəricilər sisteminə həmçinin əhalinin gəlirləri və xərcləri, istehlak giymətləri və həyatın dəyəri, nəqliyyat vasitələri, sosial təminat, insan azadlığı da aid edilir. Bundan başqa, bəzi mənbələrdə adam başına düşən ÜDM, əhalinin şəxsi istehlak xərcləri və onun quruluşu, sosial xidmətlərin növləri və həcmi, əhali sıxlığı kimi göstəricilər də təklif olunur. Həyat keyfiyyəti göstəriciləri digər göstəricilərlə yanaşı cəmiyyətin sosial inkişaf səviyyəsini qiymətləndirməyə imkan verir.

Görkəmli Amerika alimi C.Flanaqan ayrıca indikatorlar çoxluğunu beş qrupda birləşdirmişdir: fiziki və maddi vəziyyət; digər adamlarla əlaqə; sosial, ictimai və vətəndaş aktivliyi; personalın inkişafı və fəaliyyətlər; rekreasiya.Hazırki dövrdə ABŞ-da əhalinin həyat keyfiyyətinin qiymətləndirilməsinin milli göstəricilər sistemi 13 əsas bölmələrdən ibarətdir: 1 - Ətraf mühit; 2 - Demoqrafik vəziyyət; 3 - Məşğulluq; 4 - Əmək şəraiti; 5 - Həyat səviyyəsi; 6 - Sosial təminat; 7 - Sağlamlıq; 8 - Təhsil; 9 - Mənzil şəraiti; 10 - Mədəniyyət, istirahət,əyləncə; 11 - Nəqliyyat təminatı; 12 - Milli müdafiə; 13 - Vətəndaş hüquqlarının müdafiəsi [3, s. 41].

Ayrı-ayrı ölkələrdə həyat keyfiyyətinin qiymətləndirilməsi üzrə yanaşmalar da müxtəlifdir. Məsələn, Böyük Britaniyada bu məqsədlə 11 göstərici seçilmişdir: əhali sıxlığı; mədəniyyət (mədəniyyət mərkəzlərinə yaxınlığı); mənzil şəraiti (mənzil sahəsinin ölçüsü); sakitlik; mənafe birliyi; həyat standartı;sağlamlıq; təhsil; ətraf mühit (çirklənmə və s.); təhlükəsizlik (təhlükəli cinayət və cinayət indeksi).

Əhalinin həyat keyfiyyəti hər bir ölkədə əhalinin həyat səviyyəsindən də asılıdır. Bir mənalı olaraq demək olar ki, həyat səviyyəsi yüksək olan dövlətlərdə həyat keyfiyyəti də yüksəkdir.

## 2. Həyat keyfiyyəti indeksi üzrə mövcud vəziyyət

Həyat keyfiyyəti indeksi İqtisadçı Kəşfiyyat Birliyi (Ekonomist İntelligence Unit) tərəfindən tərtib edilmişdir. Bu indeks subyektiv həyat məmnuniyyəti araşdırmalarının nəticələrini ölkələrin həyat keyfiyyətinin obyektiv determinantları ilə birləşdirən nadir metodologiyaya əsaslanır. Subyektiv həyat məmnuniyyəti araşdırmaları həyat məmnuniyyətinin səviyyəsini müəyyənləşdirmək məqsədilə əhali arasında keçirilən sorğulardan ibarətdir. Tədqiqat zamanı həyat keyfiyyətinin 9 faktorundan istifadə edilmişdir [4, s. 79]:

1. Maddi rifah: Satınalma gücü paritetli adambaşına ÜDM. Mənbə: İqtisadçı Kəşfiyyat Birliyi (E/U).

2. Sağlamlıq: Doğulanda gözlənilən ömür müddəti. Mənbə: ABŞ Statistika Bürosu (US Census Bureau).

3. Siyasi stabillik və təhlükəsizlik: Siyasi stabillik və təhlükəsizlik reytinqi. Mənbə: İqtisadçı Kəşfiyyat Birliyi (E/U).

4. Ailə həyatı: Boşanmaların səviyyəsi (hər 1000 nəfərə) 5 ballıq sistemdə indeksə çevrilir. Mənbə: BMT və Avromonitor (UN, Euromonitor).

5. İcma həyatı: Ölkədə ya dini xidmətlər, ya da həmkarlar təşkilatına üzvlük yüksək olarsa 1 bal, əks təqdirdə 0 bal verilir. Mənbə: Beynəlxalq Əmək Təşkilatı və Dünya Dəyərlər Araşdırması (ILO,World Values Survey).

6. İqlim və coğrafiya: İsti və soyuq iqlimi fərqləndirmək üçün en dairəsi. Mənbə:

ABŞ Mərkəzi Kəşfiyyat Agentliyi (CIA, World Facebook).

7. İş təminatı: İşsizlik səviyyəsi. Mənbə: İqtisadçı Kəşfiyyat Birliyi (E/U).

8. Siyasi azadlıq: Siyasi və mülki azadlıqların orta giyməti. 1 bal (tamamilə azad), 7 bal (qeyri-azad). Mənbə: Azadlıq Evi (Freedom House).

9. Gender bərabərliyi. Kişi və qadının orta məvaciblərinin nisbətini hesablamaqla ölçülür. Mənbə: BMT İnkişaf Proqramı İnsan İnkişafı Hesabatı (UNDP HDR).

Həyat keyfiyyəti indeksi Azərbaycanın daxil olduğu 111 ölkə üzrə 2005-ci ildə yayınlanmışdır. O zaman Azərbaycan 5,3 balla siyahıda 86-cı yeri tutmuşdur. 2013-cü ildə yayınlanan həyat keyfiyyəti indeksi üzrə isə respublikamız 80 ölkə arasında 5,6 balla 70-ci yerdə olmaqla Rusiya, Qazaxıstan və Ukraynanı geridə qoymuşdur. Lakin 80 ölkə arasında respublikamızın son onluqda qərarlaşması həyat keyfiyyətinin çox aşağı olduğunu göstərir. Siyahıda ilk yerləri İsveçrə, Avstraliya, Norveç, İsveç, Danimarka, Sinqapur və s. ölkələr tutur.

Cədvəl 1

**Həyat keyfiyyəti indeksi**

| № | Ölkələr | Qiymətləndirmə balı |
|---|---|---|
| 1. | İsveçrə | 8,22 |
| 2. | Avstraliya | 8,18 |
| 3. | Norveç | 8,09 |
| 4. | İsveç | 8,03 |
| 5. | Danimarka | 8,02 |
| 6. | Sinqapur | 8,00 |
| 7. | Yeni Zelandiya | 7,95 |
| 8. | Hollandiya | 7,94 |
| 9. | Kanada | 7,81 |
| 10. | Honkonq | 7,80 |
| 11. | Finlandiya | 7,76 |
| 12. | İrlandiya | 7,74 |
| 13. | Avstriya | 7,73 |
| 14. | Belçika | 7,51 |
| 15. | Almaniya | 7,38 |
| 16. | ABŞ | 7,38 |
| 17. | BƏƏ | 7,33 |
| 18. | Cənubi Koreya | 7,25 |
| 19. | İsrail | 7,23 |
| 20. | İtaliya | 7,21 |
| 21. | Küveyt | 7,18 |
| 22. | Çili | 7,10 |
| 23. | Kipr | 7,10 |
| 24. | Yaponiya | 7,08 |
| 25. | Fransa | 7,04 |
| 26. | Böyük Britaniya | 7,01 |
| 27. | Çexiya | 6,96 |
| 28. | İspaniya | 6,96 |
| 29. | Kosta-Rika | 6,92 |
| 30. | Portuqaliya | 6,92 |

| | | |
|---|---|---|
| 31. | Sloveniya | 6,77 |
| 32. | Polşa | 6,66 |
| 33. | Yunanıstan | 6,65 |
| 34. | Slovakiya | 6,64 |
| 35. | Malayziya | 6,62 |
| 36. | Braziliya | 6,52 |
| 37. | Səudiyyə Ərəbistanı | 6,49 |
| 38. | Meksika | 6,41 |
| 39. | Argentina | 6,39 |
| 40. | Kuba | 6,39 |
| 41. | Kolumbiya | 6,27 |
| 42. | Peru | 6,24 |
| 43. | Estoniya | 6,07 |
| 44. | Venesuela | 6,07 |
| 45. | Xorvatiya | 6,06 |
| 46. | Macarıstan | 6,06 |
| 47. | Latviya | 6,01 |
| 48. | Çin | 5,99 |
| 49. | Tailand | 5,96 |
| 50. | Türkiyə | 5,95 |

Mənbə:https://ru.wikipediya/org/wiki/индекс качества жизни

Qeyd etmək lazımdır ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalı respublikamızda əhalinin həyat keyfiyyətinin kəskin şəkildə aşağı düşməsinə səbəb olan əsas faktorlardan biridir. Belə ki, Azərbaycanın özü istəmədən müharibəyə cəlb edilməsi və müharibə şəraitinin hələ də qalması, Dağlıq Qarabağ probleminin həll edilməməsi nəinki respublikamızın bütövlükdə regionun sosial-iqtisadi inkişafına mənfi təsir edir.

Artıq 2017-ci ilin əvvəlindən Yevlax və Mingəçevir şəhərlərində pilot layihə kimi icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır və müəyyən müsbət nəticələr əldə edilmişdir. Əlbəttə, bu proses sürətləndirilib bütün respublika ərazisini əhatə etməlidir.

Azərbaycanda hər şeydən əvvəl əhalinin həyat keyfiyyətinin yüksəldilməsi üçün BMT tərəfindən müəyyən edilmiş həyat keyfiyyəti göstəricilərinin hər biri üzrə mövcud vəziyyəti yaxşılaşdırmaq tələb olunur. Bunun üçün əsasən aşağıdakı məsələlərin həlli zəruridir:

1. Bütün respublika ərazisində əhaliyə göstərilən tibbi xidmətlərin kəmiyyət və keyfiyyəti artırılmalıdır. Həmçinin tibbi xidmətlərin əlçatanlığı təmin olunmalıdır.

2. Təhsil sosial həyatın xüsusi sahəsi olduğuna görə burada şəffavlıq tam təmin edilməli,təhsilin bütün pillələrində tədrisin keyfiyyəti ön plana çəkilməlidir. Hazırda universitetlərdə müəyyənləşdirilən təhsil haqları aşağı təbəqənin gəlirlərinə uyğun deyil.

3. Mühüm sosial indikator hesab edilən və rəsmi təsdiq edilmiş yaşayış minimumunun məbləği reallığı qətiyyən əks etdirmir. Belə ki, faktiki yaşayış minimumu ilə təsdiqlənmiş yaşayış minimumu arasındakı fərq (2 dəfə, bəzən daha çox) son illərdə yüksək olaraq qalır. Bu yaşayış minimumu da insanın sağlamlığını və həyat fəaliyyətinin minimum səviyyəsini təmin edə bilməz. Bundan başqa, minimum əmək haqqı və pensiyaların baza hissəsi hələ də yaşayış minimumuna çatdırılmamışdır.

4. Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün paytaxt və regionlarda da daimi iş yerləri, o cümlədən ləyaqətli iş yerləri açılmalıdır. Qeyri-formal əmək münasibət-

ləri reallaşdırılmalıdır.

5. Qəbul olunmuş dünya praktikasında mənzil təminatının minimum norması 14 kv. m yaşayış sahəsi olduğu halda, Azərbaycanda bu göstərici 8,6 kv.m-dir. Avropa İttifaqı ölkələrində orta hesabla bir mənzilə 2-3 nəfər düşürsə, Azərbaycanda 5-6 nəfər düşür. Gənclər və İdman Nazirliyinin məlumatına görə 18-36 yasında gənclərin beşdə birinin mənzilə ehtiyacı vardır. 2014-cü ildə "Эхо» qəzeti özünün Echo.az saytı vasitəsilə apardığı sorğuya görə rəyi soruşulanların 66 faizi özlərinin mənzil şəraitindən razı olmadıqlarını bildirdilər. Sorğuya ancaq 22 faiz müsbət cavab vermişdir [6, s. 265]. Respublikamızda "Sosial ev" layihəsi (aztəminatlı ailələr üçün ucuz mənzillərin inşası) sürətləndirilməlidir. Əksər bazar iqtisadiyyatı ölkələrdə olduğu kimi Sosial Mənzil Fondu yaradılmışdır. Sevindirici haldır ki, bu sahədə artıq müəyyən işlər görülüb. Belə ki, Mənzil İnşaatı Dövlət Agentliyi Yasamal rayonunda birinci layihənin icrasını yekunlaşdıraraq Suraxanı rayonu Hövsan qəsəbəsində ikinci layihənin icrasına başlamışdır.

6. Qiymət intizamına əməl edilməli və qiymətlər üzərində nəzarət mexanizmi yaradılmalıdır, turizm sahəsində mövcud qiymətlər göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinə adekvat deyil və bu qiymətlər daxili turizmin inkişafına maneçilik törədir.

7. Yaradıcılıq, özünü inkişaf etdirmə, təşəbbüskarlıq cəmiyyətdə, iqtisadiyyatın bütün sahələrində dəstəklənməlidir.

## 3. Sosial inkişaf səviyyəsi üzrə dünya ölkələrinin reytinqi

Cədvəl 2

**The Sosial Progress Index 2017**

| Reytinq | Ölkə | İndeks |
|---|---|---|
| 1. | Danimarka | 90,57 |
| 2. | Finlandiya | 90,53 |
| 3. | İslandiya | 90,27 |
| 4. | Norveç | 90,27 |
| 5. | İsveçrə | 90,10 |
| 6. | Kanada | 89,84 |
| 7. | Hollandiya | 89,82 |
| 8. | İsveç | 89,66 |
| 9. | Avstraliya | 89,30 |
| 10. | Yeni Zelandiya | 89,30 |
| 11. | İrlandiya | 88,91 |
| 12. | Böyük Britaniya | 88,73 |
| 13. | Almaniya | 88,50 |
| 14. | Avstriya | 87,98 |
| 15. | Belçika | 87,15 |
| 16. | İspaniya | 86,96 |
| 17. | Yaponiya | 86,44 |
| 18. | ABŞ | 86,43 |
| 19. | Fransa | 85,95 |
| 20. | Portuqaliya | 85,44 |

Mənbə:www.gtmarket.ru/research/social-proqress-indeks/ info

İki cədvəlin müqayisəsindən görürük ki, həyat keyfiyyəti indeksinə görə siyahıda öndə olan ölkələr social inkişaf indeksinə görə də öncül yerləri tuturlar. Bu da tam qanunauyğun haldır.

Sosial inkişaf indeksi 2013-cü ildən Harvard Universitetinin professoru, beynəlxalq rəqabət qabiliyyətlilik və strateji idarəetmə sahəsində mütəxəssis Maykl Porter rəhbərliyi altında hesablanılır (hər il). Sosial inkişaf indeksi - bu social inkişaf və ictimai təminat nöqteyi nəzərindən dünya ölkələrinin nailiyyətlərini ölçən (müəyyən edən) beynəlxalq tədqiqat layihəsinin kombinə edilmiş göstəricisidir.

Bu və ya digər ölkənin social inkişaf sahəsində əldə etdiyi uğurlar aşağıdakı 3 qrupa birləşdirilmiş 50-dən çox göstərici əsasında öyrənilir [7]:

1. İnsanın əsas tələbatları - qidalanma, əsas tibbi yardımın əldə edilməsi, mənzil təminatı, su, elektrik və sanitar xidmətlərdən istifadə, şəxsi təhlükəsizlik səviyyəsi.

2. İnsanın rifah əsasları - baza biliyi əldə etməsi və əhalinin savadlılıq səviyyəsi, kommunikasiya vasitələri və informasiyaya giriş, səhiyyənin səviyyəsi, ekoloji dayanıqlıq.

3. İnsan inkişafı imkanları - fərdi və vətəndaş azadlığı səviyyəsi, hüquqi təminat, öz potensiallını reallaşdırma və qərar qəbuletmə imkanları.

Sosial inkişaf indeksi hər bir ölkə üçün şkala üzrə 0 ilə 100 bal arasında qiymətləndirilir. 2017-ci il tədqiqatı 128 ölkəni əhatə edir. MDB ölkələri arasında Gürcüstan (53-cü yer) ən irəlidə qərarlaşıb. Azərbaycan isə siyahıda Ermənistan, Ukrayna, Belarus, Rusiya, Qazaxıstandan sonra qərarlaşaraq 65,33 balla 76-cı yeri tutur.

## Nəticə

Son illər baş verən dünya iqtisadi böhranı da bu və ya digər halda dolayısı ilə Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşmür. Buna baxmayaraq Azərbaycanın milli iqtisadi gücü və iqtisadi potensialı əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə imkan verir. Təsadüfi deyildir ki, "Azərbaycan 2020! Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında müəyyənləşdirilmiş prioritetlər və onların icrası məhz əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ona görə də hesab edirik ki, yaxın zamanlarda respublikamızın həm həyat keyfiyyəti həm də sosial inkişaf indeksi üzrə dünya ölkələri arasında öz yerini yaxşılaşdıracaqdır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, respublikamızda sosial-iqtisadi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

## Ədəbiyyat

1. www.rae.ru/forum-2011/14/609
2. www.e-reading.club/chapter.php/88407/47/Ivanova Zhulina-Ekonomika i sosiologiya truda
3. А.Илдырым. К вопросу о критериях качества жизни. Известия НАН Азербайджана. Экономическая серия. №4, 2014, 151 с.
4. E Hacızadə, E.Bağırzadə. Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi. Bakı, 2011, 128 s.
5. https://ru.wikipediya.org/wiki/индекс качества жизни
6. T.H.Hüseynov. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Monoqrafiya. Bakı, 2015, 466 s.
7. www.gtmarket.ru/research/sosial-proqress-indeks/info

## ANALYSIS AND ASSESSMENT OF THE QUALITY OF LIFE OF THE POPULATION

**N.H.Jahangirov, T.A.Shahmuradova**

**SUMMARY**

This article deals with the essence of the concept of quality of life and provides a system of indicators of quality of life established by the UN European Commission. Main directions leading to the improvement of the quality of life of the population in Azerbaijan are studied.

## АНАЛИЗ И ОЦЕНКА КАЧЕСТВА ЖИЗНИ НАСЕЛЕНИЯ

**Н.Х.Джахангиров, Т.А.Шахмурадова**

**РЕЗЮМЕ**

В статье освещена суть концепции качества жизни и дана система показателей качества жизни, установленных Европейской комиссией ООН. Изучены основные направления, ведущие к улучшению качества жизни населения в Азербайджане.

*Məqalə redaksiyaya 4 mart 2019 tarixində daxil olmuş, 22 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

# T İ B B,
# B İ O L O G İ Y A
# V Ə P S İ X O L O G İ Y A
# E L M L Ə R İ B Ö L M Ə S İ

# S E C T I O N O F
# M E D I C I N E,
# B I O L O G Y A N D
# P S Y C H O L O G Y

2019 - № 51

UOT № 616

# BAĞIRSAQ PARAZİTOZU – BALANTİDİAZ

**V.N.Cavadzadə**
Azərbaycan Tibb Universiteti
Bakı, C.Cabbarlı küçəsi 35
e-mail: vuqar353@yahoo.com

***Açar sözlər:*** balantidiaz, protozoa xəstəliyi
***Keywords*****:** balantidiasis, protozoal disease
***Ключевые слова***: балантидиаз, протозойное заболевание

Balantidiaz - ümümi intoksikasiya və yoğun bağırsağın xoralı zədələnməsi ilə təzahür edən, xronik gedişə meyilli zoonoz mənşəli protozoa xəstəliyidir [1].

Etiologiyası. Törədicisi *Balantidium coli*-dir. İbtidailərə (protozoa) aiddir. Bu infuzoriyanı ilk dəfə 1857-ci ildə isveç alimi P.Malieston təsvir etmişdir. 1901-ci ildə N.S.Solovyov onun insanda xəstəlik törətmə qabiliyyətini aşkar etmişdir. Törədicinin vegetativ və sista formaları mövcuddur. Vegetativ formanın uzunluğu 50-80 mkm, eni isə 5-6 mkm-dir. Sistanın diametri isə 50 mkm-ə qədərdir.

Vegetativ formanın səthi kipriklərlə örtülüb ki, bu da onların hərəkətini təmin edir. Nəcisdə vegetativ formalar 5-6 saat diri qala bilir. Xarici mühitdə sistalar öz həyat qabiliyyətini 3-4 həftə ərzində qoruyub saxlayır. Hesab edilir ki, insanda və donuzda balantidiyaların bir növü parazitlik edir [6, 11, 17].

Epidemiologiyası. Xəstəlik nadir hallarda aşkar edilir. Lakin, əhalinin balantadioz ilə yoluxması kifayət qədər yüksəkdir. Belə ki, rayon əhalisinin 4-5%-i balantadiyalarla invaziya olunmuşdur.

Balantidiyaların əsas mənbəyi donuzlar, bəzən siçovullar, itlər, nadir hallarda isə insanlardır. Bu xəstəliyə xüsusilə donuzlarla tez-tez təmasda olan insanlar yoluxur. Donuzlar balantidiyaların təbii daşıyıcılarıdır. Onların 60-80-%-i balantidiyaya yoluxmuş olur. Uşaqlarda yoluxma balantidiazlı insanlarla təmas nəticəsində baş verir. Xəstələnmə adətən sporadik halda müşahidə edilir.

Yoluxma *fekal-oral* mexanizmlə baş verir. Parazitlər insanlara donuz nəcisi ilə çirklənmiş su vastəsilə keçir. Bəzi hallarda torpaq, göyərti və milçəklər də yoluxmaya səbəb olur [1, 7].

Patogenezi. İnsanın yoluxması çox vaxt balantidiyaların və onların sistalarının həzm traktına düşməsi nəticəsində baş verir. Törədici insanın bağırsağında öz patogen təsirini təzahür etdirməyərək, uzun müddət qala bilir. Adətən balantidiyalar nazik bağırsağların aşağı nahiyəsində yerləşir. Balantidiyaların bağırsaq toxumalarına daxil olma səbəbləri hələ ki müəyyən edilməyib. Balantidiyalar əsasən kor, S-ə bənzər və düz bağırsağı zədələyir.

Selikli qişanın büküşlərində əvvəlcə ödəm və hiperemiya əmələ gəlir. Sonra isə eroziyalar yaranır. Balantidiyalar toxumaların daxilinə keçərək, qansızmalara və nekroz ocaqların yaranmasına səbəb olur. Nekrotik kütlələr qopduqdan sonra bağırsağın divarında

boşluqlar yaranır. Xoraların konturları qeyri-düzgün, kənarları kəsilmiş və qalınlaşmış olur. Xoraların dibi nahamar olub, üzəri qanlı-irinli ərplə örtülür. Xoralar deşilərkən yayılmış peritonit inkişaf edir [1, 13, 15].

Klinika. İnkubasiya dövrü çox vaxt 10-15 gün, bəzən isə 5-30 gün çəkir.

Klinik olaraq, balantidiazın kəskin, xronik və subklinik formaları (daşıyıcılıq) ayırd edilir. Balantidiazın müştərək formaları da (amöbiaz, şigelloz və s.) aşkar edilir.

Ağırlıq dərəcəsinə görə yüngül, orta ağır və ağır formaları ayır edilir. *Balantidiazın kəskin formaları* öz kliniki təzahürlərinə görə enterokolit və ya koliti xatırladır. Əvvəlcə xəstələrdə ümümi intoksikasiya simptomları halsızlıq, baş ağrısı, iştahanın azalması, üşütmə ilə birgə mülayim titrətmə və qızdırma (39$^0$C) müşahidə edilir. Eyni zamanda bağırsağın zədələnmə əlamətləri aşkar edilir. Belə ki, xəstələrdə qarında ağrı, ishal, meteorizm, proses düz bağırsağa keçdikdə isə tenezmlər baş verir. Nəcis duru, çoxlu, tərkibində selik və qan müşahidə edilir. Yoğun bağırsağda tutmaşəkilli ağrılar baş verir. Əksər xəstələrdə qaraciyər böyüyür və ağrılı olur.

Rektoromanoskopiya zamanı ocaqlı infiltrativ-xoralı proses aşkar edilir.

Qanın müayinəsində mülayim anemiya, eozinofiliya, zülalın və albuminlərin ümumi miqdarının kəskin azalması aşkar edilir. Eritrositlərin çökmə sürəti mülayim dərəcədə artır.

Balantidiazın ağır gedişatında intoksikasiya əlamətləri kəskin nəzərə çarpır (titrəmə, ürəkbulanma, qusma, baş ağrısı). Gün ərzində nəcis ifrazı 15-20 dəfə olur. Nəcis çox vaxt ifunətli olur. Xəstələr sürətlə arıqlayır, bəzən onlarda bir həftədən sonra kaxeksiya yaranır.

Rektoromanoskapiya zamanı geniş xoralı dəyişikliklər aşkar edilir. Qanda hipoxrom anemiya və neytrofil leykositoz aşkar edilir.

Xəstəlik 2 aydan çox çəkdikdə xronik formaya keçir. Xronik balantadiaz residiv verən və fasiləsiz variantlara bölünür.

*Xroniki balantidiazda* intoksikasiya simptomları az nəzərə çarpır. Bədən hərarəti adətən normal olur. Defekasiya aktı gün ərzində 2-3 dəfə, nəcis duru, selikli, nadir hallarda isə qanlı olur. Obyektiv müayinə zamanı qarının köpməsi, kor və qalxan çəmbər bağırsaq nahiyəsinin ağrılı olması müşahidə edilir. Rektoromanoskopiya zamanı tipik xoralı dəyişikliklər aşkar edilir. Kəskinləşmələr remisiyalarla əvəz olunur ki, bu zaman xəstələr özlərini yaxşı hiss edir.

Obyektiv müayinə zamanı mühüm dəyişikliklər aşkar etmək mümkün olmur.

*Residivverən forma* 1-4 həftə davam edən remissiya dövründən sonra intoksikasiya ilə birgə kolit əlamətləri də kəskinləşir. Bu zaman qızdırma, halsızlıq və iştahasızlıq kəskin nəzərə çarpır, bağırsaq pozğunluğu isə davamlı və uzun müddətli olur.

*Fasiləsiz formada* zəif intoksikasiya əlamətləri olur, kolit əlamətləri isə uzun müddət davam edir. Xəstələrdə dərin mübadilə pozğunluqları nəticədə arıqlama ilə müşayət edilir.

Bəzən appendisit inkişaf edərək qarında dözülməz ağrılara səbəb olur. Bir çox xəstələrdə peritonun qıcıqlanma simptomlarına rast gəlinir.

Subklinik formada heç bir klinik əlamətlər müşahidə edilmir.

Bağırsağın perforasiyası nəticəsində perforativ yayılmış peritonit inkişaf edir. Bəzi hallarda xəstələr bağırsaq qanaxmasından ölür [2, 8, 12, 15].

Diaqnostikası. Balantidiaza diaqnoz anamnez məlumatlarına, epidemioloji məlu-

matlara və kliniki təzahürlərə əsasən qoyulur. Diaqnostikada rektoromanoskopiya nəticələrinin böyük əhəmiyyəti vardır. Nəcisdə parazitlərin aşkar edilməsi diaqnozu təsdiqləyir. Müayinə üçün nəcisi defekasiyadan 20 dəqiqə gec olmamaq şərti ilə götürmək lazımdır. Çox vaxt rektoromanoskopiya zamanı balantidiyaları bağırsağın zədələnmiş nahiyələrindən götürülmüş sıyrıntılardan hazırlanmış yaxmalardan aşkar etmək mümkün olur [4, 10].

Balantadiazı amöbiaz, qeyri-spesifik xoralı kolit və bağırsaq şişləri ilə differensiasiya etmək lazımdır.

XIX əsrdən etibarən dövrün qadınlarına qarşı bu cür amansız münasibəti görən Azərbaycan maarifçiləri mürtəce fikirli insanlara qarşı mübarizəni gücləndirmişdilər. Azərbaycanlı maarifçilərin - M.F.Axundov, M.Ş.Vazehin fikrincə qadına qarşı biganə münasibət, onların hüquq, savad baxımından geridə qalması ailədə neqativ halların yaranmasına səbəb olur. Onlar cəmiyyətin inkişafında əsas faktorun qadınlar olduğunu vurğulamış və öz əsərlərində etnopsixoloji əsas gətirərək qadına qarşı zorakı münasibəti aradan qaldırmağa çağırmışlar.

Qadın və kişilər arasında olan bu uyğunsuzluq həmin dövrün maarifçilərini narahat edən əsas məsələlərdən idi. Uşaqların tərbiyəsində, gələcəkdə savadli, ağıllı, psixoloji baxımdan normal usaqların yetisdirilməsində əsas rolun qadınlar olduğunu hesab edirdilər, buna görə də qadınların təhsil alması əsasdır. Onların fikrincə, ailədə usaqların mənəvi baxımdan sağlam şəraitdə böyüməsi üçün qadınların-anaların savadlanmağı vacibdir.

Dünyada baş verən dəyişikliklər, hərtərəfli inkişaf olkəmizdə də öz əksini tapmaqdadır. İnkişafda olan vətənimizdə yetərincə savadlı, güclü psixloji, mənəvi dəyərlərə sahib olan qadınlarımız var. Bu qadınlar olkəmizi beynəlxalq səviyyədə tanıdır, siyasi-iqtisadi baxımdan müdafiə edirlər. Mehriban Əliyeva, Qənirə Paşayeva, Leyla Əliyeva kimi qabaqcıl qadınlarımız daim xalqımızın, qadınlarımızın inkişafı və uğurlu gələcəyi uğrunda çalışmışlar.

## Ədəbiyyat

1. Azərbaycan qəzeti.- 2010.-7 mart.- s. 1
2. Azərbaycan. qəzeti. -2013.- 28 fevral.- s.5-7
3. Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, Qismət. 2003. 68 s.
4. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" ümumrespublika konfransının materialları. Bakı, Qafqaz Universiteti nəşri, 2008, - s. 208
5. Vəliyev M.V. Azərbaycan maarifçiliyinin psixoloji mahiyyəti. Gənc tədqiqatçıların «Müstəqillik yollarında: problemlər, perspektivlər» mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2004, s. 64
6. Vəliyev M.V. XIX əsrdə Azərbaycanda psixoloji ideyaların inkişafı. Bakı, 2007
7. www.education.gender.az

## DIFFERENT APPROACHES TO FEMALE IDENTITY IN AZERBAIJAN

**A.T.Bakshaliyev, S.B.Maharramova**

## SUMMARY

This work deals with the problems of female identity in Azerbaijan. The role of woman in Azeri society is discussed.

# РАЗНЫЕ ПОДХОДЫ К ЖЕНСКОЙ ЛИЧНОСТИ В АЗЕРБАЙДЖАНЕ

**А.Т.Бахшалиев, С.Б.Магеррамова**

**РЕЗЮМЕ**

Статья посвящена вопросам женской личности в Азербайджане. Исследована роль женщины в азербайджанском обществе.

*Məqalə redaksiyaya 3 aprel 2019 tarixində daxil olmuş, 6 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2019 - № 51**

UOT № 159.9

# İDARƏETMƏDƏ ŞƏXSİ QARŞILIQLI MÜNASİBƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ

**Z.Ə.Həcəmova**
AMEA Rəyasət Heyəti aparatı
Bakı, Xəqani küçəsi 65
e-mail: hecemova7@gmail.com

***Açar sözlər***: intellektual və mənəvi meyarlar, idarəetmə anlayışı, idarəetmədə insan amili, şəxsiyyətlərarası qarşılıqlı təsir
***Keywords:*** intellectual and moral criteria, management concept, human factor in management, interpersonal interaction
***Ключевые слова:*** интеллектуальные и моральные критерии, концепция управления, человеческий фактор в управлении, межличностное взаимодействие

İnsanların bir-birinə verdiyi emosional qiymətlər şəxsi qarşılıqlı münasibətlərin formalaşması prosesində mühüm rol oynayır. Belə ki, tədricən emosional qiymətlər intellektual, mənəvi, estetik qiymətlərlə üzvi surətdə birləşir. Bu əsasda, bir tərəfdən, hisslər, digər tərəfdən, emosional münasibətlər intellektuallaşır. Bu, hər şeydən əvvəl, insanların emosional münasibətlərinin dinamikasında bütün aydınlığı ilə nəzərə çarpmağa başlayır: emosional qiymətlər intellektual və ya mənəvi meyarlara istinad etdikcə, onların emosional münasibətlərində tədricən köklü dəyişikliklər əmələ gəlir.

Bütün bu insani münasibətlər kimi şəxsi qarşılıqlı münasibətlərdə də üç komponenti – **koqnitiv, affektiv** və **davranış** komponentlərini ayırd etmək zəruridir. Münasibətdən asılı olaraq, sosial-psixoloji reaksiyaların komponentləri aşağıdakı kimi tənzimlənir:

- **Koqnitiv komponent** – münasibət fərdin qiymətləndirilən obyekt haqqında tədricən topladığı *informasiya məcmusuna* əsaslanır;
- **Emosional (affektiv) komponent** – münasibət duyğuya (müsbət və ya mənfi) və ya obyektin *qiymətləndirilməsinə* yönəldici təsir edir;
- **Davranış komponenti** – münasibət dəyişkəndir və *reaksiyaya meyllidir*. Buna görə də o qabaqcadan xəbərvermə faydalılığına malikdir.

Sosial-psixoloji komponentlər idarəetməyə rəngarənglik, özünəməxsusluq və çeviklik verir.

Şəxsi qarşılıqlı münasibətlərin kökü insanların hisslər aləmi ilə bağlıdır. Belə bir aləm ilk növbədə emosional zəmində formalaşır. Şəxsi qarşılıqlı münasibətlərin emosional xarakter daşıması bütün hallarda onların mühüm xarakteristikası kimi meydana çıxır. Tanışlığın daha yaxın münasibətə çevrilməsi də məhz bu baxımdan izah edilir. İnsanlar özlərinin şəxsi qarşılıqlı münasibətlərini adətən “xoşum gəlir – xoşum gəlmir” terminləri ilə izah edirlər.

Şəxsi qarşılıqlı münasibətlər axarında insanlar bir tərəfdən, bir-birilərini, digər tərəfdən özlərini şəxsi qarşılıqlı münasibət sistemində qiymətləndirirlər. Onun əsas mexanizmini **sosial-psixoloji refleksiya** təşkil edir. **Refleksiya** – artıq başa çatmış prosesin şü-

urda inikasıdır. Cəmiyyətin inkişaf tendensiyası insanları biliklərinin sərhəddini, ixtisasını dəyişmək məcburiyyətində qoyur. İndiki şərait tələb edir ki, insan özünü tez-tez kəskin şəkildə refleksiya etsin, imkanlarını (intellektual, mədəni, fəaliyyət) müəyyənləşdirsin, yeniliyin xüsusiyyətlərini anlamağa çalışsın, effektiv şəkildə kommunikativ və kooperativ əlaqələr qursun. Bu isə insandan bütün həyatı boyu təhsil almağı tələb edir. Ömür boyu fasiləsiz təhsilalmanın vacibliyi XXI əsrdə ixtisaslı kadrların yenidən hazırlanmasını, iqtisadiyyatın və cəmiyyətin tələbinə uyğun öz ixtisasını müntəzəm artırmasını, təkmilləşdirməsini ön plana çəkir.

XXI əsrin təhsil sistemi kifayət dərəcədə novator xarakterli, çevik və yaradıcı keyfiyyətlərə malik olmalıdır. Bu innovasiyalar sözsüz ki, idarəetməyə də təsir edir. Belə ki, idarəetmənin demokratikləşməsi, idarəetmə vəzifələrinin həllində insan amilinin yaradıcı potensialından daha dolğun və səmərəli istifadə edilməsinə imkan yaradır. İdarəetmədə personalın yaradıcı potensialından səmərəli istifadə etmək üçün, rəhbərin müvafiq humanitar, mənəvi-psixoloji hazırlığı, psixoloji və pedaqoji mədəniyyəti olmalıdır. Belə ki, insan haqqında, onun mənəvi-psixoloji dünyası, şəxsiyyəti haqqında dolğun təsəvvürlərin olması, rəhbərə, insanları tanımağa, başa düşməyə personalla işi, ünsiyyəti və münasibətləri daha səmərəli və konkret qurmağa və onlara mənəvi-psixoloji, tərbiyəvi təsir etməyə, onları məhsuldar əməyə həvəsləndirməyə imkan verir. Nəticədə cəmiyyət də demokratikləşir ki, bu da insanların idarəetmədə iştirak etmələrinə, müsbət qarşılıqlı təsirin formalaşmasına və bu prosesdə onların yaradıcı potensialından daha dolğun istifadə edilməsinə geniş imkanlar yaranır.

Rəhbərin idarəetmə fəaliyyətinin özünəməxsusluğu hər bir rəhbərə xas olan fərdi idarəetmə üslubunda öz ifadəsini tapır. Beləliklə, idarəetmə fəaliyyətinin özünəməxsusluğunun və psixoloji qanunauyğunluqlannın inteqrativ ifadəsi olan rəhbərlik üslubu, idarəetmə psixologiyasının əsas mövzusunu təşkil edir. Rəhbərin mənəvi, sosial-psixoloji hazırlığı, xüsusilə, kadrlarla işi səmərəli qurmaqda və personalın idarə olunmasında özünü daha qabarıq göstərir. İnsanın bütöv mahiyyətini ifadə edən fərdi üslubun nəzərə alınması onların fəaliyyəti üçün daha əlverişli şərait yaratmağa və personalın idarə olunmasında strategiyanın müəyyən olunmasına imkan verir.

Ümumilikdə idarəetmə elə bir sistemdir ki, burada rəhbər şəxsin üzərinə olduqca böyük məsuliyyət düşür. Bu sistemin düzgün idarə edilməsi müəyyən şərtlərə əsaslanmalıdır. Aşağıdakı cədvəllərdə rəhbər şəxsin fəaliyyətinin təkanverici qüvvələri (Cədvəl 1) və idarəetmədə şəxsiyyətlərarası münasibətlərdə özünü biruzə verən konfliktlərin aradan qaldırılması yolları (Cədvəl 2) göstərilmişdir:

Cədvəl 1

| **Rəhbər şəxsin fəaliyyətinin təkanverici qüvvələri** | |
|---|---|
| **İdarəetmənin əsasları** | İstiqamətləndirmə |
| | Ardıcıl və fasiləsiz rəhbərlik (nəzarət) |
| | Təsir göstərmək bacarığı |
| | Qrup işinə və ya əməkdaşlığa təşviq etmə |
| | Kollektivin motivasiya edilməsi |
| | Əməkdaşların özünüinkişafa təşviq edilməsi |
| | Novatorluq |

Cədvəl 2

| | |
|---|---|
| **İdarəetmədə neqativ təəssüratların aradan qaldırılması yolları** | Artan neqativ halların emosional "klapan" vasitəsilə korreksiya edilməsi psixoloji baxımdan olduqca əhəmiyyətli rola malikdir. Şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi və qarşılıqlı təsirin inkişaf etdirilməsində emosiyaların saxlanması düzgün qiymətləndirilmir. Belə ki, emosiyaların biruzə verilməməsi və saxlanması vəziyyəti kəskin sürətdə gərginləşdirir. Hər hansı bir xoşagəlməz hal müqavimətin daha da artmasına səbəb olur. Belə ki, hisslərin saxlanılması daxili gərginliyi daha da artırır. Daxili gərginliyə səbəb olan neqativ enerjinin buraxılması baş verə biləcək hadisələrin kəskinliyini aradan qaldırır. Neqativ enerjinin uzun müddət saxlanılması kəskin depressiv hallara, həmçinin digər müxtəlif xəstəliklərə səbəb ola bilər. Psixoloji yüngülləşməyə səbəb olduğu halda ağlama refleksi yol veriləndir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, göz yaşı vasitəsilə insan orqanizmindən müxtəlif növ toksiki maddələr xaric olunur. |

## İntellektual və mənəvi meyar anlayışı

Məlumdur ki, bəşəriyyət qarşısında iqtisadi, xammal, ərzaq, ekoloji, demoqrafik və digər bu kimi qlobal problemlər dayanmaqdadır. Bütün bunların həlli dünyanın iqtisadi, elmi-texniki, intellektual və mənəvi resurslarının bütün ölkə, xalq, hətta hər bir kəsin gücündən birgə razılaşdırılmış şəkildə istifadəsini əhəmiyyətli dərəcədə artırır. Ölkə, xalq və insanların birliyinə nail olmanın ən optimal vasitələrindən biri isə məhz mədəniyyətlərin bir-biri ilə qarşılıqlı əlaqəsi, bir-birinə nüfuz edərək inteqrasiya etməsidir. Digər xalqların mədəniyyətləri, onların özünəməxsus xüsusiyyətləri və cəhətləri ilə tanışlıq öz milli mədəniyyət və incəsənətinin daha dərindən dərki üçün çox böyük zəmin yaradır. Təkcə digər mədəniyyətləri öyrənməklə işi bitmiş hesab etmək olmaz. Burada həm də doğmalıq, həm də yaxınlıq axtarmaq məqsədəuyğundur. Müasir sivilizasiya üçün zəruri və aktual olan mədəniyyətlərin dialoqu yalnız bu yolla mümkündür.

Müasir elitar nəzəriyyələrin formalaşmasına güclü təsir göstərən nöqteyi nəzərlərdən biri də **Fridrix Nitsşenin** baxışlarıdır. F.Nitsşe dünyəvi inkişaf prosesinin ilkin əsasını tarixin hakimiyyətə doğru cəhd göstərən qüvvələrində görürdü.

**Qərbdə subyektiv-psixoloji istiqamətin yaradıcısı, "Sosial qanunlar" kitabının müəllifi fransız sosioloqu və kriminoloqu Qabriel Tarda** görə isə, dəstə qarşılıqlı simpatiyaya, *«təqlid mənbəyinə»* görə formalaşır və burada əsas amil insanları birləşdirən emosiyalardır.



Lebon və Siqelə görə isə kütlələr mənfi hisslər ətrafında müsbət emosiyalarla nisbətən daha tez birləşirlər. *S.Siqele əlavə edir ki, dəstə və yığının böyüklüyü onun sayca böyüklüyü ilə əlaqədardır. Kütlədəki ayrı-ayrı fikirlərin qarşılıqlı razılıqla qarşılanması inam və hətta fanatizmin formalaşmasını təmin edən amillərdəndir.*

Kütlə haqqında irəli sürülən fikir və mülahizələri aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

**1)** Dəstə, yığın, kütləyə sadəcə qurğu kimi yanaşmaq olmaz; onu təşkil edən ayrı-ayrı insanların şüuruna böyük təsir göstərən vahid bir bütövlük vardır;

**2)** Kütlə *«aşağı səviyyənin orqanizmi»* kimi; insanlar kütlə ətrafında onun üzvlərinə aydın olan daha elementar emosiya və ideyalara görə birləşirlər ki, bu da onun intellektual və mənəvi səviyyəsinin həmin cəmiyyətin «normal» hesab edilən üzvlərinin səviyyəsindən aşağı olmasına əsas səbəbdir.

**3)** Şəxsiyyət kütlə içərisində heçə enərək *«sivilizasiya pilləkənindən aşağı düşür».*

**Qustav Le Bonun** fikrincə isə kütləvi hərəkətlərdən kənar şəxsiyyət *«mədəni insan hesab edilirsə, dəstədə o, instinktiv bir varlığa, vəhşiyə çevrilir».*

Kütlənin adekvat modeli kimi hazırda dəstə və yığın deyil, publika, yəni tamaşaçı əsas meyar kimi çıxış edir. «Dəstə», «publika», «tamaşaçı» kateqoriyalarının hər biri tarixi mahiyyət kəsb edir. «Kütlə», «publika» və «tamaşaçı» kateqoriyalarının fərqləndirilməsi **ilk dəfə Q.Tard** tərəfindən həyata keçirilmişdir. O, öz müddəalarında tələb edirdi ki, «kütləni publika ilə eyniləşdirmək olmaz»; çünki kütlə insanların fiziki vəhdətidirsə, publika insanların nisbətən səpələnmiş formasıdır; birincisi daha «dözülməz» olduğu halda, ikincisi passiv və daha «sivil» xarakter daşıyır.

## İdarəetmədə insan amilinin rolu

Müasir idarəetmə təcrübəsi belə bir fikri təsdiqləyir ki, idarəetmə fəaliyyətinin səmərəliliyi idarəetmə sisteminin əsas elementi olan **insan amilinin** yaradıcı potensialından necə istifadə olunmasından və idarə olunan təşkilatda insani münasibətlərin tənzimlənməsindən çox asılıdır. Müasir dövrdə cəmiyyətin həyatının müxtəlif sahələrinin, o cümlədən, idarəetmə sisteminin demokratikləşməsi, təşkilatların idarə olunmasında insan amilinin rolunu daha da artırmışdır. Bütün bunlar idarəetmənin sosial-psixoloji problemlərinin və idarəetmənin humanist mahiyyətinin öyrənilməsinə marağın artmasına səbəb olmuşdur. Mütəxəssislər idarəetmə psixologiyasına marağın artmasını və bu elm sahəsinin inkişafını məhz idarəetmə praktikasında insan amilinin rolunun artması ilə izah edirlər. İdarəetmədə insan amilinin rolunun öyrənilməsi idarəetmənin daha səmərəli qurulmasına xidmət edir. Nəticədə əməyin səmərəliliyi artır, əmək şəraitinin insana uyğunlaşdırılması və ya insanın iş şəraitinə uyğunlaşdırılması prosesinə təkan verilir. Belə ki, idarəetmədə insan potensialının imkanlarından daha dolğun istifadə mümkün olur.

İdarəetmə fəaliyyətində reallaşan idarəetmə münasibətləri, eyni zamanda, psixoloji münasibətlər kimi də çıxış edir. Belə ki, idarə edənlə idarə olunanlar arasında yaranan idarəetmə münasibətlərinin, həmçinin qarşılıqlı təsirin xarakteri və rəhbərin işçilərə göstərdiyi emosional-iradi təsiri, onun şəxsi keyfiyyətlərindən, psixoloji hazırlığından, kommunikativ keyfiyyətlərindən və ona xas olan fərdi idarəetmə üslubundan çox asılı olur. Rəhbərin psixoloji hazırlığı və yüksək psixoloji mədəniyyəti xüsusilə kadrlarla işdə, onların seçilib qiymətləndirilməsində, işçilərin məhsuldar əməyə həvəsləndirilməsində və motivləşdirilməsində, təşkilatda şəxsiyyətlərarası münasibətlərin qurulmasında və tənzimlənməsində daha qabarıq şəkildə özünü büruzə verir.

İdarəetmə spesifik fəaliyyyət forması olub mürəkkəb, çoxcəhətli hadisə kimi müasir elmlərin birgə səyi ilə, kompleksli araşdırılması nəticəsində onun mürəkkəb mahiyyəti haqqında dolğun elmi baxışlar formalaşır. Mürəkkəb sistem olan idarəetmədə insan amili, mənəvi-psixoloji amillər xüsusi yer tutur. İnsan amili idarəetmə fəaliyyətinin fəal-yaradıcı, tənzimləyici elementi kimi, onun özünəməxsusluğunu, məqsədyönlülüyünü, sistemli mahiyyətini müəyyən edir. İdarəetmə fəaliyyətinin özünəməxsusluğu idarəetmə psixologiyası tərəfindən öyrənilir. Beləliklə, idarəetmə psixologiyası idarəetmə fəaliyyətinə və idarəetmə funksiyalarına insanın mənəvi-psixoloji prizmasından yanaşır və idarət-

mədə insan amilinin fəal-yaradıcı, tənzimləyici rolunu öyrənir.

Cəmiyyətdə baş verən dəyişikliklər, idarəetmə sistemində də müvafiq dəyişikliklərin, islahatlann aparılmasını və müasir tələblərə cavab verən idarəetmə kadrlarının hazırlanmasını tələb edir. Eyni zamanda, personalın səmərəli idarə olunması üçün, işçilərin mənəvi-psixoloji aləmində baş vermiş dəyişikliklərin öyrənilməsi və idarəetmədə bunların nəzərə alınması tələb olunur.

Müasir idarəetmə təcrübəsində daha çox bu qənaətə gəlinir ki, idarəetmənin səmərəsini artırmaq və təkmilləşdirmək üçün insan amilinin yaradıcı potensialından daha dolğun istifadə etmək və kadrlarla işi düzgün qurmaq lazımdır. Çünki idarəetmədə reallaşan idarəetmə münasibətləri və idaretmə funksiyalarının həyata keçirilməsi insanların yaradıcı fəaliyyəti nəticəsində baş tutur. Müasir idarəetmədə kadrlarla işin prioritet vəzifə olmasına görə təsadüfi deyil ki, adətən təşkilatın birinci rəhbəri kadrlarla aparılan işə və kadr siyasətinə şəxsən özü nəzarət edir. Kadrlarla işin yüksək səviyyədə aparılması və personalın səmərəli idarə olunması üçün rəhbərlərin, kadrlar üzrə mütəxəssislərin müvafiq psixoloji hazırlığının, kommunikativ keyfiyyətlərin, yüksək ünsiyyət mədəniyyətinin və psixoloji metodlardan istifadə etmək bacarığının olması tələb olunur.

## Şəxsi qarşılıqlı münasibətlərin formalaşması

Şəxsi qarşılıqlı münasibətlərin formalaşmasında partnyorların şəxsiyyətəməxsus keyfiyyətləri önəmli rol oynayır. Təbii ki, insanın malik olduğu keyfiyyətlərin hamısı öz-özlüyündə şəxsi qarşılıqlı münasibətlərin təşəkkülünü eyni dərəcədə şərtləndirə bilməz. Əgər *insanı münasibət obyekti* kimi nəzərdən keçiririksə, belə bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, şəxsi qarşılıqlı münasibətlərin formalaşmasında onun *yüksək qiymətləndirdiyi keyfiyyətlər* həlledici rol oynamalıdır. İnsanın gözəllik, mənəvi təmizlik, borc, kişilik, qadınlıq və s. haqqında malik olduğu stereotip, etalon və ideallar onun qavradığı adamın şəxsiyyətini anlamağa mühüm təsir göstərir. Buna görə də insanların seçici münasibətlərini şərh etmək üçün hər bir konkret halda qrupun hər bir üzvünün sərvət meyllərinin məzmununu, səviyyəsini və strukturunu bilmək lazımdır.

Şəxsi qarşılıqlı münasibətlərin hər bir tipi *psixoloji məsafə* ilə xarakterizə olunur. Psixoloji məsafə şəxsi qarşılıqlı münasibətlərin inkişafında özünəməxsus *norma* (reqlament) rolunu oynayır. Bu, hər şeydən əvvəl, özünü onda göstərir ki, insanlar psixoloji məsafənin xarakterindən asılı olaraq öz hisslərini bir-birilərinə müəyyən diapazonda ifadə edirlər. Şəxsi qarşılıqlı münasibətlərin inkişafı kontekstində maraqlı bir paradoks – *dərketmə paradoksu* müşahidə olunur. Dərketmə paradoksunun ən çox rast gəlinən formaları aşağıdakılardır:

**a)** İnsanlar “simpatiya – antipatiya”, “hörmət – hörmətsizlik”, “yaxınlıq – uzaqlıq” dixotomiyası kökündə öz münasibətlərini emosional sürətdə dərk edirlər. Onların şəxsi qarşılıqlı münasibətləri bu zəmində ya qaynaqlanır, ya da tədricən öləzləyir.

**b)** Şəxsi münasibətlər sistemində əslində əlverişsiz vəziyyətdə olan şəxslər qrup üzvlərinə yüksək tələblər verir, onların işlərinə qarışır, hamının birinci növbədə onunla salamlaşmasına, məsləhətləşməsinə və s. can atırlar. Bunların hamısı psixoloji cəhətdən qeyri-adekvat reaksiyalardır. Məhz buna görə də onlar qrupda nəinki həmin şəxsin vəziyyətini yaxşılaşdırır, əksinə daha da pisləşdirir.

**c)** Qrupda əlverişli vəziyyətdə olan şəxslərin isə şəxsiyyətlərarası münasibətlər sahəsində iddia səviyyəsinin aşağı olması müəyyən edilmişdir. Qrup üzvlərinin şəxsiyyət-

lərarası münasibətlər sahəsindəki vəziyyəti ilə iddia səviyyəsi arasındakı asılılıq spesifik psixoloji fenomen kimi **"dərketmə paradoksu"** adlanır. **Dərketmə** insanın öz əqli və fiziki qabiliyyətlərinin öyrənilməsi və anlamasıdır. Bu zaman bütün bilik və fəaliyyətlər insanın özü-özünü anlamağa yönəldilir. İnsan öz qəlbi və ruhunun kəşfindən çox, dünya və cəmiyyətin qanunlarını, onu əhatə edən aləmin sirlərini kəşf edə bilmişdir.

### Ədəbiyyat

1. Alfred Otara. A guide for managers and leaders. PO Box. 5039, Kigali, Rwanda, 2011
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Qapp – Poliqraf, Bakı, 2003
3. Haqverdiyev B.Y., İdarəetmə psixologiyası. Dərs vəsaiti. Bakı, Elm, 2008
4. Konfliktologiya. Dərslik. Bakı, 2006
5. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik. Bakı, 2010

## FEATURES OF PERSONAL RELATIONSHIP IN MANAGEMENT

**Z.A.Hajamova**

### SUMMARY

It is claimed in this work that the nature of management relationships between the managers and the emotional impact of leader on the employees depends on his personal qualities, psychological preparation, and his individual management style.

## ОСОБЕННОСТИ ЛИЧНЫХ ВЗАИМООТНОШЕНИЙ В УПРАВЛЕНИИ

**З.А.Гаджамова**

### РЕЗЮМЕ

В статье показано, что характер управленческих взаимоотношений, возникающих между менеджерами, и эмоциональное воздействие лидера на сотрудников зависит от его личных качеств, психологической подготовки и присущего ему индивидуального стиля управления.

*Məqalə redaksiyaya 14 mart 2019 tarixində daxil olmuş, 16 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

**2019 - № 51**

UOT № 616.9-02

# UŞAQLARDA SOMATİK PATOLOGİYALARIN YARANMASINDA İNFEKSİON XƏSTƏLİKLƏRİN ROLU

**K.Ə.Cəfərova, Ş.M.Rəşidova**
Azərbaycan Tibb Universiteti, yoluxucu xəstəliklər kafedrası
Bakı, Cəfər Cabbarlı küçəsi, 37
**Ə.M.Cəfərov**
Azərbaycan Tibb Universiteti, uşaq xəstəlikləri kafedrası
Bakı, Səməd Vurğun küçəsi, 956-cı məhəllə
e-mail: infeksiyakonul@gmail.com

***Açar sözlər:*** uşaqlar, infeksion xəstəliklər, somatik xəstəliklər
***Keywords:*** children, infectious diseases, somatic diseases
***Ключевые слова:*** дети, инфекционные заболевания, соматические заболевания

İnfeksion patologiyanın tezliyi dayanmadan artır, ön plana oppurtinist və virus infeksiyalar çıxır. Bu infeksiyalar uzun müddət davam edən və residivləşən xarakter daşıyır. İnfeksiyaların autoimmun xəstəliklər, ağciyər-bronxial, ürək-damar, mədə-bağırsaq patologiyaları ilə əlaqəyə malik olması haqqında da fikirlər vardır. Anadangəlmə qüsurların formalaşmasında bətndaxili infeksiyaların da rolu bu gün heç bir şübhə doğurmur. İnfeksion xəstəliklər uşaq orqanizminə ciddi təsir göstərir.

Uşaqda böyüm dövründə orqanizmi zədələyən uşaq infeksiyaları qrupunu ayrırlar. Uşaqlıq dövründə letallığın 80%-ni məhz infeksiyalar təşkil edir. 30%-dən çox uşaqda əlillik ağır gedişatlı infeksiya nəticəsində formalaşır. Bunların da arasında neyroinfeksiyalar əsas yerdə durur [1,2,3,4].

İnsan orqanizmi mikroflorası xüsusi bir orqan olub, daxildən bağırsağın və başqa selikli orqanların üzərini örtür. Sanki bir corab rolunu oynayır. Belə corab 10 yaşında uşaqda 1,5 kq təşkil edir və burada 1014 mikroorqanizm növü olur. O, həzm prosesi, immunitetin yaranması, vitamin və fermentlərin sintezində və s. iştirak edir. Qeyd etmək lazımdır ki, mikroorqanizmlərin "sosial rəftara" malik olduğu aşkar edilmişdir. Onların tərkibində xüsusi infromasiya şəbəkəsi yaranır ki, bu da mikroblara eyni zamanda təsir göstərməyə imkan yaradır. Bu informasiya şəbəkəsi sayəsində mikroorqanizmlərin ətraf mühit və aqressiya faktorlarına uyğunlaşma mexanizmi işə düşür [5,6,7].

Uşaqlar daha çox respirator xəstəliklərdən əziyyət çəkirlər. Bir çox müəllifin fikrincə, bunlar erkən mərhələdə boyun və immunitetin inkişafının triggerləri hesab edilir. Allerqoloqlar hesab edirlər ki, faydalı bakteriyalar immun sistemə allergik reaksiyalara qarşı davamlı olmağı "öyrədirlər" [8,9].

Bəzi virus infeksiyalarına qarşı məsələ artıq aydınlaşdırılmışdır. Məlumdur ki, Ascaris, Ancylostoma, Strongyloides, Filaria, Echinococcus, Schistosoma, Trichinella, Toxocara, Fasciola infeksiyaları urtikar səpkilər və angionevrotik ödəm və helmitinlərin invaziyasına səbəb olur. Dərman və qida allergiyası zamanı parazitozların manifestasiyası baş verir. Ürək-damar sistemi xəstəlikləri, ürək qüsurlarının formalaşmasında sitomeqola-virus infeksiyası, bəzən də toksiplazmoz iştirak edir. Reaktiv artrit infeksion prosesin im-

mun iltihab prosesinə çevrilməsinin unikal transformasiyasıdır. Reaktiv artritlərin yaranmasında uşaqlarda bağırsaq infeksiyaları aktiv iştitak edir (Yersinia enterocolitica – 03 və 09 serotiplər, Yersinia pseudotuberculosis, Salmonella enteritidis, Salmonella oranienburg, Salmonella typhimurium və s.). Diaqnostik anticisimlərin bağırsaq qrupu törədicilərinə qarşı yüksək titri aşkar edilmişdir. Daha çox Fleksiner, nadir hallarda (7-13% hallarda) İersinioz müayinə edilir. Həmçinin spondiloartrit olan xəstələrdə bağırsaq və xlamidium infeksiyaları aşkar edilir. Birləşdirici toxumanın diffuz xəstəlikləri olan uşaqlarda burun-udlaq infeksiyaları üstünlük təşkil edir [9,10].

Bütün bunları nəzərə alaraq tərəfimizdən 2013-2016-cı illər ərzində infeksion xəstəliklərin strukturunu təhlil edərək və daha çox qeydə alınan infeksiyaların aşkar edilməsi məqsədini qarşıya qoyduq.

Tədqiqatın material və metodları: Ə.F.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanasının I neyroinfeksiya şöbəsi.

**Cədvəl 1**

**2012-2016-cı illər ərzində infeksion xəstəliklərin nozologiyası**

| İnfeksion patologiyalar | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Neyroinfeksiya | 89-31.0 | 111-38.4 | 101-30.5 | 86-26.2 | 94-24.4 |
| Qarış.bag.xəstəlikləri Tetanus | 2-1.0 | 1-0.4 | 1-0.3 | - | 1- |
| Bağırsaq keçməməzliyi | 1-1.0 | 1-0.4 | - | - | 1- |
| Yoluxucu enterit | 15-6.0 | 10-3.5 | 11-3.3 | - | |
| U.S.İ. (uşaq serebral iflici) | 6-2.0 | - | 1-0.3 | 20-6.1 | 1 |
| Qastro-enterit | 22-8.0 | 20-6.9 | 3-0.9 | 4-1.2 | 7 |
| Salmonelyoz | 4-2.0 | 4-1.4 | 4-1.2 | 23-7.0 | 110-28.6 |
| Hepatit B | 3-1.0 | 1-0.4 | 5-1.5 | 11-3.3 | 11-2.8 |
| Virus hepatiti C | 1-1.0 | 1-0.4 | 3-0.9 | 4-1.2 | - |
| Virus hepatiti A | 3-1.0 | 3-1.4 | 10-3.03 | - | |
| KRVİ | 113-40.0 | 93-32.2 | 159-47.2 | - | |
| Toksiki hepatit | 1-1.0 | 2-0.7 | 6-1.8 | 147-45.0 | 92-24.0 |
| Pnevmoniya | 4-2.0 | 31.4 | 6-1.8 | - | - |
| Bronxopnevmoniya | 4-2.0 | 99-3.1 | 1-0.3 | 15-4.5 | 15-4.0 |
| Qastrit | 1-1.0 | 2-0.7 | 3-0.9 | 2 | - |
| Xroniki hepatit | 1-1.0 | 2-0.7 | 3-0.9 | | 3- |
| Vərəm meningiti | 15-6.0 | 18-6.2 | 14-4.2 | 1 | 1- |
| Qan xəstəlikləri | - | 4-1.4 | 2-0.6 | 12-3.6 | 13-3.3 |
| Polipodikulinevrit | - | 1-0.4 | - | | |
| Virus hepatiti | - | 1-0.4 | 2-0.6 | 2 | 7 |
| Müxtəlif xəstəliklər | 3-1.0 | 2-0.7 | 2-0.6 | 327 | 384 |
| Cəmi | 288 | 289 | 337 | | |

Cədvəl 1-dən göründüyü kimi, bu illər ərzində uşaqlar arasında neyro-infeksiyalar üstünlük təşkil etmişdir. Kəskin virus infeksiyaları 2012-2014-cü illərdə xüsusilə çox olmuşdur. Yoluxucu enteritin də göstəriciləri 2012-2014-cü illərdə yüksək olmuşdur.

Şöbənin profilinə uyğun olaraq keçən xəstələrin çoxu neyroinfeksiyadan olub (2013-111). Bu profildən olan xəstələrin nozologiyası Cədvəl 2-də öz əksini tapmışdır.

**Cədvəl 2**

**Neyro infeksiyaların nozologiyası**

| Xəstəliklər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Hidrosefaliya | - | 3-2.7 | 1-0.3 | 12-13.9 | 13-12.0 |
| Vərəm meningiti | 15 | 18-16.2 | 14-4.2 | 4-4.6 | 12-11.2 |
| Irinli meningit | 43 | 52-46.9 | 42-12.7 | 1- | 1 |
| Meninqoensefalit | 16 | 13-11.7 | 25-7.6 | 34-39.5 | 45-42.0 |
| Meninqokoksemiya | 14 | 8-7.2 | 8-2.4 | 14-16.2 | 13-12.0 |
| Epid.parotitdən sonra Meninqoensefalit | - | 1-0.9 | - | 8-9.3 | 9-8.4 |
| Toksiki ensefalit | 5 | 6-0.01 | 4-1.2 | | |
| Meninqoensefalit-virus mənşəli | 1 | 1-0.9 | 1-0.3 | 5 | 4 |
| Venterokulit | 1 | 1-0.9 | 1-0.3 | | - |
| Baş beyinin mədəciyinin hematoması | 1 | 2-1.8 | 1-0.3 | | 3 |
| B/b ödemi | 2 | 1-0.9 | 1-0.3 | 3 | 6-5.6 |
| Kəllə beyin travması | 2 | 1-0.9 | - | | |
| Beyin qan dövranının kəskin pozulması | 3 | 1-0.9 | 2-0.6 | | |
| Sol beyin yarımkürəsinin kistoz tumoru | - | 3-2.7 | - | | |
| Cəmi | 104 | 111 | 101 | 86 | 107 |

Hidrosefaliya 2012-ci ildə qeydə alınmasa da, digər illərdə kifayət qədər yüksək tezlikdə olmuşdur, vərəm meningiti də qeydə alınmışdır. 2014-cü ildə 12 xəstədə vərəm meningiti aşkar edilmişdir. Onlar 4 nömrəli vərəm dispanserinə göndərilmişlər. 1 nəfərdə diaqnoz təsdiqlənmiş, 2 nəfərdə isə serroz meningit müəyyən edilmişdir. 2015-ci ildə isə 12 nəfərdə vərəm meningit müəyyən edilmişdir. Vərəm dispanserinə göndərildikdən sonra 10 nəfərdə diaqnoz təsdiqlənmiş, 2 nəfərdə seroz meningit aşkar edilmişdir. Hər il meninqoensefaliya mənşəli infeksiyalar qeydə alınmışdır.

Beləliklə, aparılan tədqiqatlardan və əldə edilən ədəbiyyatın təhlilindən məlum olmuşdur ki, uşaqlar arasında infeksion xəstəliklərin tezliyi son dərəcə yüksək olaraq davam edir. Buna uşaqların sosial həyatı, ailədə irsi anamnez ilə yanaşı bir çox başqa faktorlar da təsir göstərir. Hazırda iltihab, infeksiya əleyhinə son dərəcə zəngin dərman vasitələrinin yaradılmasına baxmayaraq, uşaqlar arasında infeksion xəstəliklər yüksək olaraq qalmaqdadır və letallığın əsas səbəbidir. Bu səbəbdən infeksion xəstəliklərlə mübarizə təkcə aktual tibbi problem deyil, həm də xüsusi sosial-siyası vəzifə kimi qarşıda durur. Çünki epidemiyaların alovlanması və yeni infeksiyaların meydana gəlməsi uşaqların sağlamlığı, və bunula da bütün cəmiyyətin gələcəyi üçün böyük təhlükə hesab edilir.

## Ədəbiyyat

1. Лобзин Ю.В. Проблема детских инфекций на современном этапе // Инфекционные болезни, 2009, № 2, с.7-12

2. Черкасский Б.Л. Путешествие эпидемиолога во времени и пространстве. М.: Практическая медицина, 2007, 512 с.

3. Булатова Е.М., Богданова Н.М. Кишечная микрофлора - один из факторов формирования здоровья человека // Медицинский совет, 2013, № 1, с.30-33
4. Brand P., Baraldi E., Bisgaard H. et al. Definition, Assessment and treatment of wheezing disorders in preschool children / P// Eur. Respir. J, 2008, 32 (4): 1096-110
5. Булгакова В.А. Клиника-иммунологические взаимосвязи персистирующей вирусной инфекции и атопической бронхиальной астмы у детей // Детские инфекции, 2012, № 4, с.9-13
6. Сальникова С.И., Чебуркин А.А. Лямблиоз и крапивница / Сб. докладов IV Всероссийской научно-практической конференции «Инфекционные аспекты соматической патологии у детей». М., 2011, с.104-107
7. Лыскина Г.А. Клиническая картина, лечение и прогноз слизисто-кожного лимфонодулярного синдрома (Кавасаки) // Рос. вест. перинатол. и педиатр., 2007, № 2, с.31-35
8. Juanjuan C., Yab F., Li C. et al. Murine model for congenital CVM infection and hearing impairment // Virology, 2011, v. 8, p.70-72
9. Bessieres M.H. Diagnosis of congenital toxoplasmosis: prenatal and neonatal evaluation of methods used in Toulouse University Hospital and incidence of congenital toxoplasmosis // Mem. Inst. Oswaldo Crus. 2009, v.104 (2), p.389-392
10. Охотникова Е.Н., Гладуш Ю.И., Донская С.Б. Гемофагоцитарный синдром в педиатрической практике // Педиатрия, 2011, № 4: с.61-70

## THE ROLE OF INFECTIOUS DISEASES IN SOMATIC PATHOLOGIES IN CHILDREN

**K.A.Jafarova, A.M.Jafarov, Sh.M.Rashidova**

### SUMMARY

This article deals with the relationship between infectious diseases, especially opportunistic and viral infections, and the formation of chronic diseases and somatic pathology. Scientific meta-analysis of the impact of infections on the onset of autoimmune diseases, chronic diseases of bronchopulmonary and cardiovascular systems, gastrointestinal tract, urinary system, etc. is presented. Special attention is paid to the role of intrauterine viral infection in development of congenital malformations and intrauterine pathology. Prevention measures to control some somatic diseases are discussed.

## РОЛЬ ИНФЕКЦИОННЫХ ЗАБОЛЕВАНИЙ В ФОРМИРОВАНИИ СОМАТИЧЕСКИХ ПАТОЛОГИЙ У ДЕТЕЙ

**К.А.Джафарова, А.М.Джафаров, Ш.М.Рашидова**

### РЕЗЮМЕ

В статье рассматривается связь инфекционной патологии, прежде всего оппортунистических и вирусных инфекций, с формированием хронических заболеваний и соматической патологии. Представлен научный мета-анализ влияния инфек-

ций на начало аутоиммунных заболеваний, хронической патологии бронхолегочной и сердечно-сосудистой систем, желудочно-кишечного тракта, мочевой системы и др. Особое внимание уделено значению внутриутробной вирусной инфекции в формировании врожденных пороков развития и внутриутробной патологии. Изложены меры инфекционной профилактики для контроля за некоторыми соматическими заболеваниями.

*Məqalə redaksiyaya 2 aprel 2019 tarixində daxil olmuş, 17 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 616.9:579.8-085.33]:614.211

# NOZOKOMİAL KLİNİK İZOLYATLARIN ANTİBİOTİKLƏRƏ DAVAMLILIQ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

**H.T.Mansurova**
Azərbaycan Tibb Universiteti
Bakı, Ənvər Qasımzadə küç.14
e.mail: mansurovahafiza@gmail.com

***Açar sözlər:*** antibiotiklər, rezistentlik, GSBL, MRSA, disk-diffuziya
***Keywords:*** antibiotic, resistance, GSBL, MRSA, disk-diffusion
***Ключевые слова:*** антибиотики, резистентность, БЛРС, MRSA, диск-диффузия

Son illərdə nozokomial infeksiya törədicilərinin antibakterial preparatlara rezistentliyinin əhəmiyyətli dərəcədə artması qeyd edilir. Antibiotiklərə davamlılıq infeksiya törədicilərinin bir və ya bir neçə antimikrob preparata həssaslığının itməsi fenomenidir. Çoxsaylı antibiotiklərə davamlılıq təbii şəkildə və ya müalicə prosesində qazanılaraq, xromosom və ya plazmidlə idarə olunur. Mikroorqanizmlərin antibiotiklərə rezistentliyi fərqli mexanizmlərlə formalaşır [1].

Davamlılıq hüceyrə divarında antibiotik üçün keçiriciliyin zəifləməsi, hüceyrədaxili hədəflərə daşınmasının pozulması, preparatın hüceyrədən aktiv xaric edilməsi, təsir hədəfinin modifikasiyası, fermentlərlə inaktivləşdirilməsi mexanizmləri ilə formalaşır. Xüsusilə bəzi bakteriyalar arasında fermentativ hidroliz yolu genişlənmiş spektrli beta-laktamaza-GSBL (hansı ki, bütün β laktam antibiotiklərini hidroliz edir) hiperproduksiyası ilə əlaqədar antibiotiklərin inaktivləşməsi geniş yayılmışdır. İlk dəfə Almaniya (1983) və Fransada (1985) Klebsiella cinsli bakteriyalarda rast gəlinən və hazırda Enterobacteriaceae fəsiləsinin digər nümayəndələrində də aşkar olunan GSBL müxtəlif genetik mexanizmlərlə ötürülə bilir. Beta-laktamazaların tərtib edilmiş müxtəlif təsnifatları arasında ən çox istifadə edilən Ambler klassifikasiyasında 4 sinfə (A, B, C, D) ayrılması fermentlərin aminturşu ardıcıllığına əsaslanmışdır (Ambler 1980, Philos Trans R Soc Lond B Biol Sci. 289: 321-331). A, B və D sinifləri təkamül nəticəsində əmələ gəlmiş serin beta-laktamazaların müxtəlif qruplarıdır. B sinfi sink-asılı (EDTA inhibisiyaedicilər) beta-laktamazadır (Ambler R.P. et al., 1991, Biochem J. 276:269-270). Serin beta-laktamazaların hədəfi beta-laktam həlqəsindəki D-alanin-D-alanin olub, DD peptidazalara (karboksipeptidaza) aiddir. Serin beta-laktamaza ailəsinə daxil olanlar TEM-1, SHV-1, CTX-M və Bacillus spp. beta-laktamazası A sinfinə daxil edilmişdir. Əksər GSBL TEM-1, TEM-2 və ya SHV-1-in sələfidir. Son dövrdə GSBL A sinfinə daxil olan yeni qrup - CTX-M tez-tez aşkar edilir. CTX-M fermentləri geniş təsir spektrli penisillin, I, II və III nəsl sefalosporinləri hidroliz edir (Bonnet, R. 2004. Antimicrob Agents Chemother. 48:1-14). Qram müsbət bakteriyalardan Mac A geninə malik olan S.aureus ştammları penisillin birləşdirən proteinlərin (PBP2a) quruluşunda dəyişiklik əmələ gətirərək, rezistentliyə (metisillinə rezistent S.aureus-MRSA) səbəb olur. Bu ştammlar bütün β-laktam β-laktam antibiotiklərinə davamlı qəbul edilir. Somatik şöbələrdən fərqli olaraq, RITŞ-də infeksion ağırlaşmalara tez-tez rast gəlinir. Aparılan araşdırmalara görə, xəstəxanalarda inkişaf edən

və GSBL əmələ gətirən ştammlarla baş verən bakteremiyalarda sefalosporinlər və xinolon qrupu antibiotiklər istifadə olunmuş xəstələrdə yüksək letallıq müşahidə edilir [2,3,5].

Antibakterial preparatlara qarşı formalaşan davamlılığın qarşısını almaq üçün əhəmiyyətli işlər həyata keçirilir. Onlardan biri də 2015-ci ilin may ayında ÜST(Ümumdünya səhiyyə təşkilatı ) tərəfindən antimikrob preparatlara davamlılığın təsiri haqqında qəbul edilmiş Qlobal plandır (Global Action Plan On Antimicrobial Resistance) [2,4].

Nozokomial infeksiyaların doğurduğu problem təkcə müalicəni çətinləşdirməsi, yüksək letallıqla müşaiyət olunması ilə yekunlaşmır. Eyni zamanda ölkələrin büdcəsinə də xeyli miqdarda zərər vurur. Y.Carmeli və digərlərinin apardığı tədqiqatlar nozokomial infeksiyaların iqtisadi və sosial həyata vurduğu çoxşaxəli ziyanı bir daha təsdiqləyir [6,9].

Həyata keçirilmiş tədqiqatın məqsədi bəzi klinikalarda bakteriyalar arasında yayılmış antibiotiklərə rezistentliyin aşkar edilməsi olmuşdur.

***Tədqiqatın material və metodları.*** Materiallar Bakı şəhərinin müxtəlif profilli xəstəxanalarında – 5 saylı klinik xəstəxananın yanıq şöbəsi, Mərkəzi Hərbi Klinik Hospitalın müxtəlif şöbələrində (xüsusilə, reanimasiya və intensiv terapiya şöbəsi-RİTŞ) müalicə olunan xəstələrdən götürülmüşdür. Müayinə üçün irinli-septik ağırlaşması olan xəstələrdən irinli yara ifrazatı, eksudat, nekrotik toxuma, qan kimi patoloji materiallardan istifadə edilmişdir. Nümunələr aseptik şəraitdə götürülüb ATU-nun Mikrobiologiya və İmmunologiya kafedrasının elmi-tədqiqat laboratoriyasında bakterioloji, mikoloji və molekulyar-epidemioloji üsullarla tədqiq edilmişdir. Patoloji materiallar kultivasiya edildikdən sonra aerob şəraitdə inkubasiya olunmuş və 24-48 saatdan sonra inkişaf etmiş mikroorqanizmlərin təmiz kulturası alınmışdır. Koloniyaların identifikasiyası Vitek-2 avtomatlaşdırılmış üsulu ilə aparılmışdır. Antibiotiklərə davamlılıq 0,5 McFarland qatılığında suspenziya hazırlanaraq Müller-Hinton aqarında disk-diffuziya üsulu ilə təyin edilmişdir. GSBL sintez etmə qabiliyyəti qoşa disk-diffuziya üsulu ilə müəyyənləşdirilmişdir. Bu zaman CLSI standartlarına əməl olunmuşdur [8].

***Tədqiqatın nəticələri və onların müzakirəsi.*** Əvvəliki tədqiqatlarda əldə edilmiş 314 mikroorqanizm ştammının antibiotiklərə davamlılığı öyrənilmişdir. Bu ştammlardan S.aureus(n=68), E.coli (n=64), K.pneumoniae(n=50), Proteus(n=4), Enterobacter(n=8), P.aeruginosa (n=53), Acinetobacter(n=25), Enterococcus(n=19), KNS(n=23) olaraq identifikasiya edilmişdir. Dəri tamlığının pozulması ilə nəticələnmiş bir çox patologiyalardan sonra baş verən nozokomial infeksiyalardan aşkar edilmiş mikroorqanizm ştammlarının antibiotiklərə rezistentlik səviyyəsi müəyyənləşdirilərək aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 1). Müxtəlif xəstə materialından əldə edilmiş klinik izolyatların antibiotiklərə rezistentlik xüsusiyyətlərini müzakirə edərkən görürük ki, bakteriyalar arasında ən yüksək davamlılıq III nəsl sefalosporinlərdən seftazidimə S.aureus 68(100%), Enterococcus 19(100%), KNS 23(100%) təyin edilmişdir.

Qram müsbət nozokomial ştammların antibiotiklərə rezistentliyinin öyrənilməsi zamanı qan dövranı infeksiyalarından izolə olunmuş koaqulaza pozitiv Staphylococcus aureus-un metisillinə rezistentlik göstəricisi 41ştammda (60%) ($p<0,01$) olduğu aşkar edilmişdir. MRSA ştammlarının vankomisinə həssaslığı yüksək səviyyədə - 100% olmuşdur. Qeyd etmək lazımdır ki, metisillinə rezistentlik digər qrup antibakterial preparatlarla (aminoqlikozidlər, flüorxinolonlar) assosiaysiya şəklində rast gəlinmişdir. S.aureus ştammlarında linezolid və vankomisinə rezistentlik aşkarlanmamışdır. Enterococcus spp.-in ən yüksək davamlılıq göstərdiyi antibiotik III nəsl sefalosporin sefdazidim-ə (100%) olmuşdur. Linezo-

Cədvəl 1. İzolə edilmiş mikroorqanizm ştammlarının antibiotiklərə rezistentlik səviyyəsi

| Antibiotik | İzolə edilmiş mikroorqanizm ştammları | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | S.aureus (n=68) | E.coli (n=64) | K.pneu-moniae (n=50) | P.aerugi nosa (n=53) | Acineto-bacter (n=25) | Entero coccus (n=19) | KNS (n=23) | Proteus (n=4) | Entero bacter (n=8) |
| İmipenem | 12(18%) | 0% | 0% | 4(8%) | 0% | 3(16%) | 6(26%) | 0(%) | 0(%) |
| Sefepim | 11(16%) | 59(92%) | 42(84%) | 31(59%) | 14(56%) | 2(14%) | 4(16%) | 2(50%) | 3(36%) |
| Seftazidim | 68(100% ) | 59(92%) | 42(84%) | 31(59%) | 20(80%) | 19(100%) | 23(100%) | 3(75%) | 7(86%) |
| Amikasin | 66(93%) | 1(2%) | 0% | 13(24%) | 2(7%) | 16(88%) | 18(80%) | 1(50%) | 2(25%) |
| Sefoperazon/ /sulbaktam | 14(20%) | 12(18%) | 8(16%) | 9(17%) | 2(6%) | 2(12%) | 2(10%) | 2(50%) | 1(13%) |
| Linezolid | 0% | -- | -- | -- | -- | 0% | 0% | -- | -- |
| Vankomisin | 0% | -- | -- | -- | -- | 0% | 0% | -- | -- |
| Metisillin | 41(60%) | -- | -- | -- | -- | 13(70%) | 14(60%) | -- | -- |
| Siprofloksasin | 2(3%) | 2(3%) | 4(8%) | 39(75%) | 13(54%) | 1(5%) | 2(7%) | 2(50%) | 3(36%) |
| GSBL | -- | 59(92%) | 42(84%) | 31(59%) | 14(56%) | -- | -- | 2(50%) | -- |

lid və vankomisinə qarşı isə əksinə 100% həssaslıq müşahidə edilmişdir. Bununla belə metisillinə rezistent ştammlar 70% təşkil etmişdir. KNS ştammlarının rezistentlik göstəricisi seftazidimə qarşı 100%, amikasinə qarşı (80%) təşkil edərək ən yüksək, linezolid və vankomisinə qarşı ən zəif olmuşdur.

Nozokomial infeksiyaların aşkar olunma tezliyi yüksək olan qram mənfi bakteriyalardan Enterobacteriacea fəsiləsindən E.coli karbapenemlər, aminoqlikozidlər, siprofloksasinə qarşı zəif, II, III, IV nəsl sefalosporinlərə yüksək rezistentlik göstərmişdir. Alınmış ştammlar imipenemə həssas aşkar olunmuşdur. İnhibitorla qorunmayan III nəsl sefalosporin seftazidim və sefepimə (92%) ən yüksək rezistentlik qeyd edilmişdir.

Antibiotiklərə rezistentlik göstəricisi K.pneumoniae-da ß-laktam, göy-yaşıl irin çöpləri əleyhinə preparatlar, I-III nəsl (seftazidimə qarşı rezistentlik səviyyəsi 27% təşkil edərək ən yüksək olmuşdur) sefalosporinlərə qarşı daha yüksək səviyyədə aşkar edilmişdir. Əldə edilmiş ştammların 23%-i sefepimə rezistentlik göstərmışdir. Ən çox aminoqlikozid (amikasin) və karbapenemlərə (imipenem) həssaslıq qeyd edilmişdir. Davamlılığın səbəbi yəqin ki, K.pneumoniae tərəfindən GSBL sintez etmək qabiliyyəti və nozokomial infeksiyaların empirik müalicəsində III nəsl sefalosporinlərdən geniş istifadə olunması ilə əlaqəlidir.

Bakteriyalar sırasında İBL əmələ gətirmək qabiliyyəti P.aeruginosanın 31 ştammında (59%) ($p<0,01$) yüksək olmuşdur. Göy-yaşıl irin çöpləri bir çox antibiotiklərə, o cümlədən karbapenemlərə 4(8%) rezistentlik göstərmişdir. ß-laktam antibiotiklərinin P.aeruginosa-ya qarşı aktivliyi zəif olmuşdur, belə ki, sefalosporinlərdən sefepim və seftazidimə ştammların rezistentlik səviyyəsi 59% olmuşdur. P.aeruginosa ştamları aminoqlikozidlərə 24% rezistentlik göstərmişdir. Amikasində ona qarşı aktivlik saxlanılır(ştamların 76% də həssaslıq aşkar edilmişdir). Göy-yaşıl irin çöplərinin əksər ştamlarında flüorxinolonlara qarşı yüksək rezistentlik qeydə alınmışdır. 39(75%) izolyatlar siprofloksasinə davamlı, in vitro polimiksinin analoqu kolistinə yüksək həssas olmuşdur. P.aeruginosa-nın antibiotiklərə rezistentlik dinamikasını izlədikdə III - IV nəsil sefalospo-sporinlər, flüorxinolon və aminoqlikozidlərə qarşı yüksək tezlikli rezistentliyin qazanılma-sı müşahidə edilmişdir. Non-fermentativ Acinetobacter spp. ştammlarının rezistentliyi sef-

tazidimə yüksək 20 (80%), sefepimə 14 (56%), siprofloksasinə 13 (54%), amikasinə ən zəif 2 (7%) müəyyən edilmişdir. Karbapenemlərə rezistentlik qeydə alınmamışdır. Proteus spp.2 (50%) GSBL pozitiv təyin edilmişdir.

GSBL əmələ gətirən ştammlar arasında E.coli 59 (92%), K.pneumoniae 42 (84%), P.aeruginosa-da 31 (59%), Acinetobacter spp. 14 (56%), Proteus spp. (50%) aşkar edilmişdir. GSBL sintez edərək antibiotikləri hidroliz etmək qabiliyyəti ən yüksək səviyyədə Enterobacteriacea fəsiləsinə daxil olan E.coli-də və K.pneumoniae-də mövcuddur. Ona görə də bu bakteriyalar polirezistent sayılırlar. Aşağıdakı şəkildə E.coli-də qoşa disk üsulu ilə GSBL sintezi təyin edilmişdir:



Şəkil 1. Qoşa disk üsulu ilə GSBL sintezi (E.coli)

Qeyd etmək istərdik ki, GSBL plazmiddə yerləşir və əksər ß-laktam antibiotiklərini hidroliz edir. Antibiotiklərdən penisillinlər, I, II, III nəsil sefalosporinləri (hissəvi IV nəsl) inaktivləşdirir. Göstərilən səbəblərə görə adları çəkilən antibiotiklərin nozokomial infeksiyaların empirik müalicəsində istifadəsi məsləhət olunmur. Aparılmış mikrobioloji tədqiqatlar nəticəsində əldə edilmiş nozokomial ştammların antibiotiklərə rezistentlik göstəricilərinin nəticələrinə əsaslanaraq dəri mikroflorasının nozokomial infeksiya törədicilərinə qarşı aşağıda göstərilən empirik müalicə preparatlarını tövsiyyə etmək məqsədəuyğun olardı.

Dəri mikroflorasının multirezistent nümayəndələri E.coli, K.pneumoniae, P.aeruginosa tərəfindən törədilən nozokomial infeksiyaların müalicəsində karbapenemlər, IV nəsil sefalosporinlər amikasinlə birlikdə, inhibitorla qorunan III nəsil sefalosporinlərin (məsələn, sefoperazon/sulbaktam) istifadə olunması məqsədəuyğundur.

Qram müsbət bakteriyalardan S.aureus, KNS, Enterococcus tərəfindən törədilmış nozokomial infeksiyaların empirik müalicəsində daha effektiv preparatlar qlikopeptidlərdən - vankomisin və ya oksazolidinon – linezolidin istifadəsi məsləhət görülür. Qeyd olunduğu kimi dəri mikroflorasının nozokomial törədiciləri antibakterial preparatlara qarşı multirezistent xüsusiyyətə malikdirlər. Qram mənfi törədicilər penisillin, I-III nəsl sefalosporin, siprofloksasin və gentamisinin təsirinə rezistentlik göstərmişlər. Qram müsbət törədicilərdən S.aureus ştammlarının 60%-i metisillinə rezistent olmuşdur.

Bütün ß-laktam, amkinoqlikozidlər və flüorxinolonlara rezistentlik aşkar edilmişdir. Bu preparatlardan nozokomial infeksiyaların empirik müalicəsində istifadəsi məqsədə-

uyğun deyil. Aparılmış tədqiqatların nəticələrinin ədəbiyyatda olan bir çox tədqiqatçıların nəticələrinə uyğunluğu müəyyən edilmişdir [10,11].

Həyati təhlükə yaradan infeksiyaların müalicəində ən etibarlı, nozokomial patogenlərin çoxsaylı rezistentlik mexanizimlərini üstələyən karbapenemlərdir. Qram mənfi bakteriyalar tərəfindən törənmiş ağır hospital infeksiyaların müalicəsində seçici preparatdırlar. Karbapenemlər bir çox antibiotiklər arasında 1-ci tip ß- laktamaza və GSBL olan şəraitdə stabilliyini qoruyan yeganə antibiotikdir. P.aeruginosa-nın müalicəsində onun ən yüksək həssaslıq göstərdiyi meropenem, imipenem və digər karbapenemlər təyin edilə bilər. Dəri mikroflorasının multirezistent nozokomial infeksiya törədicilərinin geniş yayılmasını və zaman keçdikcə mikrob tərkibinin dəyişməsini nəzərə alaraq müxtəlif müalicə müəssisələrinin şöbələrində vaxtaşırı mikrobioloji monitorinq keçirilməlidir [12,13].

Bu baxımdan Azərbaycanda səhiyyə müəssisələrində nozokomial infeksiya törədicilərinin müəyyən edilməsinə, izolyatlarda davamlılıq mexanizmlərini aşkara çıxaran genetik tədqiqatların icrasına, bir sözlə tibb müəssisəsi üçün çoxsaylı dərmanlara davamlı mikroorqanizm ştammlarının yayılma xəritəsinin tərtibinə böyük ehtiyac olduğu şübhə doğurmur. Mikroorqanizmlərin antibiotiklərə rezistentliyi haqqında məlumatların oyrənilməsi empirik antibakterial müalicənin optimallaşması və klinik effektin artmasına kömək edir.

## Ədəbiyyat


1. Pagani L., Colinon C., Migliavacca R. et al. Nosocomial outbreak caused by multidrug-resistant Pseudomonas aeruginosa producing IMP-13 metallo-ß-lactamase // J. Clin. Microbiol. 2005, №43, p.3824-3828
2. Бондарчук И. Антибиотикорезистентность: какие пути решения проблемы предлагают крупнейшие мировые организации // Новости фармацевтики и фармации - Аптека №8, 2018, с.2-3
3. Бейкин Я.Б., Руднов В.А., Шилова В.П. и др. Стандартные операционные процедуры: микробиологическая диагностика госпитальных инфекций // Инфекции в хирургии, 2008, №1, с.19-27
4. Чеботарь И.В., Бочарова Ю.А., Маянский Н.А. Механизмы резистентности Pseudomonas aeruginosa к антибиотикам и их регуляция // ФГАУ «Национальный медицинский исследовательский центр здоровья детей» Минздрава России, Москва, КМАХ, 2017, Том 19, №4, с. 308-310
5. Горбич Ю.Л., Карпов И.А., Кречикова О.И. Инфекции вызванные Acinetobacter baumannii. Факторы риска, диагностика, лечение, подходы к профилактике // Медицинские новости, 2011, №5, с. 31-39
6. Козлов Р.С. Катетер-ассоциированные инфекции кровотока: предупредить или лечить? // Клиническая микробиология и антимикробная химиотерапия, 2010, №12 (1), с. 23-30
7. Сидоренко С.В. Тенденции в распространении антибиотикорезистентности среди возбудителей внебольничных инфекций на территории Российской Федерации // Consilium Medicum, 2007, Том 9, №1, с. 57-61
8. Clinical and Laboratory Standards Institute: Performance Standards for Antimicrobial Susceptibility Testing: Eighteenth Informational Supplement M100-S18, CLSI, Wayne, Pa (2008)

9. Nazik H., Öksüz L. et al. İstanbul Tıp Fakültesi Mikrobiyoloji Laboratuarı'nda kan kültüründen izole edilen mikroorganizmalar ve antibiyotik duyarlılıkları. "Gür D (ed):8 Antimikrobik Kemoterapi Günleri" Program ve Özet Kitabı Türk Mikrobiol Cem yayını, İstanbul, 2008, №57, s.224-225
10. Qarayev Z.Ö., Bayramov R.B. Genişlənmiş spektrli beta-laktamaza (GSBL) əmələ gətirən bakteriyaların klinikada yaratdığı problemlər / Professor Ə.T.Ağayevin anadan olmasının 65 illiyinə həsr olunmuş elmi konfransın materialları, Bakı, 2009, s.242-245
11. Güdücüoğlu H., Baykal S., İzci H. et al. Genişlemiş spektrumlu beta-laktamaz (GSBL) üreten Escherichia coli ve Klebsiella pneumoniae suşlarının antibiyotiklere direnci // ANKEM Derg 2007, №21 (3), s.155-160
12. Masterton R.G., Kuti J.L., Turner P.J., Nicolau D.P. The OPTAMA programme: utilizing MYSTIC (2002) to predict critical pharmacodynamic target attainment against nosocomial pathogens in Europe // J. Antimicrob. Chemother., 2005, №55, p.71-77
13. Reygaert W.C. Antibiotic optimization in the difficult-to-treat patient with complicated intra-abdominal or complicated skin and skin structure infectiions: focus on tigecycline // Ther Clin Risk Manag. 2010, №7, p.419-427

## STUDYING THE FEATURES OF ANTIBIOTIC RESISTANCE OF NOSOCOMIAL CLINICAL ISOLATES

**H.T.Mansurova**

### SUMMARY

This article presents the results of the study of antibiotic resistance of nosocomial infections. E.coli 59 (92%), K.pneumoniae 42 (84%), P.aeruginosa 31 (59%), Acinetobacter spp. 14 (56%) are distinguished among isolated strains that produce BLRS (beta-lactamase of the expanded spectrum). In P.aeruginos BLR positive strains, resistance to aminoglycosides, β-lactam antibiotics is detected.

## ИССЛЕДОВАНИЕ ОСОБЕННОСТЕЙ АНТИБИОТИКОРЕЗИСТЕНТНОСТИ НОЗОКОМИАЛЬНЫХ КЛИНИЧЕСКИХ ИЗОЛЯТОВ

**Х.Т.Мансурова**

### РЕЗЮМЕ

В статье представлены результаты изучения антибиотикорезистентности нозокомиальных инфекций. Среди изолированных штаммов, производящих БЛРС (бета-лактамаза расширинного спектра), выделены E.coli 59(92%), K.pneumoniae 42(84%), P.aeruginosa 31(59%), Acinetobacter spp. 14.(56%). У штаммов P.aeruginosa БЛРС отмечена резистентность к аминогликозидам, β-лактамным антибиотикам.

*Məqalə redaksiyaya 4 aprel 2019 tarixində daxil olmuş, 19 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 616 : 576.8

# ИЗ ИСТОРИИ ИЗУЧЕНИЯ И БОРЬБЫ ПРОТИВ МАЛЯРИИ В АЗЕРБАЙДЖАНЕ

**A.D.Qadjieva**
Бакинский Государственный Университет
Баку, ул. Академика З.Халилова 23
**И.А.Гаджиев, Ф.И.Гусейнова, И.А.Масимова**
НИИ Медицинской Профилактики имени В.Ю.Ахундова
Баку, ул. Дж.Джабарлы 35
e-mail: iris.ax@mail.ru

***Açar sözlər:*** malyariya, əksepidemik tədbirlər, eliminasiya
***Key words:*** malaria, antiepidemic measures, elimination
***Ключевые слова:*** малярия, противоэпидемические мероприятия, элиминация

В Азербайджане историю изучения малярии и организации борьбы с ней можно разделить на три этапа.

Первый этап охватывает промежуток с 1902 по 1920 гг., второй этап - с 1920 по 1960 гг. как период массового заболевания и практической ликвидации малярии, и третий этап охватывает отрезок времени после 1960 года.

Имеющиеся в литературе сведения позволяют утверждать, что первое упоминание о малярии на территории Азербайджана уходит в глубокую древность. Однако из-за отсутствия опубликованных данных, за более отдаленный период мы не можем судить об интенсивности распространения малярии в Азербайджане.

Академик М.Р.Назиров писал (1967): «Азербайджанские врачи средних веков различали свыше 20 видов лихорадки. Среди них они четко выделяли ежедневную, трехдневную и четырехдневную лихорадки» [8].

В нашей стране проведено немало исследований, посвященных изучению истории малярии и разработке методов борьбы с ней. В этом вопросе большая заслуга проф. М.Э.Эфендиева [17-19] и А.А.Касимова [6, 7].

О распространении малярии в Азербайджане в XIX веке можно судить по опубликованным работам русских военных врачей, изучавших эпидемии с высокой летальностью во время своих походов на юг.

С этой темой связано имя русского врача Н.И.Торопова, работавшего на Кавказе свыше 15 лет, который описывал высокую смертность от малярии среди военнослужащих в русских полках, стоявших на пограничных постах у реки Аракс. Он писал, что каждые три года из прибывших сюда около 800 человек обратно возвращались не более 50 [12].

В борьбе с малярией, Н.М.Торопов придавал исключительное значение профилактическим мероприятиям. Он писал: «Мало еще уметь лечить болезнь, намного важно уметь предупредить ее» [12].

Н.И.Пантюков установил очень высокую пораженность малярией населения,

проживающего вдоль Каспийского побережья Азербайджана, особенно в Муганской и Ширванской степях. Поэтому он предлагал укрепить береги рек Кура, Аракс и побережья Каспийского моря в целях предупреждения разливов вод рек во время поводков [9-11].

Высокая смертность населения малярией и смертность от нее в Азербайджане привлекла внимание русских ученых и прогрессивных врачей, которые занимались изучением распространенности малярией в различных районах республики. С этими вопросами связано имена таких ученых, как А.З.Фейзуллаев [4],М.Э.Эфендиев [17-19], Р.Б.Джавадов [2], Н.И.Торопов [12], И.И.Пантюков [10], В.В.Фавр [13], Г.Н.Габричевский [1] и др.

В Азербайджане в изучении малярии значительную роль сыграло Кавказское медицинское общество, основанное в Тбилиси 5 апреля 1964 года. Это общество в 1902 году создало постоянную комиссию, которая занималась изучением малярии и одновременно разрабатывала мероприятия по борьбе с ней. В работе общества принимали участие Н.А.Сахаров, П.И.Собольшиков, А.Б.Красноглядов и др.

На примере Кавказского медицинского общества, в 1894 году было создано Бакинское общество врачей. Съезд Кавказских врачей в 1901 году был посвящен исключительно вопросам борьбы с малярией. Однако съезд врачей, кроме констатации факта, почти никаких действующих мер по борьбе с малярией не принял. Летом 1903 года малярийная комиссия Пироговского общества командировало на Кавказ В.В.Фавра для выяснения комарийной теории малярии. В.В.Фавру удалось проследить цикл развития паразита малярии в теле комара и заразить себя посредством его укуса, насосавшихся крови больного малярией с Pl.falciparuma [20].

В 1903 году по инициативе В.В.Фавра, Пироговское общества русских врачей организовало две экспедиции по изучению малярии в России. Задачей их являлось изучение малярии и применение способов борьбы с ней [13].

Экспедиция, возглавляемая известным маляриологом И.А.Сахаровым, была направлена в Азербайджан. В состав экспедиции входили В.В.Фавр, И.И.Пичурин, Т.Г.Харазов и др., которые провели клиническое и паразитологическое обследование всех жителей железнодорожной станции Евлах.

Т.Г.Харазов, как участник экспедиции, писал, что 371 железнодорожных служащих станции Евлах 78,2% болели малярией. За июль, август, сентябрь заболеваемость малярией разных железнодорожных станциях достигла 70-100% [8]. На основе работы экспедиции были даны рекомендации по борьбе с малярией (отчет члена экспедиции по исследованию малярии в Евлахе летом 1903 г.) [15].

1911 году председателем малярийной комиссии Пироговского общества русских врачей являлся Е.И.Марциновский. Он направил разведочные экспедиции в Муганскую (руководитель Д.И.Федорова) и Караязунскую степи Азербайджана.

Экспедиция в Мугань была организована и в следующем году (руководитель А.И.Шингарева), причем в организации ее принял участие Кавказский малярийный комитет, созданный 27 апреля 1912 года. Участники экспедиции установили высокую пораженность малярией среди переселенцев из различных губерний России в Азербайджан, которая достигала 76%. Среди переселенцев в Мугань в течение 10-15-летнего пребывания из детей до 5 лет умерли 74,4%, а из всего насе-

ления - 41,4%. Из 2910 перселенцев оказались больными малярией 81,3% [3, 16].

По данным Гасанбека Зардаби, в 1896 году в Бакинской губернии было зарегистрировано 24756 случаев малярии, в Кубинском – 635 случаев, в Шемахинском – 804 случаев, в Геокчайском – 1705 случаев, в Джавадском – 3568 случаев и в Ленкоранском – 332 случаев.

В дореволюционном Азербайджане заболеваемость малярией была и на территории Нахчыванской физико-географической области. В 1910-1911 гг. отмечена высокая смертность, поэтому прирост населения за эти годы был очень незначительный. В некоторых селениях этих уездов даже наблюдалось вымирание населения. По наблюдением врача А.Г.Кантеиуазина, в 1909 году в Нахчыване от эпидемии преждевременных родов, вызванных малярией, погибло более ста беременных женщин. Сельский участковый врач Шарурского района Г.Сафиев в 1916 году писал, что на его участке не было человека, не переболевшего малярией.

В Азербайджане крупная вспышка малярии возникла в 1917 году, продлившаяся до 1921 года, писал Д.Илдырым. «Это была связано с прекращением производства хинина в стране из-за анархии в Азербайджане в начале 1917 года [4].

Вынужденная оседлость населения в низменности малярийной зоне Азербайджана из-за невозможности пользоваться эйлагами в горах Армении ввиду дашнакской тирании. В связи с этим, отмечалось бездействие врачебных и фельдшерских пунктов из-за отсутствия медикаментов и медперсонала в 1917-1921 гг. Ухудшалось экономическое положение населения, миграция голодного иранского населения в Азербайджан из-за голода, начавшегося в Иране в 1917 году. По данным Д.Илдырыма, продолжительность жизни населения в малярийных зонах Азербайджана, особенно в местности рисосеяния была крайне незначительной. Так, в 1918-1919 гг. у населения, жившего в долинах рек Аракс, Казар-чай, Баркушети, Чавиндор и занимающегося обработкой рисовой плантации, продолжительность жизни не превышала 35-40 лет (1923, 35-46) [4].

Таким образом, краткий обзор литературных источников, характеризующих распространения малярии на территории дореволюционного Азербайджана, позволяет сделать вывод, что малярия нанесла населению огромный ущерб в указанный период.

## Литература

1. Габричевский И.Г. Болотная лихорадка на Кавказе // Русск. Врач, 1903, 37, с. 1285-1288
2. Джавадов Р.Б. Ликвидация малярии и меры предупреждения ее возврата в Азербайджанской ССР // Аз. мед. журнал, 1962, 1, с. 51-56
3. Здрадовский П.Ф. Малярия в Азербайджане / Сбор. малярия, 35-86
4. Илдырым Д. Малярия в Азербайджане и меры по борьбе с ней. Баку, 1924, 23 с.
5. Касимов А.А. Этапы изучения малярии и борьбы с ней в Азербайджане / Труды НИИ МП и ТМ, Баку, т.5, 1965, с. 83-90
6. Касимов А.А. Ликвидация малярии в Азербайджане / Матер. 3-го съезда Эпид. микроб. инфекц. Азерб. ССР, Баку, 1967, с. 210-212

7. Касимов А.А. К истории изучения малярии в Азербайджане / Труды НИИ МП и ТМ, Баку, 1969, т.6, с. 108-115
8. Назиров М.Р. Краевая патология Азербайджана. Баку, 1967, 340 с.
9. Пантюков И.И. Здоровые и нездоровые места на Кавказе. Кавказ. календарь, 1894
10. Пантюков И.И. К статистике Кавказской патологии / Мед. сбор. Кавказ. мед. общ-ва, 1898, 61, с. 41-178
11. Пантюков И.И. Особенности Кавказских болезней // Соврем. мед., 1963, 23, с. 461-463
12. Торопов Н.М. Муганская степь и прежнее течение Аракса. Кавказ. Календарь на 1984 г. Тифлис, 1963, с. 249-293
13. Фавр В.В. О работе Евлахской экспедиции по изучению малярии и меры борьбы с ней / Труды 2-го Всеросс. съезда гидробиол. климат, больнеол, 1905, т. 1, с. 331-335
14. Фейзуллаев А.З. К вопросу о малярийных заболеваниях нервной системы в Азербайджане // Аз. мед. журнал, 1934, 2, 67 с.
15. Харазов Т.Г. Протокол заседания Кавказ мед. общ-ва, 1903, 11, с.381-427
16. Шингарева А.Н. Малярия на Мугани / Кавказ. малярийный комитет, 1915, 3, 8 с.
17. Эфендиев М.Э. Этапы развития борьбы с малярией в АзССР / Труды 1-го съезда АМО, Баку, 1936, с. 17-59
18. Эфендиев М.Э. Азербайджанские врачи прошлых веков // Аз.мед.журнал, 1959, 11, 83
19. Эфендиев М.Э. Развитие научно-медицинской мысли в Азербайджане (по данным врачебных съездов, конференций и совещаний), Баку, 1968, 231 с.
20. Эфендиев И.К. История медицины в Азербайджане с древнейших времен по XIX век. Баку, 1964, 278 с.

## AZƏRBAYCANDA MALYARİYANIN ÖYRƏNİLMƏSİ VƏ ONA QARŞI MÜBARİZƏ TARİXİNDƏN

**A.D.Hacıyeva, İ.A.Hacıyev, F.H.Hüseynova, İ.A.Məsimova**

### XÜLASƏ

Məqalədə Azərbaycanda malyariya probleminin tədqiqi, onunla mübarizənin tarixi, aparılmış əksepidemik və profilaktik tədbirlər haqqında məlumat verilmiş və müxtəlif ədəbiyyat mənbələri və tarixi sənədlər əsasında retrospektiv təhlil aparılmışdır. İnqilabaqədərki Azərbaycanda malyariyanın əhaliyə çox böyük ziyan vurduğu qeyd olunmuşdur.

# FROM THE HISTORY OF STUDYING MALARIA AND FIGHTING IT IN AZERBAIJAN

**A.D.Hajiyeva, I.A.Hajiyev, F.H.Huseynova, I.A.Masimova**

## SUMMARY

This article provides information about the study of malaria problem in Azerbaijan, the history of fighting it, antiepidemic and preventive measures taken against it. Retrospective analysis based on different sources and historical documents is conducted. Disastrous results of malaria for the population of pre-revolution Azerbaijan are noted.

*Məqalə redaksiyaya 6 aprel 2019 tarixində daxil olmuş, 19 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

# HÜQUQ, TARİX VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ

# SECTION OF LAW, HISTORY AND POLITICAL SCIENCE

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 343.1

# CİNAYƏT PROSESİNDƏ VƏKİL ARAŞDIRMASI İNSTİTUTUNA NORMATİV ƏSAS VERƏN MİLLİ VƏ BEYNƏLXALQ HÜQUQİ MƏNBƏLƏR

**F.Y.Xəlilov**
AMEA Hüquq və İnsan Haqları İnstitutu
Bakı, H.Cavid prospekti 115
e-mail: ph_d@mail.ru

***Açar sözlər:*** cinayət prosesi, vəkil araşdırması, normativ əsaslar, milli qanunlar
***Keywords:*** criminal proceeding, lawyer investigation, normative framework, national laws
***Ключевые слова:*** уголовный процесс, адвокатское расследование, нормативные основы, национальные законы

Cinayət prosesində vəkil araşdırması institutunun hüquqi əsasını, ilk növbədə, Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının ayrı-ayrı müddəaları təşkil edir. Məhz Konstitusiyada müəyyən edilmiş prinsiplər və digər hüquq normaları vəkil araşdırması üçün təməl hüquqi baza yaratmış olur. Onlara ayrı-ayrılıqda baxaq.

Hesab edirik ki, vəkil araşdırması institutu, ilk öncə, Konstitusiyada təsbit edilmiş dövlətin ali məqsədi ilə bir arada nəzərdə keçirilməlidir (Konstitusiyanın 12-ci maddəsinin I hissəsi). Fikrimizcə, vəkil araşdırması hüquqi yardım almaq üçün vəkilə müraciət etmiş şəxslərin hüquqlarının və qanuni maraqlarının müdafiə və təmin edilməsi ilə əlaqəli bir institut olduğu üçün bu kimi hüquq institutlarının mövcudluğunun dövlətin ali məqsədi ilə bir araya sığdığını, hətta müəyyən mənada ondan irəli gəldiyini qeyd etmək olar. Vəkil araşdırmasının konstitusion-hüquqi əsası qismində nəzərdən keçirilə biləcək daha bir müddəa Konstitusiyanın "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi" adlanan 26-cı maddəsidir. Zənnimizcə, hüquqi yardım göstərilməsi ilə əlaqədar vəkillərin öz araşdırmalarını aparmaları heç bir qanunla qadağan edilmədiyi üçün, əksinə, qanunda təsbit edilmiş olduğu üçün, o, hüquq və azadlıqların səmərəli müdafiə vasitələrindən biri hesab edilə bilər. Konstitusiyanın məlumat azadlığına təminat verən 50-ci maddəsinə də vəkil araşdırmasının konstitusion əsaslarından biri kimi baxmaq olar, çünki mahiyyətinə görə vəkil araşdırması ən ümumi mənada məhz hüquqi yardım göstərilməsi ilə əlaqədar məlumatların toplanmasına yönəlmiş fəaliyyətdir və vəkil üçün zəruri məlumatları əlçatan edən hüquqi mühitin mövcud olmadığı bir şəraitdə bu institutun səmərəli mövcudluğundan danışmaq mümkün deyil. Odur ki, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq hüququnu özündə ehtiva edən məlumat azadlığı da vəkil araşdırması üçün əhəmiyyətli hüquqi əsas kimi çıxış edir. Konstitusiyanın 57-ci maddəsində təsbit edilmiş müraciət etmək hüququna da müəyyən mənada vəkil araşdırmasının hüquqi əsası kimi çıxış edən norma kimi baxmaq olar. Hesab edirik ki, vəkil araşdırması vasitəsi kimi vəkil sorğularının verilməsi hüququ məhz Konstitusiyada təsbit edilmiş müraciət etmək hüququ ilə qarşılıqlı əlaqədə başa düşülə bilər.

Heç şübhəsiz, vəkil araşdırmasının konstitusion-hüquqi əsaslarından bəhs edərkən, Konstitusiyanın hüquqi yardım almaq hüququnu təsbit edən 61-ci maddəsi xüsusi qeyd edilməlidir. Məhz həmin maddə hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüqu-

quna təminat verməklə, ölkədə peşəkar hüquqi yardım göstərən şəxslərin, o cümlədən, vəkillərin fəaliyyətinin hüquqi əsasını təşkil edir. Bununla belə, göstərilən hüquqi yardımın "yüksək keyfiyyət" meyarları Konstitusiyanın özündə və sahəvi qanunlarda birbaşa təsbit edilmədiyi üçün, doktrinal mənbələrinin ümumiləşdirilməsindən belə nəticə çıxarmaq olar ki, belə keyfiyyət özündə hüquqi yardımın ali təhsilli hüquqşünaslar və məhz bu işdə ixtisaslaşmış peşəkarlar tərəfindən göstərilməsi ilə yanaşı, təmsil və müdafiə olunan hüquq və qanuni maraqların səmərəli şəkildə təmin edilməsinə xidmət edən fəaliyyəti (zəruri həcmdə və zəruri keyfiyyətdə hüquqi məsləhətlərin verilməsini, hüquqi yardımın göstərilməsi üçün zəruri olan bütün sənədlərin tərtib edilməsini, zəruri müraciətlərin edilməsini və s.), o cümlədən, buna ehtiyac duyulan hallarda vəkil araşdırmasının həyata keçirilməsini də ehtiva edir (5, s.13-19; 6, s.76-83; 7, s.18-19).

Vəkil araşdırmasının hüquqi əsasını təmin edən daha bir müddəa hüquqi yardım almaq hüququndan az əhəmiyyətli olmayan təqsirsizlik prezumpsiyasıdır. Bu müddəanın tərkib elementləri kimi bəzi normalar vəkil araşdırmasının prosessual formasının və hüquqi mahiyyətinin müəyyən edilməsinə birbaşa təsir edir. İlk növbədə, nəzərə alınmalıdır ki, Konstitusiyanın 63-cü maddəsinin III hissəsinə əsasən, cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir. Vəkil araşdırması sübutların toplanması ilə bağlı olan bir fəaliyyət olduğu üçün nəzərdən keçirilən müddəa bu fəaliyyətin hüquqi təbiətinin əsas determinantı hesab edilə bilər. Belə ki, qeyd edilən müddəa cinayət təqibinə məruz qalan şəxsin təqsirsizliyinin sübut edilməsi üzrə öhdəliyin onun müdafiəsini həyata keçirən vəkilin üzərində qoyulmasını istisna edir. Bu mənada, cinayət təqibinə məruz qalmış şəxsin təqsirsizliyinin sübutlarını axtarmaq, əldə etmək və məhkəməyə təqdim etmək istiqamətində vəkil araşdırmasının aparılması hər zaman müdafiə tərəfinə məxsus bir hüquq kimi qalmalıdır, heç bir halda təqsirləndirilən şəxsin müdafiəsini həyata keçirən vəkilin üzərinə bir öhdəlik kimi qoyulmamalıdır (4, s.41). Qeyd edilən normalarla yanaşı, həmçinin nəzərə alınmalıdır ki, Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinə əsasən, məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir. Məhkəmələrin belə bir vəzifənin öhdəsindən gəlməsi üçün onlar hüquq-mühafizə orqanları tərəfindən toplanılmış birtərəfli, əksər hallarda ittihama meyilli sübutların tədqiqi ilə məhdudlaşmamalı, iş üzrə bir-birindən fərqlənən sübutların tədqiqinə və onlardan hansının obyektiv reallığı daha dəqiq əks etdirməsinin müəyyən edilməsinə diqqətlə yanaşmalıdırlar. Bu mənada, milli hüquq sistemi daxilində vəkil araşdırması kimi bir institutun mövcudluğu məhkəmələrin həqiqəti müəyyən etmək vəzifəsinin həllinə öz müsbət təsirini göstərən amil kimi də çıxış edir.

Nəhayət, Konstitusiyanın 127-ci maddəsinin də bir sıra müddəalarının cinayət prosesində vəkil araşdırması institutu üçün hüquqi baza təşkil etdiyi qeyd edilməlidir. Belə ki, həmin maddənin VII hissəsinə əsasən, məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir; VIII hissəsinə əsasən, məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur; IX hissəsinə əsasən isə ədalət məhkəməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

Məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi icraatda iştirak edən tərəflərin hüquqi imkanlarının bərabərliyini, bu imkanlar isə, ilk növbədə, tərəflərin öz mövqelərini əsaslandırmaq üçün istifadə edə bildikləri üsul və vasitələrin adekvatlığını nəzərdə tutur. Məlumdur ki, cinayət mühakimə icraatında işlərin böyük əksəriyyəti üzrə məhkəmə baxışı üçün materiallar cinayət təqibi orqanları tərəfindən hazırlanır. Bundan başqa, həmin materiallar məhkəməyə cinayət təqibi orqanları tərəfindən tərtib edilən və it-

tiham tərəfinin mövqeyini ümumiləşdirən prosessual aktla (ittiham aktı, yekun protokol və s.) göndərilir. Belə olan şəraitdə məhkəmənin sərəncamına, bir qayda olaraq, ittiham tərəfinin işin həlli üçün "lazımlı" hesab etdiyi sübutlar verilir. Cinayət mühakimə icraatının çəkişmə forması tətbiq edilməzsə, reallıqda məhkəmələr məhz həmin sübutlara istinadən qərar qəbul etmək məcburiyyətində qala bilər, hazırki vəziyyətdə isə, bu, əsasən nəzəri imkan kimi qalsa da, konseptual müstəvidə məhz çəkişmə prinsipi qarşı tərəfə də, yəni müdafiə tərəfinə də məhkəməyə öz sübutlarını təqdim etmək imkanı verir. Öz sübutlarını təqdim etmək imkanı isə məntiqi olaraq bu sübutları əldə etmək imkanını, sonuncu isə, öz növbəsində, sübutların əldə edilməsi üçün müəyyən araşdırmalar aparmaq imkanını, dolayısı ilə, vəkil araşdırmasının aparılması imkanının mövcudluğunu şərtləndirir.

Məhkəmə icraatının istənilən mərhələsində hər bir kəsin müdafiə hüququna malik olması da, həmçinin, vəkil araşdırmasına əsas verən hüquqi müddəalardandır.

Müdafiə hüququ ədalətli məhkəmə araşdırması hüququnun ayrılmaz tərkib hissəsi olmaqla, müdafiənin xəyali deyil, real, təcrübi və səmərəli olmasını nəzərdə tutur. Bu mənada, cinayət təqibinə məruz qalmış şəxsi müdafiə edən vəkil icraatın istənilən mərhələsində öz araşdırmasını apara və zərurət olarsa, aparılan icraatın mahiyyətinə zidd olmayan hallarda yeni sübutlar əldə edərək məhkəməyə təqdim edə bilər.

Konstitusiyadan sonra əhəmiyyətinə görə cinayət mühakimə icraatında vəkil araşdırmasının hüquqi əsaslarını müəyyən edən ikinci normativ-hüquqi akt CPM hesab edilə bilər. Cinayət prosesində vəkil araşdırmasının hüquqi əsası kimi CPM-in kifayət qədər çox maddəsinə istinad etmək mümkündür, lakin biz, elmi məqalənin həcmi ilə bağlı tələbləri rəhbər tutaraq, bizim fikrimizcə vəkil araşdırması üçün CPM-in daha əhəmiyyətli olan normalarını aşağıdakı kimi sistemləşdirməyi məqsədəuyğun sayırıq. Hesab edirik ki, CPM-in 12-ci maddəsi birinci qeyd edilməlidir. Həmin maddənin müddəalarına görə, cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmalıdır və cinayət prosesi gedişində hər bir kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etmək hüququ vardır. Bundan başqa, CPM-in hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi prinsipini təsbit edən 19-cu maddəsi də faktiki olaraq göstərdikləri hüquqi yardımın bir forması kimi vəkillər üçün vəkil araşdırmasının aparılması hüququnun da cinayət prosesindəki təminatı kimi çıxış edir. Vəkil araşdırmasının hüquqi təbiətinin dərk edilməsi üçün böyük əhəmiyyət kəsb edən Konstitusiyanın 63-cü maddəsində təsbit edilmiş təqsirsizlik prezumpsiyası hüququ CPM-in 21-ci maddəsində öz inkişafını tapır. Həmin maddəyə əsasən, cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür. Eynilə, vəkil araşdırmasının hüquqi imkanlarını və nəticələrinin əhəmiyyətini dövlət orqanları timsalında ittiham tərəfinin həyata keçirdiyi araşdırmalarla müəyyən qədər bərabərləşdirən, Konstitusiyanın 127-ci maddəsinin VII hissəsində təsbit edilmiş çəkişmə prinsipi CPM-in 32-ci maddəsində inkişaf etdirilmişdir. Hesab edirik ki, cinayət prosesində vəkil araşdırması institutu üçün hüquqi baza rolu oynamaq baxımından CPM-in 32-ci maddəsinin "hər bir tərəfin məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik olması" və "hər bir tərəfin heç kimdən asılı olmayaraq müstəqil surətdə öz mövqeyini seçməsi və onu müdafiə etmək üçün vasitə və üsullarını müəyyən etməsi" haqqında müddəaları xüsusilə əhəmiyyətlidir. CPM-in 33.3-cü maddəsi də vəkil araşdır-

ması, daha dəqiq desək, onun nəticələrinin hüquqi qüvvəsinin müəyyən edilməsi üçün önəmlidir, çünki həmin maddəyə əsasən, cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur. Bu isə o deməkdir ki, vəkil araşdırması zamanı əldə edilmiş materiallar əslində dövlət orqanlarının əldə etdiyi müvafiq materiallara hüquqi qüvvəsinə görə "uduzmur", CPM-in 33-cü maddəsində təsbit edilmiş cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi prinsipi həmin materialların məhkəmə tərəfindən qiymətləndirilməsindən sonra iş üzrə qəbul ediləcək yekun qərarın əsası kimi çıxış etmək perspektivinə təminat verir.

CPM-də təsbit edilmiş prinsip-normalarla yanaşı, cinayət prosesi iştirakçılarının hüquqi statusunu müəyyən edən bir sıra digər normalar da birbaşa, yaxud dolayı yolla cinayət prosesi iştirakçılarına hüquqi yardım göstərən vəkillərin müstəqil araşdırmalar aparmaq hüququ üçün leqal əsas yaradır. Həmin normalara CPM-in 87.6.4-cü, 89.4.3-cü, 90.7.16-cı, 91.5.16-cı, 92.9.5-ci, 92.9.9-cu, 93.4.3-cü, 101.5.6-cı, 102.6.4-cü maddələrini aid etmək olar.

Vəkil araşdırması, ilk növbədə, sübutetmə fəaliyyəti ilə bağlı olduğu üçün CPM-in məhz sübutlar və sübutetmə haqqında qaydalar müəyyən edən normalarında da bu institutun mövcudluğuna hüquqi əsas verən müddəaların axtarılması məntiqlidir və CPM-in təhlili belə qənaətə gəlməyə əsas verir ki, belə müddəalar həqiqətən də mövcuddur. Belə ki, CPM-in 124.1-ci maddəsinə əsasən, məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Göründüyü kimi, sübutlara CPM-də verilmiş leqal tərifdə tərəflərin də sübutlar əldə edə bilməsi xüsusi vurğulanmışdır və həmin tərifin semantik şərhindən belə nəticə əldə etmək olar ki, cinayət prosesinin tərəfi kimi çıxış edən hər hansı vəkilin qanuni yollarla apardığı araşdırma nəticəsində əldə etdiyi istənilən dəlil mötəbər olduğu hallarda cinayət prosesində sübut kimi çıxış edəcəkdir. Bundan başqa, CPM-in 143.3-cü maddəsi də bir daha cinayət prosesində vəkil araşdırmasına hüquqi əsas verən maddə kimi xatırlana bilər.

Qeyd etdiyimiz kimi, CPM-də vəkil araşdırmasının hüquqi əsası kimi çıxış edə biləcək normalar əslində daha çoxdur, lakin biz onlardan ən əhəmiyyətli hesab etdiklərimizi sadalamaqla, digər hüquqi mənbələrə, yəni Azərbaycan Respublikasının digər qanunlarına keçmək istərdik.

Şübhəsiz, vəkil araşdırması institutunun hüquqi əsaslarından bəhs edərkən birinci "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun adı çəkilməlidir. Vəkilin müstəqil araşdırma aparmaq hüququ və bu hüququn əsas realizə vasitələri məhz "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 15-ci maddəsində təsbit edilmişdir. Həmçinin, məhz həmin Qanunun 7-ci maddəsinin III hissəsinin 2-ci bəndi vəkil araşdırmasının nəticələri üçün özünəməxsus "immunitet" müəyyən edir. Belə ki, qeyd edilən normaya görə, peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar vəkillər tərəfindən toplanılan sənədlər və digər sübutlar, vəkillik icraatları (dosye) istintaq və məhkəmə orqanları tərəfindən tələb edilə və götürülə bilməz. Bununla belə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun vəkil araşdırmasının hüquqi əsasını təşkil edən yeganə qanun deyildir. Azərbaycan Respublikasının bir sıra digər qanunlarında da vəkil araşdırması institutunu hüquqi baza ilə təmin edən müddəalara rast gəlmək mümkündür.

Məsələn, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun "Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda müdafiə tərəfinin təşəbbüsü ilə ekspertizanın aparılması" adlanan 22-1-ci maddəsində, "Notariat haqqında" Qanunun "No-

tariat hərəkətləri sirrinin saxlanılması" adlanan 32-ci maddəsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanununun "Dövlət reyestrinin açıqlığı" adlanan 5-ci maddəsində, "İnformasiya əldə etmək haqqında" Qanunun "İnformasiyanın əldə olunmasının sorğu əsasında təmin edilməsi" adlanan III Fəslində və s. bu kimi qanunlarda vəkil araşdırması üçün hüquqi əsas yaradan müddəalara rast gəlmək mümkündür.

Bütün yuxarıda qeyd edilənlər vəkil araşdırması institutunun milli hüquqdakı əsasları idi. Bununla yanaşı, bir sıra beynəlxalq-hüquqi sənədlərdə də vəkillik fəaliyyətinin və bu fəaliyyətin ayrılmaz tərkib hissəsi olan vəkil araşdırması institutunun hüquqi əsası hesab edilə biləcək müddəalar yer almışdır.

Məsələn, Avropa Vəkillər Kollegiyaları və Hüquq Birlikləri Şurasının 28 oktyabr 1988-ci il tarixli Plenar Sessiyasında qəbul olunmuş Avropa vəkillərinin davranış Kodeksinin Preambulasında qeyd edilir ki, qanunun aliliyinə hörmətlə yanaşılan cəmiyyətlərdə vəkil xüsusi rola sahibdir. Vəkil təkcə qanunun icazə verdiyi həddə ona həvalə olunmuş tapşırıqları vicdanla yerinə yetirmir. O, ədalət mühakiməsinin maraqlarına xidmət etməklə həm ona etimad göstərən şəxslərin hüquq və azadlıqlarını müdafiə edir, həmçinin müştərisinin məsləhətçisinə çevrilir. Demokratik cəmiyyətdə vəkilin peşə funksiyalarına hörmət nümayiş etdirilməsi qanunun aliliyinin ümdə şərtidir. Bu Kodeksin 2.1.1-ci maddəsinə əsasən, vəkilin aid olduğu əksər məsələlərdə onun tam şəkildə müstəqil olması əsas şərtdir. O, eyni zamanda fərdi maraqlarından, habelə istənilən xarici təzyiqdən kənar olmalıdır. Bu cür müstəqillik hakimlərin qərəzsizliyi kimi həm də ədalət mühakiməsi üçün əhəmiyyətlidir.

Vəkillərin rolu haqqında BMT-nin əsas prinsipləri Birləşmiş Millətlər Təşlikatının 27 avqust-7 sentyabr 1990-cı il tarixlərində keçirilmiş VIII Konqresində qəbul edilmişdir. Həmin prinsiplərin 13-cü bəndinin "b" yarımbəndinə əsasən, vəkillər öz müştərilərinə qanunla yol verilən bütün üsullarla hüquqi yardım göstərməlidir. Prinsiplərin 21-ci bəndinə görə isə səlahiyyətli dövlət orqanları onların sərəncamında, yaxud nəzarəti altında olan zəruri məlumatların, dosyelərin və sənədlərin vəkillər üçün onların öz müştərilərinə səmərəli hüquqi yardım göstərə bilmələrindən ötrü vaxtında əlçatan olmasını təmin etməlidirlər.

"Hüquqşünas peşəsini həyata keçrimək azadlığı haqqında" üzv dövlətlərə 21 saylı Tövsiyə Avropa Şurası Nazirlər Komitəsinin 25 oktyabr 2000-ci il tarixli, 727 saylı iclasında qəbul edilmişdir. Həmin Tövsiyədə yer alan "hüquqşünasların rolu və vəzifələri" adlı prinsipin müddəalarına görə, vəkil birlikləri və digər peşəkar hüquqşünas qurumları peşə standartlarına və davranış məcəlləsinə uyğun olmalı və müştərilərin legitim hüquqları və maraqlarının müdafiə edilməsində hüquqşünasların müstəqil, ədalətli, ciddi-cəhdlə çalışmaq vəzifələrinə təminat verilməlidir. Qeyd edilən prinsipin tərkib hissəsi kimi, hüquqşünasların müştərilər qarşısındakı vəzifələrinə aşağıdakılar aid edilir: işin nəticələri və maliyyə xərcləri barədə məlumatlar da daxil olmaqla onlara hüquq və vəzifələrini izah etmək; ilk növbədə, işin dostcasına həll edilməsinə cəhd göstərmək; müştərilərin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək və bu hüquqlara hörmət edilməsi üçün hüquqi əhəmiyyətli hərəkətlər etmək; maraqların toqquşmasından qaçmaq; öhdələrinə ağlabatan həcmdən çox olan iş götürməmək.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası
2. Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Cinayət-Prosessual Məcəlləsi

3. Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Qanunu
4. Калиновский К.Б. Распределение бремени доказывания в уголовном процессе: всегда ли в пользу обвиняемого? // Уголовная юстиция: связь времен. Материалы международной научной конференции. СПб., 6-8 октября 2010 г., с. 40-43
5. Киселев П.П. Адвокатское уголовное расследование как самостоятельная форма квалифицированной юридической помощи // Ученые труды российской академии адвокатуры и нотариата, 2013, № 1 (28), с. 13-19
6. Кондрат И.Н. Обеспечение права на квалифицированную юридическую помощь в сфере уголовного процесса // Законодательство, 2012, № 4, 76-83
7. Скоба Е.В. Конституционное право участников уголовного судопроизводства на получение квалифицированной юридической помощи // Адвокатская практика, 2010, № 2, с. 18-19

## NATIONAL AND INTERNATIONAL LEGAL SOURCES GIVING THE STANDARD GROUNDS FOR THE INSTITUTE OF LAWYER INVESTIGATION IN CRIMINAL PROCEEDINGS

**F.Y.Khalilov**

### SUMMARY

This paper considers the most important sources of law which give the standard grounds for the existence and realization of institute of lawyer investigation in criminal proceedings. As those the author considered the Constitution, the Code of Criminal Procedure, the Law "About Lawyers and Lawyer Activity", other laws, as well as some documents of an international character.

## НАЦИОНАЛЬНЫЕ И МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ИСТОЧНИКИ, ДАЮЩИЕ НОРМАТИВНОЕ ОСНОВАНИЕ ИНСТИТУТУ АДВОКАТСКОГО РАССЛЕДОВАНИЯ В УГОЛОВНОМ ПРОЦЕССЕ

**Ф.Я.Халилов**

### РЕЗЮМЕ

В статье рассмотрены наиболее важные источники права, дающие нормативное основание для существования и реализации института адвокатского расследования в уголовном судопроизводстве. В качестве таковых автором рассмотрены Конституция, Уголовно-Процессуальный Кодекс, Закон «Об адвокатах и адвокатской деятельности», иные законы, а также некоторые документы международного характера.

*Məqalə redaksiyaya 25 yanvar 2019 tarixində daxil olmuş, 29 yanvar 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 343.97

# EKOLOJİ CİNAYƏTLƏRİN ANLAYIŞI VƏ SİSTEMİ

**A.E.Qasımov**
Azərbaycan Milli Aviasiya Akademiyası
Bakı, Mərdəkan pr. 30
e-mail: aydin.qasimov53@mai.ru

***Açar sözlər:*** ekologiya, cinayət, mühafizə, təhlükəsizlik, atmosfer
***Keywords:*** ecology, crime, protection, safety, atmosphere
***Ключевые слова:*** экология, преступление, охрана, безопасность, атмосфера

Məlum olduğu kimi, ekologiya termini ilk dəfə Yena Universitetinin professoru Ernst Hekkel tərəfindən 1866-cı ildə təklif edilmişdir. O bu termini yalnız bioloji elmlər sahəsində, başlıca olaraq zoologiya sahəsində işlədilməsi üçün irəli sürmüşdür. Uzun illər bu termin yalnız zoologiyada işlənmiş, hətta biologiya elmi ilə məşğul olanların çoxuna məlum olmamışdır. K.A.Timiryazev (1939) Hekkelin xatirəsinə həsr olunmuş nekroloqda onun çoxsaylı elmi xidmətlərini qeyd edərkən, ekologiya sahəsində də xidmət göstərdiyini hətta ötəri olsa belə xatırlatmır. «Ekologiya» anlayışının təkamülü də maraqlıdır. E.A.Brokqauz və E.A.Efronun lüğətinin 1904-cü ildə nəşr olunan 79-cu yarımcildində ekologiya heyvanlar üçün «evlər» tikintisi ilə əlaqələndirilir və aşağıdakı tariflə tamamlanır: ««Ekologiya» yaxud «oykologiya» zoologiyanın bir hissəsidir və heyvanların yaşayış yeri, daha dədiq desək, yuva, hin, yataq və s. haqqında məlumat verməklə məşğul olan bir elm sahəsidir.»

XX əsrin birinci on ili ərzində «ekologiya» sözü olduqca məhdud şəkildə işlədilirdi. Çox adam bu anlayış haqqında demək olar ki, heç bir məlumata malik deyildi. Bu terminlə əlaqədar olan anlayış vacib və aktual olmamışdı. Hətta SSRİ-nin 50 illiyi ilə əlaqədar çapdan çıxan «SSRİ-də biologiyanın inkişafı» (1967) kitabında «ekologiya» bölməsi yox idi. Ensiklopedik lüğətdə (1955) ekologiya orqanizmlə (heyvan yaxud bitkilər) ətraf mühitin qarşılqlı təsiri haqqında elm kimi formulə edilmişdir. 1964-cü ildə nəşr olunan Ensiklopedik lüğətdə isə ekologiya zoologiya və botanikanın bir hissəsi kimi verilirdi. Kiçik Sovet Ensiklopediyasında (1960) heyvanlar ekologiyası və bitkilər ekologiyasına ayrı-ayrı məqalələr həsr olunmuşdur.

Beləliklə, XX əsrin birinci yarısında ekologiya sırf biologiya tədqiqatları çərçivəsindən kənara çıxmamışdır. Həmin tədqiqatlarda isə insan probleminə, eləcə də məskun mühitin mühafizəsinə qətiyyən toxunulmamışdır. 60-70-ci illərdə bəşəriyyətin başı üzərində ekoloji buludlar sıxlaşmağa başladı. Elə bu zamandan «ekologiya» sözünün mənasını başqa cür yazmağa başladılar. Artıq ekologiya biologiyaya daxil olan elmdən təkcə bitki və heyvanlara dair deyil, insanın da yaşadığı mühitin ümumbəşəri dərki probleminə çevrildi. Artıq təbiət insanlara hesab açmış və onun gələcəyinin təhlükəli olması xəbərdarlığını etməyə başlamışdı. BMT-nin təşəbbüsü ilə 1972-ci ilin iyulunda Stokholmda çağırılan Beynəlxalq konfrans ətraf mühitin vəziyyətinə həsr olunmuşdu. Burada bəşəriyyətin varlığını təhlükə altında qoyan ətraf mühit problemi çox kəskin şəkildə qoyulmuşdur. İnsanı əhatə edən mühitin ekoloji vəziyyətinin ağır olduğu qeyd olu-

nur və eyni zamanda ekologiyanın dərindən öyrənilməsi tövsiyə edilirdi. Artıq ekoloji problemlər təkcə təbiətşünaslıq elmlərinin tam kompleksi deyil, həmçinin texniki və humanitar elmlərə diqqəti cəlb edirdi. Bununla bərabər ekoloji dünyagörüşünün nüvəsinin bioloji ekologiyanın əsasını təşkil edən qanunlar və anlayışlar sistemi təşkil edir.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında (1), eləcə də Azərbaycan Respublikasının 2000-ci ilin sentyabrında qüvvəyə minmiş CM-də ətraf mühitin mühafizəsi haqqında "Ekoloji cinayətlər" adlı ayrıca fəsil vardır (2). Bundan başqa, 1999-cu ilin avqust ayında bu sahədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Artıq xeyli müddətdir ki, ekoloji hüquq müstəqil fənn kimi bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə tədris olunmaqdadır. Cəmiyyətdə iqtisadi maraqlarla ekoloji maraqların üst-üstə düşməsi onların hər ikisinin qorunmasını tələb edir. Kəskin ekoloji məsuliyyətsizlik ekoloji cinayətə bərabər tutulur. Təsadüfı deyildir ki, ekoloji cinayətlərə görə məsuliyyət AR CM-nin 28-ci fəslində təsbit olunmuşdur. CM-nin 247-ci maddəsindən 261-ci maddəsinə kimi 15 (on beş) maddə ekoloji cinayətlərə həsr olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasının "Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlanan 39-cu maddəsində deyilir: "Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Hər kəsin sağlam ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır".

Azərbaycan Respublikasının Konstitusiyasının "Ətraf mühitin qorunması" adlanan 78-ci maddəsində deyilir: "Ətraf mühitin qorunması hər bir şəxsin borcudur". Əslində ətraf mühitin mühafızəsi ayrı-ayrı adamların işi olmaqdan daha çox dövlətin işidir. İnsanın əsas maraqlarını, vətəndaşın mənafeyini qorumaq dövlətin ən mühüm vəzifəsi kimi həmişə diqqət mərkəsində olmalıdır. Çünki cəmiyyətin ekoloji marağına mane ola biləcək, toxuna biləcək nə varsa bütün bunlara qarşı yalnız dövlət mübarizə apara bilər və hər cür qanunsuzluqların qarşısını ala bilər. Doğrudan da ekoloji marağın necə olursa olsun ödənilməsinə cəhd etmək olduqca böyük təhlükə hesab olunmalıdır. İnkişafın müasir böhranlı mərhələsində ekoloji şəraitin gərginləşməsi ona qarşı mübarizədə hüquqi vasitələrdən istifadə edilməsini, o cümlədən cinayət-hüquqi müdafıəni zəruri edir. Son illər bir sıra ölkələrin Cinayət Məcəllərində bəzi cinayətlər ekoloji cinayətlər sırasına daxil edilmişdir.

Ekoloji cinayətlər haqqında qanunvericiliyin inkişaf tarixinə diqqət yetirdikdə görürük ki, Azərbaycan SSR-in ilk 1922-ci il Cinayət Məcəlləsində ekologiya əleyhinə edilən cinayətlərdən yalnız ikisinin adı çəkilirdi (3). Birinci cinayət «Əhalinin sağlamlığını, ictimai təhlükəsizliyi və ümumi asayışı mühafizə edən qaydaların pozulması» fəslində göstərilirdi. Bu fəsildə ınsanlara və ya heyvanlara aid olmasından asılı olmayaraq keçici xəstəlik haqqında lazımi hakimiyyət orqanlarına xəbər verməməyə görə cinayət məsuliyyətinə cəlb etmənin vahid əsası qeyd edilirdi. İkinci çinayət tərkibi əvvəllər «Xalqın rifahını qoruyan qərarların pozulması haqqında» adlı fəslin əksər maddələr ilə əhatə olunan əməllərə birləşdirilirdi. «Meşələri vəhşicəsinə istismardan və qırılmaqdan, eləcə də meşə təsərrüfatını müəyyən olunmuş planı pozmaqla aparmaqdan qorumaq məqsədilə müəyyən edilmiş qanunları və məcburi qərarları pozma»; "qadağan edilmiş vaxtda, qadağan edilmiş yerlərdə və qadağan edilmiş üsullarla ov etmə və balıq tutma"; lazımi hakimiyyət orqanlarının icazəsi olmadan daş, qum hasil etmə, habelə müəyyən edilmiş qaydaları pozmaqla yerin təkinin işlənməsi ... cəzalandırılır». Qanunverici bu

növ pozuntulardan cəmiyyətdən çox dövlətin mənafelərinin ziyan çəkdiyini ehtimal edərək, bu cinayətləri idarəçilik əleyhinə olan qəsdlərin sırasına daxil etmişdir. Bu məsələ Azərbaycan Respublikasının 1927-ci il CM-də də analoji qaydada həll edilmişdir (4). Lakin meşənin mühafizə qaydalarını pozma, sudan müxtəlif şeylər tutma peşəsinin qadağan edilmiş növlərinin həyata keçirilməsi, yerin təkinin işlənilməsi, dəniz pişiklərini və dəniz qunduzları peşə olaraq ovlama, sonradan (1928-ci ildən) isə qanunsuz ov etmə də müstəqil cinayət tərkibləri kimi nəzərdən keçirilməyə başlandı.

Azərbaycan Respublikasınm 1960-cı il Cinayət Məcəlləsi təbiət əleyhinə olan cinayətlərin daha geniş dairəsinə görə ayrıca sanksiyalar nəzərdə tuturdu, lakin bunlar CM-nin Xüsusi hissəsinin müxtəlif fəsillərində təsbit edilirdi (5). Belə ki, «Təsərrüfat cinayətləri» adlı fəsildə həm əvvəllər məlum olan (qanunsuz olaraq ağac kəsmə, qanunsuz olaraq sudan balıq tutma və ya sudan başqa şeylər tutma peşəsi ilə məşğul olma, müvafiq icazə olmadan yerin təkinin işlənilməsi və s.), həm də sovet qanunvericiliyi üçün yeni olan bir sıra əməllərdən, ağac kəsmə, partlayış işlərinin aparılması qaydalarını pozma, əkinləri qəsdən korlama, torpaq-qoruyucu meşələri zədələmə və s. barəsində gedirdi. Bir sıra cinayət tərkibləri «İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər» fəslinə daxil edilmişdi. Azərbaycan Respublikasının 1960-cı il CM-də hətta sututarları və havanı çirkləndirmə cinayətləri də bu fəslə daxil edilmişdi. Hüquq ədəbiyyatında həmcins qrupların cinayətlərini Xüsusi hissəsinin müxtəlif fəsillərində yerləşdirməyin əsaslı olması fıkrinin tərəfdarları az olmuş, lakin bu məsələsinin həllinə ümumi yanaşma mövcud olmamışdır. Bir qisim müəlliflər bu cinayət tərkiblərini sosialist mülkiyyətinə edilən qəsdlərin növü kimi birləşdirməyi, digərləri bütün təbiəti mühafızəedici normaları təsərrüfat cinayətlərinə görə məsuliyyətin əsaslarını formulə edən normalar sırasına daxil etməyi, üçüncülər isə «Təbiət və onun nemətləri əleyhinə cinayətlər» adlı xüsusi fəsil yaratmağı təklif edirdilər.

Sonuncu təklif Azərbaycan Respblikasınm 1999-cu il CM-nin hazırlanması və qəbul edilməsi zamanı bəyənilmişdir. Ekoloji cinayətləri ayırmaqla qanunverici bu cinayətlərin hüquqi (kiminsə mülkiyyət hüququ) və ya iqtisadi (xalq təsərrüfatı) maraqlardan daha çox ayrı-ayrı şəxslərin və bütün cəmiyyətin həyat fəaliyyətinin təbii, obyektıv surətdə mövcud olan şərtlərinə toxunduğunu qeyd etmişdir. Azərbaycan Respublikasının 1999-cu il CM-də 1960-cı il CM-dən fərqli olaraq, «Ekoloji cinayətlər» adlı ayrıca fəsil nəzərdə tutulmuşdur. Bununla yanaşı, yeni CM üçün təqdirəlayiq hal kimi onun təbiət əleyhinə cinayətlərin kifayət qədər məntiqi olan sistemdaxili təsnifatını təsbit etməsini göstərə bilərik. Təbiətin ümumi qəbul edilmiş cansız (su, hava, torpaq, yerin təki, iqlim) və canlı (bitkilər, heyvanlar) kimi növlərə bölgüsünə riayət edərək, qanunverici ekoloji təhlükəli cinayətlərin üç əsas qrupunu ayırmışdır. Birinci qrup qaydaların konkret növünü pozan qəsdləri birləşdirir ki, bura daxildir: a) işlərin aparılması; b) mikrobioloji, digər bioloji agentlər və ya toksinlərlə davranma; c) baytarlıq və ya bitki xəstəliklərinə və ya bitki ziyanvericilərinə qarşı mübarizə. İkinci qrupu cansız adlandıran təbiətə qəsdlər təşkil edir ki, buraya da daxildir: a) suları, atmosferi, dəniz mühitini çirkləndirmə; b) sahilyanı şelf haqqında qanunvericiliyi pozma; v) torpaqları korlama, yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma. Üçüncü qrupa canlı təbiət (bitki və heyvanlar aləmi) əleyhinə cinayətlər aid edilmişdir ki, buraya isə aşağıdakılar daxildir: a) balıqları və başqa su heyvanlarının qanunsuz tutma; b) balıq ehtiyatlarınm qorunması qaydalarını pozma; v) qanunsuz ov etmə, qanunsuz ağac kəsmə, meşələri məhv etmə və ya korlama. Cinayətlərin üçüncü növünə “xüsusi mühafızə olunan təbiət ərazilərinin və təbiət obyekt-

lərinin mühafızə rejimini pozma" da aid edilir. Əlbəttə, hər bir digər təsnifat kimi bu təsnifat da müəyyən şərtilikdən məhrum deyil. Biz artıq tədqiqatın gedişində «ekoloji cinayətlər» anlayışına ümumiləşdirilmiş tərif vermişdik.

Artıq heç kimə sirr deyil ki, dünyada ekoloji vəziyyət getdikcə pisləşməkdədir. Elə bir fakt tapmaq mümkün deyildir ki, vəziyyətin yaxşılaşması haqqında müsbət nəsə demək mümkün olsun. Hər il meşələr azalır, səhralar artır, Yer atmosferi dəhşətli dərəcədə çirklənir, ozon qatı nazikləşir. Atmosferdə karbon qazının və digər zəhərli qazların səviyyəsi durmadan artır. Ətraf mühitin pisləşməsi tendensiyasına bu cür qiymət obyektivliyi ifadə edir. Bu proses dünya ölkələrinin əksəriyyətində özünü təzahür etdirir. Bu isə təbiətin qlobal miqyaslı deqradasiyasını əks etdirir. Göründüyü kimi, insan-təbiət sistemindəki ziddiyyətlər qlobal xarakter daşımağa başlamış və ona görə də ziddiyyətlərin həlli yolları getdikcə daha çox düyünə düşmüşdür. Əhalinin sayı və tələbatları artdıqca insan elmi-texniki nailiyyətlərə əsaslanaraq təbiəti tədricən dəyişdirir və ondan daha çox mənfəət götürməyə çalışır, əvəzində isə təbiətə az şey qaytarır. Beləliklə, təbii sərvətlərdən səmərəsiz istifadə olunması tədricən ekoloji şəraitin pisləşməsinə gətirib çıxarır. Elə buna görə də, bütün bəşəriyyət üçün ən ciddi təhlükələrdən biri ekoloji böhran sayılır. Bu isə, təbiət və cəmiyyət arasında olan tarazlığın pozulması nəticəsində baş verir. Təbiətdə bütün proseslər bir-biri ilə sıx surətdə bağlıdırlar. Doğrudan da təbiət özünəməxsus olan dialektik qanunlar çərçivəsində inkişaf edir. Təbiətin ayrılmaz bir hissəsi olan insan istehsal fəaliyyəti nəticəsində təbiətə güclü təsir göstərərək tədricən «təbiət-cəmiyyət» sisteminin tarazlığını pozur. İnsan özünün artan tələbatlarını ödəmək üçün təbiəti, öz yaşadığı mühitin xarici görünüşünü və iqlimini dəyişdirir. İndi isə aydın görürük ki, hər bir düşüncəsiz hərəkətlər üçün təbiət bizdən intiqam almağa başlamışdır: əlbəttə, bu bizim nəslin ekoloji şüurunun, ekoloji mədəniyyətinin aşağı səviyyədə olmasının nəticəsidir. Hər bir müasir adam ekoloji problemə dair təbii-elmi və sosioloji biliklərə malik olmalıdır. Çünki bu günkü ekoloji böhran artıq qlobal sosial problemə çevrilmişdir. İndi artıq əhalinin bütün mənəvi tərbiyə sistemi ekolojiləşməlidir. Elmi tədqiqatların, ekoloji tərbiyənin, ümumi dünyagörüşünün ekoloji təfəkkürə qarşılıqlı təsirinin əsas məqsədi insanlarda ekoloji dünyagörüşü formalaşdırmaqdan ibarət olmlıdır. Ancaq ekoloji dünyagörüşü müəyyən biliklər sistemi kimi qələmə vermək, yaxııd təsəvvür etmək, sadəcə olaraq, yanlış fıkirdir. Bu o vaxt zəruri olur ki, bilik-əqidəyə, möhkəm daxili inama çevrilsin. Insan ekoloji böhran nəticəsində öz həyatının labüd təhlükəsini dərk etməli və bu sahədə hər bir ekoloji fəaliyyətə hazır olmalıdır. Yalnız əməli prosesdə bilik, əqidə və fəaliyyət kimi komponentlər birləşib ekoloji dünyagörüşü formalaşdıra və ekoloji məqsədlərin həyata keçirilməsi üçün real sosial mənəvi zəmin yarada bilər.

Tədqiqatçıların fıkrincə, bazar iqtisadiyyatı şəraitində ekoloji böhranın kəskinləşməsi, təbiətlə cəmiyyət arasındakı sosial-təbii ziddiyyətlərin, daimi mübarizənin son həddə çatması cəmiyyətlə təbiət arasında gedən mübarizənin labüd yekunu sayılmalıdır. Ətraf mühitin çirklənməsinin təhlükəli həddə çatması, onun şəhər və sənaye mərkəzlərində daha çox deqradasiyası, canlı təbiətin sərvətlərinin sistemli şəkildə məhv edilməsi müasir dünyamızda adi hala çevrilmişdir. Bir çox tədqiqatçıların fikrincə, hazırki şəraitdə ekoloji böhranın kəskinləşməsinin əsas səbəbləri bunlardır: Birincisi: intehsalat mühitinin və elmi-texniki tərəqqinin yüksəlişi ilə əlaqədar təbii sərvətlərinin intensiv və ekstensiv istismarı; ikincisi; yer kürəsinin ayrı-ayrı regionlarında müharibə və münaqişələrin dağıdıcı vasitələrlə təbiətə və insan həyatına göstərdiyi anti ekoloji təsir; üçüncüsü: Yer kürəsinin ayrı-ayrı regionlarında siyasi proseslərlə bağlı daxili münaqişələr nəticəsində

100 minlərlə insanın köçkünə, qaçqına, didərginə və ya miqranta çevrilməsi; dördüncüsü: bir çox ölkələrdə sənayeyə, istehsal prosesinə ictimai nəzarətin olmamasının nəticələrinin ekologiyaya ağır təsir göstərməsi.

Göründüyü kimi, bütün bu proseslərin cəm halında, birlikdə təbiətlə cəmiyyət arasındakı münasibətlərə təsiri yeni, mürəkkəb ziddiyyətlərin yaranmasına, nəticədə müasir şəraitində bunların ekoloji böhran formasına çevrilməsinə səbəb olmuşdur. Bu böhran bütün dünyada sənaye istehsalının sürətli inkişafı ilə təbiət arasında olan toqquşmanın nəticəsi hesab olunur.

Gərgin-ekoloji ziddiyyətlər nəticəsində təbiətlə insan arasında olan təbii qırılmaz əlaqələr elə bir vəziyyət almışdır ki, ətraf mühitin özü insan həyatı üçün yararsız hala düşmüş, cəmiyyətin tələblərinə cavab verməyən, iqtisadi, siyasi və sosial ziddiyyətlərin yaranması, kəskinləşməsi üçün şərait yäradan faktor olmuşdur.

«Bəşəriyyət ekoloji böhranın astanasındadır. Vəziyyət o qədər ciddidir ki, fəlakətin qarşısını almaq üçün əvvəllər tətbiq edilməmiş güc, ideya və maddi vasitlər tələb olunur».

Ekoloji problemlər üzrə verilmiş bu diaqnoz Nayrobidə (Keniya) və Boulderdə (ABŞ-ın Kolorado ştatı) çıxış etmiş alimlərin fıkri ilə təsdiqlənir (6). Nayrobidə görüş iştirakçıları bu qənaətə gəlmişlər ki, böhran xarakteri almış ekoloji problem öz əhəmiyyətinə və ciddiliyinə görə tərksilah, regional münaqişələrin nizama salınması kimi problemlərlə bir səviyyədə durur. Orada həm də qeyd edilmişdir ki, bütün dövlətlərdə həyati proseslərə ilk növbədə ekoloji nöqteyi-nəzərdən baxılmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı, 2017, 92 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / Hüquq elmləri doktoru F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2012, 1104 s.
3. Almanax. Cinayət qanunları külliyyatı (1920-2000). Bakı: Hüquq Yayın Evi, 2014, 1184 s.
4. Azərbaycan SSR Cinayət Məcəlləsi: təfsir (redaktoru - V.P.Qəhrəmanov). Bakı: Azərnəşr, 1948, 537 s.
5. Azərbaycan SSR Cinayət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan SSR-in 1960-cı il 8 dekabr tarixli Qanunu. Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1960-cı il, № 29, maddə 143
6. В Найроби стартовала Ассамблея ООН по окружающей среде. https://news.un.org/ru/story/2017/12/1316822

## CONCEPT AND SYSTEM OF ECOLOGICAL CRIMES

**A.E.Gasimov**

## SUMMARY

This article provides an analysis of the theoretical concept and definition of ecology, various interpretations of this science in various historical periods, as well as the essence of environmental crimes. Legal, economic, scientific, technical, social and other measures implemented in the Republic of Azerbaijan in the field of environmental protection are also discussed.

## ПОНЯТИЕ И СИСТЕМА ЭКОЛОГИЧЕСКИХ ПРЕСТУПЛЕНИЙ

**А.Э.Гасымов**

**РЕЗЮМЕ**

В статье дан анализ теоретического понятия и определения экологии, различные интерпретации о данной науке в различные исторические периоды, а также сущность экологических преступлений. Представлен комплекс правовых, экономических, научно-технических, социальных и иных мер, осуществляемых в Азербайджанской Республике в области охраны окружающей среды.

*Məqalə redaksiyaya 6 mart 2019 tarixində daxil olmuş, 8 mart 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT № 94

# ORTA ƏSRLƏR ƏRƏB MƏNBƏŞÜNASLIĞINDA "MƏQTƏL" ƏSƏRLƏRİNİN TƏŞƏKKÜL PROSESİ VƏ "MƏQTƏLÜL-HÜSEYN"LƏR

**E.A.Əzizova**
Azərbaycan İlahiyyat İnstitutu
Bakı, Əhməd Cəmil küçəsi 41/A
e-mail: elnuraazizova@ait.edu.az

***Açar sözlər:*** ərəb mənbəşünaslığı, məqtəl, Məqtəlül-Hüseyn
***Keywords:*** Arab historiography, maqtal, Maqtal al-Husayn
***Ключевые слова:*** арабская историография, мактал, Мактал аль-Хусейн

## Giriş

Ərəb dilində "vəhşicəsinə qətlə yetirmə", "qətliama yol açan böyük döyüş", "qətl yeri" və yaxud "qətl zamanı" mənasında istifadə edilən "məqtəl", Orta əsrlər ərəb-islam tarixçiliyində məşhur şəxslərin siyasi motivlərlə müharibədə və digər hadisələr nəticəsində öldürülməsinə dair tarixin bir növü olaraq təşəkkül etmişdir. İslamaqədərki dövr ərəb tarixində Ficar, Buas, Dahis, Züqar və "əyyamül-ərəb" olaraq bilinən digər çoxsaylı döyüşlər nəticəsində tarixi hadisə sayılacaq qətl hadisələri baş vermiş olsa da, cahiliyyət dövründən bəhs edən mənbələrdə "məqtəl" sözü İslam dövründəki termin mənasında istifadə edilməmişdir. İslamaqədərki dövr ərəb tarixində "məqtəl"in bir məfhum olaraq istifadəsinə Əbülfərəc əl-İsfahaninin "Əl-Əğani" adlı əsərində rast gəlinir (7, V, 34, VIII, 180, X, 14, XI, 75, XV, 298, XVI, 56, XVII, 179-180). Lakin daha sonra "məqtəl" əsərlərindən bəhs edilərkən qeyd olunacağı kimi, Əbülfərəc əl-İsfahani həm də "məqatil" ("məqtəl"lər) növünün ən məşhur nümunəsi sayılan "Məqatilüt-Talibiyyin" əsərinin müəllifidir. Beləliklə, İsfahaninin "Əl-Əğani" əsərindəki "məqtəl" vurğusu müəllifi olduğu Məqatilüt-Talibiyyin əsəri diqqətə alınaraq dəyərləndirilməlidir.

Bir termin olaraq, "məqtəl"in mühüm tarixi şəxslərin qətlindən danışan tarixi növə çevrilməsi prosesi xilafətin ilk üç əsrlik tarixinə paralel şəkildə inkişaf etmişdir. İlkin mərhələdə ərəb-islam tarixçiliyində ümumi tarix və əxbar kitabları məşhur şəxslərin avtobioqrafiyalarına həsr olunmuş "təbəqat" əsərlərində qətl hadisəsinin anladıldığı hissələrin mövzu başlığı olan "məqtəl" sözü tədricən bu mövzuya ayrılmış müstəqil "məqtəl" əsərlərinin yazılması prosesini şərtləndirmişdir (3, 195-196).

Dini-tarixi mətnlərin müasir sosial elmlərin metodları çərçivəsində araşdırılması prosesinə paralel olaraq, "məqtəl" ədəbiyyatı da XIX əsrin ikinci yarısından etibarən tədqiqat obyektinə çevrilmiş və ayrı-ayrılıqda "məqtəl"lərlə əlaqəli elmi tədqiqat əsərləri yazılmışdır. Qeyd olunmalıdır ki, ərəbdilli "məqtəl" əsərlərinə dair tədqiqatlar əsasən Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" adlı əsəri üzərinə aparılmışdır. Şərqşünas Ferdinand Wüstenfeldin Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsəri haqqında yazdığı "*Der Tod des Husein ben Ali und die Rache: Ein historischer Roman aus dem Arabischen*" adlı tədqiqatı sahənin ilk nümunələrindən sayılır. Həmçinin alman şərqşünas Ursula Sezginin "*Abu Mihnaf. Ein Beitrag zur Historiographie der umaiyadischen Zeit*" adlı əsərində də bu mövzuya toxunulur. Bir digər alman şərqşünas Sebastian Güntherin ilk dörd hicri əsrdə yazılmış

ərəbdilli "məqtəl"lər haqqındakı "*Maqatil Literature in Medieval Islam*" məqaləsi Əbülfərəc əl-İsfahaninin "Məqatilüt-Talibiyyin" əsərinin təhlilinə dair mühüm məlumatlar verir. S.M.Prozorovun "Арабская историческая литература в Ираке, Иране и Средней Азии: шиитская историография" adlı əsəri erkən orta əsrlər ərəb tarixçiliyinin bir istiqamətini təhlil edərkən, ərəbdilli "məqtəl" müəllifləri haqqında da bioqrafik məlumatlar verilir. Daha çox qərbli şərqşünasların tədqiqatlarında rast gəlinən mövzuyla əlaqəli elmi tədqiqatlara əlavə olaraq Khalid Sindavinin Əbu Mixnəfin (ö. 157-774), Xarəzminin (ö. 568/1172), Cəfər ibn Nəmanın (ö. 645-1247) və Əli ibn Tavusun "məqtəl"lərinin (ö. 664/1266) müqayisəli təhlilinə həsr etdiyi fəlsəfə doktorluğu dissertasiyası da (Bar-Ilan Universiteti, İsrail, 2000) burada qeyd olunmalıdır. Azərbaycan elmi ictimaiyyətində ərəbdilli "məqtəl"lər mövzusu müstəqil şəkildə tədqiq olunmamışdır. Bununla birlikdə ümumilikdə "məqtəl" mövzusunun ədəbi təhlilinə daha çox Füzulinin Hədiqətüş-şühədası və A.Bakıxanovun Riyazül-qüds əsəri (Nağısoylu M, A.Bakıxanovun "Riyazül-Qüds" əsəri: Klassik tərcümə nümunəsi kimi, Bakı: Nurlan, 2006) çərçivəsində qismən toxunulmuşdur.

## 1. "Məqtəl" ədəbiyyatının yaranması və inkişaf prosesi

Erkən orta əsrlərin klassik tarix kitabları ilə yanaşı, ərəb-islam tarixçiliyinin mühüm mənbələrindən olan "rical" və "fihrist" əsərlərinin tədqiqi göstərir ki, "məqtəl" ədəbiyyatının mövzusu olan tarixi şəxsiyyətlər ilk dövr ərəb xilafətinin qətlə yetirilmiş xəlifələri, onların yaxınları və ya davamçılarıdır. Xüsusilə VIII-X əsrin "məqtəl" növündə əsər qələmə almış Hişam ibn Məhəmməd əl-Kəlbi (204/819), Nəsr ibn Müzahim əl-Minqəri (ö. 202/817), İbrahim ibn Məhəmməd əs-Səqəfi (ö. 283/896), Əli ibn Məhəmməd əl-Mədaini (ö. 245/845), Əbu Bəkr Abdullah İbn Əbüd-Dünya (ö. 281/894), Məhəmməd ibn Zəkəriyyə (ö. 308/940) və digər ərəb tarixçilərin əsərləri Osman ibn Əffan və Əli ibn Əbu Talib kimi ilk xəlifələr, Həsən ibn Əli və Hüseyin ibn Əli kimi Məhəmməd Peyğəmbərin nəvələri, Məhəmməd ibn Əbu Bəkr, Hücr ibn Ədiy, Məhəmməd ibn Əbu Hüseyfə, Müsəb ibn Zübeyr kimi xilafət tarixinin ilk dövrünün siyasi hadisələrində qətlə yetirilmiş şəxslərlə əlaqəli qələmə alınmışdır.

Cabir ibn Yezid ibn Haris əl-Cufinin (ö. 128/746) (12, 100; 8, III, 106-107), İsa ibn Mihran Əbu Musa əl-Müstəfidin (ö. III/IX əsr) (4, 278; 19, 142), İbrahim ibn Məhəmməd əs-Səqəfinin (ö. III/IX əsr) (4, 279; 12, 13-15; 19, 28-29) və Əbdüləziz ibn Yəhya əl-Cəludinin (ö. 332/944) (4, 128; 12, 180-184; 19, 145) Qüreyş qəbiləsinin üməyyəoğulları qoluna mənsub üçüncü xəlifə Osman ibn Əffanın qətlinə həsr olunmuş "Məqtəli-Osman" adlı əsərləri, İbrahim ibn Məhəmməd əs-Səqəfinin (ö. III/IX əsr) (4, 279; 12, 12, 13-15; 19, 28-29), Məhəmməd ibn Zəkəriyyə əl-Qəllabinin (ö. 298/911) (4, Fihrist, s. 121; 12, 12, 266-267), Abdüləziz ibn Yəhya əl-Cəludinin (ö. 332/944) (4, 128; 12, 12, 180-184; 19, 145) Qüreyşin haşimoğullarına mənsub dördüncü xəlifə Əli ibn Əbu Talibin qətli üzərinə yazılmış "Məqtəli əmirəl-möminin" və ya "Məqtəli Əli" adlı əsərlərini ilk dörd xəlifənin son ikisinin öldürülməsi hadisəsi haqqında yazılmış "məqtəl" nümunələri olaraq qeyd etmək olar. (14, I, 315, 321; 21, 102- 114)

Başlanğıcda xilafətin aparıcı hakim qəbiləsi olan Qüreyşin müxtəlif qollarına aid şəxslərin siyasi hadisələr nəticəsindəki qətlinə həsr olunan və yalnız bir mühüm tarixi simanın qətli üzərinə yazıldığı üçün "məqtəl" adlanan bu əsərlər IX-X əsrlərdən etibarən siyasi-ictimai hadisələrin təsiri ilə qüreyşin haşimoğulları qolundan, daha dəqiq ifadə ilə, xüsusilə Məhəmməd Peyğəmbərin və ya əmisi Əbu Talibin nəslindən olan tarixi şəxsiy-

yətlərin qətlinə dair yazılmış "məqatil" ədəbiyyatı ilə davam etmişdir. Bu əsərlər "mən qutilə" (öldürülənlər), "mən şəhidə" (şəhid olanlar) adı ilə də qələmə alınmışdır. Əli ibn Əhməd əl-Mədaininin (ö. 235/850) və Əhməd ibn Haris əl-Xərrazın (ö. 258/872) "Əsma mən qutilə minət-Talibiyyin", İbrahim ibn Məhəmməd əs-Səqafinin (ö. 238/896) "Kitabu mən qutilə min Ali Məhəmməd" əsərləri məqatil növünün bilinən nümunələridir.

"Məqtəl" ədəbiyyatında əsər adlarında "məqatil" (qətllər) sözünün istifadə olunduğu ilk nümunələrə isə IX əsrin sonlarına doğru rast gəlinir. Məhəmməd ibn Həmzə əl-Ələvi (ö. 287/900) ilə başlayan "Məqatilut-Talibiyyin" adlı əsər yazma ənənəsi Əhməd ibn Übeydullah əs-Səqafi (ö. 314/926), Əhməd ibn Məhəmməd əl-Həmədaninin (ö. 333/944) əsərləri ilə davam etmişdir. Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsəri tək bir tarixi şəxsiyyətin vəfatı üzərinə yazılmış ərəbcə "məqtəl" ədəbiyyatının ən məşhur əsəri sayıldığı kimi, Əbül-Fərəc İsfəhaninin "Məqatilüt-Talibiyyin" əsəri də Məhəmməd peyğəmbərin nəslinin təmsilçilərinin qətlinə dair yazılmış ən məşhur nümunəsidir.

## 2. Tərtib və məzmun baxımından ərəbdilli məqtəllərin xüsusiyyətləri

Qətlindən danışılan şəxsin amalı uğrunda mübarizəsi "məqtəl"lərdə əsas süjet xəttini meydana gətirir. "Məqtəl"lərdə həmin tarixi şəxsiyyətlərə dair bioqrafik məlumatlara da yer verilir. Təsadüfi deyil ki, müxtəlif şəxslərin qətlinə dair çoxsaylı "məqtəl" müəllifləri arasında qətlinə həsr etdikləri şəxsin həyat və fəaliyyətinə dair əsər yazmış olanları da var. Məsələn Abdüləziz ibn Yəhya əl-Cəludinin "Məqtəli Əli" əsəri ilə yanaşı xəlifə Əli ibn Əbu Talibin həyat və fəaliyyətinə dair çox sayda əsəri, "Məqtəlül Hüseyn" əsəri ilə yanaşı "Zikrul-Hüseyn" adlı əsəri mövcuddur (4, 128; 12, 180-184). Eyni şəkildə çoxsaylı "məqtəl" müəllifi Əbu Mixnəfin də "Məqtəlu Əli" əsəri xaricində xilafəti dövründə Əli ibn Əbu Talibin Cəməl, Sıffin, Nəhravan döyüşləri kimi hərbi fəaliyyətlərinə həsr olunmuş müstəqil əsərlərindən bəhs olunur (4, 36; 12, 89-90). Bu əsərlərin bir çoxu müstəqil şəkildə müasir dövrə gəlib çatmasa da IX-X əsr tarixçilərin əsərlərində nəql olunmuş qismləri məzmun baxımından müqayisəli şəkildə tədqiq olunarsa ortaq cəhətləri haqqında mülahizə irəli sürmək olar.

Yuxarıda qeyd olunduğu kimi, "məqtəl"lərdə qətlindən danışılan şəxsin tərcümeyi-halı ilə əlaqəli məlumatlara geniş yer verilsə də, bu məlumatlarla da əlaqələndirilərək əsasən onların qətlinə yol açan müəyyən siyasi hadisələrin inkişaf xətti "məqtəl"in məzmununu müəyyənləşdirir. Bu sujet xəttində haqqında danışılan şəxsin adı, nəsəbi, doğum tarixi və şəxsi üstünlükləri ilə əlaqəli məlumatlara təfərrüatlı şəkildə yer verildikdən sonra onun qətlinə aparan hadisələr ümumi şəkildə təsvir olunur. "Məqtəl"lərdə siyasi hadisələrin haqqında danışılan "qəhrəmanları"nın qərar və icraatları ilə yanaşı, qarşıdurmanın müxtəlif qrupları arasında baş verən hadisələrin siyasi, ictimai, dini və digər səbəbləri üzərində durulur. "Məqtəl"in sonunda qəhrəmanın qətl hadisəsi və dəfn olunması ilə əlaqəli rəvayətlər yenidən təfərrüatlı şəkildə nəql olunur. Xüsusilə qətl və ardından baş verən hadislərin təsviri əsnasında rəvayətlər müvafiq mənzum parçalarla da zənginləşdirilir və adətən şəhidlə əlaqəli mərsiyələrə yer verilir.

"Məqtəl"lərin yazılma məqsədi, yuxarıda da qeyd olunduğu kimi, tarixi şəxsiyyətlərin qətli haqqında birinci dərəcəli mənbələrdən məlumat verməkdir. Buna görə də çox vaxt "məqtəl"lərdə rəvayətlər hadisəni görən şəxsdən və yaxud görən şəxsdən eşidən ravinin rəvayəti ilə nəql olunur. Beləliklə erkən orta əsrlər ərəb-islam tarixçiliyinin səciyyəvi iki xüsusiyyəti 1) ravi zincirinin mövcud olduğu rəvayətlərdən istifadə olunması və 2) mənbələrin qeyd olunması (16, 16-20), "məqtəl" ədəbiyyatında da özünü göstərir.

VIII-X əsrlərdə tarix yazıçılığının qeyd olunan xüsusiyyətlərini daşıyan “məqtəl” ədəbiyyatı, daha sonrakı dövrlərdə sırf tarixi mənbə olaraq qalmamışdır. Müasir dövrə gəlib çatmış nümunələri tədqiq edildikdə görülür ki, tədricən “məqtəl” ədəbiyyatında əksər tarixi həqiqətlərin yerinə “fövqəltəbii faktların” əlavə olunduğu yarı əfsanəvi və dastanvari xəbərlər, deskriptiv təsvirin əvəzinə emosional ünsürlər ön plana çıxmışdır.

## 3. Ərəbdilli “Məqtəlül-Hüseyn” əsərləri

Məhəmməd Peyğəmbərin nəvəsi olması, siyasi iqtidarın zülmünə məruz qalması və Kərbəlada göstərdiyi cəsarət səbəbi ilə Hüseyin ibn Əlinin şəhadətinə həsr olunmuş “məqtəl” ədəbiyyatı xüsusilə seçilmiş və tarixi-ədəbi növ olaraq dini düşüncəsindən asılı olmayaraq müsəlman xalqların ədəbiyyatında öz əksini tapmışdır. Məhəmməd Peyğəmbərin vəfatından yarım əsr sonra nəvəsinin Kərbəlada siyasi səbəblər uğrunda faciəvi şəkildə qətl edilməsi İslam dünyasını dərindən sarsıtmış, buna görə hadisənin meydana gəldiyi tarixdən etibarən çox sayda mənzum və mənsur tarixi, tarixi-ədəbi və ədəbi növdə əsər qələmə alınmışdır.

Kərbəladakı şəhadətinə görə Hüseyin ibn Əli haqqında ərəbdilli mənbələrdə çox sayda mənzum əsərə rast gəlinir. Öldürülən şəxsin ardından ağlayaraq mərsiyə demək, xatirələrini mərsiyələrdə yaşatmaq, yaxınlarını intiqama təşviq etmək cahiliyyə dövründən etibarən ərəb cəmiyyətinə məxsus bir ənənə idi. Bu səbəblə ümumilikdə müsəlmanlar nəzdində özünəməxsus bir yeri olan Hüseyin ibn Əlinin Kərbəladakı faciəvi aqibəti təbii olaraq hadisənin baş verdiyi zamandan etibarən Əhli-Beytə xüsusi rəğbəti olan şairlərin mövusuna çevrilmişdir. Bu mənada Kərbəla hadisəsi ilə əlaqəli ərəbdilli mərsiyələri erkən dövr “Məqtəlül-Hüseyn”lərin ilk nümunələri hesab etmək olar.

Kərbəla hadisəsindən və Hüseyin ibn Əlinin şəhadətindən danışan ən qədim mənzum əsəri, ərəb nəhvinin ilk əsaslarını təsbit edən alim və dövrünün şeir müsabiqələrindəki ixtilaflarda hakimliyinə etibar edilən şair Əbül-Əsvəd əd-Düvəlinin (ö. 69/688) yazdığı bilinir. Qatı tərəfdarı olduğu xəlifə Əli ibn Əbu Talibə və ailəsinə qarşı haqsızlıq edən Əməvilərə nifrətini hər fürsətdə nümayiş etdirən şair, Kərbəla hadisəsinə dair yazdığı şeirində Məhəmməd Peyğəmbərin ailəsinə qarşı törədilənlərə qarşı hislərini dərin hüzn ilə ifadə etmiş və Hüseyin ibn Əlinin qətlini əmr edən Übeydullah ibn Ziyadın hakimiyyətinin Səmud və Ad qövmlərininki kimi nəticələnməsi üçün bəddua etmişdir (5, I, 512-513; 11, III, 78).

Erkən dövr ərəb ədəbiyyatında Kərbəla hadisəsini şeirlə tərənnüm edən bir digər şəxs Übeydullah ibn Hürr əl-Cüfi (ö. 68/687) olmuşdur. Sadəcə hadisəyə qarşı kədəri deyil, həm də Hüseyin ibn Əliyə dəstək olmadığı üçün də vicdan əzabı çəkməsi onun mövzu ilə əlaqəli şeirlərinin ilham qaynağıdır. Hüseyin ibn Əlinin dəstək çağrısına vaxtında cavab verməyən şair daha sonra bu davranışına görə keçirdiyi peşmanlığı Kərbəla hadisəsinə dair şeirində əks etdirmişdir (5, I, 513-516, 518-519; 17, III, 470). Kərbəla hadisəsindən qısa bir müddət sonra hadisəyə dair yazılmış mərsiyələrin ən məşhuru Bəsrədəki qürradan olan və Əhli-Beyt tərəfdarlığı ilə tanınan Süleyman ibn Qətta əl-Ədəvi ət-Teymiyə (I/VII əsr) aiddir. Şair hadisədən üç il sonra Kərbəladan keçərkən oxuduğu şeirində Peyğəmbərin ailəsinin faciəvi aqibətinin müsəlmanların böyük fəlakəti adlandırmış, Hüseyin ibn Əlinin şəhadətinə görə bütün yer üzünün matəmə girdiyini bildirmişdir (5, 510-512; 1, III, 420; 6, IV, 117; 10, XLV, 293-294). Bunun xaricində Kümeyt ibn Zeyd əl-Əsəd (ö. 126/744), Abidə ibn Əmr əl-Kindi (I/VII əsr), Əbu Dihbil əl-Cüməhi (I/VII əsr) kimi erkən dövr ərəb şairlərinin bu faciəvi hadisəni şeirlərində əks

etdirməsi ilk dövr tarix mənbələrində öz əksini tapmışdır (9, 167-175; 5, I, 516-518; 1, III, 420).

Sadəcə Əməvilər sülaləsi dövründə deyil, iqtidarın Əhli-Beytə qarşı münasibəti ilə razılaşmayan Mənsur ən-Nümeyr (ö. 190/806), Qasım ibn Yusif (III./IX.Yy.), Dibil ibn Əli əl-Xüzai (ö. 246/861), Abdullah ibn Mütəzz (ö. 296/909), Bisəmi (ö. 302/914), Əbül-Mühsin ət-Tənuxi (ö. 302/914) kimi Abbasilər dövrü şairlərinin də şeirlərində Kərbəla hadisəsi və onun intiqamı daim canlı tutulmuş (20, 143-144; 6, IV, 114-115; 10, XLV, 278, 2, 13-28), həmçinin Fatimilər dövrü şairlərinin də şeirlərində öz əksini tapmışdır (6, IV, 114-115; 10, XLV, 282).

Ərəbdilli mənbələrdə ilk dəfə mənzum şəkildə təqdim olunan Kərbəla hadisəsinin ən çox məşhur olan mənbələri, şübhəsiz ki, "Məqtəlül-Hüseyn" əsərləridir. Bu əsərlər erkən orta əsrlər ərəb-islam tarixində Kərbəla hadisəsinə dair yazılmış müstəqil əsərlər olması səbəbilə əhəmiyyət daşıyır. Hüseyin ibn Əlininin və tərəfdarlarının Kərbəladakı faciəvi aqibətinin bəzən tarixi rəvayətlər çərçivəsində, çox vaxt da bu sərhədlərin aşılaraq nəql olunduğu "Məqtəlül-Hüseyn"lər əsrlər boyunca ərəb, fars və türk ədəbiyyatında mühüm bir yer tutmuşdur. Mənbələrdə "Məqtəlül-Hüseyn" adlı əsər yazmış onlarla müəllifin adı keçməkdədir. Bu sahədə ilk əsərin II/VIII əsrin əvvəllərində əl-Əsbəğ ibn Nəbatə əl-Mücaşi tərəfindən yazıldığı bildirilsə də (18, XXII, 23-24) nə əsər, nə də müəllif haqqında müasir dövrə çox məlumat gəlib çatmamışdır. Mənbələrdə adı keçən Cabir ibn Yezid əl-Cüfi (ö. 128/746), Əbu Mixnəf Lut ibn Yəhya (ö. 157/773-74), Nəsr ibn Müzahim əl-Minqəri (ö. 202/817), Məhəmməd ibn Ömər əl-Vaqidi (ö. 208/823), Əli ibn Məhəmməd əl-Mədaini (ö. 245/845), İbrahim ibn Məhəmməd əs-Səqəfi (ö. 283/896), Məhəmməd Zəkəriyyə əl-Qəllabi (ö. 308/940), Mahmud ibn Mübarək (ö. 509/1195), Müvəffəq ibn Əhməd əl-Xarəzmi (ö. 568/1172) ve Musa ibn Cəfər ibn Tavus (ö. 664/1266) kimi çox sayda müəllifin (4, 425, 428, 445, 482, 506; 18, XXII, 22-29) əsərlərini nümunə göstərmək olar. İlk nümunələri hicri II, miladi VIII əsrin əvvəlinə aid olsa da, bu əsərlərin böyük əksəriyyəti müasir dövrə qədər gəlib çatmamış, gələnlər isə ciddi dəyişikliyə məruz qalmışdır.

Ədəbi növə daha yaxın olması səbəbi ilə mövzu ilə əlaqəli yazılarında tədqiqatçılar "Məqtəlül-Hüseyn"lərin müasir dövrə çatmış nümunələrinin tarixi roman və yaxud agioqrafiya üslubunda yazıldığını irəli sürmüşdür. Bu xüsusiyyətinə görədir ki, "məqtəl" ədəbiyyatının ən məşhur nümunələrindən sayılan Əbu Mixnəfin "Kitabu Məqtəlül-Hüseyn" adlı əsərini alman dilinə tərcümə edərkən şərqşünas Ferdinand Wüstenfeld orijinal adının qarşısından "Ərəb dünyasından tarixi bir roman" sözlərini də əlavə etmişdir: "Wüstenfeld, "Der Tod des Husein ben Ali. Ein historischer Roman aus dem Arabischen". İlk dövr ərəbdilli mənbələrdə "məqtəl" ədəbiyyatına dair tədqiqatında Sebastian Günther, xüsusilə Əbül-Fərəc əl-İsfahaninin "Məqatilüt-Talibiyyin" əsərinin xristian övliyaların həyatını təsvir edən dini kitab, "agioqrafiya" üslubunda olduğunu irəli sürür (3, 194, 206-207). Müasir dövrə çatmış dörd ərəbdilli "Məqtəlül-Hüsey"nin tarixi mənbə olaraq təhlilinə dair fəlsəfə doktorluğu dissertasiyasında Xalid Sindavi, İsa Məsih və Vəftizçi Yəhya kimi xristianlığın mühüm dini fiqurlarının doğumundan vəfatına qədərki hadisələrin İncildə keçən motivləri ilə Hüseyin ibn Əlinin "məqtəl" ədəbiyyatındakı təsviri arasında mühüm bir paralellik olduğunu göstərir (15, 79-104).

## Nəticə

Ərəb tarixçiliyində VII əsrin ikinci yarısından etibarən siyasi səbəblərə bağlı olaraq baş vermiş mühüm şəxslərin qətli hadisəsi, erkən dövr tarix mənbələrində adını hadisədən alan müstəqil fəsillərdə öz əksini tapmışdır. VIII əsrin sonlarından etibarən mövzu ilə əlaqəli adında "məqtəl" sözünün keçdiyi əsərlər/risalələr yazılmağa başlamışdır. Bu proses, xüsusilə doqquzuncu və onuncu əsrdə siyasi-ictimai hadisələrin təsiri ilə çox sayda "məqtəl" əsərinin yazılmasına səbəb olmuşdur.

Ərəbdilli "məqtəl"lər arasında qətlinə həsr olunmuş şəxsin siyasi, ictimai və dini mövqeyi diqqətə alındıqda, xilafətin üçüncü və dördüncü xəlifələri olan Osman ibn Əffan və Əli ibn Əbu Talibin qətlinə həsr olunmuş nümunələri olmaqla birlikdə, ərəbdilli "məqtəl"lər daha çox Məhəmməd Peyğəmbərin nəvəsi Hüseyin ibn Əlinin 680-ci ildə Kərbəlada faciəvi şəkildə qətl edilməsi hadisəsində təmərküzləşmişdir. Tədricən "məqtəl" ədəbiyyatı ilə əlaqəli müstəqil əsərlərin yazılması prosesi "Məqtəlül-Hüseynlər" istiqamətində davam etmişdir. İlk dövrlərdə mənbələrə istinad etmə və ravi zənciri ilə rəvayətlərdən istifadə etmə metodu baxımından tarixi xüsusiyyət daşıyan bu əsərlər, tədricən mənzum hissələrin artması, dastanvari rəvayətlərin əlavə edilməsi və digər xüsusiyyətləri ilə birlikdə tarixi-ədəbi növə yaxınlaşmışdır. Əlaqəli tədqiqatlarla erkən orta əsr tarixçilərinə istinad edilən "məqtəl"lərdən ət-Təbəri, əl-Məsudi, əl-Bəlazüri kimi ilk dövr tarix mənbələrində nəql olunan rəvayətlərlə müqayisə edilərək dəyişikliklərin təhlil olunması mümkündür. Daha çox tarixi mənbə xarakteri daşıyan ilk dövr "məqtəl"lərindəki rəvayətlərlə XII-XIII əsrlərdə yazılmış "ikinci mərhələ" "məqtəl" ədəbiyyatı sayılacaq əl-Xarəzminin (ö. 568/1172) "Məqtəlül-Hüseyn", Cəfər ibn Nəmanın (ö. 645/1247) Müsirül-əhzan və münirül-əşcan və Əli ibn Tavusun (ö. 664/1266) "əl-Məlhuf əla qətlət-tüfuf" adlı "məqtəl"lərinin müqayisəli təhlili nəticəsində tarixi mətnlərin ədəbi xüsusiyyət qazanması prosesini tədqiq etmək mümkündür.

## Ədəbiyyat

1. Bəlazüri Əhməd ibn Yəhya ibn Cabir. Ənsabül-əşraf. 13 cilddə. Beyrut, Darül-fikr, 1996
2. Clarke L. Elegy on Husayn: Arabic and Persian. Al-Serat. 12 cilddə. 1986. pp. 13-28
3. Günther S. Maqatil Literature in Medieval Islam. Journal of Arabic Literature. XXV Leiden, E.J.Brill, 1994, pp. 192-212
4. İbn Nədim. əl-Fihrist. Beyrut, Darül-mərifə, 1978
5. İbn Səd Əbu Abdullah Məhəmməd. ət-Təbəqatül-kübra: ət-Təbəqatül-xamisə minəs-səhabə, 2 cilddə, Taif, Məktəbətüs-sədiq, 1993
6. İbn Şəhraşub Məhəmməd ibn Əli. Mənaqib Ali Əbi Talib. 4 cilddə, Beyrut, Darül-ədva, 1985
7. İsfahani Əbül-Fərəc Əli ibn Hüseyn. Kitabül-əğani. 24 cilddə. Qahirə, Darül-kütub, 1973
8. Kəhhalə Ömər Rıza. Mücəmül-müəllifin. Beyrut: Müəssəsətür-risalə, 1993
9. Kümeyt Əbül-Müstəhillə, Şərhü Haşimiyyatil-Kümeyt. Beyrut, Aləmül-kütüb, 1986
10. Məclisi Məhəmməd Baqir ibn Məhəmməd Təqi. Biharül-ənvar. 105 cilddə. Beyrut, Müəssəsətül-vəfa, 1983
11. Məsudi Əbül-Həsən Əli ibn Hüseyn ibn Əli, Mürucüz-zəhəb və məadinül-cövhər, 4 cilddə. Qahirə, Məktəbətüt-ticarətil-kübra, 1964
12. Nəcaşi Əbül-Abbas Əhməd ibn Əli. Ricalün-Nəcaşi: əhadül-üsulir-ricaliyyə. Beyrut, Darül-ədva, 1988

13. Nağısoylu M. A.Bakıxanovun "Riyazül-Qüds" əsəri: Klassik tərcümə nümunəsi kimi. Bakı, Nurlan, 2006
14. Sezgin F. Geschichte des arabischen Schrifttums. 10 clilddə. Leiden, E.J.Brill, 1967-84
15. Sindawi K. The Image of Husayn Ibn Ali in "Maqatil" Literature. Quaderni di studi arabi. Vol 20/21 (2003). pp.79-104
16. Şeşen R. Müslümanlarda tarih-coğrafya yazıcılığı. İstanbul, İSAR vakfı yayınları, 1998
17. Təbəri Əbu Cəfər Məhəmmdə ibn Cərir. Tarixül-üməm vəl-müluk. 5 cilddə. Beyrut, Darül-kütübil-ilmiyyə, 1987
18. Tehrani Məhəmməd Muhsin. əz-Zəriə. 26 cilddə. Beyrut, Darül-ədva, 1983
19. Tusi Əbu Cəfər Məhəmməd ibn Həsən. əl-Fihrist. Beyrut, Müəssəsətül-vəfa, 1983
20. Xarəzmi əl-Müvəffəq ibn Əhməd. Məqtəlül-Hüseyn lil-Xarəzmi. Qum, Ənvarül-xüda, 1418
21. Ursula Sezgin. Abu Mihnaf: ein beitrag zur historiographie der umaiyadischen zeit. Leiden, E.J.Brill, 1971

## DEVELOPMENT OF MAQTAL LITERATURE IN MEDIEVAL ARAB HISTORIOGRAPHY AND "MAQTAL AL-HUSAYNS"

**E.A.Azizova**

### SUMMARY

This article examines development of maqtal literature in the early Arab historiography. It is shown that although the first examples of maqtal literature were related to the major historical personages assassinated during the first period of the Arab-Islamic history, the number of maqtals about Husain ibn Ali's martyrdom in Karbala was gradually increasing and in the course of events the maqtal literature was identified with Maqtal al-Husayn.

## ПРОЦЕСС РАЗВИТИЯ МАКТАЛЬНОЙ ЛИТЕРАТУРЫ В СРЕДНЕВЕКОВОЙ АРАБСКОЙ ИСТОРИОГРАФИИ И «МАКТАЛЬ АЛЬ-ХУСЕЙНЫ»

**Э.А.Азизова**

### РЕЗЮМЕ

В статье рассматривается процесс развития мактальной литературы в ранней арабской историографии. Отмечается, что хотя первые примеры литературы о мактале и были связаны с известными историческими личностями, убитыми в начальный период арабо-исламской истории, постепенно увеличивалось число макталов о мученической смерти Хусейна ибн Али в Кербеле и по ходу событий литература мактала была отождествлена с Мактал аль-Хусейн.

*Məqalə redaksiyaya 21 yanvar 2019 tarixində daxil olmuş, 26 yanvar 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 94 (479.24)

# RİCAL ELMİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ
## (Azərbaycan hədisşünaslarının əsərləri kontekstində)

**İ.Z.Quliyev**
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
Bakı, İstiqlaliyyət küçəsi 25
e-mail: quliyev.ibrahim.78@mail.ru

***Açar sözlər:*** rical, hədis, Azərbaycan hədisşünasları
***Key words:*** rijal, hadeeth, Azeri hadeeth scholars
***Ключевые слова:*** риджаль, хадис, азербайджанские хадисоведы

### 1. Rical elminin tərifi və predmeti

"Rical" sözü etimoloji cəhətdən ərəb mənşəli sözlərdən olub, "rəcl" sözünün cəm formasıdır. Bu söz lüğətdə "kişi", "dövlət xadimi", "hədis rəvayət edən" və s. bu kimi mənalarda işlədilir. Hədis elmindəki mənasına gəldikdə isə müasir Azərbaycan alimi Cəfər Sübhani (doğ. 1928) ona belə tərif verir: "Rical bir elmdir ki, onun vasitəsilə hədis rəvayət edənlərin əhvalı, onların əxlaqi xüsusiyyətləri, nəql etdikləri hədislərin qəbul və ya rədd edilməsinin səbəbləri araşdırılır. Bu elmin öyrənilməsi şəri hökmləri əldə etmək istəyən hər bir kəsə vacibdir" (1, 11).

Rical elminin bir başqa adı da "cərh" və "tədil"dir. Cərh "ravilər haqqında mənfi fikir bildirmək, onları ifşa etmək", tədil isə "ravilər haqqında müsbət fikir bildirmək, onların ədalətli olduqlarını sübut etmək" mənasında istifadə edilir.

Yuxarıda qeyd etdiyimiz tərifləri bir araya gətirsək, rical elminə belə tərif verə bilərik: "Rical elmi bir nöqtədə ortaq olan kəslərin hallarını (həyatlarını), soylarını, əsərlərini və s. xüsusiyyətlərini araşdıran elmdir." Rical elmi "Fihrist", "Ənsab", "Məşixa" və "Təracim" kimi xüsusi qruplara bölünür və bu mövzuda yazılan əsərlər daha çox bu adlar altında yazılır. Cəfər Sübhani "Təracim"i bu elmin ən yaxın sinonimi kimi qeyd etmişdir (1, 13).

"Fihrist"də müəlliflərin və müsənniflərin adları toplanır.

"Ənsab"da hədis ravilərinin soyları və hansı qəbilədən gəldikləri araşdırılır.

"Məşixa"da hədis ravilərinin ustadlarının silsiləsi qeyd edilir.

"Təracim"də isə alim və ravilərin rəvayətlərinin qəbul və rəddinə təsirli olan istiqamətlər diqqətə alınmadan həyatları və əhvalları araşdırılır.

Bu kitablardan bəziləri ümumiyyətlə ravilərin adlarını xatırlayır və onların etibarlı və ya etibarsız olmalarına toxunmur. Əhməd bin Əbu Abdullah Bərqinin (öl. 888 və ya 893) "Təbəqatür-Rical"ı kimi. Bəziləri mədh ifşa edilən və ya qınanan ravilər haqqındadır. İbn Davud Quminin (öl. 978) və həmçinin ustadı Əhməd bin Məhəmməd bin Əmmar əl-Kufinin (öl. 956) bu sahədəki əsərləri kimi. Bəziləri yalnız bir imamın səhabələri haqqındadır. İbn Uqdənin (öl. 944 və ya 945) kitabı kimi. Bu kitab yalnız İmam Sadiqin (ə) səhabələri haqqında təlif edilmiş və dörd min ravinin adını ehtiva etməkdədir. Bəziləri isə daha bir xüsusi istiqamətə həsr edilərək qələmə alınmışdır. Peyğəmbərin (s) imam Əlidən (ə) hədis nəql edən səhabələrini ehtiva edən Əbdüləziz bin Yəhya əl-Cəludinin (öl. 945) kitabı kimi (1, 14-15).

## 2. Rical elminin hədis elmində yeri

Hədisşünaslar hədis elmləriylə əlaqədar hər mövzuda ciddi və səviyyəli işlər görmüşlər, fundamental əsərlər qələmə almışlar. O cümlədən hədislə əlaqədar hər ravini tam mənasıyla tanıtmaq üçün çeşidli əsərlər də ortaya qoymuşlar. Hədisşünasların bu səyləri rical ədəbiyyatını meydana gətirmişdir.

Bunu ifadə etmək lazımdır ki, rical ədəbiyyatı üsul ədəbiyyatı ilə birlikdə hədis elminin "dirayətül-hədis" qismini meydana gətirir. Lakin onun dirayə elmindən fərqli cəhətləri də vardır (1, 15).

## 3. Rical elminin meydana gəlməsi və tarixi mərhələləri

Rical elminin ilk rüşeymləri Qurani-Kərimdə qoyulmuşdur. Belə ki, Allah "Hucurat" surəsində **"Ey iman gətirənlər, bir fasiq sizə xəbər gətirdiyi zaman onu aydınlaşdırın" -** deyə bəyan edərək, nəql olunmuş hər bir xəbərin araşdırılmasını şərt qoymaqdadır. Bundan əlavə səhabələr bəzi vaxtlar Peyğəmbərin (s) adından hədis nəql etdikləri zaman digərləri onu daha da dəqiqləşdirmək üçün bu hədisi harada eşitdiyini və orada kimlərin olduğunu da soruşarlarmış.

Yuxarıda qeyd etdiyimiz kimi, bu elm İslamın zühur etdiyi ilk əsrlərdən etibarən müsəlmanlar tərəfindən diqqətə alınmış və zamanla ona duyulan ehtiyacın artmasıyla yaxşıca genişləndirilmişdir. Rical elmini əvvəldən təyin etdiyimiz ümumi mənasıyla araşdırmalı olsaq, yəni "təracim" hissəsini də əhatəsinə götürəcək dərəcədə genişlətsək, bu elmin keçmişi hicri birinci əsrin ilk yarılarına (miladi VII əsrin II yarısına) qədər uzanır. Çünki hicri 40 (miladi 660)-cı ildə imam Əlinin (ə) katibi Übeydullah bin Əbi Rafe Peyğəmbərin (s) səhabələrindən imam Əlinin (ə) döyüşlərinə qatılıb onun yanında döyüşənlərin adlarını bir kitabda yığmışdır. Şeyx Tusi (998-1067) "əl-Fihrist" adlı əsərində bu kitabın adını "Təsmiyə mən şəhidə məa Əmirilmöminin (ə)", "əl-Cəməl vən-Nəhrivan və Siffin minəs-Səhabə" olaraq yazmışdır.

Bundan başqa, bəzi qaynaqlar rical elminin ilk dəfə Həsən bin Məhbub (öl.764) tərəfindən yazıldığını və onun əsərinin "əl-Məşixa" olduğunu xəbər verirlər (2, 4).

Hicri üçüncü (miladi IX) əsrdə hədis kitablarının yayılması və hədis elmi mövzusunda yazılan əsərlərin rəvac tapmasıyla, rical elmi də buna paralel olaraq inkişaf etdi və bu sahədə çox sayda kitablar təlif edildi. Bunların bir qismi günümüzə qədər qalmaqda və rical ədəbiyyatının çox qiymətli əsərlərindən sayılmaqdadır. Əhməd bin Əbu Abdullah Bərqinin "Təbəqatür-rical" (bunun əskik bir nüsxəsi hələ də qalır) və Əbu Məhəmməd Abdullah bin Cəbələ bin Həyyan bin Əbcər əl-Kənaninin (öl. 832) (3, 160). "Rical" kitabı bunlardandır. Şeyx Tusi "Rical" kitabında adı çəkilən ikinci şəxsi imam Musa Kazımın (ə) səhabələrindən saymış, Nəcaşi də onun bir çox kitabı olduğunu və bunlardan birinin də rical haqqında yazdığını söyləmişdir.

Hər halda rical kitablarının təlif edilməsi hicri üçüncü (miladi IX) əsrdə yaxşıca inkişaf etmiş və genişlənmişdi. Hicri dördüncü (miladi X) əsrdə də bu hərəkət davam etdi və daha geniş ölçülər qazandı.

Hicri dördüncü əsrdəki rical kitablarını araşdırdığımızda, bu əsrdə yazılan kitabların məhdud mövzular üzərində dayandığını görürük. Bu da bu əsrdə ixtisaslaşma üsulunun rəvac tapdığını və hər sahənin xüsusi bir araşdırma və tədqiqat obyekti olduğunu göstərməkdədir. Buna əsasən də rical elminin bu əsrdə nə qədər məşhur olduğunu anlamaq mümkündür.

Bunlardan başqa, hicri dördüncü (miladi X) əsrə aid digər bəzi məşhur rical kitablarından İbn Davud Qumminin (öl. 980) mədh edilmişlər və qınanmışlar haqqındakı "Rical", Məhəmməd bin Əli bin Babeveyh Qumminin (öl. 991) "Rical", Həsən bin Məhəmməd bin Vəlid Qumminin (öl. 953) "Fihrist", İbn Duvəlin (öl. 960) "Təbəqat", "Üsulu-kafi" kitabının müəllifi Məhəmməd bin Yaqub Küleyninin (öl. 941) "Rical", Əbu Qalib Zərarinin "Ayun" soyundan olan ravilərin tərcümeyi-halları haqqında nəvəsinə yazdığı məşhur "Risalə" (bu "Risalə" bir dəfə 966-cı ildə, bir dəfə də 977-ci ildə, yəni on bir il sonra qələmə alınmışdır) əsərlərini qeyd etmək olar.

Bunların hamısından daha məşhur olanı da Əbu Əmr Məhəmməd bin Ömər bin Əbdüləziz əl-Kəşşinin (öl. IV əsrin ortaları) "Mərifətün-naqilin ənil-əimmətis-Sadiqin (ə)" adlı kitabıdır. Bu gün əlimizdə olan bu kitabın seçmələr şəklindəki xülasəsidir. Bu xülasə "İxtiyarür-rical" adıyla çap olunmuşdur.

Hicri beşinci (miladi XI) əsrin ilk yarılarında, yəni ilk rical kitabının təlifindən üç əsr sonra, məşhur dörd rical kitabı əvvəlki kitablardan faydalanılaraq yazıldı və bunların yazılmasıyla bu elmin tarixində yeni bir cığır açılmış oldu. Bu dörd kitab möhkəm bir şəkildə günümüzə qədər gəlib çıxmışdır. Dəfələrlə nəşr edilmiş bu dörd kitab aşağıdakılardan ibarətdir:

1 - "İxtiyarür-rical";

2 - "əl-Fihrist";

3 - "ər-Rical (bunların hər üçü Şeyx Əbu Cəfər Məhəmməd bin Həsən Tusinin (998-1067) əsərləridir);

4 - "Ricali-Nəcaşi" olaraq məşhur olan "Fihrist" kitabı (Əhməd bin Əli Nəcaşi (öl. 1057)).

Bu dörd kitab əsrlərdir rical elmi mütəxəssislərinin maraq və diqqətlərini çəkmiş və bütün əsrlərdə onlardan istifadə edilmişdir. Ayrıca, irəlidə açıqlanacağı üzrə, bu kitablar daha sonralar reallaşdırılan bəzi işlərin də təməlini meydana gətirmişdir. Beləcə hicri dördüncü əsri bu dörd kitab yazıldığı üçün əvvəlki əsrlərə görə, rical elmi baxımından bir dönüş nöqtəsi saymaq lazımdır.

Rical kitablarının meydana gəlməsinin əsas səbəbi, qeyd etdiyimiz kimi, hədis nəql edən şəxslərini kimliyinin araşdırılmasıdır. Rəvayət olunmuş hədislərin səhhəti hər şeydən əvvəl hədisləri nəql edən ravilərin etibarlı olmalarına bağlıdır. Çünki etibarlı olan ravi özü kimi etibarlı, səhih hədislər nəql edəcək. Etibarlı olmayanlar da zəif hədislər nəql edəcəklər. Bu səbəblə hədis rəvayət edənlər hansı təbəqədən olursa olsun, bunların hədisi qəbul olunan kəslərdən olması şərti qoşulmuşdur. Ravinin hədisi qəbul edilən kəslərdən olması da bir sıra şərtləri özündə daşımasına bağlıdır. Hədis alimləri bu şərtləri rəvayəti qəbul olunan və olunmayan ravinin sifətləri adıyla açıqlamışlar. Açıqlanan bu sifətlərdən hər hansı birinin nöqsan olması ravinin etibarlı olmaqdan çıxmasına səbəb ola bilər. Bu vəziyyətdə olan ravilər hədis rəvayət etsələr və hətta rəvayət etdikləri hədislər əslində səhih olsalar da, bu hədislər onlardan qəbul edilməz. O hədisləri rəvayət edən başqa etibarlı (siqə) ravilərdən nəql edərlər. Ravilərdən hədis qəbulu və rəddi ilə əlaqədar bu son dərəcə dəqiq və tutarlı qaydalar hədis elminin möhkəm təməllər üzərində bina edildiyini göstərir. Bu həssas qaydaların inkişaf etdirilməsindəki əsl məqsəd İslam dininin Qurani-Kərimdən sonra ikinci qaynağı olan hədisləri möhkəm yollardan əldə etmək və nəql etmək səyidir (6, 227-228).

Bir hədisi tədqiq etməyin ən əhəmiyyətli tərəfi ravi ilə əlaqədardır. Sənəddə yer alan ravilərdən biri və ya bir neçəsi etimadlı deyilsə, hədisin səhihliyi üçün digər tərəflərə

diqqət yetirilmədən belə rəvayətin səhih olmadığı hökm edilir. Ravilərin etimadlı olması onlarda bəzi keyfiyyətlərin olması ilə mümükündür ki, bunlar da ədalət və zəbt sifətləridir. Ravilərdə ədalət sifətinin olmasının şərti müsəlman olması, yetkinlik yaşında olması, ağıllı olması, təqva sahibi olması, günahlardan uzaq durması kimi xüsusiyyətlər ilə müəyyən edilir. Bunlardan birinin olmaması halında ravi etibarlılığını itirmiş sayılır. Ədalət sahibi olan ravinin xəbərinə etimad edilə bilməsi üçün onun zəbt sifətinə də sahib olması lazımdır. Zəbt sifətində unutqan olmamaq, əzbərdən rəvayət edirsə, hədisi doğru və nöqsansız bir şəkildə əzbərləməsi, kitabdan rəvayət edirsə, kitabı diqqətli bir şəkildə yazması və qoruması, məna ilə rəvayət edirsə, mətndə dəyişdirdiyi kəlmələrin mənasını yaxşı bilməli və hədisin mənasında hər hansı bir dəyişikliyə yol verməməsi lazımdır. Bir ravidə bu şərtlər olduğu təqdirdə rəvayəti mötəbər hesab olunur. Lakin məna ilə rəvayət edən ravi etimadlı xüsusiyyətini itirmiş sayılır. Bütün bunlardan aydın olur ki, hədisşünasların rəvayətlər xüsusunda son dərəcə diqqətli hərəkət etdikləri görünür (7, 229). Hədisşünaslar həmçinin ravilərin yaşlarını və şeyxlər ilə görüşmə hallarını da əsas gətirərək tərtib etdikləri hər qrupa təbəqə adını vermişlər. Ravilərin təbəqələrə ayrılmaları isə üsul elmində olan imkanlar sayəsində mümkün olmuşdur.

Bütün bu deyilənlərdən əlavə Buxarinin (810-870) “Tarixül-kəbir”, Şeyx Tusinin “əl-Fihrist” və “Rical”, Nəcaşinin “Rical”, İbn Əbdülbirrin “əl-İstiab fi mərifətil-əshab”, İbn Əsirin “Üsdul-qabə fi mərifətis-səhabə”, İbn Həcərin “əl-İsabə” və “Təhzibüt-təhzib”, Zəhəbinin “Siyəri aləmin-nübəla” və “əl-Kaşif”, Əbu Nəimin “Hilyətül-övliya”, Seyid Əbülqasim əl-Xoyinin “Möcəmu ricalil-hədis və təbəqatür-rüvvat”, Cəfər Sübhaninin özünün də bu sahədə bir neçə əsəri ilə yanaşı, “Külliyyatür-rical”, “Möcəmu təbəqatil-mütəkəllimin” (3 cilddə), “Mövsuətu təbəqatil-füqəha” (14 cilddə), “Təzkirətül-əyan”, “əl-Mövsuətür-ricaliyyətil-meysirə”, “Dürusu mücəvvizə fi elmir-rical vəd-dirayə” və s. əsərləri də rical ədəbiyyatının başında gəlir.

Nəticə olaraq bunu deyə bilərik ki, İslamın erkən dövrlərindən etibarən rical elminin təşəkkül və inkişaf tarixində Azərbaycan hədisşünasları mühüm rola sahib olmuş, bu elmin inkişaf tarixini dövrümüzədək izləmiş çox böyük elmi əhəmiyyət daşıyan əsərlər yazmış və yazdıqları əsərlərində rical elminin fundamental problemlərinə toxunmuş, bu elmə aid ən mühüm terminlərin tərifini vermişlər. Azərbaycan ricalşünasları öz əsərlərində rical elminin əhəmiyyətindən, onun mövzusu və əsas predmetindən, rical elminə aid olan elmlərdən, rical elmi ilə dirayə (metodologiya) elminin fərqli və oxşar xüsusiyyətlərindən, hədis rəvayət edən şəxslərin daşıdıqları əlamətlərdən, uydurmaçı ravilərin xəbərlərindən və s. bəhs etmişlər.

## Ədəbiyyat


1. Cəfər Sübhani ət-Təbrizi. Külliyyat fi ilmir-rical. Beyrut, Darül-mizan, I çap, 1410/1990
2. Şeyx Əbdüləmir əl-Xətib. Durus fi ilmir-rical. İran çapı, tarixsiz
3. Ağa Bozorg ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. Qum, III çap, 1408 h/q
4. Nəcaşi. Fihrist. Tehran çapı, tarixsiz
5. Əllamə Seyid Həsən əs-Sədr. Təsisüş-şiə li fünunil-İslam. Nəcəfül-əşrəf çapı, tarixsiz
6. İbrahim Canan. Kütubu Sittə Tərcümə və Şərhi. 18 cilddə. V cild. Akçağ Nəşrləri
7. Səbahəddin İldırım. Şamil İslam Ensiklopediyası. V cild. Şamil yayın evi

**FORMATION AND DEVELOPMENT HISTORY OF SCIENCE OF RIJAL**
**(in the context of works by Azeri Hadeeth scholars)**

**I.Z.Guliyev**

**SUMMARY**

This work deals with the formation of the science of rijal, its development history and the activities of Azeri Hadeeth scholars in this field of science throughout its history.

**ФОРМИРОВАНИЕ И ИСТОРИЯ РАЗВИТИЯ НАУКИ РИДЖАЛЬ**
**(в контексте работ азербайджанских хадисоведов)**

**И.З.Кулиев**

**РЕЗЮМЕ**

В статье речь идет о становлении науки риджаль, истории ее развития и деятельности азербайджанских хадисоведов в этой области науки на протяжении всей ее истории.

*Məqalə redaksiyaya 19 yanvar 2019 tarixində daxil olmuş, 31 yanvar 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2019 - № 51**

UOT № 94 (429: 24)

# AZƏRBAYCAN RESPUBLİKASINDA VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU

**N.K.Qaybalıyeva**
Bakı Dövlət Universteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: qaybaliyeva.nigar@mail.ru

***Açar sözlər:*** vətəndaş cəmiyyəti, konstitusiya, hüquqi dövlət, ombudsman
***Key words:*** civil society, constitution, legal state, ombudsman
***Ключевые слова:*** гражданское общество, конституция, правовое государство, омбудсмен

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanın bütün sahələrdə inkişaf etdirilməsi üçün milli dövlətçilik strategiyasının hazırlanmasına xüsusi diqqət yetirirdi. Milli dövlətçilik strategiyasının hazırlanmasından əvvəl isə ilk növbədə ölkədə ictimai-siyasi sabitlik yaradılmalı idi. İctimai-siyasi sabitlik həm dövlətin müstəqilliyinin möhkəmlənməsi, həm də hər bir vətəndaşın sərbəst həyat fəaliyyətinin təmin edilməsi üçün vacib idi. Bununla yanaşı, demokratik dövlət quruculuğunun əsasları konstitusional səviyyədə təsbit olunmalı idi. Həmçinin, Azərbaycan dünyaya inteqrasiya olunmalı idi. Xarici dövlətlərin Azərbaycana investisiya qoyması üçün ictimai-siyasi sabitlik vacib şərt idi. Məhz belə amillər nəzərə alınaraq, milli inkişaf strategiyası müəyyənləşdirilməli idi. Bu nöqteyi-nəzərdən ulu öndər Heydər Əliyev hesab edirdi ki, ictimai-siyasi sabitlik əldə olunmasa milli inkişaf strategiyası reallaşdırıla bilməz. Bu və ya digər tezislər həmin dövrdə Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılmasının vacibliyini göstərirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra demokratik keçid çərçivəsində vətəndaş cəmiyyətinin formalaşması başlıca vəzifə kimi qarşıya qoyulmuşdu. Müstəqilliyin ilk illərində bu istiqamətdə müəyyən addımlar atılsa da, artıq hərc-mərclik, hakimiyyətsizlik, xaos və separatizm meyllərinin artdığı bir şəraitdə bu məsələlər dövlət səviyyəsində özünün lazımi həllini tapa bilməmişdi. Bu proses yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra məqsədyönlü xarakter almış və bu sahədə ardıcıl dövlət siyasəti 1995-ci ildə ölkə Konstitusiyasının qəbul olunmasından sonra həyata keçirilmişdir. Belə ki, Konstitusiyanın preambulasında Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması da təsbit edilmişdir. Buna müvafiq olaraq, Konstitusiyada bir sıra müddəalar qəbul edilmişdir [4]:

1. İlk növbədə qeyd etmək olar ki, Konstitusiya maddələrinin 1/3 hissəsi insan və vətəndaş hüquq və azadlıqlarına və onların təmin olunmasına həsr olunmuşdur. Bu hüquqlar sistemi çərçivəsində vətəndaşların könüllü birliklərdə birləşmək hüququ, bir sıra siyasi hüquqlar, azad sahibkarlıq hüququ, söz və mətbuat azadlığı, vicdan azadlığı və digər hüquq və azadlıqlar, həmçinin bu hüquq və azadlıqlara dövlət təminatı verən müddəalar təsbit olunmuşdur ki, bu da ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oyna-

mışdır.

2. Konstitusiyada həmçinin ölkədə demokratik və hüquqi dövlət quruculuğu prosesinin əsasları təsbit olunmuşdur. Beləliklə, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin təşəkkül tapması prosesi bir-birini tamamlayır.

3. Konstitusiya müddəalarına müvafiq olaraq, ölkədə vətəndaş cəmiyyətinin formalaşması prosesini və dövlətlə vətəndaş cəmiyyəti arasında münasibətləri tənzimləyən qanunvericilik bazası yaradılmışdır.

4. Həm Konstitusiya, həm də müvafiq qanunlar siyasi partiyalara vətəndaş cəmiyyəti ilə dövlət arasında vasitəçi rolu yerinə yetirməyə imkan yaratmışdır. Digər tərəfdən, vətəndaş cəmiyyətinin çox vacib bir təməl daşını təşkil edən seçki qanunvericiliyinin demokratikləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması da bu prosesə əhəmiyyətli dərəcədə təsir etmişdir. Seçkidən-seçkiyə seçki qanunvericiliyinin təkmilləşdirilməsi məhz vətəndaş cəmiyyətinin, onun müvafiq strukturlarının nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilməklə aparılır ki, bu da vətəndaşların geniş, şüurlu surətdə seçkilərə qatılmasına və seçki mədəniyyətinin formalaşmasına müsbət təsir edir [2].

5. Dövlət və vətəndaş cəmiyyəti quruculuğunda siyasi plüralizmin, çoxpartiyalı sistemin daha da inkişaf etdirilməsinə dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Onu da qeyd etmək lazımdır ki, dövlət tərəfindən siyasi partiyaların fəaliyyəti üçün hər cür zəruri şərait yaradılmışdır. Bundan başqa, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların demokratik düşüncə tərzinin, hüquqi təfəkkürünün və siyasi vətəndaş mədəniyyətinin formalaşması üçün zəruri olan tədbirlərin görülməsi, hüquqi bazanın yaradılması sahəsində məqsədyönlü dövlət siyasəti aparılır [18, s.190].

Bu baxımdan müasir Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasının prinsipial istiqamətləri kimi aşağıdakıları göstərə bilərik [19, 23-28, s.25]:

1) Mülkiyyət formaları plüralizmini (müxtəlifliyini) özünə daxil edən yeni iqtisadi münasibətlərin və bu münasibətlərlə şərtlənən açıq sosial strukturun formalaşması və inkişafı;

2) Fərdləri, sosial qrupları və təbəqələri vahid birlikdə birləşdirən, bu sosial struktura adekvat sistemin yaradılması;

3) Vətəndaş cəmiyyətinin əsas təsisatlarını təşkil edən müxtəlif formalı assosiasiyaların, birliklərin, hərəkatların yaranması;

4) Şəxsiyyətin yaradıcı özünü reallaşması üçün iqtisadi, sosial və mənəvi zəminlərin yaradılması;

5) İctimai orqanizmin bütün səviyyələrində sosial özünütənzimləmə və özünüidarəetmə mexanizmlərinin formalaşması və genişlənməsi;

6) Sosial qruplar və birliklər (milli, peşə, həmkarlar) arasında qarşılıqlı münasibətlərin yeniləşməsi və s.

İnsanların özünüdərkinin inkişaf etməsi nəticəsində cəmiyyətdəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin nizamlanmasında xalqın ayrı-ayrı sinifləri tərəfindən çıxış edən ictimai təşkilatların aktivliyi dövlətin və kütlənin daha çox tərəqqi səviyyəsini əhatə edən vətəndaş cəmiyyətini səciyyələndirən əsas meyarlardandır. Cəmiyyətin problemlərinin həlli istiqamətində ictimai qurumların nisbətən daha çox vəzifəsini önəmsəməsi ilə dövlət idarələrinin fəaliyyətində lap çox siyasətin təyin edilməsi və nəzarət vəzifələri üstün yer tutur.

Azərbaycan azad inkişaf tarixində vətəndaş cəmiyyətinin yaradılması meylində müxtəlif çətinliklərlə qarşılaşaraq keşməkeşli yol keçmişdir. Vətəndaş cəmiyyətinin yaradılmasında hakimiyyət idarələri ilə cəmiyyət, dəqiq fərdlər arasında münasibətin gücləndirilməsi xüsusi önəm daşıyır. Sözügedən vacib funksiyanı yerinə yetirmək üçün cəmiyyət tərəfindən hakimiyyət idarələrinin işləri üzərində ictimai gözətim vasitəsinin təkmilləşdirilməsi istiqamətində mütləq şəkildə tədbirlər həyata keçirilib. Vətəndaş cəmiyyətinin əsası olan seçki qanunvericiliyi beynəlxalq normalara müvafiqləşdirilib. Hakimiyyətin təməlində duran konstitusiya şərtlərinin gerçəkləşməsi, sırf seçki qanunvericiliyindən asılıdır. Bu səbəbdən də AR onun demokratik şərtlər əsasında daha da inkişaf etməsinə böyük diqqət ayırıb. 1998-ci ildə "Prezident seçkiləri barəsində", 1999-cu ildə bələdiyyə idarələrinə, 2000-ci ildə isə Milli Məclisə seçkilər barəsində Nizamnamələr parlamentdə çox danışılmış, ictimai-siyasi təşkilatların, eyni zamanda, müxalifət partiyalarının istək və qeydləri əsas götürülmüş, son olaraq sözügedən qiymətli kağızlar nüfuzlu beynəlxalq qurumların ekspertizası zamanı pozitiv cavab alaraq həyata vəsiqə qazanmışdır [10, s.75].

Noyabr ayının 12-də Konstitusiyanın təsdiq olunması ilə respublikamızda vətəndaş cəmiyyətinin vacib elementlərinin bildirilməsi sahəsində əsas strateji tədbirlər həyata keçirilməyə başlandı. Danışılan əhəmiyyətli funksiyanın yerinə yetirilməsi üçün konstitusion-hüquqi substratların ərsəyə gətirilməsi bu sektorda davamlı islahatların aparılmasını mümkün etməkdən əlavə, nizamnamələrin aliliyinin, hüquqi qaydaların üstünlüyünün aşkarlandığı, davamlı siyasi-hüquqi islahatların gerçəkləşdirdiyi, subyektlərin aktivliyinə legitim və leqal şəkildə rəqabətə əsaslanan plüralist şəraitin qurulduğu siyasi sistemin qəbul edilməsi işinə töhfələr verdi.

Hüquqi dövlətin mühüm atributlarından və xüsusiyyətlərindən biri olaraq ilk öncə, insan azadlıqlarının qorunması meylində kompleks tədbirlər görüldü. Nəticədə, danışılan istiqamətdə institusional vasitələrin təşəkkül etdirilməsi və var olan resurslardan əlverişli formada faydalanılması insan və vətəndaş hüquq və azadlıqlarının qorunması işinə birmənalı formada vacib töhfələr bəxş etdi. Əlavə olaraq, danışılan meyldə Konstitusiyaya uyğun şəkildə normativ hüquqi protokolların qəbul edilməsi, uyğun fərmanların verilməsi, respublikamızın dəyərlər ilə beynəlxalq konvensiyalara və sazişlərə qatılması insan azadlıqlarının qorunması vasitəsinin əlverişliliyini ortaya çlxaran gələcək sübut olaraq qiymətləndirilməlidir. Həmin cərgəyə Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının bərpası istiqamətində təyin edilmiş tədbirlərin məqsədli şəkildə tətbiqi üçün Prezident Heydər Əliyevin 1998-ci il 18 iyunda verilən fərmanı ilə "İnsan hüquqlarının qorunmasına aid Dövlət Proqramı"nın qəbul olunmasını, sırf belə humanist mövqeyin qanunauyğun nəticəsi olaraq, İlham Əliyevin 2007-ci il 18 iyunda verilən fərmanı əsasında, 18 iyunun ölkəmizdə İnsan hüquqları günü kimi qeyd edilməsini və seçkilər nəticəsində insan azadlıqları meylində qanunvericilik bazasının münbitləşdirilməsini və başqalarını daxil etmək olar [8, s.172].

Bunların hamısı mülki şəxslərin könüllü birləşməsi hesabına meydana çıxan, özününizamlama vasitəsinə sahib olan sivil şəxslər və qarşılıqlı əlaqələr sistemini ehtiva edən qurum kimi səciyyələndirilən vətəndaş cəmiyyətinin də təşəkkül etdirilməsi üçün vacib məna daşıyan strateji substratlar oldu. Bu tədbirlərin hamısı və uğurların fonunda vətəndaş cəmiyyəti özünün xüsusi vəzifələri ilə cəmiyyətdə ahəngdarlıq və tərəqqini bərpa dən vasitə olaraq çıxış etdi. Sırf belə funksionallığın əsasında eyni təsisat içərisində mədə-

ni, iqtisadi, sosial və hüquqi əlaqələrdə olan subyektlər qarşılıqlı şəkildə bir-birilərinin sosiallaşmasına təkan verməkdən əlavə, müasir qarşılıqlı əlaqələr sisteminin təşəkkül tapmasını da əsaslandırdılar [17, s.48].

Konstitusiyada əsas meyarlar olaraq aşkarlanmış hakimiyyətin bölgüsü qanununa əsasən, hakimiyyətin 3 qolu da öz işlərində insan azadlıqlarını bütün durumlarda müdafiə etməli, bu, onların əsas funksiyalarından biri olmalıdır.

2002-ci il 24 avqustda təsdiqlənmiş "AR-da insan hüquq və azadlıqlarının həyata keçirilməsinin nizamlanması barəsində" Konstitusiya Nizamnaməsi həll etdiyi məsələlərin əhatəsinə görə olduqca xüsusi məna kəsb edir [15, s.43]. Həmin nizamnamə ölkəmizdə insan azadlıqlarının həyata keçirilməsini Konstitusiyaya müvafiqləşdirmək məqsədi daşıyır.

Konstitusiya Qanunu hamının onun hüquqlarını pozan qanunvericilik, icra hakimiyyəti idarələrinin qərarlarından, bələdiyyə aktlarından nazarı olmaq hüququnu və məhkəmlərin insan hüquqlarının yaradılması mövzusu ilə əlaqədar Konstitusiyanın və nizamnamələrin şərh olunması barəsində Konstitusiya Məhkəməsinə demək hüquqlarını aşkarlamış və adı çəkilən Konvensiyanın istəklərinə müvafiq surətdə hazırlanmaqla insanların hüquqlarının müdafiəsi üçün gerçək hüquqi baza ərsəyə gətirmişdir.

Hakimiyyətin 3 qolu AR-da insan hüquqlarının qorunması və təmin edilməsi mexanizmlərinin təməlini əhatə edir. Dövlətdaxili vasitələr cərgəsinə xüsusi olaraq ölkə rəhbəri tərəfindən insan azadlıqlarının konstitusion təminatçısı kimi qorunmasını şamil etmək olar. Sırf bununla bağlı olaraq Azərbaycan xalqının ulu öndəri belə demişdir: "Ölkə başçısı olaraq mənim üçün bütün Azərbaycan vətəndaşlarının hüququnun müdafisəsi vacibdir... AR öz həyatını demokratik şərtlər ilə quraraq həmişə, insan hüquqlarının müdafiəsinə riayət edilməsinə çalışacaqdır..." [20, s.67].

Sözügedən hüquqi islahatların əhəmiyyəti və dövlətin bu istiqamətdə daşımalı olduğu vəzifələrdən danışan Prezident Heydər Əliyev belə fikir söyləmişdir: "...Biz demokratiya yolu seçmişik, demokratiyanı da tərəqqi etdiririk. İnsan haqlarını həyata keçirmişik. Ölkəmizdə mətbuat, vicdan, söz azadlığı bütövlükdə həyata keçirilib. Siyasi plüralizm hökm sürür. Bir sözlə hər bir şey demokratik şərtlər əsasındadır" [12, s.185].

Əlavə olaraq, "Vətəndaş hüquqlarının və azadlıqlarının bərpası sahəsində tədbirlər barəsində" 1998-ci il 22 fevralda verilən sərəncam danışılan mövzular nöqteyi-nəzərdən böyük məna daşıyır. Bu sərəncamda deyilir ki, AR müstəqillik əldə etdikdən sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu nümayəndəsi kimi əsrləribir çox sınaqlardan çıxmış və özünün tərəqqi yolunu seçmişdir [7].

Respublikamızda vətəndaş azadlıqlarının qorunması meylində həyata keçirilən tədbirlərdən biri də ölüm cəzasının aradan qaldırılması olmuşdur. Vurğulamaq olar ki, ölüm hökmü AR-nın Cinayət Məcəlləsində həmişə olmuşdur, hətta 1988-1993-cü illərdə 32 şəxs barəsində icra edilmişdir. Həmin şəxslərdən 8 -i barəsində hökm 1993-cü ildə ölkə rəhbərinin sərəncamları ilə yerinə yetirilmişdir. Ancaq 1993-cü ilin iyun ayından isə yenidən prezident olmuş Heydər Əliyevin humanist siyasətinin nəicəsi kimi ölkəmizdə ölüm hökmünün yerinə yetirilməsinə moratorium qoyulmuş, bu istisna cəza növü 1998-ci il 10 fevralda nizamnamə ilə köklü şəkildə aradan götürülmüşdür [9, s.68].

Demokratik, hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması şəraitində insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatlarının formalaşdırılması mexanizmində insan hüquqları üzrə Müvək-

kil (ombudsman) təsisatı xüsusi yer tutur və səmərəli dövlətdaxili vasitə kimi çıxış edir.

Respublikamızda sırf belə demokratik təsisatın ərsəyə gətirilməsi ölkəmizin rəhbəri Heydər Əliyevin 1998-ci il 22 fevralda verilmiş sərəncamında əsas funksiya kimi təyin olunmuşdur. Həmin meyildə görülən məqsədli hazırlıq işi nöqteyi-nəzərindən 2001-ci il may ayının 14-də AR-nın Milli Məclisi, BMT-nin Tərəqqi proqramı "Azərbaycanda ombudsman təsisatının qurulması" barəsində elmi-praktik seminar böyük məna kəsb etmişdir [11, s.74]. "AR-nın İnsan Hüquqları üzrə Müvəkkili barəsində" AR-nın Konstitusiya nizanaməsi 2001-ci il 28 dekabrda təsdiq edilmişdir [1]. Bu nizamnamədə İnsan Hüquqları üzrə Müvəkkilin işlərinin əsasları təyin edilərək vurğulanır ki, AR-nın İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Konstitusiyasında və AR-nın tərəfdar olduğu beynəlxalq sazişlərdə aşkarlanmış AR-nın dövlət idarələri tərəfindən pozulan insan hüquqlarının bərpa olunması üçün təsis edilir. Nizamnaməyə görə, Müvəkkilin gördüyü işləri insan hüquqlarının qorunmasını, tapdalanmış insan hüquqlarının bərpasını həyata keçirən başqa dövlət idarələrinin öhdəliklərini əvəz etmir.

Ölkəmizdə insan hüquqlarının qorunmasında Ombudsman təsisatının gördüyü işlər böyük əhəmiyyət daşıyır. Ölkəmizdə insan azadlıqlarının qorunması meylində institusional vasitələr vardır və onlardan əlverişli şəkildə yararlanılmaqdadır. Adı çəkilən funksiyaların icra edilməsi baxımından ombudsman təsisatının fəaliyyətinə gerçək səmərəli imkan vardır. Hər bir demokratik ölkədə olduğu kimi bizim ölkəmizdə də ombudsman təsisatı insan azadlıqlarının qorunması, bəzi təşkilatların gördüyü işlərin nizamlanması və vətəndaşlarla qurumlar arasındakı əlaqələrdə ahəngdarlığın təmin edilməsi nöqteyi-nəzərindən böyük məna kəsb edir.

Müstəqilliyimizin başlanğıc illərində ərsəyə gəlmiş fərqli səpkili ictimai qurumlar, cəmiyyətlər müstəqillik ideyasının möhkəmlənməsinə, qaçqın və məcburi köçkün probleminin çözülməsinə, respublikamızın məlumat blokadasından azad olmasına, vətəndaş cəmiyyəti quruculuğuna yardıma cəhd edirdilər. Ancaq bütün bu cəhdlər ictimai sahənin təşəkkül tapması üçün yetərli deyildi.

Ölkəmizdə qeyri-hökumət təşkilatlarının təşəkkül tapması bir neçə dövrdən keçib. Başlanğıc dövr qeyri-hökumət qurumlarının ərsəyə gəlməsində sistemliyin olmaması və pərakəndəliklə müəyyən edilir. Bu mərhələdə dövlət tərəfindən qeyri-hökumət sektoruna olan münasibətdə ümumi yanaşma prosesi gedirdi. Həyatın müxətlif meyillərini təşkil edən yüzlərlə qeyri-hökumət qurumlarının ərsəyə gəlməsi onların fəaliyyətinin hər hansı koordinasiyasını, dövlət idarələri ilə daha əlverişli əlaqələrin olmasını vacib edirdi. 1999-cu ildə Milli Qeyri-Hökumət Qurumları Forumunun təsis olunması bu boşluğu aradan qaldırdı. QHT-lərlə İş üzrə Resurs və Təlim Mərkəzinin təşkilati və texniki yardımı ilə 1999-cu il 11 iyulda Milli QHT Forumu 95 qurum tərəfindən təsis edildi [6, s.58].

Ötən müddət ərzində Milli QHT Forumunun həyata keçirdiyi layihələr, gördüyü işlər QHT sektorunun fəaliyyətinin cəmiyyətə təsirinin sübutudur. Bu mərhələ qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin institusional mexanizmlərinin yaradılması, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığının təkmilləşdirilməsi, siyasi-hüquqi, vətəndaş mədəniyyətinin formalaşdırılmasında QHT-lərin iştirakı və vətəndaş cəmiyyəti institutlarının yeni beynəlxalq əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi ilə səciyyəvidir.

Müasir dövrdə ölkəmizin qarşısında duran vəzifələrin həll edilməsində qeyri-hökumət təşkilatlarının rolunu, dövlət orqanları ilə qeyri-hökumət sektorunun bərabərhü-

quqlu tərəfdaşlığı və əməkdaşlığının zəriruliyini lazımınca qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılmasını və fəaliyyətinin gücləndirilməsini, əsaslandırılmış təklif və təşəbbüslərini dəstəkləyir. "Azərbaycan Respublikasının Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" buna sübutdur. 2007-ci il iyulun 27-də Prezident İlham Əliyev "Qeyri-Hökumət Təşkilatlarina Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncam imzaladı [3]. Həmin ilin dekabrında isə ölkə başçısının konsepsiyada nəzərdə tutulan müddəaların icrasını təmin etmək məqsədilə imzaladığı Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası yaradıldı [13]. Bununla, qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin institusional mexanizminin yaradılması işi uğurla başa çatdı və QHT sektorunun tarixində yeni bir mərhələnin əsası qoyuldu. Güclü vətəndaş cəmiyyəti qurmaqda qərarlı olan Prezident İlham Əliyev qeyri-hökumət təşkilatlarının dövlət quruculuğundakı rolunu belə qiymətləndirir: "Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir" [16, s.124]. Bununla da, ölkə başçısı qeyri-hökumət təşkilatlarının müasir dövrdə vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesində vacib institutlarından biri olduğunu vurğulayır.

Bu gün QHT-lərə Dövlət Dəstəyi Şurası hökumətlə QHT sektoru arasında körpü rolunu oynayır. Könüllülük, demokratiya, aşkarlıq, qanunçuluq və digər prinsiplər əsasında fəaliyyət göstərən Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Azərbaycanda faktiki fəaliyyət göstərən QHT-lərin böyük bir hissəsini öz ətrafında birləşdirir. QHT-lərə Dövlət Dəstəyi Şurası yarandığı gündən Azərbaycanın ən ağrılı yeri olan ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyinin dünyaya fəal şəkildə təqdim edilməsi, qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunması istiqamətində fəal iş aparır. QHT-lərdə Azərbaycan ictimaiyyətinin ən müxtəlif zümrələrini təmsil edən sanballı alimlər, tarixçilər, etnoqraflar, politoloqlar, dinşünas alimlər təmsil olunduqlarını nəzərə alan şura düşmənlə ideoloji, elmi və tarixi mənbələrə əsaslanan faklarla mübarizə aparmağa üstünlük verir. Şura həmin potensialın qüvvəsindən səmərəli istifadə edərək təcavüzkar Ermənistan dövlətinin və erməni diasporunun iç üzünü açıb göstərir.

Azərbaycanın dünyada tanıdan və nüfuz sahibi bir ölkəyə çevirən Heydər Əliyevin zamanında atdığı addımların mahiyyətini indi daha dərindən dərk edir, əhəmiyyətini gündəlik həyatımızda görürük. Dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında münasibətlərin müasir modelinin formalaşdırılması baxımından mükəmməl mexanizm hesab olunan QHT-lərə Dövlət Dəstəyi Şurası da Heydər Əliyevin demokratikləşmə prosesi istiqamətində başladığı yolun davamıdır.

Beləliklə, qeyd edilənlər onu deməyə əsas verir ki, məhz Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtması ilə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu işinə başlanılmış, vətəndaş cəmiyyətinin bütün institutlarının inkişafı üçün lazımi şərait yaradılmış və normativ-hüquqi baza işlənib hazırlanmışdır. Ulu öndər Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan xalqının qarşısına məqsəd kimi qoyduğu vətəndaş cəmiyyətinin yaradılması ideyasına daim sadiq olmuş və bu məqsədə nail olmaq üçün əlindən gələni etmişdir. Hal-hazırda isə bütün sahələrdə olduğu kimi, bu sahədə də onun fəaliyyətini Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev keyfiyyətcə zənginləşdirərək davam etdirir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 28 dekabr 2001-ci il // "Azərbaycan" qəzeti. 5 mart 2002-ci il
2. “Azərbaycan” qəzeti. 25 sentyabr, 2003-cü il
3. “Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" AR Prezidentinin Sərəncamı // http://www.e-qanun.az/framework/13653
4. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivi (TİEA), f.l, siy.19, iş 8953, v.7
5. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivi, f.l, siy.19, iş 8953, v.100
6. Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu: vətəndaş cəmiyyəti quruculuğunda 10 il / red. A. Quliyev. Bakı: Avrasiya Press, 2008. 444 s.
7. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. f.2941, siy.1, iş 246
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.l, siy. 84, iş 88, v.l
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.l, siy.84, iş 170, v.3
10. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi, 5.X.1994, 117/52 saylı sənəd
11. Azərbaycanda ombudsman təsisatı // Dirçəliş-XXI Əsr, 2001, №40, səh.74
12. Babaoğlu H. İnsan hüquqları və azadlıqları (tarixi təkamülü, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi). Bakı, “Elm”, 2006
13. Bağırov Ş.X. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri: siyasi e. n. al. dər. a. üçün təq. ed. dis. Bakı, 2007, 165 s.
14. Dövlət müstəqilliyimizdə Heydər Əliyev amili. Bakı, Oskar NPM, 2003, 272 s.
15. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu // Dirçəliş – XXI əsr, 2002, №53, səh. 38-50
16. http://www.cssn.gov.az/news.php?id=1043&lang=az
17. Hüseynov R. Hüquqi dövlət və vətəndaş cəmiyyəti. Bakı, “Elm və təhsil”, 2017, 136 s.
18. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, 472 s.
19. Şükürov İ. Azərbaycanda demokratik cəmiyyətin modeli // Dirçəliş – XXI əsr, 2000, №7-8, səh.23-28
20. Demokratiya, hüquqi dövlət və insan hüquqlarının təmininə doğru daha bir addım // Dirçəliş – XXI Əsr, 2002, №53, səh.60-73


## CONSTRUCTING CIVIL SOCIETY IN THE REPUBLIC OF AZERBAIJAN

**N.K.Gaybaliyeva**

## SUMMARY

This work is dedicated to the problems of construction of civil society in Azerbaijan, creation of necessary conditions for development of all civil society institutions and development of normative-legal basis for them.

# СТРОИТЕЛЬСТВО ГРАЖДАНСКОГО ОБЩЕСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Н.К.Гайбалиева**

## РЕЗЮМЕ

Статья посвящена вопросам формирования гражданского общества в Азербайджане, созданию необходимых условий для развития всех институтов гражданского общества и развития их нормативно-правовой базы.

*Məqalə redaksiyaya 1 fevral 2019 tarixində daxil olmuş, 4 fevral 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

2019 - № 51

UOT № 343.1

# CİNAYƏT HAQQINDA HÜQUQ MÜHAFİZƏ ORQANLARINA ŞİKAYƏT (ƏRİZƏ) VERMƏK DİSPOZİTİV HÜQUQ KİMİ

**Q.V.Cəfərov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: qehraman79@mail.ru

***Açar sözlər:*** cinayət prosesi, dispozitiv hüquqlar, şikayət etmək hüququ
***Keywords:*** criminal proceedings, dispositive rights, right to complain
***Ключевые слова:*** уголовный процесс, диспозитивные права, право на жалобу

Azərbaycan Respublikasının cinayət prosesində bəzi cinayətlərə görə cinayət təqibinin başlanması bilavasitə zərər çəkmiş şəxsin iradə ifadəsi ilə, onun bu cinayətlər barədə hüquq mühafizə orqanlarına şikayət verib-verməyəcəyi ilə əlaqələndirilmişdir. Başqa sözlə, cinayət prosesində bir sıra cinayətlərə dair icraatın başlanılıb-başlanılmayacağı məsələsinin həlli bilavasitə cinayətdən zərər çəkmiş şəxsin onun barəsində törədilmiş və ya hazırlanan cinayət haqqında hüquq mühafizə orqanlarına şikayət (ərizə) vermək hüquqdan öz iradəsindən asılı olaraq istifadə edib-etməyəcəyindən asılıdır.

CPM-in 39.1.8-ci maddəsinin müddəalarından da birbaşa olaraq belə nəticə çıxarmaq olar ki, cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibinin ictimai-xüsusi ittiham qaydasında həyata keçirildiyi hallarda zərər çəkmiş şəxsin şikayəti olmadıqda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir, o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir.

Cinayətdən zərər çəkmiş şəxsin cinayət haqqında şikayət (ərizə) vermək hüququ səlahiyyətli dövlət orqanlarının cinayət təqibini həyata keçirmək vəzifəsi hesabına təmin edilir. Prof. F.M. Abbasovanın qeyd etdiyi kimi, cinayət-prosessual qanunvericilik cinayət təqibinin həyata keçirilməsi vəzifəsini dövlət orqanlarına həvalə etmişdir. Təhqiqatçı, müstəntiq və ya prokuror hazırlanan, yaxud törədilən cinayət əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda qanunla müəyyən edilmiş qaydada cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal tədqiqat və ya ibtidai istintaq aparmalıdırlar (1, s. 129).

Barəsində cinayət təqibinin başlanması üçün mütləq zərər çəkmiş şəxsin şikayətinin mövcudluğunun tələb olunduğu (CPM-in37.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) əməllərin dairəsi qanunla qapalı siyahı formasında – CPM-in 37.3-cü maddəsində vahid sistem şəklində təsbit edilmişdir. Cinayət-prosessual hüquqda bu əməllər ictimai-xüsusi ittiham qaydasında təqib olunan əməllər hesab edilir və onların dairəsi, dövlətin cinayətkarlığa qarşı mübarizə siyasətinin prioritet və istiqamətlərindən asılı olaraq, qanunverici orqan tərəfindən müəyyən edilir (4, s. 368).

CPM-in qəbul edilməsindən bu günə kimi müxtəlif əməllərin dekriminallaşması və kriminallaşması ilə əlaqədar olaraq, bu sistemdə bir neçə dəfə dəyişikliklər olmuşdur. Belə

ki, 15 noyabr 2011-ci il tarixdə CM-ə yeni məzmunda 176-1-ci maddə əlavə edilmiş və bu cinayət əməli CM-in175-177.1-ci maddələrinin diapazonuna düşdüyü üçün, sonuncuların isə CPM-in 37.3-cü maddəsinin sistemə aid olduğu üçün, avtomatik olaraq, yeni kriminallaşmış “qadını nikaha daxil olmağa məcbur etmə” əməli də ictimai-xüsusi ittiham qaydasında təqib edilən əməllər sırasına əlavə edilmişdir. 29 iyun 2012-ci il tarixdə CM-in 132-ci maddəsinin ləğv edilməsi, yəni “döymə” cinayətinin dekriminallaşması ilə əlaqədar olaraq, 2 noyabr 2012-ci il tarixdə CPM-in 37.3-cü maddəsinin məzmunundan da CM-in 132-ci maddəsi çıxarılmışdır. 11 dekabr 2012-ci il tarixdə CM-ə yeni 169-1-ci maddə əlavə edilmiş və “siyasi partiyada üzvlüyə məcbur etmə” əməli kriminallaşdırılmışdır və 31 may 2013-cü il tarixdə bu əməl CPM-in 37.3-cü maddəsinin sisteminə aid edilmişdir. Bundan başqa, 28 dekabr 2012-ci il tarixdə CM-in176-cı maddəsi ləğv edilməklə “uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırma” əməli dekriminallaşmış və həmin əməl CM-in175-177.1-ci maddələrinin diapazonuna düşdüyü üçün, sonuncuların isə CPM-in 37.3-cü maddəsinin sistemə aid olduğu üçün, avtomatik olaraq, dekriminallaşmış əməl ictimai-xüsusi ittiham qaydasında təqib edilən əməllər sırasından çıxmışdır. Həmçinin, 29 noyabr 2016-cı il tarixdə CM-ə yeni məzmunda 148-1-ci maddə əlavə edilmiş və “internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə” əməli müstəqil cinayət tərkibi statusu qazanmışdır. Eyni tarixdə həmin cinayət ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərin sisteminə aid edilmişdir. Nəhayət, 20 oktyabr 2017-ci il tarixdə “ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma” və “aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma” əməllərinin dekriminallaşması ilə əlaqədar, 1 dekabr 2017-ci il tarixdə CPM-in 37.3-cü maddəsindəki sistemdən CM-in 131.1-ci və 184.1-ci maddələri çıxarılmışdır.

Hazırda barəsində cinayət təqibinin yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında aparılmasına yol verilən (CPM-in 37.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) əməllərin sisteminə Cinayət Məcəlləsinin 127, 128, 129.2, 130.2, 133, 134, 142.1, 148-1, 149.1, 150.1, 151, 156-158, 163, 169-1, 175-177.1, 178.1, 179.1, 186.1, 187.1, 190.1, 197 və 201.1-ci maddələrində göstərilən cinayətlər aiddir.

Qanunun tələbinə görə, yuxarıda sadalanan cinayətlər barəsində cinayət təqibinin başlanması üçün zərər çəkmiş şəxsin şikayətinin mövcudluğu tələb olunur ki, bu da cinayət prosesində dispozitivlik prinsipinin bariz təzahürlərindən biridir. Bununla belə, qanunla nəzərdə tutulmuş bir sıra hallarda həmin cinayətlərə görə cinayət təbiqi prokuror təşəbbüsü ilə də başlanıla bilər. Bu isə artıq cinayət təqibinini növlərinin müəyyən edilməsi məsələsinə publiklik prinsipinin təsirinin təzahürüdür.

Belə ki, CPM-in 37.5-ci maddəsinə əsasən, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərərçəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bilər:

1) törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda;

2) cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə;

3) cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;

4) cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə;

5) cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə

imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.

Milli hüquq ədəbiyyatında, haqlı olaraq göstərilmişdir ki, CPM-in 37.5-ci maddəsində prokurorun təşəbbüsü ilə ictimai-ittiham qaydasında cinayət təqibi başlanıla bilən halların dairəsi müəyyən edilərkən bəzi hallar barəsində qanunvericinin mövqeyi anlaşılmazlıqlar yaradır. Belə ki, qanunvericinin mövqeyinə görə, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi o halda prokurorun təşəbbüsü ilə başlanılmalıdır ki: 1) ya törədilmiş cinayət əməli ictimai əhəmiyyət kəsb etsin; 2) ya da həmin cinayətdən zərər çəkmiş şəxs bu və ya digər səbəblərdən məhdud imkanlara malik olduğuna görə öz mənafelərini lazımınca müdafiə edə bilməsin. Lakin CPM-in 37.5-ci maddəsində göstərilmiş iki hal – a) cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə (CPM-in 37.5.2-ci maddəsi); b) cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə (CPM-in 37.5.5-ci maddəsi) həmin mövqelərədən heç birinə uyğun gəlmir, çünki birinci halda barəsində cinayət əməli törədilmiş şəxslər öz mənafelərini müdafiə etmək üçün hamıdan əlverişli imkanlara malikdirlər, ikinci halda isə həmin cinayətləri törətmiş şəxslər, ümumiyyətlə, cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdir (2, s. 99).

İctimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərin dairəsi məsələsinə geri qayıdaraq isə, qeyd etmək istərdik ki, bu dairənin qanunverici tərəfindən müəyyən edilməsi üçün konkret alqoritm, dəqiq meyarlar və yaxud dəqiq formulə edilmiş şərtlər mövcud deyildir. Bu, daha çox siyasi məsələdir (cinayətkarlığa qarşı mübarizə siyasəti nəzərdə tutulur). İctimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərin dairəsinə nəzər saldıqda görünür ki, burada tamamilə müxtəlif cinayətlərə rast gəlmək mümkündür. Belə ki, burada xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə həm böyük ictimai təhlükə törətməyən cinayətlərə (CM-in 127.1-ci, 128-ci, 129.2-ci, 130.2-ci, 133.1-ci, 134-cü, 142.1-ci, 148-1-ci, 156-cı, 157-ci, 158-ci, 163-cü, 169-1-ci, 175-ci, 176-1.1-ci, 177.1-ci, 178.1-ci, 179.1-ci, 186.1-ci, 187.1-ci, 190.1-ci, 197-ci, 201.1-ci maddələri), həm az ağır cinayətlərə (CM-in 127.2-ci, 133.2-ci, 150.1-ci, 151-ci, 176-1.2-ci maddələri), həm də bir ağır cinayətə (CM-in 149.1-ci maddəsi) rast gəlinir. Eynilə, predmetinə görə buradahəm həyat və sağlamlıq əleyhinə olan cinayətlərə (CM-in 127-134-cü maddələri), həm şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətə (CM-in 148-1-ci maddəsi), həm şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərə (CM-in 149-151-ci maddələri), həm insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərə (CM-in 156, 157, 158, 163, 169-1-ci maddələri), həm yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərə (CM-in 175, 176-1-ci maddələri), həm mülkiyyət əleyhinə olan cinayətlərə (CM-in 177, 178, 179, 186, 187-ci maddələri), həm də iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə (CM-in 190, 197 və 201-ci maddələri) rast gəlinir. Göründüyü kimi, ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərin dairəsi olduqca rəngarəngdir. Həmçinin nəzərə alınmalıdır ki, əksər hallarda CM-in Xüsusi hissəsinin eyni maddəsinin bir bəndi ilə tövsif edilən və ictimai-xüsusi ittiham qaydasında təqib edilən əməl, eyni bir maddənin digər bəndi ilə tövsifedildiyində onun barəsində həyata keçirilməli olan cinayət təqibinin növü də dəyişə bilir. Bəzən bu xüsusiyyət təcrübədə müəyyən kazuslara səbəb ola bilir. Məsələn, AliMəhkəməninHərbi Kollegiyasının təcrübəsindən seçilmiş bir işdən görünür ki, şəxs birinci instansiya məhkəməsinin hökmü ilə CM-in 29,150.1, 150.2.5, 151 və 331.3-cü maddələri ilə təqsirli bilinərək məhkum edilmiş, ApellyasiyaMəhkəməsi isə hökmü dəyişdirmiş, şəxsə istinad

edilən CM-in 150.2.5-ci maddəsi ilə nəzərdə tutulmuş əməli həmin Məcəllənin 150.1-ci maddəsinə tövsif etmiş və bunun ardınca, həmin epizod üzrə CM-in yeni tövsif edilmiş 150.1-ci maddəsi ilə olan cinayət təqibinə xitam vermişdir. Dövlət ittihamçısı belə bir hüquqi mövqe ilə razılaşmamış və kassasiya protesti vermişdir. Protestin dəlillərinə görə, CPM-in 37-ci maddəsinə əsasən, CM-in 150.2.5-ci maddəsi ilə nəzərdə tutulmuş əməl üzrə cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilir və bu halda zərərçəkmiş şəxsin ərizəsinə heç bir zərurət yoxdur. Təsadüfi deyildir ki, CM-in 150.2.5-ci maddəsi ilə nəzərdə tutulmuş əməlin ictimai təhlükəliliyi nəzərə alınaraq həmin cinayət üzrə cinayət təqibinin ictimai ittiham qaydasında həyata keçirilməsi CPM ilə müəyyən edilmişdir. Kassator qeyd etmişdir ki, məhkəmə kollegiyası cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilən CM-in 150.2.5-ci maddəsində nəzərdə tutulmuş əməlini CM-in 150.1-ci maddəsinə tövsif edib icraata xitam verərkən heç bir mötəbər sübuta əsaslanmamış, orduda pis imic formalaşdıran hərəkətlərə qiymət verərkən səthi münasibət bəsləmiş, ibtidai və məhkəmə istintaqı zamanı toplanmış sübutlar CPM-in 143-146-cı maddələrinin tələblərinə müvafiq tam və hərtərəfli yoxlanılmamış, əldə olunmuş sübutlar müqayisəli şəkildə təhlil olunmamış və əsassız olaraq onların mötəbərliyi şübhə altına alınmışdır.

Ali Məhkəmənin Hərbi Kollegiyası isə belə hesab etmişdir ki, kassatorun bu dəlilinin hüquqi əsası yoxdur. Belə ki, apellyasiya instansiyası məhkəməsi qərarında göstərmişdir ki, "yuxarıda göstərilən ittihamdan məlum olduğu kimi, şəxsə bu ittiham verilərkən onun CM-in 29,150.1-ci maddəsi itə tövsif olunan əməlinəzərə alınaraq həmin əməli təkrar törətməsi kimi qiymtləndirilmişdir. Bununla əlaqədar, məhkəmə kollegiyası bildirmişdir ki, nə qədər ki, təqsirləndirilən şəxsin CM-in 29,150.1-ci maddəsi ilə olan əməlinə xitam verilməsi qənaətinə gəlmişdir, belə olan halda onun hərəkətlərində təkrarən uşaqbazlıq cinayətinin tərkibi yaranmır. Ona görə də, təqsirləndirilən şəxsin CM-in 150.2.5-ci maddəsilə olan əməli həmin Məcəllənin 150.1-ci maddəsinə tövsif edilməlidir. CM-in 150.1-ci maddəsi ilə olan əməl ictimai-xüsusi ittiham qaydasında həyata keçirildiyi üçün zərərçəkmişin şikayəti olmadığına və cinayət işi prokurorun təşəbbüsü ilə başlanılmadığına görəCPM-in 39.1.8-ci maddəsinin tələbinə əsasən icraata xitam verilməlidir.""Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18 mart 2013-cü il tarixli qərarında göstərilmişdir ki, "hüquq nəzəriyyəsində "təkrarlıq" termini geniş və dar mənalarda istifadə olunur. Geniş mənada təkrarlıq, cinayətin əvvəllər hər hansı cinayət törətmiş şəxs tərəfindən törədilməsi deməkdir. Belə təkrarlıq həm də ümumi təkrarlıq adlanır. Təkrarlığın bu cür geniş anlayışı özündə həmcins və müxtəlif növlərdən olan bir neçə cinayətin törədilməsini əks etdirən "cinayətlərin çoxluğu" terminində ifadə olunur. Qanunvericiliyin tələblərinə müvafiq olaraq çoxluğu təşkil edən bütün cinayətlər eyni şəxs tərəfindən törədilməlidir və təqsirləndirilən şəxsin cinayətlərdə hansı rolu (icraçı, təşkilatçı, əlbir və ya təhrikçi) yerinə yetirməsi heç bir məna kəsb etmir. Əgər şəxs törətdiyi əmələ görə cinayət məsuliyyətindən azad olunubsa və ya törətdiyi hərəkətlərə görə məhkumluğu ödənilibsə, habelə cinayət məsuliyyətinə cəlb olunma müddəti başa çatıbsa, çoxluğun müəyyən edilməsi zamanı bu əməllər nəzərə alınmır." Konstitusiya Məhkəməsinin Plenumunun Qərarından da göründüyü kimi, şəxs törətdiyi əmələ görə cinayət məsuliyyətindən azad olunubsa cinayətin çoxluğunun müəyyən edilməsi zamanı bu əməllər nəzərə alınmır. Buna görə də, məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin bu barədə gəldiyi nəticəni qanuni və əsaslı hesab etmişdir (3).

İctimai-xüsusi ittiham qaydasında cinayət təqibinin başlanmasının zərər çəkmiş şəxsin dispozitiv xarakterli şikayət (ərizə) vermək hüququ ilə bağlı olması məntiqi olaraq sual yaradır: İctimai-xüsusi ittiham qaydasında cinayət təqibinə xitam verilməsi də zərər çəkmiş şəxsin dispozitiv xarakterli barışmaq hüququ ilə bağlıdırmı?

Qüvvədə olan cinayət-prosessual qanunvericilik bu sualı cavablandırır. CPM-in37.4-cü maddəsinə əsasən,ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinə CM-in 73-cü və 73-1-ci maddələrində nəzərdə tutulmuş hallardan başqa zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar xitam verilə bilməz. Başqa sözlə, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinə zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar xitam verilməsi, prinsipcə mümkündür, lakin bu dispozitiv hüququn realizəsi xüsusi ittihamlı işlərdən fərqli olaraq, ictimai-xüsusi ittihamlı işlər üzrə qeyri-məhdud xarakter daşımır və cinayət qanununun müvafiq müddəaları ilə müəyyən çərçivələrlə tənzimləmlənir.

Belə ki, CM-in73.1-ci maddəsinə əsasən, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər, 73.2-ci maddəsinə əsasən isə,CM-in 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Həmçinin nəzərə alınmalıdır ki, CM-in73-1.1-ci maddəsinə əsasən, CM-in178.1, 179.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

Bu normaların analizindən belə nəticə çıxarmaq olar ki, *birincisi,* CM-in 148-1, 163, 169-1, 175, 176-1.1, 177.1, 190.1, 197 və 201.1-ci maddələrində nəzərdə tutulmuş əməllər, prinsipcə, qüvvədə olan qanunuverciliyin müddəalarına əsasən (CM-in 15-ci maddəsindən irəli gələn təsnifat nəzərdə tutulur), böyükictimaitəhlükətörətməyən cinayətlər hesab edildiyi üçünonları törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda CM-in 73.1-ci maddəsində təsbit edilmiş ümumi qaydada cinayət məsuliyyətindən azad edilə bilər. Başqa sözlə, sadalanan əməllərin törədilməsinə görə cinayət təqibinə məruz qalmış şəxsin barəsində cinayət təqibinə onun zərər çəkmiş şəxslə barışması və müvafiq olaraq zərərin ödənilməsi (aradan qaldırılması) ilə əlaqədar olaraq xitam verilə bilər. Lakin bu zaman nəzərə alınmalıdır ki, baxdığımız bu hallarda cinayət təqibinə xitam verilməsi cinayət prosesini həyata keçirən orqan üçün məcburi xarakter kəsb etmir, çünki CM-in 73.1-ci maddəsində "edilə bilər" ifadəsi işlədilmişdir. *İkincisi,* CM-in127.1, 128, 129, 130,133.1, 134, 142.1,156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlər ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərə aid olduğu üçün onları törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət təqibinə xitam verilməsi CM-in 73.2-ci maddəsi qaydasında artıq cinayət prosesini həyata keçirən orqan üçün məcburi xarakter kəsb edir, çünki CM-in 73.1-ci maddəsindən fərqli olaraq, CM-in 73.2-ci maddəsindən "azad edilir" ifadəsi işlədilmişdir. *Üçüncüsü,* CM-in178.1, 179.1, 186.1 və 187.1-ci maddələrində nəzərdə tutulmuş əməllər ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər olduqları üçün onları törətmiş şəxslər də zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə CM-in73-1.1-ci maddəsi qaydasında cinayət məsuliyyətindən azad edilir. Baxılan sonuncu halda da zərər çəkmiş

şəxslə barışığın əldə edilməsi və ona dəymiş zərərin tamamilə ödənilməsi ilə əlaqədar cinayət təqibinə xitam verilməsi cinayət prosesini həyata keçirən orqan üçün məcburi xarakter daşıyır.

## Ədəbiyyat

1. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. Yenidən işlənmiş 2-ci nəşr. Bakı: Zərdabi LTD, 2015

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H.Mövsümov, B.C. Kərimov və Ə.H. Hüseynovun redaktəsi ilə. Bakı: Digesta, 2016

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının 1-1(102)-66/2014 №-li iş üzrə 22 may 2014-cü il tarixli qərarı

4. Юлдошев Р.Р. Производство по делам частного и частно-публичного обвинения требует систематизации / Актуальные проблемы расследования преступлений. Материалы Международной научно-практической конференции. Москва, 23 мая 2013 г.

## SUBMISSION OF COMPLAINT (CLAIM) TO LAW ENFORCEMENT AUTHORITIES AS A DISPOSITIVE RIGHT

**G.V.Jafarov**

### SUMMARY

This article is dedicated to the problems of realization of one’s right to submit crime complaints. It is shown that the awareness of law enforcement about the committed crime is of great importance for the initiation of criminal prosecution.

## ПОДАЧА ЖАЛОБЫ (ЗАЯВЛЕНИЯ) О ПРЕСТУПЛЕНИИ В ПРАВООХРАНИТЕЛЬНЫЕ ОРГАНЫ КАК ДИСПОЗИТИВНОЕ ПРАВО

**Г.В.Джафаров**

### РЕЗЮМЕ

Статья посвящена вопросам реализации права на подачу жалобы о преступлении. Показано, что информированность правоохранительных органов о совершенном преступлении имеет большое значение для инициации уголовного преследования.

*Məqalə redaksiyaya 5 aprel 2019 tarixində daxil olmuş, 11 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2019 - № 51**

UOT № 343.614

# ÖZÜNÜ ÖLDÜRMƏ HƏDDİNƏ ÇATDIRMA İLƏ BAĞLI CİNAYƏT QANUNVERİCİLİYİNDƏ MÖVCUD PROBLEMLƏR

**A.E.Qasımov, Z.Z.Quliyev**
Azərbaycan Milli Aviasiya Akademiyası
Bakı, Mərdəkan prospekti 30
e-mail: aydın.qasimov53@mai.ru

***Açar sözlər:*** intihar, cinayət məcəlləsi, hüquq
***Keywords:*** suicide, criminal code, law
***Ключевые слова:*** самоубийство, уголовный кодекс, право

İnsan üçün ən dəyərli olan onun həyatıdır. Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinin birinci hissəsində deyilir: "Hər kəsin yaşamaq hüququ vardır" (1). İnsanın müstəqil olaraq həyatdan getməyə qərar vermək hüququ varmı? Bu suala cavab tapmaq üçün cinayət hüquq normasının məzmununa müraciət etmək çox yaxşı olardı. AR CM-nin 125-ci maddəsində insanın özünü öldürmə həddinə çatdırılmasının anlayışı verilmişdir. Həmin maddədə deyilir: "Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qərxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırmaya görə məsuliyyət nəzərdə tutulur" (2).

Qanunvericiliyin tələbindən göründüyü kimi, cinayət məsuliyyətinin yaranması üçün intihar edənin məqsədinə nail olub-olmaması əhəmiyyət kəsb etmir. Bununla belə, Azərbaycan Respublikasında şəxsin özünü öldürməsi (intihar etməsi) cinayət hesab edilmir. Lakin AR CM-nin 125-ci maddəsinin yuxarıdakı şərhindən göründüyü kimi, özünü öldürmə həddinə çatdırma, insanı özünü öldürməyə vadar etmə cinayətdir. Bunun da obyekti başqa şəxsin həyatıdır.

Müasir dövrdə insanın öz həyatı ilə istədiyi kimi davranmaq hüququ tanınır. O istədiyi vaxt öz həyatının mövcudluğuna son qoya bilər. Lakin heç kim ona, onun həyatına qəsd edə bilməz.

AR Cinayət Məcəlləsinin 125-ci maddəsində nəzərdə tutulan cinayət əməlinə görə kifayət qədər ağır cəza nəzərdə tutulur – üç ildən yeddi ilədək azadlıqdan məhrum etmə. Şərh olunan cinayətin ictimai təhlükəliliyi nəinki başqa şəxsin özünü həyatdan məhrum etməsi və ya buna cəhd göstərməsi, həm də təqsirkarın mənəviyyatdan, insanlıqdan kənar, amansız hərəkətlər etməsi ilə xarakteriza olunur.

AR Cinayət Məcəlləsinin 125-ci maddəsində nəzərdə tutulan cinayət cəmiyyət üçün əhəmiyyətli ictimai təhlükə yaradır. Bu əməl digər insanın həyatının təhlükəsizliyinə qəsd olmaqla yanaşı, digər insanın mənəvi vəziyyətinə və ləyaqətinə aşağılayıcı münasibətlə, xüsusi mənaviyyatsızlıq və qəddarlıqla səciyyələnir.

Bu gün Azərbaycanın mətbu orqanlarında elmi publisistik məqalələrlə çıxış edən tanınmış hüquqşünaslar özünü öldürmə (intihar) və ona cəhd problemlərinə toxunur və maraqlı fikirlər irəli sürürlər: Azərbaycan Respublikasının cinayət qanunu özünü öldürmə (intihar) və ona cəhd əməllərini cinayət hesab etmir. Qəsddən ziyan çəkən obyekt başqa

şəxsin deyil, intihar edənin həyatı olduğundan, əməlin qeyri-hüquqilik əlaməti bu halda mövcud olmayacaqdır. Ölkəmizin qanunvericilik sistemi əksər xarici dövlətlərdə olduğu kimi şəxsin yaşamaq hüququnun məntiqi davam olaraq ölmək (yaşamına son qoymaq) hüququnu da tanıyır. Odur ki, şəxsin özü tərəfindən iradəsinin istisna olmadığı şəraitlə həyatına son qoyması qanunla qadağan edilən əməl hesab edilmir və yalnız əxlaqi tərəfdən pislənilə bilər. Cinayətdə iştirakçılığa dair aksesson nəzəriyyəsinin müddəalarına uyğun olaraq özünü öldürmə cinayət hesab edilmədiyindən onun törədilməsində iştirakçılıq da cinayət məsuliyyəti yaratmayacaqdır. Bu cür yanaşma iştirakçılığa dair cinayət qanununun tələblərindən irəli gəlir. Belə ki, intihar edəndə özünü öldürmək qətiyyəti yaratmaqla (intihar edənin iradəsinin istisna olunduğu hallar nəzərə alınmaqla) onu bu əmələ sövq edən və ya intihar edənə məsləhətləri, göstərişləri və məlumatları ilə, habelə alət və ya vasitələr vermək, maneələri aradan qaldırmaqla kömək edən şəxsin əməli cinayət məsuliyyəti doğurmur? Lakin, özünü öldürmədə köməklik hərəkərləti intihar edənin bir başa həyatdan məhrum edilməsinə yönələn və onun ölümünə səbəb olan hərəkətlərin icra edilməsində ifadə olunduqda əməl qəsdən adam öldürmə kimi qiymətləndiriləcəkdir. Azyaşlı, ruhi xəstələr və digər hər hansı səbəbdən hərəkətlərinin mahiyyətini anlamayan şəxslərin özünü öldürməsinə təhrik etmə və ya kömək göstərmə hərəkətləri qəsdən adam öldürməyə görə məsuliyyət yaradır. Fikrimizcə, Azərbaycan Respublikasında intihara sövq etmə və ya kömək etmə əməlləri kriminallaşdırılmalı və həmin əmələ görə məsuliyyət nəzərdə tutan ayrıca maddə cinayət məcəlləsinə daxil edilməlidir. Bu zərurət həmin əməllərin kifayət qədər ictimai-təhlükəliliyi ilə bağlıdır. Son dövrlərdə ölkə ərazisində artan intiharların sayı da bu cür əməllərə biganə qalmamağı, həmin nəticələrin baş verməsinə şərait yaradan halların müəyyən edilərək aradan qaldırılmasını və onlarla cinayət-hüquqi mübarizəni aktuallaşdırır.

Bu zaman insan həyatının təhlükəsizliyini təmin edən ictimai münasibətlərə vurulan ziyan və onun dərəcəsi aşkardır. Digər tərəfdən insan həyatına, onun normal şəraitdə davam etməsinə qarşı eqoist, biganə yanaşaraq İlahi iradəyə, ictimai mənəviyyata və sosial qanunlara zidd çıxmaqla başqasında intihar etmək qətiyyəti yaradan və ya bunları icra etməkdə yardımcı olan şəxslərin kifayət qədər sosial təhlükəliliyi də mübahisə doğurmur. Azərbaycan cinayət qanunvericiliyi tarixində azyaşlını və ya psixi qüsuru olan şəxsləri intihara sövq etməyə və ya kömək etməyə görə məsuliyyət nəzərdə tutulurdu. 1922-ci il CM-nin 148-ci maddəsində bu cür məsuliyyət müəyyən edilirdi. Lakin, 1960-cı CM-i qəbul ediləndən sonra həmin əmələ görə məsuliyyət götürülmüş və bu cür hallar qəsdən adam öldürmə kimi qiymətləndirilirdi.

Qeyd etmək istərdik ki, "Özünü öldürmə həddinə çatdırma" adlı maddə Rusiya Federasiyası Cinayət Məcəlləsinin 110-cu (3), Ukrayna Cinayət Məcəlləsinin 120-ci (4) və Belarus Respublikası Cinayət Məcəlləsinin 145-ci (5) maddəsində də əks olunmuşdur.

Hazırda bir çox xarici dövlətlərin cinayət qanunlarında intihara sövq etmə və ya kömək etməyə görə müstəqil məsuliyyət nəzərdə tutulur. Məsələn, 2005-ci il 5237 saylı Türk Cəza Qanunun 48-ci maddəsində "İntihara yönləndirmə" əməlinə görə məsuliyyət müəyyən edilir. 48-ci maddəyə görə "başqasını intihara əzm etdirmə, sövq etmə, başqasında intihar qərarını qüvvətləndirmə ya da, başqasının intiharına hər hansı bir şəkildə yardım etmə" cinayət məsuliyyətinə səbəb olur.

İntihara sövq etmə və ya kömək etməyə görə cinayət məsuliyyəti həmçinin İsveçrə, Avstriya, Fransa, Yaponiya və bir çox digər dövlətlərin cinayət qanunlarında mövcuddur. Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, ictimai münasibətlərə ciddi ziyan vuran və

ictimai əxlaqa zidd olan intihara sövq etmə və ya kömək etmə kimi ictimai təhlükəli əmələ görə məsuliyyətin mövcud olmaması cinayət qanunda aşkar boşluqdur. Odur ki, bu cür əməlləri kriminallaşdırmaqla qanunverici Cinayət Məcəlləsinə “125-1 – “İntihara sövq etmə və ya kömək etmə” adlı maddə daxil etməlidir. Cinayət əməli kəsik tərkibli konstruksiya ilə ifadə olunmalıdır ki, tam məsuliyyət intihara sövq edildiyi və ya onun törədilməsinə hər hansı formada köməklik (intiharın icrası və ölümə birbaşa səbəb olan hərəkətlərin edilməsi istisna olmaqla) edildiyi andan nəticənin baş verməsindən asılı olmadan yaranmış olsun. İntihar edənin ölüm faktı isə ağırlaşdırıcı əlamət kimi tərkibdə nəzərdə tutulmalıdır. İntihara təhrik edən və ya ona kömək edən intihar edənin ölümünü həm arzu edə bilər, həm də arzu etmədən ona şüurlu surətdə yol verə bilər. Odur ki, subyektiv cəhətdən əməlin həm birbaşa, həm də dolayı qəsdlə törədilməsi mümkündür. Cinayətin subyektinin 16 yaşdan müəyyən edilməsi məqsədəmüvafiq olardı.

Göründüyü kimi, AR CM-nin 125-ci maddəsinə əsasən, özünü öldürmə həddinə çatdırma cinayətində zərərçəkmiş şəxs qismində yalnız təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olan şəxs çıxış edə bilər. Belə asılılığı olmayan şəxsin AR CM-nin 125-ci maddəsində göstərilən hərəkətlər nəticəsində özünü öldürməsi və ya özünü öldürməyə cəhd etməsi həmin maddə ilə cinayət məsuliyyətini istisna edir. Amma Rusiya Federasiyası, Ukrayna və Belarus Respublikasının cinayət qanunvericiliyinə görə, analoji cinayətin törədilməsində zərərçəkmiş şəxs qismində həm təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olan şəxs, həm də belə asılılığı olmayan şəxs çıxış edə bilər.

Bu gün ki, təcrübədə intihar həddinə çatdırılma obyekti haqqında mübahisələr getmir. AR CM-nin 125-ci maddəsi, CM-nin şəxsiyyət əleyhinə olan cinayətlərə həsr olunan bölməsində yerləşdirilib, deməli obeykt olaraq şəxsiyyətin təhlükəsizliyini təmin edən ictimai münasibətlər çıxış edəcəklər.

Elmdə ümumi qəbul olunmuş mövqeyə əsasən, intihar həddinə çatdırmanın obyekti, insanın həyat və sağlamlığını təmin edən ictimai münasibətlərdir. İntihar həddinə çatdırmanın əlavə obeykti olaraq, intihar yolunu seçən şəxsin şərəf və ləyaqəti vurğulanır.

Obyektiv anlamda şərəf və ləyaqət cəmiyyətin düşüncəsində insan davranışının qiymətləndirilməsidir. Bir tərəfdən şərəf insanın daxili mənəvi (əxlaqi) vəziyyətidir. Digər tərəfdən şəxsiyyətin, onun mənəvi və sosial xüsusiyyətlərinin ictimai qiymətləndirilməsidir. Bu halda, unutmamaq lazımdır ki, şərəf anlayışı əvvəlcədən onun müsbət qiymətləndirilməsini nəzərdə tutur.

İntihar həddinə çatdırmanın daha bir əlavə obyekti kimi zərərçəkənin sağlamlığını hesab etmək lazımdır? Bu o hallara aid edilir ki, intihar həddinə çatdırma üsullarından, cinayətkar fiziki zorakılığı seçir. Sağlamlıq dedikdə, yalnız xəstəlik və fiziki qüsurların olmaması deyil, eləcə də, tam fiziki, psixoloji və sosial rifah vəziyyəti nəzərdə tutulur.

Obyektiv tərəf həm hərəkətlə, həm də hərəkətsizliklə səciyyələnir. Hər iki halda təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərşəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütamadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma cinayətinin törədilməsi üsulları kimi çıxış edir. Bu üsulların hər biri müstəqil şəkildə şəxsin həyatına, sağlamlığına, şərəf və ləyaqətinə qarşı cinayət törədilməsinə səbəb olur. Lakin, CM-nin 125-ci maddəsinin tətbiqində bu cinayətlərə görə əlavə təsnifata ehtiyac yoxdur. Belə ki, onlar təhlil edilən maddənin icbari tərkib əlamətləridir. Burada hissənin tamla rəqabəti yer alır və üstünlük tama verilir. CM-in 125-ci maddəsi adı çəkilən müstəqil əməlləri tamamilə əhatə edir. Sözügedən maddədə nəzərdə tutulan şərtlərin mövcudluğu halında, yuxarıda

qeyd olunan cinayətlər arasında iki və daha çoxu üzrə müstəqil təsnifat yalnız real əməllər toplusu şəraitində ola bilər. Baş vermiş cinayət nəticəsində zərərçəkənin sağlamlığına ağır xəsarət yetirilərsə (AR CM-nin 126-cı maddəsi) bu zaman, təqsirləndirilən şəxsin əməli AR CM-ın 29-125 və 126-cı maddələri ilə cinayətlərin məcmusu üzrə tövsif olunacaqdır.

Təqsirkar özünün zərərçəkmiş şəxslə amansız rəftarı, onun ləyaqətini mütamadi olaraq alçaldılması və ya hədə-qorxu gəlməsinin nəticəsi olaraq zərərçəkmiş şəxsin özünü öldürəcəyini qabaqcadan görüb dərk edirsə və onun ölümünü arzu edirsə (birbaşa qəsd), zərərçəkmiş şəxsin özünü öldürməsi qəsdən adam öldürməyə (CM-in 120.1-ci və ya 120.2-ci maddələri) görə cinayət məsuliyyətinə səbəb olur.

Obyektiv tərəfin mütləq əlaməti zərərçəkənin intiharı və ya intihara cəhdi, eləcə də, günahkarın əməli ilə zərərçəkənin ölümü arasında səbəbli əlaqənin olmasıdır. Törədilmiş cinayət əməli ilə baş vermiş ağır nəticə arasında qarşılıqlı əlaqənin mövcudluğu labüddür.

Subyektiv cəhətdən təhlil edilən cinayət həm təqsirin birbaşa qəsd, həm də təqsirin dolayı qəsd formasında həyata keçirilə bilər. Birbaşa qəsd də cinayəti törədən şəxs zərərçəkəni özünü öldürməyə təhrik etdiyini dərk edir və o, belə bir nəticəni arzulayır.

Təqsirin dolayı qəsd formasında təqsirləndirilən şəxs və ya cinayəti törədən şəxs zərərçəkənin intihar edəcəyinin mümkünlüyünü dərk edir, lakin bunu arzu etməsə də buna laqeyd münasibət bəsləyir.

Bir qayda olaraq, intihar həddinə çatdırma dolayı qəsdlə törədilir. Lakin, bu birbaşa qəsdlə törədilən hallardada baş verir. Günahkar şəxs məqsədyönlü şəkildə şəxsi intihara sövq edir. Bilir ki, onun təhdidləri, kobud rəftarı və digər bu kimi əməlləri zərərçəkənin intihar edəcəyi ehtimalını, hətta qaçılmazlığını yaradır. O belə bir nəticənin baş verməsini arzulayır. Son nəticədə zərərçəkən bütün bu təhdidlərə dözməyərək intihar edir.

İntihar həddinə çatdırmada təqsirin bir başa qəsd forması mövcud olduğu halda, günahkar şəxs qətl cinayətinə görə məsuliyyət daşımalıdır. Həyata son qoyulmasının zərərçəkənin özü tərəfindən yerinə yetirilməsi məqamı, əməlin təsnifatı üçün əhəmiyyət kəsb etmir. Bu məqam o halda xüsusi əhəmiyyət kəsb edir ki, intihara təhrik olunan azyaşlı, ruhi xəstə və ya əqli qüsurludur. Azyaşlının və ya əqli qüsurlunun intihar həddinə çatdırılması əməli dolayı qəsd formasında qəsdən adam öldürmə kimi tövsüf ediləcəkdir (CM-in 120-ci maddəsinin I hissəsi).

Qurbanı iradəsini göstərmək imkanından məhrum etməklə, zərərçəkmiş şəxsi intihara fiziki məcbur etmək də mümkündür.

Özünü öldürmə həddinə çatdırmaya görə cinayət məsuliyyəti 16 yaşından etibarən yaranır. Zərərçəkənin maddi, xidməti və ya sair cəhətdən asılı olduğu şəxs cinayətin subyekti ola bilər.

Son illər respublikamızda bu növ cinayətlərin artan xətt üzrə inkişaf etməsi, azyaşlılar, yetkinlik yaşına və ya həddi-buluğa çatmamışlar arasında daha surətlə yayılması özünü öldürmə həddinə çatdırma cinayətinin səbəblərinin aydınlaşdırılmasını və öyrənilməsini aktuallaşdırır. Bu növ cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin daha dərindən öyrənilməsini zəruri edir. Aparılan araşdırmalar göstərir ki, intihar həddinə çatdırılma özlüyündə artıq bütövlükdə cəmiyyətin həll edilməsi vacib olan problemlərindən biridir.

İntihar həddinə çatdırılmanın yaranma səbəbləri (determinasiyası) öyrənilməklə, yeniyetmələrə, qadınlara, yaşlı insanlara, ilk növbədə onların yüksək emosional vəziyyət-

də ola bilməsi ehtimalını nəzərə alaraq, onlara mənfi təsiri azaltmaq və yaxud da aradan qaldırmaq zəruridir.

İntihar həddinə çatdırmada zərərçəkənin şəxsiyyətinin həddən artıq həssaslığı, psixoloji durumu, emosional dözümsüzlüyü və eləcə də, özünə inamın aşağı səviyyədə olması kimi xüsusiyyətləri artıq intihar həddinə çatdırılmağa zəmin yaradır. Cinayətkar zərərçəkənin bu kimi psixoloji xüsusiyyətlərindən xəbərdar olduğu üçün, bu biliyin, əldə edilmiş bu məlumatların nəticəsi kimi o, öz cinayətinin həyata keçirilməsi üçün buna istiqamətlənən əməllər seçir və onu həyata keçirir.

İntihar həddinə çatdırılmanın və yaxud şəxsi özünü öldürmə həddinə çatdırmanın səbəbləri müxtəlif ola bilər: şəxsə qarşı qərəzli münasibət, mənfəət və əlavə gəlir əldə etmək üçün rəqiblərin aradan qaldırılması, zərərçəkənin mülkiyyətinin ələ keçirilməsinə və ya mülkiyyət asılılığından qurtamağa cəhd və s.

Özünü öldürmə həddinə çatdırmanın qarşısının alınması üçün kompleks sosial-iqtisadi, siyasi, psixoloji, hüquqi və digər tədbirlərin həyata keçirilməsi vacibdir. Eyni zamanda fərdi profilaktika tədbirləri böyük əhəmiyyət daşıya bilər.

Bu cinayət əməllərinin ümumi profilaktikası məqsədi ilə istehsal müəssisələrində, xidmət sahələrində, təhsil ocaqlarında, tibbi müəssisələrdə, əyləncə və istirahət yerlərində kompleks tədbirlər görülməli, izahat və mariflәndirmə işləri aparılmalı, insanlara qarşı yönələ biləcək fiziki və psixoloji təziqin baş verməməsi üçün inzibati və ictimai təsir tədbirləri gücləndirilməli, ailə-məişət münaqişələrinin böyüməsinin qarşısı alınmalı, bütün bu işlərdə sosioloqların, psixoloqların, konfiloktoloqların, seksopotoloqların və s. xidmətlərindən maksimum istifadə edilməlidir. Aparılan kompleks tədbirlər prosesində sahə müvəkkillərinin və digər qurumların imkanlarından maksimum yararlanmağa çalışılmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: “Hüquq Yayın Evi”, nəşriyyatı, 2017
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. “Hüquq Yayın Evi” nəşriyyatı, 2019
3. Уголовный кодекс Российской Федерации от 13 июня 1996 года. http://www.consultant.ru/document/cons_doc_LAW_10699/
4. Уголовный кодекс Украины 5 апреля 2001 года. https://online.zakon.kz/document/?doc_id=30418109
5. Уголовный кодекс Республики Беларусь от 9 июля 1999 года. http://base.spinform.ru/show_doc.fwx?rgn=1977

## EXISTING PROBLEMS IN CRIMINAL LAW REGARDING INCITEMENT TO SUICIDE

**A.E.Gasimov, Z.Z.Guliyev**

## SUMMARY

This work presents a broad comparative analysis of a crime which falls under Article 125 of the Criminal Code of the Republic of Azerbaijan (incitement to to suicide). The reasons for suicide are discussed and suggestions are made to prevent these crimes.

# СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ В УГОЛОВНОМ ПРАВЕ ОТНОСИТЕЛЬНО ДОВЕДЕНИЯ ДО САМОУБИЙСТВА

**А.Э.Гасымов, З.З.Гулиев**

## РЕЗЮМЕ

В статье проведен широкий сравнительный анализ уголовного преступления, совершенного по статье 125 Уголовного кодекса Азербайджанской Республики (доведение до самоубийства). Исследованы причины самоубийства, даны конкретные предложения по предупреждению этих преступлений.

*Məqalə redaksiyaya 19 aprel 2019 tarixində daxil olmuş, 21 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 34.03

# XVI ƏSRDƏN XX ƏSRİN 20-Cİ İLLƏRİNƏDƏK OLAN DÖVRDƏ AZƏRBAYCANDA VERGİLƏR

**R.A.Qasımzadə**
Azərbaycan Milli Aviasiya Akademiyası
Bakı, Mərdəkan prospekti 30
e-mail: ramiz.qasimzade@yandex.ru

***Açar sözlər:*** Azərbaycan, vergi, maliyyə
***Keywords:*** Azerbaijan, taxes, finances
***Ключевые слова:*** Азербайджан, налоги, финансы

1501-ci ildə Azərbaycanda paytaxtı Təbriz şəhəri olmaqla Səfəvilər (1501-1736) dövləti yarandı. Səfəvilər dövründə Azərbaycan ərazisi şah canişinləri - bəylərbəyilər tərəfindən idarə olunan vilayətlərə bölünmüşdü. Bəylərbəyilər yalnız Azərbaycan hərbi əyanları tərəfindən təyin edilirdilər. Onlar öz məmurları tərəfindən əhalidən yığılan vergiləri xəzinəyə göndərirdilər.

Səfəvilərin hakimiyyəti illərində vergi verən əhali ağır feodal istismarına məruz qalırdı. Vergi və mükəlləfiyyətlərin sayı 50-yə çatmışdı. Lakin dövlətin iqtisadi sisteminin iflasına yol verməmək naminə Səfəvi şahları bəzən vergiləri azaltmalı, hətta ləğv etməli olurdular. Məsələn, şah hökuməti osmanlılarla müharibədə (1555-ci ildən etibarən) xalq kütlələrinin düşdüyü ağır şəraiti nəzərə almalı oldu, malcəhəti (xəracı) və başqa vergiləri bir qədər azaltdı. Məhsulun 6/1-dən 3/1-ə qədərini təşkil edən malcəhət torpaqdan istifadə müqabilində kəndlilərdən alınan əsas vergi olmuşdur. Bu vergi əsasən məhsula görə (buğda, çovdar, arpa, ipək və s.) ödənilirdi.

İxracat və şütaqat istilahları adlanan vergi və mükəlləfiyyətlər kəndlilərə hədsiz əziyyət verirdi. Kəndlilər nəinki qoşunu ərzaqla, habelə onun çevik hərəkətdə olan heyvanlarını da ot və ələflə təchiz edirdilər. Bu mükəlləfiyyətlərə görə kəndlilər öz evlərini şah elçilərinin, əcnəbi səfirlərin və digər məmurların ixtiyarına verməli, bir çox dövlət məmurlarının məvaciblə təmin olunmasının ağırlığını çəkməli idilər. Məcburi bəxşişlər sistemi də mövcud olmuşdur. Bu bəxşişlər torpaq sahiblərinə, şahın məmurlarına, xidmətçilərinə verilirdi. Kəndlilər və köçəri maldarlar otlaqlardan istifadə müqabilində dövlətə çobanbəyi vergisi ödəməli idilər. Dövlətin və feodalların xeyrinə toplanan vergilər, yerinə yetirilməli olan mükəlləfiyyətlər əhalini müflisləşməyə gətirib çıxarırdı.

1565-ci ildə I Sah Təhmasibin fərmanına əsasən sənətkarlardan və tacirlərdən alınan verginin ləğv edilməsindən sonra, Təbriz öz inkişafının yüksək səviyyəsinə çatmışdı. 1571-1573-cü illərin Təbriz üsyanının təsiri nəticəsində I Şah Təhmasib şəhərə vergi toxunulmazlığı hüququ verdi və bu tədbir şəhərin sonrakı tərəqqisi üçün geniş imkanlar yaratdı. I Şah Təhmasib daha sonra Təbrizi bütün divan vergilərindən azad etdi. Beləliklə, şəhər vergi toxunulmazlığı (immuniteti) qazandı (1, s. 206-207).

1578-1590-cı illərin qanlı, talanedici döyüşlərindən sonra Səfəvi və Osmanlı dövlətləri arasında 1590-cı ildə İstanbulda sülh müqaviləsi imzalandı. İki dövlət arasında yeni

sərhədlərin müəyyən edilməsi prosesi isə iki ildən sonra başa çatdı. Müqavilə nəticəsində Azərbaycan ərazisi Osmanlı və Səfəvi dövlətləri arasında bölündü. Şirvan, Qarabağ, Təbriz və onun ətraf nahiyələri, Sərab, Marağa və bu şəhərdən qərbdə yerləşən bütün vilayətlər Osmanlı imperiyasının əlinə keçdi, Xalxal, Ərdəbil, Qaradağ, Talış, Zəncan və Sultaniyyə isə Səfəvilər dövlətinin tərkibində qaldı.

Osmanlı hakimiyyət orqanları zəbt olunmuş ərazilərdə vergi və mükəlləfıyyətlərin növlərini, məbləğini müəyyənləşdirdilər. Osmanlılar Azərbaycanın yeni işğal edilmiş ərazilərində əhalinin və gəlirlərin ümumi siyahıyaalınmasını keçirdilər. Siyahıyaalınmanın nəticələriləri əsasında əhalinin üzərinə yeni vergi və mükəlləfiyyətlər qoyuldu. Osmanlı mənbələrinin məlumatlarından aydın olur ki, sülh müqaviləsinin imzalanmasından sonra Səfəvi xəzinəsinə verilməli vergilər Osmanlı xəzinəsinin ixtiyarına keçirildi. Salyan balıq vətəgələrindən əldə olunan, 10 min ağça təşkil edən gündəlik gəlir də həmin vergilərdən idi. Şirvanın bürün vilayətlərində istehsal olunan ipəkdən, Bakı neftindən və s. əldə edilən gəlirin onda bir hissəsi Osmanlı xəzinəsinin hesabına keçirilmişdi. Mənbələrdə qeyd edilir ki, bir sıra insanlar osmanlıların ağır vergi zülmünə məruz qaldıqları üçün Səfəvi şahının sarayına pənah apardılar (1, s. 221).

1736-cı ildə Səfəvilər dövləti süqut edərək Azərbaycanın ərazisində Bakı, Gəncə, Naxçıvan, Şəki, Qarabağ və Quba xanlıqları yarandı. Azərbaycan xanlıqlarında vergi və mükəlləfiyyətlər əvvəlki illərdə olduğu kimi qalırdı. Ağır vergi siyasəti əhalinin var-yoxdan çıxmasına və onların kəndlərdən qaçmasına səbəb oldu.

XVIII əsrin ikinci yarısında Azərbaycanda yenə də məhsul rentası üstün yer tuturdu. Lakin rentanın işlə və pulla ödənilən formaları da var idi. Rəiyyətdən alınan əsas vergi malcəhət adlanırdı. Müxtəlif xanlıqlarda onun həcmi məhsulun 1/10 (onda bir) hissəsi ilə 1/3 (üçdə bir) hissəsi arasında tərəddüd edirdi. Otlaqlardan istifadə əvəzində rəiyyətlərdən "çöpbaşı" adlanan əlavə vergi alırdılar. Kəndlilər bunlardan əlavə, "bağbaşı", "bayramlıq", "toy pulu", "at arpası", "mirzəyanə", "darğalıq" və s. vergilər ödəyirdilər (2, s. 158). Şəhər əhalisi hüquq və vəzifələrinə görə imtiyazlı silkə və vergi ödəyənlərə bölünürdülər. Birinci silkə xanlar, bəylər, məliklər, ağalar, axundlar, mollalar, seyidlər, mirzələr və xan nökərləri, ikinci silkə isə tacirlər, sənətkarlar, əkinçilər, şəhər yoxsulları və başqaları daxil idi.

XIX əsrin əvvəllərində Azərbaycan siyasi pərakəndəlik dövrü yaşayırdı. Torpaq mülkiyyət formalarının və vergilərin mahiyyətində elə bir ciddi dəyişiklik baş verməmişdi. XIX əsrin başlanğıcında çar Rusiyası Şimali Azərbaycanı istila etdi, yurdumuzun şimal torpaqları Rusiya imperiyasının tərkibində qaldı.

XIX əsrin 30-cu illərində çar Rusiyası tərəfindən Azərbaycanda aparılan feodal istismari, müstəmləkə zülmü və ağır vergilər xalqın narazılığına səbəb olmuşdur. Kəndlilərdən pulla ifadə olunan "həyət vergisi" adlı torpaq töycüsü alınırdı. Sahibkar kəndlilər əvvəlki kimi malcəhət (torpaqdan istifadəyə görə 1/10) və bəhrə (suvarma suyundan istifadə edildiyi üçün) vergisi verirdilər.

Vergilərin bölünməsi sistemi və onların yığılması üsulu bir-birindən xeyli fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər kənd, Qarabağ əyalətində hərbir kəndli həyəti, Lənkəran əyalətində isə mahallar üzrə təyin olunurdu. Bütün bunlar yerli hakimiyyət orqanlarının özbaşınalıqları üçün geniş imkanlar açırdı. Buna baxmayaraq, XIX əsrin 30-cu illərində çar hökuməti əvvəlki vergi sisteminə bəzi dəyişikliklər və əlavələr etməklə kifayətləndi. Bununla yanaşı, hökumət vergi və mükəlləfiyyətlərin ümumi həcmini artırmağa, natural vergiləri pul vergiləri ilə əvəz etməyə can atırdı. Həyata keçirilən

dəyişikliklər bütün əyalətlər üçün bərabər deyildi.

XIX yüzilliyin birinci yarısında Azərbaycanda köhnə vergi sisteminin əsasən saxlanılması şəraitində həm toplanan vergi və mükəlləfiyyətlərin ümumi həcminin, həm də xüsusən pulla toplanan verginin xüsusi çəkisinin xeyli artması baş vermişdi. Sonuncu vəziyyət əmtəə-pul münasibətlərinin inkişafı üçün əlverişli şərait yaratsa da, obyektiv surətdə mütərəqqi əhəmiyyətə malik olsa da, vergilərin pulla ödənilməsinə keçid kəndli təsərrüfatları üçün çox ağır idi. Bir sıra qəzalarda, xüsusən də şəhərlər və yollardan uzaq yerlərdə dövlət rəiyyətlərinin təsərrüfatlarının bazarlarla əlaqəsi zəif idi və pul vergilərinin toplanması çox vaxt bu təsərrüfatların müflisləşməsinə gətirib çıxarırdı (3, s. 70).

1887-ci ildən başlayaraq, Azərbaycan kəndliləri hərbi vergi adlanan mükəlləfiyyət də daşımağa başladılar. Xristian olmadıqlarına görə orduya çağırılmayan azərbaycanlılar 3 (üç) illik orta qazancı nəzərə alınmaqla müəyyən olunmuş həcmdə hərbi vergi verməli idilər.

XIX əsrin sonunda Azərbaycana rus kəndlilərinin köçürülməsinin davam etdirilməsi kəndlilərin torpaqsızlaşmasına və ya az torpaqlı olmasına səbəb olurdu. Ağır vergilər kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. Bu səbəbdən, çarizmin zülmünə qarşı mübarizə gücləndi. Kəndlilər vergi verməkdən və mükəlləfiyyətlər daşımaqdan boyun qaçırır, sahibkarlara məxsus torpaqları ələ keçirir, hökumət məmurlarının, bəylərin evlərinə hücum edirdilər.

1900-cü il mayın 1-də imperator II Nikolay "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi. Bu Qanuna görə, torpaq payları onlardan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlərə və yaşayış məntəqələrinə ayrılırdı. Beləliklə, dövlət torpaq mülkiyyətçisi kimi qalırdı, dövlət kəndliləri bu torpaqlardan icmalıqla istifadə etməli, bunun müqabilində dövlətə töycü ödəməli, mükəlləfiyyət daşımalı idilər. Bu töycü 1900-cü il iyunun 12-də müəyyənləşdirildi və "Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında" Qanun verildi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi. Bu qanuna əsasən aşağıdakılar müəyyən edildi:

1) dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti;

2) bütün başqa torpaqlar üçün torpaq vergisi;

3) həmişəlik zemski vergisi.

Töycü vergisinə, torpaq vergisindən başqa, dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12 faizi də daxil idi.

Yuxarıda qeyd olunan Qanun qəbul olunduqdan sonra dövlət kəndlilərinin daşıdıqları mükəlləfiyyətlər daha da ağırlaşdı. Əgər hər ailədən yığılan və hər ev üzrə toplanan vergi 1900-cü ilə qədər bütün Qafqaz üzrə 1,5 milyon rubl təşkil edirdisə, 1900-cü il Qanunu ilə bu vergi iki dəfədən çox artdı. Sonrakı üç ildə pay torpaqları olan bütün Qafqazın dövlət kəndlilərindən onların xalis gəlirlərindən toplanmış töycü mükəlləfiyyətinin illik məbləği 3426 (üç min dörd yüz iyirmi altı) milyon rubla çatdı (4, s. 44).

Rusiya imperiyasının ərazisi ticarət və sənayenin inkişaf səviyyəsinə görə 5 sinfə bölünürdü ki, burada da birinci sinif istisna olmaqla qalanlarına qoyulan verginin məbləği müxtəlif idi. Azərbaycanda Bakı şəhəri ikinci, Bakı qəzası və Gəncə şəhəri üçüncü, qalan yerlər isə dördüncü sinfə aid edilmişdi.

Bakı quberniyasında 1900-cü ildə əlavə vergiyə cəlb edilən və mənfəətdən faiz verən, illik dövriyyəsi 155,8 milyon rubl, illik mənfəəti 17,5 milyon rubl olan 5468 (beş min dörd yüz altmış səkkiz) ticarət müəssisəsi, 1904-cü ildə isə illik dövriyyəsi 104 milyon rubl, illik mənfəəti 11,4 milyon rubl olan 5154 (beş min yüz əlli dörd) ticarət müəssisəsi var idi (4, s. 62).

Vergilərin ödənilməsi barədə çoxsaylı şikayətlər təkcə mülkədarlara qarşı deyil, həm də doğulmaqda olan kənd burjuaziasına, binəkdarlara, tacirlərə və b. qarşı çevrilmişdi. 24 dekabr 1914-cü il tarixdə qəbul edilmiş Qanuna görə, torpaq vergisinin məbləği 50 faiz artırıldı. Dövlət kəndlilərindən yığılan zemstvo vergisi bu illərdə 20 faiz, hərbi vergi isə 50 faiz artdı.

28 may 1918-ci ildə Tiflis şəhərində Azərbaycan Milli Şurası Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında Qərar verdi (5). 28 may 1918-ci il tarixdə həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 9 nəfərdən ibarət tərkibdə ilk hökumətinin təsdiq edilməsi haqqında Qərar qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı ulu öndər Heydər Əliyev demişdir: “Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu” (6, s. 5).

Azərbaycan Xalq Cümhuriyyəti iqtisadi islahatlarla bağlı proqramında vergi sisteminin əsaslı surətdə dəyişdirilməsini, o cümlədən vergilərin varlı təbəqələrdən alınmasını, vergi vasitəsilə dövlət və sahibkarlar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsini nəzərdə tuturdu. Vergi siyasətinin formalaşmasına yardım edən qanunlar zərfi hazırlanırdı. İlk vaxtlar bu sahədə aparılan iş keçmiş Rusiya imperiyasının müvafiq qanunlarına düzəliş və əlavələr etməklə məhdudlaşırdı, sonralar isə müxtəlif vergilər haqqında ayrı-ayrı qanun layihələri müzakirəyə çıxarılır və qəbul edilirdi. Təəssüf ki, bu zaman başlıca olaraq ənənəvi vergi sistemindən, xəzinənin ehtiyaclarını ödəmək üçün dolayı vergilər - inhisar yığımları, gömrük vergiləri və aksizlərdən istifadə edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

1) Müstəqim vergilər, torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi;
2) Dolayı vergilər - tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri;
3) Möhür haqqı məhkəmə, kargüzarlıq, sənəd yazışmalarından gəlirlər;
4) Hökumət inhisarlarına aid vergilər, mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər;
5) Dövlət dəmir yolundan gəlirlər - yük daşınmasından gəlirlər (7).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti maliyyə siyasətində mütərəqqi gəlir vergisi siyasətinə üstünlük verirdi. Parlamentin 26 dekabr tarixli iclasında çıxış edən baş nazir Fətəli xan Xoyskinin təqdim etdiyi hökumət proqramında deyilirdi: “Ölkədəki maliyyə və-

ziyyəti hələlik qeyri-müəyyəndir. Hələlik Azərbaycanın öz pul əskinası yoxdur. Azərbaycan hökuməti öz pullarını buraxmaq əzmindədir. Maliyyə siyasətində mütərəqqi gəlir vergisi həyata keçiriləcək" (8).

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti dövründə təqdim olunmuş 315 qanun layihəsindən 82-si Maliyyə Nazirliyi tərəfindən təqdim edilmişdi. Parlamentə təqdim olunmuş bir qanun layihəsinə görə, vergi məsələsi ilə bağlı bütün şikayətlərə Maliyyə Nazirliyi əməkdaşlarından ibarət şura baxmalı idi.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi: 7 cilddə, III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007
2. Nuriyeva İ.T. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin əvvəllərinədək). Dərslik. Bakı: Mütərcim, 2015
3. Azərbaycan tarixi: 7 cilddə, IV cild (XIX əsr). Bakı: Elm, 2007
4. Azərbaycan tarixi: 7 cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008
5. Собрание узаконений и распоряжений Правительства Азербайджанской Республики. Баку, 1919, № 1, ст. 1, с.4-6
6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2014
7. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi: fond 84, siyahı 1, iş 980, vv. 1
8. "Azərbaycan" qəzeti, Bakı, 1918, 25 dekabr

## TAXES IN AZERBAIJAN IN THE PERIOD FROM THE 16$^{th}$ CENTURY TO THE 20s OF THE 20$^{th}$ CENTURY

**R.A.Gasimzadeh**

**SUMMARY**

This article states that the number of taxes and duties in Azerbaijan at the early 16$^{th}$ Century was 50. Most of them were taxes and duties in kind.

## НАЛОГИ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД С XVI ВЕКА ПО 20-Е ГОДЫ XX ВЕКА

**Р.А.Гасымзаде**

**РЕЗЮМЕ**

В статье показано, что количество налогов и повинностей в Азербайджане в начале XVI века достигало 50. Среди них преобладали те, которые носили натуральный характер.

*Məqalə redaksiyaya 20 aprel 2019 tarixində daxil olmuş, 21 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 327

# XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ III ZİRVƏ GÖRÜŞÜ

**S.İ.Şükürov**
Azərbaycan Turizm və Menecment Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 822/23
e-mail: sabir.sh@hotmail.com

***Açar sözlər:*** Xəzəryanı ölkələrin dövlət başçılarının sammiti, Xəzər regionunda əməkdaşlıq, Xəzərin statusu
***Keywords:*** Summit of the heads of the Caspian countries, cooperation in the Caspian region, status of the Caspian Sea
***Ключевые слова:*** Саммит глав государств прикаспийских государств, сотрудничество в Каспийском регионе, статус Каспийского моря

## Giriş

Məlumdur ki, SSRİ-dağılandan sonra müstəqillik əldə edən Xəzəryanı dövlətlər və İran İslam Respublikası arasında Xəzərin göl yaxud dəniz olması statusu ilə bağlı müxtəlif yanaşmalar var. Qeyd edək ki, Azərbaycanın reallaşdırdığı böyük enerji layihələrinin həyata keçirilməsi ilə daha da aktuallıq qazanan Xəzərin statusu və ondan birgə istifadə beş dövlət arasında bir sıra fikir ayrılıqları yaratmışdır. Xəzərdə enerji layihələrini reallaşdırarkən, Azərbaycan hər zaman region ölkələrinin ortaq milli maraqlarını və beynəlxalq hüququ əsas tutmuşdur. Buna görə də Azərbaycanın fəaliyyəti heç bir Xəzəryanı ölkənin iqtisadi-siyasi maraqlarını pozmamış, əksinə, bölgədə hamı üçün bərabər, rəqabətə əsaslanan əməkdaşlıq şəraiti yaradaraq, bu layihələrdə iştirak etmək və onlardan öz maraqları üçün istifadə etmək, iqtisadi dividentlər qazanmaq imkanı təmin etmişdir.

Sovet İttifaqı dağıldıqdan sonra Xəzər regionu strateji cəhətdən mühüm geoiqtisadi zonaya çevrildi. Qloballasma Xəzər regionunun iqtisadi və siyasi əhəmiyyətini, onun dünya təsərrüfatındakı çəkisini dəyisdi. Müasir iqtisadi məkanın metamorfozaları elədir ki, qısa müddət ərzində mərkəzində Xəzər dənizi (gölü) olan və əvvəllər az maraq doğuran region əhəmiyyətinə görə dünya üçün birinci yerlərdən birinə çıxdı. Xəzər regionu XXI əsrdə dünya bazarının enerji resursları ilə baslıca təchizatçılarından biri olacağını vəd edir. Burada olan ehtiyatlar müxtəlif cür qiymətləndirilir, qiymətləndirilmə ekspertlərlə razılığa gəlmək dərəcəsindən asılıdır. Xəzər dənizindən çıxarılan neft ehtiyatları 25 mlrd.-dan 200 mlrd. barrel (3-27 mlrd.t) həcmində müəyyənləsdirilir. «Xəzər Eldoradosu» imicinin yaranması Xəzər neft ehtiyatlarının 40 mlrd. tona yaxın olduğunu, bunun da pul ekvivalentində (1997-ci ilin sonuna olan qiymətlərlə) 4 trln. ABS dollarına bərabər olduğunu elan etmis senator Sem Broukbekin adı ilə bağlıdır.

Rusiya Federasiyasının ekspertlərinin qiymətləndirmələri xeyli təvazökardır – 10 mlrd. tona yaxın, bunlardan Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının payı 6 mlrd. ton təskil edir. XX əsrin 90-cı illərinin axırlarında böyük Xəzər neftinin onun ən qızğın hasilatı dövründə axıdılacağı «əsas ixrac boru kəməri» üçün marsrutun seçilməsi sualı Xəzər ətrafında baslıca mübahisə obyektinə çevrildi. Obyektiv səbəblərdən Xəzər qlo-

ballasmaya cəlb olundu və əsas sosial-iqtisadi problemlərin həllini qloballasmanın getdikcə artan imperativləri səraitində axtarmaq lazım gəldi. Yeni geosiyasi səraitdə (regionun mürəkkəb sosial-iqtisadi problemlərinin həllinin) və sabit artım kateqoriyalarında Azərbaycanın inkisaf modelinin kökündən dəyisdirilməsi axtarışı XXI əsrdə Azərbaycanın yerini regionun aparıcı ölkəsi kimi müəyyənləsdirdi [1, s.3-12].

Azərbaycan Respublikasının milli gəlirinin mühüm bir hissəsini və iqtisadiyyatın əsas qismini neft təşkil edir. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft stardegiyasının reallaşdırılması vəzifəsi dğvlətin xarici siyasətinin prioritetlərindən biridir. Bu satrategiyanın əsas mahiyyəti Xəzər dəninzinin Azərbaycan sektorunda mövcud olan karbohidrogen ehtiyyatlarının qabaqcıl Qərb texnaloqiyası və investisiya imkanlarından səmərəli isdifadə etməklə dövriyəyə buraxılması, təhlükəsizlik yollarla dünya bazarına çıxarılması, satışından əldə edilən vəsait ölkənin digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olunması, bugünkü və gələcək nəsillərin firavan həyatının təmin edilməsindən və s. ibarətdir. Bu sahədə Xəzərin sektor bölgüsü, neft kəmərlərinin çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft-qaz bazarlarında lazimi yer tutmaq və s. kimi çətinliklərin aradan qaldırılması və nəzərdə tutulan işlərin həyata keçirilməsi üçüm xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir [2, s.4-13].

Azərbaycanın Xəzərlə bağlı gələcək geoiqtisadi niyyətləri açıqlanar-açıqlanmaz Rusiya Federasiyası və İran İslam Respublikası buna etiraz etməyə və bunu müxtəlif amillərlə əsaslandırmağa cəhd göstərdilər. Onlar özlərinin milli geoiqtisadi və geosiyasi "maraqlarının" pozulması bəhanəsilə və Azərbaycanı "bu işdən çəkindirmək" məqsədilə Xəzərdən istifadə qaydalarına dair müxtəlif əsassız təkliflər irəli sürməyə başlayırlar. Həmin perspektivsiz təkliflərdən biri və ən mühümü məhz "Xəzərin hüquqi statusu",[1] daha doğrusu, bu statusa yenidən baxılması məsələsi idi.

Əslində bu məsələnın "mühümlüyünü" şərtləndirən əsas amil, bütün qüvvəsi ilə Azərbaycanın öz xarici tərəfdaşlarıyla dənizdə reallaşdırdığı və həyata keçirmək istədiyi nəhəng enerji layihələrinə mane olmaq, xüsusən də bu layihəyə qoşulan ABŞ və Qərb ölkələrinin Xəzər hövzəsinə daxil olmasının qarşısını almaq istəyən Rusiya Federasiyası və İran Islam Respublikasının bəzi dairələrinin bu problemi süni şəkildə şişirtmələri və təkidlə gündəmə gətirmələri idi. Xəzərin statusu və onun ətrafında cərəyan edən adi və gündəlik məsələlər həmin dairələr tərəfindən əsassız olaraq bölgənin gələcək geosiyasi taleyi və region ölkələrinin fərqli inkişaf meylləri, fərqli inteqrasiya istiqamətləri ilə əlaqələndirilərək, beynəlxalq statuslu milli maraq mübarizələri hədəfinə çevrilmiş və regional münasibətləri gərginləşdirmişdir [3, s.667-684].

Lakin unutmaq lazım deyil ki, Xəzər hövzəsindəki dövlətlər eyni coğrafi məkanda yerləşir və Xəzər də bu dövlətləri, xalqları ayıran deyil, birləşdirən dəniz rolunu oynamalıdır. Məlumdur ki, ayrı-ayrı dövlətlərin vətəndaşı olmasına baxmayaraq, Xəzər ətrafındakı etnik zolaq eyni kökə və mədəniyyətə əsaslanır. Belə ki, sahil dövlətlərindən üçü, yəni

[1] SSRİ-nin süqutuna qədər Xəzərin hüquqi statusu bu razılaşmalarla tənzimlənirdi. Hal-hazırda Xəzərin hüquqi statusu müəyyən edilmədiyindən Xəzəryanı dövlətlər 1970-ci ildə qəbul olunmuş sektorial bölgünü dövlət sərhədi kimi qəbul edirlər. 1992-ci ildən başlayaraq Xəzəryanı dövlətlər arasında ikitərəfli və çoxtərəfli görüşlərdə Xəzərin hüquqi statusu məsələsi ilə bağlı müzakirə və danışıqlar başlanmışdır. Bununla da Xəzərin hüquqi statusunun həllində fərqli mövqelərin ortaya çıxması ilə günümüzə qədər davam edən status məsələsinin müzakirəsinin startı verildi. Sonrakı müzakirələr də göstərdi ki, Xəzərin hüquqi statusu məsələsinə hər bir dövlət fərqli yanaşır və bu zaman daha çox beynəlxalq hüquqi normalara deyil, milli maraqlara söykənirlər.

Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının və Türkmənistan Respublikasının əhalisinin əksəriyyəti türklərdən ibarət olan qardaş ölkələrdir. Şimal qonşumuz olan Rusiya Federasiyasının cənub ərazilərində, o cümlədən, Xəzər dənizinin şimal sahillərində tarixən müxtəlif türk tayfaları yaşayıb və öz dövlətlərini qurublar.

Bu gün də həmin bölgələrdə, eləcə də, Dağıstan ərazisində çoxlu sayda Azərbaycan türkləri, qumıqlar, noğaylar və başqa türk xalqları yaşayır. Digər sahilyanı ölkə olan İranın şimal hissəsində, Xəzər dənizinin cənub sahillərində əsasən Azərbaycan türklərinin yaşadığı məlumdur. Göründüyü kimi, bu beş ölkənin sahilyanı ərazilərində yaşayan xalqları ortaq etnik mənşə, tarixi qonşuluq əlaqələri, mənəvi dəyərlər birləşdirir. Bu isə Xəzərin sülh, dostluq, qardaşlıq və əməkdaşlıq dənizinə çevrilməsinə stimul verən mühüm faktordur. Qeyd edək ki, Azərbaycanın bu istiqamətdə dövlət siyasəti də məhz sülh, dostluq, qardaşlıq, əməkdaşlıq prinsiplərinə söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşündə[2] söylədiyi kimi: "Bizi birləşdirən Xəzər dənizi dostluq və əməkdaşlıq dənizidir" [4].

Qeyd edək ki, Xəzər dənizi ilə bağlı sərhəd, hərbi və ekoloji təhlükəsizlik, enerji, tranzit və digər məsələlərin öz həllini tapması bütün sahil dövlətlərinin milli mənafelərinə uyğundur. Eyni zamanda, sahil dövlətlərinin Xəzərdəki fəaliyyətinin rəqabət şəklində deyil, müxtəlif sahələrdə qarşılıqlı anlaşma və əməkdaşlıq yolu ilə həyata keçirilməsi bu dövlətlərin hər biri üçün sərfəlidir. Bunun üçün isə kifayət qədər geniş imkanlar mövcuddur. Azərbaycan Xəzərin öz payına düşən hissəsində mövcud imkanlardan geniş şəkildə yararlanır. Ölkəmizin təşəbbüsü ilə dənizdə reallaşdırılan nəhəng enerji layihələrinə müxtəlif ölkələrlə yanaşı, Xəzər hövzəsi dövlətləri də cəlb olunur. Lakin Xəzərin hüquqi statusunun müəyyənləşdirilməməsi hələ də əsas məsələlərdən biri kimi qalmaqdadır. Bu barədə ortaq razılığın əldə olunması dövlətlərin nümayiş etdirəcəyi siyasi iradədən asılıdır. Məlum olduğu kimi, Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası öz aralarında imzaladıqları müqavilərlə dənizin dibinin milli sektorlar[3] üzrə bölünməsini razılaşdırıblar.

Bu gərginliyi aradan götürmək və mövcud problemlərin həllində Xəzəryanı dövlətlərin dövlət başçılarının Zirvə görüşlərinin mühüm əhəmiyyəti var. Zirvə görüşləri bir qayda olaraq Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində ortaq məxrəcin tapılmasına həsr olunur.

2010-cu il noyabrın 18-də Azərbaycan Respublikasının prezidentinin "Gənclik" iqamətgahında Xəzəryanı ölkələrin dövlət başçılarının 3-cü zirvə toplantısı keçirilmişdir. Azərbaycan Respublikasının Prezident İlham Əliyev sammitə qatılan Xəzəryanı ölkələrin dövlət başçılarını – D.Medvedyev, M.Əhmədinecat, Q.Berdimühəmmədov və N.Nazarbayevi qarşılayıb. Daha sonra dövlət başçılarının zirvə görüşü başlayıb [5, s.2].

Zirvə Görüşündə açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantının əlamətdar hadisə olduğunu dedi. Azərbaycanın dövlət başçısı Xəzəryanı ölkələr arasında dostluq, mehribanlıq münasibətlərinin mövcudluğunu qeyd edə-

---

[2] Xəzəryanı ölkələrin dövlət başçılarının ilk zirvə toplantısı 2002-ci il aprelin 23-24-də Aşqabadda, ikinci sammit isə 2007-ci il oktyabrın 16-da Tehranda keçirilib. Bakı sammitində prezidentlərə imzalanmaq üçün iki sənəd təqdim olunub: bunlar birgə bəyanat və Xəzərdə təhlükəsizlik sahəsində saziş layihələridir.

[3] 1970-ci ildə SSRİ Neft Nazirliyinin qərarı ilə Xəzərin milli sektorlara bölünmə praktikası həyata keçirilib. Bölgüyə əsasən Xəzərin təqribən 70 min kv. km-i Azərbaycanın, 80 min kv. km-i Türkmənistanın, 60 min kv. km-i Rusiyanın, 105 min kv. km-i Qazaxıstanın payına düşürdü və 55 min kv. km-i İrana qalırdı.

rək, bu ölkələrin əsrlər boyu yaxın qonşuluq şəraitində yaşadığını söylədi və bildirdi ki, Azərbaycan öz qonşuları ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi istiqamətində fəal işlərin aparıldığını və bunun gələcəkdə praktiki nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Cənab İlham Əliyev qeyd etdi ki, hazırda Azərbaycan ilə Rusiya Federasiyası və Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası, habelə Rusiya Federasiyası ilə Qazaxıstan Respublikası arasında Xəzərin sektorlara bölünməsi ilə bağlı önəmli addımlar atılmışdır. "Ümid edirəm ki, gələcəkdə bu gözəl təcrübə əsas kimi götürülə bilər", - deyən Prezident İlham Əliyev nəqliyyat sahəsində də əməkdaşlığın dərinləşdiyini söylədi.

Azərbaycan Respublikasının Prezidenti Xəzər dənizinin böyük təbii ehtiyatları olduğunu və bütün Xəzəryanı ölkələrin enerji resursları baxımından zəngin ölkələr olduğunu vurğuladı. "Bizim ölkələrdə hasil edilən neft-qaz ehtiyatları dünya enerji bazarında həlledici təsirə malikdir" – deyən Prezident İlham Əliyev Xəzərin əməkdaşlıq dənizinə çevrilməsi üçün iqtisadi əlaqələrin güclənməsinin mühüm əhəmiyyət daşıdığını qeyd etdi, ölkəmizdə Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün də böyük proqramların icra edildiyini söylədi [6, s.2].

Xəzərdə təhlükəsizlik tədbirlərindən danışan cənab İlham Əliyev Azərbaycanın bu istiqamətdə fəal çalışdığını bildirdi. Dövlət başçısı dedi ki, Xəzər sülh, əmin-amanlıq, sabitlik dənizidir və belə də qalmalıdır.

İran İslam Respublikasının Prezidenti M. Əhmədinecad öz çıxışında qeyd etdi ki, 2007-ci ildə Tehranda keçirilən Zirvə görüşündən sonra Xəzəryanı ölkələr arasında iqtisadi, siyasi, mədəni, ətraf mühitin mühafizəsi və digər sahələrdə əlaqələrin daha da genişləndiyi müşahidə olunur.

Qazaxıstan Respublikasının Prezidenti N. Nazarbayev Xəzərin hüquqi statusunun həlli ilə bağlı böyük işlərin görüldüyünü, yaxın zamanlarda Qazaxıstanda bu məsələ ilə bağlı konfransın təşkil ediləcəyini söyləyətək ölkəsinin Xəzərin hüquqi statusu ilə bağlı bütün görüşlərdə iştirak etməyə hazır olduğunu da diqqətə çatdırdı [7, s.2].

Rusiya Federasiyasının o vaxtkı Prezidenti Medvedev Xəzərin hüquqi statusunun müəyyən edilməsi prosesinin sürətlənməsi üçün kompleks məsələlərin həllində və Xəzəryanı ölkələrin əməkdaşlığının yeni formatının müəyyən edilməsində bu görüşün böyük əhəmiyyət daşıdığını vurğuladı.

Cənab Medvedev qeyd etdi ki, biz təkcə dənizi bölməklə kifayətlənməməliyik, eyni zamanda, onun bioloji müxtəlifliyini və nadir təbii sərvətlərini qorumalıyıq. O, Xəzərin statusu barədə yekun nəticənin əldə edilməsi ilə əlaqədar Rusiya Federasiyasının tərəfinin təkliflərini də açıqladı.

Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədov çıxışında Xəzəryanı ölkələrin Xəzər hövzəsinin mühüm strateji region olduğunu yaxşı anladığından məsələ ilə bağlı danışıqlar prosesi konstruktivlik əsasında qurulduğunu, Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsi üzərində işin aparıldığını və dəniz mühitinin qorunması ilə bağlı çərçivə konvensiyasının imzalanmasını da bildirib [8, s.2].

Yekun variantda şübhə doğuran və ya xüsusi diqqət tələb edən dəniz gəmilərinə nəzarətə dair fraza da yoxdur. Bu cür gəmilərə müntəzəm marşrutlardan imtina edən, bortunda terrorizmə, kütləvi qırğın silahlarının qanunsuz dövriyyəsinə bağlılıqda şübhəli bilinən şəxsləri daşıyan, qaçaqmal daşıyan, brakonyerliklə bağlı sualları cavablandırmayan gəmilər aid edilir.

Qanunsuz balıq ovunun qarşısının alınması, aradan qaldırılması barədə bənd də işçi layihəsindən yoxa çıxıb. Sənədin bu cür "ixtisarla" qəbul olunması belə güman etməyə əsas verir ki, tərəflər arasında dəniz təhlükəsizliyi məsələləri ilə bağlı ciddi anlaşılmazlıqlar qalır.

Sazişin yekun variantı terrorizmə; mütəşəkkil cinayətkarlığa; istənilən silah və döyüş sursatı növlərinin qanunsuz dövriyyəsinə; narkotik, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə; gəlirlərin, o cümlədən cinayətkar yolla əldə olunmuş pul vəsaitlərinin yuyulmasına; qaçaqmalçılığa; insan alverinə və qanunsuz miqrasiyaya; bioloji resursların qanunsuz hasilatına (brakonyerlik) qarşı mübarizə sahəsində əməkdaşlığı nəzərdə tutur. Bununla yanaşı, saziş dəniz gəmiçiliyinin təhlükəsizliyinin təminatını və dəniz quldurluğuna qarşı mübarizəni nəzərdə tutur.

Görüş zamanı prezidentlər Xəzərdə təhlükəsizlik üzrə əməkdaşlıq haqda müqavilə də imzalayıblar. Müqavilədə qeyd olunub ki, Xəzər dənizində təhlükəsizliyin təmini Xəzəryanı dövlətlərin müstəsna hüququdur. Tərəflər bu sənədi beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit edilən müstəqillik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, başqalarının işinə qarışmamaq və s. əsaslanıb qəbul ediblər. Sənəd terrorçuluq, mütəşəkkil cinayətkarlıq, silah, narkotik, kütləvi qırğın silahları hissələrinin qaçaqmalçılığı və brakonyerliklə mübarizə, eləcə də birgə xilasetmə işləri üzrə əməkdaşlığı nəzərdə tutur [9].

Fikrimizcə, qlobal layihələrin gerçəkləşdirilməsi təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edir. Qloballaşan dünyanın geosiyasi mənzərəsinə təsir göstərən mühüm amillərdən biri də zəngin enerji resursları üzərində nəzarətin təmin olunması və neft-qaz ehtiyatlarının təhlükəsiz marşrutlarla dünya bazarlarına çatdırılmasıdır. Məhz bu bəndlərin qəbul edilməsi Xəzərdə təhlükəsizliyin təmin edilməsinin gerçək mexanizmini, hər şeydən əvvəl, yeni təhlükələrlə mübarizə imkanı yaradacaqdır, Eyni zamanda bu Xəzərdə qarşılıqlı əlaqənin hüquqi əsaslarını müəyyən edən ikinci vacib sənəddir. Hesab edirik ki, mövcud olan problemli məsələləri birgə həll edilməlidir. Müəyyən olunan mübahisəli məsələlər həll olunduqdan sonra digər mübahisəli mövzulara keçid yaranır. Bütün bunlar Xəzəryanı ölkələrin əməkdaşlığı sahəsində əldə olunmalıdır. Bu əməkdaşlığa heç bir qüvvə maneçilik törədə bilməz.

Bir həqiqət var ki, Xəzərdə sülh və sabitlik hakim olarsa, bu, 5 Xəzəryanı ölkənin əmin-amanlığı deməkdir, yox, əgər Xəzərdə təhlükəsizlik təmin edilməsə, bunun acı təsirini, ilk növbədə, Xəzəryanı ölkələr hiss edəcək. Xəzəryanı ölkələr Xəzərin təhlükəsizliyində son dərəcə məsuliyyətli olmalıdır. Tərəfdaş ölkələrlə birgə çəkilən neft və qaz kəmərləri Azərbaycana təchizat marşrutlarını şaxələndirməyə, iqtisadi və sosial tələbatlarımızı ödəməyə, iqtisadi və siyasi islahatları daha sürətlə aparmağa imkan yaradır. Həmçinin düşünürük ki, Xəzərdə təhlükəsizliyin təminatı Azərbaycan üçün, sözsüz ki, prioritet məsələlərdəndir. Ona görə, enerji resurslarının nəql edilməsilə əlaqədar boru kəmərlərinin mühafizəsi ölkəmiz üçün böyük önəm kəsb edir. Azərbaycan tərəfi Xəzərdə təhlükəsizliyin maksimal səviyyədə olmasında maraqlıdır.

Zənimizcə, Sammit zamanı Xəzəryanı ölkələrdən 3-ü, Azərbaycan, Rusiya və Qazaxıstan dənizin dibinin bölüşdürülməsi ilə bağlı razılığa gəliblər. Bu istiqamətdə 2001-2003-cü illərdə konkret addımlar atılıb. Türkmənistanın mövqeyində müəyyən dəyişikliklər hiss olunur. Türkmənistan Respublikasının keçmiş prezidenti S.Niyazov olduqca radi-

kal mövqe sərgiləyirdi və Azərbaycanın dəniz sərhədləri ilə bağlı iddiaları var idi, eyni zamanda orta xətt prinsipini qəbul etmək istəmirdi. İranın mövqeyi isə ondan ibarətdir ki, Xəzər dənizi 5 Xəzəryanı ölkə arasında bərabər bölünməlidir. İranın mövqeyində hələ ki, dəyişiklik hiss olunmur. Türkmənistan Respublikasının yeni prezidenti Q. Berdiməhəmmədov prinsip etibarilə orta xətt prinsipini qəbul edir. Amma hesab edir ki, yeni metodologiyalarla sərhədlər müəyynləşdirilməlidir. Bakı sammitindən sonra ümudlər var ki, Türkmənistan Respublikasının mövqeyi də dəniz sərhədləri ilə bağlı digər 3 postsovet ölkənin mövqelərinə yaxınlaşsın. Əgər 4 ölkənin mövqeləri üst-üstə düşərsə, tək qalan İran da mövqeyini dəyişməyə məcbur olar və yekun konvensiyanın imzalanmasına imkan verən dəyişikliklərin ortaya çıxması istisna deyil. Bu baxımdan bu sammitdə imzalanan sənədlər cox vacibdir.

Tərəflər birgə bəyannamə də qəbul ediblər. Sənəddə qeyd olunub ki, "Sülhün, sabitliyin, davamlı iqtisadi inkişafın, rifahın, mehriban qonşuluğun və Xəzər regionunda bərabərhüquqlu tərəfdaşlığın təmin edilməsi məqsədi ilə Xəzəryanı dövlətlər siyasi, iqtisadi, ticari, elmi-texniki, humanitar-mədəni sahələrdə, həmçinin ətraf mühitin mühafizəsi və başqa məsələlərdə əməkdaşlıq edəcəklər".

Bundan başqa, Xəzəryanı dövlətlər karbohidrogenlərin hasilatı və nəqli, sənaye, energetika, nəqliyyat, kənd təsərrüfatı istehsalı sahəsində əməkdaşlığı dərinləşdirmək niyyətindədirlər. Tərəflər Xəzər sammitinin, xarici işlər nazirlərinin konfranslarının müntəzəm olaraq davam etməsinin və Xəzərin hüquqi statusu haqqında Konvensiyanın işlənməsi üzrə işçi qrupun işinin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Sammit iştirakçıları sahil ölkələrinin Xəzər dənizinə və onun resurslarına suveren hüquqlarını təsdiq ediblər. Onlar Xəzərin hüquqi statusu haqqında Konvensiyanın işlənməsinin başa çatdırılması niyyətini ifadə ediblər. O, Xəzəryanı dövlətlərin Xəzər dənizində fəaliyyətini tənzimləyən baza sənədi olacaq.

Prezidentlərin birgə bəyanatının və Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişin imzalanmasının həm tarixi, həm də regional təhlükəsizlik baxımından əhəmiyyətlidir. Çünki Xəzərdə təhlükəsizliklə bağlı irəli sürülən təkliflər və əldə olunmuş razılaşmalar Xəzəryanı ölkələr üçün böyük əhəmiyyət kəsb edən məsələdir. Regionda sülh və təhlükəsizliyin qorunub saxlanılması, Xəzərin hərbisizləşdirilmiş su hövzəsinə çevrilməsi Azərbaycanın da, digər ölkələrin də maraqlarına uyğundur. Təhlükəsizlik sahəsində əməkdaşlığa dair Saziş isə Xəzərdə sülh və əmin-amanlıq yaratmaq ideyasına xidmət edir.

Zirvə Görüşü bir daha təsdiq etdi ki, Xəzər dənizi geniş və hüdudsuz əməkdaşlıq məkanıdır. Azərbaycanın dövlət başçısının bildirdiyi kimi, Xəzər sülh, əmin-amanlıq, sabitlik dənizidir. Eyni zamanda, Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədovun vurğuladığı kimi, bu gün Xəzər dənizi ölkələri ayırmır, əksinə birləşdirir. Bütün bu fikirlər bir daha bu reallığı ortaya qoyur: Xəzər regionu dövlətləri dünyadakı digər sahilyanı ölkələrlə müqayisədə ən səmimi, dost və etibarlı tərəfdaşdırlar, onlar arasında uzunmüddətli, davamlı və faydalı birgə güclü əməkdaşlıq təmasları mövcuddur [10].

Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi istiqamətində aparılan danışıqlar da son illər daha intensiv xarakter alıb və respublikamızın bu istiqamətdə səylərini gücləndirməsi öz mühüm nəticələrini göstərib. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Xəzərin sektorlara bölünməsinə dair sazişi gerçəkləşdirməklə dənizin hüquqi statusu ilə bağlı bütün tərəflərin iştirakını nəzərdə tutan yekun sənədin imzalanmasına

əsaslı zəmin yaradıb. Bu istiqamətdə aparılan işlər daha da sürətlənib və tərəflər sazişi imzalamağa çox yaxındırlar.

Rusiya Federasiyasını ovaxtkı Prezidenti Medvedevin qeyd etdiyi kimi, Bakı Zirvə Görüşü Xəzərin hüquqi statusu ilə bağlı irəliyə doğru yaxşı addımdır və tərəfləri sənədin imzalanmasına daha da yaxınlaşdırır. Qeyd edək ki, 5 sahilyanı ölkənin dövlət başçıları imzaladıqları Birgə Bəyannamədə Xəzərin hüquqi statusuna dair Konvensiya üzərində işi davam etdirmək niyyətlərini təsdiqləyiblər. Birgə Bəyannamədə sahilyanı ölkələr Xəzər dənizinə və onun resurslarına münasibətdə suveren hüquqlarını tanıdıqlarını bildirirlər [11].

Eyni zamanda, onlar Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya üzərində işi başa çatdırmaq niyyətlərini təsdiqləyiblər. Bu Konvensiya sahilyanı ölkələrin Xəzər dənizində fəaliyyətini tənzimləyəcək baza sənədi olacaq.

Diqqət yetirilməli məqamlardan biri də Bakı sammitində bütün ölkə prezidentlərinin iştirakı idi. Əvvəlki görüşlərdə prezidentlərin bəziləri iştirak etməsə də, Bakıda keçirilən Zirvə Görüşündə bütün dövlət başçıları iştirak etdilər. Bunu, ilk növbədə, Azərbaycanın yeni dünya nizamında artan önəmi, Azərbaycan Respublikasının Prezident İlham Əliyevin nüfuzunun göstəricisi, digər tərəfdən, dövlət başçılarının ciddi müzakirə apararaq bu məsələdə yekun qərara gəlməsinin zərurəti kimi dəyərləndirmək olar.

## Nəticə

Məqalədə qeyd olunan Prezidentlərin mövqeyi bir daha göstərir ki, məsələ Xəzəryanı ölkələrin dövlət başçılarının diqqət yetirdiyi ən mühüm məsələlərdən biridir. Xəzərin statusu tam həllini tapmalıdır və bu, ölkələrin maraqlarına uyğundur. Bakı Zirvə Görüşünü Xəzərin statusu ilə bağlı aparılan danışıqlarda ən əhəmiyyətli mərhələlərdən biri oldu. Burada əldə olunmuş razılaşmalar növbəti mərhələdə məsələlərin həll edilməsi üçün mühüm rol oynayacaqdır.

Beləliklə, mövcud reallıqlar və təşəbbüslər onu ehtiva edir ki, tərəflər Konvensiya üzərində işi bir il ərzində başa çatdırmaq niyyətindədir. Çox güman ki, gələn il sahilyanı ölkələrin dövlət başçılarının Rusiya Federasiyasında keçiriləcək Zirvə Görüşündə Xəzərin hüquqi statusuna dair Konvensiya imzalanacaq və uzun illərdir ki, həllini tapmayan bu məsələyə son nöqtə qoyulacaq.

## Ədəbiyyat


1. Xəlilov Q.R. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri. Bakı, "Elm və təhsil", 2009. - 390 s.
2. Алиев И. Каспийская нефть Азербайджана. - М.: Известия, 2003. -712 с.
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti. Dərslik, "Azərbaycan" nəşriyyatı, B., 2005. – 752 s.
4. Bakıda Xəzəryanı ölkə prezidentlərinin zirvə görüşü keçirildi. www.azertag.com
5. Sammitlər ardınca gələn sammit. "Ədalət" qəzeti, 20 noyabr 2010
6. Xəzər ətrafındakı etnik zolaq sahil dövlətlərini birləşdirən mühüm faktordur. Mərkəz qəzeti. 23 Noyabr 2010
7. Xəzəryanı ölkələrin dövlət başçılarının sammiti bir çox maraqlı məqamları ilə yadda qalıb (Təhlil). http://az.itv.az/analitik/16414.html
8. Xəzər beşliyi: ciddi anlaşılmazlıqlar qalır. "Ayna" qəzeti, 20 noyabr 2010

9. Xəzəri dostluq dənizinə çevirmək mümkün olacaqmı? http://www.azadliq.org/content/article/2223959.html
10. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. www.president.az
11. Dövlət başçılarının imzaladıqları Birgə Bəyannamə Xəzərin hüququ statusunun müəyyən olunmasında həlledici rol oynaya bilər http://www.yeniazerbaycan.com/news/13097.html

## III SUMMIT OF THE HEADS OF THE CASPIAN COUNTRIES

**S.I.Shukurov**

## SUMMARY

This article presents an analysis of the Third Summit of the heads of the Caspian countries, which was held in Baku on November 18, 2010. Ideas on the future of peace, security and cooperation in the region, suggested during this summit, are discussed.

## III САММИТ ГЛАВ ГОСУДАРСТВ ПРИКАСПИЙСКИХ СТРАН

**С.И.Шюкюров**

## РЕЗЮМЕ

В статье представлен анализ Третьего Саммита глав государств прикаспийских стран, который состоялся 18 ноября 2010 года в Баку. Обсуждены выдвинутые на нем идеи о будущем мира, безопасности и сотрудничества в регионе.

*Məqalə redaksiyaya 2 aprel 2019 tarixində daxil olmuş, 22 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

# D İ L Ç İ L İ K, F İ L O L O G İ Y A V Ə P E D A Q O J İ E L M L Ə R B Ö L M Ə S İ

# S E C T I O N O F L I N G U I S T I C S, P H I L O L O G Y A N D P E D A G O G Y

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 82.362.1

# XX ƏSRİN 80-90-CI İLLƏRİNDƏ ŞƏKİ ŞAİRLƏRİNİN YARADICILIĞINDA İCTİMAİ-SİYASİ MOTİVLƏR

**K.F.Adışirinov**
ADPU-nun Şəki filialı
Şəki, Lütfəli Abdullayev küçəsi 24
e-mail: kamil.adisirinov@mail.ru

***Açar sözlər:*** ictimai-siyasi lirika, şeir, Qarabağ, qoşma, qəzəl
***Keywords:*** socio-political lyrics, poetry, Karabakh, ghoshma, ghazal
***Ключевые слова:*** социально-политическая лирика, стихи, Карабах, гошма, газель

Значительный вклад в создание теоретических основ и концептуальных положений организации и развития системы последипломного педагогического образования внесли такие учёные, как В. Бондарь, И. Жерносек, М. Красовицкий, В. Маслов, В. Олейник, Н. Протасова, Т. Сущенко; научные основы организации учебно-воспитательного процесса в учебных заведениях изучали А. Алексюк, В. Бондарь, Ю. Васильев, С. Гончаренко, М. Каган, В. Мадзигон, В. Якунин; личностно-деятельностный и личностно-развивающий подходы к рассмотрению процесса обучения специалистов и андрагогический подход освещены в трудах М. Ноулз, П. Джарвиса, Р. Смита. В целом эти работы позволяют выявить специфические признаки обучения взрослых и пути совершенствования его организации.

## 3. Формулировка целей статьи

Целью данной статьи является изучение обстоятельств и содержательных приоритетов подготовки и переподготовки учителей начальной школы в системе последипломного педагогического образования в период 1917-1927 гг.

## 4. Изложение основного материала

Культурно-образовательное возрождение, начавшееся на этапе перестройки и продолжившееся уже в условиях достижения Украиной государственности, показало, что творческие и духовные силы украинского народа и его интеллектуальные ресурсы не иссякли, и сегодня мы являемся свидетелями процессов трансформации духовных ценностей и культурной политики независимого государства.

Развитие культуры на современном этапе функционирования Украины как свободного государства доказало, что только полноценная и самобытная национальная культура окончательно гарантирует историческое бытие этноса. Поэтому важной задачей национально-культурного возрождения и стало преодоление культурного колониализма Украины, в том числе от некоторых практик советского периода [5].

Для успешной реализации задач построения Новой украинской школы огромное значение имеет изучение традиций создания системы подготовки и повышения квалификации педагогов начальной школы, которые формируют общеобразовательные и мировоззренческие основы у подрастающего поколения.

В первые десятилетия Советской власти правительство Украины, как правило, не стремилось к созданию собственной, самобытной законодательной базы, а опиралось на нормативные акты СССР. Соответственно, в 20-30-х годах XX столетия Наркомат образования Украины ориентировался на решение задач, поставленных Наркоматом просвещения СССР.

Одним из важнейших заданий, стоящих перед сферой образования того времени, была подготовка учителей для новой советской школы. Если в 1922-1923 гг. в школах Украины было 46 000 учителей, то в 1925-1926 гг. их стало уже 52 000. Значительный рост количества учителей обуславливался введением во второй половине 20-х годов всеобуча. Если начальная школа в 1927 г. охватывала им до 65% детей школьного возраста, то в 1929 г. – уже 71%. Кроме того, активно внедрялась семилетняя трудовая школа, которая выступала основной моделью общеобразовательного учебного заведения [6].

При этом учительский корпус отличался значительной пестротой образовательного и возрастного состава, а также условиями осуществления педагогической деятельности. Так, только 26% педагогов начальной школы получили специально-педагогическое образование, в то время как остальные 74% получили только общее образование и не имели специально-педагогической подготовки [15, 75].

Если обратить внимание на возрастные категории педагогических работников того периода, их можно разделить на следующие основные группы: 31% от общего количества составляли работники моложе 25 лет; 56% – работники в возрасте от 26 до 40 лет (из них от 25 до 30 лет – 27,5%; от 30 до 40 лет – 28,5%); 13% педагогов были старше 40 лет [14, 55].

Рассматривая условия труда педагогов, можно отметить, что 82% от общего количества работали в сельской местности, 10% – в городах, а 3% – в фабрично-заводских посёлках. Таким образом, подавляющее большинство работников начальной школы составляли лица в возрасте 25-40 лет, не имеющие специальной педагогической подготовки и работающие в сельской местности.

Эти обстоятельства заставили органы управления образованием остро поставить вопрос подготовки и переподготовки учителей в системе повышения квалификации. Следовало найти оптимальную организационную основу построения подобной системы с учётом существовавших международных и национальных традиций с поправкой на специфические идеологические особенности советской школы.

Подготовка педагогических кадров с учётом зарубежного опыта являлась одним из неотложных заданий государственного значения и рассматривалась на наивысшем уровне. Так, в частности, планами Государственного научно-методологического комитета НКО УССР было предусмотрено «заново уточнить образовательную систему УССР в связи с изучением систем образования больших государств – Германии, Франции, Англии и Америки с целью совершенствования типов наших образовательных учреждений, особенно по линии профобразования, и их целевой установки» [7, с.140-141].

Одна из наиболее прогрессивных систем подготовки учителей в то время функционировала в США. Она предполагала, что подготовка учителя для начальной школы продолжалась не менее 12-14 лет общего образования и 2-х лет специально-педагогического. При этом состав квалифицированных педагогов начальной школы в Америке в то время был так же небольшим и составлял около 40% от всей численности педагогов; еще 55% имели только общее образование (12-летний период подготовки), а 5% – формальное образование в объёме начальной школы (8-летний период подготовки) [8, 68].

В Российской империи начала XX столетия учителя начальной школы должны были пройти 11-летнюю программу подготовки: 7 лет общего образования и 4 года педагогического техникума, что, в сравнении с американской системой подготовки, было в целом сопоставимо.

Как отмечал функционер Наркомата образования Украины С. Фридман, в первые годы работы советской школы дореволюционное образование для педагогических кадров не являлось ощутимым тормозом, а кадры с дореволюционным образованием неплохо справлялись со своей задачей и не отставали от кадров с послереволюционным образованием, «получивших это образование в непригодных учебных заведениях».

Главным недостатком учителей с дореволюционной подготовкой считалось отсутствие «систематической и углублённой общественно-политической подготовки» и излишний академизм, «построенный на основе разрыва между теорией и практикой» [12, 93].

Первые систематизированные мероприятия по массовому повышению квалификации советского учительского контингента были намечены III Всеукраинским совещанием работников образования в июне 1921 года. Они предусматривали организацию сети курсов переподготовки учителей (как кратковременных, так и длительных), проведение съездов, конференций и семинаров. Понятно, что в таких ус-

ловиях в квалифицированной подготовке учительства сохранялась ведущая роль высших трёхлетних педагогических курсов (1920-1924 гг.), а с 1924 года – педагогических техникумов и институтов народного образования (ИНО).

Центром работы по повышению квалификации учителей в республике с марта 1924 года стало Бюро по переподготовке работников образования при Главсоцзащиты НКО УССР [7, с.85]. Ведущими формами переподготовки стали: курсы, педагогические кружки, индивидуальное самообразование, конференции и съезды, обследования и экскурсии, практикумы, семинары, прикрепление к научно-исследовательским, педагогическим и другим заведениям и др. [10, с.102]

К делу переподготовки советского учительства привлекались всевозможные ячейки образовательной работы на губернском уровне: ИНО, опытные станции, губернские дома просвещения, губернские совпартшколы; на окружном уровне − педагогические курсы, окружные дома просвещения, районные школы, опытные школы; а также детские заведения (детгородки, детдома, опытные школы) и учебно-вспомогательные заведения – библиотеки, музеи, выставки и тому подобное [4, с.54-55]. С 1927 г. повышение квалификации учительства стало ведущим заданием заочных ИНО (Центрального в Харькове, в Днепропетровске и при НКО УССР).

Среди массовых форм работы с учителями наиболее популярными стали курсы. Их ведущей целью было повышение квалификации педагогических работников трудовой советской школы ускоренным способом, однако конкретные задания определялись на местах в соответствии с неотложными потребностями. Как свидетельствуют архивные данные, курсы были призваны удовлетворить потребность местного учительства в общепедагогических новейших знаниях, ознакомить с новыми формами и методами работы, помочь в приобретении личного опыта в их практическом вводе в школах сельскохозяйственного и промышленного уклона. В целом, как отмечал один из ведущих организаторов переподготовки учительства М. Зотин, ЦИНО и педкурсы должны быть первыми пропагандистами педагогических идей и навыков среди трудящихся, а их педагоги − в курсе всей новейшей педагогики и педагогической литературы [2, с.3].

Если проанализировать основные содержательные периоды формирования в первые послереволюционные годы системы переподготовки советских учителей (безотносительно их организационных форм), можно выделить три следующих этапа:

**1. 1918-1922 гг.: может быть охарактеризован как период общеполитической переподготовки учительства**, когда всё внимание правящей партии, органов народного образования и Союза работников образования было, главным образом, сосредоточено вокруг задач «идеологического завоевания учительства и вооружения его знаниями и умениями разбираться в характере Октябрьской революции и практических задачах, вытекающих из его сути».

**2. 1922-1926 гг.: может быть охарактеризован как этап педагогической переподготовки учителей,** когда главное внимание органов образования концентрировалось на заданиях популяризации и разъяснения сути и значения новых учебных программ и производных от них задач практической работы школы.

**3. 1926-1930 гг.: может быть охарактеризован как этап вооружения учителей общеобразовательными, педагогическими знаниями,** нужными для грамотной постановки школьной работы, причём особенно характерным для этого

этапа является обеспечение педагогических работников методическими умениями и знаниями, повышением педагогического мастерства.

Как отмечает С. Фридман: «Работа первого периода не отличалась большим совершенством и высоким качеством. Среди педагогических работников не проводилась углублённая и систематическая общественно-политическая кампания, которая требовалась для того, чтобы вооружить педагогов необходимыми общественно-политическими знаниями и умениями; да она и не могла вестись в эти годы по-другому. Если рассматривать второй этап работы, то он проходил уже в более благоприятной обстановке, так как наступил конец гражданской войны и улучшение материально-хозяйственного положения страны, но в силу целого ряда обстоятельств эта работа также не могла дать качественных результатов, которые требовались, чтобы работа этого периода была произведена с достаточной глубиной и основательностью.

Благодаря наличию опыта предыдущих лет, третий этап характеризуется улучшением качества руководства, повышением квалификации педагогических кадров, созданием более совершенных форм работы. Именно на этом этапе можно увидеть значительно большие результаты, чем в предыдущих, причём результативность этого этапа в значительной степени обязана предыдущим двум. Прежде всего усиливается внимание к самообразованию. Систему самообразования обеспечивают программы, приспособленные к нуждам и запросам работы начальной школы по общественно-политическим, естественно-техническим и педагогическим дисциплинам».

Осуществлённый анализ подходов к периодизации становления и развития системы подготовки и переподготовки учителей начальной школы в Украине в 20-х годах XX столетия не исчерпывает всех аспектов исследуемой проблемы и свидетельствует о необходимости дальнейшего изучения и обобщения опыта развития системы отечественного образования взрослых. Также очевидным является то, что предложенная периодизация, хотя и характеризуется определённой условностью, может лечь в основу дальнейших исследований процесса становления и развития системы образования взрослых в украинском образовательном пространстве.

## 5. Выводы

Одной из важнейших задач сферы образования Украины в 20-х годах XX столетия была подготовка учителей для новой советской школы. Если в 1922-1923 гг. в школах Украины было 46 000 учителей, то в 1925-1926 гг. их стало уже 52 000. Значительный рост количества учителей обуславливался введением во второй половине 20-х годов всеобуча.

Подавляющее большинство работников начальной школы составляли лица в возрасте 25-40 лет, не имевшие специальной педагогической подготовки и работавшие в сельской местности. Эти обстоятельства заставили органы управления образованием остро поставить вопрос о подготовке и переподготовке учителей в системе повышения квалификации.

Первые систематизированные мероприятия по массовому повышению квалификации советского учительства были намечены III Всеукраинским совещанием работников образования в июне 1921 года. Они предусматривали организацию сети

курсов переподготовки учителей (как кратковременных, так и длительных), проведение съездов, конференций и семинаров.

Анализ основных содержательных периодов формирования в первые послереволюционные годы системы переподготовки советских учителей (безотносительно их организационных форм) позволяет выделить три следующих этапа: 1918-1922 гг. – период общеполитической переподготовки учительства; 1922-1926 гг. – этап педагогической переподготовки учителей; 1926-1930 гг. – этап обеспечения учителей общеобразовательными, педагогическими знаниями.

Осуществлённый анализ подходов к периодизации становления и развития системы подготовки и переподготовки учителей начальной школы в Украине в 20-х годах XX столетия не исчерпывает всех аспектов исследуемой проблемы и свидетельствует о необходимости дальнейшего изучения и обобщения опыта развития системы отечественного образования взрослых.

**Литература**

1. Змеев С. И., *Основы андрагогики*. Москва, 1999

2. Зотин М. Институты народного образования и педагогические курсы как центры переподготовки учительства / М. Зотин // Путь просвещения. 1924, №7, с.1-8

3. Зязюн І. А. *Філософія неперервної освіти. Система неперервної освіти: здобутки, пошуки, проблеми.* Чернівці, 1996

4. Кодекс законов о народном просвещении в УССР. Харьков: Издание Народного комиссариата просвещения УСРР, 1922, 76 с.

5. Кремень В. Г. *Вища освіта в Україні.* 2005, Київ

6. Крип'якевич І. П. *Історія України*. 2001, Львів

7. Кудоковцев І. Робота Державного Науково-Методичного Комітету за 1926-1927 академічний рік / І. Кудоковцев // Шлях освіти. 1927, № 11, с. 138-144

8. Маслова В. В. *Основы андрагогики. Терминологический словарь-справочник.* Мариуполь, 2004

9. Ничкало Н. Г. *Неперервна професійна освіта як філософська та педагогічна категорія,* 2001, с. 9-22

10. Порадник до перепідготовки робітників освіти / за ред. Є.А.Равича-Щерби. Х.: Червоний шлях, 1924

11. Професійний розвиток педагогічних працівників: практична андрагогіка, ред. В. І. Пуцова, Л. Я. Набоки. Київ, 2007

12. Романенко М. І. *Методологічні зміни у післядипломній педагогічній освіті України в контексті соціально-економічних та освітянських реформ.* 2002, с. 3-7

13. Синенко С. І. *Розвиток післядипломної педагогічної освіти в країнах Західної Європи (Англія, Франція, Німеччина).* Автореф. дис. канд. пед. наук: 13.00.04 / Центральний ін-т післядипломної педагогічної освіти АПН, Київ, 2002

14. Фридман С. М., *Народное Просвещение*. Москва, 1929

15. Щенников С. А. *Открытое образование.* Москва, 2002

16. Legrand P. Introduction a l´education permanente. Paris, 1970

# XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ UKRAYNADA İBTİDAİ MƏKTƏB PEDAQOQLARININ HAZIRLANMASI VƏ İXTİSASLARININ ARTIRILMASI MƏSƏLƏLƏRİ

**İ.B.Friqa**

## XÜLASƏ

Məqalə Sovet hakimiyətinin ilk onilliyində Ukraynanın ibtidai təhsil məktəblərində pedaqoji işçilərin hazırlığı və ixtisaslarının artırılması məsələlərinə həsr olunmuşdur. Müəllimlərin hazırlığı və yenidən hazırlığı sisteminin formalaşması və bu fəaliyyətin məzmunu üzrə zəruri prioritetlərin motivasiyası araşdırılır. O dövrün diplomdan sonrakı təhsili sisteminin əsas elementləri müəyyənləşdirilir.

# PROBLEMS OF TRAINING AND IMPROVING THE QUALIFICATION OF TEACHERS IN UKRAINIAN PRIMARY SCHOOLS IN THE 20'S OF THE 20th CENTURY

**I.B.Friga**

## SUMMARY

This article covers the issues of training and improving the qualification of teachers in Ukrainian primary schools in the first decade of Soviet power. Motives for the formation of a system for training and retraining teachers and priorities for this activities are discussed. Basic elements of postgraduate education system of those times are identified.

*Məqalə redaksiyaya 5 fevral 2019 tarixində daxil olmuş, 16 mart 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 57:37.016

# BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRƏ HƏYATİ BACARIQLARIN AŞILANMASI İMKANLARI

**E.F.Səfərova, N.N.Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Üzeyir Hacıbeyli kücesi 68
e-mail: seferovaelnure@mail.ru

***Açar sözlər:*** biologiya, bacarıq, şagird, təhsil
***Keywords:*** biology, capacity, pupil, education
***Ключевые слова:*** биология, умение, ученик, образование

## GİRİŞ

Hər bir insan cəmiyyətdə yaşamaq, müəyyən fəaliyyət növü ilə məşğul olmaq üçün müvafiq bacarıqlara malik olmalıdır. Həmin həyati bacarıqlara yiyələnməyən şəxslər həyatda öz mövqelərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Hər kəsə yaşayıb yaratmaq üçün zəruri olan bacarıqları "həyati bacarıqlar" adlandırırlar. Belə bacarıqlar çox və müxtəlif olduğuna görə onları bir sistemə salmaq, təsnifləşdirmək lazım gəlir.

«Bacarıq» məfhumu geniş bir məfhumdur. Ona görə də şagirdlərə aşılanacaq bacarıqları bir neçə qrupa ayırmaq lazım gəlir. Buraya təlimlə bağlı olan bacarıqlar: oxumaq, yazmaq, dinləmək, izah etmək, müqayisə, müşahidə aparmaq, təcrübə aparmaq, obyekti tapmaq, şəklini çəkmək, plan tutmaq, sistemləşdirmək, ümumi nəticə çıxarmaq, mülahizə yürütmək və s. daxildir. Belə bacarıqlar təlimlə bağlı olduğundan, təlim bacarıqlarına aid edilirlər. Ona görə də bu bacarıqların əksəriyyəti uşağın təlimə başladığı, məktəbə getdiyi gündən başlayaraq tədricən əldə edilir.

İbtidai siniflərdən başlayaraq şagirdlərə təlim bacarıqları ilə yanaşı həyat bacarıqları da aşılanır. Yuxarı siniflərdə isə həyati bacarıqlar daha da genişləndirilir və vərdişlərə çevrilir. Ümumtəhsil məktəb fənlərinin məzmunu həyati bacarıqların formalaşdırılmasına geniş imkanlar açır.

Təlim bacarıqlarını ümumi və xüsusi olmaqla iki yerə ayırmaq olar. Ümumi bacarıqlara bütün fənlərin və ya bir çox fənlərin tədrisində əldə olunan bacarıqlar daxildir. Xüsusi bacarıqlara isə yalnız bir fənnin tədrisi xüsusiyyətləri ilə bağlı olan bacarıqlar daxil edilir.

Həyati bacarıqları şərti olaraq 4 qrupa: şagirdin fərdi, fərdlərarası, sosial və sağlamlıq inkişafı üzrə bölmüşlər. Fikrimizcə, bacarıqları başqa formada da təsnif etmək olar. Belə ki, şagirdlərə məişət, ünsiyyət, hüquqi, iqtisadi, incəsənət və başqa istiqamətlər üzrə həyati bacarıqlar aşılanması mümkündür.

Biologiya fənnindən şagird bir sıra məişət bacarıqları əldə edir. Bitki və heyvanlara qulluq edilməsi, onların evdə və ya həyətdə saxlanılması, yaralanarsa, tibbi yardım göstərilməsi və s. bacarıqlar bunlara aid edilə bilər. Buraya bitkinin, toxumun cücərdilməsi, cücərtiyə qulluq, bəzək bitkilərinin becərilməsi, çoxaldılması, dərilməsi, dərman bitkilərinin toplanması, istifadə edilməsi, emal edilməsi, dərman üçün hazırlanması, dəmlənməsi, süzülməsi, qaynadılması, miqdarının təyin edilməsi, profilaktik

və müalicə məqsədilə istifadəsi kimi bacarıqları aid etmək olar.

Fənnin tədrisində şagirdlər bir sıra ünsiyyət bacarıqları əldə edirlər. Belə ki, bitki və heyvanlarla normal rəftar, insanlarla müvafiq normalara uyğun ünsiyyət, nitq etiketlərindən istifadə, iş birliyi qurmaq kimi bacarıqların aşılanması mümkündür.

İqtisadi bacarıqlara gəldikdə onlara bitki və heyvanların iqtisadi baxımdan qiymətləndirilməsi, qida normalarının gözlənilməsi, qidaların keyfiyyət və yararlığının təyin edilməsi, ekoloji təmiz qidalardan istifadə, məhsuldar bitki, heyvan sort və cinslərinin yetişdirilməsi kimi bacarıqlar aiddir.

Biologiya fənninin tədrisi ilə bağlı hüquqi bacarıqlara bitkilərin və heyvanların mühafizəsi, cansız təbiətin mühafizəsi qanunlarına riayət edilməsi, qadağalara əməl olunması, cərimələrin tələb olunması və ya ödənilməsi, təbiət qoruqlarında qanunlara uyğun davranmaq, qidaların qəbulunda müvafiq qadağa və qanunların gözlənilməsi, QİÇS və digər cinsi yolla keçən yoluxucu xəstəliklərlə, narkomaniya və zorakılıqla mübarizə qanunlarına əməl etmək və s daxil edilə bilər.

Biologiyanın tədrisində şagirdlər bir sıra incəsənət bacarıqları əldə edirlər. Belə ki, bitki və heyvanların müxtəlif orqanlarından fantastik eksponatların hazırlanması, bijuteriyaların işlənməsi, şəkillərin çəkilməsi, heykəllərin qurulması kimi incəsənət bacarıqları buraya daxildir. Belə bacarıqların hər birinin biologiyanın tədrisində şagirdlərə aşılanması mümkündür. Bacarıqlar çox sayda və müxtəlif olduğundan onları sistemə salmaq lazım gəlir. Onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

## Məişətlə bağlı bacarıqlar

**1.** Bitkilərə qulluq və onlardan istifadəyə dair bacarıqlara bitki toxumunun cücərdilməsi, səməni hazırlanması, cücərtiyə qulluq edilməsi, bəzək bitkilərinin əkilməsi və becərilməsi, çoxaldılması, gül və çiçəklərin dərilməsi, buket hazırlanması, dərman bitkilərinin toplanması, saxlanılması, emal edilməsi, dərmanın hazırlanması, dəmləmə, süzmə, müqdarın müəyyənləşdirilməsi, profilaktik və ya müalicə məqsədilə istifadəsi, zəhərli və zərərli bitkilərdən qorunması, bitkilərdən müxtəlif xörəklərin hazırlanması, meyvə və tərəvəzin toplanması, saxlanması, istifadəsi və s.

**2.** Heyvanlara qulluq, onların qorunması və məhsullarından istifadəyə dair bacarıqlara ev heyvanlarına qulluq edilməsi, heyvan məhsullarından istifadə edilməsi, onların bişirilməsi, qurudulması, müxtəlif məhsulların (konserv, qatıq, pendir, kəsmik, kolbasa, qurutma və s.) emal edilməsi, onların saxlanması, bəslənməsi, evdə müxtəlif heyvanların saxlanması, onların təmizlik işləri, heyvanlarla yoluxan xəstəliklərə qarşı mübarizə aparılması, yaralı heyvanlara tibbi yardım göstərilməsi, heyvanlarla mülayim rəftar edilməsi, zərərlilərlə mübarizə aparılması, yırtıcı heyvanlardan qorunması və s. aid edilir.

**3.** İnsanların anatomiya, fiziologiyası və gigiyenasına dair bacarıqlara isə insanlarla xoş rəftar edilməsi, müxtəlif zədələnmələrdə: oynaq çıxıqları, sümük sınıqları, əzilmələrdə, müxtəlif ürək və sinir tutmalarında, bədbəxt hadisələrdə, yanıqlar, donvurma, suda boğulma, günvurmada, qanaxmalarda ilk tibbi yardım göstərilməsi, insanların dərdlərinə şərik olması, donor olması aiddir. Profilaktik tədbirlərdə iştirak edilməsi, xəstələndikdə müalicə olunmaq, zərərli vərdişlərdən: siqaret çəkmək, spirtli içki qəbulu, narkotik maddələrdən istifadədən uzaq olunması və s. daxildir. Virus və irsi xəstəliklərdən qorunulması, ətraf mühitin təmizliyini riayət olunması, zibilin lazımı yerlərə atılması, sağlam ailə qurmağa hazır olma və s. də bu qrup bacarıqlara aid edilir.

## Ünsiyyət bacarıqları

- Bitkilərlə normal rəftar edilməsi, onları əzməmək, qırmamaq, yandırmamaq, mühafizə işlərinə qoşulmaq və s.

- Heyvanlarla mülayim rəftar edilməsi, yalnız özünü müdafiə zamanı onları məhv edilməsi, heyvanın təlimlə yorulmasına yol verilməməsi, incidilməsinə, əziyyət verməməsi, hirsləndirilməməsi, qorxudulmaması, qorunması, mühafizə edilməsi, əlverişli mühit şəraiti yaradılması və s.

- İnsanlarla münaqişəsiz münasibətdə olunması, ünsiyyətdə nitq etiketlərindən istifadə edilməsi, böyüklərə hörmət, uşaqlara qulluq göstərilməsi, profilaktik tədbirlərə uşaqların cəlb edilməsi, əsəbi şəraitin aradan qaldırılması, təhqirə yol verilməməsi və s.

- İnsanlarla irqinə, dininə, cinsinə və digər xüsusiyyətlərinə görə fərq qoymadan hörmət və əməkdaşlıq edilməsi, lazım gəldikdə onlardan yardım istənilməsi və ya yardım edilməsi, iş birliyinin qurulması, birgə fəaliyyət göstərilməsi və s.

## İqtisadi bacarıqlar

- Bitkilərdən məhsulun toplanması, məhsuldarlığının hesablanması, xörəklərin hazırlanması, onun iqtisadi faydasının hesablanması, bitki məhsullarının iqtisadi faydasının müəyyən edilməsi, gəlir, çıxar, maya dəyərinin çıxarılması, faydalılıq əmsalının hesablanması, qidalılıq keyfiyyətinin saxlanması, zərərli və zəhərli bitkilərin iqtisadi baxımdan ziyanının hesablanması, qənaət edilməsi, yararlılığının müəyyən edilməsi və s.

- Heyvanların saxlanmasında onların yem normalarının müəyyənləşdirilməsi, iqtisadi əhəmiyyətinin əsaslandırılması, heyvanın məhsuldarlığının hesablanması, heyvan məhsulların yararlılıq keyfiyyətinin təyin edilməsi, onlardan xörək hazırladıqda keyfiyyətinin saxlanması, normalara uyğun istifadə edilməsi, israfçılığa yol verilməməsi və s.

- Qida normalarının təyin edilməsi, onlara əməl olunması, qidalanmada bitki və heyvan məhsulları ilə yoluxan xəstəliklərdən qorunması, iqtisadi baxımdan faydalı və ziyanlı məhsulların müəyyənləşdirilməsi, fastfud yeməklərindən, geni dəyişdirilmiş bitki və heyvan məhsullarını tanıması, onlardan faydasına görə istifadə edilməsi və s.

- Ekoloji təmiz qidaların müəyyənləşdirilməsi, bitki və heyvanların iqtisadi baxımdan məhsuldar sort və cinslərinin əldə edilməsi, hibrid formalarından istifadə olunması, xəstəlik törədən qidaların qəbul edilməməsi, sağlamlaşdırıcı təbii qidaların qida rasionuna daxil edilməsi və s.

## Hüquqi bacarıqlar

- Bitkilərlə davranışda onların mühafizəsinin hüquq qaydalarına əməl edilməsi, «Qırmızı kitab»a düşmüş formaları toplanılmaması, onların hüquqi cəhətdən qorunması, meşələrin hüquqi baxımdan qorunmasına əməl edilməsi, ağacların qorunması ilə bağlı cərimələrin tələb olunması və ya ödənilməsi, qoruqlardan bitkilərin toplanmaması və s.

- Heyvanlarla davranışda onların hüquqi qorunmasına əməl edilməsi, ovlanması qadağan olunmuş, məhdudlaşdırılmış və «Qırmızı kitab»a düşmüş heyvanların tanınması, qorunması, cərimələrin tələb olunması və ya ödənilməsi, heyvanları bilərəkdən cəzalandırılmaması, ac saxlanmaması, qorunqlarda heyvanları ovlanmaması və s.

- Qadağan olunmuş, mənşəyi məlum olmayan bitki və heyvan mənşəli qidaların qə-

bul edilməməsi, insanların hüquqlarına hörmətlə yanaşılması, öz hüquqlarını qorumaqla vəzifələrinin həyata keçirilməsi, insanların bitki və heyvanların hüquq pozğunluğuna yol verilməməsi, onlara hörmətlə yanaşılması və s.

- QİÇS və digər cinsi yolla keçən yoluxucu xəstəliklərlə mübarizə qanununa əməl edilməsi, ölkənin qanunları əsasında ailə qurulmasına riayət olunması, hər cür zorakılığa qarşı mübarizə aparılması, xəstələrlə qanunlarımıza uyğun rəftar edilməsi və s.

## İncəsənət bacarıqları

- Bitkilərdən müxtəlif fantastik formaların işlənməsi, onların yarpaq, gövdə, çiçək və toxumlarından eksponatların hazırlanması, onların şəkillərinin çəkilməsi, süni bitkilərin və ya onların orqanlarının hazırlanması və s.
- Ölmüş heyvanların müxtəlif orqanlarından (buynuz, pulcuq, çanaq, dəri, lələk və s.) müxtəlif eksponatların, suvenirlərin hazırlanması, müqəvva və kolleksiyaların işlənməsi, rəsminin çəkilməsi, müqəvvasının, heykəlinin düzəldilməsi və s.
- İnsan şəkillərinin çəkilməsi, incəsənət sahəsində, idman, rəqs, müğənnilik, rəssamlıq, heykəltaraşlıq, memarlıq, zərgərlik və digər bacarıqların inkişaf etdirilməsi, üzə çıxarılması bu işlərdə canlı təbiətə ziyan vurulmaması, israfçılığa yol verilməməsi və s.

## Etik bacarıqlar

1. Bitkilərlə davranış bacarıqlarına aşağıdakılar aiddir:
- Bitkilərə qulluq edilməsi, onların qorunması, artırılması;
- Məhv olmuş bitkilərin toplanması, qurudulması, istifadə edilməsi;
- Bitki mənşəli qidalardan istifadə olunması;
- Bəzək bitkilərinin toplanması, bitki məhsullarının konservləşdirilməsi;
- Bitkilərin zərərvericiləri ilə mübarizə aparılması;

2. Heyvanlarla davranış qaydaları:
- Heyvanların qorunması, onlara qulluq göstərilməsi;
- Heyvan məhsullarından xörək hazırlanması, onlardan istifadə edilməsi;
- Zərərli və zəhərli heyvanların zərərindən qorunması;
- Heyvan məhsullarından xəstəliklərin profilaktika və müalicəsində istifadə edilməsi.
- Zəhərli və yeməli göbələklərin tanınması, onlarla zəhərləndikdə yardım göstərilməsi.

## Tibbi-gigiyenik bacarıqlar

- Şəxsi gigiyenaya əməl edilməsi;
- Təhlükəli yerlərin, təhlükə mənbələrinin müəyyən edilməsi, kənarda olması;
- Xəstəliklərin səbəblərini, əlamətlərini müəyyən edilməsi, onların fərqləndirilməsi;
- İnfeksion xəstəliklərin törədiciləri və yoluxdurucuları ilə mübarizə aparılması;
- Zərərli vərdişlərdən uzaq olması;
- Zədələndikdə, zəhərləndikdə ilk tibbi yardım göstərilməsi;
- Xəstələrə qulluq edilməsi, xəstə olduqda sağlamlarla təmasın azaldılması;
- Dərman preparatlarından yerində, həkim məsləhətlərinə uyğun istifadə edilməsi;

- Qidaların yararlılığının təyin edilməsi;
- Partada, stulda, kresloda düzgün oturulması;
- İKT-dən qaydalara, sağlamlığa zərər vurmadan istifadə edilməsi;
- Lazım gəldikdə həkimə, polisə, fövqəladə hallar təşkilatına, yanğınsöndürənlərə zəng edilməsi, onlara düzgün məlumat verilməsi;
- Fiziki tərbiyə ilə, idmanla müntəzəm məşğul olunması;
- Stress və digər ekstremal vəziyyətlərdən çəkilməsi və belə hallarda yardım göstərilməsi;
- Günəşdən, sudan, havadan, qumdan, digər təbii vasitələrdən normada istifadə edilməsi;
- Canlılardan sağlamlıq və rahatlıq üçün istifadə edilməsi;
- Mikroorqanizmlərin faydalı fəaliyyətlərindən yararlanması və s.

Göstərilən bu bacarıqların qazanılması üçün müəyyən qədər bioloji biliklərin əldə edilməsi zərurəti yaranır. Ona görə də biologiyanın tədrisində şagirdlərə müvafiq biliklərin verilməsi ilə birlikdə həyat bacarıqlarının aşılanması da aktuallıq kəsb edir.

**Ədəbiyyat**

1. Hacıyeva H.M. və b. Həyati bacarıqlara əsaslanan təhsil (I-IV siniflər). Bakı, Mütərcim, 2006
2. Həyati bacarıqlara əsaslanan təhsil üzrə milli konsepsiya. Bakı, 2010
3. Hacıyeva H.M. və b. Həyat bilgisinin tədrisi metodikası. Bakı, 2014
4. Hüseynov Ə.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015
5. Hacıyeva H.M. və b. Şagirdlərə biologiya fənn kurikulumu əsasında tibbi-gigiyenik biliklərin öyrədilməsi. Bakı, 2017

## OPPORTUNITIES FOR INSTILLING LIFE SKILLS TO PUPILS IN BIOLOGY CLASSES

**E.F.Safarova, N.N.Aliyeva**

**SUMMARY**

This work deals with the instilling of life skills to pupils in household, communicational, legal, economic, art and other directions in classes of biology.

## ВОЗМОЖНОСТИ ПРИВИВАНИЯ ЖИЗНЕННЫХ НАВЫКОВ УЧЕНИКАМ ПРИ ПРЕПОДАВАНИИ БИОЛОГИИ

**Э.Ф.Сафарова, Н.Н.Алиева**

**РЕЗЮМЕ**

Статья посвящена проблемам прививания жизненных навыков учащимся при преподавании биологии в бытовом направлении, в направлении общения, в правовом, экономическом направлениях, в направлении искусства и др.

*Məqalə redaksiyaya 16 mart 2019 tarixində daxil olmuş, 2 aprel 2019 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2019 - № 51

UOT № 37

# TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASI ŞƏRAİTİNDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜTƏHSİLİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**A.T.Mirzəyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
e-mail: aynureezizova1985@gmail.com

***Açar sözlər:*** özünütəhsil, təhsilin informasiyalaşdırılması, ömür boyu təhsil
***Keywords:*** self-education, informatization of education, lifelong education
***Ключевые слова:*** самообразование, информатизация образования, пожизненное образование

Ölkəmizdə başqa sahələrdə olduğu kimi təhsil sahəsində də sürətli və fasiləsiz inkişaf prosesi getməkdədir. Bu inkişafla ayaqlaşmaq üçün öyrənmənin ara vermədən davam etdirilməsi əsas şərtlərdən biridir.

Həyat boyu öyrənmə - özünütəhsil bütün qabaqcıl ölkələrin diqqət mərkəzində olan pedaqoji problemlərdəndir. Məhz bunun üçün böyük peyğəmbərimizin "beşikdən məzara qədər öyrənmə" ifadəsi Avropa ölkələrində, xüsusilə Avropa Birliyində xilasedici funksiya daşımaqdadır.

1970-ci illərdə ortaya çıxan "ömür boyu təhsil" anlayışı 1980-ci illərdə sənayeləşmə ilə əlaqədar ortaya çıxan iqtisadi böhran səbəbi ilə arxa plana keçdi. 1990-cı illərdə ömür boyu təhsil anlayışı təkrar ortaya çıxdı və siyasi, iqtisadi, sosial, mədəni sahədə öz əhəmiyyətini yenidən bərpa etdi. 2000-ci ildə isə bu anlayış daha da vacib məsələ olaraq ortaya çıxdı.

Ömür boyu öyrənmənin bilmək üçün öyrənmək (*learning to know*), etmək üçün öyrənmək (*learning to do*), olmaq üçün öyrənmək (*learning to be*), birlikdə yaşamaq üçün öyrənmək (*learning to live together*) kimi dörd başlıca məqsədi vardır. Ömür boyu öyrənmənin ən başlıca məqsədi isə öyrənməyi öyənmək, yəni özünütəhsildir [1, 321-323].

**Özünütəhsil** - insanın intellektual inkişafının ardıcıllığını təmin edən, onun öyrənmək tələbatını ödəməyə imkan verən fasiləsiz təhsilalma prosesidir.

Ali məktəb təcrübəsi göstərir ki, ömür boyu öyrənmək və öyrətmək məsələsində həmişə müvəffəqiyyətli nəticələr alınmır. Əksər tələbələr ali məktəbə daxil olan gündən az və ya çox dərəcədə təlim tapşırıqlarını öyrənməyə səy göstərir, az da olsa müxtəlif bilik mənbələri üzərində işləyir, onu mənimsəməyə çalışır. Lakin bu qənaətbəxş deyil, ona görə də bu məsələ üzərində ciddi düşünmək, tələbələri özünütəhsil fəaliyyətinə hazırlamaq lazımdır. Bu isə özünütəhsil anlayışı, onun məzmun-mahiyyəti, məqsəd və vəzifələri, metodları və s. məsələlər haqqında məlumatlı olmağı tələb edir [2, 10].

Hər bir tələbənin öyrənmə şəkli, metodu fərqlidir. Hər bir şəxs görərək, eşidərək və ya tətbiq edərək öyrənmə yollarından birinə və ya bir neçəsinə sahibdir. Vacib olan öyrəndiyimiz zaman hansı duyğu orqanımızın daha üstün olduğunu müəyyən etməkdir. Görərək, eşidərək, toxunaraq öyrənmədə diqqət edilməsi vacib olan nüanslar vardır ki, bunları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**1. Görərək öyrənmək:**
- zehində rəsimləri canlandırmaq;
- qeydlər aparmaq, ipucu sözlərdən istifadə etmək;
- sxem və qrafiklər istifadə etmək;
- dəftər, kağızdan istifadə etmək.

**2. Eşidərək öyrənmək:**
- müəllimi rahat eşidə biləcək yerlərdə oturmaq;
- yüksək səslə oxuyaraq çalışmaq;
- məlumatları yoldaşlarla müzakirə etmək;
- iştirak edilməyən dərsin səs qeydini dinləmək.

**3. Toxunaraq öyrənmək:**
- otağınızda addımlayaraq çalışmaq;
- mütəmadi təkrarlamağa yer vermək;
- yazaraq çalışmaq;
- qeydlər hazırlayaraq çalışmaq.

Apardığımız tədqiqat işinin nəticələri və təhlillər göstərir ki, tələbələrə verilən sualların 90%-nin cavabı əzbərlənən məlumatlardır. Tələbələr kifayət qədər düşünməyə meyilli olmadıqları üçün əzbərləməyə yönəlmişlər. İzah edilən mövzu nə qədər diqqət çəkici olursa olsun, tələbələr nə qədər diqqətlə dinləyirlərsə dinləsinlər və müəllim mövzunu nə qədər aydın və yavaş izah edirsə etsin dinləyərək öyrənmə effektli nəticə verməməkdədir.

Bu fikrimizi aşağıdakı cədvəllə daha ətraflı izah edək.

| **Yaddan çıxır** | **Xatırlanır** | **Anlaşılır** | **Məlumat əldə edilir, öyrənmə bacarıqları inkişaf edir** | **Məlumatlar daimi yaddaşa həkk olunur** |
|---|---|---|---|---|
| Məlumat yalnız eşidildiyi zaman | Məlumat yalnız eşidildiyi və görüldüyü zaman | Məlumat eşidildiyi, görüldüyü, onunla bağlı sual verildiyi və müzakirə edildiyi zaman | Məlumat eşidildiyi, görüldüyü, müzakirə edildiyi və öyrənilənlərin tətbiq edildiyi zaman | Öyrənilənlər başqasına izah edildiyi zaman |

Öyrənilən mühitin daha maraqlı və canlı edilməsində istifadə edilən görmək və eşitməklə bağlı vasitələrin öyrənmə üzərindəki təsirinin tədqiq edilməsi, uzun illərdən bu yana tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Məsələn, 1937-ci ildə Hoban Et Al, görmək və eşitməklə bağlı öyrənmə üzərində tədqiqatlar aparmışdır. Onun fikrincə:

- öyrənmə zamanı duyğu orqanlarımızdan nə qədər çox istifadə edəriksə, öyrənmə də bir o qədər daha keyfiyyətli və qalıcı olar;
- ən keyfiyyətli öyrənmək özünütəhsildir;
- ən keyfiyyətli öyrənmək konkretdən- mücərrədə və sadədən- mürəkkəbə doğru gedilərdir.

Özünütəhsili daha keyfiyyətli həyata keçirtmək üçün tələbələr aşağıdakı nüanslara da diqqət etməlidir:

1. Kitab cümlələrini öz kəlimələri ilə yenidən səsləndirmək;
2. Nümunələr gətirmək;

3. Oxunulan məlumatları başqa məlumatlarla müqayisə etmək;
4. Öyrənilən materiallarla digər öyrəndikləri arasında əlaqə yarada bilmək;
5. Məlumatı müxtəlif şəkillərdə istifadə edə bilmək;
6. Bəzi nəticələri əvvəldən müəyyən edə bilmək [3].

Apardığımız müşahidələr göstərir ki, özünütəhsili bacaran tələbələr aşağıdakı üstünlüklərə sahib olur:

- nəyi, nə üçün, necə və harada öyrənməyin yollarını bilir;
- beynin, yaddaşın necə işlədiyini izləyə bilir;
- özünün necə öyrənə biləcəyini və özünə aid öyrənmə tipini müəyyən edir;
- beyninin gücündən necə istifadə edəcəyini bilir;
- uzunmüddətli öyrənməyi bacarır;
- öyrənərkən əylənir;
- bildiklərinin müəllimi, bilmədiklərinin şagirdi olmağı bacarır;
- öyrənmənin necə həyata keçiriləcəyini bilir;
- daha yaxşı öyrənmək üçün nələr edə biləcəyini aydınlaşdırır;
- daxili intizamını necə inkişaf etdirə biləcəyini bilir;
- hansı dərsə necə hazırlaşa biləcəyini özü üçün aydınlaşdırır;
- vaxtdan necə istifadə edəcəyini bilir;
- öyrənməyi bir həyat şəkli olaraq görməyi bacarır;
- özünü öyrənməyə hazırlamağı bacarır;
- öyrənmə sürətini artıra bilməyi planlaşdırır;
- bildiklərini asan şəkildə tətbiq etməyi bacarır;
- faydalı çalışa bilmək metodlarını seçə bilir;
- imtahan qorxusunun öhdəsindən gələ bilir və s.

Təhsilin informasiyalaşdırılması şəraitində özünütəhsilin məqsədi, vəzifə və yollarını bilməyin tələbələr üçün çox böyük əhəmiyyəti vardır.

Əvvəlcə təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsilinin məqsədinin nələrdən ibarət olduğuna diqqət yetirək. Bunlar əsasən aşağıdakı istiqamətləri əhatə edir:

1. Tələbələrin şəxsi ehtiyaclarını, fərdi tələbatlarını qarşılamaq.
2. Fəaliyyəti artırmaq.
3. Hər bir şəraitə uyğunlaşa bilmək.
4. Qeyri müəyyənliyi dəf etmək, qərar qəbul edə bilmək.
5. Rəqabət hissini formalaşdırmaq.
6. Məsuliyyəti dərk etmək.
7. Potensialdan bütünlüklə istifadə edə bilmək.

Təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsilinin vəzifələrinə isə aşağıdakılar daxildir:

- ali təhsil müəssisəsində tətbiq olunan elektron təhsil bilvasitə tələbələrin özünütəhsilinin inkişaf etdirilməsinə yönəlməsi;
- vahid təhsil-informasiya sisteminin yaradılması və bu sistemin bütün pillələrdə təhsil və informasiya sistemlərini, həmçinin təhsilin idarəetmə, elmi-tədqiqat, metodik-tədris və texnoloji mərkəzlərini birləşdirməsi;
- informasiya texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi məqsədilə elektron dərsliklərin hazırlanması;

- İKT-yə əsaslanan təhsilin tələbələrin təfəkkür fəaliyyətlərinin daha çox müstəqil axtarıcılıq istiqamətində dəyişdirməsi;
- təhsilin keyfiyyətinin artırılmasını təmin etmək üçün tədris məqsədli informasiya texnologiyaları vasitələrinin standartlaşdırılması;
- ali təhsil müəssisələrində ən yeni texnologiyalardan istifadə etmək bacarığını aşılaması, tədris prosesinin bütün iştirakçıları üçün İKT bacarıqlarına yiyələnmək imkanının təmin edilməsi üzrə pedaqoji və İKT kadrlarının hazırlanması sisteminin yaradılması;
- tələbələrin özlərini təkmilləşdirməsi və müstəqil biliklər əldə etmələri üçün stimul verməsi;
- ali təhsil müəssisələrinin İKT avadanlığı və intenetlə təmin olunması;
- təhsilin informasiyalaşdırılması prosesində yeni informasiya texnologiyalarına əsaslanan müasir təlim üsullarının hazırlanması;
- İKT-yə əsaslanan təhsilin tələbələrə nəyi, necə və hansı şəraitdə öyrənə bilmək bacarığının aşılamasına nail olunması;
- təhsil sahəsində dövlət səviyyəsində vahid informasiya infrastrukturunun yaradılması.

Dos. İ.B.Əhmədov "təhsilin informatlaşması" qarşısında duran konkret vəzifələri aşağıdakı kimi təyin etmişdir:

1. Müasir İnformasiya Cəmiyyəti və qloballaşma şəraitində təhsilin inkişafının elmi-pedaqoji, metodik, hüquqi-normativ, texniki-texnoloji imkanlarını müəyyən etmək.
2. İnformasiya Cəmiyyəti şəraitində təhsilin məzmununun seçilməsi, tələbələrin (şagirdlərin) inkişaf məqsədlərinə müvafiq olaraq təlim-tərbiyənin metod və təşkilati formalarının yaradılması, bu prosesin metodoloji bazasının hazırlanması.
3. Təhsilin müxtəlif pillələrində, təlimin müxtəlif forma və metodlarının tətbiqi prosesində İKT-dən istifadə texnologiyalarının yaradılması, inkişafı, innovativ təhsil modellərinin yaradılmasının nəzəri əsaslandırılması.
4. Tələbələrin intellektual potensialının inkişafı, biliklərin müstəqil qazanılması. İnformasiya prosesləri üçün zəruri fərdi bacarıqların formalaşması, bu məqsədlə təlim-metodik sistemlərin yaradılması.
5. İKT vasitələrinin tətbiqinə yönəlik pedaqoji proqram vasitələrinin pedaqoji-erqonomik qiymətləndirilməsi.
6. Təhsil təyinatlı elektron vasitələrin (təqdimat, nümayiş və s.) hazırlanması və s. [4, 9].

Təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsilinin qarşısında duran məqsədlərə müvafiq olaraq hədəfləri aşağıdakı kimi qiymətləndirmək olar:

| **Təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsili qarşısında duran məqsədlər** | **Təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsilinin qarşısında duran hədəflər** |
|---|---|
| Hər kəs üçün yeni bacarıqlar | Hər kəsin öyrənilməsinə şərait yaratmaq |
| İnsan kapitalına sərmayə | Öyrənməyə qoyulan maddi dəstəyin artırılması |
| Öyrətmə və öyrənmədə yenilik | Həyat boyu öyrətmək və öyrənmək üçün metodları müəyyən etmək |
| Öyrənməyə dəyər vermək | Öyrənmə fürsətlərinin artırılması |
| Öyrənməni evə daha yaxın vəziyyətə gətirmək | İKT-dən istifadə edərək həyat boyu öyrənmə fürsətlərinin tələbələrə əlçatan vəziyyətə gətirmək |

Məlum olduğu kimi, ali pedaqoji təhsil müəssisələrinin bütün fakültələrində İKT fənni tədris olunur. Fənnin əsas məqsədi təhsildə informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi üzrə mütəxəssis səriştəliliyinin əsasını təşkil edən bilik və bacarıq sistemi formalaşdırmaq, gələcək müəllimləri öz peşə fəaliyyətlərində İKT-dən istifadəyə hazırlamaqdır. Bu məqsədin reallaşdırılması üçün bir sıra vəzifələrin həyata keçirilməsi tələb olunur ki, bunlar da əsasən aşağıdakılardan ibarətdir:

- təhsil məqsədlərinə müvafiq olaraq İKT-nin tətbiqinin didaktik, psixoloji-pedaqoji və metodik əsaslarının qarşılıqlı əlaqəsini açmaq;
- təhsildə müasir İKT vasitələrinin tətbiqi üzrə tələbələrdə səriştəlilik formalaşdırmaq, təhsil sistemində çalışan mütəxəssisin (pedaqoqun) peşə fəaliyyətində İKT vasitələrindən istifadə və tətbiq imkanları barədə tələbələrə məlumat vermək;
- dərs və dərsdənkənar məşğələlərin təşkilində İKT vasitələrindən istifadənin müasir üsul və metodları ilə tələbələri tanış etmək [4, 9].

Bütün bunlar eyni zamanda tələbələrin özünütəhsilinə geniş yol açır. Bu baxımdan təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsilinin şərtlərinin aşağıdakılardan ibarət olduğunu göstərmək olar:

1. Düzgün çalışmağın ən vacib şərti şəxsin sağlamlığının yerində olması, beynin öyrənməyə hazır olmasıdır. Daxili rahatsızlıqlar, fiziki və zehni yorğunluq öyrənməyə mane olmaqdadır.
2. Öyrənməyə qarşı istəyin olması və dərs çalışma motivasiyasının olması da vacib amillər arasındadır.
3. Öyrənmədə ən vacib strategiya təkrara yer verməkdir. Əldə edilən məlumatı uzun müddət yaddaşda saxlamaq və daha sonra istifadə etmək, xatırlanmasını asanlaşdırmaq üçün müntəzəm olaraq təkrar edilməsi vacibdir.
4. Çalışmaq qədər dincəlmək, ara vermək də öyrənmək üzərində təsirlidir. Uzun müddət çalışmaq yerinə daha faydalı bir çalışma sistemi uğur əldə etmə şansını artırır.
5. İKT-ni istifadə edə bilmək bacarığına malik olmaq lazımdır.
6. Tələbə öyrənmənin məqsədini və əhəmiyyətini müəyyən etməli, öyrənmək, dərsə hazırlaşmaq istəyinin gəlməsini gözləməməli, öyrənmə motivasiyasını, diqqətini artırmalıdır.
7. Dərslərdə verilən məlumatları bir gecədə öyrənmək qeyri-mümkündür. Bu baxımdan tələbə mövzuları parçalara bölərək öyrənməlidir.
8. İnternetdə hər hansı məlumatı axtararkən vaxta qənaət edərək açar sözləri düzgün seçməlidir. Tələbə bilməlidir ki, axtardığı mövzunu iki dırnaq işarəsi arasında yazdığı zaman daha dolğun, geniş məlumat əldə edə bilər.
9. Tələbə daha yaxşı öyrənə bilmək mühitini müəyyən etməlidir: qrup yoldaşları ilə birlikdə, ya da tək başına kitabxanada, otaqda, sakit bir yerdə və s. Ancaq çalışarkən diqqəti yayındıran əşyaları da ortadan qaldırmaq lazımdır.
10. Öyrənərkən qeydlər aparmaq vacibdir. Xatırladıcı sözlər, rəngli kağız və qələm kimi vasitələrdən istifadə etmək öyrənilən məlumatları daha tez xatırlamağa kömək edir.
11. Tələbə mövzunu öyrənmək üçün özü üçün səbəblər tapmalıdır.
12. Mövzu çətindən asana doğru öyrənilməlidir.
13. Öyrənməyə başlamadan əvvəl tələbə özünə inanmalıdır və s.

Bütün təhsil müəssisələrində özünütəhsil fəaliyyətinə hazırlığın yüksək metodiki səviyyəsinin təmin edilməsi təlim-tədris prosesində çox mühüm məsələdir. Lakin təəssüf ki, hazırda tədris planında və pedaqoji-psixoloji fənlərin proqramlarında bu problemlə bağ-

lı nəinki giriş kursları, hətta ilkin məlumatların verilməsi belə nəzərdə tutulmamışdır. Halbuki əvvəllər istifadə olunan təcrübə - birinci kurslarda tədris edilən "Müəllimlik ixtisasına giriş" fənni tələbələrə özünütəhsillə bağlı ilkin məlumatlar vermək baxımından çox olmasa da müəyyən imkanlar verirdi. Bu kursun tədrisi hazırda bəzi fakültələrdə (məsələn, ADPU-nun ibtidai təhsil fakültəsində) bərpa olunsa da, bütün fakültələri əhatə etmir. Buna görə də onun bütün fakültələrdə tədrisi yaxşı olardı.

Apardığımız tədqiqat işi sübut edir ki, ali məktəbdə tələbələrin özünütəhsil fəaliyyətinə hazırlığının formalaşdırılmasının məqsədi, vəzifələri və yolları çox zəngin və müxtəlifdir. Fənlər üzrə mühazirə, seminar, praktik və laborator məşğələlər, kurs və diplom işləri, pedaqoji təcrübə, tələbə-elmi tədqiqat işləri, auditoriyadan kənar məşğələlər, ixtisasartırma kursları, pedaqoji-psixoloji dərnəklər, təhsilin informasiyalaşdırılması, İKT vasitələri belə məqsəd, vəzifə və yollara daxildir. Bu imkanlardan hərtərəfli istifadə olunması tələbələrin təhsil keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Media D. The treasure within: Learning to know, learning to do, learning to live together and learning to be. 20 March 2013
2. Həşimova A.Ş. Tələbə gənclərin özünütəhsil hazırlığının sistemi. Bakı: 2005
3. Toker M.M. Aktif öğrenme. Mevzuat dergisi. Sayı: 61. İstanbul: 2003
https://www.basarmevzuat.com/dergi/2003-01/a/03.htm
